Azərbaycan Respublikasının
Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Şurası

# HAKİMİN STOLÜSTÜ KİTABI

Bakı - 2009

**Hakimin Stolüstü Kitabı.**

Bakı, 2009-cu il, 587 səh.

Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının yaxından köməkliyi ilə Azərbaycan Hüquqşünasları Konfederasiyası tərəfindən hazırlanan «Hakimin stolüstü kitabı» Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının ayırdığı qrant vəsaiti hesabına nəşr olunur.

Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasına və Məhkəmə-Hüquq Şurasına nəşrə verdikləri dəstəyə görə minnətdarlığımızı bildiririk.

**İSBN 9952-8086-4-X**

Vəsait hakimlər, hakimliyə namizədlər və geniş hüquq ictimaiyyəti üçün nəzərdə tutulmuşdur.

ISBN 9952-8086-4-X

9 789952 808643

**Toplu 1000 tirajla nəşr olunaraq pulsuz yayılır.**

© Azərbaycan Hüquqşünasları Konfederasiyası

# HAKİMİN
# STOLÜSTÜ KİTABI

## QANUNLAR,

## FƏRMANLAR,

## SƏRƏNCAMLAR,

## QƏRARLAR,

## QAYDALAR,

## BEYNƏLXALQ SƏNƏDLƏR



*Biz Azərbaycanın məhkəmə sistemini müasir səviyyəyə qaldırdıq və demokratik prinsiplər əsasında yaratdıq.*

***Heydər Əliyev***
***Azərbaycanın Ümummilli Lideri***



*Heç bir cinayət cəzasız qalmamalıdır, ancaq günahsız insanlar da cəzalandırılmamalıdır. Ona görə hakimlərin üzərinə çox böyük və şərəfli missiya düşür.*

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

# ÖN SÖZ

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ədalət mühakiməsinin səmərəliliyinin artırılması barədə tapşırıqlarının icrası üzrə həyata keçirilən kompleks tədbirlər çərçivəsində məhkəmə fəaliyyətini tənzimləyən qanunvericilik bazası daha da təkmilləşdirilərək Avropa standartalarına tam uyğunlaşdırılmışdır.

Yeni məhkəmələr, o cümlədən regional apellyasiya məhkəmələri yaradılmış, hakimlərin iş yükünün azaldılması məqsədilə hakim ştatlarının sayı 50 faiz artırılmış, hakim korpusunun fəaliyyəti prinsipial qiymətləndirilərək, vətəndaşların haqlı narazılığına səbəb olan qanun pozuntuları və neqativ hallara yol verən hakimlər məhkəmə sistemindən kənarlaşdırılmış, hakimliyə namizədlərin seçilməsinin yeni, Avropada ən mütərəqqi qaydaları müəyyən edilmiş və 160-dək yüksək hazırlıqlı hüquqşünas seçilib hakim vəzifələrinə təyin edilmişdir.

Həmçinin, məhkəmə infrastrukturunun müasirləşdirilməsi üzrə xeyli işlər görülmüş, Dünya Bankı ilə həyata keçirilən «Ədliyyə sisteminin müasirləşdirilməsi» layihəsi çərçivəsində bir çox yeni məhkəmə binasının inşası, yenidən qurulması və əsaslı təmiri nəzərdə tutulmuş, müasir tələblərə cavab verən iş prosesinin təşkili ilə yanaşı, vətəndaşların müraciət imkanlarının asanlaşdırılmasına, yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə xüsusi diqqət yetirilmişdir.

Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə qısa müddət ərzində görülmüş tədbirlər ədalət mühakiməsinin səmərəliliyinə əsaslı təsir göstərmiş, cəmiyyətdə məhkəmələrə inamı yüksəltmiş, pozulmuş hüquqların müdafiəsi üçün məhz məhkəmələrə müraciət edənlərin sayı dəfələrlə çoxalmışdır.

Məhkəmə hakimiyyətinin müstəqil və nüfuzlu təsisat kimi təşəkkül tapması və əsl ədalət ünvanına çevrilməsi hakimlərin yüksək bilik və peşə hazırlığından çox dərəcədə asılıdır. Bununla əlaqədar, hakimlərin tədrisinə xüsusi diqqət yetirilərək, bu iş beynəlxalq tələblərə uyğun yenidən qurulmuş və onların zəruri metodiki vəsaitlərlə təminatı yaxşılaşdırılmışdır.

Azərbaycan Hüquqşünasları Konfederasiyası tərəfindən hakimlər üçün dəyərli metodiki vəsaitlərin hazırlanması xüsusi qeyd olunmalıdır. Hesab edirəm ki, Konfederasiya tərəfindən hazırlanmış növbəti vəsaitin - «Hakimin stolüstü kitabı»nın nəşri hakimlərin fəaliyyətinə dəyərli töhfə olacaqdır.

**Fikrət Məmmədov**
*Azərbaycan Respublikasının ədliyyə naziri,*
*Məhkəmə-Hüquq Şurasının sədri*

# AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINDAN ÇIXARIŞ

## 7-ci FƏSİL
## MƏHKƏMƏ HAKİMİYYƏTİ

**Maddə 125.**
**Məhkəmə hakimiyyətinin həyata keçirilməsi**

I. Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər.

II. Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının apellyasiya məhkəmələri, Azərbaycan Respublikasının ümumi məhkəmələri və digər ixtisaslaşdırılmış məhkəmələri həyata keçirirlər.

III. Məhkəmə hakimiyyəti Konstitusiya, mülki və cinayət məhkəmə icraatı vasitəsilə və qanunla nəzərdə tutulmuş digər vasitələrlə həyata keçirilir.

IV. Cinayət məhkəmə icraatında Azərbaycan Respublikasının Prokurorluğu və müdafiə tərəfi iştirak edir.

V. Məhkəmə quruluşu və məhkəmə icraatı qaydası qanunla müəyyən olunur.

VI. Məhkəmələrin səlahiyyətlərinin dəyişdirilməsi məqsədilə müəyyən olunmamış hüquqi üsulların tətbiq edilməsi və fövqəladə məhkəmələrin yaradılması qadağandır.

VII. Məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir.

**Maddə 126.**
**Hakimliyə namizədlərə aid tələblər**

I. Yaşı 30-dan aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik olan, ali hüquq təhsilli və hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərbaycan Respublikası vətəndaşları hakim ola bilərlər.

II. Hakimlər heç bir başqa seçkili və təyinatlı vəzifə tuta bilməzlər, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməzlər, siyasi fəaliyyətlə məşğul ola bilməz və siyasi partiyalara üzv ola bilməzlər, vəzifə maaşından, habelə elmi, pedaqoji və yaradıcılıq fəaliyyətinə görə aldığı vəsaitdən başqa məvacib ala bilməzlər.

**Maddə 127.**
**Hakimlərin müstəqilliyi, ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri**

I. Hakimlər müstəqildir, yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər və səlahiyyətləri müddətində dəyişilməzdirlər.

II. Hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar.

III. Hər hansı bir şəxs tərəfindən və hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhkəmə icraatına məhdudiyyət qoyulması, qanuna zidd təsir, hədə və müdaxilə edilməsi yolverilməzdir.

IV. Ədalət mühakiməsi vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilir.

V. Bütün məhkəmələrdə işlərin icraatı açıq aparılır.

İşə qapalı iclasda baxılmasına yalnız o halda icazə verilir ki, məhkəmə açıq icraatın dövlət, peşə və kommersiya sirrinin açılmasına səbəb olacağını güman edir, ya da vətəndaşların şəxsi və ya ailə həyatının məxfiliyini qorumaq zərurətinin mövcudluğunu müəyyən edir.

VI. Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, cinayət işlərinin qiyabi məhkəmə icraatına yol verilmir.

VII. Məhkəmə icraatı çəkişmə prinsipi əsasında həyata keçirilir.

VIII. Məhkəmə icraatının istənilən mərhələsində hər kəsin müdafiə hüququ təmin olunur.

IX. Ədalət mühakiməsi təqsirsizlik prezumpsiyasına əsaslanır.

X. Azərbaycan Respublikasında məhkəmə icraatı Azərbaycan Respublikasının dövlət dilində və ya müvafiq yerin əhalisinin çoxluq təşkil edən hissəsinin dilində aparılır. İşin iştirakçısı olub məhkəmə icraatının aparıldığı dili bilməyən şəxslərin işin materialları ilə tam tanış olmaq, məhkəmədə tərcüməçi vasitəsi ilə iştirak etmək və məhkəmədə ana dilində çıxış etmək hüququ təmin edilir.

**Maddə 128.**
**Hakimlərin toxunulmazlığı**

I. Hakimlər toxunulmazdırlar.

II. Hakim cinayət məsuliyyətinə yalnız qanunda nəzərdə tutulan qaydada cəlb oluna bilər.

III. Hakimlərin səlahiyyətlərinə yalnız qanunda nəzərdə tutulmuş əsaslara və qaydalara müvafiq surətdə xitam verilə bilər.

IV. Hakimlərin vəzifədən kənarlaşdırılması təşəbbüsünü hakimlər cinayət törətdikdə Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Ali Məhkəməsinin rəyi əsasında Azərbaycan Respublikasının Milli Məclisi qarşısında irəli sürə bilər. Müvafiq rəyi Azərbaycan Respublikasının Ali Məhkəməsi Azərbaycan Respublikası Prezidentinin sorğusundan sonra 30 gün müddətində təqdim etməlidir.

V. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikası Ali Məhkəməsi və Azərbaycan Respublikası apellyasiya məhkəmələri hakimlərinin işdən kənarlaşdırılması haqqında qərar Azərbaycan Respublikasının Milli Məclisində 83 səs çoxluğu ilə qəbul edilir; başqa hakimlərin işdən kənarlaşdırılması haqqında qərar Azərbaycan Respublikasının Milli Məclisində 63 səs çoxluğu ilə qəbul edilir.

### Maddə 129.
### Məhkəmə qərarları və onların icrası

I. Məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburidir.

II. Məhkəmə qərarının icra olunmaması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

III. Məhkəmə qərarı qanuna və sübutlara əsaslanmalıdır.

### Maddə 130.
### Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi

I. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi

9 hakimdən ibarətdir.

II. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimlərini Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təyin edir.

III. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Prokurorluğunun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sorğusu əsasında aşağıdakı məsələləri həll edir:

1) Azərbaycan Respublikası qanunlarının, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Azərbaycan Respublikası Milli Məclisinin qərarlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu;

2) Azərbaycan Respublikası Prezidentinin fərmanlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Azərbaycan Respublikası qanunlarına uyğunluğu;

3) Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Azərbaycan Respublikası Prezidentinin fərmanlarına uyğunluğu;

4) Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarlarının qanunda nəzərdə tutulmuş hallarda Azərbaycan Res-

publikası Konstitusiyasına və qanunlarına uyğunluğu;

5) bələdiyyə aktlarının Azərbaycan Respublikası Konstitusiyasına, Azərbaycan Respublikası qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan Muxtar Respublikasında həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına) uyğunluğu;

6) Azərbaycan Respublikasının qüvvəyə minməmiş dövlətlərarası müqavilələrinin Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu; Azərbaycan Respublikasının hökumətlərarası müqavilələrinin Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğunluğu;

7) Naxçıvan Muxtar Respublikası Konstitusiyasının, qanunlarının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarlarının və Nazirlər Kabinetinin qərarlarının Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu; Naxçıvan Muxtar Respublikası qanunlarının, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarının, Azərbaycan Respublikası qanunlarına uyğunluğu; Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarının Azərbaycan Respublikası Prezidentinin fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına uyğunluğu;

8) qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələr.

IV. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Nazir-

lər Kabinetinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Prokurorluğunun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sorğusu əsasında Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarını şərh edir.

V. Hər kəs onun hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarından, bələdiyyə və məhkəmə aktlarından qanunla müəyyən edilmiş qaydada bu maddənin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən həll edilməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədi ilə şikayət verə bilər.

VI. Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş qaydada məhkəmələr insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət edə bilərlər.

VII. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili insan hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarından, bələdiyyə və məhkəmə aktlarından qanunla müəyyən edilmiş qaydada bu maddənin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən həll edilməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu verə bilər.

VIII. Azərbaycan Respublikasının Konstitusiya Məhkə-

məsi bu Konstitusiyada nəzərdə tutulmuş digər səlahiyyətləri də həyata keçirir.

IX. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi öz səlahiyyətlərinə aid edilən məsələlərə dair qərarlar qəbul edir. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı Azərbaycan Respublikası ərazisində məcburi qüvvəyə malikdir. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları dərc edilməlidir.

X. Qanunlar və digər aktlar, yaxud onların ayrı-ayrı müddəaları, Azərbaycan Respublikasının hökumətlərarası müqavilələri Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarında müəyyən edilmiş müddətdə qüvvədən düşür; Azərbaycan Respublikasının dövlətlərarası müqavilələri qüvvəyə minmir.

**Maddə 131.**
**Azərbaycan Respublikasının Ali Məhkəməsi**

I. Azərbaycan Respublikasının Ali Məhkəməsi ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır; o, kassasiya qaydasında ədalət mühakiməsini həyata keçirir; məhkəmələrin praktikasına aid məsələlər üzrə izahatlar verir.

II. Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimlərini Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təyin edir.

III. Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarları dərc edilməlidir.

**Maddə 132.**

**Azərbaycan Respublikasının apellyasiya məhkəmələri**

I. Azərbaycan Respublikasının apellyasiya məhkəmələri qanunla onların səlahiyyətlərinə aid edilmiş işlər üzrə yuxarı instansiya məhkəmələridir.

II. Azərbaycan Resrublikasının apellyasiya məhkəmələrinin hakimlərini Azərbaycan Respublikası prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təyin edir.

**Maddə 133.**

**Azərbaycan Respublikasının Prokurorluğu**

I. Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir; qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır; məhkəmədə dövlət ittihamını müdafiə edir; məhkəmədə iddia qaldırır; məhkəmə qərarlarından protest verir.

II. Azərbaycan Respublikasının Prokurorluğu ərazi və ixtisaslaşdırılmış prokurorların Azərbaycan Respublikası Baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır.

III. Azərbaycan Respublikasının Baş prokurorunu Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə vəzifəyə təyin və vəzifədən azad edir.

IV. Azərbaycan Respublikası Baş prokurorunun müavinlərini, respublika ixtisaslaşdırılmış prokurorluqlara rəhbər-

lik edən prokurorları, Naxçıvan Muxtar Respublikasının Prokurorunu Azərbaycan Respublikası Baş prokurorunun təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

V. Ərazi və ixtisaslaşdırılmış prokurorları Azərbaycan Respublikası Prezidentinin razılığı ilə Azərbaycan Respublikasının Baş prokuroru vəzifəyə təyin və vəzifədən azad edir.

# MƏHKƏMƏLƏR VƏ HAKİMLƏR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ

# QANUNU

*Bu Qanun Azərbaycan Respublikasında ədalət mühakiməsinin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş müstəqil məhkəmə hakimiyyəti yaratmağa yönəlmişdir.*

## Birinci bölmə.

## Məhkəmələr

## I FƏSİL

## Məhkəmə hakimiyyəti

**Maddə 1.**
**Azərbaycan Respublikasında məhkəmələrin təsis olunması**

Azərbaycan Respublikasında Azərbaycan Respublikasının qanunları ilə təsis edilmiş Azərbaycan Respublikası məhkəmələri fəaliyyət göstərirlər. Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VI hissəsinə uyğun olaraq məhkəmələrin səlahiyyətlərinin dəyişdirilməsi məq-

sədilə müəyyən olunmamış hüquqi üsulların tətbiq edilməsi və fövqəladə məhkəmələrin, eləcə də xarici dövlətlərin, yaxud bu qanunla nəzərdə tutulmayan qaydada məhkəmələrin yaradılması qadağandır.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin (bundan sonra - Konstitusiya Məhkəməsi) fəaliyyəti və hakimlərinin statusu «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikasının qanunu ilə müəyyən olunur.

**Maddə 2.**
**Məhkəmələr və hakimlər haqqında qanunvericilik**

Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

**Maddə 3.**
**Məhkəmələrin vəzifələri**

Azərbaycan Respublikası məhkəmələrinin fəaliyyəti yalnız ədalət mühakiməsinin və qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada məhkəmə nəzarətinin həyata keçirilməsinə yönəldilmişdir.

Məhkəmələr ədalət mühakiməsini həyata keçirərkən Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını, mülkiyyət formasından asıla olmayaraq bütün müəssisə, idarə və təşkilatların, siyasi partiyaların, ictimai birliklərin, digər hüquqi şəxslərin hüquqlarını və qanuni mənafelərini hər cür qəsdlərdən və qanun pozuntularından müdafiə edir,

Azərbaycan Respublikasının Konstitusiyasında və bu qanunda nəzərdə tutulmuş digər vəzifələri həyata keçirirlər.

Məhkəmələrin üzərinə başqa vəzifələr qoyulması yolverilməzdir.

**Maddə 4.**

**Məhkəmələrdə işlərə baxılması**

Məhkəmələrdə işlərə birinci instansiya, apellyasiya və kassasiya instansiyaları üzrə baxılır.

Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş hallarda və qaydada Azərbaycan Respublikası məhkəmələrində işlərə kollegial və hakim tərəfindən təkbaşına: birinci instansiya məhkəməsində işlərə təkbaşına və ya üç hakimdən ibarət tərkibdə, yaxud andlı iclasçılardan ibarət tərkibdə, appelyasiya və kassasiya instansiyası məhkəməsində üç və ya daha çox hakimdən ibarət tərkibdə baxılır.

Məhkəmələr işlərə baxarkən Azərbaycan Respublikasının Konstitusiyasını, qanunlarını və digər qanunvericilik aktlarını, eləcə də Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri rəhbər tuturlar.

Məhkəmələrdə işlərə baxılarkən məhkəmə iclasının protokolu aparılır. Məhkəmə iclasının gedişini və məhkəmə istintaqı zamanı aparılan prosessual hərəkətləri qeyd etmək üçün texniki vasitələrdən istifadə edilə bilər.

**Maddə 5.**

**Məhkəmələrin qərarları**

Məhkəmələr baxılmış işlər üzrə Azərbaycan Respubli-

kası adından qətnamələr, hökmlər, qərardadlar və qərarlar (bundan sonra - qərarlar) çıxarırlar.

Kassasiya və apellyasiya instansiyası məhkəmələrinin bütün qərarları qəbul olunduğu gündən bir aydan gec olmayaraq, dərc edilir və elektron daşıyıcılarda yayılır. Bu qərarlarla birlikdə aşağı instansiya məhkəmələrinin ləğv edilmiş və ya dəyişdirilmiş qərarları da dərc edilməlidir. Birinci instansiya məhkəmələrinin qanuni qüvvəyə minmiş qərarları qanunvericiliklə müəyyən edilmiş üsullarla açıqlanır.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qanuni qüvvəyə minmiş bu qərarlar Azərbaycan Respublikası ərazisində bütün fiziki və hüquqi şəxslər tərəfindən mütləq, vaxtında və dəqiq icra olunmalıdır.

Qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının icra edilməməsi Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

**Maddə 6.**
**Məhkəmə hakimiyyətinin rəmzləri**

Azərbaycan Respublikasında məhkəmə hakimiyyətinin rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağından, Dövlət gerbindən və ədalət mühakiməsinin rəsmi emblemlərindən ibarətdir.

Azərbaycan Respublikası məhkəmələrinin bütün hakimləri məhkəmə iclaslarını xüsusi geyimdə aparırlar.

Ədalət mühakiməsinin rəsmi emblemlərinin və hakimlərin xüsusi geyim formasının təsviri Azərbaycan Respublikası

Konstitusiyasının 94-cü maddəsinin 5-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilir.

## II FƏSİL

## Ədalət mühakiməsinin həyata keçirilməsinə dair əsas müddəalar

**Maddə 7.**

**Hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi**

Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasında ədalət mühakiməsi irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər bir şəxsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi əsasında həyata keçirilir.

**Maddə 8.**

**Ədalət mühakiməsinin hakimlərin müstəqilliyi təmin edilməklə, heç bir məhdudiyyət qoyulmadan, faktlara əsasən, qərəzsiz, ədalətlə və qanunlara müvafiq həyata keçirilməsi**

Ədalət mühakiməsi hakimlərin müstəqilliyi təmin

edilməklə, heç bir məhdudiyyət qoyulmadan, faktlara əsasən, qərəzsiz, ədalətlə və qanunlara müvafiq həyata keçirilir.

**Maddə 9.**

**Məhkəmə icraatına müdaxilənin və məhkəməyə hörmətsizlik göstərilməsinin yolverilməzliyi**

Hər hansı bir şəxs tərəfindən, hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhkəmə icraatına məhdudiyyət qoyulması, təsir, hədə və müdaxilə edilməsi, habelə məhkəməyə hörmətsizlik göstərilməsi, yaxud aşkar etinasızlıq göstərildiyini bildirən hərəkətlər edilməsi yolverilməzdir və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə məsuliyyətə səbəb olur.

**Maddə 10.**

**Müdafiə hüquqlarının təmin edilməsi**

Azərbaycan Respublikası vətəndaşlarının, onun ərazisində yaşayan xarici vətəndaşların, habelə vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının Konstitusiyasında və digər qanunlarda nəzərdə tutulmuş hüquq və azadlıqlarının, hüquqi şəxslərin qanuni mənafelərinin hər cür qəsdlərdən və qanun pozuntularından məhkəmə icraatının istənilən mərhələsində məhkəmə müdafiəsi hüququ təmin olunur. Heç kəs məhkəmə müdafiəsi hüququndan məhrum edilə bilməz.

Şübhə edilən, təqsirləndirilən şəxsin Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş vasitələrlə müdafiə hüququna, o cümlədən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququna təminat verilir.

Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsinin II hissəsinə uyğun olaraq qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir.

**Maddə 11.**
**Təqsirsizlik prezumpsiyasının təmin edilməsi**

Ədalət mühakiməsi həyata keçirilərkən Azərbaycan Respublikası Konstitusiyasının 63-cü maddəsində nəzərdə tutulmuş təqsirsizlik prezumpsiyası prinsipinə riayət olunması təmin edilir.

**Maddə 12.**
**Məhkəmə icraatının açıq aparılması**

Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinin V hissəsinə əsasən işlərə məhkəmənin qapalı iclaslarında baxılması halları istisna olmaqla, bütün məhkəmələrdə işlərin icraatı açıq aparılır.

Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, cinayət işlərinin qiyabi məhkəmə icraatına yol verilmir.

Bütün hallarda məhkəmələrin qərarları açıq elan edilir.

**Maddə 13.**
**Məhkəmə icraatının çəkişmə prinsipi əsasında həyata keçirilməsi**

Azərbaycan Respublikasında məhkəmə icraatı tərəflərin hüquq bərabərliyi təmin olunmaqla Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinin VII hissəsinə uyğun olaraq çəkişmə prinsipi əsasında həyata keçirilir.

**Maddə 14.**

**Məhkəmə icraatının aparıldığı dil**

Məhkəmə icraatının aparıldığı dil Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinin X hissəsində müəyyən edilir. Məhkəmə icraatının aparıldığı dili bilməyən şəxslərin hüquqlarının hər hansı şəkildə məhdudlaşdırılması yolverilməzdir.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda hər kəsin tərcüməçinin xidmətlərindən pulsuz istifadə etmək hüququ təmin edilir.

**Maddə 15.**

**Məhkəmə aidiyyətinə riayət edilməsi**

İşlərin Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş məhkəmə aidiyyətinin dəyişdirilməsi və ya əsassız olaraq qanuni hakimin icraatından alınması qadağandır.

**Maddə 16.**

**Hakimin məhkəmə baxışında iştirakının məhdudlaşdırılması**

Birinci instansiya, appelyasiya və ya kassasiya instansiyası məhkəməsində işə baxılmasında iştirak etmiş hakimin həmin işə təkrar məhkəmə baxışında iştirakı yolverilməzdir.

Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş hallarda hakimlərin qərəzsizliyinə şübhə doğuran hallar yarandıqda hakim həmin işə baxılmasından çəkinməli, yaxud kənarlaşdırılmalıdır.

**Maddə 17.**

**Məhkəmə icraatında qeyri-prosessual münasibətlərin yolverilməzliyi**

Məhkəmə tərkibi ilə məhkəmə iştirakçıları arasında, yaxud işlərə baxılması ilə əlaqədar birinci instansiya, appelyasiya və kassasiya instansiyası məhkəmələri arasında qanunda nəzərdə tutulmamış qeyri-prosessual münasibətlər yolverilməzdir.

**Maddə 18.**

**Ədalət mühakiməsinin həyata keçirilməsinin zəruri şərtləri**

Azərbaycan Respublikasının məhkəmələri ədalət mühakiməsinin məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun olan, bütün prosessual tələblərin yerinə yetirilməsinə imkan verən, hakimlərin öz iradəsini ifadə etmək azadlığına təsiri istisna edən şəraitdə həyata keçirirlər.

Ədalət mühakiməsinin həyata keçirilməsinə dair müddəaların pozulması qanunda nəzərdə tutulmuş hüquqi nəticələrə səbəb olur.

# III FƏSİL

## Azərbaycan Respublikasının məhkəmə sistemi

**Maddə 19.**

**Ədalət mühakiməsini həyata keçirən məhkəmələr**

Azərbaycan Respublikasında ədalət mühakiməsini Azər-

baycan Respublikasının məhkəmə sisteminə daxil olan aşağıdakı məhkəmələr həyata keçirirlər:

- rayon (şəhər) məhkəmələri;
- Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikasının məhkəməsi (bundan sonra-Ağır cinayətlərə dair işlər üzrə məhkəmə);
- Ağır cinayətlərə dair işlər üzrə Naxçıvan Muxtar Respublikasının məhkəməsi;
- hərbi məhkəmələr;
- Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikasının hərbi məhkəməsi (bundan sonra-Ağır cinayətlərə dair işlər üzrə hərbi məhkəmə);
- yerli iqtisad məhkəmələri;
- Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi;
- apellyasiya məhkəmələri;
- Azərbaycan Respublikasının Ali Məhkəməsi (bundan sonra-Ali Məhkəmə).

Azərbaycan Respublikasının məhkəmə sistemi daxilində qanunla müəyyən edilmiş qaydada digər məhkəmələr da yaradıla bilər.

Azərbaycan Respublikasının hər bir məhkəməsi müstəqil hüquqi şəxsdir və onun Azərbaycan Respublikası Dövlət gerbinin təsviri olan möhürü vardır.

IV. Rayon (şəhər) məhkəmələri

**Maddə 20.**

**Rayon (şəhər) məhkəməsi və onun səlahiyyətləri**

Rayon (şəhər) məhkəməsi birinci instansiya məhkəməsi

kimi qanunla səlahiyyətlərinə aid edilmiş mülki, cinayət işlərinə, inzibati xətalara dair və digər işlərə baxır.

Rayon (şəhər) məhkəməsi məhkəmə statistikasını təhlil edir, məhkəmə fəaliyyətinin təşkili vəziyyətini, məhkəmə təcrübəsini öyrənir və ümumiləşdirir, Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 21.**

**Rayon (şəhər) məhkəməsinin təşkili**

Rayon (şəhər) məhkəməsi Azərbaycan Respublikasının rayonlarında, şəhərlərində (rayon tabeli şəhərlərdən başqa), şəhərdəki rayonlarında təşkil edilir və onun yurisdiksiyası Azərbaycan Respublikasının müvafiq rayonuna, şəhərinə və ya şəhərdəki rayonuna şamil edilir .

Rayon (şəhər) məhkəməsinin təşkili və olduğu yer Məhkəmə-Hüquq Şurasının təklifi nəzərə alınmaqla, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq müəyyənləşdirilir.

Bir rayonda (şəhərdə) yalnız bir rayon (şəhər) məhkəməsi təşkil edilə bilər.

**Maddə 22.**

**Rayon (şəhər) məhkəməsinin tərkibi**

Rayon (şəhər) məhkəməsi sədrdən və hakimlərdən ibarətdir. Tərkibində 6 və daha çox hakim olan rayon (şəhər) məhkəməsində sədr müavini vəzifəsi təsis edilir.

Rayon (şəhər) məhkəməsi hakimlərinin sayı Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci

bəndinə uyğun olaraq müəyyənləşdirilir.

**Maddə 23.**
**Rayon (şəhər) məhkəməsi sədrinin səlahiyyətləri**

Rayon (şəhər) məhkəməsinin sədri:

▪ məhkəmədə işin təşkilinə və məhkəmə aparatının işinə rəhbərlik edir, məhkəmədə əmək və icra intizamına əməl olunmasını təmin edir;

▪ məhkəmə iclaslarına sədrlik edir, işlərin həcmini və sayını nəzərə alaraq hakimlər arasında işləri bölüşdürür;

▪ məhkəmə aparatı işlərinin işə qəbul və işdən azad edilməsi, mükafatlandırılması və intizam qaydasında cəzalandırılması məsələlərini həll edir;

▪ Ali Məhkəmənin Plenumunda və müvafiq apellyasiya instansiyası məhkəməsinin Rəyasət Heyətində rayon (şəhər) məhkəməsində ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat verir;

▪ məhkəmə fəaliyyətinin təşkili vəziyyətinin, məhkəmə təcrübəsinin öyrənilməsinə və ümumiləşdirməsinə, məhkəmə statistikasının aparılmasına rəhbərlik edir;

▪ şəxslərin qəbulu, təklif, ərizə və şikayətlərə baxılması sahəsində məhkəmənin işini təşkil edir;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

Rayon (şəhər) məhkəməsinə bir hakim təyin olunmuşsa, o, həmin məhkəmənin sədrinin səlahiyyətlərini həyata keçirir.

# V FƏSİL

## Ağır cinayətlərə dair işlər üzrə məhkəmə

**Maddə 25.**
**Ağır cinayətlərə dair işlər üzrə məhkəmə və onun səlahiyyətləri**

Ağır cinayətlərə dair işlər üzrə məhkəmə birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş cinayət işlərinə baxır.

Ağır cinayətlərə dair işlər üzrə məhkəmə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) məsələsini həll edir, məhkəmə statistikasını təhlil edir, məhkəmə fəaliyyətinin təşkili vəziyyətini, məhkəmə təcrübəsini öyrənir və ümumiləşdirir, Azərbaycan Respublikası qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 26.**
**Ağır cinayətlərə dair işlər üzrə məhkəmənin təşkili**

Ağır cinayətlərə dair işlər üzrə məhkəmə Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində təşkil edilir, onun yurisdiksiyası Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir (Naxçıvan Muxtar Respublikası istisna olmaqla).

**Maddə 27.**
**Ağır cinayətlərə dair işlər üzrə məhkəmənin tərkibi**

Ağır cinayətlərə dair işlər üzrə məhkəmə sədrdən, onun

müavinindən və hakimlərdən ibarətdir.

Qanunla nəzərdə tutulmuş hallarda və qaydada ağır cinayətlərə dair işlərə birinci instansiya üzrə baxılması üçün bu məhkəmənin tərkibində andlılar məhkəməsi yaradıla bilər.

Ağır cinayətlərə dair işlər üzrə məhkəmə hakimlərinin sayı Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq müəyyənləşdirilir.

**Maddə 28.**

**Ağır cinayətlərə dair işlər üzrə məhkəmə sədrinin səlahiyyətləri**

Ağır cinayətlərə dair işlər üzrə məhkəmənin sədri:

▪ məhkəmədə işin təşkilinə və məhkəmə aparatının işinə rəhbərlik edir, məhkəmədə əmək və icra intizamına əməl olunmasını təmin edir;

▪ məhkəmə iclaslarına sədrlik edir, işlərin həcmini və sayını nəzərə alaraq hakimlər arasında işləri bölüşdürür;

▪ məhkəmə aparatı işçilərinin işə qəbul və işdən azad edilməsi, mükafatlandırılması və intizam qaydasında cəzalandırılması məsələlərini həll edir;

▪ Ali Məhkəmənin Plenumunda və müvafiq apellyasiya instansiyası məhkəməsinin Rəyasət Heyətində Ağır cinayətlərə dair işlər üzrə məhkəmədə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat verir;

▪ məhkəmə fəaliyyətinin təşkili vəziyyətinin, məhkəmə təcrübəsinin öyrənilməsinə və ümumiləşdirilməsinə, məhkəmə statistikasının aparılmasına rəhbərlik edir;

▪ şəxslərin qəbulu, təklif, ərizə və şikayətlərə baxılması sahəsində məhkəmənin işini təşkil edir;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 29.**

**Ağır cinayətlərə dair işlər üzrə məhkəmənin sədr müavininin səlahiyyətləri**

Ağır cinayətlərə dair işlər üzrə məhkəmənin sədr müavini:

▪ məhkəmə iclaslarında sədrlik edir, Ağır cinayətlərə dair işlər üzrə məhkəmə sədri tərəfindən müəyyən edilmiş məsələləri həll edir, sədrin tapşırığı ilə onun ayrı-ayrı səlahiyyətlərini həyata keçirir, sədr olmadıqda və ya öz vəzifələrini yerinə yetirə bilmədikdə onu əvəz edir;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

## V-I FƏSİL

## Ağır cinayətlərə dair işlər üzrə Naxçıvan Muxtar Respublikasının məhkəməsi

**Maddə 30-1.**

**Ağır cinayətlərə dair işlər üzrə Naxçıvan Muxtar Respublikasının məhkəməsi və onun səlahiyyətləri**

Ağır cinayətlərə dair işlər üzrə Naxçıvan Muxtar Respublikasının məhkəməsi birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş cinayət işlərinə baxır.

Ağır cinayətlərə dair işlər üzrə Naxçıvan Muxtar Respublikasının məhkəməsi məhkəmə statistikasını təhlil edir, məhkəmə fəaliyyətinin təşkili vəziyyətini, məhkəmə təcrübəsini öyrənir və ümumiləşdirir, Azərbaycan Respublikası qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 30-2.**

**Ağır cinayətlərə dair işlər üzrə Naxçıvan Muxtar Respublikası məhkəməsinin təşkili**

Ağır cinayətlərə dair işlər üzrə Naxçıvan Muxtar Respublikasının məhkəməsi Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərində təşkil edilir, onun yurisdiksiyası Naxçıvan Muxtar Respublikasının bütün ərazisinə şamil edilir.

**Maddə 30-3.**

**Ağır cinayətlərə dair işlər üzrə Naxçıvan Muxtar Respublikası məhkəməsinin tərkibi**

Ağır cinayətlərə dair işlər üzrə Naxçıvan Muxtar Respublikasının məhkəməsi sədrdən və hakimlərdən ibarətdir.

Qanunla nəzərdə tutulmuş hallarda və qaydada ağır cinayətlərə dair işlərə birinci instansiya üzrə baxılması üçün bu məhkəmənin tərkibində andlılar məhkəməsi yaradıla bilər.

Ağır cinayətlərə dair işlər üzrə Naxçıvan Muxtar Respublikası məhkəməsinin hakimlərinin sayı Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq müəyyənləşdirilir.

**Maddə 30-4.**

**Ağır cinayətlərə dair işlər üzrə Naxçıvan Muxtar Respublikası məhkəməsinin sədrinin səlahiyyətləri**

Ağır cinayətlərə dair işlər üzrə Naxçıvan Muxtar Respublikası məhkəməsinin sədri:

▪ məhkəmədə işin təşkilinə və məhkəmə aparatının işinə rəhbərlik edir, məhkəmədə əmək və icra intizamına əməl olunmasını təmin edir;

▪ məhkəmə iclaslarına sədrlik edir, işlərin həcmini və sayını nəzərə alaraq hakimlər arasında işləri bölüşdürür;

▪ məhkəmə aparatı işçilərinin işə qəbul və işdən azad edilməsi, mükafatlandırılması və intizam qaydasında cəzalandırılması məsələlərini həll edir;

▪ Ali Məhkəmənin Plenumunda və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətində Ağır cinayətlərə dair işlər üzrə Naxçıvan Muxtar Respublikasının məhkəməsində ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat verir;

▪ məhkəmə fəaliyyətinin təşkili vəziyyətinin, məhkəmə təcrübəsinin öyrənilməsinə və ümumiləşdirilməsinə, məhkəmə statistikasının aparılmasına rəhbərlik edir;

▪ şəxslərin qəbulu, təklif, ərizə və şikayətlərə baxılması sahəsində məhkəmənin işini təşkil edir;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

# VI FƏSİL

## Hərbi məhkəmələr

**Maddə 31.**
**Hərbi məhkəmə və onun səlahiyyətləri**

Hərbi məhkəmə birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş cinayət işlərinə baxır.

Hərbi məhkəmə məhkəmə statistikasını təhlil edir, məhkəmə fəaliyyətinin təşkili vəziyyətini, məhkəmə təcrübəsini öyrənir və ümumiləşdirir, Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 32.**
**Hərbi məhkəmənin təşkili**

Hərbi məhkəmə Azərbaycan Respublikasının Silahlı Qüvvələri və başqa silahlı birləşmələri hərbi hissələrinin sayı nəzərə alınmaqla onların yerləşdikləri inzibati ərazi vahidləri üzrə yaradılır. Tərkibində 6 və daha çox hakim olan hərbi məhkəmədə sədr müavini vəzifəsi təsis edilir.

Hərbi məhkəmənin təşkili, olduğu yer və ərazi yurisdiksiyası Məhkəmə-Hüquq Şurasının təklifi nəzərə alınmaqla Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq müəyyənləşdirilir.

**Maddə 33.**
**Hərbi məhkəmənin tərkibi**

Hərbi məhkəmə sədrdən və hakimlərdən ibarətdir. Tər-

kibində 6 və daha çox hakim olan hərbi məhkəmədə sədr müavini vəzifəsi təsis edilir.

Hərbi məhkəmə hakimlərinin sayı Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq müəyyənləşdirilir.

**Maddə 34.**
**Hərbi məhkəmə sədrinin səlahiyyətləri**

Hərbi məhkəmənin sədri:

▪ məhkəmədə işin təşkilinə və məhkəmə aparatının işinə rəhbərlik edir, məhkəmədə əmək və icra intizamına əməl olunmasını təmin edir;

▪ məhkəmə iclaslarına sədrlik edir, işlərin həcmini və sayını nəzərə alaraq hakimlər arasında işləri bölüşdürür;

▪ məhkəmə aparatı işlərinin işə qəbul və işdən azad edilməsi, mükafatlandırılması və intizam qaydasında cəzalandırılması məsələlərini həll edir;

▪ Ali Məhkəmənin Plenumunda və müvafiq apellyasiya instansiyası məhkəməsinin Rəyasət Heyətində hərbi məhkəmədə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat verir;

▪ məhkəmə fəaliyyətinin təşkili vəziyyətinin, məhkəmə təcrübəsinin öyrənilməsinə və ümumiləşdirilməsinə, məhkəmə statistikasının aparılmasına rəhbərlik edir;

▪ şəxslərin qəbulu, təklif, ərizə və şikayətlərə baxılması sahəsində məhkəmənin işini təşkil edir;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

Hərbi məhkəməyə bir hakim təyin olunmuşsa, o, həmin

məhkəmənin sədrinin səlahiyyətlərini həyata keçirir.

## VII FƏSİL

## Ağır cinayətlərə dair işlər üzrə hərbi məhkəmə

### Maddə 36.

**Ağır cinayətlərə dair işlər üzrə hərbi məhkəmə və onun səlahiyyətləri**

Ağır cinayətlərə dair işlər üzrə hərbi məhkəmə birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş cinayət işlərinə baxır.

Ağır cinayətlərə dair işlər üzrə hərbi məhkəmə məhkəmə statistikasını təhlil edir, məhkəmə fəaliyyətinin təşkili vəziyyətini, məhkəmə təcrübəsini öyrənir və ümumiləşdirir. Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirir.

### Maddə 37.

**Ağır cinayətlərə dair işlər üzrə hərbi məhkəmənin təşkili**

Ağır cinayətlərə dair işlər üzrə hərbi məhkəmə Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində təşkil edilir, onun yurisdiksiyası Azərbaycan Respublikası Silahlı Qüvvələri qornizonlarının bütün hərbi hissələrinə şamil edilir (Naxçıvan Muxtar Respublikasının ərazisində Ağır

cinayətlərə dair işlər üzrə hərbi məhkəmənin yurisdiksiyasını müvafiq hərbi məhkəmə həyata keçirir).

**Maddə 38.**
**Ağır cinayətlərə dair işlər üzrə hərbi məhkəmənin tərkibi**

Ağır cinayətlərə dair işlər üzrə hərbi məhkəmə sədrdən, onun müavinindən və hakimlərdən ibarətdir.

Qanunla nəzərdə tutulmuş hallarda və qaydada ağır cinayətlərə dair işlərə birinci instansiya üzrə baxılması üçün bu məhkəmənin tərkibində andlılar məhkəməsi yaradıla bilər.

Ağır cinayətlərə dair işlər üzrə hərbi məhkəmənin hakim-lərinin sayı Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq müəyyənləşdirilir.

**Maddə 39.**
**Ağır cinayətlərə dair işlər üzrə hərbi məhkəmə sədrinin səlahiyyətləri**

Ağır cinayətlərə dair işlər üzrə hərbi məhkəmənin sədri:

▪ məhkəmədə işin təşkilinə və məhkəmə aparatının işinə rəhbərlik edir, məhkəmədə əmək və icra intizamına əməl olunmasını təmin edir;

▪ məhkəmə iclaslarına sədrlik edir, işlərin həcmini və sayını nəzərə alaraq hakimlər arasında işləri bölüşdürür;

▪ məhkəmə aparatı işçilərinin işə qəbul və işdən azad edilməsi, mükafatlandırılması və intizam qaydasında cəzalandırılması məsələlərini həll edir;

▪ Ali Məhkəmənin Plenumunda və müvafiq apellyasi-

ya instansiyası məhkəməsinin Rəyasət Heyətində Ağır cinayətlərə dair işlər üzrə hərbi məhkəmədə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat verir;

▪ məhkəmə fəaliyyətinin təşkili vəziyyətinin, məhkəmə təcrübəsinin öyrənilməsinə və ümumiləşdirilməsinə, məhkəmə statistikasının aparılmasına rəhbərlik edir;

▪ şəxslərin qəbulu, təklif, ərizə və şikayətlərə baxılması sahəsində məhkəmənin işini təşkil edir;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 40.**

**Ağır cinayətlərə dair işlər üzrə hərbi məhkəmənin sədr müavininin səlahiyyətləri**

Ağır cinayətlərə dair işlər üzrə hərbi məhkəmənin sədr müavini:

▪ məhkəmə iclaslarında sədrlik edir, Ağır cinayətlərə dair işlər üzrə hərbi məhkəmə sədri tərəfindən müəyyən edilmiş məsələləri həll edir, sədrin tapşırığı ilə onun ayrı-ayrı səlahiyyətlərini həyata keçirir, sədr olmadıqda və ya öz vəzifələrini yerinə yetirə bilmədikdə onu əvəz edir;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

# VIII FƏSİL

## Yerli iqtisad məhkəmələri

**Maddə 42.**
**Yerli iqtisad məhkəməsi və onun səlahiyyətləri**

Yerli iqtisad məhkəməsi birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş iqtisadi mübahisələrə dair işlərə baxır.

Yerli iqtisad məhkəməsi məhkəmə statistikasını təhlil edir, məhkəmə fəaliyyətinin təşkili vəziyyətini, məhkəmə təcrübəsini öyrənir və ümumiləşdirir, Azərbaycan Respublikası qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 43.**
**Yerli iqtisad məhkəməsinin təşkili**

Yerli iqtisad məhkəməsi Azərbaycan Respublikasının inzibati ərazi vahidləri və ya azad iqtisadi zonalar üzrə təşkil edilir.

Yerli iqtisad məhkəməsinin təşkili, olduğu yer və ərazi yurisdiksiyası Məhkəmə-Hüquq Şurasının təklifi nəzərə alınmaqla, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq müəyyən olunur.

**Maddə 44.**
**Yerli iqtisad məhkəməsinin tərkibi**

Yerli iqtisad məhkəməsi sədrdən və hakimlərdən ibarətdir. Tərkibində 6 və daha çox hakim olan yerli iqtisad məh-

kəməsində sədr müavini vəzifəsi təsis edilir.

Yerli iqtisad məhkəməsi hakimlərinin sayı Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq müəyyənləşdirilir.

**Maddə 45.**

**Yerli iqtisad məhkəməsi sədrinin səlahiyyətləri**

Yerli iqtisad məhkəməsinin sədri:

▪ məhkəmədə işin təşkilinə və məhkəmə aparatının işinə rəhbərlik edir, məhkəmədə əmək və icra intizamına əməl olunmasını təmin edir;

▪ məhkəmə iclaslarına sədrlik edir, işlərin həcmini və sayını nəzərə alaraq hakimlər arasında işləri bölüşdürür;

▪ məhkəmə aparatının işçilərinin işə qəbul və işdən azad edilməsi, mükafatlandırılması və intizam qaydasında cəzalandırılması məsələlərini həll edir;

▪ Ali Məhkəmənin Plenumunda və müvafiq apellyasiya instansiyası məhkəməsinin Rəyasət heyətində yerli iqtisad məhkəməsində ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat verir;

▪ məhkəmə fəaliyyətinin təşkili vəziyyətinin, məhkəmə təcrübəsinin öyrənilməsinə və ümumiləşdirilməsinə, məhkəmə statistikasının aparılmasına rəhbərlik edir;

▪ şəxslərin qəbulu, təklif, ərizə və şikayətlərə baxılması sahəsində məhkəmənin işini təşkil edir;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

Yerli iqtisad məhkəməsinə bir hakim təyin olunmuşsa, o, həmin məhkəmənin sədrinin səlahiyyətlərini həyata keçirir.

# X FƏSİL

## Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi

### Maddə 52.
### Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi

Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi Naxçıvan Respublikasının ali məhkəmə orqanı olmaqla qanunla müəyyən edilmiş qaydada ədalət mühakiməsini həyata keçirir.

Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi qanunla səlahiyyətlərinə aid edilmiş işlər üzrə apellyasiya instansiyası məhkəməsidir.

Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərində təşkil edilir, onun yurisdiksiyası Naxçıvan Muxtar Respublikasının bütün ərazisinə şamil edilir.

### Maddə 53.
### Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin tərkibi

Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi Rəyasət Heyətindən, mülki işlər üzrə kollegiyadan, iqtisadi mübahisələrə dair işlər üzrə kollegiyadan, cinayət işləri və inzibati xətalara dair işlər üzrə kollegiyadan və hərbi məhkəmələrin işləri üzrə kollegiyadan ibarətdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi kol-

legiyalarında işlərə baxmaq üçün məhkəmə tərkibləri yaradılır.

Naxçıvan Muxtar Respublikası Ali məhkəməsi hakimlərinin tərkibinə məhkəmənin sədri, onun müavini, məhkəmə kollegiyalarının sədrləri və hakimləri daxildirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin sayı Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq müəyyənləşdirilir.

**Maddə 54.**

**Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin tərkibi və səlahiyyətləri**

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyəti məhkəmənin sədrindən, onun müavinindən və kollegiya sədrlərindən ibarət tərkibdə fəaliyyət göstərir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Rəyasət Heyətinin tərkibinə daxil olan şəxslərin öz səlahiyyətləri daxilində bərabər hüquqları vardır.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Rəyasət Heyəti:

▪ Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimləri sırasından məhkəmə kollegiyalarının tərkiblərini təşkil edir və hakimləri kollegiyalar üzrə müəyyən edir;

▪ Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi sədrinin təqdimatına əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi yanında Elmi-məsləhət şurasının Əsasnaməsini və tərkibini təsdiq edir;

▪ qanunla müəyyən edilmiş qaydada qanunvericilik

və digər normativ aktların Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunsuzluğu barədə Konstitusiya Məhkəməsinə sorğu verilməsi üçün Ali Məhkəməyə müraciət edir.

▪ Azərbaycan Respublikası qanunvericiliyinin tətbiqinin məhkəmə təcrübəsinə dair məsələləri üzrə və Naxçıvan Muxtar Respublikasında ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin, onun müavininin, kollegiya sədrlərinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələrinin sədrlərinin məlumatlarını dinləyir;

▪ məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili barədə materiallara baxır;

▪ qanunvericilik aktlarının düzgün tətbiq edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələrinə metodik kömək göstərir;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 55.**

**Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Rəyasət Heyətinin iş qaydası**

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin iclasları üç ayda bir dəfədən az olmayaraq keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Rəyasət Heyətinin iclaslarına sədrlik edir.

Naxçıvan Muxtar Respublikasının prokuroru, Naxçıvan

Muxtar Respublikası müvafiq icra hakimiyyəti orqanının rəhbəri və digər şəxslər Məhkəmənin Rəyasət Heyətinin iclaslarına dəvət oluna bilərlər. Rəyasət Heyəti iclasının keçirilməsi vaxtı və müzakirəyə çıxarılan məsələlər barədə Rəyasət Heyətinin üzvlərinə iclasa ən geci 10 gün qalmış məlumat verilir, qərar layihələri və başqa materiallar onlara təqdim olunur. Rəyasət Heyətinin azı üç üzvü iştirak etdikdə Rəyasət Heyətinin iclası səlahiyyətli sayılır.

Rəyasət Heyətinin qərarları açıq səsvermə yolu ilə, səsvermədə iştirak edən Rəyasət Heyəti üzvlərinin səs çoxluğu ilə qəbul olunur.

Məhkəmənin Rəyasət Heyətinə sədrlik edən başqa hakimlərlə yanaşı səsvermədə iştirak edir və axırıncı səs verir.

Rəyasət Heyətinin qərarlarını və iclas protokollarını iclasda sədrlik edən imzalayır.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin aparatı Rəyasət Heyəti iclaslarının hazırlanmasına dair təşkilati işləri həyata keçirir, protokolun aparılmasını təmin edir, Rəyasət Heyətinin qəbul etdiyi qərarların icrası üçün digər zəruri işlər görür.

**Maddə 56.**
**Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi kollegiyalarının səlahiyyətləri**

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollegiyaları apellyasiya instansiyası məhkəməsi kimi Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələri tərəfindən baxılmış işlər üzrə qərarlardan verilmiş apellyasi-

ya şikayətləri və apellyasiya protestləri üzrə işlərə baxırlar.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollegiyası Azərbaycan Respublikası qanunvericilik aktlarının düzgün tətbiq edilməsi üçün tədbirlər görür, məhkəmə statistikasını təhlil edir, məhkəmə təcrübəsini öyrənir və ümumiləşdirir, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələrinə metodik kömək göstərir, Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 57.**

**Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin səlahiyyətləri**

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri:

▪ Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin işinin təşkilinə və məhkəmə aparatının işinə rəhbərlik edir, məhkəmədə əmək və icra intizamına əməl olunmasını təmin edir;

▪ Məhkəmə kollegiyalarının iclaslarına sədrlik edir, işlərin həcmini və sayını nəzərə alaraq hakimlər arasında işləri bölüşdürür;

▪ Məhkəmə kollegiyalarının tərkiblərinin təşkil edilməsinə dair Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinə təkliflər verir;

▪ Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi aparatı işçilərinin işə qəbul və işdən azad edilməsi, mükafatlandırılması və intizam qaydasında cəzalandırılması məsələlərini həll edir;

▪ Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi aparatının strukturunu, ştat cədvəlini, xərc smetasını müəyyən edir;

▪ Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və onun ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələrinin hakimlərinin mükafatlandırılması barədə Məhkəmə-Hüquq Şurasına təklif verir;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və qaydada Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və onun ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələrinin hakimlərinin intizam məsuliyyətinə cəlb edilməsi barədə Məhkəmə-Hüquq Şurasına müraciət edir;

▪ Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsini təmsil edir;

▪ Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyəti iclaslarını çağırır, onun vaxtını və gündəliyini müəyyən edir və bu iclaslara sədrlik edir, Rəyasət Heyətinin qərarlarını və iclas protokollarını imzalayır;

▪ Ali Məhkəmənin Plenumunda iştirak edir, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələrində və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat verir;

▪ Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimlərinin və aparatı işçilərinin ixtisasının artırılması işini təşkil edir;

▪ qanunvericilik aktlarının düzgün tətbiq edilməsi üçün məhkəmələrə metodik kömək göstərir;

▪ məhkəmə statistikasının təhlili, məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi işini təşkil edir;

▪ məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələrindən işləri tələb edir;

▪ şəxslərin qəbulu, təklif, ərizə və şikayətlərə baxılması sahəsində məhkəmənin işini təşkil edir;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 58.**

**Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədr müavininin səlahiyyətləri**

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədr müavini:

▪ məhkəmə iclaslarında sədrlik edir, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri tərəfindən müəyyən edilmiş məsələləri həll edir, sədrin tapşırığı ilə onun ayrı-ayrı səlahiyyətlərini həyata keçirir, sədr olmadıqda və ya öz vəzifələrini yerinə yetirə bilmədikdə onu əvəz edir;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 59.**

**Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi kollegiyaları sədrlərinin səlahiyyətləri**

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi kollegiyasının sədri:

▪ müvafiq məhkəmə kollegiyasının iclaslarına sədrlik edir, məhkəmə kollegiyasının işinin təşkilinə rəhbərlik edir;

▪ məhkəmə statistikasının təhlili, məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi işini təşkil edir;

▪ məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələrindən işləri tələb edir;

▪ şəxslərin qəbulu, təklif, ərizə və şikayətlərə baxılması sahəsində məhkəmə kollegiyalarının işini təşkil edir;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 60.**

**Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədr müavininin və kollegiya sədrlərinin əvəz edilməsi**

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin müavini vəzifələrini yerinə yetirə bilmədikdə və ya onun səlahiyyət müddəti bitdikdə onun vəzifələrinin icrası Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin sərəncamı ilə müvəqqəti olaraq həmin məhkəmə kollegiya sədrlərindən birinə həvalə edilir.

Məhkəmə kollegiyasının sədri vəzifələrini yerinə yetirə bilmədikdə və ya onun səlahiyyət müddəti bitdikdə onun vəzifələrinin icrası Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin sərəncamı ilə müvəqqəti olaraq həmin kollegiyanın hakimlərindən birinə həvalə edilir.

# XI FƏSİL

## Apellyasiya məhkəmələri

### Maddə 61.
### Apellyasiya məhkəməsi

Azərbaycan Respublikası Konstitusiyasının 132-ci maddəsinin I hissəsinə müvafiq olaraq apellyasiya məhkəməsi mülki, iqtisadi mübahisələrə dair, cinayət və inzibati xətalara dair işlər üzrə yuxarı instansiya məhkəməsidir.

Apellyasiya məhkəməsinin təşkili, olduğu yer və ərazi yurisdiksiyası Məhkəmə-Hüquq Şurasının təklifi nəzərə alınmaqla, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq müəyyənləşdirilir.

### Maddə 62.
### Apellyasiya məhkəməsinin tərkibi

Apellyasiya məhkəməsi Rəyasət Heyətindən, mülki işlər üzrə kollegiyadan, iqtisadi mübahisələrə dair işlər üzrə kollegiyadan, cinayət və inzibati xətalara dair işlər üzrə kollegiyadan və hərbi məhkəmələrin işləri üzrə kollegiyadan ibarətdir. Apellyasiya məhkəməsinin kollegiyalarında işlərə baxmaq üçün məhkəmə tərkibləri yaradılır.

Apellyasiya məhkəməsi hakimlərinin tərkibinə məhkəmənin sədri, onun müavini, məhkəmə kollegiyalarının sədrləri və hakimləri daxildirlər.

Apellyasiya məhkəməsi hakimlərinin sayı Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq müəyyənləşdirilir.

**Maddə 63.**

**Apellyasiya məhkəməsinin Rəyasət Heyətinin tərkibi və səlahiyyətləri**

Apellyasiya məhkəməsinin Rəyasət Heyəti məhkəmənin sədrindən, onun müavinindən və kollegiya sədrlərindən ibarət tərkibdə fəaliyyət göstərir.

Apellyasiya məhkəməsi Rəyasət Heyətinin tərkibinə daxil olan şəxslərin öz səlahiyyətləri daxilində bərabər hüquqları vardır.

Apellyasiya məhkəməsinin Rəyasət Heyəti:

- apellyasiya məhkəməsinin hakimləri sırasından məhkəmə kollegiyalarının tərkiblərini təşkil edir;
- qanunla müəyyən edilmiş qaydada qanunvericilik və digər normativ aktların Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunsuzluğu barədə Konstitusiya Məhkəməsinə sorğu verilməsi üçün Ali Məhkəməyə müraciət edir;
- Azərbaycan Respublikası qanunvericiliyinin tətbiqinin məhkəmə təcrübəsinə dair məsələləri üzrə apellyasiya məhkəməsi kollegiya sədrlərinin və həmin apellyasiya məhkəməsinin ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələri sədrlərinin, məlumatlarını dinləyir;
- apellyasiya məhkəməsində baxılan işlər üzrə məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili barədə materiallara baxır;
- qanunvericilik aktlarının düzgün tətbiq edilməsi barədə həmin apellyasiya məhkəməsinin ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələrinə metodik kömək göstərir;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 64.**

**Apellyasiya məhkəməsi Rəyasət Heyətinin iş qaydası**

Apellyasiya məhkəməsi Rəyasət Heyətinin iclasları üç ayda bir dəfədən az olmayaraq keçirilir. Apellyasiya məhkəməsinin sədri Rəyasət Heyətinin iclaslarına sədrlik edir.

Azərbaycan Respublikası Prokurorluğunun və müvafiq icra hakimiyyəti orqanının nümayəndələri, habelə digər şəxslər apellyasiya məhkəməsinin Rəyasət Heyətinin iclaslarına dəvət oluna bilərlər.

Rəyasət Heyəti iclasının keçirilməsi vaxtı və müzakirəyə çıxarılan məsələlər barədə Rəyasət Heyətinin üzvlərinə iclasa ən geci 10 gün qalmış məlumat verilir, qərar layihələri və başqa materiallar onlara təqdim olunur.

Rəyasət Heyətinin azı üç üzvü iştirak etdikdə Rəyasət Heyətinin iclası səlahiyyətli sayılır.

Rəyasət Heyətinin qərarları açıq səsvermə yolu ilə, səsvermədə iştirak edən Rəyasət Heyəti üzvlərinin səs çoxluğu ilə qəbul olunur.

Məhkəmənin Rəyasət Heyətinə sədrlik edən başqa hakimlərlə yanaşı səsvermədə iştirak edir və axırıncı səs verir.

Rəyasət Heyətinin qərarlarını və iclas protokollarını iclasda sədrlik edən imzalayır.

Apellyasiya məhkəməsinin aparatı Rəyasət Heyəti iclaslarının hazırlanmasına dair təşkilati işləri həyata keçirir, protokolun aparılmasını təmin edir, Rəyasət Heyətinin qəbul

etdiyi qərarların icrası üçün digər zəruri tədbirlər görür.

**Maddə 65.**
**Apellyasiya məhkəməsi kollegiyalarının səlahiyyətləri**

Apellyasiya məhkəməsinin kollegiyaları:

▪ apellyasiya instansiyası məhkəməsi kimi həmin apellyasiya məhkəməsinin ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələri tərəfindən baxılmış işlər üzrə qərarlardan verilmiş apellyasiya şikayətləri və apellyasiya protestləri üzrə işlərə baxırlar.

▪ Apellyasiya məhkəməsinin kollegiyası məhkəmə statistikasını təhlil edir, məhkəmə təcrübəsini öyrənir və ümumiləşdirir, qanunvericilik aktlarının düzgün tətbiq edilməsi üçün həmin apellyasiya məhkəməsinin ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələrinə metodik kömək göstərir. Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 66.**
**Apellyasiya məhkəməsi sədrinin səlahiyyətləri**

Apellyasiya məhkəməsinin sədri:

▪ apellyasiya məhkəməsinin işinin təşkilinə və məhkəmə aparatının işinə rəhbərlik edir, məhkəmədə əmək və icra intizamına əməl olunmasını təmin edir;

▪ Məhkəmə kollegiyalarının iclaslarına sədrlik edir, işlərin həcmini və sayını nəzərə alaraq hakimlər arasında işləri bölüşdürür;

▪ Məhkəmə kollegiyalarının tərkiblərinin təşkil edilməsi-

nə dair apellyasiya məhkəməsinin Rəyasət Heyətinə təkliflər verir;

▪ apellyasiya məhkəməsi aparatı işçilərinin işə qəbul və işdən azad edilməsi, mükafatlandırılması və intizam qaydasında cəzalandırılması məsələlərini həll edir;

▪ apellyasiya məhkəməsi aparatının strukturunu, ştat cədvəlini, xərc smetasını müəyyən edir;

▪ apellyasiya məhkəməsi və həmin apellyasiya məhkəməsinin ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələri hakimlərinin mükafatlandırılması barədə Məhkəmə-Hüquq Şurasına təklif verir;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və qaydada həmin apellyasiya məhkəməsinin ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələri hakimlərinin və apellyasiya məhkəməsi hakimlərinin intizam məsuliyyətinə cəlb edilməsi barədə Məhkəmə-Hüquq Şurasına müraciət edir;

▪ apellyasiya məhkəməsini təmsil edir;

▪ apellyasiya məhkəməsinin Rəyasət Heyəti iclaslarını çağırır, onun vaxtını və gündəliyini müəyyən edir və bu iclaslara sədrlik edir, Rəyasət Heyətinin qərarlarını və iclas protokollarını imzalayır;

▪ Ali Məhkəmənin Plenumunda iştirak edir, həmin apellyasiya məhkəməsinin ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələrində və apellyasiya məhkəməsində ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat verir;

▪ apellyasiya məhkəməsi hakimlərinin və aparatı işçilərinin ixtisasının artırılması işini təşkil edir;

▪ qanunvericilik aktlarının düzgün tətbiq edilməsi üçün məhkəmələrə metodik kömək göstərir;

▪ məhkəmə statistikasının təhlili, apellyasiya məhkəməsində baxılmış işlər üzrə məhkəmə təcrübəsindən öyrənilməsi və ümumiləşdirilməsi işini təşkil edir;

▪ məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi ilə əlaqədar həmin apellyasiya məhkəməsinin ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələrindən işləri tələb edir;

▪ şəxslərin qəbulu, təklif, ərizə və şikayətlərə baxılması sahəsində məhkəmənin işini təşkil edir;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 67.**

**Apellyasiya məhkəməsi sədr müavininin səlahiyyətləri**

Apellyasiya məhkəməsinin sədr müavini:

▪ məhkəmə iclaslarında sədrlik edir, apellyasiya məhkəməsinin sədri tərəfindən müəyyən edilmiş məsələləri həll edir, sədrin tapşırığı ilə onun ayrı-ayrı səlahiyyətlərini həyata keçirir, sədr olmadıqda və ya öz vəzifələrini yerinə yetirə bilmədikdə onu əvəz edir;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 68.**

**Apellyasiya məhkəməsi kollegiyaları sədrlərinin səlahiyyətləri**

Apellyasiya məhkəməsi kollegiyasının sədri:

▪ müvafiq məhkəmə kollegiyasının iclaslarına sədrlik edir, məhkəmə kollegiyasının işinin təşkilinə rəhbərlik edir;

▪ məhkəmə statistikasının təhlili, apellyasiya məhkəmələrində baxılmış işlər üzrə məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi işini təşkil edir;

▪ məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi ilə əlaqədar məhkəmələrdən işləri tələb edir;

▪ şəxslərin qəbulu, təklif, ərizə və şikayətlərə baxılması sahəsində məhkəmə kollegiyasının işini təşkil edir;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 69.**

**Apellyasiya məhkəməsi sədr müavininin və kollegiya sədrlərinin əvəz edilməsi**

Apellyasiya məhkəməsi sədrinin müavini vəzifələrini yerinə yetirə bilmədikdə və ya onun səlahiyyət müddəti bitdikdə onun vəzifələrinin icrası apellyasiya məhkəməsi sədrinin sərəncamı ilə müvəqqəti olaraq həmin məhkəmə kollegiya sədrlərindən birinə həvalə edilir.

Apellyasiya məhkəməsinin kollegiya sədri vəzifələrini yerinə yetirə bilmədikdə və ya onun səlahiyyət müddəti bitdikdə onun vəzifələrinin icrası Apellyasiya Məhkəməsi sədrinin sərəncamı ilə müvəqqəti olaraq həmin kollegiyanın hakimlərindən birinə həvalə edilir.

# XIII FƏSİL

## Ali Məhkəmə

**Maddə 77.**
**Ali Məhkəmə**

Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsinə uyğun olaraq Ali Məhkəmə ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid olan mülki (o cümlədən iqtisadi mübahisələrə dair), cinayət işləri və digər işlər üzrə ali məhkəmə orqanıdır.

Ali Məhkəmə kassasiya instansiyası məhkəməsi kimi qanunla müəyyən edilmiş prosessual qaydada ədalət mühakiməsini həyata keçirir.

Ali Məhkəmə Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində təşkil edilir, onun yurisdiksiyası Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir.

**Maddə 78.**
**Ali Məhkəmənin tərkibi**

Ali Məhkəmənin tərkibinə Ali Məhkəmənin sədri, onun müavini, kollegiya sədrləri və hakimləri daxildirlər.

Ali Məhkəmə Plenumdan və kassasiya kollegiyasından ibarətdir.

Ali Məhkəmədə mülki işlər üzrə, iqtisadi mübahisələrə dair işlər üzrə, cinayət işləri üzrə və hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyaları təşkil edilir.

Ali Məhkəmə hakimlərinin sayı Azərbaycan Respublika-

sı Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq müəyyənləşdirilir.

Qanunların düzgün tətbiq olunması, qanunvericiliyin təkmilləşdirilməsi və elmi təkliflərin hazırlanması məqsədilə Ali Məhkəmənin yanında Elmi-məsləhət şurası fəaliyyət göstərir.

**Maddə 79.**
**Ali Məhkəmənin Plenumu və onun səlahiyyətləri**

Ali Məhkəmənin plenumu Ali Məhkəmənin sədrindən, onun müavinindən, kollegiya sədrlərindən və hakimlərindən ibarət tərkibdə fəaliyyət göstərir.

Ali Məhkəmənin Plenumunun tərkibinə daxil olan şəxslərin öz səlahiyyətləri daxilində bərabər hüquqları vardır.

Ali Məhkəmənin Plenumu:

▪ Azərbaycan Respublikası məhkəmələrində qanunvericiliyin tətbiqinin məhkəmə təcrübəsinə dair məsələləri üzrə məhkəmə sədrlərinin məlumatlarını dinləyir və ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair Ali Məhkəmə sədrinin, onun müavininin və kollegiya sədrlərinin, apellyasiya məhkəmələri sədrlərinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin və digər ümumi və ixtisaslaşdırılmış məhkəmə sədrlərinin məlumatlarını dinləyir, işlər üzrə məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili barədə materiallara baxır;

▪ Ali Məhkəmə sədrinin təklifinə əsasən Ali Məhkəmənin kollegiyalarının tərkibini təşkil edir və hakimləri kollegiyalar üzrə müəyyən edir;

▪ Ali Məhkəmə sədrinin təqdimatına əsasən Ali Məhkəmə

yanında Elmi-məsləhət şurasının Əsasnaməsini və tərkibini təsdiq edir;

▪ Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinə uyğun olaraq Konstitusiya Məhkəməsinə sorğu verir;

▪ Azərbaycan Respublikası Konstitusiyasının 128-ci maddəsinə müvafiq olaraq Azərbaycan Respublikası hakimlərinin vəzifədən kənarlaşdırılması barədə Azərbaycan Respublikası Prezidentinin sorğusuna baxır və müvafiq rəyi sorğu verildikdən sonra 30 gün müddətində Azərbaycan Respublikası Prezidentinə təqdim edir;

▪ Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsinə uyğun olaraq məhkəmə təcrübəsinə dair məsələlər üzrə məhkəmələrə izahlar verir;

▪ qanunla müəyyən edilmiş hallarda və qaydada Ali Məhkəmə sədrinin təqdimatı, Azərbaycan Respublikası Baş prokurorunun protesti və ya müdafiə tərəfinin şikayəti əsasında əlavə kassasiya işlərinə və yaxud hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar və yeni açılmış hallar üzrə işlərə baxır;

▪ Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinə uyğun olaraq Azərbaycan Respublikası Milli Məclisinə qanunvericilik təşəbbüsü ilə müraciət etmək barədə məsələlərə baxır və qərar qəbul edir;

▪ Azərbaycan Respublikası hakimlərinin andını qəbul edir;

▪ qanunvericiliklə müəyyən edilmiş hallarda, Məhkəmə-Hüquq Şurasının qərarlarından verilmiş şikayətlərə baxır;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid

edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 80.**
**Ali Məhkəmənin Plenumunun iş qaydası**

Ali Məhkəmənin Plenumu üç ayda bir dəfədən az olmayaraq çağırılır. Ali Məhkəmənin sədri Ali Məhkəmənin Plenumunun iclaslarına sədrlik edir.

Ali Məhkəmənin Plenumunun iclaslarında apellyasiya məhkəmələrinin sədrləri, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri, Azərbaycan Respublikasının Baş prokuroru və müvafiq icra hakimiyyəti orqanın rəhbəri iştirak edirlər. Ali Məhkəmənin Plenumunun iclaslarında əlavə kassasiya qaydasında və ya hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar və yeni açılmış hallar üzrə işlərin baxılmasında müdafiə tərəfin iştirakı təmin edilir. Ali Məhkəmənin Plenumunun iclaslarına digər şəxslər də dəvət oluna bilərlər.

Ali Məhkəmənin Plenumunun çağırılması vaxtı və müzakirə çıxarılan məsələlər barədə Plenumun üzvlərinə və Plenumda iştirak edən digər şəxslərə Plenuma ən geci 10 gün qalmış məlumat verilir, qərar layihələri və başqa materiallar onlara təqdim olunur.

Ali Məhkəmənin Plenumu üzvlərinin üçdə iki hissəsi iştirak etdikdə Plenumun iclası səlahiyyətli sayılır.

Ali Məhkəmənin Plenumunun qərarları açıq səsvermə yolu ilə səsvermədə iştirak edənlərin səs çoxluğu ilə qəbul olunur. Ali Məhkəmənin Plenumunun üzvləri məhkəmə işləri üzrə səsvermədə bitərəf qala bilməzlər.

Ali Məhkəmənin Plenumuna sədrlik edən başqa hakimlərlə

yanaşı səsvermədə iştirak edir və axırıncı səs verir.

Ali Məhkəmənin Plenumunun işində iştirak edən digər şəxslər, həmçinin Ali Məhkəmənin sədri məhkəmə qərarlarından əlavə kassasiya qaydasında və yeni açılmış hallara görə Ali Məhkəmənin Plenumuna verdiyi təqdimatlarla əlaqədar baxılan işlər üzrə səsvermədə iştirak etmirlər. Plenum baxılan məsələlər üzrə qərarlar qəbul edir. Plenumun qərarlarını və iclas protokollarını iclasa sədrlik edən imzalayır.

Ali Məhkəmənin aparatı Plenumun iclaslarının hazırlanmasına dair təşkilati işləri həyata keçirir, protokolun aparılmasını təmin edir, Plenumun qəbul etdiyi qərarların icrası üçün digər zəruri işlər görür.

Məhkumun vəziyyətini ağırlaşdıran əsaslara görə məhkəmə qərarları, bəraət hökmü, bəraətverici əsaslarla cinayət işinin icraatına xitam verilməsi haqqında məhkəmə qərarları səsvermədə iştirak edən Plenum iştirakçılarının üçdə iki səs çoxluğu ilə ləğv edilə bilər.

**Maddə 81.**
**Ali Məhkəmə kollegiyalarının səlahiyyətləri**

Ali Məhkəmənin kollegiyalarında aşağıdakı işlərə baxılır:

- apellyasiya məhkəmələrinin baxdığı işlərə dair qərarlardan verilmiş kassasiya şikayətləri və kassasiya protestləri üzrə işlərə;
- Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin baxdığı işlərə dair qərarlardan verilmiş kassasiya şikayətləri və kassasiya protestləri üzrə işlərə;

▪ qanunla müəyyən edilmiş hallarda digər ümumi və ixtisaslaşdırılmış məhkəmələrinin baxdığı işlərə dair qərarlardan verilmiş kassasiya şikayətləri və kassasiya protestləri üzrə işlərə;

▪ qanunla müəyyən edilmiş qaydada və hallarda Ali Məhkəmə sədrinin kassasiya qaydasında verdiyi təqdimatlar üzrə işlərə.

Ali Məhkəmənin kollegiyaları məhkəmə statistikasını təhlil edir, məhkəmə təcrübəsini öyrənir və ümumiləşdirir, Azərbaycan Respublikasının məhkəmələrinə metodik kömək göstərir, Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 82.**

**Ali Məhkəmə kollegiyalarının iş qaydası**

Ali Məhkəmə səlahiyyətinə aid edilmiş işlərə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada və hədlərdə kollegiyaların iclaslarında baxır.

Məhkəmə kollegiyalarında işlərə baxmaq üçün məhkəmə tərkibləri yaradılır.

Məhkəmə kollegiyalarının işinə rəhbərliyi kollegiyanın sədrləri həyata keçirirlər.

**Maddə 83.**

**Ali Məhkəmə sədrinin səlahiyyətləri**

Ali Məhkəmənin sədri:

▪ Ali Məhkəmənin işinin təşkilinə və onun aparatının işinə rəhbərlik edir, Ali Məhkəmədə əmək və icra intizamına əməl olunmasını təmin edir;

▪ Ali Məhkəmə kollegiyalarının iclaslarına sədrlik edir, kollegiyalar arasında işləri və başqa vəzifələri bölüşdürür;

▪ Ali Məhkəmənin hakimlərinin kollegiyalar üzrə müəyyən edilməsinə dair Ali Məhkəmənin Plenumuna təkliflər verir;

▪ Ali Məhkəmə aparatının işçilərinin işə qəbul və işdən azad edilməsi, mükafatlandırılması və intizam qaydasında cəzalandırılması məsələlərini həll edir;

▪ Ali Məhkəmə aparatının strukturunu, ştat cədvəlini, xərc smetasını müəyyən edir;

▪ Azərbaycan Respublikası hakimlərinin mükafatlandırılması barədə Məhkəmə-Hüquq Şurasına təklif verir;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və qaydada Azərbaycan Respublikası məhkəmələri hakimlərinin intizam məsuliyyətinə cəlb edilməsi, habelə onların səlahiyyətlərinə xitam verilməsi barədə Məhkəmə-Hüquq Şurasına müraciət edir;

▪ məhkəmələrdən işləri tələb edir;

▪ qanunla müəyyən edilmiş hallarda və qaydada məhkəmə qərarlarından Ali Məhkəmənin Plenumuna əlavə kassasiya qaydasında təqdimatlar verir;

▪ qanunla müəyyən edilmiş hallarda və qaydada yeni açılmış hallar üzrə Ali Məhkəmənin Plenumunatəqdimatlar verir;

▪ Ali Məhkəməni təmsil edir; Ali Məhkəmənin Plenumunun iclaslarını çağırır, onun vaxtını, gündəliyini müəyyən edir və bu iclaslara sədrlik edir, Plenumun qərarlarını və iclas protokollarını imzalayır;

▪ Ali Məhkəmənin Plenumunda Azərbaycan Respublikasının ümumi və ixtisaslaşdırılmış məhkəmələrində ədalət

mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat verir;

▪ Ali Məhkəmənin hakimlərinin və aparatı işçilərinin ixtisasının artırılması işini təşkil edir;

▪ məhkəmə statistikasının təhlili, məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi işini təşkil edir;

▪ qanunvericilik aktlarının düzgün tətbiq edilməsi üçün məhkəmələrə metodik kömək göstərir;

▪ şəxslərin qəbulu, təklif, ərizə və şikayətlərə baxılması sahəsində məhkəmənin işini təşkil edir;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 84.**
**Ali Məhkəmənin sədr müavininin səlahiyyətləri**

Ali Məhkəmənin sədr müavini:

▪ məhkəmə iclaslarında sədrlik edir, Ali Məhkəmənin sədri tərəfindən müəyyən edilmiş məsələləri həll edir, sədrin tapşırığı ilə onun ayrı-ayrı səlahiyyətlərini həyata keçirir, sədr olmadıqda və ya öz vəzifələrini yerinə yetirə bilmədikdə onu əvəz edir;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 84-1.**
**Ali Məhkəmənin kollegiya sədrinin səlahiyyətləri**

Ali Məhkəmə kollegiyasının sədri:

▪ müvafiq məhkəmə kollegiyasının iclaslarında sədrlik

edir, məhkəmə kollegiyasının işinin təşkilinə rəhbərlik edir;

▪ işlərin həcmini və sayını nəzərə alaraq hakimlər arasında işləri və başqa vəzifələri bölüşdürür;

▪ məhkəmə statistikasının təhlili, məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi işini təşkil edir;

▪ məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi ilə əlaqədar məhkəmələrdən işləri tələb edir;

▪ Ali Məhkəmənin Plenumunda kollegiyalarda ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat verir;

▪ qanunvericilik aktlarının düzgün tətbiq edilməsi üçün məhkəmələrə metodik kömək göstərir;

▪ şəxslərin qəbulu, təklif, ərizə və şikayətlərinə baxılması sahəsində kollegiyanın işini təşkil edir;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 85.**
**Ali Məhkəmənin sədr müavininin və kollegiya sədrlərinin əvəz edilməsi**

Ali Məhkəmə sədrinin müavini vəzifələrini yerinə yetirə bilmədikdə və ya onun səlahiyyət müddəti bitdikdə onun vəzifələrinin icrası Ali Məhkəmə sədrinin sərəncamı ilə müvəqqəti olaraq həmin məhkəmənin kollegiya sədrlərinin birinə həvalə edilir.

Ali Məhkəmənin kollegiya sədri vəzifələrini yerinə yetirə bilmədikdə və ya onun səlahiyyət müddəti bitdikdə onun vəzifələrinin icrası Ali Məhkəmə sədrinin sərəncamı ilə müvəqqəti olaraq həmin kollegiyanın hakimlərindən birinə həvalə edilir.

# XIV FƏSİL

## Azərbaycan Respublikası məhkəmələrinin fəaliyyətinin təşkilati təminatı

### Maddə 86. Müvafiq icra hakimiyyəti orqanı

Müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada hakimlərin müstəqilliyinə ciddi əməl etməklə Ali Məhkəmənin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və apellyasiya məhkəmələrinin hakimləri istisna olmaqla, hakimlərin peşə hazırlığının artırılması, məhkəmələrin fəaliyyəti üçün zəruri şərait yaradılması məsələləri ilə məşğul olur, məhkəmələrin müvafiq normativ-hüquqi aktlarla təchiz olunmasını, maliyyə və digər maddi-texniki təminatını həyata keçirir.

Müvafiq icra hakimiyyəti orqanı məhkəmə statistikasının aparılması, məhkəmə qərarlarının icrası, məhkəmələrdə kargüzarlığın təşkil edilməsi, hakimlərin əmək və sosial hüquqlarının təmin edilməsi, məhkəmələrdə icra və əmək intizamına riayət edilməsi üçün tədbirlər görür. Müvafiq icra hakimiyyəti orqanı birinci və apellyasiya instansiyası məhkəmələrində bu sahələr üzrə işin təşkili vəziyyətini yoxlamaq, habelə birinci instansiya məhkəmələrində sədr və sədr müavini öz vəzifələrini yerinə yetirə bilmədikdə və ya onların səlahiyyət müddəti bitdikdə onların vəzifələrinin icrasını müvəqqəti olaraq həmin məhkəmənin hakimlərindən birinə, hakim öz vəzifələrini yerinə yetirə bilmədikdə isə

onun vəzifələrinin icrasını müvəqqəti olaraq digər müvafiq məhkəmənin hakimlərindən birinə həvalə etmək hüququna malikdir.

Müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının Ali Məhkəməsi ilə birlikdə bu Qanunun 19-cu maddəsinin birinci hissəsində göstərilən məhkəmələrdə kargüzarlığın aparılması qaydalarını müəyyən edir.

Müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri istisna olmaqla, bu Qanunla müəyyən edilmiş səbəblər və intizam məsuliyyətinə cəlb edilmə əsaslarının əlamətləri olduqda hakimlərin intizam məsuliyyətinə cəlb edilməsi, habelə onların səlahiyyətlərinə xitam verilməsi barədə Məhkəmə-Hüquq Şurasına müraciət edir.

**Maddə 87.**
**Məhkəmələrin fəaliyyətinin təşkilinin təhlili və statistika hesabatları**

Azərbaycan Respublikasının məhkəmələri Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən olunmuş qaydada hər yarım ildə bir dəfədən az olmayaraq statistika hesabatı tərtib edilir. Müvafiq məhkəmə sədrləri statistika hesabatlarında göstərilən məlumatların düzgünlüyünə məsuldurlar.

Müvafiq icra hakimiyyəti orqanı məhkəmə fəaliyyətinə dair statistika hesabatının formalarını müəyyənləşdirir və bu hesabatları dərc edir.

Müvafiq icra hakimiyyəti orqanı məhkəmə fəaliyyətinə dair statistika hesabatlarını ümumiləşdirir, məhkəmələr tərəfindən məhkəmə fəaliyyətinin təşkilinə dair aparılmış

ümumiləşdirmələri öyrənir və təhlil edir, bu barədə Məhkəmə-Hüquq Şurasını məlumatlandırır.

**Maddə 88.**
**Məhkəmələrin aparatları**

Məhkəmələrin fəaliyyətinin hüquqi, təşkilati, informasiya, maddi-texniki, maliyyə və təsərrüfat təminatını həyata keçirmək məqsədilə Ali Məhkəmə, apellyasiya məhkəmələri və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində və digər məhkəmələrdə məhkəmə aparatları fəaliyyət göstərir.

Məhkəmələrin aparatları təşkil edilərkən hər hakim üçün məhkəmə katibi və köməkçi nəzərdə tutulmalı, məhkəmələrdə dəftərxana, kitabxana, arxiv, təsərrüfat xidməti fəaliyyət göstərməli, şəxslərin qəbulu, qanunvericiliyin sistemləşdirilməsi və kodifikasiyası, məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının aparılması ilə məşğul olan məsləhətçilər olmalı, kargüzarlığın, məhkəmə tərəfindən çıxarılmış qərarların və onlarla bağlı yuxarı instansiya məhkəmələrinin qərarlarının uçotunun aparılması təmin edilməlidir.

Məhkəmə aparatları məhkəmələrdə şəxslərin qəbulunu həyata keçirirlər. Məhkəmə icraatının təşkilati məsələləri ilə bağlı qəbul müvafiq hakimin məhkəmə katibi tərəfindən həyata keçirilir.

Ali Məhkəmə, apellyasiya məhkəmələri Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi aparatlarının strukturunu, ştat cədvəlini, xərc smetasını, işçilərinin əmək haqqını isə müvafiq olaraq Ali Məhkəmənin, apellyasiya məhkəmələrinin və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədrləri,digər məhkəmə aparatlarının isə strukturunu, ştat

cədvəlini, xərc smetasını, işçilərin əmək haqqını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

**Maddə 89.**
**Məhkəmələrdə hüquq qaydalarına əməl edilməsi**

Məhkəmələrdə hüquq qaydalarına əməl edilməsi, məhkəmələrin binalarının, əmlakının və məhkəmə icraatı ilə bağlı sənədlərinin mühafizəsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

**Maddə 90.**
**Məhkəmələrin maddi-texniki bazası və fəaliyyətinin maliyyələşdirilməsi**

Məhkəmələr tərəfindən ədalət mühakiməsinin prosessual qanunvericiliyinin tələblərinə uyğun həyata keçirilməsinə lazımi şərait yaradılmasından ötrü hər bir məhkəmə:

▪ xüsusi təchiz edilmiş binalarla, məhkəmə hakimyyətinin rəmzləri (Azərbaycan Respublikasının Dövlət bayrağı, Dövlət gerbi və ədalət mühakiməsinin rəsmi emblemi) və hakimlərin xüsusi geyimləri ilə, zəruri nəqliyyat vasitələri və təşkilati-texniki qurğularla;

▪ blanklar, ştamplar, məhkəmənin adı və dövlət gerbi həkk olunmuş möhürlə təmin edilir.

Azərbaycan Respublikasının hakimlərinə onların statusunu təsdiq edən xidməti vəsiqələr verilir. Məhkəmələrin fəaliyyəti, maddi-texniki təchizatı dövlət büdcəsi hesabına həyata keçirilir.

Azərbaycan Respublikası dövlət büdcəsinin ayrıca

maddəsində məhkəmələrin fəaliyyətinin maliyyələşdirilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi üçün vəsait ayrılması nəzərdə tutulur.

Müvafiq icra hakimiyyəti orqanları Azərbaycan Respublikasının dövlət büdcəsi ilə müəyyən edilmiş hədlərdə məhkəmələrin fəaliyyətinin maliyyə və maddi-texniki təminatını vaxtında həyata keçirmək üçün zəruri tədbirlər görürlər.

**Maddə 91.**
**Məhkəmələrin beynəlxalq əlaqələri**

Azərbaycan Respublikasının qanunvericiliyində və beynəlxalq müqavilələrdə başqa qayda nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının məhkəmələri xarici dövlətlərin məhkəmələri və beynəlxalq təşkilatlarla əlaqələrini Məhkəmə-Hüquq Şurası və müvafiq icra hakimiyyəti orqanı vasitəsilə, Ali Məhkəmə və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi ilə birbaşa həyata keçirirlər.

## İkinci bölmə.

## Hakimlər

## XV FƏSİL

## Hakimlərin statusu

### Maddə 92.
### Hakimlər və onların statusunun eyniliyi

Hakimlər ədalət mühakiməsini həyata keçirmək üçün qanunla müəyyən edilmiş səlahiyyətlərə malik şəxslərdir.

Azərbaycan Respublikasının bütün hakimləri (məhkəmələrin sədrləri, sədr müavinləri, kollegiya sədrləri və hakimləri) işlərə baxarkən eyni statusa, hüquq və vəzifələrə malikdirlər və bir-birindən yalnız təyin olunma qaydasına, səlahiyyətlərinə və səlahiyyət müddətlərinə görə fərqlənirlər. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunda qəbul olunmuş qərarlardan başqa bütün digər kollegial məhkəmə qərarlarına görə onların qəbul olunmasında iştirak etmiş hər bir hakim (qərar qəbul edilərkən xüsusi rəy və ya belə qərarın əleyhinə səs vermiş hakim istisna olmaqla) eyni dərəcədə məsuldur.

Hakimlər onların statusunu təsdiq edən xidməti vəsiqəyə malikdirlər. Xidməti vəsiqələrinin nümunələri Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən müəyyən edilir.

# XVI FƏSİL

## Hakimlərin təyin edilməsi

### Maddə 93.
### Hakim vəzifəsinə namizədlərə aid tələblər

Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinin birinci hissəsinə uyğun olaraq yaşı 30-dan aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik olan, ali hüquq təhsilli, hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərbaycan Respublikası vətəndaşları hakim ola bilərlər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olanlar, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən təsdiq edilmiş, tibbi rəyə əsasən fiziki və əqli qüsurlarına görə hakim səlahiyyətlərini yerinə yetirməyə qadir olmayan, cinayət törətməyə görə əvvəllər məhkum olunmuş, hakimin adı ilə bir araya sığmayan hərəkətlərə yol verdiyinə görə vəzifədən azad edilmiş şəxslər hakim ola bilməzlər.

### Maddə 93-1.
### Məhkəmə-Hüquq Şurası

Məhkəmə-Hüquq Şurası Azərbaycan Respublikasında məhkəmə sisteminin təşkilinin təmin edilməsi, hakim vəzifəsinə namizədlərin seçilməsinin təşkili, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, onların iş yerinin dəyişdirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb edilməsi, habelə məhkəmələr və hakimlərlə bağlı

digər məsələləri səlahiyyəti daxilində həll edən məhkəmə hakimiyyətinin özünüidarə funksiyalarını həyata keçirən orqandır.

Məhkəmə-Hüquq Şurasının təşkili, fəaliyyətinin hüquqi əsasları və səlahiyyətləri bu qanunla və Məhkəmə-Hüquq Şurası haqqında Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunur.

### Maddə 93-2.
### Hakimlərin Seçki Komitəsi

Hakimlərin Seçki Komitəsi Məhkəmə-Hüquq Şurası tərəfindən formalaşdırılan və hakim vəzifəsinə namizədlərin seçimini həyata keçirən orqandır.

Hakimlərin Seçki Komitəsinin fəaliyyəti bu Qanunla, Məhkəmə-Hüquq Şurası haqqında Azərbaycan Respublikasının Qanunu ilə, habelə Məhkəmə-Hüquq Şurası tərəfindən qəbul edilən Hakimlərin Seçki Komitəsi haqqında Əsasnamə ilə tənzimlənir.

### Maddə 93-3.
### Hakim vəzifəsinə namizədlərin seçilməsi

Hakim vəzifəsinə namizədlər yazılı və şifahi imtahan əsasında seçilirlər. Namizədlərin seçilməsi üçün bu imtahanlar Hakimlərin Seçki Komitəsi tərəfindən təşkil edilir.

İmtahanların nəticələri Hakimlərin Seçki Komitəsi tərəfindən qiymətləndirilir. Hakimlərin Seçki Komitəsi bu işə özünün formalaşdırdığı ad hoc komissiya cəlb edə bilər.

İmtahanlardan müvəffəqiyyətlə keçmiş namizədlər avtomatik şəkildə uzunmüddətli təlim mərhələsinə keçirilirlər.

Təlim mərhələsi tədris müəssisəsində təşkil edilir.Təlim mərhələsinə keçirilmiş hakim vəzifəsinə namizədlərin iş yerləri və orta əməkhaqları saxlanılır. Təlim mərhələsinə keçirilmiş işləməyən namizədlərin maddi təminatını Məhkəmə-Hüquq Şurası həyata keçirir. Maddi təminatın məbləği Məhkəmə-Hüquq Şurası tərəfindən müəyyən edilir və dövlət büdcəsindən Şuraya ayrılmış vəsait hesabına ödənilir

Təlim mərhələsi başa çatdıqdan sonra hər bir namizəd qiymətləndirilir. Namizədin qiymətləndirilməsi tədris müəssisəsi tərəfindən təqdim olunmuş tədrisin nəticələri və namizədin Hakimlərin Seçki Komitəsi üzvləri ilə yekun müsahibəsinin əsasında həyata keçirilir. Namizədlərin qiymətləndirilməsi bal sistemi ilə aparılır.

Namizədlər Hakimlərin Seçki Komitəsi tərəfindən topladıqları ballara uyğun sıralanırlar.

Namizədlərin qiymətləndirilməsinin nəticələri Məhkəmə-Hüquq Şurasına təqdim olunur. Məhkəmə-Hüquq Şurası namizədlərin vakant hakim vəzifələrinin sayına müvafiq olaraq, hakim vəzifəsinə təyin edilməsi barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təqdimat verir.

Tədris kurslarını bitirmiş, lakin hakim vəzifəsinə təklif olunmamış namizədlər ədliyyə orqanlarına inzibati vəzifəyə və ya prokurorluq orqanlarına prokurorluq işçisi kimi xidmətə götürülə, hakim vakansiyası yarandıqda isə hakim vəzifəsinə təyin edilə bilərlər.

**Maddə 93-4.**

**Hakim vəzifəsinə təyin edilmənin xüsusi qaydası**

Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinin I hissəsinin tələblərinə cavab verən, hüquq sahəsində nüfuza, hüquqşünas ixtisası üzrə 20 illik iş təcrübəsinə, yüksək mənəvi keyfiyyətlərə malik olan şəxslər bu qanunun 93-3-cü maddəsində nəzərdə tutulmuş prosedurlardan kənar Məhkəmə-Hüquq Şurasının təklifinə əsasən qanunvericiliklə müəyyən edilmiş qaydada yüksək hakim vəzifələrinə təyin edilə bilərlər.

**Maddə 94.**

**Hakimlərin, məhkəmələrin sədrlərinin, sədr müavinlərinin və məhkəmə kollegiyalarının sədrlərinin təyin edilməsi**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndinə uyğun olaraq Azərbaycan Respublikası məhkəmələrinin hakimlərini Azərbaycan Respublikasının Prezidenti təyin edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndinə və 95-ci maddəsinin 10-cu bəndinə uyğun olaraq Ali Məhkəmənin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və apellyasiya məhkəmələrinin hakimlərini Azərbaycan Respublikası Prezidentinin təqdimatı əsasında Azərbaycan Respublikasının Milli Məclisi təyin edir.

Yuxarı instansiya məhkəmələrin hakimi vəzifələrinə bir qayda olaraq ən azı 5 il birinci instansiya məhkəmələrinin hakimi işləmiş şəxslər təyin oluna bilərlər.

Naxçıvan Muxtar Respublikası məhkəmələrinə hakim vəzifəsinə namizədlərin seçilməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri iştirak edir.

Azərbaycan Respublikası məhkəmələrinin sədrləri, sədr müavinləri və məhkəmə kollegiyalarının sədrləri müvafiq məhkəmələrin hakimləri sırasından 5 il müddətinə təyin edilirlər və bir qayda olaraq həmin vəzifəyə iki dəfədən artıq təkrarən təyin oluna bilməzlər. Azərbaycan Respublikası Ali Məhkəməsinin, apellyasiya məhkəmələrinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, ağır cinayətlərə dair işlər üzrə məhkəmələrin sədrlərinin, habelə Azərbaycan Respublikası Ali Məhkəməsinin sədr müavininin və məhkəmə kollegiyaları sədrlərinin vəzifəyə təyin edilməsi Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq həll edilir. Azərbaycan Respublikasının digər məhkəmə sədrlərinin, habelə Azərbaycan Respublikası məhkəmələrinin sədr müavinlərinin və məhkəmə kollegiyaları sədrlərinin (Azərbaycan Respublikası Ali Məhkəməsinin sədr müavini və məhkəmə kollegiyalarının sədrləri istisna olmaqla) təyinatı Məhkəmə-Hüquq Şurasının təklifinə əsasən Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq aparılır.

### Maddə 95.
### Hakimlərin andı

Təyin olunmuş hakimlər vəzifələrinin icrasına başlamazdan əvvəl Ali Məhkəmənin Plenumunun iclasında Azərbaycan Respublikasının Dövlət bayrağı önündə aşağıdakı məzmunda and içirlər:

«Ədalət mühakiməsini Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tam uyğun olaraq, qərəzsiz, ədalətlə həyata keçirəcəyimə, hakimin müstəqiliyini və ləyaqətini qoruyub saxlayacağıma, yüksək hakim adına hörmət ruhunda davranmağıma and içirəm».

Andiçmə dövlətin, vətəndaşın və ədalət mühakiməsinin qarşısında hakimlərin məsuliyyətinin təcəssümüdür.

Hakimlərin səlahiyyətləri and içdiyi vaxtdan başlayır.

Hakimlər andın mətninə imza edir və bu sənəd hakimlərin şəxsi işində saxlanılır.

## XVII FƏSİL

## Hakimlərin səlahiyyətləri

### Maddə 96.
### Hakimlərin səlahiyyət müddəti

Hakim vəzifəsinə hakimlər ilk dəfə beş il müddətinə təyin olunurlar. Həmin müddət ərzində onlar ildə ən azı bir dəfə tədris kurslarına cəlb edilirlər. Bu müddətin sonunda hakimlərin fəaliyyəti qiymətləndirilir. Qiymətləndirmə nəticəsində hakimin fəaliyyətində peşəkar çatışmazlıq aşkar edilməzsə, Məhkəmə-Hüquq Şurasının təklifi ilə onun səlahiyyətləri son yaş həddinə-65 yaşınadək uzadılır. Son yaş həddinə çatmış hakimin peşəkarlığından istifadə edilməsinə ehtiyac olduqda, Məhkəmə-Hüquq Şurasının təklifi ilə onun səlahiyyət müddəti 70 yaşınadək artırıla bilər.

Qiymətləndirmə nəticəsində hakimin fəaliyyətində peşəkar çatışmazlıq aşkar edilərsə, onun səlahiyyətləri uzadılmır.

Hakimin fəaliyyətinin qiymətləndirilməsi Məhkəmə-Hüquq Şurası haqqında Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinə müvafiq həyata keçirilir.

İşə baxılan zaman hakimlərin səlahiyyət müddəti başa çatarsa, onların səlahiyyəti həmin işə baxılıb qurtaranadək davam edir.

**Maddə 97.**

**Hakimlərin dəyişilməzliyi**

Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinin birinci hissəsinə uyğun olaraq hakimlər səlahiyyət müddətində dəyişilməzdirlər.

Hakimlər öz razılığı olmadan başqa vəzifəyə dəyişdirilə bilməz.

Bu qanunla müəyyən edilmiş əsaslar istisna olmaqla, hakimlər vəzifədən kənarlaşdırıla və onların səlahiyyətlərinə xitam verilə bilməz.

**Maddə 98.**

**Hakimlərin hüquqları**

Ədalət mühakiməsinin həyata keçirilməsi üçün hakimlər bu Qanunla müəyyən edilmiş səlahiyyətlərə malikdirlər.

Hakimlər müstəqillik, dəyişməzlik, toxunulmazlıq, öz manafelərini təmsil edən təşkilatlarda birləşmək, eləcə də dövlət tərəfindən təhlükəsizliyinin, mülkiyyətinin qorunması və sosial müdafiə hüquqlarına malikdirlər.

Hakimlər həmçinin aşağıdakı hüquqlara malikdirlər:

▪ qanunla üzərlərinə qoyulmuş vəzifələrin həyata keçirilməsi ilə əlaqədar öz sərəncamlarının yerinə yetirilməsini vəzifəli şəxslərdən, fiziki və hüquqi şəxslərdən tələb etmək;

▪ qanun pozuntularının törədilməsinə kömək göstərən səbəb və şəraitin aradan qaldırılması haqqında dövlət orqanlarına, digər təşkilatlara və vəzifəli şəxslərə təqdimatlar vermək;

▪ ədalət mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar vəzifəli və digər şəxslərdən məlumatlar almaq;

▪ intizam məsuliyyətinə cəlb edilməsi ilə əlaqədar şikayət etmək;

▪ öz xahişi ilə tutduğu vəzifədən azad olunması barədə ərizə vermək.

Hakimlər Azərbaycan Respublikasının prosussual qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlara da malikdirlər.

Dövlət orqanları, idarə, müəssisə və təşkilatlar, hüquqi şəxslər, habelə vəzifəli şəxslər hakimlərin ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı tələblərini və sərəncamlarını yerinə yetirməyə borcludurlar. Bu tələb və sərəncamların yerinə yetirilməməsi qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

**Maddə 99.**
**Hakimlərin vəzifələri**

Hakimlər aşağıdakı vəzifələri yerinə yetirməlidirlər:

▪ ədalət mühakiməsini həyata keçirərkən qanunların tələblərinə dəqiq və dönmədən əməl etmək, məhkəmə

fəaliyyətinin mənəvi və tərbiyəvi təsirini təmin etmək, ədalətli və qərəzsiz olmaq;

▪ müşavirə otağının sirrini qorumaq, qapalı məhkəmə iclaslarında müəyyən olunmuş məlumatları gizli saxlamaq;

▪ ədalət mühakiməsinin nüfuzuna, hakimin yüksək adına, şərəf və layaqətinə xələl gətirən hər hansı hərəkətdən çəkinmək.

Hakimlərin digər vəzifələri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

Hakim ədalət mühakiməsini həyata keçirərkən baxılan məsələ üzrə yekun qərar qəbul edilənədək, həmin qərara dair fikir bildirməməlidir. Hakimlər məhkəmə icraatına hazırlıq dövründə və məhkəmə icraatı zamanı işlə bağlı şəxslərin qəbulunu həyata keçirmirlər.

**Maddə 99-1.**
**Hakimlərin Etik Davranış Kodeksi**

Hakimlərin Etik Davranış Kodeksi hakimlik fəaliyyətinin etika prinsiplərinin və standartlarının toplusudur. Kodeks hakimlər üçün spesifik əxlaq və ədəb tələblərini, onların peşəkar etika məsələlərini, iş fəaliyyətindən kənar davranışını nizamlayır, peşə fəaliyyətinə münasibətini müəyyən edir.

Hakimlərin Etik Davranış Kodeksi Məhkəmə-Hüquq Şurası tərəfindən təsdiq edilir.

# XVIII FƏSİL

## Hakimlərin müstəqilliyi

**Maddə 100.**
**Hakimlərin müstəqilliyi**

Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinin birinci hissəsinə uyğun olaraq hakimlər müstəqildirlər və yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər.

Hakimlərin müstəqilliyi onların səlahiyyətli dövründə siyasətsizləşdirilməsi, dəyişilməzliyi və toxunulmazlığı ilə, vəzifəyə təyin olunmasının, məsuliyyətə cəlb edilməsinin, vəzifədən kənarlaşdırılmasının və səlahiyyətlərinə xitam verilməsinin məhdudlaşdırılması ilə, məhkəmə hakimiyyətinin müstəqil fəaliyyət göstərməsi və ədalət mühakiməsinin qanunda nəzərdə tutulmuş qaydada həyata keçirilməsi ilə, məhkəmə icraatına hər hansı şəxs tərəfindən məhdudiyyət qoyulmasının və müdaxilə edilməsinin yolverilməzliyi ilə, hakimlərin şəxsi təhlükəsizliyinin təmin edilməsi yolu ilə həyata keçirilir və onlara vəzifələrinə uyğun maddi və sosial təminatlar verilir.

Məhkəmə qərarları hakimlərin sərbəst daxili inamına və məhkəmə araşdırmasının nəticələrinə əsaslanmalıdır.

**Maddə 101.**
**Hakimlərin toxunulmazlığı**

Azərbaycan Respublikası Konstitusiyasının 128-ci maddəsinin I hissəsinə uyğun olaraq hakimlər toxunulmazdır.

Cinayət başında yaxalanması halları istisna olunmaqla, hakim tutula və ya həbs edilə, şəxsi axtarış və müayinəyə məruz qala, Məhkəmə-Hüquq Şurasının razılığı olmadan barəsində cinayət təqibi həyata keçirilə bilməz.

Hakimlərin toxunulmazlığı, həmçinin onların mənzillərinə, xidməti otaqlarına, nəqliyyat və rabitə vasitələrinə, poçt-teleqraf yazışmalarına, şəxsi əmlakına və sənədlərinə də şamil olunur.

Hakimi cinayət başında tutmuş cinayət təqibi orqanı bu barədə dərhal Azərbaycan Respublikasının Baş prokuroruna məlumat verir. Azərbaycan Respublikasının Baş prokuroru hakim barəsində cinayət təqibinin həyata keçirilməsi üçün əsaslar müəyyən etdikdə, dərhal Məhkəmə-Hüquq Şurasına bu barədə təqdimat verir. Məhkəmə-Hüquq Şurası hakimin tutulduğu andan 24 saat müddətində onun barəsində cinayət təqibinin həyata keçirilməsinə dair təqdimata Azərbaycan Respublikası Baş prokurorunun və ya onun müavininin iştirakı ilə baxır, həmin təqdimatın təmin və ya rədd edilməsi haqqında qərar qəbul edir. Bu qərar dərhal Azərbaycan Respublikasının Baş prokuroruna təqdim edilir.

Məhkəmə-Hüquq Şurasının razılığı olduqda, cinayət başında tutulmuş hakim barəsində cinayət təqibi Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə uyğun olaraq davam etdirilir. Belə razılıq olmadıqda, cinayət başında tutulmuş hakim dərhal azad edilir.

Digər hallarda hakim haqqında cinayət təqibinin həyata keçirilməsinə razılıq verilməsi barədə Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına daxil olduğu gündən on gün müddətində baxılır. Məhkəmə-Hüquq Şurasının razılığı olduqda, hakim barəsində cinayət təqibi

Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

Haqqında cinayət təqibinin həyata keçirilməsinə razılıq verilmiş hakim həmin andan səlahiyyətlərinin icrasına buraxılmır. Səlahiyyətlərinin icrasına müvəqqəti buraxılmayan hakimə əmək haqqı ödənilməsi davam etdirilir.

Səlahiyyətlərinin icrasına müvəqqəti buraxılmayan hakim barəsində bəraət hökmü çıxarıldıqda və ya cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilmiş hallarda cinayət təqibinə bəraətverici əsaslarla xitam verildikdə, o, yenidən səlahiyyətlərinin icrasına buraxılır.

Cinayət təqibini istisna edən digər hallarda, habelə barəsində məhkəmənin ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmə qərarı qanuni qüvvəyə mindiyi halda hakim vəzifəsidən kənarlaşdırılır.

Hakimin vəzifəsindən kənarlaşdırılması Azərbaycan Respublikası Konstitusiyasının 128-ci maddəsinin IV və V hissələrində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

Vəzifəsindən kənarlaşdırılmış hakimin səlahiyyətləri xitam edilmiş hesab olunur.

Məhkəmə səhvləri nəticəsində proses iştirakçısına, yaxud işdə iştirak edən şəxsə dəymiş ziyana görə hakimlər öz xüsusi əmlakları ilə məsuliyyət daşımırlar. Bu ziyan qanunla müəyyən olunmuş hallarda və qaydada dövlət tərəfindən ödənilir.

**Maddə 102.**
**Hakimlərin təhlükəsizliyi**

Hakimlərin təhlükəsizliyini təmin etmək məqsədi ilə on-

lara Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada xidməti silah verilə bilər. Hakimlərin öz səlahiyyətlərini icra etdikləri bütün müddət ərzində qanunvericiliklə nəzərdə tutulmuş qaydada və hallarda xidməti silahı saxlamaq, gəzdirmək və təyinatı üzrə istifadə etmək hüququ vardır, zəruri hallarda onların təhlükəsizliyi təmin edilir.

**Maddə 103.**

**Hakimlərin hərbi çağırışdan və hərbi toplanışdan azad olunması**

Hakimlər səlahiyyət müddətində hərbi çağırışdan və hərbi toplanışdan azad olunurlar.

**Maddə 104.**

**Hakimliklə bir araya sığmayan fəaliyyət**

Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinin II hissəsinə uyğun olaraq hakimlər heç bir seçkili və ya təyinatlı vəzifələr tuta bilməz, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməzlər, siyasi fəaliyyətlə məşğul ola bilməz və siyasi partiyalara üzv ola bilməzlər, vəzifə maaşından, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətinə görə aldığı vəsaitdən başqa məvacib ala bilməzlər.

**Maddə 105.**

**Hakimlərin siyasətsizləşdirilməsi**

Hakim vəzifəsinə təyin olunmuş şəxslər andiçmədən

qabaq siyasi partiyanın və ya digər siyasi təşkilatların üzvlüyündən çıxmalıdır. Bu barədə verilmiş ərizə hakimlərin şəxsi işlərinə əlavə edilir.

Hakim vəzifəsinə təyin olunmuş şəxslər siyasi partiyanın və ya başqa siyasi təşkilatın üzvlüyündən çıxmadan hakim vəzifəsinin icrasına buraxılmırlar.

**Maddə 105-1.**
**Hakimlərin ictimai birlikləri (assosiasiyaları)**

Hakimlər ümumi maraqlar əsasında birləşərək, könüllülük və üzvlərin hüquq bərabərliyi prinsipləri əsasında öz ictimai birliklərini təsis edə bilərlər.

Hakimlərin ictimai birliklərinin fəaliyyətinin əsas məqsədləri hakimləri birləşdirməkdən, onların müstəqilliyinin möhkəmləndirilməsindən, məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinə kömək etməkdən ibarətdir.

## XIX FƏSİL

## Hakimlərin maddi və sosial təminatı

**Maddə 106.**
**Hakimlərin maddi təminatı**

Hakimlərin aşağıdakı məbləğdə vəzifə maaşları müəyyən edilir:

- Ali Məhkəmənin sədrinə 1.785,0 manat həcmində;
- Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və

apellyasiya məhkəmələrinin sədrlərinə ali məhkəmə sədrinin vəzifə maaşının 90 faizi həcmində;

▪ Ağır cinayətlərə dair işlər üzrə məhkəmə, Ağır cinayətlərə dair işlər üzrə hərbi məhkəmə, Ağır Cinayətlərə dair İşlər üzrə Naxçıvan Muxtar Respublikası Məhkəməsinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Ağır Cinayətlərə dair İşlər üzrə Hərbi Məhkəmənin yurisdiksiyasını həyata keçirən müvafiq hərbi məhkəmənin sədrlərinə Ali Məhkəmə sədrinin vəzifə maaşının 80 faizi həcmində;

▪ digər məhkəmələrin sədrlərinə Ali məhkəmə sədrinin vəzifə maaşının 60 faizi həcmində;

▪ bütün məhkəmələrin sədr müavinlərə müvafiq məhkəmə sədrinin vəzifə maaşlarının 90 faizi həcmində;

▪ Ali Məhkəmənin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və apellyasiya məhkəmələrinin kollegiya sədrlərinə müvafiq məhkəmə sədrinin vəzifə maaşının 85 faizi həcmində;

▪ bütün məhkəmələrin hakimlərinə müvafiq məhkəmə sədrinin vəzifə maaşlarının 80 faizi həcmində müəyyən edilir.

Hakimlik stajının hər 5 ilinə görə, həmçinin elmi dərəcəyə görə hakimlərə hər ay vəzifə maaşlarının 15 faizi həcmində (45 faizdən çox olmamaq şərti ilə) əlavə haqq verilir. Hakim vəzifəsinə təyin edilmiş prokurorluq işçilərinin prokurorluq orqanlarındakı xidmətinin hər 5 ilinə görə eyni həcmdə əlavə haqq verilir.

**Maddə 107.**
**Hakimlərin məzuniyyətinin müddəti və haqqı**

Hakimlərə hər il qırx təqvim günü müddətində məzuniyyət

verilir. Hakimlərə məzuniyyətə çıxdığı vaxt iki aylıq vəzifə maaşı məbləğində məzuniyyət haqqı verilir.

İllik məzuniyyət Azərbaycan Respublikası Ali Məhkəməsinin, apellyasiya məhkəmələrinin və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimlərinə müvafiq məhkəmə sədri tərəfindən, digər məhkəmələrin hakimlərinə isə müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir.

Hakim illik məzuniyyətdən istənilən səbəbdən istifadə etmədikdə, ona həmin il (illər) üçün istifadə edilməmiş məzuniyyətə görə müəyyən olunmuş qaydada və məbləğdə kompensasiya ödənilir

**Maddə 108.**
**Hakimlərin mənzillə təmin edilməsi**

Təyin olunduğu yer üzrə mənzilə, həmçinin mənzil şəraitini yaxşılaşdırmağa ehtiyacı olan hakimlər bu vəzifəyə təyin olunduğu gündən 6 ay müddətində müvafiq icra hakimiyyəti orqanı tərəfindən mənzillə təmin edilməlidirlər.

**Maddə 109.**
**Hakimlərin sosial müdafiəsi**

Hakimlərin həyatı və sağlamlığı dövlət büdcəsi hesabına onların 5 illik əmək haqqı məbləğində sığorta edilir. Xidməti vəzifələrinin icrası ilə əlaqədar hakimlər həlak olduqda (vəfat etdikdə) və ya onlar xidmətin davam etdirilməsinə imkan verməyən dərəcədə xəstələndikdə, xəsarət (yaralanma, travma, kontuziya) aldıqda qanunvericilikdə nəzərdə tutulmuş qaydada və məbləğdə birdəfəlik müavinət ödənilir.

Hakimlərə məxsus əmlakın xidməti fəaliyyəti ilə əlaqədar

məhv olması və ya zədələnməsi nəticəsində vurulan ziyan hakimlərə və ya onların ailə üzvlərinə tam həcmdə ödənilir.

Bu maddədə nəzərdə tutulmuş ziyan qanunla müəyyən olunmuş qaydada sonradan təqsirkar şəxslərdən tutulmaqla Azərbaycan Respublikasının dövlət büdcəsindən ödənilir.

Hakimlər dövlət tibb xidmətilə təmin olunurlar. Hakimlərə müalicə olunmaları üçün onların iki aylıq əmək haqqı məbləğində müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada pul təminatı verilir.

Azı 5 il hakim işləmiş və pensiya yaşına çatmış və ya bu yaşa çatanadək əlil olmuş sabiq hakimlərin pensiya təminatı «Əmək pensiyaları haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

Bu maddənin beşinci hissəsinin müddəaları bu Qanuna uyğun keçirilmiş təyinatlardan əvvəl hakim işləmiş və pensiya yaşına çatmış sabiq hakimlərə də şamil edilir.

## XX FƏSİL

## Hakimlərin həvəsləndirilməsi, səlahiyyətlərinə xitam verilməsi və intizam məsuliyyəti

### Maddə 110. Hakimlərin həvəsləndirilməsi

Hakimlər vəzifələrini nümunəvi yerinə yetirdikdə, uzun müddət və qüsursuz işlədikdə, habelə digər nailiyyətlər qazandıqda Məhkəmə-Hüquq Şurası onların barəsində

aşağıdakı həvəsləndirmə tədbirlərini görür:
▪ təşəkkür elan etmək;
▪ mükafat vermək.

**Maddə 111.**
**Hakimlər barəsində intizam icraatının başlanılmasına dair müraciət üçün səbəblər**

Hakimlər barəsində intizam icraatının başlanılmasına dair müraciət aşağıda göstərilən səbəblərdən biri və ya bir neçəsi olduqda edilir:
▪ fiziki və hüquqi şəxslərin şikayətləri;
▪ kütləvi informasiya vasitələrində dərc olunmuş məlumatlar;
▪ işlərə apellyasiya və ya kassasiya instansiyası məhkəmələrində baxılarkən aşkar edilmiş qanun pozuntuları və hakimlər haqqında bu məhkəmələrin çıxardığı xüsusi qərarlar;
▪ İnsan hüquqları üzrə Avropa Məhkəməsinin və Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin qərarlarında əks etdirilmiş qanun pozuntuları;
▪ hakimlərin fəaliyyətinin qiymətləndirilməsi zamanı və məhkəmə təcrübəsinin ümumiləşdirilməsi nəticəsində aşkara çıxan qanun pozuntuları;
▪ intizam icraatının başlanılması barədə müraciət hüququ olan şəxslərin əldə etdikləri digər məlumatlar.

**Maddə 111-1.**
**Hakimlərin intizam məsuliyyətinə cəlb edilməsinin əsasları**

Hakimlər yalnız aşağıdakı əsaslara görə intizam mə-

suliyyətinə cəlb edilir:

▪ işlərə baxarkən qanunvericiliyin tələblərini dəfələrlə və ya kobudcasına pozduqda;

▪ hakim etikasını pozduqda;

▪ əmək və icra intizamı haqqında qanunvericiliyin tələblərini pozduqda;

▪ Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsi ilə müəyyən edilmiş maliyyə xarakterli tələblərə əməl etmədikdə;

▪ Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə;

▪ hakim adına ləkə gətirən hərəkətə yol verdikdə.

**Maddə 112.**

**Hakimlərin intizam məsuliyyətinə cəlb edilməsi qaydası**

Hakimlər barəsində intizam icraatını yalnız Məhkəmə-Hüquq Şurası başlaya bilər. Azərbaycan Respublikası Ali Məhkəməsinin, apellyasiya məhkəmələrinin sədrləri, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı bu Qanunla müəyyən edilmiş səbəblər və intizam məsuliyyətinə cəlb edilmə əsaslarının əlamətləri olduqda, öz səlahiyyətləri daxilində intizam icraatının başlanılması barədə Məhkəmə-Hüquq Şurasına müraciət etməyə borcludurlar.

Fiziki və hüquqi şəxslər hakimlər tərəfindən bu Qanunun 111-1-ci maddəsinin altıncı abzasında hakimlər üçün

müəyyən edilmiş intizam məsuliyyətinə cəlb edilmə əsasının əlamətləri haqqında məlumatlar olduqda, Məhkəmə-Hüquq Şurasına müraciət edə bilərlər.

Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri birinci, apellyasiya və kassasiya instansiyaları məhkəmələrinin hakimləri haqqında intizam icraatının başlanılması barədə Məhkəmə-Hüquq Şurasına müraciət edir.

Apellyasiya məhkəmələrinin sədrləri müvafiq apellyasiya məhkəmələrinin hakimləri, habelə həmin məhkəmələrin ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələrinin hakimləri haqqında intizam icraatının başlanılması barədə Məhkəmə-Hüquq Şurasına müraciət edirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri həmin məhkəmənin hakimləri və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələrinin hakimləri haqqında intizam icraatının başlanılması barədə Məhkəmə-Hüquq Şurasına müraciət edir.

Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanı birinci və apellyasiya instansiyası məhkəmələrinin hakimləri haqqında intizam icraatının başlanılması barədə Məhkəmə-Hüquq Şurasına müraciət edir.

Hakimlər haqqında intizam icraatı intizam pozuntusunun aşkar edildiyi gündən bir il və törədildiyi gündən üç il müddətində başlana bilər.

Hakimlər yalnız Məhkəmə-Hüquq Şurasının qərarına əsasən intizam məsuliyyətinə cəlb edilirlər.

Məhkəmə-Hüquq Şurası intizam icraatı üzrə aşağıdakı

qərarlardan birini qəbul edir:

▪ hakimə irad tutulması haqqında;

▪ hakimə töhmət verilməsi haqqında;

▪ hakimin vəzifədə aşağı salınması barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təklif verilməsi haqqında;

▪ hakimin iş yerinin dəyişdirilməsi barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təklif verilməsi haqqında;

▪ hakimin səlahiyyətlərinə xitam verilməsi barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təklif verilməsi haqqında;

▪ intizam icraatına xitam verilməsi haqqında.

Bu qanunun 111-1-ci maddəsində nəzərdə tutulmuş hakimlərin intizam məsuliyyətinə cəlb edilməsinin əsaslarından asılı olaraq hakimlərə, bir qayda olaraq, aşağıdakı cəzalardan biri verilir:

▪ işlərə baxarkən qanunvericiliyin tələblərinin dəfələrlə və ya kobudcasına pozulmasına görə-hakimə töhmət verilir və ya hakimin iş yerinin dəyişdirilməsi barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təklif verilir;

▪ hakim etikasının pozulmasına görə-hakimə irad tutulur və ya töhmət verilir, yaxud hakimin iş yerinin dəyişdirilməsi barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təklif verilir;

▪ əmək və icra intizamı haqqında qanunvericiliyin tələblərinin pozulmasına görə-hakimə irad tutulur və ya töhmət verilir, yaxud hakimin iş yerinin dəyişdirilməsi barədə

Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təklif verilir;

▪ «Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsi ilə müəyyən edilmiş maliyyə xarakterli tələblərə əməl edilməməsinə görə-hakimə irad tutulur və ya töhmət verilir;

▪ «Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində göstərilən hüqüqpozmaların törədilməsinə görə-hakimə töhmət verilir və ya hakimin iş yerinin dəyişdirilməsi, yaxud hakimin vəzifədə aşağı salınması barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təklif verilir;

▪ hakim adına ləkə gətirən hərəkətlərə yol verilməsinə görə-hakimə irad tutulur və ya töhmət verilir, yaxud hakimin vəzifədə aşağı salınması barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təklif verilir.

İntizam məsuliyyətinə cəlb edilmə haqqında qərardan şikayət verilməmişsə, o qəbul edildiyi vaxtdan iyirmi gün sonra qüvvəyə minir.

Həmin müddət ərzində intizam məsuliyyətinə cəlb edilmə haqqında Məhkəmə-Hüquq Şurasının qərarından Ali Məhkəmənin Plenumuna şikayət verilə bilər.

Ali Məhkəmənin Plenumu üç ay müddətində şikayətə baxıb Məhkəmə-Hüquq Şurasının qərarını qüvvədə saxlayır, ləğv edir və ya ona dəyişikliklər edir və öz qərarını Şuraya təqdim edir. Ali Məhkəmənin Plenumunun qərarı qətidir. İntizam məsuliyyətinə cəlb edilmə haqqında Məhkəmə-Hüquq Şurasının qərarlarından verilmiş şikayətlərə Ali Məhkəmənin Plenumunda baxılarkən həmin qərarlarla bağlı

Məhkəmə-Hüquq Şurasının iclaslarında səsvermədə iştirak etmiş Şuranın üzvləri Plenumun iclaslarında səsvermədə iştirak etmirlər.

Hakimlər cəza verildiyi gündən bir il ərzində yenidən intizam məsuliyyətinə cəlb edilməmişsə, intizam məsuliyyətinə cəlb edilməmiş sayılırlar.

Hakimlərin intizam məsuliyyəti məsələsinə bu Qanunla və Məhkəmə-Hüquq Şurası haqqında Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada baxılır.

**Maddə 113.**

**Hakimlərin səlahiyyətlərinə xitam verilməsinin əsasları**

Hakimlərin səlahiyyətlərinə onların səlahiyyət müddəti (uzadılmış səlahiyyət müddəti) qurtardıqda Məhkəmə-Hüquq Şurası tərəfindən xitam verilir.

Hakimlərin səlahiyyətlərinə aşağıdakı əsaslara görə vaxtından əvvəl xitam verilə bilər:

1) öz arzusu ilə vəzifəsindən çıxmaq barədə yazılı ərizə verdikdə;

2) hakim vəzifəsindən kənarlaşdırıldıqda;;

3) fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən müəyyən edildikdə;

4) vəfat etdikdə;

5) məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə;

6) bu Qanunla hakim vəzifəsinə namizədlər üçün müəyyən edilmiş tələblərə uyğun gəlmədiyi aşkar edildikdə;

7) tutduğu vəzifə ilə bir araya sığmayan fəaliyyətlə məşğul olduqda;

8) Azərbaycan Respublikası vətəndaşlığından çıxdıqda, başqa dövlətin vətəndaşlığını qəbul etdikdə və ya digər dövlət qarşısında öhdəlik götürdükdə;

9) altı aydan artıq müddətdə xəstəliyi ilə əlaqədar vəzifəsinin yerinə yetirilməsinin qeyri-mümkünlüyü barədə Məhkəmə-Hüquq Şurası tərəfindən təşkil edilmiş xüsusi hakim komissiyasının müvafiq rəyi olduqda;

10) bu Qanunun 111-1-ci maddəsində nəzərdə tutulmuş əsaslara görə təqvim ili ərzində iki dəfə intizam cəzası verildikdə;

11) işlərə baxarkən qanunvericiliyin tələblərini dəfələrlə kobudcasına pozduqda.

**Maddə 114.**

**Hakimlərin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi qaydası**

Bu Qanunun 113-cü maddəsinin 6-11-ci bəndlərində nəzərdə tutulmuş əsaslar olduqda, hakimlərin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi üçün Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri və ya müvafiq icra hakimiyyəti orqanı intizam icraatının başlanılması haqqında Məhkəmə-Hüquq Şurasına müraciət edirlər.

Hakimin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında qərar qəbul edildikdə, Məhkəmə-Hüquq Şurası bu barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təklif verir.

Bu Qanunun 113-cü maddəsinin 1-ci və 6-11-ci

bəndlərində nəzərdə tutulmuş əsaslar olduqda hakimlərinin səlahiyyətlərinə onları təyin etmiş orqan tərəfindən vaxtından əvvəl xitam verilir.

Bu Qanunun 113-cü maddəsinin 3-5-ci bəndlərində nəzərdə tutulmuş əsaslar olduqda hakimlərin səlahiyyətlərinə Məhkəmə-Hüquq Şurası tərəfindən vaxtından əvvəl xitam verilir.

## XXI FƏSİL

## Andlı iclasçılar

### Maddə 115. Andlı iclasçılara aid tələblər

Andlı iclasçılar Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallarda və qaydada məhkəmələrdə işlərə baxılmasına cəlb olunan və andlı iclasçıların siyahısına daxil edilən Azərbaycan Respublikası vətəndaşlarıdır.

Andlı iclasçıların siyahılarına aşağıdakı şəxslər daxil edilmirlər:

- seçki hüququna malik olmayanlar;
- andlı iclasçıların siyahıları tərtib edilənədək 25 yaşına çatmayanlar;
- ikili vətəndaşlığı olanlar;
- digər dövlətlər qarşısında öhdəliyi olanlar;
- əvvəllər məhkum olunmuşlar və ya cinayət törətməkdə şübhə və ittiham edilənlər;

▪ fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən təsdiq edilənlər.

İrqindən, milliyyətindən, dinindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən və digər hallardan asılı olmayaraq vətəndaşların andlı iclasların siyahılarına daxil edilməsinə məhdudiyyət qoyulmasına yol verilmir.

Andlı iclasçıların siyahılarından aşağıdakı vətəndaşlar çıxarılır;

▪ məhkəmə icraatının aparıldığı dili bilməyənlər;

▪ lal, kar, kor əlillər;

▪ fiziki, psixi qüsurları tibbi sənədlərlə təsdiq edilən və buna görə də andlı iclasçı vəzifələrini yerinə yetirmək imkanından məhrum olanlar;

▪ 70 yaşına çatanlar;

▪ qanunvericilik və icra hakimiyyəti orqanlarının rəhbərləri, onların müavinləri, hakimlər, prokurorlar, daxili işlər, sərhəd xidməti və milli təhlükəsizlik orqanlarının rəhbər və əməliyyat işçiləri, müstəntiqlər, vəkillər, notariuslar;

▪ hərbi qulluqçular;

▪ din xadimləri.

**Maddə 116.**

**Andlı iclasçıların vəzifələrinin icrasından azad edilməsi əsasları**

Andlı iclasçılar aşağıdakı hallarda məhkəmə iclasına sədrlik edən hakim tərəfindən vəzifələrinin icrasından azad edilirlər:

▪ andlı iclasçıların bu Qanunda nəzərdə tutulmuş tələblərə

uyğun gəlmədiyi aşkar edildikdə;

▪ andlı iclasçılara qanunsuz təsir göstərilməsi, onların qərəzli fikirdə olması, işin hallarını prosessual qanunvericiliyində nəzərdə tutulmayan mənbələrdən bilmələri, eləcə də digər səbəbdən onların obyektivliyinə əsaslı şübhə yarandıqda;

▪ andlı iclasçılar üzürlü səbəbdən vəzifələrinin icrasından azad olunmağa dair yazılı ərizə verdikdə.

**Maddə 117.**
**Andlı iclasçıların siyahısının tərtib edilməsi**

Müvafiq icra hakimiyyəti orqanının rəhbərliyi hər iki il yarımdan bir həmin rayonda (şəhərdə) fəaliyyət göstərən andlılar məhkəməsinin fəaliyyətinin təmin edilməsi üçün həmin ərazidə yaşayan vətəndaşlardan ibarət ümumi və ehtiyatda olan andlı iclasçıların siyahısını tərtib edir.

Andlı iclasçıların ehtiyat siyahısına daxil olan vətəndaşların sayı andlı iclasçıların ümumi siyahısına daxil edilmiş bütün şəxslərin dörddə birindən çox olmamalıdır.

Andlı iclasçıların zəruri sayı müvafiq məhkəmə sədrləri tərəfindən müəyyən edilir və bu barədə müvafiq icra hakimiyyətinə təqdimat verilir.

Andlı iclasçıların ümumi və ehtiyat siyahısının tərtib edilməsi müddətini və qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

**Maddə 118.**
**Andlı iclasçıların ümumi və ehtiyat siyahıları**

Müvafiq icra hakimiyyəti orqanı məhkəmə sədrinin

təqdimatına uyğun olaraq rayon (şəhər) üzrə seçicilərin siyahısı əsasında təsadüfi seçmə yolu ilə andlı iclasçıların ümumi siyahısını tərtib edir. Bundan sonra andlı iclasçılara aid bu Qanunda nəzərdə tutulmuş tələblərə uyğun gəlməyən şəxslərin adları siyahıdan çıxarılır.

Andlı iclasçıların ümumi siyahısının tərtib edilməsi barədə müvafiq icra hakimiyyəti orqanı əhaliyyə məlumat verir, bir ay müddətində vətəndaşları siyahılarla tanış edir və daxil olan ərizələrə baxır.

Müvafiq icra hakimiyyəti orqanı andlı iclasçıların ümumi siyahısı ilə bir vaxtda onların ehtiyat siyahısını də tərtib edir və həmin siyahıya məhkəmənin yerləşdiyi rayonun (şəhərin) mərkəzində yaşayan vətəndaşları daxil edir.

Andlı iclasçıların ümumi və ehtiyat siyahıları müvafiq icra hakimiyyəti orqanı rəhbərinin imzası və möhürü ilə təsdiq edildikdən sonra müvafiq məhkəməyə təqdim olunur.

Əhalini məlumatlandırmaq üçün andlı iclasçıların ümumi və ehtiyat siyahıları mətbuatda dərc edilir.

Dövlət orqanları, müəssisə, idarə və təşkilatlar, vətəndaşlar hər hansı şəxsin siyahıya qanunsuz salınması və ya salınmaması, yaxud onların siyahıdan çıxarılması və siyahıdakı digər səhvlər barədə müvafiq icra hakimiyyəti orqanlarına ərizə ilə müraciət edə bilərlər.

Müvafiq icra hakimiyyəti orqanı daxil olmuş ərizələrə yeddi gün müddətində baxır və qərar qəbul edir. Həmin qərardan beş gün ərzində rayon (şəhər) məhkəməsinə şikayət verilə bilər. Məhkəmə üç gün ərzində şikayətə baxır və onun qərarı qətidir.

Müvafiq icra hakimiyyəti orqanı andlı iclasçıların siyahılarını mütəmadi yoxlamağa və zərurət olduqda onları

dəyişməyə, andlı iclasçı olmaq hüququnu itirmiş şəxsləri siyahıdan çıxarıb, əlavə seçilmiş şəxsləri siyahıya daxil etməlidir.

Siyahıya edilən dəyişikliklər və əlavələr müvafiq məhkəməyə yeddi gün müddətində təqdim olunmalıdır.

**Maddə 119.**

**Andlı iclasçıların siyahılarına dair məlumatların təqdim edilməsi**

Vətəndaşlar, dövlət orqanları, müəssisə, idarə və təşkilatların vəzifəli şəxsləri müvafiq icra hakimiyyəti orqanının sorğusuna əsasən andlı iclasçıların siyahısının tərtib edilməsi üçün zəruri məlumatları verməyə borcludurlar.

Bu məlumatların təqdim olunmaması, eləcə də yanlış məlumatların təqdim edilməsi qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

**Maddə 120.**

**Andlı iclasçıların vəzifələrinin icrasına çağırılması qaydası və müddəti**

İşlərə baxılması üçün zəruri olan sayda andlı iclasçıların çağırılmasını işə baxan məhkəmə sədrinin sərəncamı ilə məhkəmə aparatı həyata keçirir.

Andlı iclasçıların qanunda nəzərdə tutulmuş tələblərə uyğun gəlmədiyi müəyyən edildikdə onların andlı iclasçıların siyahısından çıxarılması barədə məhkəmənin sədri müvafiq icra hakimiyyəti orqanına məlumat verir.

Andlı iclasçılar məhkəmədə öz vəzifələrinin icrasına ildə bir dəfə on beş gün müddətinə çağırılırlar. Başlanmış işlərə

baxılması ilə əlaqədar bu müddət işə baxılıb qurtaranadək uzadılır.

**Maddə 121.**

**Andlı iclasçıların iş yerinin və əmək haqqının saxlanılması**

Andlı iclasçıların məhkəmədə vəzifələrini icra etdikləri müddətdə iş yeri, orta əmək haqqı və digər ödənişləri saxlanılır.

Dövlət büdcəsindən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda işləyən andlı iclasçıların məhkəmədə öz vəzifələrinin icrası ilə əlaqədar əmək haqqı onların iş yerindən, sahibkarlıq, kommersiya və digər müəssisələrdə işləyən andlı iclasçıların əmək haqqı isə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada ödənilir.

Andlı iclasçıların məhkəmədə öz vəzifələrini icra etdikləri müddətdə işlədikləri müəssisə, idarə və təşkilat müdiriyyətinin təşəbbüsü ilə işdən çıxarılmasına yol verilmir.

**Maddə 122.**

**Andlı iclasçıların müstəqilliyinin və toxunulmazlığının təminatı**

Andlı iclasçıların müstəqilliyi məhkəmə hakimiyyətinin müstəqil fəaliyyət göstərməsi və ədalət mühakiməsinin qanunda nəzərdə tutulmuş qaydada həyata keçirilməsi, məhkəmədə işlərə baxılarkən öz vəzifələrini sərbəst icra etməsi, məhkəmə icraatına hər hansı şəxs tərəfindən

məhdudiyyət qoyulmasının və müdaxilə edilməsinin yolverilməzliyi və andlı iclasçıların toxunulmazlığı ilə təmin edilir.

Andlılar məhkəməsində vəzifələrini icra edən andlı iclasçılar tərəfindən müraciət olduqda onların şəxsi təhlükəsizliyi, əmlakının mühafizəsi təmin edilir. Andlılar məhkəməsində vəzifələrini icra edən andlı iclasçıların həyatı və sağlamlığı qanunvericiliyə uyğun olaraq icbari qaydada dövlət tərəfindən sığortalanır. Andlı iclasçı vəzifələrinin icrası ilə əlaqədar həlak olduqda (vəfat etdikdə) və ya işini davam etdirməsinə imkan verməyən dərəcədə xəstələndikdə, xəsarət (yaralanma, travma, kontuziya) aldıqda qanunvericiliklə nəzərdə tutulmuş qaydada və məbləğdə birdəfəlik müavinət ödənilir.

Məhkəmə səhvləri nəticəsində proses iştirakçısına yaxud işdə iştirak edən şəxsə dəymiş ziyana görə andlı iclasçılar öz xüsusi əmlakları ilə məsuliyyət daşımırlar. Bu ziyan qanunla müəyyən olunmuş hallarda və qaydada dövlət tərəfindən ödənilir.

**Maddə 123.**
**Andlı iclasçıların öz vəzifələrinin icrasına mane olmağa görə məsuliyyət**

Müəssisə, idarə və təşkilatların rəhbərləri, digər vəzifəli şəxslər və vətəndaşlar andlı iclasçıların vəzifələrinin icrasına mane olduqda qanunda nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

## Keçid müddəaları

1. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

2. Bu Qanun qüvvəyə mindiyi gündən onun qəbul edilməsindən əvvəl seçilmiş hakimlərin maddi və sosial təminatı barədə müddəalar istisna edilməklə məhkəmə quruluşuna və hakimlərin statusuna dair qüvvədə olan Azərbaycan Respublikasının qanunvericilik aktları qüvvədən düşür.

3. Azərbaycan Respublikasının rayon (şəhər) xalq məhkəmələri və hərbi qarnizon tribunalları bu Qanunun qüvvəyə mindiyi gündən müvafiq olaraq Azərbaycan Respublikasının rayon (şəhər) məhkəmələri və hərbi məhkəmələr adlandırılır.

4. Azərbaycan Respublikasında fəaliyyət göstərən məhkəmələr bu Qanunda nəzərdə tutulmuş məhkəmələr təşkil edilənədək və yeni prosesual qanunlar qəbul edilənədək qüvvədə olan qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri həyata keçirirlər.

5. Bu Qanun qəbul edilənədək seçilmiş Azərbaycan Respublikası məhkəmələri hakimlərinin səlahiyyət müddəti həmin məhkəmələrə yeni hakimlərin təyin olunduğu gündən, işə baxılan müddətdə isə işə baxılıb qurtardığı gündən bitmiş hesab olunur.

6. Qanunun andlı iclasçılara dair müddəaları məhkəmə-hüquq islahatları başa çatdıqdan və müvafiq Qanun qəbul edildikdən sonra qüvvəyə minir.

7. Bu Qanunun 96-cı maddəsinin müddəaları 2005-ci il 1 yanvar tarixinədək hakim vəzifəsinə təyin edilmiş hakimlərə şamil edilmir və onlar səlahiyyətlərinin icrasını davam

etdirirlər. Bu şəxslərin səlahiyyət müddətləri başa çatdıqdan sonra yenidən hakim vəzifəsinə təyin edilməsi onların fəaliyyətinin qiymətləndirilməsi əsasında həyata keçirilir. Fəaliyyəti məqbul qiymətləndirilmiş hakimlər aşağıdakı müddətə yenidən hakim vəzifəsinə təyin edilirlər:

▪ 15 ilə qədər hakimlik stajı olanlar-10 il müddətinə, lakin son yaş həddini - 65 yaşı keçməmək şərti ilə;

▪ 15 il və daha çox hakimlik stajı olanlar-son yaş həddinə-65 yaşınadək.

Səlahiyyəti 10 il müddətinə uzadılmış hakimlərin səlahiyyət müddəti başa çatdıqdan sonra onların səlahiyyətlərinin yenidən uzadılması qiymətləndirmə əsasında bu Qanunla müəyyən edilmiş ümumi qaydada həyata keçirilir.

Son yaş həddinə çatmış hakimin peşəkarlığından istifadə edilməsinə ehtiyac olduqda, Məhkəmə-Hüquq Şurasının təklifi ilə onun səlahiyyət müddəti 70 yaşınadək artırıla bilər.

8. Müəyyən müddətə hakim vəzifəsinə təyin edilmiş şəxsin digər hakim vəzifəsinə keçirilməsi onun səlahiyyət müddətini artırmır. Hakimlərin iş yerinin dəyişdirilməsi onların təyin olunduqları səlahiyyət müddəti hüdudlarında həyata keçirilir.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

*Bakı şəhəri, 10 iyun 1997-ci il*
**№ 310-IQ**

«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (30 noyabr 1997-ci il, № 5, maddə 413)

2 aprel 1999-cu il tarixli, 646-IQ nömrəli; 8 iyun 1999-cu il tarixli, 679-1QD nömrəli; 5 oktyabr 1999-cu il tarixli, 706-IQD nömrəli; 16 fevral 2001-ci il tarixli, 76-IIQD nömrəli; 24 aprel 2001-ci il tarixli, 125-IIQD nömrəli; 2 iyul 2001-ci il tarixli, 172-IIQD nömrəli; 19 oktyabr 2001-ci il tarixli, 210-IIQD nömrəli; 22 noyabr 2002-ci il tarixli, 382-IIQD nömrəli qanunlara; 29 aprel, 2003-cü il tarixli Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarına və 20 iyun 2003-cü il tarixli, 489-IIQD nömrəli; 30 dekabr 2003-cü il tarixli, 568-IIQD nömrəli; 5 mart 2004-cü il tarixli, 597-IIQD nömrəli; 5 mart 2004-cü il tarixli, 598-IIQD nömrəli; 8 iyun 2004-cü il tarixli, 684-IIQD nömrəli; 11 iyun 2004-cü il tarixli, 688-IIQD nömrəli; 1 sentyabr 2004-cü il tarixli, 726-IIQD nömrəli; 28 dekabr 2004-cü il tarixli, 817-IIQD nömrəli; 14 iyun 2005-ci il tarixli, 939-IIQD nömrəli; 30 dekabr 2005-ci il tarixli, 52-IIIQD nömrəli; 20 oktyabr 2006-cı il tarixli, 167-IIIQD nömrəli; 17 aprel 2007-ci il tarixli, 319-IIIQD nömrəli; 8 may 2007-ci il tarixli, 330-IIIQD nömrəli; 16 iyun 2007-ci il tarixli, 385-IIIQD nömrəli; 19 oktyabr 2007-ci il tarixli, 462-IIIQD nömrəli; 25 dekabr 2007-ci il tarixli, 523-IIIQD nömrəli; 22 fevral 2008-ci il tarixli, 551-IIIQD nömrəli; 4 iyul 2008-ci il tarixli, 665-IIIQD nömrəli; 16 dekabr 2008-ci il tarixli, 741-IIIQD nömrəli qanunlara əsasən əlavələr və dəyişikliklərlə.

1) Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 23 yanvar 2001-ci il tarixli Qərarına əsasən «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikası Qanununun 106-cı maddəsinin ikinci hissəsinin müddəaları bu qanuna əsasən hakim vəzifəsinə təyin edilmiş şəxslərə onların

qanun qəbul edilənədək olan hakimlik stajı nəzərə alınmaqla şamil edilir.

2) Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 27 iyun 2001-ci il tarixli Qərarına əsasən 109-cu maddəsinin beşinci hissəsində nəzərdə tutulmuş «axırıncı iş yerlərində aldıqları vəzifə maaşları» dedikdə axırıncı iş yerlərində hakim kimi aldıqları vəzifə maaşları başa düşülməlidir.

3) Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 29 aprel 2003-cü il tarixli Qərarına əsasən «Məhəmələr və hakimlər haqqında» Azərbaycan Respublikası Qanununun «Keçid müddəaları»nın 7-ci bəndi Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinə və 149-cu maddəsinin I hissəsinə uyğun olmadığından qüvvədən düşmüş hesab edilsin.

## MƏHKƏMƏ-HÜQUQ ŞURASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ

## QANUNU

# I FƏSİL

# Ümumi müddəalar

**Maddə 1.**
**Məhkəmə-Hüquq Şurasının təyinatı**

Məhkəmə-Hüquq Şurası Azərbaycan Respublikasında məhkəmə sisteminin təşkilinin təmin edilməsi, vakant hakim vəzifələrinə hakim olmayan namizədlərin (bundan sonra-«hakim vəzifəsinə namizədlər») seçilməsinin təşkili, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, onların iş yerinin dəyişdirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb edilməsi, habelə məhkəmələr və hakimlərlə bağlı digər məsələləri səlahiyyəti daxilində həll edən məhkəmə hakimiyyətinin özünüidarə funksiyalarını həyata keçirən orqandır.

**Maddə 2.**
**Məhkəmə-Hüquq Şurasının fəaliyyətinin hüquqi əsasları**

Məhkəmə-Hüquq Şurasının fəaliyyətinin əsaslarını Azər-

baycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, bu qanun, «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları təşkil edir.

**Maddə 3.**
**Məhkəmə-Hüquq Şurasının fəaliyyətinin əsas prinsipləri**

Məhkəmə-Hüquq Şurası öz fəaliyyətini müstəqillik, qanunçuluq, kollegiallıq, qərəzsizlik və obyektivlik prinsipləri əsasında qurur.

**Maddə 4.**
**Məhkəmə-Hüquq Şurasının müstəqilliyi**

4.1. Məhkəmə-Hüquq Şurası daimi fəaliyyət göstərən müstəqil orqandır və təşkilati, maliyyə, habelə hər hansı başqa cəhətdən qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarından, yerli özünüidarə orqanlarından, habelə hüquqi və fiziki şəxslərdən asılı deyildir.

4.2. Məhkəmə-Hüquq Şurası qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları, Azərbaycan Respublikasının Vəkillər Kollegiyası, elmi təşkilatlarla qarşılıqlı fəaliyyət göstərir.

**Maddə 5.**
**Məhkəmə-Hüquq Şurasının maliyyələşdirilməsi və atributları**

5.1. Məhkəmə-Hüquq Şurasının fəaliyyəti dövlət büd-

cəsindən maliyyələşdirilir. Məhkəmə-Hüquq Şurasının fəaliyyətinin maliyyələşdirilməsi üçün ayrılan illik vəsaitin tərkibində cari xərclərin məbləği əvvəlki maliyyə ilində bu məqsəd üçün nəzərdə tutulmuş məbləğdən az ola bilməz.

5.2. Məhkəmə-Hüquq Şurası ona həvalə edilən vəzifələrin həyata keçirilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş digər mənbələrdən də maliyyələşə bilər.

5.3. Məhkəmə-Hüquq Şurası müstəqil balansa, dövlət mülkiyyətində olan əmlaka, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı olan möhürə, müvafiq ştamplara, embleme, blanklara, xəzinə və bank hesablarına malikdir.

## II FƏSİL

## Məhkəmə-Hüquq Şurasının təşkili

### Maddə 6.
### Məhkəmə-Hüquq Şurasının tərkibi

6.1. Məhkəmə-Hüquq Şurası 15 üzvdən ibarət tərkibdə fəaliyyət göstərir.

6.2. Məhkəmə-Hüquq Şurasının tərkibi əsasən hakimlərdən, habelə icra, qanunvericilik, prokurorluq orqanları və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının nümayəndələrindən ibarət olmaqla, aşağıdakı şəxslərdən təşkil olunur:

6.2.1. Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti

orqanının rəhbəri;

6.2.2. Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri;

6.2.3. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən təyin edilən şəxs;

6.2.4. Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təyin edilən şəxs;

6.2.5. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən təyin edilən hakim;

6.2.6. hakim assosiasiyaları tərəfindən təklif olunmuş namizədlər sırasından Azərbaycan Respublikası Ali Məhkəməsinin təyin etdiyi kassasiya instansiyası məhkəməsinin iki hakimi;

6.2.7. hakim assosiasiyaları tərəfindən təklif olunmuş namizədlər sırasından Azərbaycan Respublikası Ali Məhkəməsinin təyin etdiyi apellyasiya məhkəmələrinin iki hakimi;

6.2.8. hakim assosiasiyaları tərəfindən təklif olunmuş namizədlər sırasından Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin təyin etdiyi Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi;

6.2.9. hakim assosiasiyaları tərəfindən təklif olunmuş namizədlər sırasından Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının təyin etdiyi birinci instansiya məhkəməsinin iki hakimi;

6.2.10. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının təyin etdiyi şəxs;

6.2.11. Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən təyin edilən vəkil;

6.2.12. Azərbaycan Respublikasının Baş Prokurorluğu

tərəfindən təyin edilən şəxs.

6.3. Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının rəhbəri və Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri vəzifəyə görə Məhkəmə-Hüquq Şurasının üzvləri hesab edilirlər.

6.4. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı, Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı və Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən Məhkəmə-Hüquq Şurasına üzv təyin edilən şəxslər ali hüquq təhsilinə və hüquqşünas ixtisası üzrə beş ildən artıq iş stajına malik olmalıdırlar.

6.5. Hakim assosiasiyaları hər bir Məhkəmə-Hüquq Şurası üzvü yerinə ən azı iki namizəd təklif etməlidirlər. Məhkəmə-Hüquq Şurası üzvlüyünə təklif olunmuş namizədlərin siyahısına onları təyin edən orqan tərəfindən yalnız bir dəfə etiraz edilə bilər. İkinci dəfə təqdim olunmuş namizədlər sırasından Məhkəmə-Hüquq Şurasının üzvü təyin edilməlidir.

6.6. Məhkəmə-Hüquq Şurası üzvlərinin səlahiyyət müddəti beş ildir.

6.7. Vəzifəyə görə Məhkəmə-Hüquq Şurasının üzvü olan şəxslər istisna olmaqla, eyni şəxs ardıcıl olaraq iki dəfədən artıq Məhkəmə-Hüquq Şurasının üzvü təyin edilə bilməz.

**Maddə 7.**
**Məhkəmə-Hüquq Şurası üzvlərinə aid tələblər**

Məhkəmə-Hüquq Şurasının tərkibinə ikili vətəndaşlığı, başqa dövlətlər qarşısında öhdəliyi olan, elmi, pedaqoji və

yaradıcılıq fəaliyyəti istisna olmaqla, sahibkarlıq və kommersiya fəaliyyəti ilə məşğul olan şəxslər, din xadimləri daxil edilə bilməzlər.

**Maddə 8.**
**Məhkəmə-Hüquq Şurası üzvlərinin təminatı**

8.1. Məhkəmə-Hüquq Şurası üzvlərinin şuranın üzvü olduqları müddət ərzində iş yerləri üzrə əməkhaqları saxlanılır. Əməkhaqqı almayan və ya işəmuzd əməkhaqqı alan Məhkəmə-Hüquq Şurasının üzvlərinə şuranın iclaslarında iştirak etdikləri günlər üçün Məhkəmə-Hüquq Şurası tərəfindən onların son iki ildə orta illik gəliri əsasında hesablanmış gündəlik haqq ödənilir.

8.2. Məhkəmə-Hüquq Şurasının üzvlərinə səlahiyyətlərinin yerinə yetirilməsi ilə bağlı təmsilçilik xərclərinin ödənilməsi üçün Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimlərinin əmək haqqının 25 faizi məbləğində aylıq əlavə pul təminatı verilir. Əlavə pul təminatı Məhkəmə-Hüquq Şurası tərəfindən dövlət büdcəsindən şuraya ayrılmış vəsait hesabına ödənilir.

**Maddə 9.**
**Məhkəmə-Hüquq Şurası üzvlərinin müstəqilliyi, toxunulmazlığı və bərabərliyi**

9.1. Məhkəmə-Hüquq Şurasının üzvləri müstəqildirlər, yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər. Məhkəmə-Hüquq Şurasının üzvü şuradakı fəaliyyətinə, səsverməyə, söylədiyi fikrə görə məsuliyyətə cəlb oluna bilməz, ondan bu hallarla əlaqədar

izahat, ifadə tələb edilə bilməz.

9.2. Məhkəmə-Hüquq Şurasının hakim olmayan üzvləri hakim statusundan irəli gələn toxunulmazlığa malikdirlər. Məhkəmə-Hüquq Şurası üzvünün cinayət təqibi, bununla bağlı onun səlahiyyətlərinin icrasına buraxılmaması və bu səlahiyyətlərin sonrakı bərpası «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikası Qanununun 101-ci maddəsində hakimlər üçün müəyyən edilmiş qaydada həyata keçirilir.

9.3. Məhkəmə-Hüquq Şurasının səlahiyyətlərinə aid bütün məsələlərin həllində Şura üzvlərinin hüquqları bərabərdir.

9.4. Məhkəmə-Hüquq Şurasının üzvləri onların statusunu təsdiq edən xidməti vəsiqəyə malikdirlər.

**Maddə 10.**

**Məhkəmə-Hüquq Şurası üzvünün səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi**

10.1. Məhkəmə-Hüquq Şurası üzvünün səlahiyyətlərinə şuranın sədrinin və yaxud onu təyin etmiş orqanın müraciətinə əsasən, yalnız Məhkəmə-Hüquq Şurasının qərarı ilə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

10.1.1. öz arzusu ilə Məhkəmə-Hüquq Şurası üzvlüyündən çıxmaq barədə yazılı ərizə verdikdə;

10.1.2. barəsində cinayət işinə bəraətverici əsaslar olmadan xitam verildikdə, habelə məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmə qərarı olduqda;

10.1.3. Məhkəmə-Hüquq Şurası üzvünün bu qanunun 6.4-cü və 7-ci maddələrinin tələblərinə cavab vermədiyi aşkar

edildikdə;

10.1.4. Məhkəmə-Hüquq Şurasında müəyyən məhkəmə instansiyasını təmsil edən hakim digər məhkəmə instansiyasına işə keçirildikdə;

10.1.5. fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən müəyyən edildikdə;

10.1.6. vəfat etdikdə;

10.1.7. məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə;

10.1.8. tibbi səbəblərə görə vəzifələrini altı aydan artıq yerinə yetirə bilmədikdə;

10.1.9. üzrsüz səbəbdən ardıcıl üç dəfə və ya il ərzində üzrsüz səbəbdən altı dəfə Məhkəmə-Hüquq Şurasının iclaslarında iştirak etmədikdə;

10.1.10. bu qanunun 27.2-ci maddəsində göstərilən vəzifələri icra etmədikdə;

10.1.11. Məhkəmə-Hüquq Şurası üzvü adına ləkə gətirən hərəkətə yol verdikdə.

10.2. Məhkəmə-Hüquq Şurası üzvünün səlahiyyətlərinə, habelə tutduğu vəzifədən azad edildikdə xitam verilə bilər.

10.3. Səlahiyyətlərinə vaxtından əvvəl xitam verilmiş Məhkəmə-Hüquq Şurası üzvünün yerinə yeni üzv, onun səlahiyyət müddətinin qalmış hissəsinə bu qanunun 6-cı maddəsində nəzərdə tutulmuş qaydada təyin edilir.

# III FƏSİL

## Məhkəmə-Hüquq Şurasının fəaliyyətinin əsasları

**Maddə 11.**
**Məhkəmə-Hüquq Şurasının vəzifələri**

11.0. Məhkəmə-Hüquq Şurası aşağıdakı vəzifələri həyata keçirir:

11.0.1. məhkəmələrin təşkil olunmasına dair Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təklif verir (olduğu yer, ərazi yurisdiksiyası və hakimlərin sayı);

11.0.2. hakim vəzifəsinə namizədlərin seçilməsi işini təşkil edir;

11.0.3. hakimlərin fəaliyyətini və məhkəmə sədrlərinin, sədr müavinlərinin və məhkəmə kollegiyaları sədrlərinin məhkəmə fəaliyyətinin təşkili ilə bağlı işini qiymətləndirir;

11.0.4. hakimlərin iş yerinin dəyişdirilməsinə, onların vəzifədə irəli çəkilməsinə, səlahiyyət müddətinin uzadılmasına, Azərbaycan Respublikasının Ali Məhkəməsinin, apellyasiya məhkəmələrinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, ağır cinayətlərə dair işlər üzrə məhkəmələrin sədrləri istisna olmaqla, təyin olunmuş hakimlər sırasından Azərbaycan Respublikası məhkəmələrinin sədrlərinin, sədr müavinlərinin və məhkəmə kollegiyaları sədrlərinin təyin edilməsinə, habelə bu şəxslərin vəzifədən azad edilməsinə və ya digər vəzifəyə keçirilməsinə dair məsələləri müzakirə edir;

11.0.5. hakimlərin peşə səviyyəsinin yüksəldilməsi, hakim vəzifələrinə namizədlərin hazırlanması üçün tədbirlər görür;

11.0.6. ilkin uzunmüddətli tədris kurslarına göndərilmiş hakim vəzifəsinə namizədlərin maddi təminatını həyata keçirir;

11.0.7. hakimlərin müstəqilliyinin təmin edilməsi və məhkəmələrin işinə kənar müdaxilələrin qarşısının alınması üçün tədbirlər görür;

11.0.8. məhkəmə fəaliyyətinin hüquqi və informasiya təminatını həyata keçirir;

11.0.9. məhkəmələrin maddi-texniki təchizatı və maliyyələşdirilməsi üzrə təkliflər verir;

11.0.10. Hakimlərin Etik Davranış Kodeksini təsdiq edir;

11.0.11. hakimlərin təltif olunması, mükafatlandırılması və intizam məsuliyyəti məsələlərinə baxır;

11.0.12. hakimlərin səlahiyyətlərinə xitam verilməsi və cinayət məsuliyyətinə cəlb edilməsi barədə müraciətlərə baxır;

11.0.13. daxil olmuş ərizə və şikayətlərə, o cümlədən Hakimlərin Seçki Komitəsinin qərarlarından verilmiş şikayətlərə baxır;

11.0.14. qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri həyata keçirir.

**Maddə 12.**
**Məhkəmə-Hüquq Şurasının hüquqları**

12.0. Məhkəmə-Hüquq Şurası ona həvalə edilmiş vəzifələrin həyata keçirilməsi ilə əlaqədar aşağıdakı hüquqlara

malikdir:

12.0.1. hakim vəzifəsinə namizədlərin seçilməsi üçün yazılı və şifahi imtahanların, uzunmüddətli tədrisin nəticələri üzrə namizədin qiymətləndirilməsi, yekun müsahibənin keçirilməsi qaydasını müəyyən etmək;

12.0.2. Məhkəmə-Hüquq Şurasının Aparatını formalaşdırmaq;

12.0.3. Hakimlərin Seçki Komitəsi haqqında Əsasnaməni təsdiq etmək və Hakimlərin Seçki Komitəsini formalaşdırmaq;

12.0.4. Azərbaycan Respublikasının Ali Məhkəməsinin, apellyasiya məhkəmələrinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, ağır cinayətlərə dair işlər üzrə məhkəmələrin sədrləri istisna olmaqla, təyin olunmuş hakimlər sırasından Azərbaycan Respublikası məhkəmələrinin sədrlərinin, sədr müavinlərinin və məhkəmə kollegiyaları sədrlərinin təyin edilməsi, habelə bu şəxslərin vəzifədən azad edilməsi və ya digər vəzifəyə keçirilməsi barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təklif vermək;

12.0.5. hakimlərin təltif olunmasına dair Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təklif vermək;

12.0.6. hakimləri mükafatlandırmaq;

12.0.7. hakimləri intizam məsuliyyətinə cəlb etmək;

12.0.8. hakimlərin səlahiyyətlərinə xitam verilməsi məsələsini müzakirə etmək və bu barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təklif vermək;

12.0.9. hakimlər barəsində cinayət təqibinin həyata

keçirilməsinə razılıq vermək, onları səlahiyyətlərinin icrasına müvəqqəti buraxmamaq;

12.0.10. hakimin altı aydan artıq müddətdə tibbi səbəblərə görə vəzifəsinin yerinə yetirilməsinin qeyri-mümkünlüyünün müəyyən edilməsi məqsədilə xüsusi həkim komissiyası təşkil etmək;

12.0.11. Məhkəmə-Hüquq Şurasında baxılan məsələlər üzrə məhkəmələrdən və dövlət orqanlarından, hüquqi və fiziki şəxslərdən məlumat və sənədlər almaq;

12.0.12. dövlət orqanlarının, elmi müəssisələrin, idarə və təşkilatların əməkdaşlarını, mütəxəssislərini və ekspertlərini öz fəaliyyətinə cəlb etmək;

12.0.13. Məhkəmə-Hüquq Şurasına həvalə edilmiş vəzifələrin həyata keçirilməsi və nizamlanması məqsədi ilə normativ xarakterli aktlar qəbul etmək;

12.0.14. Məhkəmə-Hüquq Şurasında baxılan məsələlər üzrə müvafiq qərarlar qəbul etmək;

12.0.15. qəbul etdiyi qərarların icrasına nəzarət etmək;

12.0.16. hakimlərin fəaliyyətini və məhkəmələrin təşkilati məsələlərini təhlil etmək;

12.0.17. Hakimlərin Seçki Komitəsi tərəfindən təklif olunan namizədlərlə söhbət aparmaq;

12.0.18. Hakimlərin Seçki Komitəsinin fəaliyyəti ilə bağlı Komitə sədrinin hesabatını dinləmək;

12.0.19. məhkəmələr və hakimlər haqqında qanunvericiliyin təkmilləşdirilməsi üzrə təkliflər vermək;

12.0.20. hakimlərin peşə səviyyəsinin yüksəldilməsi məqsədilə tədris müəssisəsində ixtisasartırma kursları, seminar və məşğələlər keçirmək;

12.0.21. vakant hakim vəzifələrinə namizədlər üçün tədris müəssisəsində ilkin uzunmüddətli kursları təşkil etmək;

12.0.22. birinci instansiya məhkəmələrinin sədrlərinə hakimlər arasında işləri bölüşdürərkən konkret hakimin ixtisaslaşmasının nəzərə almasını təklif etmək;

12.0.23. öz fəaliyyəti ilə bağlı beynəlxalq əlaqələr yaratmaq, məhkəmə fəaliyyəti sahəsində təcrübə mübadiləsini həyata keçirmək;

12.0.24. Məhkəmə-Hüquq Şurasına həvalə edilmiş vəzifələrin həyata keçirilməsi üçün yerli və xarici təşkilatların vəsaitlərini cəlb etmək, qrantlar almaq;

12.0.25. məhkəmə fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılması məqsədilə qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələri ilə əməkdaşlıq etmək;

12.0.26. hakimlərin və məhkəmə aparatı işçilərinin əmək şəraitinin və maddi təminatının yaxşılaşdırılması üzrə təkliflər vermək;

12.0.27. qanunvericiliklə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**Maddə 13.**
**Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi**

13.1. Hakimlərin fəaliyyəti, bir qayda olaraq, üç ildə bir dəfə Məhkəmə-Hüquq Şurası tərəfindən qiymətləndirilir.

13.2. Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi ədalət mühakiməsinin təkmilləşdirilməsi, hakimlərlə tədris prosesinin düzgün qurulması, habelə onların vəzifədə irəli çəkilməsi, hakimlik və sədrlik fəaliyyətini davam etdirməyə yararlılıqlarının müəyyən edilməsi məqsədilə aparılır.

13.3. Hakimlərin fəaliyyəti Azərbaycan Respublikasının Ali Məhkəməsi, müvafiq olaraq apellyasiya məhkəmələri və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, habelə hakimlərin mənsub olduqları məhkəmələrin sədrləri tərəfindən vəzifələrinin icrasına dair verilmiş rəylər əsasında qiymətləndirilir. Hakimlərin fəaliyyəti qiymətləndirilərkən, həmçinin Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri həyata keçirərkən, topladığı və Məhkəmə-Hüquq Şurasına təqdim etdiyi məlumatlar nəzərə alınır. Hakimlərin fəaliyyəti qiymətləndirilərkən, Məhkəmə-Hüquq Şurasının ayrı-ayrı üzvlərinin malik olduqları məlumatlardan istifadə oluna bilər.

13.4. Hakimlərin fəaliyyətinin qiymətləndirilməsinin qaydaları və metodologiyası Məhkəmə-Hüquq Şurası tərəfindən müəyyən edilir.

**Maddə 14.**
**Hakimlərin Seçki Komitəsi**

14.1. Məhkəmə-Hüquq Şurası hakim vəzifəsinə namizədlərin seçkisini həyata keçirmək məqsədi ilə 11 nəfərlik tərkibdə əsasən hakimlərdən, öz aparatının, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının və prokurorluğun nümayəndəsindən, vəkil və hüquqşünas-alimdən ibarət olmaqla, aşağıdakı şəxslərdən Hakimlərin Seçki Komitəsini formalaşdırır:

14.1.1. Azərbaycan Respublikası Ali Məhkəməsinin iki hakimi;

14.1.2. apellyasiya məhkəmələrinin üç hakimi;

14.1.3. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi;

14.1.4. Məhkəmə-Hüquq Şurası Aparatının nümayəndəsi;

14.1.5. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının nümayəndəsi;

14.1.6. Azərbaycan Respublikası Prokurorluğunun nümayəndəsi;

14.1.7. Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü;

14.1.8. hüquqşünas alim.

14.2. Məhkəmə-Hüquq Şurasının üzvü eyni zamanda Hakimlərin Seçki Komitəsinin üzvü ola bilməz.

14.3. Hakimlərin Seçki Komitəsi vakant hakim vəzifələrini tutmaq istəyən hakim olmayan şəxslərin sənədlərini toplayır, bu şəxslərlə hakim peşəsinə yiyələnmək məqsədi ilə tədris kurslarına qəbul edilmək üçün şəffaf surətdə yazılı və şifahi imtahan təşkil edir, hakim vəzifəsinə namizədləri ilkin uzunmüddətli tədris kurslarına cəlb edir, müsahibə yolu ilə onların peşə yararlılığını müəyyən edir.

14.4. Hakimlərin Seçki Komitəsi dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir. Məhkəmə-Hüquq Şurasının üzvləri üçün bu qanunun 8-ci maddəsində nəzərdə tutulmuş təminatlar Hakimlərin Seçki Komitəsinin üzvlərinə də şamil olunur.

14.5. Hakimlərin Seçki Komitəsinin qərarlarından Məhkəmə-Hüquq Şurasına şikayət verilə bilər. Şikayətə daxil olduğu gündən 10 gün müddətində baxılır və Komitənin qərarı qüvvədə saxlanılır, ləğv olunur və ya ona dəyişiklik

edilir.

**Maddə 15.**

**Hakim vəzifəsinə namizədin qulluq yerinin müəyyən edilməsi**

15.1. Hakimlərin Seçki Komitəsi ilkin uzunmüddətli tədris kurslarını müvəffəqiyyətlə bitirmiş və yekun müsahibədən keçmiş hər bir namizəd barəsində Məhkəmə-Hüquq Şurasına öz təkliflərini təqdim edir. Namizəd barəsində təklifdə aşağıdakı məlumatlar əks etdirilməlidir:

15.1.1. adı, atasının adı, soyadı;

15.1.2. tərcümeyi-hal və xarakterizəedici məlumatlar;

15.1.3. ilkin tədrisin və yekun müsahibənin nəticələri;

15.1.4. hakim vəzifəsinə uyğunluğu barədə məlumat, o cümlədən ixtisaslaşdırma haqqında rəy.

15.2. Məhkəmə-Hüquq Şurası hakim vəzifəsinə seçilmiş namizəd barəsində Hakimlərin Seçki Komitəsinin təklifinə baxır, hakim vəzifəsinə namizədin seçilməsində qanunvericiliyin və Hakimlərin Seçki Komitəsi haqqında Əsasnamənin tələblərinin pozulub-pozulmamasını müəyyən edir və hakim vəzifəsini tutmaq üçün müəyyən etdiyi minimum və daha çox bal toplamış namizədin vakant hakim vəzifələrindən birinə təyin edilməsi barədə müvafiq təqdimat verir.

**Maddə 16.**

**Hakim vəzifəsinə təyin edilmə haqqında təqdimat**

16.0. Məhkəmə-Hüquq Şurası vakant hakim vəzifəsinə seçilmiş namizədlərin hakim vəzifəsinə təyin edilməsi barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti

orqanına təqdimat verir. Vakant hakim vəzifəsinə təyin edilmə haqqında təqdimatda namizəd barəsində aşağıdakı məlumatlar göstərilir:

16.0.1. adı, soyadı, atasının adı;

16.0.2. tərcümeyi-hal və xarakterizəedici məlumatlar;

16.0.3. ilkin tədrisin və yekun müsahibənin nəticələri;

16.0.4. hakim vəzifəsinə uyğunluğu barədə məlumat, o cümlədən ixtisaslaşdırma haqqında rəy;

16.0.5. təyin edilməsi təklif olunan vəzifə.

**Maddə 17.**
**Məhkəmə-Hüquq Şurasının qərarları**

17.1. Məhkəmə-Hüquq Şurası baxılan məsələlər üzrə qərarlar qəbul edir.

17.2. Məhkəmə-Hüquq Şurasının qərarları açıq səsvermə yolu ilə, bu qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, iclasda iştirak edən şura üzvlərinin sadə səs çoxluğu ilə qəbul olunur. Məhkəmə-Hüquq Şurasının iclasına sədrlik edən axırıncı səs verir.

17.3. İntizam icraatı üzrə qərar qəbul edilərkən, səsvermədə Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri və məruzəçi hakim istisna olmaqla, Məhkəmə-Hüquq Şurasının yalnız hakim üzvləri iştirak edirlər.

17.4. Hakim barəsində cinayət təqibinin həyata keçirilməsinə razılıq verilməsi barədə Azərbaycan Respublikası Baş prokurorunun təqdimatının təmin və ya rədd edilməsi haqqında qərar qəbul edilərkən, səsvermədə Məhkəmə-Hüquq Şurasının yalnız hakim üzvləri iştirak edirlər. Məhkəmə-Hüquq Şurasının bu məsələ üzrə qəbul edilən

qərarı qətidir.

17.5. Məhkəmə-Hüquq Şurası üzvünün xüsusi rəyi olduqda, həmin rəy qərara əlavə edilir.

17.6. Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə qərarları qüvvəyə mindikdən sonra bir ay ərzində dərc edilir.

**Maddə 18.**

**Məhkəmə-Hüquq Şurasının qərarlarından şikayət verilməsi**

18.1. Hakim və ya hakim vəzifəsinə namizəd Məhkəmə-Hüquq Şurası tərəfindən onun barəsində qəbul edilmiş qərarlardan, o cümlədən intizam icraatı üzrə qərarlardan (bu qanunun 17.4-cü maddəsində nəzərdə tutulmuş qərarlar istisna olmaqla) həmin qərarlar hakimə və ya hakim vəzifəsinə namizədə təqdim edildiyi gündən iyirmi gün müddətində Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna hüquqi məsələlər üzrə qanunvericiliyin tətbiqinin düzgünlüyünə dair şikayət verə bilər.

18.2. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu üç ay müddətində şikayətə baxıb Məhkəmə-Hüquq Şurasının qərarını qüvvədə saxlayır, ləğv edir və ya ona dəyişikliklər edir və öz qərarını Məhkəmə-Hüquq Şurasına təqdim edir.

18.3. Məhkəmə-Hüquq Şurasının qərarından şikayət üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun qərarı qətidir.

18.4. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu Məhkəmə-Hüquq Şurasının qərarlarından şikayətlərə plenumun ümumi iş qaydasında baxır.

# IV FƏSİL

## Hakimlərin intizam məsuliyyətinə cəlb edilməsi

### Maddə 19.
### Hakimlərin intizam məsuliyyətinə cəlb edilməsi

19.1. Hakimlər «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş əsaslar olduqda intizam məsuliyyətinə cəlb edilirlər.

19.2. «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, hakimlər barəsində intizam icraatını həmin qanunda göstərilmiş şəxslərin müraciətinə əsasən yalnız Məhkəmə-Hüquq Şurası başlaya bilər.

19.3. «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq, həmin qanunda göstərilmiş səbəblər və intizam məsuliyyətinə cəlb edilmə əsaslarının əlamətləri olduqda, səlahiyyətli şəxslər intizam icraatının başlanılması barədə Məhkəmə-Hüquq Şurasına müraciət etməyə borcludurlar.

19.4. Məhkəmə-Hüquq Şurası intizam icraatının başlanmasına dair müraciətə iki ay müddətində baxır və intizam icraatının başlanılması və ya belə icraatın başlanılması barədə müraciətin təmin edilməməsi haqqında qərar qəbul edir.

**Maddə 20.**
**İntizam məsuliyyətinə cəlb edilən hakimin hüquqları**

20.0. İntizam məsuliyyəti məsələsinə baxılan hakim:

20.0.1. intizam icraatının materialları ilə tanış olmaq;

20.0.2. özünün seçdiyi hakim və ya Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü tərəfindən müdafiə olunmaq;

20.0.3. Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə iclasının tarixi, vaxtı və yeri barədə xəbərdar edilmək;

20.0.4. bu qanunun 28-ci maddəsində göstərilən əsaslarla Məhkəmə-Hüquq Şurasının üzvünə etiraz etmək;

20.0.5. intizam icraatı üzrə iclaslarda iştirak etmək, izahat, vəsatət və sənədlər təqdim etmək;

20.0.6. intizam icraatı üzrə qərarın surətini almaq;

20.0.7. intizam məsuliyyətinə cəlb edilməsi barədə qərardan müəyyən edilmiş qaydada şikayət vermək hüququna malikdir.

**Maddə 21.**
**İntizam icraatı**

21.1. Məhkəmə-Hüquq Şurası intizam icraatının başlandığı gündən üç ay müddətinə məsələni, bir qayda olaraq, hakimin iştirakı ilə araşdırır və qərar qəbul edir. Hakim üzrlü səbəblərdən intizam icraatında iştirak edə bilmədikdə, bu müddət Məhkəmə-Hüquq Şurasının qərarı ilə uzadılır.

21.2. İntizam icraatının başlanmasına səbəb olmuş məsələ üzrə Məhkəmə-Hüquq Şurasının sədri tərəfindən şuranın hakim üzvləri sırasından məruzəçi təyin olunur. Məruzəçi daxil olmuş materialları Məhkəmə-Hüquq Şurası Aparatının əməkdaşlarını cəlb etməklə araşdırır, nəticəsi üzrə hazırladığı

məruzəni və məsələ ilə bağlı Məhkəmə-Hüquq Şurasının iclasına dəvət olunması məqsədəmüvafiq hesab olunan şəxslər barəsində təklifini şuranın sədrinə təqdim edir. Sədr məsələni Məhkəmə-Hüquq Şurasının iclasına çıxarır.

21.3. Məhkəmə-Hüquq Şurasının üzvlərinə və dəvət olunan şəxslərə iclasa ən geci üç gün qalmış iclasın tarixi, vaxtı və yeri barədə xəbər verilir, bu müddətdə Məhkəmə-Hüquq Şurasının üzvləri iclasın gündəliyi və baxılması nəzərdə tutulmuş materiallar ilə tanış edilirlər.

21.4. İntizam məsuliyyəti məsələsinə baxılan hakim iclasa ən geci beş gün qalmış Məhkəmə-Hüquq Şurasının iclasının tarixi, vaxtı və yeri barədə xəbərdar edilir. Bu hakimə iclasın günü barədə müvafiq qaydada xəbər verilmədikdə və ya o, üzrlü səbəblərdən Məhkəmə-Hüquq Şurasının iclasına gəlmədikdə, məsələyə baxılması təxirə salınır. İclasın günü barədə müvafiq qaydada xəbərdar edilmiş və materiallarla tanış edilmiş hakim üzrsüz səbəblərdən iclasa gəlmədikdə, şura məsələyə onun iştirakı olmadan baxır. Hakimin materiallarla tanış olmaqdan və ya iclasa gəlməkdən imtinası rəsmiləşdirilir.

21.5. İntizam icraatı üzrə Məhkəmə-Hüquq Şurasının iclası Şuranın səsvermədə iştirak etmək hüququ olan hakim üzvlərinin beşi iştirak etdikdə səlahiyyətli sayılır. Məhkəmə-Hüquq Şurasının sədri təyin olunmuş vaxtda iclası açır, gündəliyi elan edir, dəvət olunmuş şəxslərin gəlmələrini yoxlayır, iştirak etməyənlərin gəlməmələrinin səbəblərini araşdırır, materiallara baxılmasının mümkünlüyü məsələsini müzakirə edir, şura üzvlərinə etirazın olub-olmamasını müəyyənləşdirir.

21.6. Məhkəmə-Hüquq Şurasının iclasında intizam icraatı

üzrə məsələyə baxılması materiallar üzrə yoxlama aparmış məruzəçinin məruzəsi ilə başlanır. Sonra intizam məsuliyyəti məsələsinə baxılan hakim və iclasa dəvət edilmiş şəxslər dinlənilir, verilmiş vəsatətlərə baxılır, zəruri sənədlər və materiallar tədqiq edilir, araşdırma aparılır, nəticələr müzakirə edilərək, «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikası Qanununun 112-ci maddəsində nəzərdə tutulmuş qərarlardan biri qəbul olunur.

21.7. Məhkəmə-Hüquq Şurası intizam icraatı üzrə qərar qəbul edərkən, faktlara və əhəmiyyət kəsb edən hallara, hakimin yol verdiyi hərəkətin xarakterinə, ağırlıq dərəcəsinə və nəticəsinə əsaslanır.

**Maddə 22.**
**İntizam icraatına xitam verilməsi**

22.1. Məhkəmə-Hüquq Şurası aşağıdakı hallarda intizam icraatına xitam verir:

22.1.1. hakimin hərəkətində pozuntu müəyyən edilmədikdə;

22.1.2. hakim haqqında intizam icraatı intizam pozuntusunun aşkar edildiyi gündən keçən bir il və törədildiyi gündən keçən üç il müddətində başlamadıqda.

22.2. İşin halları və qanun pozuntusunun dərəcəsi nəzərə alınaraq müzakirə ilə kifayətlənməklə də intizam icraatına xitam verilə bilər.

**Maddə 23.**
**Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə qərarı**

23.1. Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə yazılı

formada tərtib edilən qərarında aşağıdakılar göstərilir:

23.1.1. şuranın adı və iclasda iştirak edən üzvləri;

23.1.2. qərarın çıxarılma yeri və tarixi;

23.1.3. intizam məsuliyyəti məsələsinə baxılan hakimin soyadı, adı, atasının adı və vəzifəsi;

23.1.4. intizam icraatının başlanılması barədə müraciət etmiş şəxs;

23.1.5. baxılan məsələnin mahiyyəti;

23.1.6. məsuliyyət məsələsinə baxılan hakimin izahatı;

23.1.7. Məhkəmə-Hüquq Şurasının müəyyən etdiyi hallar və gəldiyi nəticə;

23.1.8. qərarın məzmunu;

23.1.9. qərardan şikayət verilmə qaydası və müddəti.

23.2. İntizam icraatı üzrə Məhkəmə-Hüquq Şurasının qərarı səsvermədə iştirak edən hakim üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. İntizam icraatı üzrə səsvermə məsuliyyət məsələsinə baxılan hakimin, intizam icraatının başlanılması haqqında müraciətlə çıxış etmiş şəxsin, habelə dəvət olunmuş şəxslərin iştirakı olmadan keçirilir. Səslər bərabər bölündükdə, hakim intizam məsuliyyətinə cəlb edilmir. İntizam icraatı üzrə qərarın nəticəvi hissəsi dərhal açıq elan edilir. Əsaslandırılmış qərar isə on gün müddətində tərtib edilir.

23.3. Qəbul olunmuş qərarın surəti intizam məsuliyyəti məsələsinə baxılan hakimə və intizam icraatının başlanılması barədə müraciət etmiş şəxsə qərar tərtib olunduqdan sonra üç gün ərzində təqdim edilir.

23.4. İntizam məsuliyyəti məsələsinə baxılmış hakim və intizam icraatının başlanılması barədə müraciət etmiş şəxs

intizam icraatı üzrə iclasın protokolu ilə onun tərtibindən sonra tanış ola bilərlər.

**Maddə 24.**
**İntizam icraatı üzrə qərardan şikayət verilməsi**

İntizam məsuliyyətinə cəlb edilmiş hakim intizam icraatı üzrə qəbul edilmiş qərardan bu qanunun 18-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna şikayət verə bilər.

# V FƏSİL

## Məhkəmə-Hüquq Şurasının fəaliyyətinin təşkili

**Maddə 25.**
**Məhkəmə-Hüquq Şurasının iclasları**

25.1. Məhkəmə-Hüquq Şurasının səlahiyyətlərinə aid edilmiş məsələlərə şuranın iclaslarında baxılır. Məhkəmə-Hüquq Şurasının iclaslarını onun sədri aparır. Məhkəmə-Hüquq Şurası Aparatının əməkdaşı Şuranın iclaslarında katib funksiyasını yerinə yetirir. Məhkəmə-Hüquq Şurasının iclasları bir qayda olaraq, rübdə bir dəfədən az olmayaraq keçirilir.

25.2. Məhkəmə-Hüquq Şurasının iclasının tarixi, vaxtı, yeri və müzakirəyə çıxarılan məsələlər barədə şuranın üzvlərinə iclasa ən geci üç gün qalmış məlumat verilir. Məhkəmə-Hüquq Şurasının iclasına şuranın üzvlərindən

başqa digər şəxslər də dəvət oluna bilərlər.

25.3. Məhkəmə-Hüquq Şurasının iclası bu qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, şuranın səkkiz üzvü iştirak etdikdə səlahiyyətli sayılır.

25.4. Məhkəmə-Hüquq Şurasının iclasları onun aparatı tərəfindən ən geci on gün müddətində protokollaşdırılır. Protokolda iclasda iştirak edən şura üzvləri və dəvət edilmiş şəxslər göstərilir, iclasın gündəliyi, müzakirələrin məzmunu, səsə qoyulmuş məsələlər, qəbul edilmiş qərarlar və səsvermənin nəticələri əks etdirilir. Protokol şuranın sədri və iclasın katibi tərəfindən imzalanır.

**Maddə 26.**

**Məhkəmə-Hüquq Şurasının sədri**

26.1. Məhkəmə-Hüquq Şurasının sədri onun tərkibindən şura üzvlərinin sadə səs çoxluğu ilə seçilir. Məhkəmə-Hüquq Şurası sədrinin səlahiyyət müddəti iki il altı aydır.

26.2. Məhkəmə-Hüquq Şurasının sədri:

26.2.1. Məhkəmə-Hüquq Şurasını təmsil edir;

26.2.2. Məhkəmə-Hüquq Şurasının işini təşkil edir;

26.2.3. Məhkəmə-Hüquq Şurasının iclaslarını çağırır;

26.2.4. Məhkəmə-Hüquq Şurasının iclaslarında sədrlik edir;

26.2.5. Məhkəmə-Hüquq Şurasının səlahiyyətlərinə aid məsələləri baxılmaq üçün şuranın iclaslarına çıxarır;

26.2.6. Məhkəmə-Hüquq Şurasının fəaliyyətinin təmin edilməsi üçün dövlət büdcəsindən ayrılmış vəsaitə sərəncam verir;

26.2.7. Məhkəmə-Hüquq Şurasının Aparatına ümumi rəh-

bərliyi həyata keçirir;

26.2.8. Məhkəmə-Hüquq Şurası Aparatının işçilərini vəzifəyə təyin edir və vəzifədən azad edir, mükafatlandırır və onların intizam qaydasında cəzalandırılması məsələsini həll edir;

26.2.9. Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

26.3. Məhkəmə-Hüquq Şurasının sədri səlahiyyətlərini müvəqqəti icra edə bilmədikdə, şura üzvləri öz sıralarından şuraya müvəqqəti sədr əvəzi seçirlər. Sədr əvəzi seçildiyi müddətdə Məhkəmə-Hüquq Şurası sədrinin səlahiyyətlərini tam həcmdə həyata keçirir.

26.4. Məhkəmə-Hüquq Şurasının sədri bu qanunun 26.2.6-26.2.8-ci maddələrində müəyyən edilmiş səlahiyyətlərin həyata keçirilməsini şura üzvlərindən birinə həvalə edə bilər.

**Maddə 27.**

**Məhkəmə-Hüquq Şurası üzvlərinin hüquq və vəzifələri**

27.1. Məhkəmə-Hüquq Şurası üzvlərinin aşağıdakı hüquqları vardır:

27.1.1. Məhkəmə-Hüquq Şurasının iclaslarında iştirak etmək, iclasın aparılmasına dair fikirlərini bildirmək;

27.1.2. Məhkəmə-Hüquq Şurasının səlahiyyətlərinə aid məsələlərin həllində iştirak etmək;

27.1.3. Məhkəmə-Hüquq Şurasında məsələlərə baxılarkən, məruzəçiyə, şuranın iclasında iştirak edən digər şəxslərə suallar vermək;

27.1.4. qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarından, yerli özünüidarə orqanlarından, həmçinin hüquqi və fiziki şəxslərdən Məhkəmə-Hüquq Şurasında baxılmağa hazırlanan məsələ ilə əlaqədar sənədləri və başqa məlumatı tələb etmək;

27.1.5. Məhkəmə-Hüquq Şurasının iclasında təqdim edilmiş ərizələr, vəsatətlər və digər materiallarla tanış olmaq;

27.1.6. Məhkəmə-Hüquq Şurasının qəbul ediləcək qərarına dair fikir söyləmək;

27.1.7. Məhkəmə-Hüquq Şurasının qərarı ilə tam və ya qismən razı olmadıqda, xüsusi rəy vermək;

27.1.8. Məhkəmə-Hüquq Şurasının səlahiyyətlərinə aid məsələlərə şuranın iclasında baxılması üçün təkliflər vermək;

27.1.9. Məhkəmə-Hüquq Şurasının qərarları, protokolları və digər sənədləri ilə tanış olmaq;

27.1.10. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

27.2. Məhkəmə-Hüquq Şurasının üzvləri:

27.2.1. öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, bu qanunu, «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanununu və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını rəhbər tutmalı;

27.2.2. Məhkəmə-Hüquq Şurasının iclaslarında baxılan məsələlərə hüquq və ədalət əsasında qərəzsiz yanaşmalı;

27.2.3. Məhkəmə-Hüquq Şurasının iclaslarını üzrsüz səbəbdən buraxmamalı;

27.2.4. Məhkəmə-Hüquq Şurasında baxılan məsələlər üzrə səsvermədə iştirak etməli və ya yazılı xüsusi rəy bildirməli;

27.2.5. Məhkəmə-Hüquq Şurası üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli;

27.2.6. Məhkəmə-Hüquq Şurasında baxılan məsələlər haqqında qərar qəbul edilənədək məsələnin mahiyyətinə dair fikir söyləməməli;

27.2.7. bu qanunun 7-ci maddəsində nəzərdə tutulmuş tələbləri pozmamalıdırlar.

**Maddə 28.**

**Maraqların toqquşması**

28.1. Məhkəmə-Hüquq Şurasının hər bir üzvü şuranın iclasında baxılan məsələlər üzrə şəxsi maraqlarına toxunan, habelə onun qərəzliliyinə əsas verə bilən hallar olduqda, bu haqda şuranı məlumatlandırmalı və iclasda iştirak etməmək üçün şuradan icazə istəməlidir.

28.2. Bu qanunun 28.1-ci maddəsində göstərilən əsaslar olduqda, barəsində məsələyə baxılan şəxs Məhkəmə-Hüquq Şurasının üzvünə etiraz edə bilər. Etiraz şuraya yazılı və ya şifahi formada verilə bilər. Etiraz əsaslandırılmalıdır.

28.3. Etiraz Məhkəmə-Hüquq Şurasının iclasında etiraz məsələsinə baxılan şəxsin iştirakı olmadan müzakirə edilir. Bu məsələ üzrə qərar iclasda iştirak edən şura üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir.

**Maddə 29.**

**Məhkəmə-Hüquq Şurasının Aparatı**

29.1. Məhkəmə-Hüquq Şurasının iclaslarının hazırlan-

masına dair təşkilati işlərin həyata keçirilməsi, şuranın iclas protokolunun aparılması, şuranın qəbul etdiyi qərarların icrası, habelə şuranın səlahiyyətləri ilə bağlı digər məsələlərin həll edilməsi üçün Məhkəmə-Hüquq Şurasının Aparatı yaradılır.

29.2. Məhkəmə-Hüquq Şurası Aparatının statusu Azərbaycan Respublikası Ali Məhkəməsi Aparatının statusuna bərabər tutulur. Aparatın fəaliyyəti Məhkəmə-Hüquq Şurası tərəfindən təsdiq edilmiş Əsasnamə ilə tənzimlənir. Məhkəmə-Hüquq Şurası Aparatının əməkdaşları dövlət qulluqçusudurlar. Məhkəmə-Hüquq Şurası öz aparatının strukturunu və ştat vahidlərini dövlət büdcəsindən şuraya ayrılmış vəsait hüdudlarında müəyyən edir.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV.**

*Bakı şəhəri, 28 dekabr 2004-cü il.*
**№ 818-IIQ.**

*«Azərbaycan» qəzetində dərc edilmişdir*
*(1 fevral 2005-ci il, № 23)*

14 iyun 2005-ci il tarixli, 939-IIQD nömrəli; 30 dekabr 2005-ci il tarixli, 52-IIIQD nömrəli; 10 aprel 2007-ci il tarixli, 306-IIIQD nömrəli qanunlara əsasən dəyişikliklərlə

## KONSTİTUSİYA MƏHKƏMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ

## QANUNU

# I FƏSİL

## Ümumi müddəalar

**Maddə 1.**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təyinatı və əsas məqsədləri**

1.1. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi (bundan sonra - «Konstitusiya Məhkəməsi») Azərbaycan Respublikasının Konstitusiyası ilə onun səlahiyyətlərinə aid edilmiş məsələlərə dair ali konstitusiya ədalət mühakiməsi orqanıdır.

1.2. Konstitusiya Məhkəməsinin əsas məqsədləri Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etmək, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə etməkdir.

**Maddə 2.**

**Konstitusiya Məhkəməsinin fəaliyyətinin hüquqi əsasları**

Konstitusiya Məhkəməsinin fəaliyyətinin hüquqi əsaslarını Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə-

lər, bu Qanun, Azərbaycan Respublikasının digər qanunları və Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsi təşkil edir.

**Maddə 3.**
**Konstitusiya Məhkəməsinin səlahiyyətləri**

Konstitusiya Məhkəməsinin səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 86-cı maddəsi, 88-ci maddəsinin I hissəsi, 102-ci maddəsi, 103-cü maddəsinin I hissəsi, 104-cü maddəsinin II və III hissələri, 107-ci maddəsi, 130-cu maddəsinin III - VII hissələri, 153-cü və 154-cü maddələri ilə müəyyən edilir.

**Maddə 4.**
**Konstitusiya Məhkəməsinin fəaliyyətinin əsas prinsipləri**

Konstitusiya Məhkəməsinin fəaliyyəti Azərbaycan Respublikası Konstitusiyasının aliliyi, müstəqillik, kollegiallıq və açıqlıq prinsipləri əsasında qurulur.

**Maddə 5.**
**Konstitusiya Məhkəməsinin müstəqilliyi**

5.1. Konstitusiya Məhkəməsi müstəqil dövlət orqanıdır və təşkilati, maliyyə, habelə hər hansı başqa cəhətdən qanunvericilik, icra və digər məhkəmə hakimiyyəti orqanlarından, yerli özünüidarə orqanlarından, habelə hüquqi və fiziki şəxslərdən asılı deyildir.

5.2. Hər hansı bir şəxs tərəfindən, hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla konstitusiya icraatına məh-

dudiyyət qoyulması, təsir, hədə və müdaxilə edilməsi, habelə məhkəməyə hörmətsizlik göstərilməsi yolverilməzdir və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə məsuliyyətə səbəb olur.

## II FƏSİL

## Konstitusiya Məhkəməsinin təşkilinin və fəaliyyətinin əsasları

**Maddə 6.**
**Konstitusiya Məhkəməsinin tərkibi və təşkili**

6.1. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin I hissəsinə uyğun olaraq Konstitusiya Məhkəməsi 9 hakimdən ibarətdir.

6.2. Konstitusiya Məhkəməsi işlərə palataların və Plenumun iclaslarında baxır.

6.3. Konstitusiya Məhkəməsi Plenumunun tərkibinə Konstitusiya Məhkəməsinin bütün hakimləri daxildir.

6.4. Konstitusiya Məhkəməsi Plenumunun iclasları, bir qayda olaraq, Konstitusiya Məhkəməsinin sədri tərəfindən çağırılır, bu Qanun və Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsi ilə müəyyən edilmiş qaydada keçirilir.

6.5. Konstitusiya Məhkəməsi Plenumunun iclaslarına Konstitusiya Məhkəməsinin sədri və ya onu əvəz edən şəxs sədrlik edir.

6.6. Bu qanunla başqa hallar müəyyən edilməyibsə, Kon-

stitusiya Məhkəməsi Plenumunun iclası azı 6 hakim iştirak etdikdə səlahiyyətlidir.

6.7. Palataların tərkibləri Konstitusiya Məhkəməsinin sədri tərəfindən müəyyən edilir.

6.8. Palataların təşkili, iclaslarının çağırılması və keçirilməsi qaydaları Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsi ilə müəyyən edilir.

6.9. Palataların iclasları azı 3 hakim iştirak etdikdə səlahiyyətlidir.

6.10. Konstitusiya Məhkəməsinin sədri və onun müavini eyni palatanın tərkibinə daxil ola bilməzlər.

6.11. Palataların iclaslarında Konstitusiya Məhkəməsinin hakimləri növbə ilə sədrlik edirlər. Bu sədrliyin ardıcıllığı palataların iclaslarında müəyyən edilir.

**Maddə 7.**

**Konstitusiya Məhkəməsi palatalarının və Plenumunun iclaslarında baxılan məsələlər**

7.1. Konstitusiya Məhkəməsi palatalarının iclaslarında Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III-VII hissələrində nəzərdə tutulmuş məsələlərə dair sorğuların, müraciətlərin və ya şikayətlərin icraata qəbul edilib-edilməməsi məsələsi həll olunur.

7.2. Konstitusiya Məhkəməsi Plenumunun iclaslarında Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III-VII hissələrində nəzərdə tutulmuş məsələlərə dair Konstitusiya Məhkəməsinin icraatına qəbul edilmiş sorğulara, müraciətlərə və şikayətlərə mahiyyəti üzrə baxılır.

7.3. Azərbaycan Respublikası Konstitusiyasının 86-cı maddəsində, 88-ci maddəsinin I hissəsində, 102-ci maddəsində, 104-cü maddəsinin II və III hissələrində, 107-ci və 153-cü maddələrində nəzərdə tutulmuş məsələlərə birbaşa Konstitusiya Məhkəməsi Plenumunun iclaslarında baxılır.

**Maddə 8.**
**Konstitusiya Məhkəməsi hakimlərinin yığıncağı**

8.1. Konstitusiya Məhkəməsinin iclaslarında həll edilən məsələlər istisna olmaqla, Konstitusiya Məhkəməsinin daxili fəaliyyətinə dair və digər məsələlərin baxılıb həll edilməsi üçün Konstitusiya Məhkəməsi hakimlərinin yığıncaqları keçirilir.

8.2. Hakimlərin yığıncaqları Konstitusiya Məhkəməsinin sədri tərəfindən çağırılır. Hakimlərin yığıncağı hər hansı hakimin tələbi ilə də çağırıla bilər.

8.3. Hakimlərin yığıncağı Konstitusiya Məhkəməsinin azı 6 hakimi iştirak etdikdə səlahiyyətlidir.

8.4. Konstitusiya Məhkəməsi hakimlərinin yığıncağı aşağıdakı məsələləri həll edir:

8.4.1. Konstitusiya Məhkəməsinin işinin təşkili üçün Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsini qəbul edir;

8.4.2. Konstitusiya Məhkəməsinin rəsmi embleminin, möhürünün, hakimlərin xüsusi geyimlərinin, döş nişanının təsvirini və vəsiqəsinin nümunəsini təsdiq edir;

8.4.3. Konstitusiya Məhkəməsinin saxlanması üçün Azərbaycan Respublikasının dövlət büdcəsinin layihəsinə dair təkliflər verir;

8.4.4. bu Qanunun 23-cü maddəsində nəzərdə tutulan hal-

larda Konstitusiya Məhkəməsi hakiminin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında məsələnin həlli üçün təklif verir;

8.4.5. digər təşkilati məsələləri həll edir.

8.5. Hakimlərin yığıncağı bu qanunun 8.4-cü maddəsində nəzərdə tutulmuş məsələlər üzrə hakimlərin səs çoxluğu ilə müvafiq qərarlar qəbul edir.

**Maddə 9.**

**Konstitusiya Məhkəməsinin rəmzləri, Konstitusiya Məhkəməsi hakiminin döş nişanı və vəsiqəsi**

9.1. Konstitusiya Məhkəməsinin rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Konstitusiya Məhkəməsinin rəsmi emblemidir.

9.2. Konstitusiya Məhkəməsinin hakimləri məhkəmə iclaslarında hakimlərin xüsusi geyimində (mantiyada), Azərbaycan Respublikası prezidentinin andiçmə mərasimində və digər dövlət tədbirlərində isə xüsusi rəsmi geyimdə olmalıdırlar.

**Maddə 10.**

**Konstitusiya Məhkəməsinin yeri**

10.1. Konstitusiya Məhkəməsi Bakı şəhərində yerləşir.

10.2. Konstitusiya Məhkəməsinin iclasları Konstitusiya Məhkəməsinin binasında keçirilir. Hər hansı səbəbdən Konstitusiya Məhkəməsinin iclaslarını Konstitusiya Məhkəməsinin binasında keçirmək mümkün olmadıqda Konstitusiya Məhkəməsi sədrinin sərəncamı ilə Konstitusiya

Məhkəməsinin iclasları başqa yerdə keçirilə bilər.

10.3. Konstitusiya Məhkəməsi binasının rejimi Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsi ilə müəyyən edilir.

## III FƏSİL

## Konstitusiya Məhkəməsi hakimlərinin statusu

### Maddə 11.
### Konstitusiya Məhkəməsinin hakimlərinə aid tələblər

11.1. Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinin I hissəsinə uyğun olaraq yaşı 30-dan aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik olan, ali hüquq təhsilli və hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərbaycan Respublikasının vətəndaşı Konstitusiya Məhkəməsinin hakimi ola bilər.

11.2. Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinin II hissəsinə uyğun olaraq Konstitusiya Məhkəməsinin hakimləri heç bir başqa seçkili və təyinatlı vəzifə tuta bilməzlər, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməzlər, siyasi fəaliyyətlə məşğul ola bilməz və siyasi partiyalara üzv ola bilməzlər, əmək haqqından, habelə elmi, pedaqoji və yaradıcılıq fəaliyyətinə görə aldığı vəsaitdən başqa məvacib ala bilməzlər.

**Maddə 12.**

**Konstitusiya Məhkəməsi hakimlərinin təyin edilməsi**

12.1. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin II hissəsinə uyğun olaraq Konstitusiya Məhkəməsinin hakimlərini Azərbaycan Respublikası prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təyin edir.

12.2. Konstitusiya Məhkəməsinin azı 7 hakimi təyin olunduqda Konstitusiya Məhkəməsi öz səlahiyyətlərinin icrasına başlaya bilər.

**Maddə 13.**

**Konstitusiya Məhkəməsi hakiminin andı**

13.1. Konstitusiya Məhkəməsinin hakimi vəzifəyə təyin edildiyi gün Azərbaycan Respublikası Milli Məclisinin iclasında aşağıdakı məzmunda and içir:

«Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi səlahiyyətlərini şərəf və vicdanla yerinə yetirəcəyimə, Azərbaycan Respublikası Konstitusiyasının aliliyini qoruyacağıma, baxdığım məsələləri müstəqil, qərəzsiz və ədalətlə həll edəcəyimə and içirəm».

13.2.Konstitusiya Məhkəməsinin hakimi and içdiyi gündən öz səlahiyyətlərinin icrasına başlamış sayılır.

**Maddə 14.**

**Konstitusiya Məhkəməsi hakimlərinin səlahiyyət müddəti**

14.1. Konstitusiya Məhkəməsinin hakimləri 15 il müddətinə təyin edilirlər.

14.2. Konstitusiya Məhkəməsinin hakimi vəzifəsinə təkrarən təyin edilə bilməz.

**Maddə 15.**
**Konstitusiya Məhkəməsi hakimlərinin müstəqilliyi**

15.1. Konstitusiya Məhkəməsinin hakimləri müstəqildirlər, yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər.

15.2. Konstitusiya Məhkəməsi hakimlərinin müstəqilliyi onların səlahiyyət müddətində dəyişilməzliyi və toxunulmazlığı ilə, vəzifəyə təyin edilməsinin, məsuliyyətə cəlb edilməsinin, səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsinin və vəzifədən kənarlaşdırılmasının xüsusi qaydası ilə, Konstitusiya Məhkəməsinə hörmətsizlik göstərilməsinin və ya onun fəaliyyətinə müdaxilə edilməsinin yolverilməzliyi ilə təmin olunur və onlara hakimlərin yüksək statusuna uyğun maddi və sosial təminatlar verilir.

**Maddə 16.**
**Konstitusiya Məhkəməsi hakimlərinin toxunulmazlığı**

16.1. Azərbaycan Respublikası Konstitusiyasının 128-ci maddəsinin I-III hissələrinə görə Konstitusiya Məhkəməsinin hakimləri toxunulmazdır.

16.2. Konstitusiya Məhkəməsinin hakimi cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula və ya həbs edilə bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa və gətirilməyə məruz qala bilməz, şəxsi müayinə edilə bilməz.

16.3. Konstitusiya Məhkəməsi hakiminin cinayət ba-

şında yaxalanması halları istisna olunmaqla, cinayət və ya inzibati xəta törətməkdə şübhə edilən şəxs qismində tutulmuş Konstitusiya Məhkəməsinin hakimi şəxsiyyəti müəyyənləşdirildikdən sonra dərhal azad edilməli və bu barədə Konstitusiya Məhkəməsinə, habelə Azərbaycan Respublikasının baş prokuroruna yazılı məlumat verilməlidir.

16.4. Konstitusiya Məhkəməsi hakiminin hərəkətlərində cinayət əməlinin əlamətləri olduqda, o, Azərbaycan Respublikası Konstitusiyasının 128-ci maddəsinin IV və V hissələrində nəzərdə tutulmuş qaydada vəzifədən kənarlaşdırıla bilər.

16.5. Vəzifədən kənarlaşdırılmış Konstitusiya Məhkəməsi hakiminin səlahiyyətləri onun barəsində məhkəmənin hökmü qanuni qüvvəyə minənədək və ya cinayət təqibi orqanı tərəfindən məhkəməyədək icraatın gedişində yekun qərar qəbul edilənədək dayandırılır.

16.6. Vəzifədən kənarlaşdırılmış Konstitusiya Məhkəməsinin hakimi Konstitusiya Məhkəməsinin hakiminə müəyyən edilmiş əmək haqqını alır.

16.7. Konstitusiya Məhkəməsinin hakimi vəzifədən kənarlaşdırıldıqdan sonra Konstitusiya Məhkəməsinin razılığı olduqda, Azərbaycan Respublikası baş prokurorunun qərarına əsasən Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətinə cəlb oluna və həbs edilə bilər.

16.8. Vəzifədən kənarlaşdırılmış Konstitusiya Məhkəməsinin hakimi barəsində bəraət hökmü çıxarıldıqda və ya məhkəməyədək icraatın gedişində cinayət təqibinə

qanunvericiliklə müəyyən edilmiş bəraətverici əsaslarla xitam verildikdə onun səlahiyyətləri bərpa olunur.

16.9. Konstitusiya Məhkəməsi hakiminin toxunulmazlığı onun evinin, mənzilinin, xidməti otağının, əşyalarının, şəxsi və xidməti nəqliyyat vasitələrinin, istifadə etdiyi rabitə vasitələrinin, ona məxsus sənədlərin, poçt-teleqraf yazışmalarının toxunulmazlığını da əhatə edir.

16.10. Konstitusiya Məhkəməsinin hakimi Konstitusiya Məhkəməsindəki fəaliyyətinə, səsverməyə, söylədiyi fikrə görə hüquqi məsuliyyətə cəlb oluna bilməz, ondan bu hallarla əlaqədar izahat, ifadə tələb edilə bilməz.

**Maddə 17.**
**Konstitusiya Məhkəməsi hakimlərinin hüquqları**

17.0. Konstitusiya Məhkəməsi hakimlərinin aşağıdakı hüquqları vardır:

17.0.1. Konstitusiya Məhkəməsinin iclaslarında iştirak etmək, iclasın aparılmasına dair fikirlərini bildirmək;

17.0.2. Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə aid məsələlərin həllində iştirak etmək;

17.0.3. Konstitusiya Məhkəməsində məsələlərə baxılarkən məruzəçi-hakimə, işdə iştirak edən tərəflərə, maraqlı subyektlərə, şahidlərə və ekspertlərə suallar vermək;

17.0.4. qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarından, yerli özünüidarə orqanlarından, həmçinin hüquqi və fiziki şəxslərdən Konstitusiya Məhkəməsində baxılmağa hazırlanan məsələ ilə əlaqədar hər hansı sənədi və başqa məlumatı tələb etmək, habelə vəzifəli şəxslərin bu məsələyə dair izahatlarını dinləmək;

17.0.5. Konstitusiya Məhkəməsinin iclasında təqdim edilmiş vəsatətlər və materiallarla tanış olmaq;

17.0.6. hakimlərin müşavirə otağında Konstitusiya Məhkəməsinin qəbul ediləcək qərarına dair fikir söyləmək, qərarın lehinə və ya əleyhinə səs vermək;

17.0.7. Konstitusiya Məhkəməsi qərarının təsviri-əsaslandırıcı və ya nəticə hissəsi ilə razı olmadıqda xüsusi rəyində qalmaq;

17.0.8. Konstitusiya Məhkəməsinin iclasının Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş müddətlərdə keçirilməsini tələb etmək;

17.0.9. Bu qanunda nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

**Maddə 18.**
**Konstitusiya Məhkəməsi hakimlərinin vəzifələri**

18.0. Konstitusiya Məhkəməsinin hakimləri öz fəaliyyətində:

18.0.1. Azərbaycan Respublikasının Konstitusiyasını və bu Qanunu rəhbər tutmalı;

18.0.2. Konstitusiya Məhkəməsində məsələlərə baxılarkən işlərə hüquq və ədalət əsasında qərəzsiz yanaşmalı;

18.0.3. Konstitusiya Məhkəməsinin iclaslarını üzürsüz səbəbdən buraxmamalı;

18.0.4. Konstitusiya Məhkəməsində baxılan məsələlər üzrə səsvermədə iştirak etməli;

18.0.5. Konstitusiya Məhkəməsi hakiminin yüksək adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli;

18.0.6. Bu qanunun 11.2-ci maddəsində nəzərdə tutulmuş

tələbləri pozmamalı;

18.0.7. Konstitusiya Məhkəməsində baxılan məsələ haqqında qərar qəbul edilənədək məsələnin mahiyyətinə dair fikir söyləməməlidirlər.

**Maddə 19.**

**Konstitusiya Məhkəməsi hakimlərinin hüquq bərabərliyi**

19.1. Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə aid bütün məsələlərin həllində Konstitusiya Məhkəməsi hakimlərinin hüquqları bərabərdir.

19.2. Konstitusiya Məhkəməsinin sədri və sədr müavini Konstitusiya Məhkəməsinin hakiminə mənsub olan bütün hüquqlara malikdirlər və bütün vəzifələri daşıyırlar.

**Maddə 20.**

**Konstitusiya Məhkəməsi sədrinin və sədr müavininin təyin və azad edilməsi**

20.1. Konstitusiya Məhkəməsinin sədri və sədr müavini Konstitusiya Məhkəməsi hakimlərinin tərkibindən Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq təyin edilirlər.

20.2. Konstitusiya Məhkəməsinin sədri və sədr müavini yalnız öz xahişinə görə vəzifədən azad edilirlər. Bu halda onlar Konstitusiya Məhkəməsinin hakimi vəzifəsində qalırlar.

**Maddə 21.**

**Konstitusiya Məhkəməsinin sədri**

21.0. Konstitusiya Məhkəməsinin sədri:

21.0.1. qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları ilə, yerli özünüidarə orqanları ilə, xarici dövlətlər və beynəlxalq təşkilatlarla, habelə hüquqi və fiziki şəxslərlə münasibətlərdə Konstitusiya Məhkəməsini təmsil edir;

21.0.2. Konstitusiya Məhkəməsinin işini təşkil edir;

21.0.3. Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə aid məsələləri baxılmaq üçün Konstitusiya Məhkəməsi Plenumunun iclaslarına çıxarır;

21.0.4. Konstitusiya Məhkəməsi Plenumunun iclaslarını çağırır və iclaslarına sədrlik edir;

21.0.5. Konstitusiya Məhkəməsinin sədr müavininin həll etdiyi məsələlərin dairəsini müəyyənləşdirir;

21.0.6. palataların tərkiblərini müəyyən edir;

21.0.7. işlərin həcmini və sayını nəzərə almaqla hakimlər arasından bir və ya bir neçə məruzəçi-hakimi təyin edir;

21.0.8. Konstitusiya Məhkəməsinin saxlanması və fəaliyyətinin təmin edilməsi üçün dövlət büdcəsindən ayrılmış vəsaitə dair sərəncam verir;

21.0.9. Konstitusiya Məhkəməsinin aparatına rəhbərlik edir;

21.0.10. Konstitusiya Məhkəməsi aparatının işçilərini vəzifəyə təyin edir və vəzifədən azad edir, mükafatlandırır və onların intizam qaydasında cəzalandırılması məsələsini həll edir;

21.0.11. Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 22.**
**Konstitusiya Məhkəməsi sədrinin müavini**

Konstitusiya Məhkəməsi sədrinin müavini Konstitusi-

ya Məhkəməsi sədrinin müəyyənləşdirdiyi məsələləri həll edir, Konstitusiya Məhkəməsinin sədri olmadıqda, yaxud öz vəzifələrini həyata keçirə bilmədikdə onu əvəz edir.

**Maddə 23.**

**Konstitusiya Məhkəməsi hakiminin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi**

23.1. Konstitusiya Məhkəməsi hakiminin səlahiyyətlərinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

23.1.1. vəfat etdikdə;

23.1.2. vəzifədən könüllü çıxmaq barədə yazılı ərizə verdikdə;

23.1.3. Azərbaycan Respublikasının vətəndaşlığından çıxdıqda, başqa dövlətin vətəndaşlığını qəbul etdikdə və ya başqa dövlət qarşısında öhdəlik götürdükdə;

23.1.4. barəsində cinayət işinə bəraətverici əsaslar olmadan xitam verildikdə, habelə məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmə qərarı olduqda;

23.1.5. fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmənin qərarı ilə təsdiq edildikdə;

23.1.6. məhkəmənin qərarı ilə ölmüş və ya xəbərsiz itkin düşmüş hesab edildikdə;

23.1.7. bu qanunun 11-ci maddəsində nəzərdə tutulmuş Konstitusiya Məhkəməsinin hakimlərinə aid tələblərin pozulması aşkar edildikdə;

23.1.8. üzrsüz səbəbdən dalbadal üç dəfə və ya il ərzində üzrsüz səbəbdən on dəfə Konstitusiya Məhkəməsinin iclaslarında iştirak etmədikdə;

23.1.9. Konstitusiya Məhkəməsində baxılan məsələyə dair səsvermədə iştirak etməkdən imtina etdikdə;

23.1.10. altı aydan az olmayan müddətdə xəstəliyi ilə əlaqədar vəzifəsini yerinə yetirmədikdə və bu barədə xüsusi həkim komissiyasının xəstəliyi təsdiq edən rəyi olduqda.

23.2. Bu qanunun 23.1.1-23.1.6-cı maddələrində nəzərdə tutulmuş hallarda Konstitusiya Məhkəməsi hakiminin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında məsələ birbaşa Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun həll edilir.

23.3. Bu qanunun 23.1.7-23.1.10-cu maddələrində nəzərdə tutulmuş hallarda Konstitusiya Məhkəməsi hakiminin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında məsələnin Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun həll edilməsi üçün Konstitusiya Məhkəməsi təklif verir.

**Maddə 24.**
**İstefada olan Konstitusiya Məhkəməsinin hakimi**

24.1. Konstitusiya Məhkəməsi hakiminin səlahiyyət müddəti bitdikdə, yaxud bu qanunun 23.1.2-ci, 23.1.5-ci və ya 23.1.10-cu maddələrində nəzərdə tutulmuş hallarda səlahiyyətlərinə vaxtından əvvəl xitam verildikdə, o, istefada olan Konstitusiya Məhkəməsinin hakimi sayılır.

24.2. İstefada olan Konstitusiya Məhkəməsinin hakimi Konstitusiya Məhkəməsinin hakimi səlahiyyətlərini həyata keçirdiyi dövrdə fəaliyyətinə, səsverməyə, söylədiyi fikrə görə hüquqi məsuliyyətə cəlb edilə bilməz, ondan bu hallarla əlaqədar izahat, ifadə tələb oluna bilməz.

# IV FƏSİL

## Konstitusiya Məhkəməsində həyata keçirilən icraatın prinsipləri

**Maddə 25.**
**Qərəzsizlik və ədalət**

Konstitusiya Məhkəməsində həyata keçirilən icraat zamanı hakimlər işlərə müstəqil, qərəzsiz və ədalətlə baxırlar.

Maddə 26. Hər kəsin qanun və Konstitusiya Məhkəməsi qarşısında bərabərliyi

Konstitusiya ədalət mühakiməsi hər kəsin qanun və Konstitusiya Məhkəməsi qarşısında bərabərliyi əsasında həyata keçirilir.

**Maddə 27.**
**Açıqlıq**

27.1. Konstitusiya Məhkəməsində işlərin icraatı açıq aparılır. İşə qapalı iclasda baxılmasına yalnız o halda icazə verilir ki, Konstitusiya Məhkəməsi açıq icraatın dövlət, peşə və kommersiya sirrinin açılmasına səbəb olacağını güman edir, vətəndaşlarin şəxsi və ya ailə həyatının məxfiliyini qorumaq zərurətini müəyyən edir.

27.2. Konstitusiya Məhkəməsinin icraatı, bir qayda olaraq, şifahi aparılır. Tərəflərin və ya maraqlı subyektlərin razılığı olduqda Konstitusiya Məhkəməsinin Plenumu Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsi ilə müəyyən edilən qaydada işə yazılı prosedurla baxa bilər.

27.3. Konstitusiya Məhkəməsi Plenumunun iclası haq-

qında məlumat iclasa azı beş gün qalmış rəsmi dövlət qəzetində dərc edilir. Təxirəsalınmaz hallarda bu qaydaya riayət etmək mümkün olmadıqda Konstitusiya Məhkəməsi iclasının keçirilməsi vaxtı haqqında məlumat televiziya və radio ilə elan edilir.

**Maddə 28.**
**Tərəflərin hüquq bərabərliyi və çəkişmə**

28.1. Konstitusiya məhkəmə icraatı tərəflərin hüquq bərabərliyi və çəkişməsi prinsipləri əsasında həyata keçirilir.

28.2. Konstitusiya Məhkəməsi konstitusiya məhkəmə icraatında tərəflərin sübutları və dəlilləri ilə bağlı deyildir və baxılan məsələlərin tam araşdırılmasına nail olmalıdır.

**Maddə 29.**
**İcraatın aparıldığı dil**

29.1. Konstitusiya Məhkəməsində həyata keçirilən icraat Azərbaycan Respublikasının dövlət dilində aparılır.

29.2. Konstitusiya Məhkəməsində baxılan işin iştirakçısı olan və icraatın aparıldığı dili bilməyən şəxslərə işin bütün materiallarının onların bildiyi dilə tərcüməsi və Konstitusiya Məhkəməsinin iclaslarında ana dilində çıxış etməsi təmin olunur.

**Maddə 30.**
**Kollegiallıq**

Konstitusiya Məhkəməsində işlərə kollegial qaydada baxılır.

# V FƏSİL

## Konstitusiya Məhkəməsində icraatın başlanması

**Maddə 31.**
**Konstitusiya Məhkəməsində icraatın başlanması üçün səbəblər**

31.0. Konstitusiya Məhkəməsində icraatın başlanması üçün səbəblər aşağıdakılardır:

31.0.1. Azərbaycan Respublikası Konstitusiyasının 104-cü maddəsinin III hissəsində və 130-cu maddəsinin III-VII hissələrində nəzərdə tutulmuş məsələlərə dair bu qanunun 32-35-ci maddələrinin tələblərinə cavab verən sorğu, müraciət və şikayətlər;

31.0.2. Azərbaycan Respublikası Konstitusiyasının 86-cı maddəsində, 88-ci maddəsinin I hissəsində, 102-ci maddəsində, 104-cü maddəsinin II hissəsində, 107-ci maddəsində və 153-cü maddəsində nəzərdə tutulmuş hallar.

**Maddə 32.**
**Sorğular**

32.1. Azərbaycan Respublikasının prezidenti, Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının Prokurorluğu, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III və IV

hissələrində, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) isə Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VII hissəsində nəzərdə tutulmuş məsələlərlə əlaqədar Konstitusiya Məhkəməsinə sorğu verə bilər.

32.2. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 4-cü bəndində nəzərdə tutulmuş məsələyə dair Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) sorğularına Konstitusiya Məhkəməsi tərəfindən baxılmasına aşağıdakı hallarda yol verilir:

32.2.1. tətbiq edilməli olan normativ hüquqi akt məhkəmə tərəfindən tətbiq edilmədikdə;

32.2.2. tətbiq edilməli olmayan normativ hüquqi akt məhkəmə tərəfindən tətbiq edildikdə;

32.2.3. normativ hüquqi akt məhkəmə tərəfindən düzgün şərh edilmədikdə.

32.3. Bu qanunun 32.2-ci maddəsində nəzərdə tutulmuş sorğu müvafiq məhkəmə aktının qüvvəyə mindiyi andan altı ay müddətində verilə bilər.

32.4. Sorğu Konstitusiya Məhkəməsinə yazılı şəkildə verilir. Sorğu səlahiyyətli şəxs tərəfindən, kollegial orqanın qərarı əsasında verildikdə isə onun rəhbəri tərəfindən imzalanır.

32.5. Sorğuda aşağıdakılar göstərilməlidir:

32.5.1. Konstitusiya Məhkəməsinin adı;

32.5.2. sorğuverənin adı, ünvanı;

32.5.3. nümayəndəliyin vəzifə kimi həyata keçirilməsi halları istisna olmaqla, sorğuverənin nümayəndəsi və onun

səlahiyyətləri haqqında lazımi məlumatlar;

32.5.4. mübahisə olunan normativ hüquqi, məhkəmə və ya bələdiyyə aktını qəbul etmiş dövlət və ya yerli özünüidarə orqanının, yaxud səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrdə iştirak edən dövlət orqanının adı və ünvanı;

32.5.5. Konstitusiya Məhkəməsinə sorğu vermək hüququ verən və Konstitusiya Məhkəməsi tərəfindən həmin sorğuya baxılması səlahiyyətini təsdiq edən Azərbaycan Respublikası Konstitusiyasının maddələri;

32.5.6. mübahisə olunan normativ hüquqi, məhkəmə və ya bələdiyyə aktının, həmçinin şərh edilməsi xahiş olunan normativ hüquqi aktın dəqiq adı, qəbul edildiyi tarix, nömrəsi, dərc olunduğu mənbə və ona dair digər məlumatlar;

32.5.7. məsələyə dair sorğuverənin mövqeyi və Azərbaycan Respublikası Konstitusiyasının və ya digər normativ hüquqi aktlarının müvafiq normalarına istinadla onun hüquqi əsaslandırılması;

32.5.8. Konstitusiya Məhkəməsinə sorğu ilə əlaqədar ünvanlanmış xahiş;

32.5.9. sorğuya qoşulmuş sənədlərin siyahısı.

**Maddə 33.**
**Müraciətlər**

33.1. Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 104-cü maddəsinin III hissəsində, məhkəmələr isə Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsində nəzərdə tutulmuş məsələlərlə əlaqədar Konstitusiya Məhkəməsinə müraciət edə bilərlər.

33.2. Müraciət Konstitusiya Məhkəməsinə yazılı şəkildə göndərilir. Müraciət səlahiyyətli şəxs tərəfindən, kollegial orqanın qərarı əsasında verildikdə isə onun rəhbəri tərəfindən imzalanır.

33.3. Müraciətdə aşağıdakılar göstərilməlidir:

33.3.1. Konstitusiya Məhkəməsinin adı;

33.3.2. müraciət edən orqanın adı, ünvanı;

33.3.3. nümayəndəliyin vəzifə kimi həyata keçirilməsi halları istisna olmaqla, müraciət edən orqanın nümayəndəsi və onun səlahiyyətləri haqqında lazımi məlumatlar;

33.3.4. Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ verən və Konstitusiya Məhkəməsi tərəfindən həmin müraciətə baxılması səlahiyyətini təsdiq edən Azərbaycan Respublikası Konstitusiyasının maddələri;

33.3.5. Konstitusiya Məhkəməsinə müraciətlə əlaqədar ünvanlanmış xahiş;

33.3.6. müraciətə qoşulmuş sənədlərin siyahısı.

33.4. Bu qanunun 33.3.1-33.3.6-cı maddələrində göstərilənlərdən başqa:

33.4.1. Azərbaycan Respublikası Milli Məclisinin müraciətində Azərbaycan Respublikası prezidentinin səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdiyi barədə məlumatın mənbəyi göstərilməlidir;

33.4.2. məhkəmənin müraciətində şərh edilməsi xahiş olunan normativ hüquqi aktın dəqiq adı, qəbul edildiyi tarix, nömrəsi, dərc olunduğu mənbə və ona dair digər məlumatlar göstərilməlidir.

**Maddə 34.**
**Şikayətlər**

34.1. Hər kəs onun hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarından, bələdiyyə və məhkəmə aktlarından Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin həll edilməsi üçün Konstitusiya Məhkəməsinə pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədi ilə şikayət verə bilər.

34.2. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 4-cü bəndində nəzərdə tutulmuş məsələyə dair şikayətlərə Konstitusiya Məhkəməsi tərəfindən baxılmasına aşağıdakı hallarda yol verilir:

34.2.1. tətbiq edilməli olan normativ hüquqi akt məhkəmə tərəfindən tətbiq edilmədikdə;

34.2.2. tətbiq edilməli olmayan normativ hüquqi akt məhkəmə tərəfindən tətbiq edildikdə;

34.2.3. normativ hüquqi akt məhkəmə tərəfindən düzgün şərh edilmədikdə.

34.3. Bu qanunun 34.2-ci maddəsində nəzərdə tutulmuş hallarda Ali Məhkəmə tərəfindən baxılmış işin faktiki hallarının yoxlanılmasına yol verilmir.

34.4. Konstitusiya Məhkəməsinə şikayət, bir qayda olaraq, aşağıdakı hallarda verilə bilər:

34.4.1. məhkəmə aktından şikayət vermək hüququndan tam istifadə edildikdən sonra axırıncı məhkəmə instansiyasının qərarının (Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarının) qüvvəyə mindiyi andan altı ay müddətində;

34.4.2. ərizəçinin məhkəməyə müraciət etmək hüququnun pozulduğu andan üç ay müddətində.

34.5. Hüquq və azadlıqların pozulması nəticəsində ərizəçiyə ağır və bərpaedilməz zərərin vurulmasının digər məhkəmələr vasitəsi ilə qarşısının alınması mümkün olmadıqda şikayət bilavasitə Konstitusiya Məhkəməsinə verilə bilər.

34.6. Şikayətdə aşağıdakılar göstərilməlidir:

34.6.1. Konstitusiya Məhkəməsinin adı;

34.6.2. şəxsin adı, soyadı, atasının adı, ünvanı;

34.6.3. şəxsin nümayəndəsi və onun səlahiyyətləri haqqında lazımi məlumatlar;

34.6.4. mübahisə olunan normativ hüquqi, məhkəmə və ya bələdiyyə aktını qəbul etmiş dövlət və ya yerli özünüidarə orqanının adı və ünvanı;

34.6.5. Konstitusiya Məhkəməsinə müraciət hüququ verən Azərbaycan Respublikası Konstitusiyasının və bu qanunun normaları;

34.6.6. mübahisə olunan aktın dəqiq adı, qəbul edildiyi tarix, nömrəsi, dərc olunduğu mənbə və ona dair digər məlumatlar;

34.6.7. məsələyə dair şəxsin mövqeyi və Azərbaycan Respublikası Konstitusiyasının və ya digər normativ hüquqi aktlarının müvafiq normalarına istinadla onun hüquqi əsaslandırılması;

34.6.8. Konstitusiya Məhkəməsinə şikayətlə əlaqədar ünvanlanmış xahiş;

34.6.9. şikayətə qoşulmuş sənədlərin siyahısı.

34.7. Şikayətdə aşağıdakılar əsaslandırılmalıdır:

34.7.1. mübahisə olunan normativ hüquqi, məhkəmə və ya bələdiyyə aktı ilə ərizəçinin hüquq və azadlıqlarının pozulması;

34.7.2. məhkəmə aktından şikayət vermək hüququndan tam istifadə edilməsi, məhkəməyə müraciət etmək hüququnun pozulması və ya ağır və bərpaedilməz zərərin vurulmasının digər məhkəmələr vasitəsi ilə qarşısının alınmasının mümkün olmaması.

**Maddə 35.**
**Sorğu, müraciət və ya şikayətlərə qoşulan sənədlər**

35.1. Konstitusiya Məhkəməsinə verilən sorğu, müraciət və ya şikayətlərə aşağıdakılar qoşulur:

35.1.1. sorğu verənin, müraciət edənin və ya ərizəçinin qənaətinə görə işin hallarının aydınlaşdırılması üçün lazım olan izahatlar və sənədlər;

35.1.2. nümayəndəliyin vəzifə kimi həyata keçirilməsi halları istisna olmaqla nümayəndənin səlahiyyətini təsdiq edən etibarnamə və ya digər sənəd, habelə şəxsin Konstitusiya Məhkəməsində nümayəndə kimi çıxış etmək hüququnu təsdiq edən sənədlərin surətləri;

35.1.3. mübahisə olunan normativ hüquqi, məhkəmə və ya bələdiyyə aktının, habelə şərh edilməsi xahiş olunan normativ hüquqi aktın surəti;

35.1.4. başqa dildə verilmiş bütün sənədlərin və digər materialların Azərbaycan dilinə tərcüməsi.

35.2. Sorğu və ya müraciətə həmçinin onları təqdim edən kollegial orqanın iclasında yetərsayın olması və həmin sorğu və ya müraciətin lazımi səs çoxluğu ilə qəbul olunmasını

təsdiq edən sənədlər qoşulur.

35.3. Şikayətə həmçinin məhkəmə aktından şikayət vermək hüququndan tam istifadə edilməsini və ya məhkəməyə müraciət etmək hüququnun pozulmasını təsdiq edən sənədlər qoşulur.

**Maddə 36.**
**Sorğu, müraciət və şikayətlərin öyrənilməsi**

36.1. Konstitusiya Məhkəməsinə daxil olmuş şikayətlərin bu qanunun 34.6-cı maddəsində nəzərdə tutulmuş tələblərə uyğunluğunun ilkin öyrənməsini Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsi ilə müəyyən edilən qaydada Konstitusiya Məhkəməsinin aparatı həyata keçirir.

36.2. Konstitusiya Məhkəməsinə daxil olmuş sorğu və müraciətlərlə əlaqədar, habelə bu qanunun 36.1-ci maddəsinə uyğun olaraq ilkin öyrənilmiş şikayətlərlə əlaqədar iclasın hazırlanması üçün bir və ya bir neçə hakim məruzəçi təyin edilir.

36.3. Məruzəçi-hakim aşağıdakı tədbirləri həyata keçirir:

36.3.1. məsələyə Konstitusiya Məhkəməsində baxılması üçün zəruri olan sənəd və materialları toplayır;

36.3.2. dövlət və özünüidarə orqanlarından məsələyə aid olan sənəd, material və işləri tələb edir;

36.3.3. sorğunu və ya şikayəti tərəflərə, başqa növ sənədi isə maraqlı subyektlərə təqdim edir və məsələyə dair onların yazılı mülahizələrini alır;

36.3.4. şahidlərin, ekspertlərin, digər şəxslərin iclasa çağırılmasını təşkil edir;

36.3.5. məsələyə baxılması üçün başqa zəruri tədbirləri

həyata keçirir;

36.3.6. məsələ üzrə məruzə hazırlayır.

36.4. Məruzəçi-hakim Konstitusiya Məhkəməsində baxılmağa hazırlanan məsələ üzrə Konstitusiya Məhkəməsinin aparatına tapşırıq verə bilər.

36.5. Məruzəçi-hakim iclasın hazırlanması ilə əlaqədar bütün tədbirləri Konstitusiya Məhkəməsi adından həyata keçirir.

**Maddə 37.**

**Sorğu, müraciət və ya şikayətin icraata qəbul edilməsindən imtina olunması**

37.0. Sorğu, müraciət və ya şikayət aşağıdakı hallarda Konstitusiya Məhkəməsinin icraatına qəbul edilmir:

37.0.1. sorğu, müraciət və ya şikayətin tərtibi bu qanunun tələblərinə uyğun olmadıqda;

37.0.2. məsələ Konstitusiya Məhkəməsinin səlahiyyətinə aid olmadıqda;

37.0.3. sorğu, müraciət və ya şikayət belə hüquqa malik olmayan orqan və ya şəxs tərəfindən verildikdə;

37.0.4. sorğu və ya müraciət onun Konstitusiya Məhkəməsinə verilməsi barədə qərar qəbul etmiş kollegial orqanın iclasında yetərsay və lazımi səs çoxluğu olmadan verildikdə;

37.0.5. məhkəmə aktından şikayət vermək hüququndan tam istifadə edilməsini və ya məhkəməyə müraciət etmək hüququnun pozulmasını təsdiq edən sənədlər təqdim olunmadıqda;

37.0.6. məsələ üzrə Konstitusiya Məhkəməsinin qərarı

mövcud olduqda.

**Maddə 38.**
**Sorğu, müraciət və ya şikayətin geri götürülməsi**

Konstitusiya Məhkəməsinə verilmiş sorğu, müraciət və ya şikayət Konstitusiya Məhkəməsinin icraatına qəbul edilənədək geri götürüldükdə həmin sorğu, müraciət və ya şikayətə Konstitusiya Məhkəməsində baxılmır.

**Maddə 39.**
**Konstitusiya işinin tərtib edilməsi**

39.1. Konstitusiya Məhkəməsi Plenumunun iclasına hazırlıq mərhələsində konstitusiya işi tərtib olunur. Konstitusiya işinə aşağıdakı sənədlər daxil edilir:

39.1.1. konstitusiya işinin başlanmasına səbəb olan sorğu, müraciət və ya şikayət;

39.1.2. sorğuya, müraciətə və ya şikayətə qoşulan materiallar;

39.1.3. məruzəçi-hakimin konstitusiya işinə əlavə etdiyi materiallar;

39.1.4. konstitusiya işi üzrə ekspertin rəyi;

39.1.5. tərəflərin və ya maraqlı subyektlərin təqdim etdikləri əlavə materiallar;

39.1.6. konstitusiya işi ilə əlaqədar olan başqa sənədlər;

39.1.7. məruzəçi-hakimin məruzəsi.

39.2. Konstitusiya işi tərtib edildikdən sonra Konstitusiya Məhkəməsinin hakimləri onunla tanış ola bilərlər.

# VI FƏSİL

## Konstitusiya icraatı

**Maddə 40.**

**Konstitusiya Məhkəməsində həyata keçirilən icraatın üsulları və növləri**

40.1. Konstitusiya Məhkəməsində icraat aşağıdakı üsullarla həyata keçirilir:

40.1.1. konstitusiya məhkəmə icraatı;

40.1.2. xüsusi konstitusiya icraatı.

40.2. Konstitusiya Məhkəməsində baxılan konstitusiya işləri üzrə konstitusiya məhkəmə icraatı aşağıdakı növlərdə həyata keçirilir:

40.2.1. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərində, V və VII hissələrində nəzərdə tutulmuş məsələlərin həlli üçün verilmiş sorğular və ya şikayətlər ilə əlaqədar işlərin icraatı;

40.2.2. qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrlə əlaqədar sorğular üzrə işlərin icraatı.

40.3. Konstitusiya Məhkəməsində baxılan konstitusiya işləri üzrə xüsusi konstitusiya icraatının aşağıdakı növləri həyata keçirilir:

40.3.1. Azərbaycan Respublikası Milli Məclisi deputatları seçkilərinin nəticələrinin yoxlanılması və təsdiqi ilə əlaqədar işlərin icraatı;

40.3.2. yeni seçilmiş Azərbaycan Respublikası Milli

Məclisinin ilk iclasının keçirilməsi vaxtının təyin edilməsi ilə əlaqədar işlərin icraatı;

40.3.3. Azərbaycan Respublikası prezidenti seçkilərinin nəticələrinin rəsmi elan edilməsi ilə əlaqədar işlərin icraatı;

40.3.4. Azərbaycan Respublikası prezidentinin istefa ərizəsinə baxılması ilə əlaqədar işlərin icraatı;

40.3.5. Azərbaycan Respublikası prezidentinin səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdiyi barədə məlumatı aydınlaşdırmaq üçün Azərbaycan Respublikası Milli Məclisinin müraciəti ilə əlaqədar işlərin icraatı;

40.3.6. Azərbaycan Respublikası prezidentinin vəzifədən kənarlaşdırılması məsələsi ilə əlaqədar işlərin icraatı;

40.3.7. Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi üçün verilən sorğular və müraciətlər ilə əlaqədar işlərin icraatı;

40.3.8. Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası prezidentinin Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklər edilməsi haqqında təkliflərinə dair Konstitusiya Məhkəməsinin rəyinin çıxarılması ilə əlaqədar işlərin icraatı.

**Maddə 41.**
**Konstitusiya məhkəmə icraatında tərəflər**

41.1. Konstitusiya məhkəmə icraatının tərəfləri sorğuverənlər və cavabverənlərdir.

41.2. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III və VII hissələrində göstərilən subyektlər konstitusiya məhkəmə icraatında sorğuverənlər ola bilərlər.

41.3. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin V hissəsində göstərilən şəxslər konstitusiya məhkəmə icraatında tərəf kimi «ərizəçilər» adlandırılır.

41.4. Konstitusiya məhkəmə icraatında aşağıdakılar cavabverən ola bilərlər:

41.4.1. mübahisə olunan normativ hüquqi, məhkəmə və ya bələdiyyə aktını qəbul etmiş müvafiq dövlət və ya yerli özünüidarəetmə orqanı;

41.4.2. mübahisə olunan Azərbaycan Respublikasının qüvvəyə minməmiş dövlətlərarası müqaviləsini və ya Azərbaycan Respublikasının hökumətlərarası müqaviləsini imzalamış vəzifəli şəxs;

41.4.3. qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü ilə bağlı güman edilən pozuntuya yol vermiş müvafiq dövlət orqanı.

41.5. Konstitusiya məhkəmə icraatında sorğuverənləri (ərizəçiləri) və cavabverənləri onların nümayəndələri təmsil edə bilərlər.

**Maddə 42.**
**Xüsusi konstitusiya icraatında maraqlı subyektlər**

42.1. Azərbaycan Respublikası Konstitusiyasının 86-cı maddəsində, 88-ci maddəsinin I hissəsində, 102-ci maddəsində, 104-cü maddəsinin II və III hissələrində, 107-ci maddəsində, 130-cu maddəsinin IV və VI hissələrində və 153-cü maddəsində nəzərdə tutulmuş hallarla əlaqədar Konstitusiya Məhkəməsinə sorğu və ya müraciət vermiş orqanlar və bu cür sorğu və ya müraciətlər əsasında mənafelərinə toxunulan orqanlar və şəxslər xüsusi konstitusiya icraatının

maraqlı subyektləridir.

42.2. Xüsusi konstitusiya icraatında maraqlı subyektləri onların nümayəndələri təmsil edə bilərlər.

**Maddə 43.**

**Tərəflərin və maraqlı subyektlərin hüquq və vəzifələri**

43.1. Tərəflərin və maraqlı subyektlərin aşağıdakı hüquqları vardır:

43.1.1. Konstitusiya Məhkəməsinin iclaslarında iştirak və çıxış etmək;

43.1.2. sübutları və digər materialları təqdim etmək;

43.1.3. işə baxılmasına dair vəsatət və təkliflər vermək;

43.1.4. onlara verilən suallara cavab vermək;

43.1.5. hakimlərə etirazlar etmək;

43.1.6. şahid və ekspertlərin dəvət olunmasını xahiş etmək;

43.1.7. Konstitusiya Məhkəməsi iclasının protokolu ilə tanış olmaq və ona dair öz qeydlərini bildirmək;

43.1.8. yekun çıxışı etmək.

43.2. Bu qanunun 43.1-ci maddəsində göstərilənlərdən başqa, tərəflərin həmçinin aşağıdakı hüquqları vardır:

43.2.1. Konstitusiya işinin materialları ilə tanış olmaq, onlardan çıxarışlar etmək, onların surətini çıxarmaq;

43.2.2. sübutların tədqiqində iştirak etmək;

43.2.3. bir-birinə, şahidlərə və ekspertlərə suallar vermək;

43.2.4. başqa tərəfin vəsatətlərinə, sübutlarına və çıxış-

larında söylədikləri fikirlərə etiraz etmək.

43.3. Tərəflər və maraqlı subyektlər Konstitusiya Məhkəməsinə hörmət etməli, konstitusiya icraatının tələblərinə riayət etməlidirlər. Tərəflər və maraqlı subyektlər Konstitusiya Məhkəməsinə çağırıldıqları vaxtda gəlməli, Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsi ilə müəyyən edilmiş qaydaya hörmətlə yanaşmalı, Konstitusiya Məhkəməsinin iclasına sədrlik edənin göstərişlərini dərhal yerinə yetirməlidirlər.

**Maddə 44.**
**Şahid**

44.1. Konstitusiya Məhkəməsinin iclasında baxılan konstitusiya işi üzrə hər hansı halı bilən şəxs «şahid» adlanır. Sorğuverənin, ərizəçinin, cavabverənin və ya maraqlı subyektin xahişi ilə və ya Konstitusiya Məhkəməsinin qərarı ilə şahid ifadə vermək üçün Konstitusiya Məhkəməsinin iclasına çağırıla bilər.

44.2. Şahid konstitusiya işi üzrə müəyyən edilməli olan ona məlum hallar haqqında ifadə verməlidir.

44.3. Şahid Konstitusiya Məhkəməsinə hörmət etməli, konstitusiya icraatının tələblərinə riayət etməlidir. Şahid Konstitusiya Məhkəməsində qəbul edilmiş qaydaya hörmətlə yanaşmalı, Konstitusiya Məhkəməsinin iclasına sədrlik edənin göstərişlərini dərhal yerinə yetirməlidir.

44.4. Şahid bilə-bilə yalan ifadə verməyə və ya ifadə verməkdən boyun qaçırmağa görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyətə cəlb oluna bilər.

**Maddə 45.**

**Ekspert**

45.1. Konstitusiya Məhkəməsi öz təşəbbüsü ilə və ya tərəflərin, yaxud maraqlı subyektlərin xahişi ilə Konstitusiya Məhkəməsinin iclasında baxılan məsələ üzrə elmi və ya başqa xüsusi biliyə malik olan şəxsi ekspert kimi dəvət edə bilər. Ekspert iş üzrə yazılı rəy təqdim edir.

45.2. Ekspert ona verilən suallara obyektiv və əsaslandırılmış cavab verməlidir. Ekspert suallara cavab vermək üçün Konstitusiya işinin materialları ilə tanış olmaq və zəruri əlavə materiallarla tanış edilmək haqqında vəsatətlə Konstitusiya Məhkəməsinə müraciət edə bilər. Ekspert onda olan materialları verilmiş suallara cavab vermək üçün yetərli saymadıqda, yaxud verilmiş suallara cavab vermək üçün zəruri biliyə malik olmadıqda bu barədə Konstitusiya Məhkəməsinə xəbər verməlidir. Ekspert Konstitusiya Məhkəməsinin iclasında sədrlik edənin icazəsi ilə ona verilmiş suallara cavab vermək üçün tərəflərə, maraqlı subyektlərə və şahidlərə sual verə bilər.

45.3. Ekspert Konstitusiya Məhkəməsinə hörmət etməli, Konstitusiya icraatının tələblərinə riayət etməlidir. Ekspert Konstitusiya Məhkəməsinə çağırıldığı vaxtda gəlməli, Konstitusiya Məhkəməsində qəbul edilmiş qaydaya hörmətlə yanaşmalı, Konstitusiya Məhkəməsinin iclasına sədrlik edənin göstərişlərini dərhal yerinə yetirməlidir.

45.4. Ekspert bilə-bilə yalan rəy verməyə görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyətə cəlb oluna bilər.

**Maddə 46.**

**Hakimə etiraz və özü-özünə etiraz**

46.1. Aşağıdakı hallarda Konstitusiya Məhkəməsinin hakimi işə baxılmasında iştirak edə bilməz və ya ona etiraz edilə bilər:

46.1.1. o, əvvələr öz qulluq vəzifələrinə görə məsələ üzrə qərar qəbul edilməsində iştirak etdikdə;

46.1.2. o, tərəflərdən biri və ya tərəflərin birinin və ya onun nümayəndəsinin yaxın qohumu olduqda.

46.2. Etiraz əsaslandırılmalıdır.

46.3. Bu qanunun 46.1-ci maddəsində nəzərdə tutulmuş əsaslarla Konstitusiya Məhkəməsinin hakiminə etiraz edilərsə, yaxud hakim özü-özünə etiraz edərsə, məhkəmə barəsində etiraz edilən hakimin və digər tərəfin fikirlərini öyrənir, bu məsələni müzakirə edərək etiraz edilmiş və ya özü-özünə etiraz etmiş hakimin iştirakı olmadan qərar qəbul edir.

**Maddə 47.**

**Məhkəmə iclasının təxirə salınması**

47.1. Məhkəmə iclası aşağıdakı hallarda təxirə salına bilər:

47.1.1. məsələnin əlavə öyrənilməsinə ehtiyac olduqda;

47.1.2. yeni sübutları tədqiq etmək zərurəti yarandıqda;

47.1.3. yetərsay olmadıqda;

47.1.4. baxılan məsələnin tam araşdırılmasına maneə törədən başqa hallar olduqda.

47.2. Bu qanunun 47.1-ci maddəsində nəzərdə tutulmuş hallarda Konstitusiya Məhkəməsi iclasının keçiriləcəyi

yeni tarixi təyin edir. Baxılması təxirə salınan iş üzrə iclas əvvəldən və ya onun təxirə salındığı andan başlayır.

**Maddə 48.**
**İşə baxılmasının təzələnməsi**

48.1. Tərəflərin və ya maraqlı subyektlərin yekun çıxışlarından sonra Konstitusiya Məhkəməsi iş üzrə xüsusi əhəmiyyət kəsb edən əlavə halların aşkar edilməsinin və ya yeni sübutların tədqiq edilməsinin zəruri olduğunu müəyyən edərsə, işə baxılmasının təzələnməsi haqqında qərardad çıxarır.

48.2. Əlavə tədqiqatların yekunlaşmasından sonra tərəflər və ya maraqlı subyektlər yalnız yeni baxılmış hallar və sübutlarla əlaqədar təkrar yekun çıxışları etmək hüququna malikdirlər.

**Maddə 49.**
**İş üzrə icraata xitam verilməsi**

Məhkəmə iclasının gedişində sorğu, müraciət və ya şikayətin icraata qəbul edilməsindən imtina olunması əsasları aşkar edildikdə, habelə sorğu, müraciət və ya şikayət geri götürüldükdə Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə icraata xitam verir.

**Maddə 50.**
**Konstitusiya Məhkəməsində məhkəmə xərcləri**

50.1. Konstitusiya Məhkəməsində icraat ödənişsizdir.

50.2. Konstitusiya Məhkəməsində iş üzrə icraata çəkilən xərclər dövlət büdcəsindən ödənilir.

**Maddə 51.**

**Məhkəmə iclasının protokolu**

51.1. Məhkəmə iclasının katibi Konstitusiya Məhkəməsi iclasının protokolunu aparır. Konstitusiya Məhkəməsi iclasının protokolu konstitusiya işinin materiallarına daxil edilir.

51.2. Konstitusiya Məhkəməsi iclasının protokoluna dair qeydlər verildikdə Konstitusiya Məhkəməsi on gün ərzində həmin qeydlərə baxmalı və onların protokola daxil edilməsi, yaxud rədd edilməsi haqqında əsaslandırılmış qərar qəbul etməlidir.

## VII FƏSİL

## Müxtəlif növ konstitusiya işləri üzrə konstitusiya icraatının xüsusiyyətləri

**Maddə 52.**

**Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərində, V və VII hissələrində nəzərdə tutulmuş məsələlərlə əlaqədar sorğu və ya şikayətə baxılmasının xüsusiyyətləri**

52.1. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərində, V və VII hissələrində nəzərdə tutulmuş məsələlərlə əlaqədar Konstitusiya Məhkəməsinə daxil olmuş sorğu və ya şikayət, bir qayda olaraq, 30 gün müddətində Konstitusiya Məhkəməsi

palatasının iclasına çıxarılır, sorğu və ya şikayətin icraata qəbul edilməsi, yaxud icraata qəbul edilməsindən imtina edilməsi haqqında qərardad qəbul olunur.

52.2. Sorğu və ya şikayətin icraata qəbul edilməsi, yaxud icraata qəbul edilməsindən imtina edilməsi haqqında qərardad qəbul olunduğu gündən ən geci 7 gün keçənədək sorğuverənə (ərizəçiyə) göndərilir.

52.3. Sorğu və ya şikayətə Konstitusiya Məhkəməsinin Plenumunda mahiyyəti üzrə baxılması, bir qayda olaraq, onun icraata qəbul edildiyi gündən ən geci 60 gün keçənədək başlanmalıdır.

52.4. Konstitusiya Məhkəməsinin Plenumu ağır və bərpaedilməz zərər vurulmasının qarşısının alınması məqsədi ilə işin mahiyyəti üzrə qərar qəbul edilənədək mübahisə olunan normativ hüquqi aktın və ya bələdiyyə aktının icrasının dayandırılmasına dair qərar qəbul edə bilər və tərəflərə mübahisənin məhkəməyədək nizamlanmasını təklif edə bilər.

**Maddə 53.**

**Qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrlə əlaqədar sorğuya baxılmasının xüsusiyyətləri**

53.1. Qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrlə əlaqədar sorğu haqqında məsələ, bir qayda olaraq, 15 gün müddətində Konstitusiya Məhkəməsinin palatalarının iclasına çıxarılır, sorğunun icraata qəbul edilməsi, yaxud icraata qəbul edilməsindən imtina edilməsi haqqında qərardad

qəbul olunur.

53.2. Sorğunun icraata qəbul edilməsi, yaxud icraata qəbul edilməsindən imtina edilməsi haqqında qərardad qəbul olunduğu gün sorğuverən orqana və ya vəzifəli şəxsə göndərilir.

53.3. Sorğuya Konstitusiya Məhkəməsinin Plenumunda mahiyyəti üzrə baxılması, bir qayda olaraq, onun icraata qəbul edildiyi gündən ən geci 30 gün keçənədək başlanmalıdır.

**Maddə 54.**

**Azərbaycan Respublikası Milli Məclisi deputatları seçkilərinin nəticələrinin yoxlanılması və təsdiqi haqqında məsələyə baxılmasının xüsusiyyətləri**

54.1. Azərbaycan Respublikası Konstitusiyasının 86-cı maddəsinə görə Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Milli Məclisi deputatları seçkilərinin nəticələrinin düzgünlüyünü yoxlayır və təsdiq edir. Azərbaycan Respublikası Milli Məclisi deputatları seçkilərinin nəticələrinin yoxlanılması və təsdiq edilməsi qaydaları Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə müəyyən edilir.

54.2. Azərbaycan Respublikasının Milli Məclisinə ümumi seçkilərin nəticələrinin düzgünlüyünü yoxlamaq üçün Konstitusiya Məhkəməsi Plenumunun iclası Konstitusiya Məhkəməsinə materiallar daxil olduğu gündən ən geci 10 gün keçənədək başlanmalıdır. Yoxlama prosesi tələb etsə, Konstitusiya Məhkəməsi öz qərarı ilə bu müddəti artıra bilər.

54.3. Azərbaycan Respublikasının Milli Məclisinə təkrar seçkilərin nəticələrinin düzgünlüyünü yoxlamaq üçün

Konstitusiya Məhkəməsi Plenumunun iclası Konstitusiya Məhkəməsinə materiallar daxil olduğu gündən ən geci 7 gün keçənədək başlanmalıdır.

54.4. Konstitusiya Məhkəməsi apellyasiya instansiyası məhkəmələrindən və Azərbaycan Respublikasının Ali Məhkəməsindən seçki hüquqlarının müdafiəsinə dair işlər üzrə baxılmış ərizələr haqqında məlumat tələb edir.

54.5. Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin nəticələrinin düzgünlüyünü yoxlamaq üçün keçirilən Konstitusiya Məhkəməsi Plenumunun iclasında Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər üzrə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri və üzvləri, habelə Konstitusiya Məhkəməsi tərəfindən dəvət edilmiş digər şəxslər iştirak edirlər.

54.6. Konstitusiya Məhkəməsinin Plenumu yoxlama nəticəsində Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin nəticələrinin bütövlükdə təsdiq edilməsi, qismən təsdiq edilməsi və ya təsdiq edilməməsi barədə hakimlərin 5 səs çoxluğu ilə qərar qəbul edə bilər.

**Maddə 55.**

**Yeni seçilmiş Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasının keçirilməsi vaxtının təyin edilməsi haqqında məsələyə baxılmasının xüsusiyyətləri**

55.1. Azərbaycan Respublikası Konstitusiyasının 88-ci maddəsinin I hissəsinə görə Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdən sonra martın 10-dək 83 deputatın səlahiyyətləri təsdiq edilməzsə, Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasının keçirilməsi vaxtını təyin edir.

55.2. Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Milli Məclisinin 83-cü deputatının seçildiyini martın 10-dan sonra təsdiq edərsə, həmin iclasda yeni seçilmiş Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasının keçirilməsi vaxtını da müəyyən etməlidir.

55.3. Bu məsələ haqqında Konstitusiya Məhkəməsinin Plenumunun qərarı hakimlərin azı 5 səs çoxluğu ilə qəbul edilir.

**Maddə 56.**

**Azərbaycan Respublikası prezidenti seçkilərinin nəticələrinin rəsmən elan edilməsinə dair icraatın xüsusiyyətləri**

56.1. Azərbaycan Respublikası prezidenti seçkilərinin yekunları haqqında məsələyə Konstitusiya Məhkəməsinin Plenumunda baxılır.

56.2. Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası prezidenti seçkilərinin yekunlarına dair Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim olunmuş sənədləri öyrənir, apellyasiya instansiyası məhkəmələrindən və Azərbaycan Respublikasının Ali Məhkəməsindən seçki hüquqlarının müdafiəsinə dair işlər üzrə baxılmış ərizələr haqqında məlumat tələb edir.

56.3. Konstitusiya Məhkəməsinin Plenumu seçkilərin yekunlarına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sənədlərinin Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə uyğun olduğunu müəyyən etdikdə seçkilərin nəticələrinin təsdiq edilməsi barədə qərar qəbul edir.

56.4. Azərbaycan Respublikasının Seçki Məcəlləsində nəzərdə tutulmuş hallar müəyyən edildikdə Konstitusiya Məhkəməsinin Plenumu seçkilərin nəticələrinin etibarsız hesab edilməsi barədə qərar qəbul edir.

56.5. Bu qanunun 56.3-cü və 56.4-cü maddələrində nəzərdə tutulmuş qərarlar Konstitusiya Məhkəməsi Plenumunun iclasında hakimlərin 5 səs çoxluğu ilə qəbul edilir.

56.6. Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası prezidenti seçkilərinin yekunları haqqında məlumatı səsvermə günündən sonra 14 gün ərzində rəsmən elan edir.

**Maddə 57.**

**Azərbaycan Respublikası prezidentinin istefa ərizəsinə baxılmasının xüsusiyyətləri**

57.1. Azərbaycan Respublikası Konstitusiyasının 104-cü maddəsinin II hissəsində nəzərdə tutulmuş halda Azərbaycan Respublikasının prezidenti Konstitusiya Məhkəməsinə ərizə verir.

57.2. Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası prezidentinin yazılı və imzalanmış istefa ərizəsinə baxmaqdan imtina edə bilməz.

57.3. Azərbaycan Respublikası prezidentinin istefa ərizəsinə Konstitusiya Məhkəməsinin Plenumunda mahiyyəti üzrə baxılması ərizənin daxil olduğu gündən ən geci 3 gün keçənədək başlanmalıdır.

57.4. İstefa ərizəsini Azərbaycan Respublikası prezidentinin özünün verdiyinə əmin olduğu təqdirdə Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası prezidentinin istefasının qəbul olunması haqqında qərar çıxarır.

57.5. İstefa ərizəsini Azərbaycan Respublikası prezidentinin özünün verdiyinə əmin olmadığı təqdirdə Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası prezidentinin istefasının qəbul olunmaması haqqında qərar çıxarır.

57.6. Konstitusiya Məhkəməsinin Plenumu bu qanunun 57.4-cü və 57.5-ci maddələrində nəzərdə tutulmuş qərarları hakimlərin 5 səs çoxluğu ilə qəbul edir.

57.7. Bu qanunun 57.4-cü maddəsində nəzərdə tutulmuş qərar dərhal Azərbaycan Respublikasının baş nazirinə göndərilir. Bu qanunun 57.5-ci maddəsində nəzərdə tutulmuş qərar dərhal Azərbaycan Respublikasının prezidentinə göndərilir.

**Maddə 58.**

**Azərbaycan Respublikası prezidentinin səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdiyi barədə məlumatı aydınlaşdırmaq üçün Azərbaycan Respublikası Milli Məclisinin müraciətinə baxılmasının xüsusiyyətləri**

58.1. Azərbaycan Respublikası Konstitusiyasının 104-cü maddəsinin III hissəsində nəzərdə tutulmuş halda Azərbaycan Respublikası Milli Məclisinin müraciəti Konstitusiya Məhkəməsinə daxil olduğu gündən ən geci 3 gün keçənədək Konstitusiya Məhkəməsi Plenumunun iclasına çıxarılır, hakimlərin azı 5 səs çoxluğu ilə müraciətin icraata qəbul edilməsi və ya icraata qəbul edilməsindən imtina edilməsi haqqında qərardad qəbul olunur və həmin gün Azərbaycan Respublikasının prezidentinə və Azərbaycan Respublikasının Milli Məclisinə göndərilir.

58.2. Müraciətə Konstitusiya Məhkəməsinin Plenumunda mahiyyəti üzrə baxılması onun icraata qəbul edildiyi gündən ən geci 7 gün keçənədək başlanmalıdır.

58.3. Azərbaycan Respublikası Prezidentinin səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdiyi ilə əlaqədar vəzifəsindən kənarlaşdırılması barədə Konstitusiya Məhkəməsinin qərarı Konstitusiya Məhkəməsi hakimlərinin 6 səs çoxluğu ilə qəbul edilir.

58.4. Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası prezidentinin səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdiyi faktını təsdiq etmədikdə, məsələ bununla bitmiş sayılır və bu barədə dərhal Azərbaycan Respublikasının prezidentinə və Azərbaycan Respublikasının Milli Məclisinə yazılı məlumat göndərilir.

**Maddə 59.**

**Azərbaycan Respublikası prezidentinin vəzifədən kənarlaşdırılması haqqında məsələyə baxılmasının xüsusiyyətləri**

59.1. Azərbaycan Respublikası Konstitusiyasının 107-ci maddəsinin I hissəsinə görə, Azərbaycan Respublikasının Prezidenti ağır cinayət törətdikdə Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası prezidentinin vəzifədən kənarlaşdırılması təşəbbüsü ilə çıxış edə bilər.

59.2. Azərbaycan Respublikası prezidentinin vəzifədən kənarlaşdırılması məsələsinə baxılmasını Konstitusiya Məhkəməsinin azı 3 hakimi təklif edə bilər. Həmin təklif yazılı şəkildə Konstitusiya Məhkəməsinin sədrinə verilməlidir. Təklif daxil olduğu gündən üç gün müddətində Konstitusiya

Məhkəməsi Plenumunun iclası çağırılmalı və bu məsələyə baxılmalıdır. Konstitusiya Məhkəməsinin Plenumu təklifi əsaslı saymazsa, bu barədə 5 hakimin səs çoxluğu ilə qərar qəbul edir.

59.3. Konstitusiya Məhkəməsinin Plenumu təklifi əsaslı saydığı halda Azərbaycan Respublikası prezidentinin hərəkətlərində ağır cinayətin əlamətlərinin olub-olmaması barədə rəy almaqdan ötrü məsələni Azərbaycan Respublikasının Ali Məhkəməsinə göndərir. Bu barədə qərar Konstitusiya Məhkəməsi hakimlərinin 6 səs çoxluğu ilə qəbul edilməlidir. Azərbaycan Respublikasının Ali Məhkəməsi məsələyə daxil olduğu gündən 30 gün müddətində baxmalı və Konstitusiya Məhkəməsinə yazılı rəy göndərməlidir.

59.4. Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası prezidentinin hərəkətlərində ağır cinayətin əlamətlərinin olması qənaətinə gəlmədikdə məsələ bununla bitmiş sayılır.

59.5. Azərbaycan Respublikası Ali Məhkəməsinin rəyini nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası prezidentinin hərəkətlərində ağır cinayətin əlamətlərinin olması ilə əlaqədar vəzifədən kənarlaşdırılması təşəbbüsü ilə çıxış etmək haqqında 7 hakimin səs çoxluğu ilə qərar qəbul edə bilər. Bu cür qərar qəbul edildikdə dərhal Azərbaycan Respublikasının Milli Məclisinə göndərilir.

59.6. Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 107-ci maddəsinin II hissəsində nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikası Prezidentinin vəzifədən kənarlaşdırılması haqqında qərar qəbul etdikdə, həmin qərar və onun əsasında qəbul edilmiş müraciət dərhal Konstitusiya Məhkəməsinə

göndərilir. Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Milli Məclisinin qərarını və müraciətini aldığı gündən 7 gün ərzində həmin qərar qəbul edilərkən Azərbaycan Respublikası Konstitusiyasının, Azərbaycan Respublikasının müvafiq qanunlarının tələblərinə riayət olunmasını yoxlayır. Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Milli Məclisinin qərarına tərəfdar çıxması haqqında qərarını 7 hakimin səs çoxluğu ilə qəbul edir. Azərbaycan Respublikası Konstitusiyasının 107-ci maddəsinin II hissəsinə görə Azərbaycan Respublikası Prezidentinin vəzifədən kənarlaşdırılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarını Konstitusiya Məhkəməsinin sədri imzalayır.

59.7. Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Milli Məclisinin qərarına tərəfdar çıxması haqqında qərar qəbul etməzsə, Azərbaycan Respublikası Prezidentinin vəzifədən kənarlaşdırılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı qüvvəyə minmir.

**Maddə 60.**

**Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi barədə sorğuya və müraciətə baxılmasının xüsusiyyətləri**

60.1. Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi barədə Konstitusiya Məhkəməsinə daxil olmuş sorğu və ya müraciət haqqında məsələ, bir qayda olaraq, 15 gün müddətində Konstitusiya Məhkəməsi palatasının iclasına çıxarılır, sorğunun və ya müraciətin

icraata qəbul edilməsi, yaxud icraata qəbul edilməsindən imtina edilməsi haqqında qərardad qəbul olunur.

60.2. Sorğunun və ya müraciətin icraata qəbul edilməsi, yaxud icraata qəbul edilməsindən imtina edilməsi haqqında qərardad qəbul olunduğu gündən ən geci 7 gün keçənədək sorğuverən orqana və ya vəzifəli şəxsə göndərilir.

60.3. Sorğuya və ya müraciətə Konstitusiya Məhkəməsinin Plenumunda mahiyyəti üzrə baxılması, birqayda olaraq, onun icraata qəbul edildiyi gündən ən geci 60 gün keçənədək başlanmalıdır.

**Maddə 61.**

**Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklər edilməsi haqqında təkliflərinə dair Konstitusiya Məhkəməsinin rəyinin çıxarılması ilə əlaqədar məsələyə baxılmasının xüsusiyyətləri**

61.1. Azərbaycan Respublikası Konstitusiyasının 153-cü maddəsinə görə Azərbaycan Respublikasının Milli Məclisi və ya Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklər edilməsi haqqında təklif verərlərsə, bu barədə Konstitusiya Məhkəməsinin rəyi alınmalıdır.

61.2. Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Milli Məclisinin və Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklər edilməsi haqqında təkliflərinə dair rəy verməkdən imtina edə bilməz.

61.3. Azərbaycan Respublikası Milli Məclisinin və Azərbaycan Respublikası Prezidentinin təkliflərinə mahiyyəti üzrə Konstitusiya Məhkəməsinin Plenumunda baxılması onların dərc olunduğu gündən ən geci 7 gün keçənədək başlanmalıdır.

61.4. Konstitusiya Məhkəməsi təklif olunmuş dəyişikliklərin Azərbaycan Respublikası Konstitusiyasının 155-ci maddəsinin tələblərinə uyğunluğu haqqında əsaslandırılmış rəy qəbul edir.

61.5. Azərbaycan Respublikası Konstitusiyasının mətninə dəyişikliklər edilməsi haqqında referendum keçiriləcəksə, Konstitusiya Məhkəməsi rəyinin xülasəsi səsvermə bülleteninə daxil edilir.

## VIII FƏSİL

## Konstitusiya Məhkəməsinin aktları

### Maddə 62.
### Konstitusiya Məhkəməsinin aktları

62.1. Konstitusiya Məhkəməsi palatalarının iclaslarında qərardadlar, plenumunun iclaslarında isə qərar və qərardadlar qəbul edilir.

62.2. Konstitusiya Məhkəməsinin aktları hakimlərin müşavirə otağında qəbul edilir.

**Maddə 63.**
**Konstitusiya Məhkəməsi Plenumunun qərarı**

63.1. Konstitusiya Məhkəməsi Plenumunun qərarı konstitusiya işinə mahiyyəti üzrə baxılması nəticəsində Konstitusiya Məhkəməsinin gəldiyi qənaəti əks etdirən və Konstitusiya Məhkəməsi Plenumunun iclaslarında qəbul edilən yazılı sənəddir.

63.2. Konstitusiya Məhkəməsi Plenumunun qərarı, Azərbaycan Respublikasının Konstitusiyası və bu qanunla başqa qayda nəzərdə tutulmayıbsa, 5 hakimin səs çoxluğu ilə qəbul edilir.

63.3. Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən qəbul edilmiş qərarlar Azərbaycan Respublikası adından çıxarılır.

63.4. Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən qəbul edilmiş qərarlar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

63.5. Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən qəbul edilən qərarları plenumun iclasına sədrlik edən imzalayır və bir qayda olaraq, 15 gün müddətində Konstitusiya Məhkəməsinin iclasında elan edir.

**Maddə 64.**
**Konstitusiya Məhkəməsi hakiminin xüsusi rəyi**

64.1. Konstitusiya Məhkəməsinin hakimi Konstitusiya Məhkəməsi qərarının təsviri əsaslandırıcı və ya nəticə hissəsi ilə razı olmadıqda yazılı şəkildə xüsusi rəy tərtib edə bilər.

64.2. Hakimin xüsusi rəyi Konstitusiya Məhkəməsinin

qərarı ilə birlikdə dərc edilir.

**Maddə 65.**

**Konstitusiya Məhkəməsi Plenumunun qərarının məzmunu**

65.1. Konstitusiya Məhkəməsi Plenumunun qərarı giriş, təsviri-əsaslandırıcı və nəticə hissələrindən ibarətdir.

65.2. Konstitusiya Məhkəməsi qərarının giriş hissəsində aşağıdakılar göstərilir:

65.2.1. qərarın adı;

65.2.2. qərarın çıxarılması tarixi və yeri;

65.2.3. Konstitusiya Məhkəməsi hakimlərinin tərkibi, məhkəmə iclasının katibi, tərəflər, maraqlı subyektlər və işdə iştirak edən digər şəxslər;

65.2.4. konstitusiya icraatının üsulu və bu icraatın başlanması üçün səbəblər.

65.3. Konstitusiya Məhkəməsi Plenumunun qərarının təsviri-əsaslandırıcı hissəsində aşağıdakılar göstərilir:

65.3.1. sorğu, müraciət və ya şikayətin qısa məzmunu və Konstitusiya Məhkəməsinə ünvanlanmış xahiş;

65.3.2. konstitusiya işində olan sənədlər haqqında məlumat;

65.3.3. konstitusiya işinə baxılması zamanı müəyyən edilmiş hallar;

65.3.4. qərarın çıxarılması üçün rəhbər tutulmuş Azərbaycan Respublikası Konstitusiyasının və Azərbaycan Respublikasının başqa qanunlarının maddələri;

65.3.5. konstitusiya işinə dair Konstitusiya Məhkəməsinin qənaətini əsaslandıran mülahizələr;

65.4. Konstitusiya Məhkəməsi qərarın nəticə hissəsində aşağıdakalır göstərilir:

65.4.1. Konstitusiya işinə dair Konstitusiya Məhkəməsinin qənaəti;

65.4.2. qərarın dərc edilməsi və qüvvəyə minməsi vaxtı.

**Maddə 66.**
**Konstitusiya Məhkəməsi qərarlarının hüquqi qüvvəsi**

66.1. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IX hissəsinə görə Konstitusiya Məhkəməsinin qərarları Azərbaycan Respublikasının ərazisində məcburi qüvvəyə malikdir.

66.2. Konstitusiya Məhkəməsinin qərarları qüvvəyə mindikdən sonra şərtsiz icra olunmalıdır. Konstitusiya Məhkəməsinin qərarlarını icra etməyən vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

66.3. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin X hissəsinə görə qanunlar və digər aktlar, yaxud onların ayrı-ayrı müddəaları, Azərbaycan Respublikasının hökumətlərarası müqavilələri Konstitusiya Məhkəməsinin qərarında müəyyən edilmiş müddətdə qüvvədən düşür, Azərbaycan Respublikasının dövlətlərarası müqavilələri isə qüvvəyə minmir.

66.4. Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olmayan hesab edilmiş məhkəmə aktları icra edilməməli və müvafiq məhkəmə işlərinə Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yenidən baxılmalıdır.

66.5. Konstitusiya Məhkəməsinin qərarının qəbul edilməsi üçün əsas təşkil etmiş Azərbaycan Respublikası Konstitusiyasının norması referendum nəticəsində dəyişdirildikdə, həmin qərar Konstitusiya Məhkəməsi tərəfindən qismən və ya bütövlükdə qüvvədən düşmüş hesab olunur.

**Maddə 67.**

**Konstitusiya Məhkəməsi qərarlarının qüvvəyə minməsi vaxtı**

67.0. Konstitusiya Məhkəməsinin qərarları aşağıda göstərilən vaxtlardan qüvvəyə minir:

67.0.1. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərində, V və VII hissələrində nəzərdə tutulmuş məsələlər üzrə qəbul olunmuş qərarlar - qərarın özündə göstərilən vaxtdan;

67.0.2. qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü, Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi barədə qərarlar-dərc olunduğu gündən;

67.0.3. Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə aid başqa məsələlər barədə qərarlar-elan olunduğu andan.

**Maddə 68.**

**Konstitusiya Məhkəməsinin qərardadları**

68.1. Konstitusiya Məhkəməsinin palataları sorğunun, müraciətin və ya şikayətin baxılmaq üçün qəbul edilməsi barədə, Konstitusiya Məhkəməsinin Plenumu isə Plenumun iclaslarında yaranan məsələlərin həlli üçün və bu qanunla nəzərdə tutulmuş başqa hallarda qərardadlar qəbul edirlər.

68.2. Konstitusiya Məhkəməsi Plenumunun qərardadları azı 5 hakimin səs çoxluğu ilə, palatalarının qərardadları isə hakimlərin səs çoxluğu ilə qəbul edilir.

68.3. Konstitusiya işinə baxılarkən qəbul edilmiş qərardadlar Konstitusiya Məhkəməsi iclasının protokolunda əks olunur.

68.4. Konstitusiya Məhkəməsi palatalarının və plenumunun qərardadları müvafiq olaraq sədrlik edən tərəfindən imzalanır və bir qayda olaraq, 5 gün müddətində Konstitusiya Məhkəməsinin iclaslarında elan edilir.

**Maddə 69.**
**Konstitusiya Məhkəməsinin aktlarının dərc edilməsi**

69.1. Konstitusiya Məhkəməsi Plenumunun qərarları Azərbaycan Respublikasının rəsmi dövlət qəzetində dərc olunur.

69.2. Konstitusiya Məhkəməsi Plenumunun qərarları və Konstitusiya Məhkəməsi tərəfindən dərc edilməsi zəruri sayılan qərardadları, Konstitusiya Məhkəməsinin fəaliyyəti ilə bağlı başqa materiallar «Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı»nda dərc olunur.

# IX FƏSİL

## Konstitusiya Məhkəməsinin fəaliyyətinin təşkili və təminatları

**Maddə 70.**
**Konstitusiya Məhkəməsinin fəaliyyətinin maliyyələşdirilməsi**

70.1. Konstitusiya Məhkəməsinin fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilir. Konstitusiya Məhkəməsinin fəaliyyətinin maliyyələşdirilməsi üçün ayrılan illik vəsaitin tərkibində cari xərclərin məbləği əvvəlki maliyyə ilində bu məqsəd üçün nəzərdə tutulmuş məbləğdən az ola bilməz.

70.2. Konstitusiya Məhkəməsinin saxlanılması üçün ayrılan illik vəsait məhkəmənin normal fəaliyyət göstərməsinə yönələn zəruri xərcləri özündə birləşdirir.

70.3. Konstitusiya Məhkəməsinin hər növbəti il üçün saxlanılması xərclərinin həcminə dair təkliflər Azərbaycan Respublikası dövlət büdcəsinin layihəsinə daxil edilmək üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına göndərilir.

**Maddə 71.**
**Konstitusiya Məhkəməsi hakiminin əmək haqqı**

71.1. Konstitusiya Məhkəməsi hakiminin əmək haqqı vəzifə maaşından, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən vəzifə maaşına əlavələrdən,

digər müavinətlərdən və Konstitusiya Məhkəməsi hakiminin səlahiyyətlərinin yerinə yetirilməsi ilə bağlı xərclərin ödənilməsi üçün Azərbaycan Respublikası Milli Məclisi deputatının aldığı məbləğdə vergilərdən azad olunan aylıq pul təminatından ibarətdir.

71.2. Konstitusiya Məhkəməsi sədrinin aylıq vəzifə maaşı 1.785,0 manatdır.

71.3. Konstitusiya Məhkəməsi sədrinin müavininin aylıq vəzifə maaşı sədrin aylıq vəzifə maaşının 90 faizinə bərabərdir.

71.4. Konstitusiya Məhkəməsi hakiminin aylıq vəzifə maaşı sədrin aylıq vəzifə maaşının 85 faizinə bərabərdir.

**Maddə 72.**

**Konstitusiya Məhkəməsi hakiminin əmək məzuniyyəti**

72.1. Konstitusiya Məhkəməsinin hakiminə hər il 40 təqvim günü müddətində əmək məzuniyyəti verilir.

72.2. Konstitusiya Məhkəməsi hakiminə əmək məzuniyyətinə çıxdığı vaxt dövlət büdcəsi hesabına birdəfəlik ödəmə qismində iki aylıq əmək haqqı məbləğində müavinət verilir.

72.3. Konstitusiya Məhkəməsinin hakiminə əmək məzuniyyətini Konstitusiya Məhkəməsinin sədri verir.

**Maddə 73.**

**Konstitusiya Məhkəməsi hakiminin başqa təminatları**

73.1. Konstitusiya Məhkəməsinin hakimi hərbi çağırışdan və hərbi toplanışdan azad olunur.

73.2. Konstitusiya Məhkəməsi hakiminin həyatı və sağlamlığı Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına onun 5 illik əmək haqqı məbləğində sığorta edilir.

73.3. Konstitusiya Məhkəməsinin hakiminə və ya onun ailə üzvlərinə məxsus əmlakın hakimlik fəaliyyəti ilə əlaqədar məhv olması və ya zədələnməsi nəticəsində vurulan ziyan hakimə və ya onun ailə üzvlərinə tam həcmdə ödənilir. Bu ziyan Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada sonradan təqsirkar şəxslərdən tutulmaqla Azərbaycan Respublikasının dövlət büdcəsindən ödənilir.

73.4. Zəruri hallarda Konstitusiya Məhkəməsi hakimlərinin təhlükəsizliyi digər hakimlər üçün qanunvericilikdə nəzərdə tutulan qaydada təmin edilir.

73.5. Bakı şəhərində mənzili olmayan Konstitusiya Məhkəməsinin hakiminə mənzil verilir.

73.6. Konstitusiya Məhkəməsi hakimlərinin müalicəsi üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən qaydada onlara iki aylıq əmək haqqı məbləğində birdəfəlik müavinət verilir.

73.7. Pensiya yaşına çatmış və ya bu yaşa çatanadək əlil olmuş Konstitusiya Məhkəməsinin sabiq hakiminin pensiya təminatı «Əmək pensiyaları haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

73.8. Pensiya yaşına çatmamış istefada olan Konstitusiya Məhkəməsinin hakimi işə düzələnədək dövlət büdcəsi hesabına iki il müddətində hər ay fəaliyyətdə olan Konstitusiya Məhkəməsi hakiminin aylıq vəzifə maaşının 80 faizi məbləğində pul təminatı alır.

**Maddə 74.**

**Konstitusiya Məhkəməsinin aparatı**

74.1. Konstitusiya Məhkəməsinin fəaliyyətinin hüquqi, təşkilati, informasiya təminatını Konstitusiya Məhkəməsinin aparatı həyata keçirir.

74.2. Konstitusiya Məhkəməsinin aparatı Konstitusiya Məhkəməsi sədrinin təsdiq etdiyi Konstitusiya Məhkəməsinin aparatı haqqında Əsasnaməyə müvafiq fəaliyyət göstərir.

74.3. Konstitusiya Məhkəməsi aparatının strukturunu, habelə dövlət büdcəsində Konstitusiya Məhkəməsinin saxlanılması üçün nəzərdə tutulmuş xərclər çərçivəsində aparatın ştat cədvəlini, xərclərinin smetasını Konstitusiya Məhkəməsinin sədri müəyyən edir.

**Maddə 75.**

**Konstitusiya Məhkəməsi aparatının vəzifələri**

75.0. Konstitusiya Məhkəməsinin aparatı:

75.0.1. Konstitusiya Məhkəməsinin və onun hakimlərinin işini təmin edir;

75.0.2. Konstitusiya Məhkəməsinin işi üçün zəruri olan arayışları və başqa informasiya məlumatlarını hazırlayır;

75.0.3. Konstitusiya Məhkəməsini məhkəmə iclas katibləri ilə təmin edir;

75.0.4. Konstitusiya Məhkəməsinin kargüzarlığını aparır;

75.0.5. vətəndaşların qəbulunu təşkil edir;

75.0.6. müəyyən edilmiş qaydada Konstitusiya Məhkəməsinə daxil olmuş şikayətləri ilkin öyrənir;

75.0.7. Konstitusiya Məhkəməsi sənədlərinin qeydiyyatını və saxlanılmasını təmin edir;

75.0.8. Konstitusiya Məhkəməsinin fəaliyyəti ilə əlaqədar Konstitusiya Məhkəməsi sədrinin, sədr müavininin və hakimlərin ayrı-ayrı tapşırıqlarını yerinə yetirir;

75.0.9. Konstitusiya Məhkəməsinin fəaliyyəti ilə əlaqədar başqa vəzifələri həyata keçirir.

**Maddə 76.**

**Konstitusiya Məhkəməsinin işlər idarəsi**

76.1. Konstitusiya Məhkəməsinin fəaliyyətinin maddi-texniki, maliyyə və təsərrüfat təminatını Konstitusiya Məhkəməsinin işlər idarəsi həyata keçirir.

76.2. Konstitusiya Məhkəməsinin işlər idarəsi Konstitusiya Məhkəməsi sədrinin təsdiq etdiyi Konstitusiya Məhkəməsinin işlər idarəsi haqqında Əsasnaməyə müvafiq fəaliyyət göstərir.

**Maddə 77.**

**Konstitusiya Məhkəməsi aparatı və işlər idarəsi işçilərinin hüquq və vəzifələri**

77.1. Konstitusiya Məhkəməsi aparatının və işlər idarəsinin işçilərini Konstitusiya Məhkəməsinin sədri işə götürür və işdən azad edir.

77.2. Konstitusiya Məhkəməsi aparatının və işlər idarəsinin işçilərinin hüquqları, vəzifələri və məsuliyyəti Azərbaycan Respublikasının dövlət qulluğu haqqında qanunvericiliyi və müvafiq olaraq Konstitusiya Məhkəməsinin aparatı haqqında və Konstitusiya Məhkəməsinin işlər idarəsi haqqında əsasnamələrlə müəyyən edilir.

**Maddə 78.**
**Qanunun qüvvəyə minməsi**

***Bu qanun dərc olunduğu gündən qüvvəyə minir.***

**Maddə 79.**
**Yekun müddəaları**

79.1. Bu qanunun 14-cü maddəsi bu qanun qüvvəyə mindikdən sonra təyin edilən Konstitusiya Məhkəməsinin hakimlərinə şamil edilir. Bu qanunun qüvvəyə minməsindən əvvəl təyin edilmiş Konstitusiya Məhkəməsi hakimlərinin səlahiyyət müddəti bundan əvvəl qüvvədə olmuş 1997-ci il 21 oktyabr tarixli «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq 10 ildir. Bu qanunun qüvvəyə minməsindən əvvəl təyin edilmiş Konstitusiya Məhkəməsi hakimlərinin səlahiyyət müddətinin bitdiyi gün Konstitusiya Məhkəməsinə yeni hakimlər təyin olunmadıqda, onlar səlahiyyətlərinin icrasını davam etdirirlər. Bu halda onların səlahiyyət müddəti Konstitusiya Məhkəməsinə yeni hakimlərin (sayından asılı olmayaraq) təyin olunduğu gündən bitmiş hesab olunur.

79.2. Bu qanunun qüvvəyə minməsindən əvvəl təyin edilmiş Konstitusiya Məhkəməsinin hakimləri bu qanunun müddəalarına uyğun olaraq Konstitusiya Məhkəməsinin hakimi vəzifəsinə yenidən təyin edilə bilərlər.

79.3. Bu qanunun qüvvəyə mindiyi gündən «Konstitusiya Məhkəməsi haqqında» 1997-ci il 21 oktyabr tarixli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 1, maddə 19; 2001-ci il, № 5, maddə 292; 2002-ci il, № 1,

maddə 4; № 8, maddə 463; № 12, maddə 701) qüvvədən düşmüş hesab edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**

*Bakı şəhəri, 23 dekabr 2003-cü il*
**№ 561-IIQ**

*«Azərbaycan» qəzetində dərc edilmişdir*
*(8 yanvar 2004-cü il, № 5)*

11 iyun 2004-cü il tarixli, 688-IIQD nömrəli; 1 sentyabr 2004-cü il tarixli, 725-IIQD nömrəli; 10 aprel 2007-ci il tarixli, 305-IIIQD nömrəli; 8 may 2007-ci il tarixli, 330-IIIQD nömrəli; 16 iyun 2007-ci il tarixli, 385-IIIQD nömrəli; 19 oktyabr 2007-ci il tarixli, 462-IIIQD nömrəli; 13 iyun 2008-ci il tarixli, 636-IIIQD nömrəli; 4 iyul 2008-ci il tarixli, 664-IIIQD nömrəli qanunlara əsasən dəyişiklik və əlavələrlə.

## ƏDALƏT MÜHAKİMƏSİNİN RƏSMİ EMBLEMİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASININ

## QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Ədalət mühakiməsinin rəsmi embleminin təsviri təsdiq edilsin (əlavə olunur).
2. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

*Bakı şəhəri, 22 iyun 1999-cu il*
**№ 689-IQ**

*«Azərbaycan» qəzetində dərc edilmişdir*
*(29 iyul 1999-cu il, № 170)*




**Azərbaycan Respublikasının 22 iyun 1999-cu il tarixli 689-IQ saylı Qanunu ilə təsdiq edilmişdir.**

## Ədalət mühakiməsinin rəsmi embleminin təsviri

Ədalət mühakiməsinin rəsmi emblemi Azərbaycan Respublikası bayrağının üç rəngli rəmzi təsvir olunmuş Azərbaycan Respublikasının xəritəsinin fonunda ayaq üstə gözü bağlı, sağ əlində tərəzi, sol əlində isə üzü aşağı qılınc tutmuş qadın təsvirindən ibarətdir.

Təsvir çevrə daxilində yerləşdirilmiş və çevrə aşağı tərəflərdən postamentin içərisindən yuxarı istiqamətə doğru möhkəmlik, sarsılmazlıq, dözümlülük, güc və şöhrət rəmzi olan palıd ağacının yaşıl rəngli budaqları ilə əhatə edilmişdir.

Çevrənin yuxarı hissəsində qızılı fonda «Azərbaycan Respublikası» sözləri yazılmışdır.

Postament üstündə dayanmış qadının təsviri monoxrom rənglə işlənmişdir. Qızılı rəngdə olan postamentin üzərində «ədalət mühakiməsi» sözləri yazılmışdır. Qadının başı üzərində günəş şüaları təsvir edilmişdir.

Emblemin arxa tərəfində postamentin üzərində «1999-cu il» sözləri yazılmışdır.

# KORRUPSİYAYA QARŞI MÜBARİZƏ HAQQINDA

# AZƏRBAYCAN RESPUBLİKASININ

# QANUNU

Bu qanun korrupsiya ilə əlaqədar hüquqpozmaların aşkar edilməsi, qarşısının alınması və nəticələrinin aradan qaldırılmasına, sosial ədalətin, insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiə olunmasına, iqtisadiyyatın inkişafı üçün əlverişli şəraitin yaradılmasına, dövlət orqanlarının və yerli özünüidarəetmə orqanlarının, vəzifəli şəxslərin fəaliyyətinin qanuniliyinin, şəffaflığının və səmərəliliyinin təmin edilməsinə yönəlmişdir.

Bu Qanun, habelə dövlət orqanlarına əhalinin etimadının möhkəmləndirilməsi, peşəkar kadrların dövlət orqanlarında və yerli özünüidarəetmə orqanlarında qulluğa girməyə həvəsləndirilməsi, həmin şəxslərin korrupsiya ilə əlaqədar hüquqpozma törətməsini istisna edən şəraitin yaradılması məqsədini daşıyır.

## I FƏSİL

## Ümumi müddəalar

### Maddə 1.
### Korrupsiyanın anlayışı

Korrupsiya -vəzifəli şəxslərin öz statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin qanunsuz olaraq vəzifəli şəxslərə təklif və ya vəd olunması və yaxud verilməsi yolu ilə həmin vəzifəli şəxslərin ələ alınmasıdır.

### Maddə 2.
### Korrupsiya ilə əlaqədar hüquqpozmaların subyektləri

2.1. Aşağıdakı şəxslər korrupsiya ilə əlaqədar hüquqpozmaların subyektləridirlər;

2.1.1 Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən olunmuş qaydada dövlət orqanlarına seçilmiş və ya təyin edilmiş şəxslər;

2.1.2 xüsusi səlahiyyət əsasında dövlət orqanlarını təmsil edən şəxslər;

2.1.3 inzibati vəzifə tutan dövlət qulluqçuları;

2.1.4 dövlət orqanlarının müvafiq struktur vahidlərində, dövlət idarə, müəssisə və təşkilatlarında, habelə dövlətin nəzarət səhm zərfinə sahib olduğu təsərrüfat subyektlərində

təşkilati-sərancamverici və ya inzibati təsərrüfat funksiyalarını həyata keçirən şəxslər;

2.1.5 Azərbaycan Respublikasının dövlət orqanlarında seçkili vəzifələrə namizədliyi qanunla müəyyən olunmuş qaydada qeydə alınmış şəxslər;

2.1.6 Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yerli özünüidarəetmə orqanlarına seçilmiş şəxslər;

2.1.7 yerli özünüidarəetmə orqanlarında təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını həyata keçirən şəxslər;

2.1.8 qanunla müəyyən edilmiş hallarda dövlət orqanlarının səlahiyyətlərini yerinə yetirən qeyri-dövlət orqanlarında təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını həyata keçirən şəxslər;

2.1.9 öz nüfuzundan və ya əlaqələrindən istifadə edərək vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmək müqabilində maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər əldə edən şəxslər;

2.1.10 vəzifəli şəxsə qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər təklif edən və ya vəd edən, yaxud verən fiziki və hüquqi şəxslər və ya belə hərəkətlərdə vasitəçilik etmiş şəxslər;

2.2 Bu Qanunun 2.1.1-2.1.8-ci maddələrində göstərilənlər bu Qanunun məqsədi üçün vəzifəli şəxs hesab edilirlər.

**Maddə 3.**
**Qanunun tətbiq dairəsi**

Bu qanun Azərbaycan Respublikasının ərazisində bütün fiziki (o cümlədən, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər) və hüquqi şəxslər barəsində, onun ərazisindən

kənarda isə Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş hüquqi şəxslər barəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq tətbiq edilir.

**Maddə 4.**

**Korrupsiyaya qarşı mübarizəni həyata keçirən orqanlar**

4.1. Bütün dövlət orqanları və vəzifəli şəxslər səlahiyyətləri çərçivəsində korrupsiyaya qarşı mübarizəni həyata keçirirlər. Korrupsiya ilə əlaqədar hüquqpozmaların törədilməsi inzibati və ya cinayət məsuliyyəti yaratdıqda, korrupsiyaya qarşı mübarizəni qanunvericiliklə müəyyən edilmiş qaydada hüquq-mühafizə orqanları həyata keçirirlər.

4.2. Korrupsiyanın qarşısının alınması sahəsində ixtisaslaşmış orqan funksiyalarını Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası (bundan sonra ”Komissiya”) həyata keçirir.

4.3. Komissiyanın tərkibi icra, qanunvericilik və məhkəmə hakimiyyəti orqanları tərəfindən təyin edilən üzvlərdən ibarətdir. Komissiyanın səlahiyyətləri qanunla təsdiq edilən Əsasnamə ilə müəyyən olunur.

## II FƏSİL

## Korrupsiyanın qarşısının alınması

**Maddə 5.**

**Maliyyə xarakterli tələblər**

5.1. Vəzifəli şəxslər qanunvericiliklə müəyyən edilmiş

qaydada aşağıdakı məlumatları təqdim etməlidirlər;

5.1.1. mənbəyini, növünü və məbləğini göstərməklə hər il öz gəlirləri barədə;

5.1.2. vergitutma obyekti olan əmlakı barədə;

5.1.3. kredit təşkilatlarındakı əmanətləri, qiymətli kağızları və digər maliyyə vəsaitləri barədə;

5.1.4. şirkətlərin, fondların və sair təsərrüfat subyektlərinin fəaliyyətində səhmdar və ya təsisçi kimi iştirakı, bu müəssisələrdə öz mülkiyyət payı barədə;

5.1.5 şərti maliyyə vahidinin beş min misli miqdarından yuxarı olan borcu barədə;

5.1.6 şərti maliyyə vahidinin min mislindən yuxarı maliyyə və əmlak xarakterli digər öhdəlikləri barədə.

5.2. Bu qanunun 5.1-ci maddəsində göstərilən məlumatlar qanunvericiliklə müəyyən edilmiş qaydada tələb edilə bilər.

**Maddə 6.**

**Maliyyə xarakterli tələblərin pozulmasına görə məsuliyyət**

6.1. Vəzifəli şəxslər və ya vəzifə tutmaq istəyən şəxslər bu Qanunun 5.1-ci maddəsində nəzərdə tutulmuş tələblər və bu tələblərə əməl olunmamasının hüquqi nəticələri barədə qanunvericiliklə müəyyən edilmiş qaydada xəbərdar edilirlər.

6.2. Bu Qanunun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl olunmasına nəzarətin həyata keçirilməsi qaydaları qanunvericiliklə müəyyən edilir.

6.3. Vəzifəli şəxslər tərəfindən bu Qanunun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl olunmaması,

yəni bu maddədə nəzərdə tutulmuş məlumatların üzürsüz səbəbdən vaxtında təqdim edilməməsi və ya qəsdən natamam, yaxud təhrif edilmiş məlumatların təqdim olunması həmin şəxslərin intizam məsuliyyətinə cəlb olunmasına səbəb ola bilər. Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə barələrində intizam məsuliyyətinə cəlb olunmanın xüsusi qaydası nəzərdə tutulmuş şəxslər intizam məsuliyyətinə həmin qaydalara riayət edilməklə cəlb oluna bilərlər.

6.4. Komissiya bu Qanunun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etməyən şəxslər barəsində rəsmi dövlət qəzetində məlumat dərc etdirə bilər.

**Maddə 7.**
**Yaxın qohumların birgə işləməsinə yol verilməməsi**

7.1. Vəzifəli şəxslərin yaxın qohumları, seçkili vəzifələr və qanunvericiliklə nəzərdə tutulan digər hallar istisna olmaqla, bilavasitə onun tabeliyində olan heç bir vəzifə tuta bilməzlər.

7.2. Bu Qanunun 7.1-ci maddəsinin tələblərini pozan şəxslər həmin tələblərin pozulması müəyyən edildikdən sonra 30 gün müddətində həmin pozuntunu könüllü olaraq aradan qaldırmadıqları halda tabeçiliyi istisna edən başqa vəzifəyə keçirilməli, bu mümkün olmadıqda isə həmin şəxslərdən biri tutduğu vəzifədən azad olunmalıdır.

7.3. Bu Qanunun 7.2-ci maddəsində göstərilən əsaslar üzrə vəzifədən azad olunmuş şəxslər digər orqanlarda, idarə, müəssisə və təşkilatlarda vəzifə tuta bilərlər.

**Maddə 8.**
**Hədiyyə alma ilə əlaqədar məhdudiyyətlər**

8.1. Vəzifəli şəxs xidməti vəzifələrinin qərəzsiz icrasına təsir edə bilən və ya bu cür təsir təəssüratı yaradan və ya onun vəzifələrinin icrası müqabilində mükafat qismində verilən və ya bu cür mükafat təəssüratı yaradan hədiyyələri özü və ya digər şəxslər üçün tələb edə və ya qəbul edə bilməz. Bu qayda xidməti vəzifələrinin qərəzsiz icrasına təsir etməmək şərtilə bu Qanunun 8.2-ci maddəsində nəzərdə tutulan kiçik hədiyyələrin qəbul edilməsi və sadə qonaqpərvərlikdən istifadə hallarına şamil olunmur.

8.2. Vəzifəli şəxs xidməti vəzifələrinin icrası ilə əlaqədar bir il ərzində hər hansı fiziki və ya hüquqi şəxsdən ümumi məbləği əlli beş manatdan yuxarı olan bir və ya bir neçə hədiyyəni qəbul edə bilməz. Həmin məbləğdən yuxarı olan hədiyyələr şəxsin xidməti vəzifəsini həyata keçirdiyi dövlət orqanına və ya yerli özünüidarəetmə orqanına məxsus hesab edilir.

8.3. Vəzifəli şəxs hədiyyənin qəbul edilməsi və ya sadə qonaqpərvərlikdən istifadə ilə bağlı qərara gələ bilmədiyi hallarda, bu məsələ barədə birbaşa rəhbərinin rəyini öyrənməlidir.

8.4. Fiziki və hüquqi şəxslərlə mülki-hüquqi əqdlərin bağlanması və ya onların icrası zamanı vəzifəli şəxslər tərəfindən xidməti fəaliyyəti ilə əlaqədar olaraq hər hansı güzəştlərin və ya imtiyazların əldə edilməsi qadağan olunur.

8.5. Vəzifəli şəxsə qanunsuz maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunduğu hallarda, vəzifəli şəxs

onlardan imtina etməlidir. Maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər vəzifəli şəxsə ondan asılı olmayan səbəblərdən verilərsə, o, bu barədə birbaşa rəhbərinə məlumat verməli və maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər vəzifəli şəxsin işlədiyi dövlət orqanına akt üzrə təhvil verilməlidir.

## III FƏSİL

## Korrupsiya ilə əlaqədar hüquqpozmalar və bu hüquqpozmalara görə məsuliyyət

### Maddə 9.
### Korrupsiya ilə əlaqədar hüquqpozmalar

9.1. Korrupsiya ilə əlaqədar hüquqpozmalar bilavasitə korrupsiya hüquqpozmalarından və korrupsiyaya şərait yaradan hüquqpozmalardan ibarətdir.

9.2. Korrupsiya hüquqpozmaları aşağıdakılardır:

9.2.1. vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər tələb etməsi, əldə etməsi və ya belə maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin verilməsi ilə bağlı təklifi və ya vədi qəbul etməsi;

9.2.2. xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində vəzifəli şəxsə

onun özü və ya üçüncü şəxslər üçün fiziki və ya hüquqi şəxs tərəfindən birbaşa və ya dolayı yolla maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunması, vəd edilməsi və ya verilməsi;

9.2.3. vəzifəli şəxs tərəfindən xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində qanunsuz olaraq alınmış əmlakdan özü və ya üçüncü şəxslər üçün mənfəət əldə etmək məqsədi ilə istifadə edilməsi;

9.2.4. vəzifəli şəxs tərəfindən xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar maddi və sair nemətləri, imtiyazları və ya güzəştləri haqqı ödənilmədən və ya bazar qiymətlərindən və ya dövlət tərəfindən tənzimlənən qiymətlərdən aşağı qiymətə (tarifə) əldə edilməsi;

9.2.5. vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar əmanətlərdən (depozitlərdən), qiymətli kağızlardan, rentadan, royaltidən və ya icarədən Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olaraq gəlir götürməsi;

9.2.6. müəyyən mükafat müqabilində vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmək imkanına malik olduğunu bildirən hər hansı şəxsə birbaşa və ya dolayı yolla maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin təklif olunması, vəd edilməsi və ya verilməsi;

9.2.7. müəyyən mükafat müqabilində vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmək imkanına malik olduğunu bildirən şəxs tərəfindən maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin qəbul edilməsi və ya belə maddi və sair

nemətlərin, imtiyazların və ya güzəştlərin verilməsi ilə bağlı təklifin və ya vədin qəbul edilməsi.

9.3. Vəzifəli şəxsin aşağıdakı hərəkətləri korrupsiyaya şərait yaradan hüquqpozmalar sayılır:

9.3.1. xidməti vəzifəsini (səlahiyyətlərini) icra etdiyi dövrdə elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, digər ödənişli vəzifə tutmaq və ya fəaliyyət növü ilə məşğul olmaq;

9.3.2. statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsi məqsədi ilə fiziki və hüquqi şəxslərə sahibkarlıq fəaliyyətini həyata keçirməkdə, eləcə də subsidiyalar, subvensiyalar, dotasiyalar, kreditlər və digər güzəştlər alınmasında qanunsuz kömək etmək;

9.3.3. bilavasitə, başqa və ya uydurma şəxslər vasitəsilə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, əvəzçilik üzrə işləmək (elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla), habelə sahibkarlıq fəaliyyətini həyata keçirən təsərrüfat subyektlərinin və maliyyə kredit müəssisələrinin icra orqanlarının tərkibinə daxil olmaq;

9.3.4. statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə onun səlahiyyət dairəsinə daxil olmayan məsələlər üzrə digər dövlət orqanlarının fəaliyyətinə qanunsuz müdaxilə etmək;

9.3.5. statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən

irəli gələn imkanlardan istifadə etməklə, şəxsi maraqlarına aid məsələlərin həllinə təsir etmək;

9.3.6. normativ hüquqi aktların və digər qərarların qəbul edilməsi zamanı fiziki və ya hüquqi şəxslərə onların təyinatına uyğun olmayan üstünlüklər vermək;

9.3.7. vəzifə tutduğu və ya ona tabe olan, onun nəzarətində olan, habelə ona hesabat verən orqanların işi üzrə fiziki və ya hüquqi şəxslərin nümayəndəsi qismində iştirak etmək;

9.3.8. qanunla və ya digər normativ hüquqi aktlarla verilməsi nəzərdə tutulmuş məlumatların fiziki və ya hüquqi şəxslərə verilməsindən əsassız imtina etmək, belə məlumatların verilməsini gecikdirmək və yaxud natamam və ya təhrif olunmuş məlumatlar vermək;

9.3.9. qanunla və ya digər normativ hüquqi aktlarla verilməsi nəzərdə tutulmayan məlumatları və sənədləri fiziki və hüquqi şəxslərdən tələb etmək;

9.3.10. dövlət orqanları və ya yerli özünüidarəetmə orqanlarının maddi və maliyyə vəsaitlərini qanunsuz olaraq namizədlərin, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiya bloklarının, referendum üzrə təşəbbüs qruplarının seçki fonduna vermək;

9.3.11. qanunvericiliklə başqa hal nəzərdə tutulmamışdırsa, dövlət fondlarına, dövlət orqanlarının və ya yerli özünüidarəetmə orqanlarının təsərrüfat subyeklərinə məxsus olan maddi və maliyyə ehtiyatlarını qeyri-dövlət strukturlarına vermək;

9.3.12. fiziki və ya hüquqi şəxslərə hüquqlarının və qanuni mənafelərinin həyata keçirilməsində süni maneələr yaratmaq;

9.3.13. sahibkarlıq fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi ilə bağlı səlahiyyətləri belə fəaliyyəti həyata keçirən fiziki və hüquqi şəxslərə qanunsuz olaraq vermək.

9.4. Bu qanunda nəzərdə tutulan hallardan başqa, vəzifəli şəxslərin fəaliyyətini tənzimləyən və ya statusunu müəyyən edən qanunvericilik aktlarında korrupsiya ilə əlaqədar digər hüquqpozmalar müəyyən edilə bilər.

**Maddə 10.**

**Korrupsiya ilə əlaqədar hüquqpozmalara görə vəzifəli şəxslərin məsuliyyəti**

10.1. Korrupsiya ilə əlaqədar hüquqpozmalar qanunvericiliklə müəyyən edilmiş qaydada intizam, mülki-hüquqi, inzibati və ya cinayət məsuliyyətinə səbəb olur.

10.2. Vəzifəli şəxs tərəfindən bu Qanunun 9-cu maddəsində nəzərdə tutulmuş hüquqpozmaların törədilməsi mülki-hüquqi, inzibati və ya cinayət məsuliyyəti yaratdıqda, vəzifəli şəxsin məsuliyyətə cəlb edilməsi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun həyata keçirilir.

10.3. Korrupsiya ilə əlaqədar hüquqpozmalara görə intizam məsuliyyəti tədbirləri bu Qanunla və digər qanunvericilik aktları ilə tənzimlənir.

10.4. Bu Qanunun 9-cu maddəsində nəzərdə tutulmuş hüquqpozmaların törədilməsi inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda, aşağıdakı xüsusi hallara riayət edilməklə qanunvericiliklə müəyyən edilmiş qaydada intizam məsuliyyətinə səbəb olur;

10.4.1. Azərbaycan Respublikasının Konstitusiyası və

qanunları ilə müəyyən olunmuş qaydada dövlət orqanlarına seçilmiş şəxslər bu Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə, korrupsiyaya qarşı mübarizə aparan orqan bu barədə vəzifəli şəxsin seçildiyi dövlət orqanına məlumat verir.

10.4.2. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yerli özünüidarəetmə orqanlarına seçilmiş şəxslər bu Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə, korrupsiyaya qarşı mübarizə aparan orqan bu barədə müvafiq seçki komissiyasına məlumat verir. Həmin seçki komissiyası isə bu barədə materiallar ona daxil olduğu gündən beş gün ərzində şəxsin yol verdiyi hüquqpozma barədə onun seçildiyi yerli özünüidarəetmə orqanına məlumat verir.

10.4.3. Azərbaycan Respublikasının dövlət orqanlarında seçkili vəzifələrə namizədliyi qanunla müəyyən olunmuş qaydada qeydə alınmış şəxslər bu Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə, onlar barəsində Azərbaycan Respublikası Seçki Məcəlləsində nəzərdə tutulmuş tədbirlər görülür.

10.4.4. Hakimlər bu qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə, korrupsiyaya qarşı mübarizə aparan orqan intizam tənbehinin tətbiqi məsələsinə baxılması üçün bu barədə Məhkəmə-Hüquq Şurasına məlumat verir.

**Maddə 11.**

**Korrupsiya hüquqpozmalarına görə fiziki və ya hüquqi şəxslərin məsuliyyəti**

11.1. Qanunvericiliklə müəyyən edilmiş korrupsiya hü-

quqpozmalarını törətmiş fiziki şəxslərin hərəkətləri cinayət tərkibi yaratmadıqda, onlar inzibati qaydada cərimə edilirlər.

11.2. Qanunvericiliklə müəyyən edilmiş korrupsiya hüquqpozmalarını törətmiş hüquqi şəxslər, qanunvericiliklə müəyyən edilmiş qaydada cərimə edilir və ya onların fəaliyyətinə xitam verilir.

## IV FƏSİL

## Korrupsiya ilə əlaqədar hüquqpozmaların nəticələrinin aradan qaldırılması

### Maddə 12.
### Qanunsuz əldə edilmiş əmlakın götürülməsi və qanunsuz əldə edilmiş imtiyaz və ya güzəştlərin dəyərinin ödənilməsi

12.1. Vəzifəli şəxslər tərəfindən qanunsuz əldə edilmiş əmlak və qanunsuz əldə edilmiş imtiyazlar və ya güzəştlərin dəyəri könüllü olaraq dövlət nəfinə ödənilir. Vəzifəli şəxslər qanunsuz əldə edilmiş əmlakı könüllü olaraq qaytarmaqdan və ya onun dəyərini, habelə qanunsuz əldə edilmiş imtiyaz və ya güzəştlərin dəyərini könüllü olaraq ödəməkdən imtina etdikdə, qanunsuz əldə edilmiş əmlak və ya onun dəyəri, qanunsuz əldə edilmiş güzəşt və ya imtiyazların dəyəri müvafiq dövlət orqanlarının iddiası əsasında məhkəmə tərəfindən dövlətin nəfinə ödənilir.

12.2. İşə məhkəmədə baxılana qədər iddianın təmin

edilməsi üçün məhkəmə tərəfindən cavabdehin əmlakı barədə mülki-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görülə bilər.

**Maddə 13.**
**Korrupsiya ilə əlaqədar hüquqpozmalar nəticəsində qəbul olunmuş aktların ləğv edilməsi**

Korrupsiya ilə əlaqədar hüquqpozmalar nəticəsində qəbul olunmuş aktlar müvafiq dövlət orqanları tərəfindən və yaxud müvafiq dövlət orqanlarının və ya digər şəxslərin müraciəti əsasında məhkəmə tərəfindən ləğv edilə bilər.

**Maddə 14.**
**Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2005-ci il yanvar ayının 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**

*Bakı şəhəri, 13 yanvar 2004-cü il*
**№ 580-IIQ**

*«Azərbaycan» qəzetində dərc olunmuşdur*
*(4 mart 2004-cü il, № 53)*

1 aprel 2005-ci il tarixli, 875-IIQD nömrəli; 1 sentyabr 2005-ci il tarixli, 982-IIQD nömrəli; 1 oktyabr 2007-ci il tarixli, 420-IIIQD nömrəli; 7 dekabr 2007-ci il tarixli, 510-IIIQD nömrəli qanunlara əsasən dəyişikliklərlə.

# VƏTƏNDAŞLARIN HÜQUQ VƏ AZADLIQLARINI POZAN QƏRAR VƏ HƏRƏKƏTLƏRDƏN (HƏRƏKƏTSİZLİKDƏN) MƏHKƏMƏYƏ ŞİKAYƏT EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASININ

## QANUNU

Bu Qanun Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə təsbit edilmiş Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi qaydalarını müəyyənləşdirir, habelə vətəndaşların hüquq və azadlıqlarının məhkəmə təminatı ilə əlaqədar yaranan münasibətləri tənzimləyir.

### Maddə 1.
### Məhkəməyə müraciət etmək hüququ

Dövlət orqanlarının və yerli özünüidarə orqanlarının, müəssisələrin, idarələrin və təşkilatların, ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətləri (hərəkətsizliyi) nəticəsində öz hüquq və azadlıqlarını pozulmuş hesab edən Azərbaycan Respublikasının hər bir vətəndaşının məhkəməyə müraciət etmək hüququ vardır.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr-

də başqa qayda nəzərdə tutulmamışdırsa, bu Qanunla müəyyənləşdirilmiş qaydada müvafiq məhkəməyə müraciət edə bilərlər.

**Maddə 2.**
**Şikayətin verilməsi qaydası**

Vətəndaş onun hüquq və azadlıqlarını pozan qərarlar və hərəkətlər (hərəkətsizlik) barəsində birbaşa məhkəməyə və ya tabelik qaydasında yuxarı dövlət orqanlarına və yerli özünüidarə orqanlarına, müəssisələrə, idarələrə və təşkilatlara, ictimai birliklərə, vəzifəli şəxslərə şikayətlə müraciət edə bilər.

Dövlət orqanlarının və yerli özünüidarə orqanlarının, müəssisələrin, idarələrin və təşkilatların, ictimai birliklərin, vəzifəli şəxslərin qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) vətəndaşların şikayətlərinə məhkəmə tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq baxılır.

Qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla, tabelik qaydasında yuxarı orqan şikayətə 1 aydan gec olmayan müddətdə baxmalı, şikayətə baxılmasının nəticəsi barədə həmin orqanın rəhbərliyi vətəndaşa yazılı cavab verməlidir.

Məhkəməyə şikayət hüquq və azadlıqları pozulmuş vətəndaş və ya onun qanuni nümayəndəsi tərəfindən, habelə vətəndaşın xahişi ilə ictimai birliyin və ya əmək kollektivinin nümayəndəsi tərəfindən verilə bilər.

Şikayət vətəndaşın yaşadığı yer üzrə və ya qərarlarından və ya hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilən orqanın və ya vəzifəli şəxsin olduğu yerin məhkəməsinə verilir.

Hərbi qulluqçular hərbi vəzifəli şəxslərin və hərbi idarəetmə orqanlarının onların hüquq və azadlıqlarını pozan qərar və hərəkətləri (hərəkətsizliyi) barəsində bu maddədə nəzərdə tutulmuş qaydada məhkəməyə şikayət edə bilərlər.

**Maddə 3.**
**Qanunun tətbiq dairəsi**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin müstəsna səlahiyyətinə aid olan, yaxud Azərbaycan Respublikasının qanunvericiliyində qərar və hərəkətlərdən (hərəkətsizlikdən) şikayət verilməsinin digər qaydalarının nəzərdə tutulduğu hallar istisna olmaqla, vətəndaşın hüquq və azadlıqlarının pozulmasına səbəb olan bütün qərar və hərəkətlərlə (hərəkətsizliklə) bağlı şikayətlərə bu Qanunla müəyyən edilmiş qaydada baxılır.

**Maddə 4.**
**Məhkəmə qaydasında şikayət verilə bilən qərarlar və hərəkətlər (hərəkətsizlik)**

Vətəndaş dövlət orqanlarının və yerli özünüidarə orqanlarının, müəssisələrin, idarələrin və təşkilatların, ictimai birliklərin, vəzifəli şəxslərin onun hüquq və azadlıqlarını pozan, hüquq və azadlıqlarının həyata keçirilməsinə mane olan qərar və hərəkətlərindən (hərəkətsizliyindən), habelə belə qərarların və hərəkətlərin qəbul edilməsi üçün əsas olmuş rəsmi informasiyadan məhkəməyə şikayət etmək hüququna malikdir.

Vətəndaşın hüquq və azadlıqlarına bilavasitə təsir edən sənəd və materiallarda olan informasiya üçün qanunvericilikdə məhdudiyyətlər nəzərdə tutulmamışdırsa, onun belə

sənəd və materiallarla tanış olmaq hüququnu təmin etmək üçün vəzifəli şəxslər həmin sənəd və materialları vətəndaşa təqdim etməyə borcludurlar.

Rəsmi informasiya yazılı və ya şifahi formada olan, vətəndaşların hüquq və azadlıqlarının həyata keçirilməsinə təsir edən və həmin informasiyanın müəyyənləşdirilmiş müəllifi kimi hərəkətlər edən (qərarlar qəbul edən) dövlət orqanlarının, yerli özünüidarə orqanlarının, müəssisələrin, idarələrin və təşkilatların, ictimai birliklərin, vəzifəli şəxslərin ünvanına təqdim olunan elə məlumatlardır ki, onlar məhkəmə tərəfindən hərəkətlərin edilməsi (qərarların qəbul olunması) üçün əsas sayılır.

**Maddə 5.**
**Məhkəməyə şikayətlə müraciət edilməsi müddətləri**

Qanunvericilikdə başqa müddət nəzərdə tutulmayıbsa, məhkəməyə şikayətlə müraciət edilməsinin aşağıdakı müddətləri vardır:

▪ hüquq və azadlıqlarının pozulmasının vətəndaşa məlum olduğu gündən bir ay keçənədək;

▪ şikayətin təmin edilməməsi barədə yuxarı orqan və ya vəzifəli şəxs tərəfindən yazılı cavabın verildiyi gündən bir ay keçənədək;

▪ Azərbaycan Respublikasının qanunvericiliyində başqa müddət nəzərdə tutulmamışdırsa, vətəndaş şikayətin verildiyi gündən bir ay müddətində ona cavab almadıqda bu müddətin tamam olduğu gündən bir ay keçənədək;

▪ İnzibati tənbehin verilməsi barədə qərardan həmin qərarın surətinin təqdim edildiyi və ya şəxsə elan edildiyi gündən 10 gün keçənədək.

Şikayətin verilməsi müddəti üzürlü səbəbdən ötürülübsə, həmin müddət məhkəmə tərəfindən bərpa oluna bilər.

Bu Qanunun 4-cü maddəsində nəzərdə tutulmuş şikayət edilən qərarlar, hərəkətlər (hərəkətsizlik) və onların nəticələri haqqında məlumatların əldə edilməsinə çətinlik törədən bütün hallar üzrlü səbəb sayılır.

**Maddə 6.**

**Şikayətə dair məhkəmə qətnaməsi**

Məhkəmə şikayətə baxılmasının nəticələri barədə qətnamə çıxarır.

Məhkəmə şikayətin əsaslı olduğunu müəyyənləşdirdikdə şikayət edilən qərarları və hərəkətləri qanunsuz hesab edir, vətəndaşlar barəsində tətbiq edilən məsuliyyət tədbirlərini ləğv edir, onların pozulmuş hüquq və azadlıqlarını bərpa edir, habelə dövlət orqanlarının və yerli özünüidarə orqanlarının, müəssisələrin, idarələrin və təşkilatların, ictimai birliklərin, vəzifəli şəxslərin, vətəndaşların hüquq və azadlıqlarını pozan qərarları və hərəkətləri (hərəkətsizliyi) ilə bağlı onların məsuliyyətini müəyyənləşdirir.

Əgər məhkəmə şikayət edilən qərarları və hərəkətləri (hərəkətsizliyi) qanuni hesab edərsə, yəni vətəndaşın hüquq və azadlıqlarının pozulması kimi qiymətləndirməzsə, şikayətin təmin edilməməsi barədə qətnamə çıxarır.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada məhkəmənin qərarından yuxarı məhkəməyə şikayət verilə bilər.

**Maddə 7.**

**Məhkəmə qərarının icrası**

Dövlət orqanları və yerli özünüidarə orqanları, müəssisələr,

idarələr və təşkilatlar, ictimai birliklər, vəzifəli şəxslər üçün qüvvəyə minmiş məhkəmə qərarının icrası məcburidir.

Məhkəmənin qərarı qüvvəyə mindiyi gündən ən geci üç gün keçənədək qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilən orqanlara və ya vəzifəli şəxslərə, habelə vətəndaşlara göndərilir.

Məhkəmə qərarının alındığı gündən ən geci bir ay keçənədək qərarlarından və hərəkətlərindən şikayət edilən orqanlar və ya vəzifəli şəxslər həmin qərarın icrası barədə məhkəməyə və vətəndaşa məlumat verməlidirlər.

Məhkəmənin qərarı icra edilmədiyi halda, məhkəmə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada müvafiq tədbirlər görür.

**Maddə 8.**
**Şikayətə baxılması ilə əlaqədar məhkəmə xərcləri**

Şikayətin təmin edilməsindən imtina olunması barədə qərar qəbul edildikdə, şikayətə baxılması ilə əlaqədar məhkəmə xərclərini vətəndaş ödəyir.

Məhkəmə, şikayət olunan qərarları və hərəkətləri (hərəkətsizliyi) qanunsuz hesab etdikdə isə, bu xərclər müvafiq olaraq dövlət orqanlarının və ya yerli özünüidarə orqanlarının, müəssisələrin, idarə və təşkilatların, ictimai birliklərin, vəzifəli şəxslərin vəsaiti hesabına ödənilir.

Qərarların və hərəkətlərin qanuni olduğuna baxmayaraq, əgər vətəndaşın tabelik qaydasında yuxarı orqana verdiyi şikayətə cavab verilməmişdirsə, yaxud bu Qanunun 5-ci maddəsində nəzərdə tutulan müddət pozulmaqla cavab verilmişdirsə, məhkəmə xərclərinin ödənilməsi məhkəmə tərəfindən dövlət orqanlarının və ya yerli özünüidarə

orqanlarının, müəssisələrin, idarələrin və təşkilatların, ictimai birliklərin, vəzifəli şəxslərin öhdəsinə qoyulur.

Məhkəməvətəndaşınməhkəməxərclərininödənilməsindən qismən və ya tam azad edilməsi barədə qərar qəbul edə bilər.

**Maddə 9.**

**Bu Qanunun tələblərini pozmağa görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 10.**

**Qanunun qüvvəyə minməsi**

Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

*Bakı şəhəri, 11 iyun 1999-cu il*

**№ 682-IQ**

*«Azərbaycan» qəzetində dərc edilmişdir*
*(18 iyul 1999-cu il, № 161)*

27 mart 2001-ci il tarixli, 107-IIQD nömrəli; 12 oktyabr 2001-ci il tarixli, 197-IIQD nömrəli; 23 noyabr 2001-ci il tarixli, 219-IIQD nömrəli qanunlara əsasən əlavələr və dəyişikliklərlə

# MƏHKƏMƏ VƏ HÜQUQ MÜHAFİZƏ ORQANLARI İŞÇİLƏRİNİN DÖVLƏT MÜDAFİƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASININ

## QANUNU

### I FƏSİL

### Ümumi müddəalar

**Maddə 1.**
**Qanunun təyinatı**

Özlərinin təhlükəsizliyinə qarşı qəsdlərə səbəb ola biləcək funksiyaları yerinə yetirən məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət müdafiəsini təmin etmək, habelə ədalət mühakiməsinin həyata keçirilməsinə, cinayətlərə qarşı mübarizəyə lazımi şərait yaratmaq məqsədi ilə bu Qanun göstərilən şəxslərin və ya onların yaxın qohumlarının həyatının, sağlamlığının, mənzilinin və əmlakının dövlət müdafiəsi üzrə tədbirlər sistemini müəyyənləşdirir.

**Maddə 2.**
**Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət müdafiəsi ilə təmin edilməsi haqqında qanunvericilik**

Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət

müdafiəsi ilə təmin edilməsi haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir.

**Maddə 3.**

**Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət müdafiəsi ilə təmin edilməsi**

Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət müdafiəsi ilə təmin edilməsi xidmət vəzifələrinin icrası ilə əlaqədar olaraq bu şəxslərin və ya onların yaxın qohumlarının həyatının və sağlamlığının, mənzilinin, əmlakının qorunması məqsədi ilə səlahiyyətli dövlət orqanları tərəfindən təhlükəsizlik tədbirlərinin tətbiq edilməsindən və həyata keçirilməsindən ibarətdir.

**Maddə 4.**

**Dövlət tərəfindən müdafiə olunan şəxslər**

Dövlət tərəfindən müdafiə olunan şəxslər (bundan sonra - müdafiə olunan şəxslər) aşağıdakılardır:

1) bütün məhkəmə hakimləri, andlı iclasçılar;

2) prokurorlar;

3) müstəntiqlər;

4) təhqiqat aparan şəxslər;

5) əməliyyat-axtarış fəaliyyətini həyata keçirən şəxslər;

6) ictimai qaydanın mühafizəsini və milli təhlükəsizliyi təmin edən, gömrük işini həyata keçirən, habelə cinayət işləri üzrə məhkəmə hökmlərini, qərarlarını və qərardadlarını, istintaq orqanlarının və prokurorların qərarlarını icra edən

müvafiq icra hakimiyyəti orqanlarının əməkdaşları;

7) bu maddənin 1-6-cı bəndlərində nəzərdə tutulan şəxslərin yaxın qohumları.

Yaxın qohumlar dedikdə - valideynlər, uşaqlar, övladlığa götürənlər, övladlığa götürülənlər, doğma qardaş və bacılar, babalar, nənələr, nəvələr, habelə ər-arvad başa düşülür.

Məhkəmə və hüquq mühafizə orqanları işçiləri işdən çıxdıqda və ya başqa işə keçdikdə əvvəlki xidmət vəzifələrinin icrası ilə əlaqədar olaraq həyatına və sağlamlığına, mənzilinə, əmlakına təhlükə yarandıqda onların barəsində təhlükəsizlik tədbirləri tətbiq edilir.

## II FƏSİL

## Təhlükəsizlik tədbirləri

### Maddə 5.
### Müdafiə olunan şəxslər barəsində tətbiq edilən təhlükəsizlik tədbirlərinin növləri

Müdafiə olunan şəxslər barəsində aşağıdakı təhlükəsizlik tədbirləri tətbiq edilə bilər:

1) müdafiə olunan şəxsi, onun mənzilini və əmlakını mühafizə etmə;

2) müdafiə olunan şəxsə xüsusi fərdi müdafiə vasitələri vermə, onu mövcud təhlükə barədə xəbərdar etmə;

3) müdafiə olunan şəxsi müvəqqəti olaraq təhlükəsiz yerdə yerləşdirmə;

4) müdafiə olunan şəxs barəsində olan məlumatların məxfiliyini qoruma;

5) müdafiə olunan şəxsi başqa işə keçirmə, onun iş və ya təhsil yerini dəyişdirmə, onu başqa yaşayış yerinə köçürmə;

6) müdafiə olunan şəxsin sənədlərini və onun xarici görkəmini dəyişdirmə.

Bundan əlavə hərbi məhkəmələrin, Azərbaycan Respublikasının Ağır Cinayətlərə Dair İşlər üzrə Hərbi Məhkəmənin, apellyasiya məhkəmələrinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin hərbi məhkəmələrin işləri üzrə kollegiyalarının və hərbi prokurorluğun hərbi qulluqçularının təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə bundan əlavə aşağıdakı tədbirlərin də həyata keçirilməsinə yol verilir:

1) digər hərbi hissəyə və ya hərbi idarəyə ezam etmə;

2) yeni xidmət yerinə köçürmə.

Təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi qaydaları bu Qanunla və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə müəyyən edilir.

**Maddə 6.**

**Müdafiə olunan şəxsi, onun mənzilini və əmlakını mühafizə etmə**

Müdafiə olunan şəxslərin həyatına, sağlamlığına, mənzilinə və əmlakına qarşı qəsd ediləcəyi qorxusu üçün real əsaslar müəyyən edildikdə, həmin şəxslərin razılığı ilə təhlükəsizliyi təmin edən orqanlar tərəfindən onların şəxsi mühafizəsi, mənzilinin və əmlakının mühafizəsi üçün təh-

lükəsizlik tədbirləri tətbiq edilir.

Zəruri hallarda müdafiə olunan şəxslərin mənzili və əmlakı yanğın təhlükəsizliyinə qarşı vasitələr və mühafizə siqnalları ilə təchiz edilə bilər, onların istifadə etdikləri telefon nömrələri və nəqliyyat vasitələrinin dövlət qeydiyyatı nişanları dəyişdirilə bilər.

**Maddə 7.**

**Müdafiə olunan şəxsə xüsusi fərdi müdafiə vasitələri vermə, onu mövcud təhlükə barədə xəbərdar etmə**

Müdafiə olunan şəxslərin həyatına və sağlamlığına olan təhlükənin xarakterindən asılı olaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq onlara xüsusi fərdi müdafiə vasitələri verilə bilər və onlar təhlükə barədə xəbərdar edilməlidirlər.

**Maddə 8.**

**Müdafiə olunan şəxsi müvəqqəti olaraq təhlükəsiz yerdə yerləşdirmə**

Zəruri hallarda yetkinlik yaşına çatmış müdafiə olunan şəxslər onların razılığı ilə, yetkinlik yaşına çatmayan şəxslər isə valideynlərinin və ya onların qanuni nümayəndələrinin razılığı ilə müvəqqəti olaraq təhlükəsiz yerdə yerləşdirilə bilərlər.

**Maddə 9.**

**Müdafiə olunan şəxs barəsində olan məlumatların məxfiliyinin qorunması**

Təhlükəsizliyi təmin edən orqanların qərarı ilə avtomat

telefon rabitə sorğu xidmətinə, pasport-viza xidmətinə və ya digər müvafiq məlumat - sorğu xidmətlərinə müdafiə olunan şəxslərin yaşayış yeri barəsində və ya hər hansı digər məlumatların verilməsi müvəqqəti və ya daimi olaraq qadağan edilə bilər.

Bəzi hallarda müdafiə olunan şəxslər barəsində olan məlumatlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada müvafiq orqanlardan, sorğu xidmətlərindən götürülə bilər.

**Maddə 10.**

**Müdafiə olunan şəxsi başqa işə keçirmə, onun iş və ya təhsil yerini dəyişdirmə, onu başqa yaşayış yerinə köçürmə**

Müdafiə olunan şəxsin müraciəti və ya razılığı ilə həmin şəxslər müvəqqəti və ya daimi olaraq başqa işə keçirilə və ya başqa yaşayış yerinə köçürülə bilərlər, onların iş və ya təhsil yeri dəyişdirilə bilər.

Göstərilən tədbirlər müdafiə olunan şəxslərin mənzil, əmək, pensiya və digər hüquqları pozulmamaqla həyata keçirilməlidir.

Müvəqqəti olaraq başqa yaşayış yerinə köçürülən şəxslərin daimi yaşayış yeri üzrə yaşayış sahəsi saxlanılmalıdır.

**Maddə 11.**

**Müdafiə olunan şəxslərin sənədlərini və onun xarici görkəmini dəyişdirmə**

Müdafiə olunan şəxslərin təhlükəsizliyini başqa tədbirlərlə təmin etmək mümkün olmadıqda ərizəsi və ya razılığı əsasında müstəsna hallarda, onlara anket məlumatları

dəyişdirilmiş şəxsiyyəti təsdiq edən sənəd və digər sənədlər verilə bilər, habelə onların xarici görkəmi dəyişdirilə bilər.

## III FƏSİL

## Təhlükəsizliyi təmin edən orqanlar. Təhlükəsizlik tədbirlərinin tətbiq və ləğv edilməsi

### Maddə 12.
### Təhlükəsizliyi təmin edən orqanlar

Təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi barədə qərar aşağıdakı orqanlar tərəfindən qəbul edilir:

1) müvafiq icra hakimiyyəti rəhbərləri - bu orqanın əməkdaşları və ya onların yaxın qohumlarının müdafiəsi barədə;

2) prokurorluğun rəhbərləri - prokurorluğun əməkdaşları və ya onların yaxın qohumlarının müdafiəsi barədə;

3) məhkəmə sədri - hakimlərin, andlı iclasçıların və ya onların yaxın qohumlarının müdafiəsi barədə.

Təhlükəsizlik tədbirləri aşağıdakı orqanlar tərəfindən həyata keçirilir:

1) hakimlər, andlı iclasçılar, prokurorlar, müstəntiqlər, habelə onların yaxın qohumları barəsində - müvafiq icra hakimiyyəti;

2) müvafiq icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri, habelə onların yaxın qohumları barəsində - həmin orqanlar.

Müdafiə olunan şəxslərin təhlükəsizliyinin təmin edilməsi

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanlarına həvalə edilir.

**Maddə 13.**
**Təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi**

Müdafiə olunan şəxslər barəsində təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi üçün səbəblər aşağıdakılardır:

1) müdafiə olunan şəxsin ərizəsi;

2) məhkəmə sədrinin və ya müvafiq hüquq mühafizə orqanı rəhbərinin müraciəti;

3) mövcud təhlükə barədə təhlükəsizliyi təmin edən orqanlar tərəfindən əməliyyat məlumatlarının və ya digər məlumatların əldə edilməsi.

Müdafiə olunan şəxslər barəsində real təhlükələrin mövcudluğunu göstərən kifayət qədər məlumatların olması təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi üçün əsasdır.

**Maddə 14.**
**Təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi haqqında qərar**

Təhlükəsizliyi təmin edən orqanlar müdafiə olunan şəxsin təhlükəsizliyinə real qorxu yaradan hallar barədə məlumat (ərizə) əldə etdikdə üç gün müddətində, zəruri hallarda isə dərhal müdafiə olunan şəxs barəsində təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi və ya təhlükəsizlik tədbirlərinin tətbiqindən imtina edilməsi haqqında qərar qəbul edir.

Təhlükəsizliyi təmin edən orqanlar təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi qərarına gəldikdə təhlükəsizlik tədbirləri və onların həyata keçirilməsi müddəti konkret gös-

tərilməklə əsaslandırılmış qərar qəbul edir.

Qəbul edilmiş qərar barədə təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi xahişi ilə müraciət etmiş məhkəmə sədrinə və ya müvafiq hüquq mühafizə orqanının rəhbərinə məlumat verilir. Bu zaman təhlükəsizliyi təmin edən orqanlar tərəfindən müdafiə olunan şəxsə onun təhlükəsizliyi üçün zəruri olan göstərişlər verilə bilər.

Təhlükəsizliyi təmin edən orqanın təhlükəsizlik tədbirlərinin tətbiqindən imtina edilməsi haqqında qərarı təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi xahişi ilə müraciət etmiş məhkəmə sədri və ya müvafiq hüquq mühafizə orqanın rəhbəri tərəfindən prokurorluğun və ya məhkəmənin yuxarı orqanına bu barədə şikayət verilə bilər. Bu şikayətlərə dərhal baxılmalıdır.

**Maddə 15.**
**Təhlükəsizlik tədbirlərinin ləğv edilməsi**

Təhlükəsizlik tədbirləri aşağıdakı hallarda ləğv edilir:

1) təhlükəsizlik tədbirinin tətbiq edilməsi müddətinin keçməsi;

2) mövcud təhlükənin aradan qaldırılması;

3) barəsində təhlükəsizlik tədbirləri tətbiq edilmiş şəxsin ərizəsi;

4) yazılı surətdə xəbərdar edilməsinə baxmayaraq təhlükəsizliyi təmin edən orqanların qanuni göstərişlərinin mütəmadi olaraq müdafiə olunan şəxs tərəfindən yerinə yetirilməməsi.

Təhlükəsizlik tədbirlərinin ləğvi üçün real əsaslar olduqda müdafiə olunan şəxsə yazılı məlumat verilməklə bu haqda

əsaslandırılmış qərar qəbul edilir.

Qəbul edilmiş qərar barədə müdafiə olunan şəxs prokurorluğa və ya məhkəməyə şikayət verə bilər. Bu şikayətə dərhal baxılmalıdır. Qəbul edilmiş qərar barədə üç günün müddətində şikayət etmiş şəxsə məlumat verilməlidir.

## IV FƏSİL

## Təhlükəsizliyi təmin edən orqanların və müdafiə olunan şəxslərin hüquq və vəzifələri

### Maddə 16.

### Təhlükəsizliyi təmin edən orqanların hüquq və vəzifələri

Təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi barədə qərar qəbul etmiş orqanların aşağıdakı hüquqları vardır:

1) müdafiə olunan şəxslərin təhlükəsizliyinə qorxu yaradan hallar barədə edilən müraciətlər (ərizələr) əsasında zəruri materialları tələb etmək və ya izahatlar almaq;

2) təhlükəsizlik tədbirlərini həyata keçirən orqanlardan əlavə tədbirlərin tətbiqini tələb etmək;

3) həyata keçirilən təhlükəsizlik tədbirlərini tamamilə və ya qismən ləğv etmək.

Təhlükəsizlik tədbirlərini həyata keçirən orqanların aşağıdakı hüquqları vardır:

1) təhlükəsizlik tədbirlərini və onların tətbiqi vasitələrini müəyyən etmək, zəruri hallarda həyata keçirilən tədbirləri dəyişdirmək və ya onlara əlavələr etmək;

2) təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi şərtlərinin əməl olunmasını, habelə bu tədbirlərin tətbiqi ilə əlaqədar təhlükəsizliyi təmin edən orqanların vəzifəli şəxsləri tərəfindən verilən qanuni göstərişlərin yerinə yetirilməsini müdafiə olunan şəxslərdən tələb etmək;

3) təhqiqat orqanına, müstəntiqə, prokurora, məhkəməyə (hakimə) müdafiə olunan şəxs barəsində təhlükəsizlik tədbirinin tətbiq edilməsi və ya həyata keçirilən təhlükəsizlik tədbirinin ləğvi barədə vəsatət qaldırmaq.

Təhlükəsizliyi təmin edən orqanların aşağıdakı vəzifələri vardır:

1) müdafiə olunan şəxs barəsində edilən hər bir qanunsuz hallar haqqında məlumat daxil olduqda həmin halların aradan qaldırılması üçün dərhal cavab tədbirləri görmək;

2) mövcud təhlükənin xarakterinə uyğun olaraq müdafiə olunan şəxslərin həyatının, sağlamlığının, mənzilinin və əmlakının qorunmasını təmin etmək;

3) təhlükəsizlik tədbirlərinin dəyişdirilməsi və ya ləğv edilməsi ilə bağlı qəbul edilmiş qərar barədə müdafiə olunan şəxsə vaxtında məlumat vermək.

**Maddə 17.**
**Müdafiə olunan şəxslərin hüquq və vəzifələri**

Müdafiə olunan şəxslərin aşağıdakı hüquqları vardır:

1) barəsində təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi və ya edilməməsi haqqında müraciət etmək;

2) barəsində tətbiq ediləcək təhlükəsizlik tədbirləri haqqında məlumat almaq;

3) tətbiq edilən təhlükəsizlik tədbirlərindən başqa, bu Qa-

nunla nəzərdə tutulan digər tədbirlərin də tətbiq edilməsini və ya tətbiq edilən tədbirlərdən hər hansı birisinin ləğv edilməsini təhlükəsizliyi təmin edən orqanlardan tələb etmək;

4) təhlükəsizliyi təmin edən yuxarı orqana, prokurorluğa və ya məhkəməyə təhlükəsizlik tədbirlərini həyata keçirən vəzifəli şəxslərin qanunsuz qərarlarından və ya hərəkətlərindən şikayət vermək.

Müdafiə olunan şəxslərin aşağıdakı vəzifələri vardır:

1) təhlükəsizliyi təmin edən orqanların qanuni tələblərinə əməl etmək;

2) ona qarşı edilən qanunsuz əməllər və ya hər bir təhlükə barəsində təhlükəsizliyi təmin edən orqanlara dərhal məlumat vermək;

3) təhlükəsizliyi təmin edən orqanlar tərəfindən təhlükəsizliyin təmin edilməsi məqsədilə onun istifadəsinə verilmiş əmlakla ehtiyatla davranmaq;

4) təhlükəsizliyi təmin edən orqanların icazəsi olmadan barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları yaymamaq.

## V FƏSİL

## Yekun müddəalar

### Maddə 18.
### Təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi haqqında qərarın icrasının məcburiliyi

Təhlükəsizliyi təmin edən orqanların mülkiyyət forma-

sından asılı olmayaraq müəssisələrə, idarələrə və təşkilatlara göndərilmiş qərarının icrası həmin orqanların vəzifəli şəxsləri üçün məcburidir.

**Maddə 19.**

**Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari sığortası və onlara müavinətlərin ödənilməsi**

Məhkəmə və hüquq mühafizə orqanları işçiləri xidmət vəzifələrinin icrası ilə bağlı həlak olma (vəfat etmə), xəsarət (yaralanma, travma, kontuziya) alma hallarından icbari qaydada dövlət tərəfindən sığortalanmalıdırlar.

Sığortalanmanın qaydası, şərtləri və sığorta ödənişlərinin məbləği Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

Xidmət vəzifələrinin icrası ilə əlaqədar məhkəmə və hüquq mühafizə orqanları işçiləri həlak olduqda (vəfat etdikdə) ailəsinə, habelə öhdəsində olanlara dövlət büdcəsinin vəsaiti hesabına onların orta əmək haqqı məbləğinin yetmiş misli miqdarında birdəfəlik müavinət ödənilir, daha sonra bu məbləğ təqsirli şəxslərdən tutulur.

Xidmət vəzifələrinin icrası ilə əlaqədar məhkəmə və hüquq mühafizə orqanları işçiləri xidməti davam etdirməsinə imkan verməyən dərəcədə xəsarət (yaralanma, travma, kontuziya) aldıqda, xəstələndikdə dövlət büdcəsinin vəsaiti hesabına həmin şəxslərə onların orta əmək haqqı məbləğinin əlli misli miqdarında birdəfəlik müavinət ödənilir, daha sonra bu məbləğ təqsirli şəxslərdən tutulur.

Xidmət vəzifələrinin icrası ilə əlaqədar məhkəmə və hüquq mühafizə orqanları işçilərinin əmlakına dəyən ziyan dövlət

büdcəsinin vəsaiti hesabına tam həcmdə ödənilir, daha sonra bu məbləğ təqsirli şəxslərdən tutulur.

Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin həlak olması (vəfat etməsi) və ya xəsarət (yaralanma, travma, kontuziya) alması və ya əmlakının zədələnməsi hallarının xidmət vəzifələrinin icrası ilə bilavasitə bağlı olmamasını müəyyən edən məhkəmə hökmünün və ya qərarının qəbul edilməsi bu Qanunla nəzərdə tutulmuş sığorta və ya müavinət məbləğlərinin verilməsindən imtina edilməsi üçün əsasdır.

**Maddə 20.**
**Dövlət müdafiə tədbirlərinin maliyyələşdirilməsi və maddi-texniki təminatı**

Bu Qanunla nəzərdə tutulmuş dövlət müdafiə tədbirlərinin maliyyələşdirilməsi və maddi-texniki təminatı dövlət büdcəsinin (xərclərin) hesabına həyata keçirilir. Təhlükəsizlik tədbirlərinin tətbiqi ilə bağlı məsrəflər müdafiə olunan şəxslərin üzərinə qoyula bilməz.

**Maddə 21.**
**Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun pozulmasına görə fiziki və hüquqi şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

*Bakı şəhəri, 11 dekabr 1998-ci il*

**№ 586-IQ**

*«Azərbaycan» qəzetində dərc edilmişdir*
*(17 fevral 1999-cu il, № 37)*

5 oktyabr 2001-ci il tarixli, 190-IIQD nömrəli; 23 noyabr 2001-ci il tarixli, 219-IIQD nömrəli; 16 iyun 2007-ci il tarixli, 385-IIIQD nömrəli; 2 iyun 2008-ci il tarixli, 620-IIIQD nömrəli qanunlara əsasən əlavələr və dəyişikliklərlə

# MƏHKƏMƏ QƏRARLARININ İCRASI HAQQINDA

# AZƏRBAYCAN RESPUBLIKASININ

# QANUNU

Bu Qanun Azərbaycan Respublikası məhkəmələrinin, beynəlxalq arbitrajların və münsiflər məhkəmələrinin, xarici dövlətlərin məhkəmələrinin və arbitrajlarının mülki və iqtisadi mübahisələrə dair işlər üzrə qərarlarının, habelə məhkəmə əmrlərinin, inzibati xətalara dair işlərə baxmaq səlahiyyəti olan orqanların (vəzifəli şəxslərin) qərarlarının, alimentlərin ödənilməsi barədə notariat qaydasında təsdiq edilmiş sazişlərin, notariat orqanlarının icra qeydlərinin və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda digər orqanların (bundan sonra-məhkəmə və digər orqanların) qərarlarının məcburi icrası qaydalarını və şərtlərini müəyyən edir.

## I FƏSİL

## Ümumi müddəalar

### Maddə 1.
### Məhkəmə və digər orqanların qərarlarının icrası haqqında Azərbaycan Respublikasının qanunvericiliyi

1.1. Məhkəmə və digər orqanların qərarlarının icrası

haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikası Konstitusiyasından, bu Qanundan, «Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında» Azərbaycan Respublikası Qanunundan, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsindən, habelə digər qanunvericilik aktlarından ibarətdir.

1.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə məhkəmə və digər orqanların qərarlarının icrasına dair Azərbaycan Respublikasının qanunvericiliyindən fərqli qaydalar müəyyən olunduqda, beynəlxalq müqavilələr tətbiq edilir.

**Maddə 2.**
**Məcburi icra orqanları**

2.1. Azərbaycan Respublikasında məhkəmə və digər orqanların qərarlarının məcburi icrası məhkəmə icraçıları tərəfindən həyata keçirilir.

2.2. Məhkəmə icraçılarının səlahiyyətləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

**Maddə 3.**
**Məhkəmə icraçısının tələblərinin məcburiliyi**

3.1. Məhkəmə və digər orqanların qərarlarının icrası ilə əlaqədar məhkəmə icraçısının tələbləri Azərbaycan Respublikasının ərazisində bütün orqanlar, hüquqi şəxslər, onların vəzifəli şəxsləri və fiziki şəxslər üçün məcburidir.

3.2. Məhkəmə və digər orqanların qərarlarının icrası ilə əlaqədar məhkəmə icraçılarının tələblərini yerinə yetirməyən, onlara həvalə edilmiş vəzifələrin icrasına mane olan şəxslər

Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 4.**

**Məhkəmə və digər orqanların qərarlarının tələblərini icra edən digər orqanlar və təşkilatlar**

4.1. Bu Qanunla nəzərdə tutulmuş hallarda məhkəmə və digər orqanların qərarlarının pul vəsaitlərinin tutulmasına dair tələbləri vergi orqanları, bank və digər kredit təşkilatları tərəfindən icra olunur.

4.2. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda məhkəmə və digər orqanların qərarlarının tələbləri başqa orqanlar, vəzifəli şəxslər, habelə hüquqi və fiziki şəxslər tərəfindən də icra oluna bilər.

4.3. Bu Qanunun 4.1-ci və 4.2-ci maddələrində göstərilən orqanlar, təşkilatlar, habelə şəxslər məcburi icra orqanları sayılmır.

4.4. İnzibati orqan tərəfindən qəbul edilmiş inzibati aktlar (bələdiyyələr tərəfindən qəbul edilmiş inzibati aktlar və pul tələblərinin ödənilməsi ilə bağlı inzibati aktlar istisna olmaqla), o cümlədən inzibati şikayət üzrə qəbul olunmuş qərar onu qəbul etmiş inzibati orqan tərəfindən Azərbaycan Respublikasının müvafiq qanunu ilə müəyyən olunmuş qaydada icra edilir.

**Maddə 5.**

**Banklar və digər kredit təşkilatları tərəfindən icra hərəkətlərinin təmin edilməsi**

5.1. Bankda və ya digər kredit təşkilatında borclunun

hesablarının və həmin hesablarda pul vəsaitlərinin olması barədə məlumatı olan məhkəmə icraçısı, məhkəmə və digər orqanların qərarlarının pul vəsaitlərinin tutulmasına dair tələblərinin göstərildiyi icra sənədini bilavasitə banka və ya digər kredit təşkilatına göndərir.

5.2. Borclunun hesablarına xidmət edən bank və ya digər kredit təşkilatı məhkəmə icraçısından icra sənədini aldığı vaxtdan yeddi gün müddətində icra sənədinin pul vəsaitlərinin tutulmasına dair tələbləri icra edir, yaxud borclunun hesablarında tələbkarın tələblərinin təmin edilməsi üçün yetərli pul vəsaitləri olmadığından, həmin tələblərin tamamilə və ya qismən icra edilməməsi barədə icra sənədində qeyd yazır.

5.3. Bu Qanunun 5.2-ci maddəsində göstərilən tələblərə əməl etməyən bank və ya digər kredit təşkilatı müvafiq məhkəmə tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada inzibati məsuliyyətə cəlb olunur.

**Maddə 6.**
**İcra sənədləri**

6.1. Aşağıdakılar icra sənədləri sayılır:

6.1.1. Məhkəmələr tərəfindən:

- Azərbaycan Respublikası məhkəmələrinin qərarları;
- iddianın təmin edilməsi ilə bağlı tədbirlərin görülməsi haqqında məhkəmələrin qərardadları;
- məhkəmələrin cinayət işləri üzrə hökmlərinin, qərardadlarının və qərarlarının əmlakın alınmasına dair hissəsi;
- beynəlxalq arbitrajların və münsiflər məhkəmələrinin

qərarları;

- xarici dövlətlərin məhkəmələrinin və arbitrajlarının qərarları əsasında verilən icra vərəqələri.

6.1.2. məhkəmə əmrləri;

6.1.3. alimentlərin ödənilməsi barədə notariat qaydasında təsdiq edilmiş sazişlər;

6.1.4. notariat orqanlarının icra qeydləri;

6.1.5. inzibati xətalara dair işlərə baxmaq səlahiyyəti olan orqanların (vəzifəli şəxslərin) qərarları;

6.1.6. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda digər orqanların qərarları.

6.1.7. Vekseldə onun aksepti haqqında qeyd olunubsa, onun aksepti hallarında veksel üzrə ödənilməməsinə görə qanunvericiliyə uyğun verilən protestlər;

6.1.8. Bələdiyyələr tərəfindən qəbul edilmiş inzibati aktlar və digər inzibati orqanların pul tələblərinin ödənilməsi ilə bağlı inzibati aktlar.

**Maddə 7.**
**İcra sənədlərinə aid tələblər**

7.1. İcra sənədində aşağıdakılar göstərilir:

7.1.1. məhkəmənin və ya icra sənədini verən digər orqanın adı;

7.1.2. icra sənədinin verilməsinə əsas olan iş və ya materiallar və onların nömrələri;

7.1.3. icra edilməli olan qərarın qəbul edildiyi vaxt;

7.1.4. tələbkar və borclunun soyadı, adı, atasının adı, onların yaşayış yeri, borclunun doğulduğu yer və tarix, onun

iş yeri; tələbkar və borclu hüquqi şəxsin adı, ünvanı;

7.1.5. məhkəmə və ya digər orqanın qərarının nəticə hissəsi;

7.1.6. məhkəmə və ya digər orqanın qərarının qüvvəyə mindiyi vaxt;

7.1.7. icra sənədinin verildiyi vaxt və onun icraya yönəldilməsi müddəti.

7.2. Məhkəmə qərarına əsasən verilmiş icra sənədi hakim tərəfindən imzalanır və məhkəmənin möhürü ilə təsdiqlənir.

7.3. Digər icra sənədləri onları qəbul və ya təsdiq etmiş şəxslər tərəfindən imzalanır və möhürlə təsdiqlənir.

7.4. Məhkəmə əmrinin və alimentlərin ödənilməsinə dair notariat qaydasında təsdiqlənmiş sazişin məzmunu müvafiq olaraq Azərbaycan Respublikasının Mülki Prosessual və Ailə məcəllələri ilə müəyyən edilir. Notariat orqanlarının icra qeydlərinin məzmunu «Notariat haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunur.

**Maddə 8.**
**İcra sənədləri üzrə icraata başlanılması**

8.1. İcra sənədinin icraya yönəldilməsi bilavasitə müvafiq qərarı çıxarmış məhkəmənin və ya digər orqanın vəzifəsidir.

İcra sənədi bu Qanunun 7-ci maddəsində nəzərdə tutulan tələblərə uyğundursa, məhkəmə icraçısı icra sənədini məhkəmədən və ya digər orqandan qəbul etməli və icraata başlamalıdır.

8.2. Məhkəmə icraçısı icra sənədini aldığı vaxtdan üç gün müddətində icraata başlamaq haqqında qərar qəbul edir.

Həmin qərarda məhkəmə icraçısı icra sənədində göstərilmiş tələblərin borclu tərəfindən könüllü icrası üçün məhkəmənin qərarında digər icra müddəti müəyyən edilməyibsə, icraata başlanıldığı vaxtdan ən çoxu beş gün müddət təyin edir və bu barədə borcluya bildiriş verir. Bildirişdə həmin müddət başa çatdıqdan sonra göstərilən tələblərin məcburi qaydada icra ediləcəyi və bu Qanunla nəzərdə tutulmuş icra ödənişinin və icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclərin ondan tutulacağı göstərilir.

8.3. İcraata başlamaq haqqında qərarın surəti onun qəbul edildiyi vaxtdan bir gün müddətində tələbkara, borcluya, habelə icra sənədini vermiş məhkəməyə və ya digər orqana göndərilir.

8.4. Əmlak tələbləri üzrə icra sənədinin icrasını təmin etmək məqsədilə, məhkəmə icraçısı borclunun əmlakını siyahıya alır və bu barədə icraata başlamaq haqqında qərarda müvafiq qeyd aparır.

8.5. Tərəflər icraata başlamaq haqqında qərardan, onun surətini aldıqdan sonra 10 gün müddətində məhkəməyə şikayət edə bilərlər.

**Maddə 9.**
**İcra sənədinə aid tələblərin pozulmasının nəticələri**

9.1. Məhkəmə icraçısı bu Qanunun 7-ci maddəsində nəzərdə tutulmuş tələblərə uyğun olmayan icra sənədini onun daxil olduğu vaxtdan ən geci üç gün müddətində icra sənədini vermiş məhkəməyə və ya digər orqana qaytarır və bu barədə müvafiq qərar qəbul edir.

9.2. Məhkəmə icraçısı icra sənədinin qaytarılmasına dair

qərarın qəbul edilməsi barədə həmin qərarın qəbul edildiyi vaxtdan bir gün müddətində tələbkara məlumat verir.

9.3. İcra sənədinin qaytarılması haqqında qərarda onun qaytarılması əsasları göstərilir. Məhkəmə icraçısı icra sənədini vermiş məhkəməyə və ya digər orqana yol verilmiş pozuntular barədə məlumat verir.

9.4. Yol verilmiş pozuntular üç gün müddətində aradan qaldırılmalı və həmin icra sənədi yenidən məhkəmə icraçısına göndərilməlidir.

**Maddə 10.**
**İcra hərəkətlərinin həyata keçirildiyi yer**

10.1. Borclu fiziki şəxsdirsə, icra hərəkətləri onun yaşadığı yerdə, yaxud onun iş yerində və ya onun əmlakının olduğu yerdə həyata keçirilir.

Borclu hüquqi şəxsdirsə, icra hərəkətləri onun olduğu yerdə və ya əmlakının olduğu yerdə həyata keçirilir.

10.2. Borclunun müəyyən hərəkətləri etmək vəzifəsinə dair tələblər icra sənədlərində göstərilən qaydada və yerdə icra olunur.

10.3. İcra zamanı borclunun yaşayış yeri və ya olduğu yer, yaxud onun iş yeri dəyişdikdə və yaxud borclunun, əvvəl olduğu yer üzrə tələbin yönəldilə biləcəyi əmlakının olmadığı və ya həmin əmlakın tələbkarın tələblərinin təmin edilməsi üçün yetərli olmadığı aşkar edildikdə, məhkəmə icraçısı tərəfindən bu barədə akt tərtib olunur. Məhkəmə icraçısı aktın tərtib edildiyi vaxtdan bir gün müddətində icra sənədini həmin aktın surəti ilə birlikdə borclunun yeni yaşayış yeri və ya olduğu yer üzrə, yaxud yeni iş yeri üzrə və ya borclunun əmlakının olduğu yeni yer üzrə məhkəmə icraçısına

göndərir və bu barədə tələbkara, habelə icra sənədini vermiş məhkəməyə və ya digər orqana yazılı məlumat verir.

10.4. Məhkəmə icraçısı tərəfindən göndərilmiş icra sənədini müvafiq ərazi üzrə digər məhkəmə icraçısı icraata qəbul etməlidir. İcra hərəkətlərinin həyata keçirilməsi yeri ilə bağlı məhkəmə icraçıları arasında mübahisələrə yol verilmir.

**Maddə 11.**
**İcra hərəkətlərinin həyata keçirilməsi vaxtı**

11.1. İcra hərəkətləri saat 8-dən tez və saat 22-dən gec olmamaqla, iş günlərində həyata keçirilir. İcra hərəkətlərinin həyata keçirilməsinin dəqiq vaxtını məhkəmə icraçısı müəyyən edir. İcraatda iştirak edən tərəflər icra hərəkətlərinin həyata keçirilməsi vaxtı ilə bağlı təklif verə bilərlər.

11.2. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qeyri-iş günlərində icra hərəkətlərinin həyata keçirilməsinə yalnız təxirəsalınmaz hallarda və ya borclunun təqsiri üzündən icra hərəkətlərinin həyata keçirilməsi iş günlərində mümkün olmadıqda yol verilir.

11.3. Saat 22-dən saat 8-dək icra hərəkətlərinin həyata keçirilməsinə yalnız fiziki şəxslərin həyatı və sağlamlığı üçün təhlükə törədən hallarda yol verilir.

11.4. Bu Qanunun 11.2-ci və 11.3-cü maddələrində nəzərdə tutulmuş hallarda icra hərəkətləri yalnız məhkəmə icraçıları qurumunun rəhbərinin yazılı icazəsi ilə həyata keçirilir.

**Maddə 12.**
**İcra hərəkətlərinin həyata keçirilməsi müddətləri**

12.1. Məhkəmə icraçısı icra sənədini aldığı gündən

iki ay müddətində icra hərəkətlərini həyata keçirməli və icra sənədində göstərilən tələblərin icra olunmasını təmin etməlidir.

12.2. Aşağıdakı icra sənədləri dərhal icra olunmalıdır:

12.2.1. alimentlərin, əmək haqqının, habelə bu ödəmələr üzrə bütün borc məbləğlərinin tutulması haqqında;

12.2.2. qanunsuz işdən çıxarılmış və ya başqa işə keçirilmiş işçinin işə və ya əvvəlki vəzifəyə bərpası haqqında;

12.3. Azərbaycan Respublikasının qanunvericiliyi ilə və ya icra sənədi ilə icrası dərhal nəzərdə tutulmuş başqa tələblər də təxirəsalınmadan icra olunur.

**Maddə 13.**
**İcra sənədlərinin icraya yönəldilməsi müddətləri**

13.1. İcra sənədləri aşağıdakı müddətlərdə icraya yönəldilməlidir:

13.1.1. məhkəmələrin qərarları əsasında verilən icra vərəqələri və məhkəmə əmrləri-bir ay ərzində;

13.1.2. iddianın təmin edilməsi ilə bağlı tədbirlərin görülməsi haqqında məhkəmələrin qərardadları əsasında verilən icra vərəqələri-dərhal;

13.1.3. notariat orqanlarının icra qeydləri və inzibati xətalara dair işlərə baxmaq səlahiyyəti olan orqanların (vəzifəli şəxslərin) qərarları-on gün ərzində;

13.1.4. beynəlxalq arbitrajların və münsiflər məhkəmələrinin qərarları, xarici dövlətlərin məhkəmələrinin və arbitrajlarının qərarları əsasında verilən icra vərəqələri -üç il ərzində.

13.2. Bu Qanunun 13.1-ci maddəsi ilə müəyyən olunmuş

müddətlər aşağıdakı qaydada hesablanır:

13.2.1. Bu Qanunun 13.1.1-ci və 13.1.4-cü maddələrində göstərilmiş icra sənədlərinin (məhkəmə əmrləri istisna olmaqla) icraya yönəldilməsi zamanı-məhkəmə qərarının qanuni qüvvəyə mindiyi, yaxud onun icrasının təxirə salınması və ya icrasına möhlət verilməsi ilə bağlı müəyyən edilmiş müddətin başa çatdığı vaxtdan, məhkəmə qərarı dərhal icra edilməli olduqda-onun qəbul edildiyi günün ertəsi günündən;

13.2.2. məhkəmə əmrlərinin icraya yönəldilməsi zamanı-onların verildiyi vaxtdan 10 gün müddət keçdikdən sonra;

13.2.3. bu Qanunun 13.1.3-cü maddəsində göstərilmiş icra sənədlərinin icraya yönəldilməsi zamanı-müvafiq qərarın qəbul edildiyi vaxtdan.

**Maddə 14.**
**Məhkəmə və digər orqanların qərarlarının izah olunması**

14.1. İcra sənədində göstərilmiş tələblər aydın olmadıqda, məhkəmə icraçısı həmin icra sənədinin verilməsi üçün əsas olmuş qərarın, habelə qanuna əsasən icra sənədi sayılan sənədin izah olunması barədə müvafiq məhkəməyə və ya digər orqana ərizə ilə müraciət etmək hüququna malikdir.

14.2. Məhkəmə və ya digər orqan məhkəmə icraçısının ərizəsinə onun daxil olduğu vaxtdan 10 gün müddətində baxır və zərurət olduqda, icra sənədinin verilməsi üçün əsas olmuş müvafiq qərarı, habelə qanuna əsasən icra sənədi sayılan sənədi onların məzmununu dəyişdirmədən izah edir.

**Maddə 15.**

**Məhkəmə və digər orqanların qərarlarının icrasına möhlət verilməsi və ya onların hissə-hissə icrası**

Tərəflər icra sənədinin icrasına möhlət verilməsi və ya onun hissə-hissə icrası, yaxud icra sənədinin icrası üsulunun və qaydasının dəyişdirilməsi haqqında işə baxmış məhkəməyə müraciət edə bilərlər. Borclunun əmlak vəziyyətini və digər halları nəzərə alaraq, məhkəmə həmin müraciətlərə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 231-ci maddəsi ilə müəyyən edilmiş qaydada baxır.

**Maddə 16.**

**İcra hərəkətlərinin təxirə salınması**

16.1. İcra hərəkətlərinin həyata keçirilməsinə çətinlik yaradan hallar olduqda, məhkəmə icraçısı tələbkarın və ya borclunun ərizəsinə əsasən icra hərəkətlərini 10 gündən çox olmayan müddətə təxirə sala bilər.

16.2. Məhkəmə icraçısı icra hərəkətlərinin təxirə salınması haqqında qərar qəbul edir və bu barədə tərəflərə, habelə müvafiq məhkəməyə və ya digər orqana bildiriş göndərir.

16.3. Tərəflər icra hərəkətlərinin təxirə salınması haqqında məhkəmə icraçısının qərarından onun surətini aldıqdan sonra 3 gün müddətində müvafiq məhkəməyə şikayət verə bilərlər.

16.4. Məhkəmələrin cinayət işləri üzrə qərarlarının əmlakın alınmasına dair hissəsi üzrə icraatın təxirə salınması Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 510-cu maddəsi ilə müəyyən olunmuş qaydada həyata keçirilir.

**Maddə 17.**
**İcraatın dayandırılmasının məcburiliyi**

17.1. Aşağıdakı hallarda icra sənədi üzrə icraat məcburi olaraq dayandırılır:

17.1.1. məhkəmənin müəyyənləşdirdiyi hüquq münasibəti vərəsəliyə və ya hüquq varisliyinə yol verirsə, borclu öldükdə, ölmüş və ya xəbərsiz itkin düşmüş elan edildikdə, habelə iqtisad məhkəməsi borclunun iflası barədə məhkəmə icraatına başladıqda;

17.1.2. borclu fəaliyyət qabiliyyətini itirdikdə;

17.1.3. borclu Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüşən hissəsində olduqda və ya Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüşən hissəsində olan tələbkarın müvafiq xahişi olduqda, yaxud hamıya bəlli olan hallar baş verdikdə və ya faktlar mövcud olduqda;

17.1.4. icra sənədinə dair borclu tərəfindən iddia qaydasında mübahisə qaldırdıqda, əgər bu cür mübahisəyə qanunla yol verilirsə;

17.1.5. inzibati xətalara dair işlərə baxmaq səlahiyyəti olan orqanların (vəzifəli şəxslərin) hərəkətlərindən məhkəməyə şikayət verildikdə;

17.1.6. icra sənədi üzrə tələbin yönəldildiyi əmlakın həbsdən azad olunması barədə məhkəməyə iddia verildikdə.

17.1.7. İş üzrə qəbul olunmuş məhkəmə aktlarından şikayət Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin icraatına qəbul olunduqda.

**Maddə 18.**
**İcraatın dayandırılmasının mümkün olduğu hallar**

18.1. Aşağıdakı hallarda icra sənədi üzrə icraat dayandırıla

bilər:

18.1.1. məhkəmə icraçısı icra sənədinin verilməsi üçün əsas olmuş qərarın, habelə qanuna əsasən icra sənədi sayılan sənədin izah olunması üçün müvafiq məhkəməyə və ya digər orqana müraciət etdikdə;

18.1.2. borclu üzrlü səbəblərdən icra hərəkətlərinin həyata keçirdiyi yerin hüdudlarından kənarda olduqda;

18.1.3. borclu ağır xəstəliyinə görə stasionar müalicə müəssisəsində müalicə olunduqda;

18.1.4. məhkəmə icraçısına etirazın təmin edilməməsindən və ya məhkəmə icraçısının hərəkətlərindən şikayət verildikdə;

18.1.5. borclu, onun əmlakı axtarışda olduqda və ya onun uşağı axtarışda olduqda;

18.1.6. tələbkarın müvafiq xahişi olduqda.

**Maddə 19.**
**İcraatın dayandırılması müddətləri**

19.1. Bu Qanunun 17-ci və 18-ci maddələrində nəzərdə tutulmuş hallarda icraat aşağıdakı vaxtlara qədər dayandırılır:

19.1.1. borclu öldüyü, ölmüş elan edildiyi və ya xəbərsiz itkin düşmüş hesab edildiyi, fəaliyyət qabiliyyəti olmayan sayıldığı, habelə iqtisad məhkəməsi borclunun iflası barədə məhkəmə icraatına başladığı halda-müvafiq olaraq vərəsələr və ya hüquq varisləri müəyyən edilənədək, məhkəmə xəbərsiz itkin düşmüş şəxsin əmlakını idarə olunmaq üçün qəyyumluq və himayəçilik orqanı tərəfindən təyin olunan şəxsə verənədək və ya fəaliyyət qabiliyyəti olmayan bor-

cluya qəyyum təyin edilənədək, yaxud iş üzrə qərar qəbul edilənədək;

19.1.2. borclunun və ya tələbkarın Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüşən hissələrində müddətli həqiqi hərbi xidmətdə olduğu, üzrlü səbəblərdən icra hərəkətlərinin həyata keçirildiyi yerin hüdudlarından kənarda, stasionar müalicə müəssisəsində olduğu və ya borclunun, onun əmlakının axtarışda olduğu və ya ondan alınmış uşağın axtarışda olduğu halda-müvafiq olaraq hərbi xidmətdən buraxılanadək və ya kontrakt üzrə hərbi xidmətə başlayanadək, icra hərəkətlərinin keçirildiyi yerin hüdudlarına qayıdanadək, müalicə müəssisəsindən çıxanadək, yaxud borclunun, onun əmlakının və ya ondan alınmış uşağın axtarışı başa çatanadək;

19.1.3. icra hərəkətləri, habelə icra sənədi və yaxud icra sənədinin verilməsi üçün əsas olmuş məhkəmə və ya digər orqanın qərarı barəsində mübahisə qaldırıldığı halda-mübahisəyə mahiyyəti üzrə baxılanadək;

19.1.4. məhkəmə icraçısına etirazın təmin edilməməsindən şikayət verildiyi halda-məhkəmə tərəfindən həmin şikayətə baxılanadək;

19.1.5. İş üzrə qəbul olunmuş məhkəmə aktlarından şikayətə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı qəbul olunanadək.

19.1.6. digər hallarda-icraatın dayandırılması səbəbləri aradan qalxanadək.

19.2. İcraatın dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqdan sonra, tələbkarın ərizəsinə və ya məhkəmə icraçısının təşəbbüsünə əsasən müvafiq məhkəmə icra sənədi

üzrə icraatı təzələyir.

19.3. Digər orqanın icra sənədi üzrə icraatın dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqda, icraatın təzələnməsi məhkəmə icraçısı tərəfindən həyata keçirilir.

**Maddə 20.**
**İcraata xitam verilməsinin əsasları**

20.1. İcra sənədi üzrə icraata aşağıdakı hallarda xitam verilir:

20.1.1. məhkəmə tələbkarın tələbdən imtinasını qəbul etdikdə;

20.1.2. məhkəmə tələbkar ilə borclu arasında barışıq sazişini təsdiq etdikdə;

20.1.3. tələbkar və ya borclu öldükdə, ölmüş elan edildikdə və ya xəbərsiz itkin düşmüş hesab edildikdə, əgər məhkəmə və ya digər orqanın qərarı ilə müəyyən edilmiş tələblər və ya vəzifələr həmin şəxsin vərəsəsinə və ya qanunvericiliklə müəyyən edilmiş qaydada onun əmlakını idarə edən şəxsə keçə bilməzsə;

20.1.4. icra sənədinin verilməsi üçün əsas olmuş məhkəmə və ya digər orqanın qərarı və yaxud qanuna görə icra sənədi sayılan sənəd ləğv edildikdə;

20.1.5. icra sənədi tam icra olunduqda.

**Maddə 21.**
**İcraatın dayandırılması və ya ona xitam verilməsi haqqında məsələlərə baxılması**

21.1. Məhkəmələrin verdiyi icra sənədinə əsasən başlan-

mış icraat məhkəmə icraçısının olduğu yer üzrə məhkəmə tərəfindən, iqtisad məhkəməsinin verdiyi icra sənədinə əsasən başlanmış icraat isə həmin iqtisad məhkəməsi və ya məhkəmə icraçısının olduğu yer üzrə müvafiq iqtisad məhkəməsi tərəfindən dayandırılır və ya ona xitam verilir.

21.2. Məhkəmə, icra sənədi üzrə icraatın dayandırılması və ya ona xitam verilməsi haqqında məsələlərə məhkəmə icraçısının təqdimatı əsasında Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 231-ci maddəsində nəzərdə tutulmuş qaydada baxır və təqdimatın təmin olunması və ya onun rədd edilməsi barədə qərardad çıxarır.

21.3. Dayandırılmış və ya xitam verilmiş icraat üzrə hər hansı icra hərəkətlərinin həyata keçirilməsinə yol verilmir.

21.4. Məhkəmə icraçısı icraatın dayandırılması və ya ona xitam verilməsi barədə 3 gün müddətində tərəflərə, habelə icra sənədini vermiş məhkəməyə (məsələyə icra sənədini vermiş məhkəmədə baxılmamışdırsa) və ya digər orqana məlumat verir.

21.5. İcraatın dayandırılması və ya ona xitam verilməsi haqqında qərardaddan Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi ilə nəzərdə tutulmuş müddətlərdə və qaydada şikayət verilə bilər.

**Maddə 22.**
**İcraata xitam verilməsinin nəticələri**

İcraata xitam verilməsi barədə məhkəmənin qərardadı qanuni qüvvəyə mindikdən sonra məhkəmə icraçısı təyin etdiyi bütün icra tədbirlərini ləğv edir. Göstərilən qərardad və məhkəmə icraçısı tərəfindən müvafiq qeydlər edilmiş icra

sənədi məhkəməyə və ya digər orqana qaytarılır.

**Maddə 23.**
**İcra sənədinin qaytarılması**

23.1. Tələbin icra edilmədiyi və ya qismən icra edildiyi icra sənədi aşağıdakı hallarda icra sənədini vermiş məhkəməyə və ya digər orqana qaytarılır:

23.1.1. tələbkarın ərizəsi əsasında;

23.1.2. borclu hüquqi şəxsin ünvanını və ya borclu fiziki şəxsin yaşayış yerini, borclunun əmlakının olduğu yeri müəyyən etmək və yaxud bank və ya digər kredit təşkilatlarında ona məxsus pul vəsaitlərinin və başqa qiymətli şeylərin olması barədə məlumat əldə etmək mümkün olmadıqda (borclunun və ya onun əmlakının bu qanunla nəzərdə tutulan hallarda axtarışı istisna olmaqla) və ya ləğv olunan hüquqi şəxsin əmlakı tələbkarın tələblərinin təmin edilməsi üçün yetərli olmadıqda;

23.1.3. borcluda tələbin yönəldilə biləcəyi əmlak və gəlirlər olmadıqda və məhkəmə icraçısı tərəfindən onun əmlakının və gəlirlərinin axtarışı ilə bağlı görülmüş bütün tədbirlər nəticə vermədikdə;

23.1.4. tələbkar icra sənədi icra olunarkən borclunun satılmamış əmlakını özündə saxlamaqdan və ya borcludan alınmış müəyyən əşyaları götürməkdən imtina etdikdə;

23.1.5. tələbkar öz hərəkətləri (hərəkətsizliyi) ilə icra sənədinin icrasına mane olduqda.

23.2. Tələbin icrası bu Qanunun 23.1.2-23.1.5-ci maddələrində göstərilən əsaslara görə mümkün olmadıqda, məhkəmə icraçısı bu haqda müvafiq akt tərtib edir və həmin

akt məhkəmə icraçıları qurumunun rəhbəri tərəfindən yoxlanılaraq təsdiq olunur və bu barədə tələbkara məlumat verilir.

23.3. İcra sənədinin qaytarılması bu Qanunun 23.1-ci maddəsində nəzərdə tutulan əsaslar aradan qalxdıqdan sonra tələbkarın müraciəti ilə həmin sənədin yenidən icraya yönəldilməsini istisna etmir.

23.4. İcra sənədi bu Qanunun 23.1.1-ci və 23.1.4-cü maddələrində göstərilən əsaslara görə qaytarıldıqda, bu Qanunun 80-ci maddəsində nəzərdə tutulmuş avans ödəməsi tələbkara qaytarılır.

23.5. İcra sənədi bu Qanunun 23.1.2-ci və 23.1.3-cü maddələrində göstərilən əsaslara görə qaytarıldıqda, avans ödəməsindən icra hərəkətlərinin həyata keçirilməsinə çəkilən xərclər çıxıldıqdan sonra onun qalan hissəsi tələbkara qaytarılır.

23.6. İcra edilmiş icra sənədi məhkəməyə və ya digər orqana qaytarılır.

23.7. İcra sənədinin məhkəməyə və ya digər orqana qaytarılması, avans ödəməsinin isə tələbkara qaytarılması barədə məhkəmə icraçısı tərəfindən qərar qəbul edilir və həmin qərar məhkəmə icraçıları qurumunun rəhbəri tərəfindən yoxlanılaraq təsdiq olunur. Tərəflər həmin qərardan onun surətini aldıqdan sonra 10 gün müddətində müvafiq məhkəməyə şikayət verə bilərlər.

**Maddə 24.**
**İcra sənədinin aidiyyəti üzrə göndərilməsi**

24.1. İcra sənədi aşağıdakı hallarda aidiyyəti üzrə

göndərilmiş hesab edilir:

24.1.1. icra sənədi borclunun əmək haqqından (gəlirindən) birdəfəlik və ya vaxtaşırı tutmalar üçün onun iş yerinə göndərildikdə;

24.1.2. icra sənədi bir məhkəmə icraçıları qurumunda müvafiq ərazi üzrə digər quruma göndərildikdə.

24.2. İcra sənədi borclunun iş yerinə göndərildikdə, məhkəmə icraçısı onun icra vəziyyətini yoxlamalıdır.

**Maddə 25.**
**İcra sənədinin dublikatının verilməsi**

25.1. İcra sənədinin əsli itdikdə, həmin sənədin müvafiq məhkəmə və digər orqan tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada dublikatı verilir.

25.2. İcra sənədinin dublikatı tələb üçün əsasdır.

**Maddə 26.**
**İcra sənədlərinin icrasına nəzarət**

İcra sənədlərinin vaxtında və düzgün icra edilməsinə nəzarət məhkəmə icraçıları qurumunun rəhbəri və məhkəmə tərəfindən öz səlahiyyətləri daxilində həyata keçirilir.

**Maddə 27.**
**Borclunun, onun əmlakının və ya uşağın axtarılması**

27.1. Alimentlərin tutulması, sağlamlığa vurulmuş ziyanın ödənilməsi, yaxud ailəni dolandıranın itkisi nəticəsində zərər çəkmiş şəxslərə vurulmuş ziyanın ödənilməsi, habelə uşağın

borcludan alınıb tələbkara verilməsi barədə icra sənədləri üzrə icraat zamanı borclunun yeri məlum olmadıqda, məhkəmə icraçısı öz təşəbbüsünə və ya tələbkarın ərizəsinə əsasən borclunun axtarılması haqqında qərar qəbul edir və həmin qərar məhkəmə icraçıları qurumunun rəhbəri tərəfindən yoxlanılaraq təsdiq olunur.

27.2. Borclunun əmlakının və ya uşağının axtarılması barədə də məhkəmə icraçısı qərar qəbul edir.

27.3. Axtarış icra sənədinin icra olunduğu yer və ya borclunun məlum olan son yaşayış yeri (olduğu yer) üzrə, yaxud onun əmlakının olduğu yer üzrə, habelə tələbkarın yaşayış yeri (olduğu yer) üzrə elan edilir.

27.4. Borclu fiziki şəxsin və uşağın axtarılması müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

27.5. Borclu hüquqi şəxsin, habelə borclu hüquqi və fiziki şəxslərin əmlakının axtarılması məhkəmə icraçıları tərəfindən həyata keçirilir.

27.6. Borclunun, onun əmlakının və uşağın axtarılması üzrə xərclər borcludan tutulur. Bu barədə məhkəmə icraçısı tərəfindən qərar qəbul edilir və həmin qərar məhkəmə icraçıları qurumunun rəhbəri tərəfindən yoxlanılaraq təsdiq olunur.

27.7. Borclunun və uşağın axtarılması üzrə xərclər müvafiq icra hakimiyyəti orqanının məlumatına əsasən, borclunun əmlakının axtarılması üzrə xərclər isə müvafiq məhkəmə icraçıları qurumunun müvafiq xidməti tərəfindən aparılmış hesablamalara əsasən müəyyən edilir.

27.8. Məhkəmə icraçısı tərəfindən digər icra sənədləri üzrə icraat zamanı borclunun və ya onun əmlakının axtarılması,

tələbkar bu Qanunun 80-ci maddəsinə uyğun olaraq axtarış xərclərini öz üzərinə götürdükdə və həmin xərclər üzrə avans ödədikdə, elan edilə bilər.

Bu halda tələbkar, məhkəmə qaydasında axtarış xərclərinin ödənilməsini borcludan tələb etmək hüququna malikdir.

27.9. Borclunun və ya onun əmlakının axtarılmasından imtina olunması və axtarış xərclərinin tutulması barədə məhkəmə icraçısının qərarından tərəflər onun surətini aldıqdan sonra 10 gün müddətində müvafiq məhkəməyə şikayət verə bilərlər.

## II FƏSİL

## İcraatda iştirak edən şəxslər

### Maddə 28.
### İcraatda tərəflər

28.1. İcra sənədi üzrə icraatda yalnız yetkinlik yaşına çatmış və tam fəaliyyət qabiliyyəti olan şəxs iştirak edə bilər.

28.2. İcraatda tərəflər tələbkar və borcludur.

28.3. Xeyrinə və ya maraqlarına uyğun olan icra sənədi verilmiş fiziki və ya hüquqi şəxs tələbkar sayılır.

28.4. İcra sənədinə əsasən müəyyən hərəkətləri etməli (icra sənədində göstərilmiş pul vəsaitini və başqa əmlakı verməli, digər vəzifələri yerinə yetirməli və ya qadağalara əməl etməli) olan və yaxud müəyyən hərəkətləri etməkdən çəkinməli olan fiziki və ya hüquqi şəxs borclu sayılır.

28.5. İcraatda bir neçə tələbkar və ya borclu iştirak edə

bilər. Bu zaman onlardan hər biri digər tərəfə münasibətdə icraatda müstəqil iştirak edir və ya icraatda iştirak etməyi iştirakçılardan birinə tapşıra bilər.

**Maddə 29.**
**İcraatda tərəflərin hüquq və vəzifələri**

29.1. Tərəflər icraat materialları ilə tanış olmaq, onlardan çıxarışlar etmək, onların surətini çıxarmaq, əlavə materiallar təqdim etmək, vəsatət vermək, icra hərəkətlərinin həyata keçirilməsində iştirak etmək və bu zaman şifahi və yazılı izahatlar vermək, icraatın gedişində meydana çıxan bütün məsələlər üzrə öz dəlil və mülahizələrini bildirmək, icraatda iştirak edən digər şəxslərin vəsatətlərinə, dəlil və mülahizələrinə etiraz etmək, məhkəmə icraçısına etiraz etmək və onun hərəkətlərindən (hərəkətsizliyindən) şikayət vermək hüquqlarına malikdirlər.

29.2. İcra hərəkətlərinin həyata keçirilməsi zamanı tərəflər məhkəmə və digər orqanların qərarlarının icrası haqqında Azərbaycan Respublikası qanunvericiliyinin tələblərini yerinə yetirməyə borcludurlar.

**Maddə 30.**
**Yetkinlik yaşına çatmayan və ya tam fəaliyyət qabiliyyəti olmayan şəxslərin icraatda iştirakı**

30.1. İcra sənədləri üzrə icraatda yetkinlik yaşına çatmayan və ya tam fəaliyyət qabiliyyəti olmayan şəxslərin hüquqları onların qanuni nümayəndələri-valideynləri, övladlığa götürənlər, qəyyum və ya himayəçiləri tərəfindən həyata keçirilir.

30.2. Yetkinlik yaşına çatmayan 16 yaşından 18 yaşınadək şəxslər tam fəaliyyət qabiliyyətli hesab edildikləri halda, icra sənədləri üzrə icraatda müstəqil olaraq iştirak edə bilərlər.

30.3. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda yetkinlik yaşına çatmayan 16 yaşından 18 yaşınadək şəxslər mülki, ailə, əmək və inzibati hüquq münasibətlərindən, habelə əmək haqqı (gəlirlər) üzərində sərəncam verməklə əlaqədar əqdlərdən əmələ gələn işlər üzrə öz hüquqlarını və qanunla qorunan mənafelərini icra sənədi üzrə icraatda şəxsən müdafiə etmək hüququna malikdirlər.

**Maddə 31.**
**İcraatda vərəsəlik və ya hüquq varisliyi**

İcraat zamanı tərəflərdən biri sıradan çıxdıqda (fiziki şəxs öldükdə, hüquqi şəxs yenidən təşkil edildikdə, tələb güzəşt edildikdə, borc köçürüldükdə) məhkəmə icraçısı qərar qəbul edərək, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada həmin tərəfi onun vərəsəsi və ya hüquq varisi ilə əvəz edir. Vərəsə və hüquq varisi icraata daxil olanadək həyata keçirilmiş bütün hərəkətlər, onun əvəz etdiyi şəxs üçün məcburi olduğu kimi, vərəsə və ya hüquq varisi üçün də eyni dərəcədə məcburidir.

**Maddə 32.**
**İcraatda tərəflərin nümayəndələrinin iştirakı**

32.1. Fiziki şəxslər icraatda şəxsən və ya nümayəndələri vasitəsilə iştirak edə bilərlər. Fiziki şəxsin icraatda şəxsən iştirakı onu həmin iş üzrə nümayəndəyə malik olmaq hüququndan məhrum etmir. İcra sənədi ilə borclunun üzərinə

onun şəxsən icra etməli olduğu vəzifələr qoyulduqda, borclu həmin vəzifələri öz nümayəndəsi vasitəsilə yerinə yetirə bilməz.

32.2. Hüquqi şəxslər qanunla, nizamnamə və ya əsasnamə ilə verilmiş səlahiyyət həddində hərəkət edən orqanları və ya vəzifəli şəxsləri, yaxud onların nümayəndələri vasitəsilə icraatda iştirak edirlər. Hüquqi şəxsləri təmsil edən şəxslərin, onların səlahiyyətlərini təsdiq edən sənədləri olmalıdır.

**Maddə 33.**
**Nümayəndələrin səlahiyyətlərinin rəsmiləşdirilməsi**

Nümayəndələrin səlahiyyətləri Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq rəsmiləşdirilmiş etibarnamə ilə təsdiq olunur.

**Maddə 34.**
**Nümayəndənin səlahiyyətləri**

34.1. İcraatda iştirak edən nümayəndə təmsil etdiyi şəxsin adından icraatla bağlı bütün hərəkətləri etmək hüququna malikdir.

34.2. Təmsil olunan şəxs tərəfindən verilən etibarnamədə nümayəndənin aşağıdakı hərəkətləri etmək səlahiyyəti xüsusi qeyd olunmalıdır:

34.2.1. icra sənədini təqdim etmək və geri çağırmaq;

34.2.2. səlahiyyətləri başqa şəxsə vermək;

34.2.3. məhkəmə icraçısının hərəkətlərindən (hərəkətsizliyindən) şikayət vermək;

34.2.4. tələbkarın xeyrinə qət edilmiş əmlakı, o cümlədən pulu almaq.

**Maddə 35.**
**İcraatda nümayəndə ola bilməyən şəxslər**

35.1. 18 yaşına çatmamış, yaxud məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyətsiz şəxslər icraatda nümayəndə ola bilməzlər.

35.2. Hakimlər, müstəntiqlər, prokurorlar, məhkəmə icraçıları və nəzarətçiləri, habelə məhkəmə aparatı işçiləri icraatda nümayəndə ola bilməzlər. Bu qayda göstərilən şəxslərin icraatda qanuni nümayəndə qismində, habelə müvafiq məhkəmənin və ya prokurorluğun müvəkkili qismində iştirak etdikləri hallara şamil olunmur.

**Maddə 36.**
**Qanuni nümayəndələr**

36.1. Fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş fiziki şəxslərin hüquqlarını və qanunla qorunan mənafelərini icraatda onların qanuni nümayəndələri-valideynləri, övladlığa götürənləri, qəyyumları, himayəçiləri və qanunvericiliklə nəzərdə tutulan başqa şəxslər müdafiə edirlər. Göstərilən şəxslər öz səlahiyyətlərini təsdiq edən sənədlər təqdim etməlidirlər.

36.2. Müəyyən olunmuş qaydada xəbərsiz itkin düşmüş hesab edilmiş şəxsin əmlakının mühafizə və idarə olunması üçün təyin edilmiş qəyyum icraatda xəbərsiz itkin düşmüş şəxsin qanuni nümayəndəsi kimi iştirak edir.

36.3. Ölmüş və ya müəyyən olunmuş qaydada ölmüş elan edilmiş şəxsin varisinin iştirak etməli olduğu icraatda, vərəsəlik heç kim tərəfindən qəbul edilməmişdirsə, miras əmlakın idarə olunması üçün təyin edilmiş qəyyum varisin

qanuni nümayəndəsi kimi iştirak edir.

36.4. Qanuni nümayəndələr icraatda iştirak etməyi nümayəndə qismində seçdikləri başqa şəxsə tapşıra bilərlər.

**Maddə 37.**
**İcraatda tərcüməçilərin iştirakı**

37.1. Tərəflər icra hərəkətlərinin həyata keçirilməsi zamanı tərcüməçi dəvət edə bilərlər. 18 yaşına çatmış, tam fəaliyyət qabiliyyətli, dilləri mükəmməl bilən və tərcümə üçün zəruri biliyə malik olan hər hansı bir şəxs tərcüməçi ola bilər.

37.2. Tərcüməçinin xidmətlərinə ehtiyacı olan şəxsə onu dəvət etmək üçün müddət verilir. Həmin şəxs məhkəmə icraçısının müəyyən etdiyi müddətdə tərcüməçinin iştirakını təmin edə bilmədikdə, tərcüməçi məhkəmə icraçısının qərarı ilə təyin edilir.

37.3. Tərcüməçi icraat zamanı gördüyü iş üçün haqq almaq hüququna malikdir. Tərcüməçiyə ödənilən haqq icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclərə aid edilir.

37.4. Bilə-bilə səhv tərcüməyə görə tərcüməçi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır və bu barədə ona məhkəmə icraçısı tərəfindən əvvəlcədən xəbərdarlıq edilir.

**Maddə 38.**
**İcraatda hal şahidlərinin iştirakı**

38.1. Borclunun əmlakına baxış keçirilməsi, onun əmlakının həbsi, müsadirəsi və yaxud başqasına verilməsi,

habelə borclunun və ya başqa şəxslərin tutduğu, yaxud borcluya və ya başqa şəxslərə məxsus binaların və anbarların açılması ilə bağlı həyata keçirilən icra hərəkətlərində hal şahidlərinin iştirakı məcburidir.

38.2. Digər hallarda hal şahidləri maraqlı tərəfin təklifinə əsasən məhkəmə icraçısı tərəfindən dəvət olunurlar.

38.3. İcraatın iştirakçıları ilə qohumluq və tabeçilik əlaqələrində olmayan, tam fəaliyyət qabiliyyətli 18 yaşına çatmış hər bir vətəndaş hal şahidi qismində dəvət oluna bilər. Hal şahidlərinin sayı ikidən az ola bilməz.

**Maddə 39.**
**Hal şahidlərinin hüquq və vəzifələri**

39.1. Hal şahidi iştirak etdiyi icra hərəkətləri faktını, bu hərəkətlərin məzmun və nəticələrini müvafiq icra hərəkəti aktında öz imzası ilə təsdiq etməlidir. Hal şahidinin hansı icra hərəkətlərinin həyata keçirilməsində iştirak etmək üçün dəvət olunduğunu, bu hərəkətlərin hansı icra sənədi əsasında həyata keçirildiyini bilmək, habelə həyata keçirilən icra hərəkətlərinə dair iradlarını bildirmək hüququ vardır. Hal şahidinin iradları onun özü və ya məhkəmə icraçısı tərəfindən müvafiq icra hərəkətləri aktında qeyd olunur.

39.2. İcra hərəkətləri başlanmamışdan əvvəl məhkəmə icraçısı tərəfindən hal şahidinə onun hüquq və vəzifələri izah edilir.

39.3. İcra hərəkətlərində iştirakla əlaqədar hal şahidlərinin çəkdikləri xərclərin əvəzinin ödənilməsi hüququ vardır. Həmin xərclər icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclərə aid edilir.

**Maddə 40.**
**İcraatda mütəxəssislərin iştirakı**

40.1. İcra hərəkətlərinin həyata keçirilməsi zamanı xüsusi biliklər tələb edən məsələləri izah etmək üçün məhkəmə icraçısı öz təşəbbüsünə və ya tərəflərin ərizəsinə əsasən mütəxəssis, zərurət olduqda isə bir neçə mütəxəssis dəvət edir və bu barədə məhkəmə icraçısı tərəfindən müvafiq qərar qəbul olunur.

40.2. Mütəxəssis məhkəmə icraçısının çağırışı üzrə gəlməyə, məhkəmə icraçısının və tərəflərin verdiyi suallara cavab verməyə, şifahi və yazılı məsləhətlər və izahatlar verməyə, zəruri hallarda məhkəmə icraçısına texniki kömək göstərməyə borcludur. Mütəxəssis icraat zamanı gördüyü iş üçün haqq almaq hüququna malikdir. Mütəxəssisə ödənilən haqq icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclərə aid edilir.

**Maddə 41.**
**Məhkəmə icraçıları ilə müvafiq icra hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyəti**

İcra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı məhkəmə icraçılarına maneçilik törədildikdə və ya onların həyat və sağlamlıqları üçün təhlükə yarandıqda, müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətlər daxilində məhkəmə icraçılarına kömək göstərməyə borcludur.

**Maddə 42.**

**İcraat zamanı məhkəmə icraçısına, tərcüməçiyə və mütəxəssisə etiraz etmə**

42.1. Məhkəmə icraçısı, tərcüməçi və ya mütəxəssis tərəflərdən birinin və ya onun nümayəndəsinin birbaşa qohumudursa, yaxud icraatın nəticəsində maraqlıdırsa, yaxud onların obyektivliyinə və qərəzsizliyinə şübhə doğuran kifayət qədər əsaslar vardırsa, onlar icraatda iştirak edə bilməzlər. Bu halda məhkəmə icraçısı, tərcüməçi və mütəxəssis özü-özünə etiraz etməyə borcludur. İcraatda iştirak edən tələbkar və ya borclu da həmin əsaslar üzrə məhkəmə icraçısına, tərcüməçiyə və mütəxəssisə etiraz edə bilərlər.

42.2. Etiraz əsaslandırılmalı, yazılı formada ifadə olunmalı və icra hərəkətlərinin həyata keçirilməsinə başlanmazdan əvvəl bəyan edilməlidir.

42.3. Məhkəmə icraçısına etirazetmə haqqında məsələ məhkəmə icraçıları qurumunun rəhbəri tərəfindən həll edilir.

42.4. Tərcüməçiyə və ya mütəxəssisə etirazetmə haqqında məsələ məhkəmə icraçısı tərəfindən həll edilir. Bu barədə məhkəmə icraçısı tərəfindən əsaslandırılmış qərar qəbul edilir və həmin qərar məhkəmə icraçıları qurumunun rəhbəri tərəfindən yoxlanılaraq təsdiq olunur.

42.5. Məhkəmə icraçısına etiraz təmin edildikdə, onun icraatında olan icra sənədləri məhkəmə icraçıları qurumunun rəhbəri tərəfindən digər məhkəmə icraçısına verilir.

42.6. Məhkəmə icraçısına etiraz təmin edilmədikdə, tərəflər bu barədə qərarın surətini aldıqdan sonra 10 gün müddətində müvafiq məhkəməyə şikayət verə bilərlər.

## III FƏSİL

### Məcburi icra tədbirləri və onların tətbiqinin əsasları

**Maddə 43.**
**Məcburi icra tədbirləri**

43.1. Məcburi icra tədbirləri aşağıdakılardır:

43.1.1. borclunun əmlakı üzərinə həbs qoymaq və onu satmaq yolu ilə tələbin əmlaka yönəldilməsi;

43.1.2. tələbin borclunun əmək haqqına, pensiyasına, təqaüdünə və sair gəlirlərinə yönəldilməsi;

43.1.3. tələbin borclunun üçüncü şəxslərdə olan pul vəsaitlərinə və digər əmlakına yönəldilməsi;

43.1.4. icra sənədində göstərilmiş müəyyən əşyaların borcludan götürülüb tələbkara verilməsi;

43.1.5. bu Qanuna və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun olaraq icra sənədinin icrasını təmin edən başqa tədbirlər.

**Maddə 44.**
**Məcburi icra tədbirlərinin tətbiqinin əsasları**

44.1. Məcburi icra tədbirlərinin tətbiqinin əsasları aşağıdakılardır:

44.1.1. bu Qanunla müəyyən edilmiş qaydada tərtib olunmuş icra sənədinin məhkəmə icraçısına təqdim olunması;

44.1.2. məhkəmə icraçısı tərəfindən icraata başlamaq haqqında qərarın qəbul edilməsi;

44.1.3. könüllü icra üçün məhkəmə icraçısı tərəfindən borcluya verilmiş müddətin keçməsi.

44.2. Bu Qanunun 44.1-ci maddəsində müəyyən edilmiş əsaslardan hər hansı biri olmadıqda məcburi icra tədbirlərinin tətbiqinə yol verilmir.

## IV FƏSİL

## Tələbin borclunun əmlakına yönəldilməsi

### Maddə 45.
### Tələbin borclunun pul vəsaitlərinə və başqa əmlakına yönəldilməsi qaydası

45.1. Tələbin borclunun əmlakına yönəldilməsi bu əmlakın üzərinə həbs qoyulmasından, götürülməsindən və satılmasından ibarətdir.

45.2. İcra sənədləri üzrə tələb ilk növbədə borclunun manatla və xarici valyuta ilə, o cümlədən, banklarda və digər kredit təşkilatlarında olan pul vəsaitlərinə və başqa sərvətlərinə yönəldilir. Borcluda aşkar edilən nağd pul vəsaitləri götürülür.

45.3. Borclunun banklarda və digər kredit təşkilatlarında hesablarda və əmanətlərdə, habelə saxlancda pul vəsaitlərinin və başqa sərvətlərinin olması barədə məlumat olduqda, onların üzərinə həbs qoyulur.

45.4. Borclu hüquqi şəxsin banklarda və digər kredit təşkilatlarında hesabları və əmanətləri barədə məlumat olmadıqda, məhkəmə icraçısı belə məlumatları vergi orqanlarından tələb edir.

Vergi orqanları tələb olunan məlumatları 3 gün müddətində

məhkəmə icraçısına təqdim etməlidirlər.

45.5. Tələbkarın tələblərinin təmin edilməsi üçün borclunun manatla yetərli pul vəsaitləri olmadıqda, tələb borclunun xarici valyutada olan pul vəsaitlərinə yönəldilir.

45.6. Tələbkarın tələblərinin təmin edilməsi üçün borclunun yetərli pul vəsaitləri olmadıqda, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq tələbin yönəldilə bilmədiyi əmlak istisna olmaqla, tələb borcluya məxsus olan digər əmlaka yönəldilir.

Borclu tələbin birinci növbədə hansı əmlaka və əşyalara yönəldilməsini məhkəmə icraçısına bildirmək hüququna malikdir. Borclunun belə müraciəti icra sənədinin icrasına mane olmursa, məhkəmə icraçısı onu təmin etməyə borcludur.

45.7. Tələb, borclunun əmlakına, o cümlədən nağd, yaxud banklarda və ya digər kredit təşkilatlarında hesablarda və əmanətlərdə, habelə saxlancda olan pul vəsaitlərinə və başqa sərvətlərinə, icra ödənişinin ödənilməsi və icra hərəkətlərinin həyata keçirilməsi üçün çəkilən xərclər də nəzərə alınmaqla, icra sənədinin icrası üçün lazım olan miqdarda və həcmdə yönəldilir.

45.8. Borclunun ümumi mülkiyyətdə əmlakı olduqda, tələb Azərbaycan Respublikasının mülki qanunvericiliyinə uyğun olaraq onun ümumi mülkiyyətdə olan payına yönəldilir.

**Maddə 46.**

**Tələbin borclunun xarici valyutada olan pul vəsaitlərinə yönəldilməsi**

46.1. Borcludan götürülmüş xarici valyutada olan pul vəsaitlərini məhkəmə icraçısı bir gün müddətində satılmaq

üçün Azərbaycan Respublikasında xarici valyuta satmaq hüququ olan banka və ya digər kredit təşkilatına verir.

46.2. Məhkəmə icraçısı borclunun Azərbaycan Respublikasında xarici valyuta satmaq hüququ olan banklarda və ya başqa kredit təşkilatlarında hesablarda və əmanətlərdə, habelə saxlancda olan xarici valyuta ilə pul vəsaitləri üzərinə həbs qoyur və öz qərarı ilə xarici valyutanın bu Qanunun 45.7-ci maddəsində nəzərdə tutulmuş həcmdə satışını həmin banka və ya digər kredit təşkilatına həvalə edir.

46.3. Borclunun xarici valyutada olan pul vəsaitləri Azərbaycan Respublikasında xarici valyuta satmaq hüququ olmayan banklarda və ya digər kredit təşkilatlarında hesablarda və əmanətlərdə, habelə saxlancda olduqda, məhkəmə icraçısı həmin pul vəsaitlərinin belə hüququ olan banka və ya digər kredit təşkilatına köçürülməsini onların öhdəsinə qoyur.

46.4. Bank və ya digər kredit təşkilatı məhkəmə icraçısının bu Qanunun 46.2-ci və 46.3-cü maddələri ilə nəzərdə tutulmuş qərarını onun daxil olduğu vaxtdan 7 gün müddətində yerinə yetirir.

46.5. Xarici valyutanın satışından əldə olunmuş manatla pul vəsaitləri bu Qanunun 56.2-ci maddəsində nəzərdə tutulmuş qaydada bölüşdürülür. Tələbkar icra sənədi üzrə tutulmuş məbləği şəxsən almaq istəyən fiziki şəxsdirsə, bu məbləğ məhkəmə icraçıları qurumunun depozit hesabına köçürülür.

46.6. Məhkəmə icraçısının bu Qanunun 46-cı maddəsi ilə nəzərdə tutulmuş qərarlarından tərəflər onların surətlərini aldıqdan sonra 3 gün müddətində müvafiq məhkəməyə şikayət verə bilərlər.

**Maddə 47.**

**Tələbin borclunun üçüncü şəxslərdə olan əmlakına yönəldilməsi**

47.1. Tələbin borclunun üçüncü şəxslərdə olan əmlakına yönəldilməsi, üçüncü şəxslərin mənzilinə daxil olma, orada baxış keçirmə, saxlama yerlərini açma və baxma məhkəmənin qərardadı əsasında həyata keçirilir.

47.2. Borclunun üçüncü şəxslərdə olan əmlakına həbs qoyulması yalnız məhkəmənin qərardadı əsasında həyata keçirilir.

**Maddə 48.**

**Tələbin girov qoyulmuş əmlaka yönəldilməsi**

48.1. Tələbin tam təmin edilməsi üçün borclunun başqa əmlakı kifayət etmədikdə, tələb girov qoyulmuş əmlaka yönəldilə bilər. Bu zaman girovsaxlayanın Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə nəzərdə tutulmuş hüquqlarına, habelə bu Qanunun 5-ci fəslində müəyyən edilmiş qaydalara əməl olunmalıdır.

48.2. Girov qoyulmuş əmlak girovsaxlayanda olduqda, o, özünün tələbinə nisbətən üstün olan digər tələbləri həmin əmlakın dəyərindən çox olmayan həcmdə təmin etməyə borcludur.

**Maddə 49.**

**Tələbin yönəldilməsinə yol verilməyən əmlak**

49.1. Fiziki şəxslər barəsində icra sənədi icra olunarkən, borclu və onun ailə üzvləri üçün zəruri olan ərzaq məhsullarına, daimi istifadə edilən qab-qacağa və mətbəx

ləvazimatına, digər ilk zərurət əşyalarına, habelə ixtisas üzrə kitablara və peşə fəaliyyəti ilə məşğul olmaq üçün avadanlığa tələb yönəldilə bilməz.

49.2. Fiziki şəxslər barəsində icra sənədləri icra olunarkən, dəqiq siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş əmlak növlərinə tələbin yönəldilməsinə yol verilmir.

**Maddə 50.**
**Borclunun əmlakı üzərinə həbs qoyulması**

50.1. İcraata başlamaq haqqında qərar borcluya təqdim olduğu gündən ən geci 1 ay müddətində, zəruri hallarda isə, qərarın təqdim olunması ilə eyni vaxtda borclunun əmlakı üzərinə həbs qoyulur.

50.2. Borclunun əmlakı üzərinə həbs qoyulması əmlakın siyahıya alınmasından, həmin əmlak üzərində sərəncam vermək hüququnun qadağan olunmasından, zəruri hallarda isə, əmlakdan istifadə hüququnun məhdudlaşdırılmasından, onun götürülməsindən və ya saxlanmaq üçün verilməsindən ibarətdir.

İcra sənədi icraya yönəldilənə qədər borclunun əmlakına həbs qoyulmayıbsa və ya icra sənədinin icrası zamanı tələbin borclunun əmlakına yönəldilməsi hallarında əmlak üzərinə həbs, bir qayda olaraq, məhkəmə icraçısının əsaslandırılmış təqdimatına əsasən məhkəmənin qərardadı ilə qoyulur. Təxirəsalınmaz hallarda borclu tərəfindən əmlakın məhv edilməsini, zədələnməsini, korlanmasını, gizlədilməsini və ya özgəninkiləşdirilməsini güman etməyə əsas verən dəqiq məlumat olduqda, məhkəmə icraçısı məhkəmənin qərarı olmadan da əmlakın üzərinə həbs qoya bilər. Məhkəmə icraçısı

24 saat ərzində bu barədə icra üzrə nəzarəti həyata keçirən məhkəməyə məlumat verməlidir.

50.3. Borclunun əmlakı üzərində sərəncam vermək hüququna və ya borclunun əmlakından istifadə etmək hüququna məhkəmə icraçısı tərəfindən qoyulmuş məhdudiyyətlərə əməl olunmaması Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

50.4. Borclunun əmlakı üzərinə aşağıdakı hallarda həbs qoyulur:

50.4.1. tələbkara verilməsi və ya satılması nəzərdə tutulan əmlakın mühafizəsini təmin etmək üçün;

50.4.2. borclunun əmlakının müsadirəsi haqqında məhkəmə qərarının icrasını təmin etmək üçün.

50.5. Üzərinə həbs qoyulduğu vaxtdan beş gündən tez, lakin bir aydan gec olmayaraq, borclunun əmlakı məhkəmə icraçısı tərəfindən satılmağa verilməsi üçün götürülür. Əmlak götürülənə qədər borclu, məhkəmə icraçısının nəzarəti altında onu sata bilər.

50.6. Konkret şəraitdən asılı olaraq, məhkəmə icraçısı əmlak üzərinə həbs qoyulması ilə eyni vaxtda borclunun əmlakını və ya onun ayrı-ayrı əşyalarını (iddia tələbinin həddini aşmamaq şərti ilə) götürmək hüququna malikdir.

Tez xarab olan şeylər dərhal götürülür və satılmağa verilir.

50.7. Üzərinə həbs qoyulmuş əmlak siyahıya alınarkən, borcluda aşkar edilmiş pul vəsaitləri (manatla və xarici valyutada), qiymətli metallar və qiymətli daşlar, onlardan hazırlanmış məmulatlar, habelə onların qırıntıları və tullantıları məcburi qaydada götürülür və müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada

saxlanılır.

Götürülmüş digər əşyalar mümkün olduqda qablaşdırılır, möhürlənir və mühafizə altında saxlanılması üçün müvafiq dövlət orqanının nümayəndəsinə qanunla nəzərdə tutulmuş məsuliyyət haqqında xəbərdarlıq edilməklə təhvil verilir. Üzərinə həbs qoyulmuş daşınmaz əmlak və götürülməsi mümkün olmayan iri həcmli əmlak möhürlənir və borcludan, yaxud onun yetkinlik yaşına çatmış ailə üzvündən iltizam alınmaqla həmin əmlakın özgəninkiləşdirilməsi, korlanması və məhv edilməsinə görə qanunla nəzərdə tutulmuş məsuliyyət haqqında xəbərdarlıq edilir və saxlanılması üçün onlara verilir.

Götürülən əmlakın müvafiq olaraq miqdarı, ölçüsü, çəkisi, hansı materialdan hazırlanması və digər xüsusi əlamətləri göstərilməklə əmlak üzərinə həbs qoyulması haqqında məhkəmə icraçısı tərəfindən protokol tərtib edilir. Protokolda həmin məlumatlar ətraflı təsvir edilir. Protokol məhkəmə icraçısı, hal şahidləri, borclu, yaxud onun yetkinlik yaşına çatmış ailə üzvü tərəfindən imzalanır.

50.8. Əmlakın borclu tərəfindən gizlədildiyini güman etməyə əsas olduqda məhkəmə icraçısı məhkəmənin qərarı əsasında axtarış (saxlama yerlərini açmaq və baxmaq) apara bilər. Məhkəmə icraçısı axtarışı icra sənədlərinin icra edilməsi üzrə icraatın xüsusiyyətlərini nəzərə almaqla, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 242-245-ci və 247-ci maddələrinin tələblərinə uyğun olaraq həyata keçirir.

50.9. Məhkəmələrin cinayət işləri üzrə hökmlərinin, qərardadlarının və qərarlarının əmlakın alınmasına dair hissəsi icra olunarkən əmlak üzərinə həbs qoyulması

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 248-254-cü maddələrində müəyyən olunmuş qaydada həyata keçirilir.

50.10. İcra sənədinin icrası ilə əlaqədar götürülmüş qiymətli kağızların saxlanması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 51.**
**Borclunun əmlakının qiymətləndirilməsi**

51.1. Borclunun əmlakının qiymətləndirilməsi, tənzimlənən qiymətlərin tətbiq olunduğu hallar istisna olmaqla, «Qiymətləndirmə fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq qiymətləndirici tərəfindən həyata keçirilir. Qiymətləndirici məhkəmə icraçısı tərəfindən dəvət olunur.

51.2. Qiymətləndiricinin xidmətlərindən istifadə olunması ilə bağlı xərclər bərabər həcmdə tərəflərin üzərinə qoyulur.

51.3. Notariusun icra qeydi əsasında ipoteka kreditinə tələb yönəldikdə, müstəqil qiymətləndiricinin xidmətlərindən istifadə olunması ilə bağlı xərclər ipoteka saxlayan tərəfindən ödənilir.

**Maddə 52.**
**Borclunun əmlakının saxlanılması**

52.1. Borclunun əmlakı saxlanmaq üçün onun özünə və ya məhkəmə icraçısı tərəfindən təyin olunmuş digər şəxslərə (bundan sonra-saxlayıcıya) verilir. Əmlakı saxlamaq üçün qəbul edən saxlayıcıdan bu barədə qəbz alınır. Əmlakdan istifadə olunması onun məhvinə və ya dəyərinin azalmasına

səbəb olmadıqda, saxlayıcı həmin əmlakdan istifadə edə bilər.

52.2. Saxlayıcı borclunun özü və ya onun ailə üzvü (borclu hüquqi şəxs olduqda-onun işçisi) deyildirsə, əmlakın saxlanması üçün ona müvafiq haqq verilir. Bundan əlavə, saxlayıcının əmlakı saxlamaq üçün çəkdiyi xərclər, həmin əmlakdan istifadə olunmasına görə onun əldə etdiyi həqiqi fayda çıxılmaqla, ona ödənilir.

52.3. Üzərinə həbs qoyulmuş əmlakın saxlanması qaydası və şərtləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

52.4. Saxlanmaq üçün verilmiş əmlak mənimsənildikdə, israf edildikdə, özgəninkiləşdirildikdə və ya gizlədildikdə, saxlayıcı vurduğu ziyana görə əmlak məsuliyyətindən əlavə, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq cinayət məsuliyyəti də daşıyır.

**Maddə 53.**
**Üzərinə həbs qoyulmuş əmlakın satılması**

53.1. Üzərinə həbs qoyulmuş əmlak, qanunla dövriyyədən çıxarılmış və ya dövriyyəsi məhdudlaşdırılmış əmlak istisna olmaqla, həbsin səbəblərindən və əmlakın növlərindən asılı olmayaraq, Azərbaycan Respublikasının qanunvericiliyi ilə başqa hal nəzərdə tutulmamışdırsa, tələbkara təklif olunur. Tələbkar imtina etdikdə həmin əmlak tələbkarın imtina etdiyi gündən üç ay müddətində satılmalıdır.

53.2. Borclunun əmlakı, Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada əmtəə birjaları nəzdində yaradılan və bu cür əməliyyatlar aparmaq hüququna malik olan ixtisaslaşdırılmış müəssisələr tərəfindən

hərrac yolu ilə satılır.

53.3. Əmlak satılmadıqda, həmin əmlak yenidən tələbkara təklif olunur. Tələbkar əmlakdan imtina etdikdə, əmlak borcluya, icra sənədi isə icra sənədini vermiş məhkəmə və ya digər orqana qaytarılır.

**Maddə 54.**

**Bir neçə icra sənədi üzrə icraatın xüsusiyyətləri**

54.1. Məhkəmə icraçıları qurumunda eyni borclu barəsində bir neçə icra sənədi olduqda, onlar ümumi icraatda birləşdirilir. Bu zaman borclunun əmlakı üzərinə tələbin, icra ödənişinin və icra hərəkətlərinin həyata keçirilməsi üçün ehtimal olunan xərclərin ümumi məbləği həcmində, digər iddianın (iddiaların) təmin olunması üçün onun üzərinə həbs qoyulmasından asılı olmayaraq, həbs qoyulur.

54.2. Bu Qanunun 75-ci maddəsinin tətbiqi zamanı icra sənədinin icraya yönəldilməsi vaxtına görə hər növbədən olan tələbkarların tələblərinin təmin edilməsinin vahid ardıcıllığı müəyyən edilir.

54.3. Eyni borclu barəsində ayrı-ayrı məhkəmə icraçıları qurumunda bir neçə icra sənədi olduqda, bu Qanunun 54-cü maddəsinin müddəalarının yerinə yetirilməsini məhkəmə icraçıları qurumunun rəhbəri təmin edir.

54.4. Bu Qanunun 54-cü maddəsinin müddəalarının yerinə yetirilməsini təmin etmək məqsədi ilə məhkəmə icraçıları qurumunun rəhbəri tərəfindən ayrı-ayrı məhkəmə icraçıları qurumunda icra sənədləri üzrə başlanılmış icraatlara dair müvafiq məlumat bankı yaradılır.

**Maddə 55.**

**İcra sənədində göstərilmiş əşyaların tələbkara verilməsi**

Əşyaların tələbkara verilməsi icra sənədində birbaşa göstərilmişdirsə, məhkəmə icraçısı həmin əşyaları borcludan götürüb tələbkara verir və bu barədə akt tərtib edir. Tələbkar göstərilən əşyalardan imtina etdikdə, həmin əşyalar borcluya, icra sənədi isə müvafiq məhkəməyə və ya digər orqana qaytarılır.

## V FƏSİL

## Tələbin borclu hüquqi şəxsin əmlakına yönəldilməsinin xüsusiyyətləri

**Maddə 56.**

**Tələbin borclu hüquqi şəxsin pul vəsaitlərinə yönəldilməsi**

56.1. Borclu hüquqi şəxsin kassasında və ya başqa otaqlarında aşkar edilmiş nağd pul vəsaitləri (manatla və xarici valyuta ilə) götürülür.

56.2. Götürülmüş manatla pul vəsaitləri, borcun həcmi miqdarında tələbkarın hesabına, icra ödənişinin həcmi miqdarında dövlət büdcəsinə və məhkəmə nəzarətçiləri və icraçılarının xüsusi fonduna köçürülməsi üçün həmin gün banka təhvil verilir. İcra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclərin ödənilməsi üçün nəzərdə tutulmuş vəsait isə məhkəmə icraçıları qurumunun depozit hesabına köçürülür.

56.3. Borclu hüquqi şəxsin banklarda və ya digər kredit təşkilatlarında hesablarda və əmanətlərdə, habelə saxlancda olan pul vəsaitlərinin üzərinə həbs qoyulması ilə bağlı məhkəmə icraçısı bu Qanunun 45-ci maddəsində nəzərdə tutulmuş tədbirləri görür.

**Maddə 57.**

**Tələbin borclu hüquqi şəxsin digər əmlakına yönəldilməsi**

57.1. Borcun ödənilməsi üçün borclu hüquqi şəxsin pul vəsaitləri yetərli olmadıqda, tələb mülkiyyət hüququ əsasında ona məxsus olan digər əmlaka (dövriyyədən çıxarılmış və ya dövriyyəsi məhdudlaşdırılmış əmlak istisna olmaqla) yönəldilir. Həmin əmlak üzərinə həbs qoyulması və ya onunla bağlı digər icra hərəkətləri bu Qanunla nəzərdə tutulmuş qaydada həyata keçirilir.

57.2. Mülkiyyət hüququ əsasında borclu hüquqi şəxsə məxsus olan əmlakın başqa yerdə və başqa şəxsdə olması tələbin həmin əmlaka yönəldilməsinə mane olmur.

57.3. İpoteka predmetinin üzərinə tələb yönəldilməsinin xüsusiyyətləri müvafiq qanunvericiliklə müəyyən edilir.

**Maddə 58.**

**Borclu hüquqi şəxsin əmlakı üzərinə həbs qoyulması və onun satılması qaydası**

58.1. Borclu hüquqi şəxsin əmlakı üzərinə həbs qoyulması və onun satılması aşağıdakı növbəlilik üzrə həyata keçirilir:

58.1.1. birinci növbədə-istehsalda bilavasitə istifadə

edilməyən əmlak (qiymətli kağızlar, borclunun depozit və digər hesablarındakı pul vəsaitləri, valyuta sərvətləri, minik nəqliyyat vasitələri, ofislərin dizayn əşyaları və sair əmlak);

58.1.2. ikinci növbədə-hazır məhsul (əmtəə), habelə istehsalda bilavasitə istifadə edilməyən və istehsalda bilavasitə istifadə üçün nəzərdə tutulmamış digər maddi sərvətlər;

58.1.3. üçüncü növbədə-daşınmaz əmlak obyektləri, habelə istehsalda bilavasitə istifadə üçün nəzərdə tutulmuş xammal və materiallar, dəzgahlar, avadanlıqlar və digər əsas vəsaitlər;

58.1.4. dördüncü növbədə-başqa şəxslərə verilmiş əmlak.

**Maddə 59.**

**Tələbin borclu hüquqi şəxsin əmlakına yönəldilməsi zamanı icra sənədlərinin icrasının təmin edilməsi ilə bağlı tədbirlər**

59.1. Borclu hüquqi şəxsin bu Qanunun 58-ci maddəsində müəyyən edilmiş üçüncü növbədən olan əmlakının üzərinə məhkəmə icraçısı tərəfindən həbs qoyulduqda o, bu barədə həbsin qoyulduğu vaxtdan ən geci üç gün müddətində müvafiq icra hakimiyyəti orqanına bildiriş göndərir. Həmin bildirişə üzərinə həbs qoyulmuş əmlakın tərkibi və dəyəri, habelə tələbkarın tələb etdiyi məbləğ haqqında məlumat əlavə olunur.

Göstərilən bildirişin surəti dövlət büdcəsinə və büdcədənkənar dövlət fondlarına borclu hüquqi şəxs tərəfindən tədiyyələrin ödənilməsinə nəzarət edən müvafiq vergi orqanına göndərilir.

59.2. Müvafiq icra hakimiyyəti orqanının təklifinə əsasən məhkəmə icraçısı məhkəmə icraçıları qurumunun maliyyələşdirilməsi üçün ayrılmış vəsait hesabına rəsmi mətbuat orqanlarında tələbin borclu hüquqi şəxsin əmlakına yönəldilməsi haqqında məlumat dərc edir.

59.3. İqtisad məhkəməsi borclu hüquqi şəxsin iflası haqqında icraata başladıqda, icra sənədi üzrə icraat və tələbin yönəldildiyi əmlakın satılması həmin məhkəmədə işə mahiyyəti üzrə baxılanadək dayandırılır.

**Maddə 60.**

**Borclu hüquqi şəxs yenidən təşkil edildikdə və ləğv edildikdə tələbin yönəldilməsi qaydası**

60.1. Borclu hüquqi şəxs yenidən təşkil edildikdə, icra sənədləri üzrə tələb Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq borclu hüquqi şəxsin öhdəlikləri üzrə məsuliyyət daşıyan hüquqi şəxsin pul vəsaitlərinə və digər əmlakına yönəldilir.

60.2. Borclu hüquqi şəxs ləğv edildikdə, məhkəmə icraçısında olan icra sənədləri icra olunması üçün ləğvetmə komissiyasına təqdim olunur və bu barədə məhkəmə icraçısı tərəfindən tələbkara məlumat verilir.

**Maddə 61.**

**Hərracların hazırlanması və keçirilməsi**

61.1. Borclunun əmlakının satılması üzrə hərraclar, bu Qanunun 53.2-ci maddəsində göstərilən ixtisaslaşdırılmış müəssisələr tərəfindən müvafiq müqavilə əsasında təşkil edilir və keçirilir.

61.2. İxtisaslaşdırılmış müəssisələr hərracı məhkəmə icraçısının sifarişi əsasında keçirirlər. Həmin sifarişdə hərraca qoyulan əmlakın ilkin qiyməti göstərilir.

61.3. Sifarişə aşağıdakılar əlavə edilir:

61.3.1. icra sənədinin surəti;

61.3.2. əmlak üzərinə həbs qoyulması haqqında məhkəmə icraçısı tərəfindən tərtib edilmiş aktın surəti;

61.3.3. daşınmaz əmlak satıldıqda, həmin əmlaka dair sənədlər;

61.3.4. ayrıca tikili satıldıqda, həmin tikilinin yerləşdiyi torpaq sahəsindən istifadə hüququnu və ya həmin torpaq sahəsi üzərində mülkiyyət hüququnu təsdiq edən sənədlərin surəti.

61.4. Uzunmüddətli icarə hüququ hərraca çıxarıldıqda, bu Qanunun 61.3.1.-61.3.4-cü maddələrində göstərilən sənədlərə məhkəmə icraçısı tərəfindən aşağıdakılar da əlavə edilir:

61.4.1. icarə müqaviləsinin surəti;

61.4.2. icarə müqaviləsinin qeydiyyatını təsdiq edən sənədin surəti;

61.4.3. tələbin uzunmüddətli icarə hüququna yönəldilməsinə icarəyə verənin razılığını təsdiq edən sənədin surəti və ya icarəçi icarə hüququnu hərrac nəticəsində əldə etdikdə, uzunmüddətli icarə hüququnun icarəçiyə keçməsini təsdiq edən sənədin surəti.

61.5. Tikintisi başa çatmamış obyekt üzərində hüquq satıldıqda, bu Qanunun 61.3.1-61.3.4-cü maddələrində göstərilən sənədlərə məhkəmə icraçısı tərəfindən aşağıdakılar da əlavə edilir:

61.5.1. torpaq sahəsinin ayrılması haqqında qərarın surəti;

61.5.2. tikintiyə razılığın verilməsi barədə sənədin surəti.

61.6. Vergi ödəyicisinin siyahıya alınmış əmlakının qanunvericiliklə müəyyən edilmiş qaydada ixtisaslaşdırılmış açıq hərraclarda satılması zamanı məhkəmə icraçısının sifarişinə əlavə edilən sənədlər Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilir.

**Maddə 62.**
**Hərracın keçirilməsi müddətləri və qaydası**

62.1. Məhkəmə icraçısından müvafiq sifarişin alındığı gündən ən geci iki ay müddətində ixtisaslaşdırılmış müəssisələr tərəfindən hərrac keçirilməlidir.

62.2. Hərracın keçirilməsi qaydası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

VI fəsil. Tələbin borclunun əmək haqqına və digər gəlirlərinə yönəldilməsi

**Maddə 63.**
**Tələbin borclunun əmək haqqına və digər gəlirlərinə yönəldilməsi**

63.1. Tələbin borclunun əmək haqqına və digər gəlirlərinə yönəldilməsinə aşağıdakı hallarda yol verilir:

63.1.1. vaxtaşırı ödəmələrin tutulması haqqında icra sənədləri icra edildikdə;

63.1.2. icra sənədində göstərilən tələb üzrə tutulmalı olan məbləğin həcmi bu Qanunun 65-ci maddəsində müəyyən edilmiş miqdardan artıq olmadıqda;

63.1.3. tələbin tam ödənilməsi üçün borclunun əmlakı olmadıqda və ya onun əmlakı kifayət etmədikdə.

**Maddə 64.**

**Borclunun əmək haqqından və digər gəlirlərindən tutulan məbləğin hesablanması**

Borclunun əmək haqqından və digər gəlirlərindən tutulan məbləğin (tutmanın) miqdarı, vergilər tutulduqdan sonra qalan məbləğdən hesablanır.

**Maddə 65.**

**Borclunun əmək haqqından və digər gəlirlərindən tutulan məbləğin miqdarı**

65.1. İcra sənədi icra edilərkən borclunun əmək haqqından və ona bərabər sayılan digər gəlirlərindən tutmaların məbləği 50 faizdən çox ola bilməz.

65.2. Tələb, bir neçə icra sənədi üzrə borclunun əmək haqqına və ona bərabər sayılan digər gəlirlərinə yönəldildikdə, qazancın 50 faizi borcluda qalmalıdır.

65.3. Alimentlərin tutulması, sağlamlığa vurulmuş ziyanın ödənilməsi, ailəni dolandıranın itkisi nəticəsində zərər çəkmiş şəxslərə vurulmuş ziyanın ödənilməsi və cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsi zamanı bu Qanunun 65.1-ci və 65.2-ci maddələri ilə müəyyən edilmiş məhdudiyyətlər tətbiq edilmir.

Belə hallarda əmək haqqından və ona bərabər sayılan digər gəlirlərdən tutmaların məbləği 70 faizdən çox ola bilməz.

65.4. Tələbin borclunun təqaüdünə, pensiyasına, müəlliflik və əlaqəli hüquqlardan istifadəyə görə müəlliflik

mükafatlarına yönəldildiyi hallarda da bu Qanunun 65-ci maddəsi ilə müəyyən edilmiş qaydalar tətbiq edilir.

**Maddə 66.**

**Tələbin cəza çəkən və ya barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş borclunun qazancına yönəldilməsi**

66.1. Tələb, islah işləri növündə cəza çəkən məhkumların qazancına, məhkəmənin hökmünə və ya qərardadına əsasən tutulan məbləğlər çıxıldıqdan sonra, bu Qanunun 64-cü və 65-ci maddələri ilə müəyyən edilmiş qaydada yönəldilir.

66.2. Tələb, cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumların qazancına bu Qanunun 64-cü və 65-ci maddələri ilə müəyyən edilmiş qaydada yönəldilir.

**Maddə 67.**

**Tələbin sosial sığorta üzrə, habelə işsizliyə görə müavinətlərə yönəldilməsi**

Tələb, sosial sığorta üzrə, habelə işsizliyə görə müavinətlərə yalnız məhkəmənin qərarına, alimentlərin tutulmasına dair məhkəmə əmrinə, yaxud alimentlərin ödənilməsi haqqında notariat qaydasında təsdiq edilmiş sazişlərə və ya sağlamlığa vurulmuş ziyanın ödənilməsi haqqında və ailəni dolandıranın itkisi nəticəsində zərər çəkmiş şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında məhkəmənin qərarına əsasən yönəldilir.

**Maddə 68.**
**Tələbin yönəldilməsinə yol verilməyən pul məbləğləri**

68.1. Tələb, borcluya ödənilən aşağıdakı pul məbləğlərinə yönəldilə bilməz:

68.1.1. sağlamlığa vurulmuş ziyana görə, habelə ailəni dolandıranın itkisi nəticəsində zərər çəkmiş şəxslərə vurulmuş ziyana görə ödənilən məbləğlərə;

68.1.2. xidməti vəzifəsini yerinə yetirərkən xəsarət almış şəxslərə, həmin şəxslər həlak olduqda (öldükdə) isə onların ailə üzvlərinə ödənilən məbləğlərə;

68.1.3. uşağın doğulması ilə əlaqədar; çoxuşaqlı analara; tənha ata və ya anaya; pensiyaçılara, birinci qrup əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara qulluğa görə; sağlamlığa vurulmuş ziyan nəticəsində zərər çəkmiş şəxslərə əlavə qidaya, protezləşdirməyə, sanatoriya-kurort müalicəsinə, habelə həmin şəxslərə qulluğa görə ödənilən məbləğlərə;

68.1.4. ağır və zərərli əmək şəraitində işə görə ödənilən məbləğlərə;

68.1.5. işdənçıxarma müavinətinin məbləğinə;

68.1.6. aliment öhdəlikləri üzrə ödənilən məbləğlərə;

68.1.7. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər məbləğlərə.

**Maddə 69.**
**Alimentlərin tutulması və aliment öhdəlikləri üzrə borcların ödənilməsi qaydası**

Alimentlərin tutulması və aliment öhdəlikləri üzrə borcların ödənilməsi qaydası Azərbaycan Respublikasının Ailə Məcəlləsi ilə müəyyən edilir.

## VII FƏSİL

## Digər mübahisələr üzrə icra sənədlərinin icraçısı

### Maddə 70.
### Borclunu müəyyən hərəkətləri etməyə və ya müəyyən hərəkətləri etməkdən çəkinməyə məcbur edən icra sənədlərinin icrasının ümumi şərtləri

70.1. Borclunu müəyyən hərəkətləri etməyə və ya müəyyən hərəkətləri etməkdən çəkinməyə məcbur edən icra sənədi üzrə icraata başladıqdan sonra, məhkəmə icraçısı bu Qanunun 8-ci maddəsinə uyğun olaraq icra sənədində göstərilmiş hərəkətlərin borclu tərəfindən könüllü icrası üçün müddət təyin edir.

70.2. İşə bərpa etmək haqqında icra sənədi dərhal icra edilir. Qanunsuz olaraq işdən çıxarma və ya başqa işə keçirmə haqqında sərəncamın ləğv olunması barədə müdiriyyətin müvafiq əmrindən sonra işçinin əvvəlki vəzifələrini yerinə yetirməyə başladığı andan icra sənədi icra olunmuş hesab edilir.

70.3. Bu Qanunun 70.1-ci və 70.2-ci maddələri ilə nəzərdə tutulmuş tələblər borclu tərəfindən üzrsüz səbəblərdən yerinə yetirilmədikdə, məhkəmə icraçısı borclu barəsində bu Qanunun 82-ci maddəsi ilə müəyyən edilmiş tədbirləri görür və icra sənədinin icrası üçün yeni müddət təyin edir.

70.4. İcra sənədinin icrası mümkün olmadıqda, məhkəmə icraçısı icra sənədinin məhkəməyə və ya icra sənədini vermiş digər orqana qaytarılması haqqında qərar qəbul edir. Məhkəmə icraçısının bu qərarı məhkəmə icraçıları qurumu-

nun rəhbəri tərəfindən yoxlanılaraq təsdiq olunur.

Tərəflər həmin qərardan onun surətini aldıqdan sonra 10 gün müddətində müvafiq məhkəməyə şikayət verə bilərlər.

**Maddə 71.**
**İşə bərpa etmək haqqında icra sənədinin icra olunmamasının nəticələri**

İşçini işə bərpa etmək haqqında icra sənədi borclu tərəfindən icra edilmədikdə, məhkəmə icraçısı bu Qanunla nəzərdə tutulmuş tədbirləri görməklə yanaşı, işə bərpa etmək haqqında qərar çıxarıldığı gündən icra sənədinin icra olunduğu günə qədər bütün müddət üçün orta əmək haqqının və ya əmək haqqı fərqinin işçiyə ödənilməsi haqqında qərardad çıxarılması barədə ərizə ilə məhkəməyə müraciət edir. Həmin ərizə məhkəmə icraçıları qurumunun rəhbəri tərəfindən təsdiq olunur.

**Maddə 72.**
**Borclunun mənzildən (binadan) çıxarılması haqqında icra sənədinin icrası**

72.1. İşə baxan məhkəmə işin hallarından asılı olaraq mənzilin (binanın) boşaldılması üçün Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 220.6-cı maddəsinə uyğun olaraq müddət müəyyən edə bilər.

72.2. Bu Qanunun 72.1-ci maddəsində müəyyən edilmiş müddət başa çatdıqdan sonra borclu mənzili (binanı) boşaltmadıqda, onun mənzildən (binadan) çıxarılması haqqında icra sənədinə əsasən borclu məhkəmə icraçısı tərəfindən mənzildən (binadan) məcburi qaydada çıxarılır.

72.3. Məhkəmə icraçısı çıxarılmanın günü və vaxtı haqqında borcluya rəsmi bildiriş verir. Müvafiq bildirişi almış borclunun olmaması çıxarılmanın həyata keçirilməsinə mane olmur.

72.4. Məhkəmə icraçısı icra sənədində göstərilmiş sahədən borclunun (çıxarılanın), onun əmlakının, ev heyvanlarının çıxarılmasını təmin edir. Bundan əlavə, borcluya (çıxarılana) həmin sahədən istifadə etməsi qadağan olunur.

72.5. Çıxarılma, məhkəmə icraçısı tərəfindən hal şahidlərinin iştirakı ilə və hökmən əmlak siyahıya alınmaqla həyata keçirilir. Məhkəmə icraçısı çıxarılma zamanı, zəruri hallarda, müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanlarının əməkdaşlarını dəvət edə bilər.

72.6. Məhkəmə icraçısı, zəruri hallarda borclunun əmlakının mühafizəsini təmin edir və bununla bağlı xərcləri borclunun üzərinə qoyur. Borclunun əmlakı üç ildən çox olmayan müddət ərzində mühafizə edilir. Həmin müddət bitdikdən sonra göstərilən əmlak sahibsiz əmlakın satılması üçün müəyyən edilmiş qaydada satılır.

Borclunun əmlakının satılmasından əldə edilən vəsait dövlət büdcəsinə keçirilir.

72.7. Borclunun mənzildən (binadan) çıxarılması haqqında məhkəmə icraçısı tərəfindən müvafiq akt tərtib olunur.

**Maddə 73.**

**Tələbkarın mənzilə (binaya) köçürülməsi haqqında icra sənədinin icrası**

73.1. Tələbkarın mənzilə (binaya) köçürülməsi haqqında icra sənədi borclu tərəfindən könüllü icra üçün məhkəmə

icraçısının müəyyən etdiyi müddətdə icra edilmədikdə, köçürülmə məhkəmə icraçısı tərəfindən həyata keçirilir. Məhkəmə icraçısı, tələbkarın icra sənədində göstərilmiş mənzilə (binaya) maneəsiz daxil olmasını və orada yaşamasını (olmasını) təmin edir.

73.2. Borclu tələbkarın köçürülməsi haqqında icra sənədinin icrasına mane olduqda, icra hərəkətləri hal şahidlərinin iştirakı ilə həyata keçirilir, zəruri hallarda isə məhkəmə icraçısı müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanlarının əməkdaşlarını dəvət edir. Tələbkarın yaşamasına (olmasına) borclu tərəfindən sonradan maneçilik törədildikdə, məhkəmə icraçısı bu Qanunun 82-ci maddəsi ilə müəyyən edilmiş tədbirləri görür.

73.3. Tələbkarın köçürülməsi haqqında məhkəmə icraçısı tərəfindən müvafiq akt tərtib olunur.

73.4. Tələbkarın mənzildən (binadan) maneəsiz istifadə etmək imkanı təmin olunduqda, icra sənədi icra edilmiş sayılır.

73.5. Tələbkarın köçürülməsi barədə akt tərtib edildikdən sonra, borclu tələbkarın yaşamasına (olmasına) yenidən maneçilik törətdikdə, icra sənədi üzrə icraat təzələnməlidir.

73.6. Tələbkarın yaşamasına (olmasına) maneçilik törədən şəxs icra sənədində göstərilən borclu şəxs olmadıqda, icraat təzələnə bilməz. Bu halda köçürülmə haqqında məsələ məhkəmə qaydasında həll olunur.

## VIII FƏSİL

## Borcludan tutulmuş pul məbləğinin tələbkarlar arasında bölüşdürülməsi

### Maddə 74.
### Borcludan tutulmuş pul məbləğinin bölüşdürülməsi

74.1. Məhkəmə icraçısı tərəfindən borcludan tutulmuş, o cümlədən borclunun əmlakının satılmasından əldə olunmuş pul məbləğindən əvvəlcə icra ödənişi, icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclər, icra sənədi üzrə icraat zamanı borcluya tətbiq olunmuş cərimələr ödənilir. Qalan pul məbləğindən tələbkarın (tələbkarların) tələblərinin təmin olunması üçün istifadə edilir.

74.2. Bütün tələblər təmin olunduqdan sonra qanunvericilikdə başqa hal nəzərdə tutulmayıbsa, qalan pul məbləği borcluya qaytarılır.

74.3. İpoteka predmetinə məhkəmənin qərarı və ya notariusun icra qeydi əsasında tutma yönəldikdə, ipoteka predmetinin satılmasından əldə olunan gəlir «İpoteka haqqında» Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş qaydada bölüşdürülür.

### Maddə 75.
### Tələbkarların tələblərinin təmin edilməsinin növbəliliyi

75.1. Borcludan tutulmuş pul məbləği icra sənədləri üzrə bütün tələblərin təmin edilməsi üçün yetərli olmadıqda, göstərilən məbləğ bu Qanunun 75.2-75.6-cı maddələri ilə

müəyyən olunmuş növbəlilik qaydasında tələbkarlar arasında bölüşdürülür.

75.2. Birinci növbədə alimentlərin tutulması, sağlamlığa vurulmuş ziyanın, habelə ailəni dolandıranın itkisi nəticəsində zərər çəkmiş şəxslərə vurulmuş ziyanın ödənilməsi üzrə tələblər təmin edilir.

75.3. İkinci növbədə əmək hüququ münasibətlərindən əmələ gələn tələblər, vəkillər tərəfindən göstərilən hüquqi xidmətə görə haqq ödənilməsinə dair tələblər, müəlliflik və əlaqəli hüquqlardan istifadəyə görə müəllifə çatacaq mükafatın ödənilməsinə dair tələblər təmin edilir.

75.4. Üçüncü növbədə sosial sığorta və sosial müdafiə fondlarına ayırmalar üzrə tələblər təmin edilir.

75.5. Dördüncü növbədə dövlət büdcəsinə və üçüncü növbə ilə nəzərdə tutulmamış büdcədənkənar dövlət fondlarına ayırmalar üzrə tələblər təmin edilir.

75.6. Bütün qalan tələblər beşinci növbədə təmin edilir. Bu zaman icra sənədlərinin daxil olma ardıcıllığı əsas götürülür.

75.7. Hər sonrakı növbədən olan tələblər əvvəlki növbədən olan tələblər tam ödənildikdən sonra təmin edilir.

75.8. Borcludan tutulmuş pul məbləği bir növbədən olan bütün tələbləri tam təmin etmək üçün yetərli olmadıqda, bu tələblər hər bir tələbkara verilməli məbləğə mütənasib olaraq təmin edilir.

## IX FƏSİL

**Əcnəbi vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər və xarici təşkilatlar barəsində icra hərəkətlərinin həyata keçirilməsi**

**Maddə 76.**

**Əcnəbi vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər və xarici təşkilatlar barəsində məhkəmə və digər orqanların qərarlarının icrası**

Əcnəbi vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər və xarici təşkilatlar barəsində məhkəmə və digər orqanların qərarları bu Qanunla nəzərdə tutulmuş qaydada icra olunur.

**Maddə 77.**

**Xarici məhkəmələrin və arbitrajların qərarlarının icrası**

77.1. Xarici dövlətlərin məhkəmələrinin və arbitrajlarının qərarlarının Azərbaycan Respublikasında icrası Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə və bu Qanuna uyğun olaraq həyata keçirilir.

77.2. Xarici dövlətlərin məhkəmələrinin və arbitrajlarının qərarları əsasında icra sənədi, həmin qərar Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada tanındıqdan sonra verilir.

## X FƏSİL

## İcra ödənişi. İcra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclər

### Maddə 78.
### İcra ödənişi

78.1. İcra sənədi könüllü icra üçün müəyyən olunmuş vaxtda borclu tərəfindən üzrsüz səbəbdən icra edilmədikdə, məhkəmə icraçısı borcludan tutulmalı pul məbləğinin 7 faizi həcmində icra ödənişinin alınması barədə qərar qəbul edir. Qeyri-əmlak xarakterli tələbin nəzərdə tutulduğu icra sənədi icra edilmədikdə, borclu fiziki şəxsdən on bir manat, borclu hüquqi şəxsdən isə əlli beş manat miqdarında icra ödənişi alınır.

78.2. İcra ödənişi icra sənədi ilk dəfə icraya yönəldilərkən alınır. Həmin icra sənədinin yenidən icraya yönəldilməsi zamanı icra ödənişi alınmır.

78.3. İcra ödənişinin məbləğinin 75 faizi dövlət büdcəsinə, qalan hissəsi isə məhkəmə nəzarətçiləri və icraçılarının xüsusi fonduna köçürülür.

78.4. İcra sənədinin verilməsi üçün əsas olmuş məhkəmə və ya digər orqanın qərarı, habelə qanuna əsasən icra sənədi sayılan sənəd ləğv edildikdə, icra ödənişi borcluya qaytarılır.

78.5. İcra ödənişinin alınması haqqında qərar icra sənədi üzrə icraata başlanılması haqqında qərarla eyni vaxtda qəbul edilir. İcra ödənişinin alınması barədə müvafiq qeyd icra sənədi üzrə icraata başlanılması haqqında qərarda da

göstərilə bilər.

**Maddə 79.**
**İcra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclər**

79.1. İcra hərəkətlərinin təşkilinə və keçirilməsinə sərf olunan vəsaitlər icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclər sayılır. Həmin xərclər məhkəmə nəzarətçiləri və icraçılarının xüsusi fondunun, habelə icraatda iştirak edən tərəflərin və digər şəxslərin vəsaitləri hesabına ödənilir.

79.2. İcra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclərə:

79.2.1. borclunun əmlakının daşınmasına, saxlanmasına və satılmasına;

79.2.2. bu Qanunla müəyyən edilmiş qaydada icra hərəkətlərinin həyata keçirilməsi zamanı dəvət olunmuş tərcüməçilərə, hal şahidlərinə, mütəxəssislərə və digər şəxslərə müvafiq haqqın ödənilməsinə;

79.2.3. tutulmuş məbləğin tələbkara poçtla köçürülməsinə (göndərilməsinə);

79.2.4. borclunun, onun əmlakının və ya məhkəmə qaydasında borcludan alınmış uşağın axtarılmasına;

79.2.5. icraat zamanı həyata keçirilmiş digər zəruri icra hərəkətlərinə sərf edilən vəsaitlər aiddir.

**Maddə 80.**
**İcra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclərin tələbkar tərəfindən avanslaşdırılması**

80.1. İcra hərəkətlərinin həyata keçirilməsini təmin etmək məqsədilə tələbkar məhkəmə icraçıları qurumunun depozit

hesabına avans köçürə bilər.

80.2. Bu Qanunun 27.8-ci maddəsində nəzərdə tutulmuş hallarda tələbkar borclunun və ya onun əmlakının axtarılması üzrə müvafiq xərcləri tam avanslaşdırmağa borcludur.

80.3. İcra hərəkətləri başa çatdıqda, avans bütövlükdə tələbkara qaytarılır. Bu Qanunun 23.1.4-cü və ya 23.1.5-ci maddələrinə uyğun olaraq icra sənədi qaytarıldıqda, avansın icra hərəkətlərinin həyata keçirilməsinə sərf olunan xərclərdən artıq hissəsi tələbkara qaytarılır.

**Maddə 81.**
**İcra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclərin ödənilməsi qaydası**

81.1. İcra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclər borcludan tutulur. Tutulmuş məbləğ məhkəmə nəzarətçiləri və icraçılarının xüsusi fonduna köçürülür.

81.2. İcra sənədinin verilməsi üçün əsas olmuş qərarın, habelə qanuna əsasən icra sənədi sayılan sənədin ləğv edilməsi ilə əlaqədar icraata xitam verildikdə, icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclər dövlət büdcəsi hesabına ödənilir.

81.3. Bu Qanunun 80.3-cü maddəsində nəzərdə tutulmuş hallarda icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclər tələbkardan tutulur.

81.4. İcra hərəkətləri ilə bağlı xərclərin tutulması, habelə bu Qanunla müəyyən edilmiş hallarda həmin xərclərin dövlət büdcəsi hesabına ödənilməsi məhkəmə icraçısının qərarına əsasən həyata keçirilir. Həmin qərar məhkəmə icraçıları qurumunun rəhbəri tərəfindən yoxlanılaraq təsdiq olunur və

onun surəti 3 gün müddətində tərəflərə göndərilir.

81.4. Tərəflər, həmin qərarın surətini aldıqdan sonra 10 gün müddətində müvafiq məhkəməyə şikayət verə bilərlər.

81.5. Bu Qanunun 27.8-ci maddəsinə uyğun olaraq elan olunmuş axtarış üzrə xərcləri ödəməkdən borclu imtina etdikdə və ya yayındıqda, tələbkar tərəfindən çəkilmiş xərclərin əvəzinin ödənilməsi barədə məsələyə məhkəmə qaydasında baxılır. Bu halda tələbkar dövlət rüsumunu ödəməkdən azad edilir.

## XI FƏSİL

## Məhkəmə və digər orqanların qərarlarının icrası haqqında Azərbaycan Respublikası qanunvericiliyinin pozulmasına görə məsuliyyət

### Maddə 82.
### Borclunu müəyyən hərəkətləri etməyə və ya müəyyən hərəkətləri etməkdən çəkinməyə məcbur edən icra sənədinin icra olunmamasına görə məsuliyyət

82.1. Borclunu müəyyən hərəkətləri etməyə və ya müəyyən hərəkətləri etməkdən çəkinməyə məcbur edən icra sənədi məhkəmə icraçısı tərəfindən müəyyən olunmuş müddətdə üzrsüz səbəbdən icra olunmadıqda, məhkəmə icraçısı borclunun Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada inzibati məsuliyyətə cəlb olunması üçün inzibati xəta haqqında protokol tərtib edir və onu işin digər materialları ilə birlikdə müvafiq məhkəməyə

göndərir. Eyni zamanda məhkəmə icraçısı tərəfindən borcluya icra üçün yeni müddət təyin edilir.

82.2. Tərəflər həmin qərarın surətini aldıqdan sonra 10 gün müddətində müvafiq məhkəməyə şikayət verə bilərlər.

82.3. İcra sənədi üzrsüz səbəbdən yenidən icra edilmədikdə, məhkəmə icraçısı məhkəmə qərarını icra etməyə borclu olan şəxsin Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətinə cəlb olunması haqqında müvafiq orqana, məhkəmə icraçıları qurumunun rəhbəri tərəfindən təsdiq olunan təqdimat verir.

**Maddə 83.**
**İcra sənədinin bank və ya digər kredit təşkilatı tərəfindən icra olunmamasına görə məsuliyyət**

Borclunun hesabına (hesablarına) xidmət edən bank və ya digər kredit təşkilatı, onun hesabında (hesablarında) pul vəsaitlərinin olmasına baxmayaraq, təqdim olunmuş icra sənədinin borcludan pul vəsaitlərinin tutulmasına dair tələblərini icra etmədikdə, məhkəmə icraçısının inzibati xəta haqqında protokoluna əsasən, müvafiq məhkəmə həmin bank və ya digər kredit təşkilatını Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada inzibati məsuliyyətə cəlb edir.

**Maddə 84.**
**Məhkəmə icraçısının qanuni tələblərinin yerinə yetirilməməsinə, məhkəmə və digər orqanların qərarlarının icrası haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət**

84.1. Məhkəmə icraçısının qanuni tələblərinin yerinə yetirilməməsinə görə, icra sənədinin itirilməsinə və ya onun vaxtında göndərilməməsinə görə, habelə borclunun iş yeri və ya yaşayış yeri, onun gəlirləri və əmlak vəziyyəti haqqında dəqiq olmayan məlumat təqdim edilməsinə görə məhkəmə icraçısı təqsirkar şəxslərin inzibati məsuliyyətə cəlb olunması üçün qanunvericiliyə uyğun olaraq inzibati xəta haqqında protokol tərtib edir və onu işin digər materialları ilə birlikdə müvafiq məhkəməyə göndərir.

84.2. Məhkəmə icraçısının çağırışı ilə gəlməkdən və ya icra hərəkətlərinin həyata keçirildiyi yerə gəlməkdən üzrsüz səbəbdən yayınan şəxslər barəsində məhkəmənin qərarı əsasında məcburi gətirilmə tədbiri tətbiq olunur.

84.3. Bu Qanunun 84.2-ci maddəsində nəzərdə tutulmuş hallarda məhkəmə icraçısı müvafiq qərar qəbul edir. Həmin qərar məhkəmə icraçıları qurumunun rəhbəri tərəfindən yoxlanılaraq təsdiq olunur.

Tərəflər həmin qərarın surətini aldıqdan sonra 10 gün müddətində müvafiq məhkəməyə şikayət verə bilərlər.

84.4. Məhkəmə icraçısının qanuni tələblərini qəsdən yerinə yetirməyən və ya onların yerinə yetirilməsinə mane olan və yaxud başqa şəkildə məhkəmə və digər orqanların qərarlarının icrası haqqında qanunvericiliyi pozan təqsirkar şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada cinayət məsuliyyətinə cəlb edilməsi barədə məhkəmə icraçısı məhkəmə icraçıları qurumunun rəhbəri tərəfindən təsdiq olunan təqdimat verir.

**Maddə 85.**
**Məhkəmə icraçısının qərarları**

85.1. İcra hərəkətlərinin həyata keçirilməsi (icraata başlanması, icra ödənişinin tutulması, cərimə tətbiq olunması və s.) icraatda iştirak edən tərəflərin və digər şəxslərin maraqlarına toxunduqda, məhkəmə icraçısı müvafiq qərar qəbul edir.

85.2. Qərarda aşağıdakılar göstərilir:

85.2.1. qərarın qəbul edildiyi tarix və yer;

85.2.2. qərarı qəbul etmiş məhkəmə icraçısının vəzifəsi, soyadı, adı və atasının adı;

85.2.3. qərarın hansı icraat üzrə qəbul edilməsi;

85.2.4. baxılan məsələ;

85.2.5. qərarın qəbul edilməsi üçün əsas olmuş və məhkəmə icraçısının istinad etdiyi qanunlar və digər normativ-hüquqi aktlar;

85.2.6. baxılan məsələ üzrə çıxarılmış nəticə;

85.2.7. qərardan şikayət verilməsi qaydası və müddəti.

**Maddə 86.**
**Məhkəmə icraçısının həvəsləndirilməsi**

İcra sənədinin icrasını vaxtında və real olaraq təmin edən məhkəmə icraçısına, borcludan tutulan məbləğin və ya əmlakın dəyərinin 1 faizi həcmində, lakin yüz on manatdan artıq olmamaqla, mükafat verilir.

Göstərilən məbləğ məhkəmə icraçısına məhkəmə nəzarətçiləri və icraçılarının xüsusi fondundan müvafiq məhkəmə icraçıları qurumu tərəfindən ödənilir.

## XII FƏSİL

## İcra sənədləri üzrə icraat zamanı tələbkarın, borclunun və digər şəxslərin hüquqlarının müdafiəsi

### Maddə 87.
### Məhkəmə icraçısının hərəkətlərindən şikayət verilməsi

87.1. İqtisad məhkəməsi tərəfindən verilmiş icra sənədinin icra olunması ilə bağlı məhkəmə icraçısının hərəkətlərindən və ya həmin hərəkətləri yerinə yetirməkdən imtina etməsindən, o cümlədən məhkəmə icraçısına etirazın təmin edilməməsindən tələbkar və ya borclu şikayət verə bilər. Şikayət müvafiq hərəkətin edildiyi (və ya həmin hərəkətin yerinə yetirilməsindən imtina edildiyi) vaxtdan 10 gün müddətində məhkəmə icraçısının olduğu yer üzrə iqtisad məhkəməsinə verilir.

87.2. Bu Qanunun 87.1-ci maddəsində nəzərdə tutulmayan digər icra sənədlərinin icra olunması ilə bağlı məhkəmə icraçısının hərəkətlərindən və ya həmin hərəkətləri yerinə yetirməkdən imtina etməsindən, o cümlədən məhkəmə icraçısına etirazın təmin edilməməsindən şikayət, müvafiq hərəkətin edildiyi (və ya həmin hərəkətin yerinə yetirilməsindən imtina edildiyi) vaxtdan 10 gün müddətində məhkəmə icraçısının olduğu yerin məhkəməsinə verilir.

87.3. İcra hərəkətinin yerinə yetirilməsi (və ya həmin hərəkətin yerinə yetirilməsindən imtina edilməsi) vaxtı və yeri haqqında xəbərdar edilməmiş şəxslər üçün bu Qanunun 87.1-ci və 87.2-ci maddələrində nəzərdə tutulmuş müddətin axımı, həmin şəxslərin müvafiq hərəkət barəsində məlumat

aldıqları gündən başlayır.

87.4. Məhkəmə icraçısı tərəfindən fiziki və hüquqi şəxslərə vurulmuş ziyan Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada ödənilir.

**Maddə 88.**
**İcra sənədi üzrə tələbin hüquqi şəxs tərəfindən vaxtında icra edilməməsi ilə bağlı tələbkarın hüquqlarının müdafiəsi**

Tələbkar borcludan tutulmalı olan məbləğin, əgər həmin məbləğ hüquqi şəxsin təqsiri üzündən tutulmamışdırsa, müvafiq hüquqi şəxsdən tutulması barədə ona qarşı iddia qaldıra bilər.

Bu halda tələbkar dövlət rüsumunu ödəməkdən azad edilir.

**Maddə 89.**
**İcra hərəkətlərinin həyata keçirilməsi zamanı digər şəxslərin hüquqlarının müdafiəsi**

Tələbin yönəldildiyi əmlakın borcluya və başqa şəxslərə məxsus olması (mənsubiyyəti) ilə bağlı mübahisə yarandıqda, maraqlı fiziki və hüquqi şəxslər əmlakın həbsdən azad olunması və ya onun siyahıdan çıxarılması barədə iddia ilə məhkəməyə müraciət etmək hüququna malikdirlər.

**Maddə 90.**
**İşə bərpa etmək haqqında icra sənədinin icra olunmaması ilə bağlı hüquqi şəxslərin hüquqlarının müdafiəsi**

Qanunsuz işdən çıxarılmış və ya başqa işə keçirilmiş işçini işə bərpa etmək haqqında icra sənədi icra olunmadıqda,

həmin işçiyə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq orta əmək haqqının və ya əmək haqqı fərqinin ödənilməsi ilə bağlı hüquqi şəxsə vurulmuş ziyan, həmin hüquqi şəxsin icra sənədini icra etməməkdə təqsirkar olan rəhbərindən və ya digər işçisindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada tutula bilər.

**Maddə 91.**
**Qanunun qüvvəyə minməsi**

Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

*Bakı şəhəri, 27 dekabr 2001-ci il*
**№ 243-IIQ**

*«Azərbaycan» qəzetində dərc edilmişdir*
*(8 mart 2002-ci il, № 55).*

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 27 dekabr 2002-ci il tarixli Qərarına və 20 iyun 2003-cü il tarixli, 488-IIQD nömrəli; 11 iyun 2004-cü il tarixli, 688-IIQD nömrəli; 28 sentyabr 2004-cü il tarixli, 765-IIQD nömrəli; 26 oktyabr 2004-cü il tarixli, 782-IIQD nömrəli; 26 dekabr 2006-cı il tarixli, 219-IIIQD nömrəli; 17 aprel 2007-ci il tarixli, 320-IIIQD nömrəli; 9 oktyabr 2007-ci il tarixli, 430-IIIQD nömrəli; 2 iyun 2008-ci il tarixli, 618-IIIQD nömrəli; 13 iyun 2008-ci il tarixli, 648-IIIQD nömrəli qanunlara əsasən əlavə və dəyişikliklərlə

# MƏHKƏMƏ NƏZARƏTÇİLƏRİ VƏ MƏHKƏMƏ İCRAÇILARI HAQQINDA

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## I FƏSİL

## Ümumi müddəalar

### Maddə 1.

### Məhkəmə nəzarətçilərinin və məhkəmə icraçılarının vəzifələri

Məhkəmə nəzarətçiləri Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, apellyasiya məhkəmələrinin, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin, Ağır cinayətlərə dair işlər üzrə Naxçıvan Muxtar Respublikası məhkəməsinin, yerli iqtisad məhkəmələrinin, Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikası hərbi məhkəməsinin, hərbi məhkəmələrin, Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikası məhkəməsinin, rayon (şəhər) məhkəmələrinin (bundan sonra-məhkəmələr) müəyyən olunmuş fəaliyyət qaydasını təmin edirlər.

Məhkəmə icraçıları məhkəmələrin mülki, iqtisadi mübahisələrə dair və inzibati xətalar haqqında işlər üzrə qərarlarının, cinayət işləri üzrə azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların, habelə qanunvericiliklə icrası məhkəmə icraçılarına həvalə edilmiş digər orqanların

aktlarının icrasını həyata keçirirlər.

**Maddə 2.**
**Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında müəyyən olunmuş qaydalar bu Qanunda nəzərdə tutulmuş qaydalardan fərqlənərsə, beynəlxalq müqavilələrin qaydaları tətbiq olunur.

**Maddə 3.**
**Məhkəmə nəzarətçilərinin və məhkəmə icraçılarının qulluğa qəbulu və qulluq keçməsi**

Ali hüquq təhsili olan Azərbaycan Respublikasının vətəndaşları məhkəmə nəzarətçisi və məhkəmə icraçısı ola bilərlər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin məhkəmə nəzarətçiləri istisna olmaqla digər məhkəmə nəzarətçilərinin, habelə məhkəmə icraçılarının qulluğa qəbulu və qulluq keçməsi «Ədliyyə orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsində və Azərbaycan Respublikasının Ali Məhkəməsində məhkəmə nəzarətçilərinin qulluğa qəbulu və qulluq keçməsi dövlət qulluğu haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

**Maddə 4.**
**Xidməti silah**

Məhkəmə nəzarətçilərinin və məhkəmə icraçılarının xüsusi hazırlıq keçəndən sonra qanunvericiliklə müəyyən edilmiş qaydada xidməti silah və xüsusi vasitələr gəzdirmək, saxlamaq və istifadə etmək hüquqları vardır.

**Maddə 5.**
**Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidmətinin fəaliyyətinin təşkili**

Məhkəmə nəzarətçilərinə və məhkəmə icraçılarına həvalə olunmuş vəzifələrin həyata keçirilməsini müvafiq icra hakimiyyəti orqanı təmin edir.

Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidmətinə Azərbaycan Respublikasının Baş məhkəmə məmuru rəhbərlik edir.

Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidmətinin fəaliyyətinin əsasları qanunla müəyyən edilir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində, Azərbaycan Respublikası Ali Məhkəməsində, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində məhkəmə nəzarətçiləri müvafiq olaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri, Azərbaycan

Respublikası Ali Məhkəməsinin sədri, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri , digər məhkəmələrin məhkəmə nəzarətçiləri, habelə məhkəmə icraçıları müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad edilirlər.

**Maddə 6.**

**Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidmətinin fəaliyyətinin təşkilində müvafiq icra hakimiyyəti orqanının səlahiyyəti**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin məhkəmə nəzarətçiləri istisna olmaqla müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının Baş məhkəmə məmuru vasitəsilə məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidmətinin fəaliyyətinə təşkilati və metodik rəhbərliyi həyata keçirir.

## II FƏSİL

## Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları

**Maddə 7.**

**Məhkəmə nəzarətçilərinin vəzifələri və hüquqları**

Məhkəmə nəzarətçisi aşağıdakı vəzifələri yerinə yetirir:

- məhkəmədə hakimlərin, andlı iclasçıların, məhkə-

mə prosesinin digər iştirakçılarının və şahidlərin təhlükəsizliyini təmin edir;

- məhkəmənin fəaliyyəti ilə əlaqədar hakimlərin sərəncamlarını icra edir;
- məhkəmə və hakimin qərarı ilə təqsirləndirilən şəxs və başqa vətəndaşlar barəsində qanunda nəzərdə tutulmuş prosessual məcburiyyət tədbirlərini tətbiq edir;
- iş vaxtı məhkəmə binalarının, müşavirə otaqlarının və məhkəmə keçirilən yerin mühafizəsini təmin edir;
- məhkəmə keçirilən yerin iclasa hazırlığını yoxlayır, hakimin tapşırığı ilə cinayət işinin və maddi sübutların məhkəmə keçirildiyi yerə gətirilməsini və mühafizəsini təmin edir;
- məhkəmə otaqlarında ictimai qaydaları təmin edir;
- həbsdə saxlanılan məhkumların müşayiət edilməsində, onların mühafizəsi və təhlükəsizliyi məsələlərində hərbiləşdirilmiş qurumlarla qarşılıqlı fəaliyyət göstərir;
- məhkəmənin ərazisində cinayətlərin və digər qanun pozuntularının qarşısını alır, onları aradan qaldırır, nizam-intizamı pozanları aşkar edir, qanunvericilikdə nəzərdə tutulmuş müvafiq tədbirlər görür;
- məhkəmə çağırışı, habelə məhkəmə qərarının icrası ilə əlaqədar məhkəməyə gəlməkdən imtina edən şəxslərin məcburi qaydada gətirilməsini həyata keçirir;
- məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidmətinin rəhbərlərinin göstərişinə əsasən icra işlərinin icrasında iştirak edir.

Məhkəmə nəzarətçisi öz xidməti vəzifələrini yerinə ye-

tirərkən aşağıdakı hüquqları vardır:

- kömək üçün polis və təhlükəsizlik orqanlarının əməkdaşlarına, daxili qoşunların hərbi qulluqçularına müraciət etmək;
- Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş qaydada və hallarda fiziki güc, xüsusi vasitə və xidməti silah tətbiq etmək.

**Maddə 8.**
**Məhkəmə icraçılarının vəzifələri və hüquqları**

Məhkəmə icraçısı aşağıdakı vəzifələri yerinə yetirir:

- icraata daxil olmuş icra sənədlərinin vaxtında, tam və düzgün icra edilməsi üçün tədbirlər görür;
- icra prosesində iştirak edən tərəflərə və onların nümayəndələrinə icra sənədləri ilə tanış olmağa, onlardan çıxarış etməyə və ya həmin sənədlərin surətini çıxarmağa imkan yaradır;
- icrada iştirak edən tərəflərin icraya dair ərizə və vəsatətlərinə müəyyən olunmuş müddətdə baxır, müvafiq qərar qəbul edir, onlardan şikayət vermək müddətini və qaydasını izah edir;
- alimentin məhkəmənin qətnaməsi və ya aliment ödənilməsi barədə saziş ilə müəyyən edilən miqdarına uyğun olaraq qanunvericiliklə müəyyən olunmuş qaydada borcları müəyyən edir.

Məhkəmə icraçısının icra prosesində aşağıdakı hüquqları vardır:

- öz səlahiyyətləri daxilində müəssisə, təşkilat, idarə və vətəndaşlardan icra işi ilə əlaqədar məlumat, arayış və

izahat almaq;

- borclunun iş yerində icra sənədlərinin icrası vəziyyətini yoxlamaq;
- müəssisələrə, təşkilatlara, idarələrə və vətəndaşlara icra icraatı ilə əlaqədar konkret tapşırıqlar vermək;
- zəruri hallarda borcluya məxsus mənzilə və ya otağa daxil olmaq, orada baxış keçirmək və bütün saxlama yerlərini açmaq və baxmaq, habelə müvafiq məhkəmənin qərarına əsasən bu hərəkətləri borcluya məxsus digər şəxslərin tutduqları mənzil və otaqlarda da həyata keçirmək;
- əmlaka həbs qoymaq, əmlakı götürmək, saxlanmağa vermək və üzərinə həbs qoyulmuş əmlakı realizə etmək (qanuna əsasən icra sənədləri üzrə tələb yönəldilə bilməyən əmlak növlərindən başqa);
- tələbi borclunun hesabında olan pul vəsaitlərinə və digər qiymətli əşyalarına, kredit və bank idarələrindəki əmanətlərinə yönəltmək;
- tələbi borclunun əmək haqqına, pensiyasına, təqaüdünə və sair gəlirlərinə yönəltmək;
- tələbi borclunun digər şəxslərdə olan pul məbləğinə və əmlakına yönəltmək;
- icra aktlarında göstərilmiş predmetləri borcludan almaq və tələbkara vermək;
- icra üçün daxil olmuş sənəddə aydın olmayan məsələlər haqqında məhkəməyə, yaxud icra sənədini verən orqanlara müraciət etmək;
- borclunun yerinin, əmlakının, uşağının olduğu yerin müəyyən edilməsi üçün qanunla nəzərdə tutulmuş

qaydada tədbirlər görmək;

- icra hərəkətləri ilə əlaqədar vətəndaşları və vəzifəli şəxsləri çağırmaq;
- icra sənədlərində göstərilən digər tədbirləri həyata keçirmək.

Cinayət işləri üzrə azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaları icra edən məhkəmə icraçılarının vəzifə və hüquqları Azərbaycan Respublikasının cəza-icra qanunvericiliyi ilə tənzimlənir.

**Maddə 9.**

**Fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin gözlənilməsi**

Məhkəmə nəzarətçisi və məhkəmə icraçısı onlara verilən hüquqlardan qanuna uyğun istifadə etməyə və öz fəaliyyətlərində fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin pozulmasına yol verməməyə borcludurlar.

**Maddə 10.**

**Məhkəmə nəzarətçisinin və məhkəmə icraçısının tələblərinin məcburiliyi**

Məhkəmə nəzarətçisinin və məhkəmə icraçısının öz səlahiyyətləri hüdudunda irəli sürdükləri tələblər Azərbaycan Respublikası ərazisində bütün fiziki və hüquqi şəxslər üçün məcburidir.

Məhkəmə nəzarətçisinə və məhkəmə icraçısına öz vəzifəsini həyata keçirmək üçün tələb olunan məlumat, sənəd və onların surətləri ödənişsiz və müəyyən olunmuş vaxtda

verilir.

Məhkəmə nəzarətçisinin və məhkəmə icraçısının qanuni tələblərini yerinə yetirməyən, ona həvalə edilmiş vəzifələrin icrasına mane olan şəxslər qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 11.**

**Məhkəmə nəzarətçilərinin və məhkəmə icraçılarının məsuliyyəti və onların fəaliyyətinə nəzarət**

Məhkəmə nəzarətçilərinin və məhkəmə icraçılarının qanunazidd hərəkətləri barədə yuxarı vəzifəli şəxsə və ya məhkəməyə şikayət verilə bilər. Yuxarı vəzifəli şəxsə məhkəmə nəzarətçisindən və məhkəmə icraçısından şikayət vermə şikayət edən şəxsin məhkəməyə müraciət etməsi üçün maneə törətmir.

Məhkəmə nəzarətçisi və məhkəmə icraçısı öz hərəkətlərinə və törətdiyi hüquq pozuntularına görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Müəssisə, təşkilat, idarə və vətəndaşlara məhkəmə nəzarətçisi və məhkəmə icraçısı tərəfindən vurulmuş ziyan Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən olunmuş qaydada ödənilir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin məhkəmə nəzarətçiləri istisna olmaqla məhkəmə nəzarətçilərinin və məhkəmə icraçılarının fəaliyyətinə nəzarət müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada

həyata keçirilir.

Məhkəmələrin mülki, iqtisadi mübahisələrə dair və inzibati xətalar haqqında işlər üzrə qərarlarının, cinayət işləri üzrə azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların düzgün və vaxtında icra edilməsinə nəzarət məhkəmə icraçıları qurumunun rəhbəri və hakim tərəfindən öz səlahiyyətləri daxilində həyata keçirilir.

## III FƏSİL

## Məhkəmə nəzarətçilərinin və məhkəmə icraçılarının təminatı

### Maddə 12.
### Məhkəmə nəzarətçilərinin və məhkəmə icraçılarının maddi təminatı və sosial müdafiəsi

Məhkəmə nəzarətçisinin və məhkəmə icraçısının əmək haqqı vəzifə maaşından, xüsusi rütbəyə (ixtisas dərəcəsinə) və xidmət illərinə görə verilən əlavə ödənişlərdən, həmçinin Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər ödənişlərdən ibarətdir.

Məhkəmə nəzarətçilərinin və məhkəmə icraçılarının həvəsləndirilməsi, onların texniki-təminat məsələlərinin həll edilməsi məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı məhkəmə nəzarətçilərinin və məhkəmə icraçılarının xüsusi fondunu yaradır.

Azərbaycan Respublikasının məhkəmələrinin, beynəlxalq arbitrajların və münsiflər məhkəmələrinin, xarici dövlətlərin məhkəmələrinin və arbitrajlarının mülki və

iqtisadi mübahisələrə dair işlər üzrə qərarlarının, habelə məhkəmə əmrlərinin, inzibati xətalara dair işlərə baxmaq səlahiyyəti olan orqanların (vəzifəli şəxslərin) qərarlarının, alimentlərin ödənilməsi barədə notariat qaydasında təsdiq edilmiş sazişlərin, notariat orqanlarının icra qeydlərinin və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda digər orqanların qərarlarının məcburi icrası ilə bağlı borclunun hesabından tutulan «Məhkəmə qərarlarının icrası haqqında« Azərbaycan Respublikası Qanununun 78-ci maddəsində nəzərdə tutulmuş icra ödənişinin məbləği, habelə həmin Qanunun 79-cu maddəsində nəzərdə tutulmuş icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclər məhkəmə nəzarətçiləri və məhkəmə icraçılarının xüsusi fonduna köçürülür

Xidməti vəzifələrinin icrası zamanı məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları Azərbaycan Respublikasının ərazisində bütün şəhər (rayon) nəqliyyat vasitələrindən (taksidən başqa) pulsuz istifadə edirlər.

Məhkəmə nəzarətçilərinə və məhkəmə icraçılarına məxsus əmlakın xidməti fəaliyyətləri ilə əlaqədar məhv olması və ya zədələnməsi nəticəsində vurulan ziyan məhkəmə nəzarətçilərinə və məhkəmə icraçılarına və ya onların ailə üzvlərinə tam həcmdə ödənilir.

Bu maddədə nəzərdə tutulmuş ziyan qanunla müəyyən olunmuş qaydada sonradan təqsirkar şəxslərdən tutulmaqla Azərbaycan Respublikasının dövlət büdcəsindən ödənilir.

Məhkəmə nəzarətçilərinin və məhkəmə icraçılarının pensiya təminatı Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə həyata keçirilir.

**Maddə 13.**

**Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidmətinin maliyyələşdirilməsi və maddi-texniki təminatı**

Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidmətinin maliyyələşdirilməsi və maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi, məhkəmə nəzarətçilərinin və məhkəmə icraçılarının xüsusi fonduna daxil olan vəsait hesabına həyata keçirilir.

Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidmətinin maddi-texniki təminatının qaydası və normaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Keçid müddəaları**

Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

Azərbaycan Respublikası məhkəmələrində fəaliyyət göstərən Ədliyyə polis bölmələri (qrupları) bu qanunda nəzərdə tutulan məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidməti təşkil edilənədək qüvvədə olan qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri həyata keçirirlər.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

*Bakı şəhəri, 28 dekabr 1999-cu il*

**№ 782-IQ**

*«Azərbaycan» qəzetində dərc edilmişdir*
*(16 yanvar 2000-ci il, № 11)*

12 oktyabr 2001-ci il tarixli, 194-IIQD nömrəli; 15 noyabr 2001-ci il tarixli, 214-IIQD nömrəli; 24 dekabr 2002-ci il tarixli, 409-IIQD nömrəli; 30 dekabr 2003-cü il tarixli, 568-IIQD nömrəli; 5 mart 2004-cü il tarixli, 598-IIQD nömrəli; 10 oktyabr 2006-cı il tarixli, 161-IIIQD nömrəli; 29 dekabr 2006-cı il tarixli, 220-IIIQD nömrəli; 16 iyun 2007-ci il tarixli, 385-IIIQD nömrəli qanunlara əsasən dəyişikliklər və əlavələrlə.

# PROKURORLUQ HAQQINDA AZƏRBAYCAN RESPUBLIKASININ

# QANUNU

## I FƏSIL

## Ümumi müddəalar

### Maddə 1.
### Qanunda istifadə olunan anlayışlar

Bu Qanunda aşağıdakı anlayışlardan istifadə olunmuşdur:

- prokuror - Azərbaycan Respublikasının Baş prokuroru, bütün tabe prokurorlar, prokuror müavinləri, prokurorun böyük köməkçiləri, prokuror köməkçiləri, idarə, şöbə rəisləri, rəislərin müavinləri, idarə, şöbələrin böyük prokurorları, prokurorları və prokuror-kriminalistlər;
- müstəntiq - xüsusilə mühüm işlər üzrə böyük müstəntiqlər, xüsusilə mühüm işlər üzrə müstəntiqlər, böyük müstəntiqlər, müstəntiqlər, stajor müstəntiqlər;
- prokurorluq işçiləri - prokurorlar, prokurorluğun müstəntiqləri, prokurorluğun stajorları;
- prokurorluğun stajorları - prokurorluq orqanlarında ilk dəfə iş təcrübəsi keçən şəxslər.

**Maddə 2.**
**Azərbaycan Respublikasının Prokurorluğu**

Azərbaycan Respublikasının Prokurorluğu (bundan sonra - «prokurorluq») məhkəmə hakimiyyəti sisteminə daxil olmaqla ərazi və ixtisaslaşdırılmış prokurorluqların Azərbaycan Respublikasının Baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır.

Fövqəladə prokurorluqların, xarici dövlətlərin, yaxud bu Qanunla nəzərdə tutulmayan qaydada prokurorluqların yaradılması qadağandır.

**Maddə 3.**
**Prokurorluq haqqında qanunvericilik**

Prokurorluq haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, digər qanunlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

**Maddə 4.**
**Prokurorluğun fəaliyyət istiqamətləri**

Prokurorluq qanunla nəzərdə tutulmuş hallarda və qaydada:

▪ cinayət işi başlayır və ibtidai istintaq aparır;

▪ cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik edir və qanunlara riayət edilməsini təmin edir;

▪ təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarət edir;

▪ məhkəmədə iddia qaldırır (ərizə verir), mülki və iqtisadi mübahisələrə dair işlərə baxılmasında iddiaçı kimi iştirak

edir;

▪ məhkəmədə cinayət işlərinə baxılmasında tərəf kimi iştirak edir, dövlət ittihamını müdafiə edir;

▪ məhkəmə qərarlarından protest verir;

▪ məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədinə nail olunmasında iştirak edir.

Prokurorluğun üzərinə Azərbaycan Respublikasının Konstitusiyasında, bu Qanunda və prosessual qanunvericilikdə nəzərdə tutulmamış vəzifələrin qoyulması yolverilməzdir.

**Maddə 5.**
**Prokurorluğun fəaliyyətinin əsas prinsipləri**

Prokurorluğun fəaliyyətinin əsas prinsipləri aşağıdakılardır:

▪ qanunçuluq;

▪ hər kəsin qanun qarşısında hüquq bərabərliyi;

▪ fiziki şəxslərin hüquq və azadlıqlarına, hüquqi şəxslərin hüquqlarına əməl və hörmət edilməsi;

▪ obyektivlik, qərəzsizlik və faktlara əsaslanma;

▪ vahidlik və mərkəzləşdirmə, ərazi və ixtisaslaşdırılmış prokurorların Azərbaycan Respublikasının Baş prokuroruna tabe olması;

▪ siyasi bitərəflik.

**Maddə 6.**
**Prokurorluğun beynəlxalq əlaqələri**

Prokurorluq qanunvericiliklə müəyyən edilmiş qaydada xarici ölkələrin müvafiq orqanları və beynəlxalq təşkilatlarla

əlaqələr yarardır və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn məsələlərin həllində öz səlahiyyətləri çərçivəsində iştirak edir.

**Maddə 7.**

**Prokurorluğun fəaliyyətinə müdaxilənin və prokurorluğa hörmətsizlik göstərilməsinin yolverilməzliyi**

Hər hansı şəxs tərəfindən, hər hansı səbəbdən bilavasitə, yaxud dolayı yolla prokurorluğun qanuni fəaliyyətinə məhdudiyyət qoyulması, tə sir, hədə, qanunsuz müdaxilə edilməsi, habelə prokurorluğa hörmətsizlik göstərilməsi yolverilməzdir və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

## II FƏSİL

## Prokurorluğun sistemi və təşkili

**Maddə 8.**

**Prokurorluğun sistemi və təşkili**

Azərbaycan Respublikasının Prokurorluğu sisteminə daxildir:

- Azərbaycan Respublikasının Baş Prokurorluğu;
- Azərbaycan Respublikasının Hərbi Prokurorluğu;
- Naxçıvan Muxtar Respublikasının Prokurorluğu;
- Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu;
- rayon (şəhər) prokurorluqları;

▪ hərbi ixtisaslaşdırılmış prokurorluqları;

▪ tədris-elm müəssisələri, mətbuat orqanları, mətbəə, sosial-məişət, təsərrüfat təyinatlı digər qurumlar.

Azərbaycan Respublikasının Konstitusiyasına, bu Qanuna və Azərbaycan Respublikasının digər qanunlarına uyğun olaraq Azərbaycan Respublikasının Prokurorluğu sistemində ərazi prokurorluqları, həmçinin rayon (şəhər) prokurorluqlarına bərabər tutulan ixtisaslaşdırılmış prokurorluqlar və digər prokurorluqlar yaradıla bilər.

Prokurorluqların yaradılması, ləğv edilməsi, Baş prokurorluğun strukturunun və ştat vahidlərinin ümumi sayının təsdiqi məsələləri Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq həll edilir.

**Maddə 9.**

**Azərbaycan Respublikasının Baş Prokurorluğu**

Azərbaycan Respublikasının Baş Prokurorluğu prokurorluğun mərkəzi aparatıdır. Azərbaycan Respublikasının Baş Prokurorluğuna birinci müavini, müavinləri, böyük köməkçiləri və köməkçiləri olan Azərbaycan Respublikasının Baş prokuroru rəhbərlik edir.

Azərbaycan Respublikasının Baş Prokurorluğunun strukturuna idarə, şöbə və digər qurumlar daxildir. İdarə və şöbələrin tərkibində Azərbaycan Respublikası Baş prokurorunun böyük köməkçiləri hesab edilən idarə rəisləri, köməkçiləri hesab edilən idarə rəislərinin müavinləri və şöbə rəisləri, habelə prokurorlar və müstəntiqlər vardır.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bu Qa-

nunun 4-cü maddəsində nəzərdə tutulmuş vəzifələri yerinə yetirməklə bütün prokurorluq orqanlarının fəaliyyətinə rəhbərlik edir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bu Qanunun 4-cü maddəsində nəzərdə tutulmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq:

▪ qanunların icra və tətbiq olunmasına prokuror nəzarəti təcrübəsini öyrənir və ümumiləşdirir, prokuror nəzarətinin təkmilləşdirilməsi və hüquq pozuntularının qarşısının alınması üçün tədbirlər hazırlayıb həyata keçirir;

▪ müvafiq orqanlarla birgə cinayətkarlığın, cinayətlərin açılması vəziyyətinin, cinayət işlərinin hərəkətinin vahid uçotu və statistik hesabatlarına dair metodikanın hazırlanmasında iştirak edir;

▪ prokurorluğun kadrlarının seçilib yerləşdirilməsi və peşə hazırlığının yüksəldilməsi işini təşkil edir;

▪ statistik hesabatları təmin edir, prokuror və istintaq təcrübəsinin ümumiləşdirilməsini və təkmilləşdirilməsini, elmi-texniki vasitələrin tətbiqini təşkil edir;

▪ prokurorluğun maliyyələşdirilməsinə və elmi-texniki təminatına dair təkliflər hazırlanmasını təmin edir;

▪ Azərbaycan Respublikası Baş prokurorunun əmr, göstəriş və digər aktlarını həyata keçirir;

▪ Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirir.

Azərbaycan Respublikasının Baş Prokurorluğunda Kollegiya yaradılır.

**Maddə 10.**

**Azərbaycan Respublikasının Baş prokuroru**

Azərbaycan Respublikasının Prokurorluğuna Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin III hissəsinə uyğun olaraq vəzifəyə təyin və vəzifədən azad edilən Azərbaycan Respublikasının Baş prokuroru rəhbərlik edir (bundan sonra–«Baş prokuror»).

Baş prokurorun müavinləri Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin IV hissəsinə uyğun olaraq vəzifəyə təyin və vəzifədən azad edilir.

**Baş prokuror:**

▪ bilavasitə, habelə Azərbaycan Respublikasının Baş prokurorluğu və ona tabe olan prokurorlar vasitəsi ilə bu Qanunun 4-cü maddəsində nəzərdə tutulan vəzifələri yerinə yetirir, prokurorluq orqanlarına rəhbərlik edir;

▪ qanunla müəyyən edilmiş qaydada prokurorluğun fəaliyyətini təşkil edir;

▪ prokurorluqların yaradılmasına və ya ləğv edilməsinə, Baş prokurorluğun strukturuna, ştat vahidlərinin ümumi sayına dair təkliflərini təqdim edir, tabe prokurorluqların strukturunu təsdiq edir və ştat vahidlərini bölüşdürür;

▪ baş prokurorun müavinlərinin, respublika ixtisaslaşdırılmış prokurorluqlarına rəhbərlik edən prokurorların, Naxçıvan Muxtar Respublikası prokurorunun vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə təqdimat verir;

▪ ərazi və ixtisaslaşdırılmış prokurorları Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin V hissəsinə uyğun olaraq, digər prokurorluq işçilərini vəzifəyə təyin və vəzifədən azad edir;

▪ Azərbaycan Respublikasının Hərbi Prokurorluğu, Naxçıvan Muxtar Respublikasının Prokurorluğu və digər prokurorluqların kollegiyalarının tərkibini təsdiq edir;

▪ Azərbaycan Respublikası Prokurorluğunun Kollegiyasını çağırır, ona rəhbərlik edir;

▪ prokurorluğa ayrılmış vəsaitləri bölüşdürür;

▪ baş prokurorun müavinlərinin, Baş prokurorluğun struktur bölmələrinin və aşağı prokurorluqların funksional vəzifələrini müəyyən edir;

▪ öz səlahiyyətləri çərçivəsində müəyyən olunmuş qaydada xüsusi rütbələr verir;

▪ ali xüsusi və ali hərbi rütbələr verilməsi üçün vəsatət qaldırır;

▪ Azərbaycan Respublikasının Prokurorluğunu təmsil edir;

▪ Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun iclaslarında iştirak edir, qanunla müəyyən edilmiş hallarda və qaydada işlərə əlavə kassasiya qaydasında baxılması üçün protest verir;

▪ Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş qaydada və səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikası Milli Məclisi deputatlarının və Azərbaycan Respublikası Baş Nazirinin toxunulmazlığının xitam edilməsi məsələsinə dair təqdimat verir;

▪ hakimlər barəsində cinayət təqibinin həyata keçirilməsinə razılıq verilməsi üçün Məhkəmə-Hüquq Şurasına təqdimat verir, Mərkəzi Seçki Komissiyası üzvünün məsuliyyətə cəlb edilməsinə razılıq verir;

▪ Azərbaycan Respublikası Konstitusiyasının 130-cu

maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu verir;

▪ Məhkəmə-Hüquq Şurasının üzvləri barəsində cinayət təqibinin həyata keçirilməsinə razılıq verilməsi üçün Məhkəmə-Hüquq Şurasına təqdimat verir;

▪ qanunvericiliklə müəyyən edilmiş qaydada xarici dövlətlərin müvafiq hüquq mühafizə orqanları və beynəlxalq təşkilatlarla əməkdaşlıq haqqında müqavilələr bağlayır və öhdəliklərin yerinə yetirilməsini təmin edir;

▪ öz səlahiyyətləri çərçivəsində prokurorluq işçilərinin mükafatlandırılması və onların barəsində intizam tənbehi tətbiq edilməsi, o cümlədən xüsusi rütbələrdən məhrum edilməsi məsələlərini həll edir;

▪ öz səlahiyyətləri çərçivəsində, qanunlar əsasında icrası prokurorluq işçiləri üçün məcburi olan əmr, sərəncam, göstəriş və digər aktlar verir;

▪ aşağı prokurorların qanunazidd əmr, göstəriş və digər aktlarını ləğv edir, dəyişdirir və ya geri götürür;

▪ prokurorluq orqanlarında stajorluq və sınaq keçmə qaydalarını və Baş prokurorluğun elmi-məsləhət şurasının tərkibini təsdiq edir;

▪ qanunla səlahiyyətinə aid edilmiş digər məsələləri həll edir.

Qanunla müəyyən edilmiş hallar istisna olmaqla Baş prokuror öz səlahiyyətlərinin həyata keçirilməsini müavinlərinə tapşıra və ya onların səlahiyyətlərini üzərinə götürə bilər.

Baş prokurorun birinci müavini və müavinləri prokurorluğun fəaliyyətinin müvafiq sahələrinə rəhbərlik edir.

Baş prokuror hər hansı səbəbdən vəzifələrini icra edə

bilmədikdə, onun vəzifələrini Baş prokurorun birinci müavini, o olmadıqda Baş prokurorun müavinlərindən biri həyata keçirir.

**Maddə 11.**

**Azərbaycan Respublikası Baş prokurorluğunun Kollegiyası**

Azərbaycan Respublikası Baş prokurorluğunun Kollegiyası məşvərətçi orqan olmaqla ona rəhbərliyi Baş prokuror həyata keçirir. Baş prokurorluğun Kollegiyasının tərkibinə tutduqları vəzifəyə görə Baş prokuror, onun müavinləri və digər rəhbər işçilər daxildirlər.

Baş prokurorluğun Kollegiyasının tərkibi Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq təsdiq edilir.

Baş prokurorluğun Kollegiyasında prokurorluğun fəaliyyətinin əsas istiqamətləri, cinayətkarlığa qarşı mübarizənin və icra intizamının vəziyyəti, mühüm kadr məsələləri, əmr və digər aktların layihələri müzakirə edilir, aşağı prokurorluqların hesabatları dinlənilir, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğular verilməsi məsələlərinə, habelə prokurorluğun fəaliyyətinə dair digər məsələlərə baxılır. Kollegiyanın iclasları Baş prokuror tərəfindən mütəmadi olaraq çağırılır. Kollegiya üzvləri müzakirə edilən məsələlərə dair qərar qəbul olunarkən səsvermədə bərabər hüquqlara malikdirlər. Qərarlar səs çoxluğu ilə qəbul edilir.

Baş prokurorla Kollegiya üzvləri arasında fikir ayrılığı olduqda Baş prokuror öz əsaslandırılmış qərarını həyata keçirir. Kollegiyada müzakirə edilən məsələlər üzrə proku-

rorluq işçiləri üçün icrası məcburi olan qərarlar qəbul edilir və bu qərarlara əsasən Baş prokuror əmr verə bilər.

**Maddə 12.**
**Azərbaycan Respublikasının Hərbi prokurorluğu**

Azərbaycan Respublikasının Hərbi prokurorluğu ixtisaslaşdırılmış prokurorluq olmaqla Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş başqa silahlı birləşmələrdə (bundan sonra-Azərbaycan Respublikasının Silahlı Qüvvələri), bu Qanunla və Azərbaycan Respublikasının digər qanunları ilə Hərbi prokurorluqlara aid edilmiş səlahiyyətləri həyata keçirir.

Azərbaycan Respublikasının Hərbi prokurorluğu tutulmuş və həbs edilmiş hərbi qulluqçuların saxlanıldığı yerlərdə, intizam hissələrində, eləcə də cəzaların hərbi hissələrdə icra edilməsi zamanı qanunlara və hərbi nizamnamələrə əməl olunmasına nəzarət edir, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində keçirilən idarədaxili yoxlamaların materiallarını tələb edir, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində əmlakın talanması, hərbi xidmət əleyhinə, habelə hərbi qulluqçular tərəfindən törədilən və ya hazırlanan digər cinayətlər barədə ərizə, şikayət, müraciət, əməliyyat-axtarış fəaliyyəti subyektlərinin məlumatları və qanunvericiliklə müəyyən edilmiş digər məlumatlar əsasında Azərbaycan Respublikası Hərbi prokurorunun qərarı ilə yoxlamanın aparılmasını, bu məqsədlə mütəxəssislərin ayrılmasını, habelə araşdırılan faktların cinayət işinin başlanmasına kifayət qədər əsas verib-verməməsindən asılı

olaraq müvafiq qərarın qəbul edilməsini təmin edir.

Hərbi prokurorluq öz vəzifələrini hərbi idarəetmə orqanlarından və komandanlıqdan asılı olmayaraq icra edir.

Hərbi prokurorluqların işçiləri xidməti vəzifələrin icrası ilə əlaqədar bütün hərbi idarəçilik orqanların, hərbi hissələrin, hərbi müəssisə və idarələrin bina və ərazilərinə maneəsiz daxil ola bilərlər.

Azərbaycan Respublikasının Hərbi prokurorluqlarına aiddir:

- Azərbaycan Respublikasının Hərbi prokurorluğu;
- Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu;
- hərbi prokurorluqlar.

Hərbi prokurorluqlar Azərbaycan Respublikası Silahlı Qüvvələri hərbi qarnizonlarının yerləşdiyi ərazilərdə, bu prokurorluğun fəaliyyət dairəsinə aid edilmiş hərbi hissələrin sayı nəzərə alınmaqla təşkil edilir.

Azərbaycan Respublikasının Hərbi prokurorluğuna vəzifəsinə görə Baş prokurorun müavini hesab edilən Azərbaycan Respublikasının hərbi prokuroru rəhbərlik edir.

Azərbaycan Respublikasının Hərbi prokuroru Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin dördüncü hissəsinə uyğun olaraq vəzifəyə təyin və vəzifədən azad edilir.

Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda idarə, şöbə və digər struktur bölmələri yaradıla bilər. İdarə və şöbələrin rəisləri və müavinləri hərbi prokurorun böyük köməkçiləri və köməkçiləri hesab edilir. İdarə və şöbələrə prokurorlar və müstəntiqlər təyin edilə bilər.

Azərbaycan Respublikası Hərbi prokurorluğunun işçilə-

rini Azərbaycan Respublikasının Baş prokuroru vəzifəyə təyin və vəzifədən azad edir. Azərbaycan Respublikasının Hərbi prokuroru həmin şəxslərin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə təqdimat verə bilər.

Azərbaycan Respublikasının Hərbi prokuroru öz səlahiyyətləri çərçivəsində əmr, göstəriş, digər aktlar verir və onların icrası hərbi prokurorluğun bütün işçiləri üçün məcburidir.

Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda məşvərətçi orqan olan və Azərbaycan Respublikasının hərbi prokuroru rəhbərlik edən Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Kollegiyası yaradılır.

Kollegiyanın tərkibinə Azərbaycan Respublikasının Hərbi prokuroru, onun müavinləri, Naxçıvan Muxtar Respublikasının hərbi prokuroru, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun idarə, şöbə rəisləri və digər rəhbər işçiləri daxildirlər.

Kollegiyanın tərkibini Azərbaycan Respublikası Hərbi prokurorunun təqdimatı əsasında Azərbaycan Respublikasının Baş Prokuroru təsdiq edir.

Kollegiya öz səlahiyyətləri çərçivəsində bu Qanunun 11-ci maddəsinin üçüncü və dördüncü hissələrində nəzərdə tutulmuş həddə fəaliyyət göstərir.

Hərbi prokurorluq orqanlarının zabitləri «Hərbi xidmət haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikası Silahlı Qüvvələrində hərbi xidmət keçir və onlar «Hərbi qulluqçuların statusu haqqında» Azərbaycan Respublikasının Qanunu və digər qanunlarla müəyyən edilmiş hüquq və imtiyazlara malikdirlər.

Hərbi prokurorluq orqanlarında qulluq edən vətəndaşların hərbi xidmətə çağırışı, onların ehtiyata və istefaya buraxılması Azərbaycan Respublikasının Hərbi prokuroru tərəfindən həyata keçirilir.

**Maddə 14.**
**Naxçıvan Muxtar Respublikasının Prokurorluğu**

Naxçıvan Muxtar Respublikasının Prokurorluğuna Naxçıvan Muxtar Respublikasının prokuroru rəhbərlik edir.

Naxçıvan Muxtar Respublikasının prokuroru Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin IV hissəsinə uyğun olaraq vəzifəyə təyin və vəzifədən azad edilir.

Naxçıvan Muxtar Respublikası prokurorunun müavini, böyük köməkçiləri və köməkçiləri vardır.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunda şöbələr və digər struktur bölmələri yaradıla bilər. Bu şöbələrə Naxçıvan Muxtar Respublikası prokurorunun böyük köməkçiləri hesab edilən şöbə rəisləri, prokurorlar və müstəntiqlər təyin edilə bilər.

Naxçıvan Muxtar Respublikası prokurorluğunun işçilərini bir qayda olaraq Naxçıvan Muxtar Respublikası prokurorunun təqdimatı ilə Baş prokuror vəzifəyə təyin və vəzifədən azad edir.

Naxçıvan Muxtar Respublikasının prokuroru bu Qanunda və Azərbaycan Respublikasının digər qanunlarında nəzərdə tutulmuş səlahiyyətlər çərçivəsində fəaliyyət göstərir.

Naxçıvan Muxtar Respublikasının prokuroru öz səlahiyyətləri çərçivəsində əmr, göstəriş, digər aktlar verir və

onların icrası Naxçıvan Muxtar Respublikasının prokurorluq işçiləri üçün məcburidir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunda məşvərətçi orqan olan və Naxçıvan Muxtar Respublikasının prokuroru rəhbərlik edən Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Kollegiyası yaradılır.

Kollegiyanın tərkibinə Naxçıvan Muxtar Respublikasının prokuroru, onun müavinləri, şöbə rəisləri və digər rəhbər işçilər daxildirlər.

Kollegiyanın tərkibini Naxçıvan Muxtar Respublikası prokurorunun təqdimatı əsasında Azərbaycan Respublikasının Baş Prokuroru təsdiq edir.

Kollegiya öz səlahiyyətləri çərçivəsində bu Qanunun 11-ci maddəsinin üçüncü və dördüncü hissələrində nəzərdə tutulmuş qaydada fəaliyyət göstərir.

**Maddə 14-1.**

**Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu**

Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğuna Naxçıvan Muxtar Respublikasının hərbi prokuroru rəhbərlik edir. Naxçıvan Muxtar Respublikası hərbi prokurorunun müavini, böyük köməkçiləri və köməkçiləri vardır.

Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunda şöbələr və digər struktur bölmələri yaradıla bilər. Bu şöbələrə Naxçıvan Muxtar Respublikası hərbi prokurorunun böyük köməkçiləri hesab edilən şöbə rəisləri, prokurorlar və müstəntiqlər təyin edilə bilər.

Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun

işçilərini Azərbaycan Respublikasının Baş prokuroru vəzifəyə təyin və vəzifədən azad edir. Naxçıvan Muxtar Respublikası hərbi prokuroru həmin şəxslərin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə təqdimat verə bilər. Naxçıvan Muxtar Respublikasının hərbi prokuroru bu qanunda və Azərbaycan Respublikasının digər qanunlarında nəzərdə tutulmuş səlahiyyətlər çərçivəsində fəaliyyət göstərir.

Naxçıvan Muxtar Respublikasının hərbi prokuroru öz səlahiyyətləri çərçivəsində əmr, göstəriş, digər aktlar verir və onların icrası Naxçıvan Muxtar Respublikasının hərbi Prokurorluq işçiləri üçün məcburidir.

**Maddə 15.**
**Ərazi və ixtisaslaşdırılmış prokurorluqlar**

Azərbaycan Respublikasının rayonlarında, şəhərlərində (rayon tabeli şəhərlərdən başqa), şəhərdəki rayonlarda müvafiq olaraq rayon, şəhər prokurorluqları təşkil edilir.

İxtisaslaşdırılmış prokurorluqlara hərbi prokurorluqlar aiddir.

Ərazi və ixtisaslaşdırılmış prokurorluqlara müvafiq prokuror başçılıq edir. Rayon bölgüsü olan şəhərlərin prokuroru həm də tabeliyində olan rayon prokurorluqlarının fəaliyyətinə rəhbərlik edir.

Ərazi və ixtisaslaşdırılmış prokurorlar Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin V hissəsinə uyğun olaraq vəzifəyə təyin və vəzifədən azad edilirlər.

Ərazi və ixtisaslaşdırılmış prokurorların müavinləri, böyük köməkçiləri, köməkçiləri və prokurorluqda müstəntiqlər vardır.

Ərazi və ixtisaslaşdırılmış prokurorlar bu Qanunda və Azərbaycan Respublikasının digər qanunlarında nəzərdə tutulmuş səlahiyyətləri həyata keçirirlər.

Ərazisi, əhalisi və iş həcmi nəzərə alınmaqla şəhər prokurorluqlarında şöbələr və digər bölmələr, məşvərətçi orqan olan kollegiyalar yaradıla bilər. Həmin kollegiyalar öz səlahiyyətləri çərçivəsində bu Qanunun 11-ci maddəsində nəzərdə tutulmuş qaydada fəaliyyət göstərirlər.

**Maddə 16.**
**Prokurorluğun təşkilinin digər məsələləri**

Azərbaycan Respublikası Baş prokurorunun, Azərbaycan Respublikası Hərbi prokurorunun, Naxçıvan Muxtar Respublikası prokurorunun, Naxçıvan Muxtar Respublikası hərbi prokurorunun, ərazi və ixtisaslaşdırılmış prokurorların səlahiyyət müddəti 5 ildir.

Eyni şəxs iki dəfədən artıq təkrarən Azərbaycan Respublikasının Baş prokuroru, Azərbaycan Respublikasının Hərbi prokuroru, Naxçıvan Muxtar Respublikasının prokuroru, Naxçıvan Muxtar Respublikasının hərbi prokuroru vəzifəsinə təyin edilə bilməz. Ərazi və ixtisaslaşdırılmış prokurorlar eyni ərazi vahidlərinə iki dəfədən artıq təkrarən təyin edilə bilməz.

Prokurorluq aşağı prokurorların yuxarı prokurora tabeliyi əsasında fəaliyyət göstərir:

▪ prokurorun fəaliyyətinə və təşkili məsələlərə dair yuxarı prokurorun göstərişlərinin icrasının aşağı prokurorlar üçün məcburiliyi;

▪ xidməti vəzifələrinin icrası zamanı aşağı prokurorların yuxarı prokurorlar qarşısında məsuliyyəti;

▪ zərurət olduqda aşağı prokurorların səlahiyyətlərinin yuxarı prokurorlar tərəfindən həyata keçirilməsi;

▪ aşağı prokurorların qərar və aktlarının yuxarı prokurorlar tərəfindən ləğv edilməsi, geri götürülməsi, dəyişdirilməsi, yaxud başqa qərar və aktlarla əvəz olunması;

▪ aşağı prokurorların aktlarından verilmiş şikayətlərə yuxarı prokurorlar tərəfindən baxılması;

▪ aşağı prokurorların öz fəaliyyəti barədə hesabatların, məlumatların, işlərin və materialların yuxarı prokurorlara təqdim edilməsi.

Aşağı prokurorlar, yaxud prokurorluğun digər işçiləri yuxarı prokurorun bütün qanuni tələblərini və göstərişlərini icra etməyə borcludurlar.

## III FƏSİL

## Prokurorluq orqanlarının fəaliyyəti

**Maddə 17.**

**Cinayət işinin başlanması, ibtidai istintaqın aparılması və cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsi**

Prokurorluq Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində nəzərdə tutulmuş qaydada və hallarda cinayət işləri başlayır və ibtidai istintaq aparır.

Cinayət təqibinin həyata keçirilməsini təmin etmək məqsədilə prokurorluq cinayət işi üzrə ibtidai araşdırmaya

prosessual rəhbərlik edir, qanunların icrasına və tətbiqinə nəzarət edir, bu sahədə qanunvericilik aktlarının icra vəziyyətini öyrənir və ümumiləşdirir.

**Maddə 18.**

**Təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icrasına nəzarət**

Prokuror təhqiqat orqanlarının fəaliyyətində qanunların eyni cür və dürüst icrasını və tətbiqini təmin etmək məqsədilə aşağıdakı nəzarəti həyata keçirir:

- cinayətlər və digər qanunazidd hərəkətlər barədə təhqiqat orqanlarına daxil olmuş ərizə və məlumatların qeydə alınması, onlara baxılması və müvafiq tədbirlər görülməsinə dair qanunvericiliklə müəyyən olunmuş qaydalara əməl edilməsi;
- təhqiqat orqanları tərəfindən Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hərəkətlərin yerinə yetirilməsi və bu fəaliyyət prosesində qəbul olunan qərarların qanuniliyi.

Prokuror əməliyyat-axtarış fəaliyyətinə dair qanunların tələblərinin əməliyyat-axtarış orqanları tərəfindən icrasını təmin etmək məqsədi ilə bu orqanlar tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirlərinin keçirilməsi və onların qəbul etdiyi qərarların qanuniliyi üzərində nəzarəti həyata keçirir.

Əməliyyat-axtarış fəaliyyətinə prokuror nəzarətinin predmetinə aid məsələlər «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

**Maddə 19.**

**Ədalət mühakiməsinin həyata keçirilməsində prokurorun iştirakı və dövlət ittihamının müdafiəsi**

Hakimlərin müstəqilliyi və onların yalnız qanuna tabe olması prinsipinə dönmədən əməl edilməklə prokurorlar Azərbaycan Respublikasının prosessual qanunvericiliyində nəzərdə tutulmuş qaydada və hallarda məhkəmələrdə cinayət işlərinə birinci instansiya, apellyasiya və kassasiya qaydasında baxılmasında tərəf kimi iştirak edir, rəy verir, dövlət ittihamını müdafiə edir, məhkəmədə iddia qaldırır, mülki və iqtisadi mübahisələrə dair işlərə baxılmasında iddiaçı qismində iştirak edir, məhkəmə qərarlarından protest verir.

İbtidai istintaq aparan və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror dövlət ittihamını müdafiə edə bilməz.

Ədalət mühakiməsinin həyata keçirilməsində ittihamı sübutetmə vəzifəsi prokurorun üzərinə düşür.

Toplanmış sübutlarla ittiham təsdiq edilmirsə və imtinaya əsaslar varsa prokuror ittihamı müdafiə etməkdən tam və ya qismən imtina edir.

Ədalət mühakiməsinin həyata keçirilməsində prokurorun səlahiyyətləri Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə müəyyən edilir.

**Maddə 20.**

**Prokurluqda ərizə, şikayət və müraciətlərə baxılması**

Prokurorluqda qanunla müəyyən edilmiş qaydada və səlahiyyətləri daxilində ərizə, şikayət və müraciətlərə baxılır,

vətəndaşların qəbulu həyata keçirilir.

Cinayət barədə ərizə, şikayət və müraciətlərə təxirəsalınmadan baxılır.

Bu hallarda müvafiq prokuror qanunla nəzərdə tutulmuş səlahiyyətləri çərçivəsində ərizə, şikayət və müraciətlərdə göstərilən faktların yoxlanılması məqsədilə, dövlət orqanlarından və ya audit təşkilatlarından mütəxəssisin ayrılmasını təmin edir və araşdırılan faktların cinayət işinin başlanmasına kifayət qədər əsas verib-verməməsindən asılı olaraq müvafiq qərar qəbul edir.

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq prokurorluğa daxil olmuş anonim ərizə, şikayət və müraciətlərə baxılmır.

## IV FƏSİL

## Prokuror aktları

### Maddə 21.
### Prokuror aktlarının növləri

Prokuror öz səlahiyyətlərini həyata keçirərkən qanunla müəyyən edilmiş qaydada və çərçivədə aşağıdakı aktları çıxara bilər:

- xəbərdarlıq;
- təqdimat;
- qərar;
- yazılı göstəriş;
- iddia ərizəsi (ərizə);

▪ məhkəmə qərarlarından protest.

Prokuror aktları onu çıxaran prokurorun özü və ya yuxarı prokuror tərəfindən geri götürülə, dəyişdirilə və ya ləğv edilə bilər.

**Maddə 22.**
**Xəbərdarlıq**

Qanun pozuntularından çəkindirmək məqsədi ilə prokuror və ya onun müavini vətəndaşa və ya vəzifəli şəxsə rəsmi xəbərdarlıq edir.

**Maddə 23.**
**Təqdimat**

Prokuror bu Qanunda nəzərdə tutulmuş səlahiyyətləri həyata keçirərkən qanun pozuntularının, onları doğuran səbəb və şəraitin aradan qaldırılmasına dair müvafiq təşkilatlara, yaxud vəzifəli şəxslərə təqdimat verir.

Təqdimata baxılması və görülmüş tədbirlər barədə bir aydan gec olmayaraq prokurora yazılı məlumat verilməlidir.

Təqdimata kollegial orqan tərəfindən baxıldıqda iclasın keçirilmə vaxtı barədə prokurora azı 3 gün əvvəl məlumat verilməlidir.

Prokuror təqdimata kollegial orqan tərəfindən baxılmasında iştirak edə bilər.

Prokuror prosessual qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda da təqdimat verə bilər.

**Maddə 24.**
**Qərar**

Prokuror cinayət və inzibati xəta aşkar etdikdə və digər

hallarda müvafiq olaraq cinayət işi başlamaq və ya inzibati xətalara dair icraat başlamaq haqqında, yaxud digər qərar çıxarır.

**Maddə 25.**

**Yazılı göstəriş**

Prokuror qanunda nəzərdə tutulmuş hallarda təhqiqat və ya ibtidai istinqat orqanlarına yazılı göstəriş vermək hüququna malikdir.

Prokurorun təhqiqat və ya ibtidai istintaq məsələlərinə dair yazılı göstərişinin icrası məcburidir.

**Maddə 26.**

**İddia ərizəsi**

Prokuror Azərbaycan Respublikasının prosessual qanunvericiliyində nəzərdə tutulmuş qaydada və hallarda iddia ərizəsi (ərizə) ilə məhkəməyə müraciət edə bilər.

**Maddə 27.**

**Məhkəmə qərarlarından protest**

Prokuror Azərbaycan Respublikasının prosessual qanunvericiliyində nəzərdə tutulmuş qaydada və hallarda məhkəmə qərarlarından protest verir.

Protest prokurorun iştirak etdiyi iş üzrə məhkəmə qərarından onun yuxarı məhkəməyə verdiyi şikayətdir və öz hüquqi statusuna, hüquqi nəticələrinə görə digər tərəfin şikayətinə bərabər tutulur.

Protest baxılanadək onu vermiş prokuror, yaxud yuxarı prokuror tərəfindən geri götürülə, yaxud başqa protestlə

əvəz oluna bilər.

**Maddə 28.**

**Prokurorluq işçilərinin hərəkətindən (hərəkətsizliyindən) və aktlarından şikayət**

Prokurorluq işçilərinin hərəkətlərindən (hərəkətsizliyindən) və aktlarından müvafiq olaraq yuxarı prokurora və ya məhkəməyə şikayət verilə bilər.

Azərbaycan Respublikasının prosessual qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna edilməklə şikayətin verilməsi prokuror aktlarının icrasını dayandırmır.

## V FƏSİL

## Prokurorluq orqanlarının kadrları

**Maddə 29.**

**Prokuror və prokurorluğun müstəntiqi vəzifələrinə təyin olunmaq üçün tələblər**

Prokuror, prokurorluğun müstəntiqi ali hüquq təhsilli, seçkilərdə iştirak etmək hüququna, prokuror və ya müstəntiq vəzifələrinin yerinə yetirilməsi üçün zəruri peşə keyfiyyətlərinə malik Azərbaycan Respublikası vətəndaşları ola bilərlər.

Prokurorluğa işə qəbul edilmirlər:

- ikili vətəndaşlığı olan şəxslər;
- digər dövlətlər qarşısında öhdəlikləri olanlar;

▪ din xadimləri;

▪ fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən təsdiq edilmiş, tibbi rəyə əsasən fiziki və əqli qüsurlarına görə prokuror və ya prokurorluğun müstəntiqi vəzifələrini yerinə yetirməyə qadir olmayan şəxslər;

▪ alkoqolizm, narkomaniya, toksikomaniya və digər ağır xəstəliklərə tutulmuş şəxslər (bu barədə həkim rəyi olduqda);

▪ əvvəllər məhkum olmuş, habelə bəraətverici əsaslar olmadan barəsində cinayət işinin icraatına xitam verilmiş şəxslər;

▪ əvvəllər yol verdiyi kobud nöqsanlara və ya prokuror və müstəntiq adı ilə bir araya sığmayan hərəkətlərə görə vəzifədən azad edilmiş şəxslər;

▪ qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırış yaşlı vətəndaşlar prokurorluq orqanlarında qulluğa qəbul edilmirlər.

Prokurorluğa ilk dəfə işə qəbul olunmaq üçün namizədlər müvəffəqiyyətlə müsabiqədən keçdikdən sonra, bir qayda olaraq, bir illik iş təcrübəsi (stajorluq) keçirlər.

Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsinin ümumi qaydaları Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq müəyyən edilir.

Azərbaycan Respublikasının Baş prokuroru stajorluq müddətini azalda və ya işçini ondan tamamilə azad edə bilər.

Stajorluq müddəti bitdikdən sonra işçi attestasiyadan keçirilir və attestasiyanın nəticəsindən asılı olaraq işçinin bir illik sınaq müddəti ilə vəzifəyə təyin edilməsi məsələsi həll olunur;

Prokuror vəzifəsinə, bir qayda olaraq, prokurorluq orqanlarında ən azı 5 il iş stajı olan şəxs təyin edilə bilər.

Azərbaycan Respublikasının Baş prokuroru, onun müavinləri, Azərbaycan Respublikasının Hərbi prokuroru, Naxçıvan Muxtar Respublikasının prokuroru, Naxçıvan Muxtar Respublikasının hərbi prokuroru, ərazi və ixtisaslaşdırılmış prokuror vəzifələrinə 30 yaşına çatmış şəxslər təyin oluna bilər.

Hərbi prokurorluğa prokurorluq orqanlarının kadrları üçün müəyyən edilmiş ümumi tələblərə əməl edilməklə, bir qayda olaraq, hərbi qulluqçular, həmçinin müddətli hərbi xidmət keçmiş və hərbi qulluğa yararlı şəxslər işə qəbul edilirlər.

Prokurorluğun digər işçilərinin işə qəbulu və işdən azad edilməsi qaydaları Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

**Maddə 30.**

**Prokuror və ya müstəntiq vəzifəsi ilə bir araya sığmayan fəaliyyət**

Prokuror və ya müstəntiq heç bir seçkili və ya digər təyinatlı vəzifələr tuta bilməz, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə, həmçinin siyasi fəaliyyətlə məşğul ola və siyasi partiyalara üzv ola bilməz.

**Maddə 31.**
**Prokurorluq işçilərinin andı**

İlk dəfə prokurorluğa işə qəbul olunmuş prokurorluq işçisi işə başlamamışdan əvvəl aşağıdakı məzmunda and içir:

«Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına dönmədən əməl edəcəyimə, öz vəzifələrimi layiqincə yerinə yetirəcəyimə, xidməti sirri qoruyacağıma, prokurorluq işçisinin şərəf və ləyaqətini uca tutacağıma and içirəm».

Andı içən andın mətnini imzalayır və sənəd onun şəxsi işində saxlanılır.

**Maddə 32.**
**Prokurorluq işçisinin həvəsləndirilməsi**

Xidməti vəzifələrinin nümunəvi icrasına və digər xidmətlərinə görə prokurorluq işçisinə aşağıdakı həvəsləndirmə tədbirləri tətbiq oluna bilər:

- təşəkkür;
- pul mükafatı;
- qiymətli hədiyyə ilə mükafatlandırma;
- fəxri fərman ilə təltif edilmə;
- fəxri döş nişanı ilə təltif edilmə;
- növbədənkənar və ya vaxtından əvvəl xüsusi rütbə verilməsi;
- əvvəllər verilmiş intizam cəzasının vaxtından əvvəl götürülməsi.

Prokurorluq işçilərinin həvəsləndirilməsi qaydaları «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

**Maddə 33.**

**Prokurorluq işçisinin məsuliyyəti**

Prokurorluq işçisi cinayət törətdikdə ümumi əsaslarla məsuliyyət daşıyır.

Azərbaycan Respublikasının prokurorluq işçilərinin inzibati qaydada həbs edilməsi, gətirilməsi, tutulması, cinayət məsuliyyətinə cəlb edilməsi, həbsə alınması, mənzilində, nəqliyyat vasitəsində, iş yerində axtarış və şəxsi axtarış, telefon və digər vasitələrlə danışığına qulaq asma, cinayət başında yaxalanma halları istisna edilməklə, Azərbaycan Respublikası Baş prokurorunun müraciəti əsasında Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin razılığı olmadan həyata keçirilə bilməz. Bu halda dərhal Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrinə məlumat verilməklə müvafiq sənədlər təqdim edilir. O, razılıq vermədikdə tutulmuş, yaxud həbs olunan şəxs dərhal azad edilir.

Azərbaycan Respublikası Baş prokurorunun toxunulmazlığına dair həmin hərəkətlər Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun razılığı olmadan həyata keçirilə bilməz.

Tutulmuş, həbsə alınan və ya məhkum olunan prokurorluq işçiləri digər şəxslərdən ayrı saxlanılır.

Prokurorluq işçisinin barəsində cinayət işini yalnız Azərbaycan Respublikasının Baş prokuroru başlayır və cinayət işi Azərbaycan Respublikasının Baş Prokurorluğunda istintaq edilir.

Prokurorluq işçisinin barəsində başlanmış cinayət işinin istintaqı müddətində yekun qərarı qəbul edilənədək prokurorluq işçisi müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən vəzifəsindən

kənarlaşdırılır. Vəzifədən kənarlaşdırılmış prokurorluq işçisi haqqında bəraət hökmü çıxarıldıqda və ya cinayət işinin icraatına bəraətverici əsaslarla xitam verildikdə onun səlahiyyətləri bərpa olunur.

Xidməti intizamı pozduğuna görə prokurorluq işçisinin barəsində aşağıdakı intizam tənbehlərindən biri tətbiq oluna bilər:

- irad tutma;
- töhmət;
- şiddətli töhmət;
- aşağı vəzifəyə keçirmə;
- xüsusi rütbənin aşağı salınması;
- vəzifədən azad etmə (bu halda prokurorluq işçisi üç ayadək müddətdə sərəncamda ola bilər, həmin müddət ərzində şəxsin prokurorluq orqanlarından xaric edilməsinə əsaslar olmazsa, o prokurorluq orqanlarında işə təyin edilir);
- prokurorluq orqanlarından xaric etmə;
- xüsusi rütbədən məhrum olunmaqla prokurorluq orqanlarından xaric etmə.

Prokurorluq işçisi «Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) intizam məsuliyyətinə cəlb olunur.

Prokurorluq işçilərinin intizam məsuliyyətinə cəlb edilməsi qaydaları «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəy-

yən edilir.

Hərbi prokurorların və müstəntiqlərin intizam məsuliyyətinə cəlb elilməsi bu Qanunla, «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsi» ilə və digər qanunlarla tənzim olunur.

**Maddə 34.**

**Prokurorluqdan xaric olunma və prokurorluq işçisinin siyahıdan çıxarılma əsasları**

Prokurorluq işçisi aşağıdakı əsaslar olduqda prokurorluqdan xaric edilir:

▪ altı aydan artıq müddətdə xəstəliyi ilə əlaqədar vəzifəsinin yerinə yetirilməsinin qeyri-mümkünlüyü barədə həkim rəyi olduqda;

▪ attestasiya komissiyasının qərarı ilə tutduğu vəzifəyə (peşəyə) uyğun olmadıqda;

▪ xidməti və ya əmək intizamını kobud, yaxud mütəmadi pozduqda;

▪ qanunvericilik, icra, məhkəmə hakimiyyəti, yerli özünüidarəetmə orqanlarına seçildikdə və ya təyin edildikdə;

▪ öz arzusu ilə işdən çıxma barədə yazılı ərizə verdikdə;

▪ cinayət törətdiyinə görə məhkəmənin ittiham hökmü qanuni qüvvəyə mindikdə və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qərarı olduqda, habelə haqqında cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verildikdə;

▪ fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən müəyyən edildikdə;

▪ bu Qanunla prokuror və ya müstəntiq vəzifəsinə nami-

zədlər üçün müəyyən edilmiş tələblərə uyğun gəlmədiyi aşkar olduqda;

▪ prokuror və ya müstəntiq vəzifəsi ilə bir araya sığmayan fəaliyyətlə məşğul olduqda və ya hərəkətə yol verdikdə.

Prokurorluq işçisi vəfat etdikdə, habelə məhkəmə tərəfindən xəbərsiz itkin düşmüş hesab edildikdə və ya ölmüş elan edildikdə onun adı prokurorluq işçilərinin siyahısından çıxarılır.

**Maddə 35.**
**Prokurorluq işçilərinin xüsusi rütbələri**

Prokurorlara və prokurorun müstəntiqlərinə tutduqları vəzifələrə və iş stajına müvafiq olaraq xüsusi rütbələr verilir.

Xüsusi rütbələrin verilməsi, onlardan məhrum etmə qaydaları və əsasları «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

Xüsusi rütbələrə görə prokurorluq işçiləri vəzifə maaşına əlavə haqq alır və geyim forması ilə təmin olunurlar.

Hərbi prokurorluq orqanları əməkdaşlarına hərbi rütbələr, o cümlədən ilk hərbi rütbələr müvafiq hərbi prokurorun təqdimatı əsasında hərbi qulluqçular üçün müəyyən edilmiş qaydada, Ədliyyə polkovnik-leytenantı və Ədliyyə polkovniki rütbələri isə Baş prokurorla razılaşdırılmaqla, Azərbaycan Respublikasının Hərbi prokuroru tərəfindən verilir.

Ali hərbi və ali xüsusi rütbələr Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndinə əsasən verilir.

Hərbi prokurorluq orqanları zabitlərinin hərbi rütbələri

digər prokurorluq orqanları işçilərinin müvafiq xüsusi rütbələrinə uyğundur.

Əlavə haqq pensiyaya çıxmış, lakin xüsusi rütbədən məhrum edilməmiş prokurorluq işçiləri üçün də saxlanılır.

Prokuror və prokurorluğun müstəntiqlərinin xüsusi rütbələri Azərbaycan Respublikasının Silahlı Qüvvələri hərbi qulluqçularının və müvafiq icra hakimiyyəti orqanları əməkdaşlarının qanunvericiliklə müəyyən edilmiş müvafiq hərbi və xüsusi rütbələrinə bərabər tutulur.

## VI FƏSİL

## Prokurorluq işçilərinin hüquqi və sosial müdafiəsi

### Maddə 36.
### Prokurorluq işçilərinin hüquqi müdafiəsi

Prokurorluq işçisi xidməti fəaliyyətində müstəqildir və bu Qanunda nəzərdə tutulmuş hallardan və qaydadan başqa vəzifəsindən kənarlaşdırıla, azad oluna və ya prokurorluqdan xaric edilə bilməz.

Prokurorluq işçisinin xidməti vəzifələrinin icrasına mane olmaq, onun şərəf və ləyaqətini alçaltmaq, hədələmək, müqavimət və zorakılıq göstərmək, özünün və ailə üzvlərinin həyatına, səhhətinə və əmlakına qəsd etmək Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

Bu barədə məlumat alan dövlət orqanları dərhal onların

şəxsi və əmlak təhlükəsizliyini təmin etmək məqsədi ilə qanunda nəzərdə tutulmuş tədbirlər görməyə borcludurlar.

Prokurorluq işçiləri qanunvericiliklə müəyyən edilmiş qaydada odlu silahı saxlamaq və gəzdirmək hüququna malikdirlər.

**Maddə 37.**

**Prokurorluq işçisinin məhkəmə müdafiəsi hüququ**

Prokurorluq işçisi öz hüquq və azadlıqlarının müdafiəsi məqsədi ilə məhkəməyə müraciət etmək hüququna malikdir.

**Maddə 38.**

**Prokurorluq işçilərinin sosial müdafiəsi**

Prokurorluq işçilərinin maddi və sosial müdafiəsi qanunvericiliklə hakimlər üçün nəzərdə tutulmuş habelə «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikası Qanununda müəyyən edilmiş qaydada həyata keçirilir.

Hərbi prokurorluq orqanlarının hərbi qulluqçularına əlavə olaraq Azərbaycan Respublikası Qanunları ilə hərbi qulluqçular üçün müəyyən edilmiş pensiya, tibbi və başqa növ maddi və sosial təminatlar da şamil edilir.

## VII FƏSİL.

## Prokurorluğun maddi-texniki təminatı, maliyyələşdirilməsi və prokurorluğun fəaliyyətinin digər məsələləri

### Maddə 39.
### Prokurorluğun maddi-texniki təminatı və maliyyələşdirilməsi

Prokurorluğun maliyyələşdirilməsi, o cümlədən əsaslı təmir və digər təchizat məsələləri dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

Prokurorluğun maddi-texniki təminatı mərkəzləşdirilmiş qaydada həyata keçirilir.

Prokurorluğun yerləşdiyi torpaq sahəsi, binalar tikinti və qurğular, habelə dövlət büdcəsi hesabına əldə olunmuş daşınan və daşınmaz əmlak dövlət mülkiyyəti hesab edilir.

Hərbi prokurorluq orqanları maddi-texniki vəsaitlə, xidməti bina, nəqliyyat və rabitə vasitələri ilə, habelə başqa növ təminatlarla Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və qoşun növlərinin komandanlığı, hərbi birləşmələr tərəfindən təchiz edilir, həmçinin xidməti binalarının mühafizəsi təmin olunur.

Prokurorluqda istintaq olunan cinayət işləri üzrə ibtidai istintaq zamanı dövlətə vurulmuş ziyanın ödətdirilməsi təmin olunduqda məhkəmənin hökmündən sonra ödənilən məbləğin qanunvericiliklə müəyyən edilmiş miqdarı prokurorluğun

maddi-texniki bazasının möhkəmləndirilməsinə və işçilərin maddi həvəsləndirilməsinə yönəldilə bilər.

**Maddə 40.**

**Prokurorluğun elmi, tədris müəssisələri və mətbuatı**

Prokurorluq işçilərinin peşə ixtisaslarının artırılması üçün Prokurorluqda tədris müəssisəsi yaradıla bilər.

Baş prokurorun yanında tərkibi onun tərəfindən təsdiq edilən elmi-məsləhət şurası fəaliyyət göstərə bilər.

Elmi-məsləhət şurasının Əsasnaməsi Baş prokuror tərəfindən təsdiq edilir.

Prokurorluq öz fəaliyyəti məsələləri ilə əlaqədar jurnal, qəzet, külliyyat və məlumat bülleteni dərc edə bilər.

**Maddə 41.**

**Prokurorluğun rəmzləri, möhürü, xidməti vəsiqəsi və geyim forması**

Prokurorluğun rəmzləri Azərbaycan Respublikasının dövlət bayrağı, dövlət gerbi və Prokurorluğun rəsmi emblemindən ibarətdir.

Prokurorluqlar Azərbaycanın dövlət gerbinin əksi həkk olunmuş və prokurorluğun dövlət dilində adı yazılmış dairəvi möhürə malikdirlər.

Prokurorluğun rəsmi embleminin, xüsusi geyim formasının və xidməti vəsiqələrinin nümunələri Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunur.

**Maddə 42.**
**Prokurorluğun statistik hesabatı**

Prokurorluq müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla statistik hesabatların vahid formasını hazırlayır, prokurorluq orqanlarında statistik hesabatların aparılmasının vahid qaydalarını müəyyən edir.

## VIII FƏSİL

## Prokurorluğa nəzarət

**Maddə 43.**
**Parlament nəzarəti**

Azərbaycan Respublikasının Baş prokuroru prokurorluğun fəaliyyəti haqqında, istintaq edilən cinayət işləri istisna olmaqla, Azərbaycan Respublikasının Milli Məclisinə məlumat verir.

**Maddə 44.**
**Azərbaycan dövləti başçısının nəzarəti**

Azərbaycan Respublikasının Baş prokuroru Azərbaycan dövlətinin başçısına-Azərbaycan Respublikasının Prezidentinə prokurorluğun fəaliyyəti haqqında mütəmadi olaraq məlumat verir.

**Maddə 45.**
**Məhkəmə nəzarəti**

Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş insan və vətəndaş hüquqlarını və azadlıqlarını məhdudlaşdıran prosessual hərəkətlərin prokurorluq tərəfindən həyata keçirilməsinə qanunla müəyyən edilmiş qaydada və hallarda məhkəmənin qərarına əsasən yol verilir.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

*Bakı şəhəri, 7 dekabr 1999-cu il*
**№ 767-IQ**

*«Azərbaycan» qəzetində dərc edilmişdir*
*(30 dekabr 1999-cu il, № 299)*
*«Azərbaycan» qəzetində dərc edilmiş düzəlişlərlə*
*(5 yanvar 2000-ci il, № 2)*

5 iyul 2000-ci il tarixli, 902-IQD nömrəli; 2 iyul 2002-ci il tarixli, 357-IIQD nömrəli; 30 dekabr 2003-cü il tarixli, 568-IIQD nömrəli; 30 dekabr 2003-cü il tarixli, 569-IIQD nömrəli; 5 mart 2004-cü il tarixli, 598-IIQD nömrəli; 9 mart 2004-cü il tarixli, 603-IIQD nömrəli; 1 sentyabr 2005-ci il tarixli, 980-IIQD nömrəli; 1 sentyabr 2005-ci il tarixli, 982-IIQD nömrəli; 30 sentyabr 2005-ci il tarixli 1018-IIQD nömrəli; 10 oktyabr 2006-cı il tarixli, 159-IIIQD nömrəli; 22 dekabr 2006-ci il tarixli, 211-IIIQD nömrəli; 1 fevral 2007-ci il tarixli, 237-IIIQD nömrəli qanunlara əsasən dəyişikliklər və əlavələrlə.

# VƏKİLLƏR VƏ VƏKİLLİK FƏALİYYƏTİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ

# QANUNU

Bu Qanun Azərbaycan Respublikasının ərazisində hər bir şəxsin məhkəmə prosesində, ibtidai istintaqda və təhqiqatda öz hüquqlarının və qanunla qorunan mənafelərinin müdafiəsini həyata keçirmək üçün özünün seçdiyi vəkilə müraciət etmək, tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüquqlarının təmin olunmasının və başqa məsələlər üzrə hüquqi yardım göstərən vəkillərin fəaliyyətinin tənzimlənməsi məqsədi ilə qəbul edilir.

Qanun Azərbaycan Respublikasında fiziki və hüquqi şəxslərə yüksək keyfiyyətli hüquqi yardımın göstərilməsi üzrə vəkillik fəaliyyətinin əsas prinsiplərini, vəkillərin hüquqi statusunu və onların özünüidarəsinin əsaslarını müəyyən edir.

**Maddə 1.**
**Azərbaycan Respublikasında vəkillik**

I. Azərbaycan Respublikasında vəkillik hüquq müdafiə fəaliyyətini peşəkarcasına həyata keçirməli olan müstəqil hüquqi təsisatdır.

II. Vəkillik qanunun aliliyi, müstəqillik, demokratizm, humanizm, ədalət, aşkarlıq və konfidensiallıq prinsipləri

əsasında fəaliyyət göstərir.

III. Vəkilliyin əsaslarını aşağıdakılar təşkil edir:

- Azərbaycan Respublikasının Konstitusiyasına, bu qanuna, Azərbaycan Respublikasının prosessual qanunvericiliyinə və Azərbaycan Respublikasının digər qanunlarına əməl edilməsi;
- vəkillərin və onların birliyinin peşəkar fəaliyyətinə prokurorluq, məhkəmə, digər dövlət orqanları, ictimai birliklər, hər hansı müəssisə, idarə, təşkilat və vəzifəli şəxs tərəfindən müdaxiləyə, təzyiqə yol verilməməsi;
- vəkillərin hüquqlarının bərabərliyi;
- özünüidarəetmə, vəkillər və vəkillik fəaliyyətinə dair məsələlər üzrə müstəqil qərar qəbul edilməsi.

**Maddə 2.**

**Vəkillər və vəkillik fəaliyyəti haqqında qanunvericilik**

I. Vəkillər və vəkillik fəaliyyəti haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu qanundan və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

II. Vəkillərin prosessual hüquqları və vəzifələri Azərbaycan Respublikasının Cinayət-Prosessual, İnzibati Xətalar və Mülki-Prosessual məcəllələri ilə tənzimlənir.

**Maddə 3.**

**Vəkilliyin vəzifələri**

Vəkilliyin əsas vəzifələri fiziki və hüquqi şəxslərin hü-

quqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin müdafiə edilməsindən və onlara yüksək keyfiyyətli hüquqi yardımın göstərilməsindən ibarətdir.

**Maddə 4.**
**Vəkillik fəaliyyəti əsasları**

I. Vəkillər kollegiyası üzvlüyünə müəyyən olunmuş qaydada qəbul edilmiş və vəkil andı içmiş şəxs vəkillik fəaliyyətini həyata keçirə bilər.

II. Cinayət işləri üzrə şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəsi, mülki işlər üzrə kassasiya (əlavə kassasiya) şikayəti vermiş şəxsin Azərbaycan Respublikası Ali Məhkəməsində təmsil edilməsi, habelə hüquq və azadlıqlarının pozulması ilə bağlı şikayət vermiş ərizəçinin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində təmsil edilməsi vəkillik fəaliyyətinin müstəsna dairəsidir.

III. Vəkillər hüquqi yardımın göstərilməsi ilə bağlı aşağıdakı məsələlərdə iştirak edirlər:

▪ dövlət və qeyri-dövlət orqanlarında və təşkilatlarda, o cümlədən xarici ölkələrdə və beynəlxalq təşkilatlarda, fiziki və hüquqi şəxslərin nümayəndəliyinin həyata keçirilməsində;

▪ hüquqi məsələlərə dair şifahi və yazılı məsləhətlər, izahatlar və arayışlar verilməsində;

▪ ərizələrin, şikayətlərin və hüquqi xarakterli sənədlərin tərtib edilməsində;

▪ fiziki və hüquqi şəxslərə lazımi hüquqi yardım göstərilməsində, onların fəaliyyətinin hüquqi təminatının həyata keçirilməsində;

▪ digər növ hüquqi yardım göstərilməsində.

**Maddə 5.**

**Vəkillik fəaliyyətinin həyata keçirilməsinin ümumi qaydaları**

I. Vəkillik fəaliyyəti irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq insan və vətəndaş hüquq və azadlıqlarının üstünlüyü, qanunun aliliyi, vəkillərin müstəqilliyi, onlarla hüquqi yardım üçün müraciət edənlər arasında olan münasibətlərin könüllülüyü əsasında və vəkil etikasına riayət edilməklə həyata keçirilir.

II. Vəkillik fəaliyyəti hüquqi yardım üçün müraciət etmiş şəxslərin hüquqlarının və mənafelərinin müdafiəsinin və ya təmsil edilməsinin vəkilə həvalə edilməsi əsasında və onların tapşırıqlarına müvafiq olaraq həyata keçirilir.

III. Vəkilin ədalət mühakiməsində iştirakı yalnız hüquqi yardım üçün müraciət edən şəxslə fərdi qaydada fəaliyyət göstərən vəkil və ya bu maddənin V hissəsində göstərilən vəkilin daxil olduğu qurum arasında bağlanmış müqavilə əsasında həyata keçirilir.

IV. İşin mahiyyəti əsasında vəkil hüquqi yardım üçün müraciət etmiş şəxsə həmin tapşırığın icra edilməsinin ehtimalı ilə əlaqədar olan bütün şərtləri bildirir və tərəflər razılığa gəldikdə yazılı surətdə müvafiq müqavilə tərtib edilir.

Müraciət etmiş şəxs müqavilə şərtləri əsasında vəkilə həvalə edilmiş tapşırığı qabaqcadan xəbərdarlıq etmədən məhdudlaşdıra və ya geri götürə bilər.

Bu Qanunun 20-ci maddəsində göstərilən qaydada

müraciət etmiş şəxs təyin olunmuş vəkildən istənilən vaxt imtina edə və özünün seçdiyi digər vəkillə müqavilə bağlaya bilər.

V. Vəkillik fəaliyyəti fərdi qaydada və ya Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun vəkil (vəkillər) tərəfindən yaradılmış vəkil qurumlarının (hüquq məsləhətxanaları, vəkil büroları, vəkil firmaları və s.) tərkibində həyata keçirilə bilər. Vəkillik fəaliyyətinin təşkilati-hüquqi forması vəkillər tərəfindən könüllü olaraq seçilir.

IV. Vəkillik fəaliyyətinin həyata keçirilməsi bu fəaliyyət üçün seçilmiş təşkilati-hüquqi forma üzrə qurumun dövlət qeydiyyatından keçməsindən sonra başlanır. Bu qurumun təsisçiləri yalnız vəkillər olmalıdır.

**Maddə 6.**
**Vəkilliyin rəmzləri**

I. Azərbaycan Respublikasında vəkilliyin rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağından, Dövlət gerbindən və vəkilliyin rəsmi emblemindən ibarətdir.

II. Azərbaycan Respublikasının vəkilləri məhkəmə iclaslarında xüsusi geyimdə iştirak edirlər.

III. Vəkilliyin rəsmi embleminin və vəkillərin xüsusi geyim formasının təsvirini Vəkillər kollegiyasının Ümumi yığıncağı təsdiq edir.

**Maddə 7.**
**Vəkillik fəaliyyətinin təminatı**

I. Təşkilati formasından asılı olmayaraq idarə, müəssisə

və təşkilatlar vəkillərə öz peşə borclarını yerinə yetirərkən yardım etməyə borcludurlar.

II. Məhkəmə, istintaq, təhqiqat və digər dövlət orqanlarının işçilərinin vəkil ilə hüquqi yardım göstərən şəxs arasında hüquqi yardım göstərməklə əlaqədar vasitəçiliyinə yol verilmir.

III. Vəkili peşə borcunu həyata keçirməklə əlaqədar ona məlum olan hallar barədə dindirmək qadağandır.

Peşə fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar vəkillər tərəfindən toplanılan sənədlər və digər sübutlar, vəkillik icraatları (dosye) istintaq və məhkəmə orqanları tərəfindən tələb edilə və götürülə bilməz.

Vəkil tutulduqda və ya onun cinayət məsuliyyətinə cəlb edilməsi barədə qərar qəbul edildikdə, bu barədə dərhal Azərbaycan Respublikasının baş prokuroruna və Vəkillər Kollegiyasının Rəyasət Heyətinə məlumat verilməlidir.

IV. Vəkillərə və onların təşkilatlarına edilən bütün müraciətlər vəkillər tərəfindən sirr kimi qorunur. Tutulan, həbs edilən və ya məhkum edilən şəxslərə hüquqi yardımın göstərilməsi üçün vəkil ilə təklikdə görüşlər və məsləhətləşmələr üçün lazımi şərait yaradılmalı, konfidensiallıq təmin olunmalıdır.

V. Vəkillərin müdafiəsinin və təhlükəsizliyinin təmin edilməsi «Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun müddəalarına müvafiq olaraq həyata keçirilir.

**Maddə 8.**
**Vəkil**

I. Ali hüquq təhsilli, hüquqşünas ixtisası üzrə üç ildən

az olmayaraq iş stajı olan və ya elmi və pedaqoji təhsil müəssisələrində hüquq sahəsində üç ildən az olmayan müddətdə fəaliyyət göstərən, İxtisas Komissiyasında peşə yararlılığının müəyyən edilməsi məqsədi ilə yazılı testdən və şifahi müsahibədən ibarət olan ixtisas imtahanını müvəffəqiyyətlə vermiş şəxs bu maddənin II hissəsində göstərilən hallara zidd olmamaq şərti ilə vəkil ola bilər. Əvvəllər müvafiq ixtisas imtahanını müvəffəqiyyətlə vermiş vəkillər və hakimlər göstərilən testi vermədən vəkil ola bilərlər. Hüquq elmləri doktoru alimlik dərəcəsi olan şəxslər, habelə əvvəllər Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi, apellyasiya və kassasiya instansiyası məhkəmələrinin sədri vəzifəsində işləmiş şəxslər göstərilən testi vermədən və şifahi müsahibədən keçmədən vəkil ola bilərlər.

II. İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan, qanunla müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab olunmuş, qanunvericiliklə müəyyən edilmiş qaydada alınan tibbi rəyə əsasən əqli qüsurlarına görə vəkillik fəaliyyətini həyata keçirməyə qadir olmayan, qəsdən az ağır, ağır və ya xüsusilə ağır cinayət törətməyə görə məhkumluğu ödənilməmiş və ya götürülməmiş, barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında, qanuni qüvvəyə minmiş məhkəmə qərarı olan şəxslər vəkil ola bilməzlər.

III. Vəkillər bütün məhkəmə instansiyalarında və Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsində həyata keçirilən icraatlara buraxılırlar.

IV. Dövlət qulluğunda çalışan şəxslər yalnız tutduqları vəzifədən azad edildikdən və bu qanunla müəyyən edilmiş

qaydada vəkil statusu əldə etdikdən sonra vəkillik fəaliyyəti ilə məşğul ola bilərlər. Vəkil dövlət qulluğuna qəbul edildikdə, onun vəkillik fəaliyyəti dövlət qulluğundan azad olunanadək dayandırılır.

V. Bu Qanunda nəzərdə tutulmuş qaydada vəkil statusunu əldə etməmiş şəxs tərəfindən vəkil adından qanunsuz istifadə olunması Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

**Maddə 8-1.**
**Vəkilin köməkçisi**

I. Ali hüquq təhsilli Azərbaycan Respublikasının vətəndaşı vəkilin köməkçisi ola bilər.

II. Vəkilin köməkçisi vəkillik fəaliyyətini həyata keçirmək üçün Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun vəkil (vəkillər) tərəfindən yaradılmış vəkil qurumları ilə, bu fəaliyyət fərdi qaydada həyata keçirildikdə isə vəkillə Vəkillər Kollegiyası Rəyasət Heyətinin müəyyən etdiyi formada və qaydada bağlanmış əmək müqaviləsinə əsasən fəaliyyət göstərir. Vəkil köməkçisinin əmək haqqı həmin müqaviləni bağlamış vəkil qurumunun və ya vəkilin hesabına verilir.

III. Vəkilin köməkçisi öz fəaliyyətini vəkilin rəhbərliyi altında və onun tapşırıqlarını yerinə yetirməklə həyata keçirir. Vəkilin köməkçisi müstəqil olaraq vəkillik fəaliyyəti ilə məşğul ola bilməz.

IV. Vəkilin köməkçisi vəkillik sirrini qorumalı, habelə vəkillərin davranış qaydalarına riayət etməlidir.

**Maddə 9.**

**Vəkillər kollegiyası**

I. Azərbaycan Respublikasında qeyri-dövlət, müstəqil, özünü idarə edən və bütün vəkillərin daxil olduğu Vəkillər kollegiyası fəaliyyət göstərir. Vəkillər kollegiyasının üzvü olmayan şəxslər vəkillik fəaliyyəti ilə məşğul ola bilməzlər.

II. Vəkillər kollegiyası hüquqi şəxsdir.

III. Vəkillər kollegiyasının təşkili və fəaliyyəti bu Qanunla və ona müvafiq olaraq qəbul edilmiş Vəkillər Kollegiyasının Nizamnaməsi ilə müəyyən edilir.

IV. Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağı (konfransı) və Vəkillər Kollegiyasının Rəyasət Heyəti vəkillər Kollegiyasının orqanlarıdır.

V. Vəkillər kollegiyası aşağıdakı vəzifələri həyata keçirir:

- bu Qanunun tələblərinə uyğun olaraq kollegiya üzvlüyünə qəbul olunma məsələsini həll edir;
- bu Qanunun tələblərinə uyğun olaraq intizam nəzarətini həyata keçirir;
- hüquq-mühafizə orqanlarının və məhkəmələrin tələbi əsasında vəkillik fəaliyyəti ilə bağlı məsələlərə rəy verir;
- bu Qanunun tələblərinə uyğun olaraq başqa məsələləri həll edir.

VI. Naxçıvan Muxtar Respublikasının qanunu ilə Naxçıvan Muxtar Respublikasında Vəkillər Kollegiyası yaradıla bilər. Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası Azərbaycan Respublikası Vəkillər Kollegiyasının tərkibinə daxildir.

**Maddə 10.**

**Vəkillər kollegiyası üzvlərinin Ümumi yığıncağı (konfransı)**

I. Vəkillər Kollegiyasının Nizamnaməsini, İntizam Komissiyasının Əsasnaməsini, İxtisas Komissiyasının Əsasnaməsini qəbul etmək, onlara əlavə və dəyişikliklər etmək, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədrini, sədr müavinlərini və digər üzvlərini, İntizam Komissiyasının sədrini və üzvlərini seçmək Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağının müstəsna səlahiyyətidir. Vəkillər Kollegiyası üzvlərinin sayı mindən çox olarsa, Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağının səlahiyyətləri Vəkillər Kollegiyası üzvlərinin konfransı tərəfindən həyata keçirilə bilər.

II. Aşağıdakı məsələlər Vəkillər Kollegiyası üzvlərinin Ümumi yığıncağı (konfransı) tərəfindən həll edilə bilər.

- vəkillərin davranış qaydaları haqqında Əsasnaməni qəbul edir;
- vəkilliyin rəsmi emblemini və vəkillərin xüsusi geyim formasının təsvirini təsdiq edir;
- Vəkillər kollegiyasının büdcəsini müəyyən edir;
- üzvlük haqqının həcmini müəyyən edir.

III. Vəkillər Kollegiyasının ümumi yığıncağı üç ildə bir dəfədən az olmayaraq, vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən çağırılır. Zərurət olduqda isə Vəkillər Kollegiyasının növbədənkənar ümumi yığıncağı iki ildə bir dəfədən çox olmamaq şərti ilə Vəkillər Kollegiyasının üzvlərinin üçdə birinin tələbi əsasında çağırıla bilər. Vəkillər Kollegiyasının ümumi yığıncağı çağırıldıqda Vəkillər

Kollegiyasının Rəyasət Heyəti bir ay ərzində onun təşkilini və keçirilməsini təmin edir.

IV. Vəkillər Kollegiyası üzvlərinin konfransı təmsilçilik normaları əsasında və bu maddənin I və II hissələrində nəzərdə tutulmuş səlahiyyətlər daxilində keçirilir. Vəkillər Kollegiyası üzvlərinin konfransının çağırılma və keçirilmə qaydası Vəkillər Kollegiyasının Nizamnaməsi ilə müəyyən olunur.

**Maddə 11.**

**Vəkillər kollegiyasının Rəyasət Heyəti**

I. Üç ildən az olmayan müddət ərzində vəkil işləmiş, Vəkillər Kollegiyasının üzvləri arasında nüfuza malik olan və seçkilər gününədək intizam tənbehi olmayan şəxslər Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri, sədr müavinləri və digər üzvləri seçilə bilərlər.

II. Rəyasət Heyətinin sədri, sədr müavinləri və digər üzvləri Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağında beş il müddətinə seçilirlər. Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədri və sədr müavinləri eyni zamanda müvafiq olaraq Vəkillər Kollegiyasının sədri və onun müavinləri hesab olunurlar. Heç kəs iki dəfədən artıq təkrarən Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədri seçilə bilməz.

III. Vəkillər kollegiyasının Rəyasət Heyəti:

▪ Ümumi yığıncağı çağırır və onun qərarlarının icrasını təşkil edir;

▪ Vəkillər kollegiyasının üzvlüyünə qəbul olunma məsələsini həll edir, bu Qanunun 23-cü maddəsində nəzərdə tutulmuş qaydada vəkillik fəaliyyətinə xitam verilməsi ilə

bağlı səlahiyyətlərini həyata keçirir, vəkil reyestrini aparır;

▪ dövlət hesabına hüquqi yardım göstərən vəkillərin növbətçilik siyahılarını tərtib edir və müvəqqəti saxlama yerlərinə təqdim edir;

▪ İxtisas Komissiyasına üzvlər təyin edir;

▪ İxtisas imtahanının qaydalarını və onun keçirilməsinin dövrüliyini müəyyən edir;

▪ vəkillik fəaliyyətinin həyata keçirilməsi məsələlərinə dair metodik tövsiyələr hazırlayır;

▪ vəkillər haqqında intizam icraatı başlayır;

▪ vəkillər arasında qanunvericilik və məhkəmə təcrübəsi sahəsində məlumatlandırma işinin aparılmasını təşkil edir;

▪ Rəyasət Heyəti aparatının strukturunu, ştat cədvəlini, xərclər smetasını və işçilərin əmək haqqını təsdiq edir və bu Qanunda nəzərdə tutulmuş digər məsələləri həll edir.

IV. Üzvlərinin üçdə iki hissəsi iştirak etdikdə Rəyasət Heyətinin iclasları səlahiyyətlidir. Rəyasət Heyətinin iclaslarında qərarlar sadə səs çoxluğu ilə qəbul edilir.

**Maddə 12.**

**Vəkillər kollegiyasının Rəyasət Heyəti sədrinin səlahiyyətləri**

Vəkillər kollegiyasının Rəyasət Heyətinin sədri:

▪ Vəkillər kollegiyasını təmsil edir;

▪ Rəyasət Heyətinin işini təşkil edir və aparatının işinə rəhbərlik edir;

▪ Bu Qanunda nəzərdə tutulmuş hallarda və qaydada kollegiyaya qəbul, vəkillərin Kollegiyadan xaric edilməsinə dair məsələləri Rəyasət Heyətinin iclaslarında baxılması

üçün hazırlayır və təqdim edir;

▪ Rəyasət Heyətinin iclaslarına sədrlik edir;

▪ Rəyasət Heyəti aparatının işçilərini işə qəbul və işdən azad edir;

▪ Rəyasət Heyəti aparatının işçiləri tərəfindən əmək və icra intizamına əməl olunmasına nəzarət edir;

▪ statistika hesabatının təhlilini təşkil edir;

▪ vətəndaşları qəbul edir, onların qəbulu, ərizə və şikayətlərinə baxılması sahəsində Rəyasət Heyətinin işini təşkil edir;

▪ təsdiq olunmuş smeta daxilində maliyyə vəsaitləri üzərində sərəncam verir.

**Maddə 13.**
**Vəkillərin İxtisas Komissiyası**

I. Vəkilliyə namizədlərin bu Qanunda nəzərdə tutulmuş tələblərə uyğunluğu və peşə hazırlığının müəyyən edilməsi üçün İxtisas Komissiyası yaradılır.

II. İxtisas Komissiyası beş vəkil, üç hakim və üç hüquqşünas alimdən, ümumilikdə isə on bir üzvdən ibarət tərkibdə fəaliyyət göstərir.

III. İxtisas Komissiyasının vəkil olan üzvləri müvafiq olaraq Vəkillər kollegiyasının Rəyasət Heyəti, hakim olan üzvləri Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən təyin edilir. İxtisas Komissiyasının hüquqşünas alim olan digər üç üzvü müvafiq icra hakimiyyəti orqanı tərəfindən təyin olunur.

IV. İxtisas Komissiyası vəkilliyə namizədlərin peşə yarar-lılığının müəyyən edilməsi məqsədi ilə mütləq ixti-

sas imtahanı qəbul edir, zəruri hallarda baxılan məsələlər üzrə dövlət orqanlarından, digər hüquqi və fiziki şəxslərdən müvafiq sənədlər və məlumatlar tələb edir.

V. İxtisas Komissiyası vəkilliyə namizədlərin peşə yararlılığını müəyyən etdikdə Vəkillər kollegiyasının Rəyasət Heyətinə müvafiq rəy təqdim edir.

VI. Üzvlərinin üçdə iki hissəsi iştirak etdikdə İxtisas Komissiyasının iclası səlahiyyətlidir və qərarlar sadə səs çoxluğu ilə qəbul edilir.

VII. Vəkilliyə namizəd Vəkillər Kollegiyasının üzvlüyünə qəbul etməkdən imtina haqqında qərardan həmin qərar ona təqdim edildiyi gündən 20 gün müddətində məhkəməyə qanunvericiliyin və ixtisas imtahanı qaydalarının tətbiqinin düzgünlüyünə dair şikayət verə bilər.

VIII. İxtisas imtahanını verə bilməyən şəxs bir ildən tez olmamaqla İxtisas Komissiyasının rəyi əsasında təkrar imtahana buraxıla bilər.

IX. İxtisas imtahanının qaydaları Vəkillər kollegiyasının Rəyasət Heyəti tərəfindən müəyyən edilir.

X. İxtisas Komissiyası Vəkillər kollegiyasının Ümumi yığıncağı tərəfindən qəbul edilən Əsasnaməyə müvafiq olaraq fəaliyyət göstərir.

**Maddə 14.**
**Vəkilin andı**

I. Vəkillər kollegiyasına üzv qəbul olunmuş şəxs Kollegiyanın Rəyasət Heyətinin iclasında Azərbaycan Respublikasının Dövlət bayrağı önündə aşağıdakı məzmunda and içir:

«Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməklə vəkil vəzifələrimi müstəqil olaraq şərəflə və vicdanla yerinə yetirməyə, ədalətli və prinsipial olmağa, insan hüquq və azadlıqlarını mərdliklə və dönmədən müdafiə etməyə, peşə sirrini qorumağa təntənəli surətdə and içirəm».

II. Vəkillərin səlahiyyətləri and içdiyi andan başlayır və vəkillər həmin vaxtdan vəkil reyestrinə daxil edilirlər.

III. Vəkillər andın mətninə imza edir və bu sənəd vəkillərin şəxsi işində saxlanılır.

**Maddə 15.**
**Vəkilin hüquqları**

I. Vəkillər müstəqildirlər və yalnız Qanunun tələblərinə tabedirlər.

II. Vəkillər aşağıdakı hüquqlara malikdirlər:

▪ hüquqi yardım üçün müraciət edən fiziki və hüquqi şəxslərin müdafiəçisi olmaq, onların mənafelərini təhqiqat, istintaq, məhkəmə, digər dövlət orqanlarında, təşkilatlarında, qeyri-dövlət təşkilatlarında, xarici ölkələrdə və beynəlxalq təşkilatlarda təmsil etmək;

▪ öz fəaliyyətində qanunvericiliklə qadağan olunmamış və vəkil etikasına zidd olmayan bütün üsullardan və vasitələrdən istifadə etmək;

▪ peşə fəaliyyətini həyata keçirməklə əlaqədar müstəqil araşdırmalar aparmaq, sənəd toplamaq, hüquqi yardım göstərmək üçün zəruri olan arayışları və digər sənədləri idarə, təşkilat və müəssisələrdən tələb etmək, onlarla tanış olmaq və həmin sənədlərin surətlərini çıxarmaq;

▪ xüsusi bilik tələb edən məsələlərin araşdırılması üçün mütəxəssislərdən rəy almaq;

▪ qanunvericiliklə nəzərdə tutulmuş qaydada texniki vasitələrdən istifadə etmək;

▪ qanunvericiliklə müəyyən olunmuş qaydada müdafiə və ya təmsil edilən şəxslə təklikdə, maneəsiz görüşüb danışmaq.

**Maddə 16.**
**Vəkilin vəzifələri**

I. Peşə fəaliyyətini həyata keçirərkən vəkil:

▪ Qanunun tələblərini icra etməli, müdafiə edilən və ya hüquqları təmsil edilən şəxsin mənafelərini qorumaq üçün qanunvericiliklə nəzərdə tutulmuş bütün üsullardan istifadə etməlidir;

▪ vəkil sirrini qorumalı, vəkil andına və vəkil etikasına riayət etməlidir;

▪ yalnız Qanunun tələblərini rəhbər tutmalıdır;

▪ hüquqi yardımın göstərilməsi üçün müraciət etmiş şəxsin maraqlarına zidd və hüquqlarının həyata keçirilməsinə mane olan hər hansı hərəkəti, müdafiəçisi olduğu şəxsin mənafeyinə zidd olaraq onun törədilmiş cinayətlə əlaqəsini və təqsirini təsdiq, zərərçəkmişlə barışığını elan və ona qarşı qaldırılmış mülki iddianı qəbul etməməli, müdafiəsinə yönəlmiş şikayəti geri götürməməlidir;

▪ mənafeyi təmsil edilən və ya müdafiə edilən şəxsin icazəsi olmadan hüquqi yardımın göstərilməsi ilə əlaqədar vəkilə məlum olan faktları və sənədləri, eləcə də mənəviyyata, demokratik cəmiyyətdə ictimai qaydaya və ya

dövlət təhlükəsizliyinə ziyan vura bilən, həmçinin yetkinlik yaşına çatmamışların mənafeləri və ya tərəflərin şəxsi və ailə həyatının müdafiəsi tələb edərsə, belə məlumatları yaymamalıdır;

▪ vəkil sirrindən özünün şəxsi və ya başqasının mənafeyi üçün istifadə etməməlidir;

▪ vəkil onun tərəfindən qəbul edilən müdafiə öhdəçiliyindən imtina etməməlidir.

II. Vəkilin qanun pozuntusuna yol verməsi nəticəsində müdafiə edilən və yaxud təmsil edilən şəxsin əmlakına bilavasitə zərər dəyərsə, buna vəkil maddi məsuliyyət daşıyır. Müdafiə edilən və ya təmsil edilən şəxslər qarşısındakı məsuliyyətinə zəmanət vermək məqsədi ilə vəkillərin sığorta bank hesabı yaradılır. Hər bir vəkil hər ay həmin hesaba aylıq gəlirinin 2 faizini keçirir. Hər hansı vəkil tərəfindən vurulmuş ziyanın ödənilməsi üçün onun vəsaiti kifayət etmədikdə, məhkəmə qərarına əsasən vəkillərin sığorta bank hesabı vəsaitindən istifadə edilir. Belə hallarda Vəkillər Kollegiyasının Rəyasət Heyəti Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyən edilmiş qaydada sığorta bank hesabından ödənilmiş vəsaiti ziyan vurmuş vəkildən tələb etməlidir.

III. Vəkilin mülki və ya cinayət işləri üzrə müvafiq olaraq nümayəndə və müdafiəçi qismində iştirakını istisna edən hallar Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə müəyyən edilir.

IV. Hüquqi yardımın göstərilməsi üçün müraciət etmiş fiziki və hüquqi şəxslərə məxsus və iddia obyekti olan əmlakın və hüquqların vəkil tərəfindən öz adına və ya başqa şəxslər

üçün alınması və başqa yolla əldə edilməsi qadağandır.

**Maddə 17.**
**Vəkil sirri**

I. Vəkilin peşə vəzifələrinin həyata keçirilməsi ilə əlaqədar aldığı məlumatlar, verdiyi məsləhətlər və arayışlar vəkil sirrini təşkil edir.

II. Peşə vəzifələrini həyata keçirərkən məlum olan ibtidai istintaqın sirrini təşkil edən məlumatların vəkil tərəfindən yayılması yalnız prokurorun və yaxud müstəntiqin icazəsi ilə ola bilər.

III. İbtidai istintaqın sirrini təşkil edən məlumatların yayılmasında təqsirli olan vəkillər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

IV. Müraciət etmiş şəxsə hüquqi yardımın göstərilməsi ilə əlaqədar olaraq vəkilə məlum olmuş hallar barədə o, şahid kimi çağırıla və dindirilə bilməz. Vəkil göstərilən hallar barədə izahat verməməli və ona etibar edən şəxsin bildirdiyi məlumatı yaymamalıdır.

V. Vəkil sirrini təşkil edən məlumatlar vəkilin hüquqi yardım göstərdiyi cinayət, mülki və inzibati işlər üzrə, həmçinin həmin vəkilin iştirakı ilə aparılan məhkəmə prosesində sübut kimi qiymətləndirilə bilməz.

VI. Bu maddənin IV və V hissələrində vəkillər üçün nəzərdə tutulmuş təminatlardan başqa digər təminatlar Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilir.

**Maddə 18.**

**Vəkil etikası**

Vəkil peşə fəaliyyətini həyata keçirərkən bu Qanunla müəyyən edilmiş qaydada öz vəzifələrini mükəmməl icra etməli, vəkil sirrindən özünün şəxsi və başqalarının tamahkarlıq və digər məqsədləri üçün istifadə etməməli, hüquq müdafiə fəaliyyəti ilə bir araya sığmayan hərəkətlərə, qanunsuz hərəkətlərin törədilməsinə çağırışlara, insanın şərəf və layaqətini alçaldan kobud, təhqiramiz hərəkətlərə və sözlərə yol verməməli, məhkəmə iclasında hakimə mane olmamalı, bu iclasda çıxış edənlərin sözlərini kəsməməli, iclasın iş qaydasını pozmamalı və Vəkillər kollegiyasının Ümumi yığıncağı tərəfindən qəbul olunmuş Vəkillərin davranış qaydaları haqqında Əsasnamə ilə müəyyən edilmiş vəkil etikasının digər tələblərinə riayət etməlidir.

**Maddə 19.**

**Vəkil tərəfindən göstərilən hüquqi yardım haqqının ödənilməsi**

I. Vəkil tərəfindən göstərilən hüquqi yardımın haqqının ödənilməsi vəkillik fəaliyyətinin fərdi qaydada və ya Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun vəkil (vəkillər) tərəfindən yaradılmış vəkil qurumlarının tərkibində həyata keçirilməsi nəzərə alınmaqla tərəflər arasında bağlanmış müqavilə əsasında həyata keçirilir.

II. Vəkillik fəaliyyəti ilə məşğul olmaq üçün yaradılmış qurumun əməkdaşı olan vəkilin və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin qonorarının məbləği vəkilin yardımından

istifadə edən şəxs və onu vəkil yardımı ilə təmin edən qurum və ya fərdi qaydada fəaliyyət göstərən vəkil arasında bağlanmış, göstərilən yardımın və qonorarın məbləğini və şərtlərini əks etdirən müqavilə əsasında ödənilməlidir.

III. Vəkil qurumları və ya fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən hüquqi yardımın göstərilməsinə görə təyin edilən haqqın məbləğinin məhdudlaşdırılması qadağandır. Hüquqi yardımın göstərilməsinə görə ödənilən haqqın məbləğinin təyin edilməsi bu yardımı göstərən tərəfin müstəsna hüququdur və yalnız tərəflərin razılığı ilə tənzimlənir. Aztəminatlı şəxslərə hüquqi yardımın göstərilməsinə görə vəkilə dövlət hesabına ödənilən hüquqi yardım haqqının məbləği və ödənilməsi qaydası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunur.

**Maddə 20.**
**Dövlət hesabına hüquqi yardımın göstərilməsi**

I. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada inzibati və cinayət işləri üzrə şübhəli və ya təqsirləndirilən şəxslərə və məhkəmədə hüquqi yardıma ehtiyacı olan aztəminatlı şəxslərə hər hansı bir məhdudiyyət qoyulmadan vəkil tərəfindən göstərilən hüquqi yardım dövlət hesabına həyata keçirilir. Dövlət hesabına ödənilən hüquqi yardımın məbləği və ödənilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

II. Tutulmuş şəxs tərəfindən müvəqqəti saxlama yeri üzrə ərazidə yerləşən vəkil qurumlarından və fərdi qaydada fəaliyyət göstərən vəkillər sırasından Vəkillər kollegiyasının Rəyasət Heyəti tərəfindən tərtib edilən növbətçilik siyahısına

uyğun olaraq vəkil dəvət olunur və tərəflər arasında qarşılıqlı razılaşmaya əsasən müqavilə bağlanır.

Maddi vəziyyətinə görə öz hesabına vəkil tutmaq imkanı olmayan tutulmuş şəxsə dövlət hesabına hüquqi yardım göstərən növbətçi vəkil öz vəzifələrini yerinə yetirməkdən imtina edə bilməz.

**Maddə 21.**
**Vəkillərin İntizam Komissiyası**

I. Vəkillər tərəfindən peşə vəzifələrinin həyata keçirilməsi ilə bağlı yol verilən intizam pozuntularına dair şikayətlərə və müraciətlərə baxılması və onların intizam məsuliyyətinə cəlb edilməsi ilə əlaqədar məsələlərin həll olunması üçün Vəkillər kollegiyasının nəzdində Vəkillərin İntizam Komissiyası yaradılır.

II. Vəkillərin İntizam Komissiyası bu Qanuna və onun əsasında Vəkillər kollegiyasının ümumi yığıncağı tərəfindən qəbul edilən Əsasnaməyə müvafiq olaraq fəaliyyət göstərir.

**Maddə 22.**
**Vəkillərin intizam məsuliyyəti**

I. Vəkil peşə borcunu həyata keçirərkən bu Qanunun və digər qanunvericilik aktlarının tələblərinin, vəkillərin davranış qaydaları haqqında Əsasnamənin, o cümlədən vəkil etikası normalarının pozulması halları aşkar olunduqda, o, intizam məsuliyyətinə cəlb edilir.

II. Vəkil yalnız Vəkillərin İntizam Komissiyasının rəyinə əsasən Vəkillər kollegiyasının Rəyasət Heyəti tərəfindən intizam məsuliyyətinə cəlb edilir.

III. Vəkil haqqında intizam tənbehi intizam pozuntusunun aşkar edildiyi gündən altı ay, törədildiyi gündən isə bir il müddətində tətbiq edilə bilər.

IV. Vəkillər barəsində intizam icraatı Vəkillər kollegiyasının Rəyasət Heyətində başlanır.

V. İntizam Komissiyası intizam icraatının başlandığı gündən bir ay müddətində, bir qayda olaraq, vəkilin iştirakı ilə araşdırma aparır və müvafiq rəyini Rəyasət Heyətinə təqdim edir.

VI. İntizam Komissiyasının rəyi əsasında Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən vəkilə aşağıdakı intizam tənbehləri tətbiq edilə bilər:

- irad tutma;
- töhmət;
- üç aydan bir il müddətinədək vəkillik fəaliyyəti ilə məşğul olmanın dayandırılması;

Vəkilin hərəkətində pozuntu müəyyən edilmədikdə və ya icraata başlama müddəti keçdikdə intizam icraatına xitam verilir.

VII. Üç aydan bir il müddətinədək vəkillik fəaliyyəti ilə məşğul olmanın dayandırılması haqqında qərardan məhkəməyə şikayət vermək olar.

VIII. Vəkillər Kollegiyasından xaric edilməyə səbəb ola biləcək əsaslar olduqda, İntizam Komissiyasının rəyi əsasında Vəkillər Kollegiyasının Rəyasət Heyəti məsələnin həlli üçün məhkəməyə müraciət edərək həmin məsələ ilə bağlı məhkəmə qərarı qanuni qüvvəyə minənədək vəkilin fəaliyyətini dayandıra bilər.

**Maddə 23.**

**Vəkilin fəaliyyətinə xitam verilməsi**

I. Vəkilin fəaliyyətinə aşağıdakı hallarda xitam verilə bilər:

▪ öz arzusu ilə fəaliyyətinə xitam verilməsi barədə yazılı ərizə verildikdə;

▪ barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittihamedici hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qərarı olduqda;

▪ fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyətliliyi məhkəmə tərəfindən müəyyən edildikdə;

▪ vəfat etdikdə;

▪ məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə;

▪ Vəkillər kollegiyasının üzvlüyündən xaric edildikdə;

▪ bu qanunla vəkilliyə namizədlər üçün müəyyən edilmiş tələblərə uyğun gəlmədiyi aşkar edildikdə;

▪ üzvlük haqqını altı aydan artıq müddətdə üzürsüz səbəbdən ödəmədikdə.

II. Vəkillərin fəaliyyətinə Vəkillər Kollegiyasının Rəyasət Heyətinin qərarı ilə xitam verilir. Bu maddənin I hissəsinin 7-ci və 9-cu abzaslarında nəzərdə tutulmuş hallarda vəkillərin fəaliyyətinə xitam verilməsi yalnız vəkilin Kollegiyadan xaric olunması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında həyata keçirilə bilər.

**Maddə 24.**

**Vəkillər kollegiyasının vəsaiti**

I. Vəkillər kollegiyasının vəsaiti ona daxil olan üzvlük

haqqından yaranır.

II. Vəkillər kollegiyasına daxil olan vəsaitin miqdarı və xərclənməsi qaydası onun Nizamnaməsinə uyğun olaraq müəyyən edilir.

**Maddə 25.**

**Vəkillərin pensiya təminatı**

Vəkillərin pensiya təminatı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

**Maddə 26.**

**Əcnəbilər tərəfindən hüquqi yardımın göstərilməsi**

I. Bu Qanunun tələblərinə əsasən Azərbaycan Respublikası ərazisində əcnəbi vəkillər tərəfindən hüquqi yardım göstərilməsi yalnız əcnəbinin mənsub olduğu dövlətin qanunları və ya beynəlxalq hüquq normalarının tətbiqinə dair verilən məsləhət və rəylərlə məhdudlaşır.

II. Azərbaycan Respublikası ərazisində əcnəbi vəkillər mülki işlər, cinayət işləri, iqtisadi mübahisələrə dair işlər, inzibati xətalar haqqında işlər üzrə məhkəmə icraatına Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə müvafiq olaraq qarşılıqlı münasibətlər əsasında buraxılır.

**Keçid müddəaları**

I. Bu Qanunun Keçid müddəalarının qüvvəyə mindiyi günədək mövcud olan Vəkillər Kollegiyasının üzvü olan şəxslərin və pullu hüquqi xidmət göstərmək üçün xüsusi razılığı (lisenziyası) olan şəxslərin, vəkilliyə namizədlər üçün tələblərə cavab vermək şərti ilə, peşə yararlığının müəyyən edilməsi məqsədi ilə ixtisas imtahanını vermədən yeni Vəkillər Kollegiyasını təsis etmək hüququ tanınır.

II. Bu Qanunun Keçid müddəalarının qüvvəyə mindiyi gündən üç ay müddətində yeni Vəkillər Kollegiyasını təsis etmək hüququ tanınmış şəxslərin ən azı üçdə ikisinin iştirakı ilə yeni Vəkillər Kollegiyasının təsis yığıncağı keçirilir, həmin Kollegiya təsis olunur, onun Rəyasət Heyətinin sədri, sədr müavinləri və digər üzvləri seçilir və İntizam Komissiyası yaradılır.

III. Yeni Vəkillər Kollegiyasını təsis etmək hüququ olan şəxslərin müəyyən edilməsi, habelə təsis yığıncağının hazırlanması və keçirilməsi məqsədi ilə mövcud Vəkillər Kollegiyasının 3 üzvündən və pullu hüquqi xidmət göstərmək üçün xüsusi razılığı (lisenziyası) olan 3 şəxsdən ibarət təşkilat komitəsi yaradılır. Təşkilat komitəsinin üzvləri olacaq pullu hüquqi xidmət göstərmək üçün xüsusi razılığı (lisenziyası) olan 3 şəxs müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

IV. Yeni Vəkillər Kollegiyasının təsis yığıncağı keçirildikdən sonra:

Yeni Vəkillər Kollegiyası, onun Rəyasət Heyəti və İntizam Komissiyası fəaliyyətə başlamış hesab edilir, bu Qanunun Keçid müddəalarının qüvvəyə mindiyi günədək mövcud olan Vəkillər Kollegiyasının fəaliyyətinə isə xitam verilir;

20 gün müddətində bu Qanunda nəzərdə tutulmuş qaydada vəkillərin andiçmə mərasimi keçirilir. Bu Qanunun Keçid müddəalarının I hissəsində nəzərdə tutulmuş şəxslər Vəkillər Kollegiyasının üzvləri adlandırılır və bu Qanunla müəyyən olunmuş vəkil statusunu əldə edirlər.

V. Yeni Vəkillər Kollegiyasının təsis yığıncağının keçirilməsi tarixindən üç ay müddətində vəkil olmaq arzusunda olan şəxslər üçün peşə yararlığının müəyyən edilməsi məqsədi ilə ixtisas imtahanı keçirilir.

VI. Yeni Vəkillər Kollegiyasını təsis etmək hüququ tanınmamış pullu hüquqi xidmət göstərmək üçün xüsusi razılıq (lisenziya) almış bütün şəxslər, vəkilliyə namizədlər üçün tələblərə cavab vermək şərti ilə, ixtisas imtahanını vermədən Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən yeni Vəkillər Kollegiyasının üzvlüyünə qəbul olunurlar.

VII. Bu Qanunun Keçid müddəaları qüvvəyə mindiyi günədək mövcud olan Vəkillər Kollegiyasının bütün hüquq və vəzifələri, mülkiyyətində və istifadəsində olan əmlak yeni yaranmış Vəkillər Kollegiyasına keçir.

VIII. Bu Qanunun 11-ci maddəsinin II hissəsinin üçüncü cümləsi yeni Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədrinə şamil olunur.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

*Bakı şəhəri, 28 dekabr 1999-cu il*
**№ 783-IQ**

*«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 yanvar 2000-ci il, № 1, maddə 19)*

23 noyabr 2001-ci il tarixli, 219-IIQD nömrəli; 30 dekabr 2003-cü il tarixli, 568-IIQD nömrəli; 5 mart 2004-cü il tarixli, 598-IIQD nömrəli; 11 iyun 2004-cü il tarixli, 689-IIQD nömrəli; 26 oktyabr 2004-cü il tarixli, 783-IIQD nömrəli; 14 iyun 2005-ci il tarixli, 939-IIQD nömrəli; 20 oktyabr 2006-cı il tarixli, 167-IIIQD nömrəli; 10 aprel 2007-ci il tarixli, 308-IIIQD nömrəli qanunlara əsasən əlavələr və dəyişikliklərlə

# DÖVLƏT MƏHKƏMƏ EKSPERTİZASI FƏALİYYƏTİ HAQQINDA

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasında Dövlət məhkəmə ekspertizası fəaliyyətinin (bundan sonra-məhkəmə ekspertizası fəaliyyəti) hüquqi, təşkilati əsaslarını və başlıca istiqamətlərini müəyyən edir, məhkəmə ekspertizasının təşkili və aparılması zamanı yaranan ictimai münasibətləri nizamlayır.

Məhkəmə ekspertizası Azərbaycan Respublikası məhkəmələrinin səlahiyyətinə aid olan mülki, cinayət və digər işlər üzrə icraat zamanı həyata keçirilir.

## I FƏSİL

## Ümumi müddəalar

### Maddə 1.
### Əsas anlayışlar

Bu Qanunda aşağıdakı anlayışlardan istifadə olunur:

▪ məhkəmə ekspertizası-təhqiqat, ibtidai istintaq orqanının və ya məhkəmənin (hakimin) icraatında olan işin halları barədə informasiya daşıyan maddi obyektlər, hadisələr və proseslər haqqında xüsusi elmi biliklər əsasında aparılan tədqiqatdır;

▪ məhkəmə ekspertizası fəaliyyəti-məhkəmə ekspertizasının təşkil edilməsi və aparılması ilə əlaqədar fəaliyyət olub, xüsusi elmi biliklər vasitəsilə proses iştirakçılarının hüquqlarının və qanuni mənafelərinin təmin edilməsi məqsədini daşıyır;

▪ məhkəmə eksperti (ekspert)-məhkəmə ekspertizasının aparılması həvalə olunmuş, məhkəmə ekspertizasının predmetinə aid olan xüsusi məsələlərə dair zəruri biliyə malik olan və işin nəticəsində marağı olmayan şəxsdir;

▪ ekspertin rəyi-məhkəmə ekspertizasını təyin etmiş orqanın və ya şəxsin ekspertin qarşısında qoyduğu suallara verilən əsaslandırılmış yekun nəticədir;

▪ məhkəmə ekspertizasının predmeti-məhkəmə ekspertizasının həll etdiyi məsələlər dairəsidir;

▪ məhkəmə ekspertizası idarəsi-məhkəmə ekspertizası fəaliyyətini həyata keçirən dövlət orqanıdır.

**Maddə 2.**

**Məhkəmə ekspertizası fəaliyyəti haqqında qanunvericilik**

Məhkəmə ekspertizası fəaliyyəti haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının Cinayət-prosessual və Mülki-prosessual Məcəllələrindən, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsindən, bu Qanundan və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir.

**Maddə 3.**

**Məhkəmə ekspertizası fəaliyyətinin vəzifəsi**

Məhkəmə ekspertizası fəaliyyətinin əsas vəzifəsi elm,

texnika, incəsənət, sənətkarlıq və başqa sahələr üzrə xüsusi bilik əsasında sübut əhəmiyyətinə malik olan faktiki halların müəyyənləşdirilməsindən ibarətdir.

**Maddə 4.**
**Məhkəmə ekspertizası fəaliyyətinin prinsipləri**

Məhkəmə ekspertizası fəaliyyəti insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunması, qanunçuluğun təmin edilməsi, ekspertin müstəqilliyi, elmin və texnikanın müasir nailiyyətlərindən istifadə edilməklə həyata keçirilən tədqiqatların obyektivliyi, hərtərəfliliyi və tamlığı prinsiplərinə əsaslanır.

**Maddə 5.**
**Məhkəmə ekspertizası aparılarkən insan və vətəndaş hüquqlarına və azadlıqlarına əməl olunması**

Məhkəmə ekspertizası aparılarkən insan və vətəndaş hüquqlarına və azadlıqlarına əməl olunmalıdır.

Məhkəmə ekspertizası fəaliyyəti nəticəsində hüquqlarının və azadlıqlarının pozulduğunu hesab edən şəxs, bu hərəkətdən Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məhkəmə ekspertizası idarəsinin rəhbərinə və ya məhkəməyə şikayət edə bilər.

**Maddə 6.**
**Ekspertin müstəqilliyi**

Məhkəmə ekspertizası aparılarkən ekspert müstəqildir, onun məhkəmə ekspertizasını təyin etmiş orqandan və ya şəxsdən, tərəflərdən və işin nəticəsində marağı olan digər şəxslərdən hər hansı asılılığı ola bilməz. Ekspert özünün

xüsusi biliyinə və daxili inamına əsaslanaraq aparılmış tədqiqatın nəticələrinə uyğun olaraq rəy verir.

Məhkəmələr (hakimlər), təhqiqat aparan şəxs, müstəntiq, prokuror, habelə digər dövlət orqanları, təşkilatlar və ya ayrı-ayrı şəxslər tərəfindən proses iştirakçılarından hər hansı birinin maraqlarına cavab verən və ya şəxslərin xeyrinə olaraq rəy əldə etmək məqsədi ilə ekspertə hər hansı formada təsir göstərilməsi qadağandır.

Ekspertə təsir göstərilməsində təqsirkar olan şəxs Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

**Maddə 7.**
**Tədqiqatın obyektivliyi, hərtərəfliliyi və tamlığı**

Ekspert tədqiqatı müvafiq ixtisas hüdudlarında, elmi və təcrübi əsaslar üzərində obyektiv, hərtərəfli və tam həcmdə aparmalıdır.

Ekspertin rəyi elmi inkişafın müasir tələblərinə uyğun olan və hamı tərəfindən qəbul edilmiş elmi dəlillər əsasında yoxlanmasına imkan verən müddəalara əsaslanmalıdır.

**Maddə 8.**
**Ekspert tədqiqatının obyektləri**

Ekspert tədqiqatının obyektləri maddi sübutlar, sənədlər, müqayisəli tədqiqat üçün nümunələr, əşyalar, canlı insan və onun psixi vəziyyəti, heyvanlar, meyitlər və onların hissələri, həmçinin əsasında məhkəmə ekspertizası aparılması üçün zəruri olan iş materiallarıdır.

Canlı insanın, meyitin, heyvanın, əşyanın, cismin, ma-

terialın və ya maddənin xüsusiyyətlərini əks etdirən (əlamətlərini daşıyan) obyektlər, həmçinin ekspertin tədqiqat aparması və rəy verməsi üçün zəruri olan digər nümunələr müqayisəli tədqiqat üçün nümunələr hesab edilir.

Məhkəmə ekspertizası aparılarkən tədqiqat obyektləri ekspertizanı təyin etmiş orqanın və ya şəxsin müvafiq razılığı əsasında yalnız tədqiqat aparılması və rəy verilməsi üçün zəruri olan ölçüdə zədələnə və ya istifadə oluna bilər. Həmin razılıq məhkəmə ekspertizasının təyin edilməsi barədə qərarda (qərardadda) və yaxud müvafiq məktubda göstərilməlidir.

Tədqiqat obyektini məhkəmə ekspertizası idarəsinə gətirmək mümkün olmadıqda, hadisə yerində və ya tədqiqat obyektinin olduğu yerdə tədqiqat aparılması zərurəti yarandıqda, ekspertizanı təyin etmiş orqan və ya şəxs obyekt üzərində ekspert tərəfindən tədqiqatın aparılması üçün şərait yaratmalıdır.

Məhkəmə ekspertizası başa çatdırıldıqdan sonra tədqiqat obyekti ekspertizanı təyin etmiş orqana və ya şəxsə qaytarılmalıdır.

## II FƏSİL

## Məhkəmə ekspertizası idarəsi rəhbərinin və ekspertin hüquqları və vəzifələri

### Maddə 9.
### Məhkəmə ekspertizası idarəsi rəhbərinin hüquqları

Məhkəmə ekspertizası idarəsinin rəhbəri məhkəmə

ekspertizası təyin olunması haqqında qərarı (qərardadı) aldıqdan sonra onun təşkil edilməsi və aparılması, ekspertin məhkəmə iclaslarında, istintaq və məhkəmə hərəkətlərində iştirakının təmin olunması üzrə müvafiq tədbirlər görür.

Məhkəmə ekspertizası idarəsinin rəhbərinin aşağıdakı hüquqları vardır:

▪ idarədə konkret ixtisas üzrə ekspert, zəruri maddi-texniki baza və yaxud tədqiqat aparılması üçün xüsusi şərait olmadıqda məhkəmə ekspertizası təyin olunması barədə qərarı (qərardadı) icra edilmədən tədqiqata təqdim edilmiş obyekt və işin materialları ilə birlikdə geri qaytarmaq;

▪ rəy verilməsi üçün bu idarənin əməkdaşı olmayan şəxslərin zəruri biliyinə ehtiyac yarandıqda, onların ekspert qismində iştirakı barədə məhkəmə ekspertizasını təyin etmiş orqan və ya şəxs qarşısında vəsatət qaldırmaq;

▪ məhkəmə ekspertizasının təyin olunması haqqında qərarda (qərardadda) göstərilmiş digər idarələrin iştirakı ilə məhkəmə ekspertizası aparılmasını təşkil etmək.

Məhkəmə ekspertizası idarəsinin rəhbərinə aşağıdakıları etmək qadağandır:

▪ məhkəmə ekspertizasının təyin edilməsi haqqında qərar (qərardad) olmadıqda, məhkəmə ekspertizasının aparılması üçün zəruri olan tədqiqat obyektlərini və iş üzrə materialları tələb etmək;

▪ məhkəmə ekspertizasını təyin etmiş orqanla və ya şəxslə razılaşdırmadan müstəqil olaraq bu idarənin əməkdaşı olmayan şəxsləri ekspert qismində məhkəmə ekspertizasının aparılmasına cəlb etmək;

▪ ekspertlə konkret məhkəmə ekspertizası üzrə tədqiqatın

gedişatına təsir edən və onun nəticələrinin məzmununu müəyyən edən göstərişlər vermək.

**Maddə 10.**
**Məhkəmə ekspertizası idarəsi rəhbərinin vəzifələri**

Məhkəmə ekspertizası idarəsinin rəhbərinin aşağıdakı vəzifələri vardır:

▪ məhkəmə ekspertizasının təyin olunması barədə qərarı (qərardadı) aldıqdan sonra həmin idarənin ekspertləri sırasından zəruri biliyə malik olan və qoyulmuş suallara cavab verə bilən konkret ekspertə və ya ekspertlərə ekspertizanın aparılması haqqında tapşırıq vermək;

▪ ekspertə (ekspertlərə) onların hüquq və vəzifələrini izah etmək;

▪ eksperti bilə-bilə yalan rəy verməyə görə məsuliyyət haqqında xəbərdar etmək və bu barədə ekspertizanın təyin edilməsi haqqında qərarda ekspertin imzası ilə təsdiq edilən müvafiq qeyd aparmaq;

▪ Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məhkəmə ekspertizasının aparılması müddətini müəyyən etmək və onun gözlənilməsinə nəzarət etmək;

▪ aparılan tədqiqatların tamlığı və keyfiyyəti üzərində nəzarəti ekspertin müstəqilliyi prinsipinə əməl olunmaqla təmin etmək;

▪ tədqiqatlar başa çatdırıldıqdan sonra ekspertin rəyini, tədqiqat obyektlərini və iş üzrə materialların məhkəmə ekspertizasını təyin etmiş orqana və ya şəxsə göndərilməsini təmin etmək.

Məhkəmə ekspertizası idarəsi rəhbəri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər vəzifələri də həyata keçirir.

Məhkəmə ekspertizası idarəsinin rəhbəri tədqiqat aparılması üçün zəruri olan aşağıdakı şəraiti yaratmağa borcludur:

- avadanlıqlar, cihazlar, materiallar və informasiya təminatı vasitələrini əldə etmək;
- texniki təhlükəsizlik və istehsalat sanitariyası qaydalarına əməl olunmasını təmin etmək;
- təqdim edilmiş tədqiqat obyektlərini və iş üzrə materialların qorunub saxlanmasını təmin etmək.

**Maddə 11.**
**Ekspert**

Ali təhsili olan, müəyyən ekspertiza ixtisası üzrə müvafiq peşə hazırlığı keçmiş Azərbaycan Respublikasının vətəndaşı ekspert ola bilər.

İxtisaslaşmasından və hazırlıq səviyyəsindən asılı olaraq ekspertlərə ixtisas dərəcəsi verilir.

Attestasiyanın keçirilməsi və ixtisas dərəcəsinin verilməsi qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Tutduğu vəzifə, peşə qabiliyyəti və əmək stajı nəzərə alınmaqla məhkəmə ekspertizası idarəsinin ekspertlərinə tabeliyində olduqları müvafiq icra hakimiyyəti orqanlarının işçiləri üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada xüsusi rütbələr verilir.

Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti

orqanının məhkəmə ekspertizası idarəsinin ekspertlərinə «Ədliyyə orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məhdudiyyətlər tətbiq edilir.

**Maddə 12.**
**Ekspertin hüquqları**

Ekspertin aşağıdakı hüquqları vardır:

▪ məhkəmə ekspertizasının predmetinə aid olan iş üzrə materiallarla tanış olmaq, onlardan lazımi məlumat götürmək və ya onların surətini çıxarmaq;

▪ rəy verilməsi üçün zəruri olan əlavə tədqiqat obyektlərinin və iş üzrə materialların təqdim olunması barədə vəsatət vermək;

▪ məhkəmə ekspertizasının aparılmasına başqa ekspertlərin cəlb olunması haqqında vəsatət vermək;

▪ qanunvericiliklə nəzərdə tutulmuş qaydada ekspertizanın predmetinə aid və rəy verilməsi üçün zəruri olan istintaq və ya digər prosessual hərəkətlərin aparılmasında iştirak etmək;

▪ məhkəmənin qərardadı (hakimin qərarı) ilə məhkəmə istintaqı mərhələsində işin materiallarının tədqiqində iştirak etmək;

▪ verdiyi rəyin və ya ifadənin proses iştirakçıları tərəfindən düzgün izah edilməməsi və yaxud təhrif edilməsi barədə istintaq hərəkətləri və ya məhkəmə iclasının protokoluna daxil edilməsi üçün məlumat vermək;

▪ qoyulmuş suallardan əlavə məhkəmə ekspertizasının predmetinə aid olan və iş üçün əhəmiyyətli sayılan digər

halları da öz rəyində göstərmək;

▪ məhkəmə ekspertizasını təyin etmiş orqan və ya şəxsin hərəkəti ekspertin hüquqlarını pozduqda qanunla müəyyən edilmiş qaydada şikayət etmək.

Ekspert Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər hüquqları da həyata keçirə bilər.

Ekspert məhkəmə ekspertizasının aparılmasından aşağıdakı hallarda imtina edə bilər:

▪ məhkəmə ekspertizasının təyin edilməsinin prosessual qaydası pozulduqda və bu, ekspertizanın aparılmasını çətinləşdirdikdə və ya onun aparılmasını qeyri-mümkün etdikdə;

▪ verilən suallar ekspertin zəruri biliyindən kənara çıxdıqda;

▪ tədqiqat obyektləri və iş üzrə materiallar rəy verilməsi üçün yararsız olduqda və ya kifayət qədər olmadıqda və onların tamamlanması barədə ekspertin vəsatəti təmin edilmədikdə;

▪ tədqiqat aparılması və rəy verilməsi üçün zəruri olan şərait, metodik vəsait və avadanlıqlar olmadıqda;

▪ ekspertin həyatı və sağlamlığı üçün real təhlükə mövcud olduqda.

Belə hallarda ekspert bu barədə məhkəmə ekspertizasını təyin etmiş orqana və ya şəxsə yazılı formada məlumat verir.

Ekspertə aşağıdakıları etmək qadağandır:

▪ məhkəmə ekspertizası idarəsinin rəhbərindən başqa hər hansı şəxsdən və ya orqandan məhkəmə ekspertizasının aparılması haqqında tapşırıq almaq;

▪ başqa idarənin əməkdaşı qismində, həmçinin özəl ekspert kimi məhkəmə ekspertizası fəaliyyətini həyata keçirmək;

▪ məhkəmə ekspertizasının aparılması ilə bağlı işin gedişatında maraqlı olduğunu güman etməyə əsas verən proses iştirakçıları ilə şəxsi əlaqələr yaratmaq;

▪ məhkəmə ekspertizasını aparmaq üçün müstəqil olaraq material toplamaq;

▪ təhqiqat aparan şəxsin, müstəntiqin və ya prokurorun icazəsi olmadan təhqiqat və ibtidai istintaqın məlumatlarını yaymaq;

▪ dövlət, qulluq, peşə və kommersiya sirri təşkil edən və qanunla qorunan məlumatları, habelə məhkəmə ekspertizasının aparılması ilə əlaqədar ona məlum olan və açıqlanması insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulmasına səbəb ola bilən məlumatları yaymaq;

▪ məhkəmə ekspertizasını təyin etmiş orqanın və ya şəxsin razılığı olmadan tədqiqat obyektini məhv etmək və ya onun xassəsini əhəmiyyətli dərəcədə dəyişdirmək.

**Maddə 13.**
**Ekspertin vəzifələri**

Ekspertin aşağıdakı vəzifələri vardır:

▪ Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda, məhkəmə ekspertizasının aparılmasından özü-özünə etirazetmə haqqında məhkəmə ekspertizasını təyin etmiş orqan və ya şəxsə, yaxud məhkəmə ekspertizası idarəsinin rəhbərinə məlumat vermək;

▪ məhkəmə ekspertizasının aparılmasında ekspert kimi iştirakını rədd edən hallar olmadıqda, ona tapşırılmış məh-

kəmə ekspertizasını aparmaq;

▪ təqdim edilmiş obyektlərin və iş üzrə materialların tam və hərtərəfli tədqiqatını aparmaq və qoyulmuş suallar üzrə əsaslandırılmış və obyektiv rəy vermək;

▪ təhqiqat aparan şəxsin, müstəntiqin, prokurorun və ya məhkəmənin (hakimin) çağrışı üzrə gəlmək;

▪ aparılmış tədqiqat və verilmiş rəylə əlaqədar məsələlər üzrə təhqiqat, ibtidai istintaq zamanı və ya məhkəmədə ifadə vermək;

▪ məhkəmə ekspertizasının aparılmasından imtina etməyə əsas verən bu Qanunun 12-ci maddəsində nəzərdə tutulmuş hallar olduqda rəy verməyin qeyri-mümkünlüyü barədə yazılı formada təhqiqat aparan şəxsə, müstəntiqə və ya məhkəməyə (hakimə) məlumat vermək;

▪ təqdim edilmiş tədqiqat obyektlərinin və iş üzrə materialların qorunub saxlanılmasını təmin etmək.

Ekspert Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər vəzifələri də həyata keçirir.

**Maddə 14.**
**Ekspertin dindirilməsi**

Ekspertin rəyi kifayət qədər aydın olmadıqda və ya həmin rəydə əlavə tədqiqatlar aparılmasını tələb etməyən boşluqlar olduqda, habelə rəydə istifadə olunmuş terminlərin və tətbiq edilən metodların dəqiqləşdirilməsinə zərurət yarandıqda təhqiqat aparan şəxs, müstəntiq və ya məhkəmə (hakim) Azərbaycan Respublikasının prosessual qanunvericiliyinə uyğun olaraq eksperti dindirə bilər.

Barəsində məhkəmə ekspertizası aparılan şəxsə dair

həmin məhkəmə ekspertizasının predmetinə aid olmayan məlumatlarla əlaqədar ekspert dindirilə bilməz.

Ekspert tərəfindən rəy verilənədək onun dindirilməsi qadağandır.

## III FƏSİL

## Məhkəmə ekspertizasının növləri və onun aparılması

### Maddə 15.
### Məhkəmə ekspertizasının növləri

Məhkəmə ekspertizası aşağıdakı növlərdən ibarətdir:

1) ilkin məhkəmə ekspertizası;

2) əlavə məhkəmə ekspertizası;

3) təkrar məhkəmə ekspertizası;

4) komission məhkəmə ekspertizası;

5) kompleks məhkəmə ekspertizası.

### Maddə 16.
### İlkin məhkəmə ekspertizası

İş üzrə icraat zamanı əhəmiyyət kəsb edən hər hansı məsələnin həlli üçün elm, incəsənət, texnika və ya sənət sahəsində xüsusi bilik tələb edildikdə, həmin məsələnin aydınlaşdırılması məqsədilə birinci dəfə təyin edilən ekspertiza ilkin məhkəmə ekspertizası adlanır.

**Maddə 17.**
**Əlavə məhkəmə ekspertizası**

İlkin məhkəmə ekspertizasının rəyi kifayət qədər aydın olmadıqda, ekspert qoyulmuş sualları tam həll etmədikdə və ya tədqiqat aparılmış obyektlərə dair əlavə suallar yarandıqda, aparılmış tədqiqatın və ya rəydəki boşluğun aradan qaldırılması üçün əlavə məhkəmə ekspertizası təyin edilir və onun aparılması həmin ekspertə və ya başqa ekspertə həvalə edilir.

**Maddə 18.**
**Təkrar məhkəmə ekspertizası**

Ekspertin rəyi kifayət qədər əsaslı olmadıqda və ya şübhə doğurduqda, yaxud onun əsaslandığı sübutlar etibarsız (qeyri-mötəbər) hesab edildikdə və ya ekspertiza aparılmasının prosessual qaydaları pozulduqda, təkrar ekspertiza aparılır. Təkrar ekspertizanın aparılması başqa ekspertə və ya ekspertlərə tapşırılır. Əvvəlki ekspertizanı aparmış ekspertlər təkrar ekspertizanın aparılmasında iştirak edə və izahlar verə bilərlər, lakin tədqiqat zamanı və rəy tərtib edilərkən, onlar iştirak etmirlər.

Təkrar ekspertizanın aparılması haqqında qərarda əvvəlki ekspertizaların nəticələri ilə razı olmamağın motivləri göstərilməlidir. Təkrar ekspertiza təyin edilərkən ekspert qarşısında əvvəllər tətbiq edilmiş tədqiqat üsullarının elmi əsaslılığı barədə sual qoyula bilər.

Ekspertlər arasında fikir ayrılığı olduqda hər bir ekspert buna səbəb olan məsələ barəsində yazılı formada öz rəyini ayrıca tərtib edir.

**Maddə 19.**
**Komission məhkəmə ekspertizası**

Komission məhkəmə ekspertizası eyni ixtisas üzrə sayı iki nəfərdən az olmayan ekspertlər tərəfindən aparılır.

Məhkəmə ekspertizasının komission xarakteri onu təyin etmiş orqan və ya şəxs, yaxud məhkəmə ekspertizası idarəsinin rəhbəri tərəfindən müəyyən edilir.

Komission məhkəmə ekspertizasının təşkil edilməsi və aparılması onu təyin etmiş orqan və ya şəxs tərəfindən məhkəmə ekspertizası idarəsinin rəhbərinə həvalə edilir.

Verilən sualların həll edilməsi zərurəti nəzərə alınaraq ekspertlər qarşıda duran tədqiqatın ardıcıllığını və həcmini razılaşdırırlar.

Komissiya tərkibində məhkəmə ekspertizasının aparılması həvalə edilmiş hər bir ekspert müstəqildir və sərbəst olaraq özünün əldə etdiyi və başqa ekspertlər tərəfindən əldə olunmuş nəticələri qiymətləndirir və öz zəruri biliyi hüdudlarında qoyulmuş suallara cavab verir.

Komission məhkəmə ekspertizası aparılarkən onu təyin etmiş orqan və ya şəxs, yaxud məhkəmə ekspertizası idarəsinin rəhbəri ekspertlərin fəaliyyətini əlaqələndirmək, ümumi tədqiqat planını işləyib hazırlamaq və ekspertlərin müşavirəsinə rəhbərlik etmək üçün ekspertlərdən birini rəhbər təyin edir. Komissiya rəhbərinin səlahiyyətləri digər ekspertlərin səlahiyyətlərindən fərqlənmir.

Ekspertlər rəy verməmişdən qabaq öz aralarında məsləhətləşirlər. Ümumi rəyə gəldikdə, rəyə bütün ekspertlər tərəfindən imza edilir.

Ekspertlər arasında fikir ayrılığı olduqda hər bir ekspert buna səbəb olan məsələ barəsində yazılı formada öz rəyini ayrıca tərtib edir.

**Maddə 20.**
**Kompleks məhkəmə ekspertizası**

İş üçün əhəmiyyətli olan halların aydınlaşdırılması müxtəlif bilik və ya elm sahələri, yaxud biliyin bir sahəsi daxilində müxtəlif üsullar sistemi əsasında yalnız bir neçə tədqiqat aparılmaqla həyata keçirilə bildikdə kompleks məhkəmə ekspertizası təyin edilir.

Kompleks məhkəmə ekspertizasının təşkili və aparılması ekspertlərin fəaliyyəti ilə əlaqədar məsələlər bu Qanunun 19-cu maddəsində müəyyən edilmiş qaydada həll edilir.

Kompleks məhkəmə ekspertizasının aparılmasında iştirak edən ekspertlərin rəyində hər bir ekspertin apardığı tədqiqatın növü və həcmi, müəyyən etdiyi faktlar və əldə etdiyi nəticələr göstərilir. Hər bir ekspert onun tərəfindən aparılmış tədqiqatı əks etdirən hissəsində rəyi imzalayır və ona görə məsuliyyət daşıyır.

Alınmış nəticələrin qiymətləndirilməsində və yekun nəticənin formalaşdırılmasında ekspertlər ümumi nəticəyə gəlirlər. Əgər ümumi nəticənin əsasını bir və ya bir neçə ekspert tərəfindən müəyyənləşdirilən faktlar təşkil edirsə, bu, rəydə öz əksini tapmalıdır.

**Maddə 21.**
**Məhkəmə ekspertizasının təyin edilməsi**

Məhkəmə ekspertizası Azərbaycan Respublikasının pros-

essual qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda və qaydada təyin edilir.

**Maddə 22.**

**Məhkəmə ekspertizasının aparılması**

Təhqiqat aparan şəxsin, müstəntiqin, prokurorun hakimin qərarı və ya məhkəmənin qərardadı, habelə bu Qanunun 22-1-ci maddəsində nəzərdə tutulmuş müraciət məhkəmə ekspertizasının aparılması üçün əsas sayılır.

Məhkəmə ekspertizasını təyin etmiş orqan və ya şəxs tədqiqatın aparılması və rəy verilməsi üçün zəruri olan tədqiqat obyektləri və iş üzrə materialları məhkəmə ekspertizası idarəsinə təqdim edir.

Məhkəmə ekspertizasını təyin etmiş orqan və ya şəxs Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müqayisəli tədqiqat üçün nümunələr götürür və onları işə əlavə edir. Zəruri hallarda, nümunələrin götürülməsi məhkəmə ekspertizasını aparan ekspertin iştirakı ilə həyata keçirilir.

Məhkəmə ekspertizası idarəsində məhkəmə ekspertizasının aparılması müddətləri Azərbaycan Respublikasının prosessual qanunvericiliyinə müvafiq olaraq müəyyən edilir.

**Maddə 22-1.**

**Cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildiyi halda müdafiə tərəfinin təşəbbüsü ilə ekspertizanın aparılması**

Cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildiyi halda müdafiə tərəfinin mənafeyinə xidmət edə biləcək

halların müəyyən edilməsi üçün müdafiəçi öz təşəbbüsü ilə bir və ya bir neçə ekspertə, ekspert idarəsinə ekspert işinin müqavilə əsasında ödənilməsi şərti ilə ekspertizanın aparılması barədə rəsmi müraciət etmək hüququna malikdir.

Cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildiyi halda, ekspertizanın müdafiə tərəfinin təşəbbüsü ilə və onun hesabına aparılması zamanı ekspertlə həmin tərəf arasında müqavilə bağlanır. Müdafiə tərəfi ekspertizanın aparılması üzrə xərcləri ödəyir və ekspertə suallar siyahısını və tədqiqat üçün obyektləri verir.

**Maddə 23.**

**Məhkəmə ekspertizası fəaliyyətini həyata keçirən orqan**

Məhkəmə ekspertizası fəaliyyəti Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının məhkəmə ekspertiza idarələri tərəfindən həyata keçirilir.

Məhkəmə ekspertiza idarələri məhkəmə ekspertizasının aparılması üzrə fəaliyyətlərini ekspert təcrübəsinin ümumiləşdirilməsi, ekspertlərin peşəkar hazırlığı və onların ixtisaslaşdırılması, o cümlədən ekspert praktikasının vahid elmi-metodik üsullarla öyrənilməsi əsasında həyata keçirirlər.

**Maddə 24.**

**Məhkəmə ekspertizasının aparılmasında məhdudiyyətlər**

Məhkəmə ekspertizası idarəsi rəhbərinin işdə marağı

olduğunu təsdiq edən hallar müəyyən edilərsə, məhkəmə ekspertizasının aparılması həmin idarəyə tapşırıla bilməz, başlanılmış tədqiqat isə dərhal dayandırılmalıdır.

Ekspert, Azərbaycan Respublikasının prosessual qanunvericiliyində göstərilən əsaslar mövcud olduqda, məhkəmə ekspertizasının aparılmasında iştirakdan özü-özünə etiraz etməlidir, məhkəmə ekspertizası ona tapşırıldıqda isə onun aparılmasını dərhal dayandırmalıdır.

Məhkəmə ekspertizasının aparılması, bu maddənin birinci və ikinci hissələrinin tələblərinin pozulması ilə həyata keçirilmişdirsə, o, icra edilməmiş hesab olunur və ekspertin rəyi sübut kimi istifadə edilə bilməz. Belə olduqda, məhkəmə ekspertizasının təyin edilməsi məsələsi yenidən həll edilir.

**Maddə 25.**

**Proses iştirakçılarının məhkəmə ekspertizasının aparılmasında iştirak etməsi**

Yalnız Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə belə hüquqları nəzərdə tutulmuş proses iştirakçıları məhkəmə ekspertizasını təyin etmiş orqanın və ya şəxsin icazəsi ilə məhkəmə ekspertizasının aparılmasında iştirak edə bilərlər.

Məhkəmə ekspertizasının aparılmasında iştirak edən proses iştirakçıları tədqiqatın gedişatına müdaxilə edə bilməzlər, lakin məhkəmə ekspertizasının predmetinə dair ekspertə suallar və izahatlar verə bilərlər.

Ekspert, rəyini tərtib etdiyi zaman, həmçinin məhkəmə ekspertizası ekspertlər tərəfindən aparıldıqda, ekspertlərin müşavirəsi və əldə edilmiş nəticələrin yekunlaşdırılması

mərhələsində proses iştirakçılarının iştirakına yol verilmir.

Proses iştirakçısı məhkəmə ekspertizası aparıldığı zaman ekspertə mane olduqda, ekspert tədqiqatı dayandıra bilər və həmin şəxsə verilmiş icazənin ləğv edilməsi barədə məhkəmə ekspertizasını təyin etmiş orqan və ya şəxs qarşısında vəsatət qaldıra bilər.

**Maddə 26.**

**Məhkəmə ekspertinin (ekspertlərinin) rəyi və onun məzmunu**

Aparılmış tədqiqatlar əsasında əldə edilmiş nəticələr nəzərə alınmaqla məhkəmə eksperti (ekspertləri) öz adından yazılı rəy verir və onu imzalayır. Məhkəmə ekspertinin (ekspertlərinin) imzaları məhkəmə ekspertizası idarəsinin möhürü ilə təsdiq olunur.

Məhkəmə ekspertinin (ekspertlərinin) rəyində aşağıdakılar göstərilir:

▪ məhkəmə ekspertizasının aparıldığı tarix və yer;

▪ məhkəmə ekspertizasının aparılmasının əsasları;

▪ məhkəmə ekspertizasını təyin etmiş orqan və ya şəxs haqqında məlumat;

▪ məhkəmə ekspertizasının aparılması həvalə edildiyi məhkəmə ekspertizası idarəsi və məhkəmə eksperti haqqında (soyadı, adı və atasının adı, təhsili, ixtisası, ekspert kimi iş stajı, elmi vəzifəsi və elmi dərəcəsi, tutduğu vəzifə) məlumat;

▪ Azərbaycan Respublikasının prosessual qanunvericiliyinə uyğun olaraq ekspertin bilə-bilə yalan rəy verməsinə görə məsuliyyəti barədə ona xəbərdarlıq edilməsi;

▪ məhkəmə eksperti (ekspertləri) qarşısında qoyulmuş suallar;

▪ məhkəmə ekspertizasının aparılması üçün məhkəmə ekspertinə təqdim edilmiş tədqiqat obyektləri və iş üzrə materiallar;

▪ məhkəmə ekspertizasının aparılması zamanı iştirak etmiş proses iştirakçıları haqqında məlumat;

▪ istifadə edilən metodlar göstərilməklə tədqiqatın məzmunu və nəticələri;

▪ tədqiqatın nəticələrinin qiymətləndirilməsi, qoyulmuş suallar üzrə yekun nəticələrin əsaslandırılması və dürüst ifadə olunması.

Məhkəmə ekspertinin (ekspertlərinin) rəyini əks etdirən materiallar rəyə əlavə edilir və onun tərkib hissəsini təşkil edir. Tədqiqatın gedişatı, şəraiti və nəticələrini özündə əks etdirən sənədlər məhkəmə ekspertizası idarəsində saxlanılır. Məhkəmə ekspertizasını təyin etmiş orqanın və ya şəxsin tələbi ilə həmin sənədlər işə əlavə olunmaq üçün onlara göndərilə bilər.

Tədqiqat zamanı təqdim edilmiş materialların və ekspertin xüsusi biliklərinin kifayət qədər olmaması aşkar edildikdə, ekspertin rəyində onun qarşısına qoyulmuş sualların hamısına və ya bir qisminə cavab verməyin qeyri-mümkünlüyünü əsaslandıran müddəa öz əksini tapır.

## IV FƏSİL

### Məhkəmə ekspertizası idarələrində canlı şəxslər barəsində məhkəmə ekspertizasının aparılmasının xüsusiyyətləri

**Maddə 27.**

**Canlı şəxslər barəsində məhkəmə ekspertizasının aparılması**

Canlı şəxslər barəsində məhkəmə ekspertizası məhkəmə icraatının bütün növləri üzrə həyata keçirilir. Məhkəmə ekspertizasına göndərilməli olan şəxslərin dairəsi Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə müəyyən edilir.

**Maddə 28.**

**Canlı şəxslər barəsində məhkəmə ekspertizasının aparılması şəraiti və yeri**

Canlı şəxslər barəsində məhkəmə ekspertizası tibbi və başqa idarələrdə, habelə müvafiq tədqiqatın aparılması və ekspertizanın aparıldığı şəxslərin hüquqlarının və qanuni mənafelərinin qorunmasının təmin edilməsi üçün zəruri olan şəraitin olduğu başqa yerlərdə aparıla bilər.

Məhkəmə ekspertizası aparılarkən şəxsin stasionar müayinəsi zərurəti yaranarsa, həmin şəxs bu Qanunda və Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada tibbi stasionara yerləşdirilə bilər.

Məhkəmə ekspertizasına göndərilmiş şəxsin məcburi qaydada tibbi və ya başqa idarəyə yerləşdirilməsi məhkəmə

ekspertizasını təyin etmiş orqan və ya şəxs tərəfindən təmin edilir.

**Maddə 29.**

**Məhkəmə ekspertizasının könüllülük və məcburilik qaydasında aparılması**

Canlı şəxslər barəsində məhkəmə ekspertizası könüllü və yaxud məcburi qaydada həyata keçirilir.

Məhkəmə ekspertizası könüllü qaydada həyata keçirildikdə, məhkəmə ekspertizası idarəsinə haqqında məhkəmə ekspertizası aparılan şəxsin yazılı formada razılığı təqdim edilməlidir.

Əgər haqqında məhkəmə ekspertizası aparılan şəxs on altı yaşına çatmamışdırsa və ya məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan şəxs hesab edilmişdirsə, məhkəmə ekspertizasının aparılmasına yazılı formada razılıq həmin şəxsin qanuni nümayəndəsi tərəfindən verilir.

Məcburi qaydada məhkəmə ekspertizasına göndərilən şəxslərin dairəsi Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə müəyyən edilir. Azərbaycan Respublikasının prosessual qanunvericiliyində şəxsin məcburi qaydada məhkəmə ekspertizasına göndərilməsi haqqında birbaşa göstəriş olmadıqda, məhkəmə ekspertizası idarəsi həmin şəxs barəsində məcburi qaydada məhkəmə ekspertizasını apara bilməz.

**Maddə 30.**

**Şəxsin tibbi stasionara yerləşdirilməsinin əsasları və qaydası**

Məhkəmə-tibbi və ya məhkəmə-psixiatriya ekspertizası

təyin edilərkən şəxsin stasionar müayinəsi zərurəti yaranarsa o, məhkəmə ekspertizasının təyin edilməsi barədə qərar əsasında müvafiq tibbi stasionara yerləşdirilir. Şəxsin tibbi stasionara yerləşdirilməsi qaydası Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə müəyyən edilir.

Həbsdə saxlanılan şəxslər barəsində məhkəmə ekspertizası aparıldıqda, onlar bu məqsədlə xüsusi yaradılmış tibbi stasionara yerləşdirilir.

Məhkəmə-psixiatriya ekspertizasının aparılması üçün şəxs yalnız məhkəmənin (hakimin) qərarı əsasında psixiatriya stasionarına və yaxud məhkəmə-psixiatriya ekspertizası stasionarına yerləşdirilə bilər.

Məhkəmə ekspertizasını təyin etmiş və məcburi qaydada şəxsi tibbi stasionara yerləşdirmiş orqan və ya şəxs iyirmi dörd saat müddətində həmin şəxsin yaxın qohumlarına və ya onun göstərdiyi hər hansı şəxsə, bu cür adam olmadıqda isə onun yaşadığı yer üzrə daxili işlər orqanına məlumat verməlidir.

**Maddə 31.**
**Şəxsin tibbi stasionarda qalma müddəti**

Şəxs məhkəmə tibbi ekspertizası aparılması üçün otuz gün müddətinədək tibbi stasionara yerləşdirilə bilər.

Zərurət olduqda, ekspertin (ekspertlərin) əsaslandırılmış vəsatətinə əsasən şəxsin tibbi stasionarda qalma müddəti göstərilən stasionarın yerləşdiyi rayon məhkəməsi hakiminin qərarı ilə daha otuz gün müddətinə uzadıla bilər.

Tibbi stasionarda qalma müddətinin uzadılması barədə ekspertin (ekspertlərin) təqdimatı otuz gün müddətinin başa

çatmasına üç gün qalmış həmin stasionarın yerləşdiyi rayonun məhkəməsinə təqdim edilməlidir.

Hakim təqdimatı aldıqdan sonra üç gün ərzində qərar çıxarır və bu barədə ekspertə (ekspertlərə) məlumat verir.

Şəxsin tibbi stasionarda qalma müddətinin uzadılmasından hakim tərəfindən imtina edildikdə həmin şəxs oradan dərhal çıxarılmalıdır.

Məhkəmə ekspertizası idarəsinin rəhbəri hakimin qərarı barədə tibbi stasionarda olan şəxsə, həmçinin məhkəmə ekspertizasını təyin etmiş orqana və ya şəxsə məlumat verir.

Tibbi stasionarda qalma müddəti pozulduqda, şəxs, onun müdafiəçisi, qanuni nümayəndəsi və ya işdə iştirak etmək üçün buraxılmış digər nümayəndələri bu barədə stasionarın yerləşdiyi rayonun məhkəməsinə şikayət edə bilər.

**Maddə 32.**

**Haqqında məhkəmə ekspertizası aparılan şəxsin qanuni mənafelərinin müdafiəsi və onun hüquqları**

Canlı şəxslər barəsində məhkəmə ekspertizası aparıldıqda aşağıdakıları etmək qadağandır:

▪ məlumat almaq məqsədi ilə onun hüquqlarını məhdudlaşdırmaq, aldatmaq, hədə-qorxu gəlmək, zor və digər qanunsuz tədbirlər tətbiq etmək;

▪ üzərində yeni dərman vasitələrini, diaqnostik metodları, xəstəliklərin profilaktikasını və müalicəsini sınaqdan keçirmək, həmçinin şəxsdən obyekt kimi istifadə olunmaqla bio-tibbi eksperimental tədqiqatlar aparmaq.

Barəsində məhkəmə ekspertizası aparılan şəxs ekspertə

həmin məhkəmə ekspertizasının predmetinə aid olan izahatlar verə bilər.

Tibbi stasionarda yerləşdirilmiş şəxslə onun müdafiəçisinin, qanuni nümayəndəsinin və ya işdə iştirak etmək üçün buraxılmış digər nümayəndələrinin görüşü, üçüncü şəxslər tərəfindən informasiya əldə olunmasını istisna edən şəraitdə təşkil edilir.

Şikayət, ərizə və vəsatət vermək üçün tibbi stasionarda yerləşdirilmiş şəxsə real imkanlar yaradılmalıdır. Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada verilmiş şikayət senzuradan keçirilmir və iyirmi dörd saat ərzində aidiyyəti üzrə göndərilir.

**Maddə 33.**

**Həbsdə olmayan şəxslər barəsində məhkəmə ekspertizasının psixiatriya stasionarlarda aparılması şəraiti**

Həbsdə olmayan şəxslər barəsində məhkəmə psixiatriya ekspertizası həm müvafiq məhkəmə-psixiatriya ekspertizası stasionarında, həm də digər psixiatriya stasionarlarda həyata keçirilir. Həbsdə olan şəxslərin yuxarıda göstərilən stasionarlarda yerləşdirilməsinə yol verilmir.

Həbsdə olmayan şəxslərin digər psixiatriya stasionarlarda yerləşdirilməsi onların barəsində məhkəmə ekspertizasının aparılmasına çətinlik törətməməlidir.

Həbsdə olmayan şəxs məhkəmə-psixiatriya ekspertizası aparılan müddətdə psixiatriya stasionarların pasiyentlərinə şamil olunan hüquqlardan istifadə edirlər.

Həbsdə olmayan, ağır psixi pozuntulardan əziyyət çəkməyən şəxs tərəfindən ətrafdakıların həyat və sağlamlığına

təhlükə törədən və ya psixiatriya stasionarın iş rejimini ciddi pozan hərəkətlərə yol verilərsə, həmin stasionarın müdiriyyəti bu hərəkətlərin qarşısının alınması məqsədi ilə zəruri tədbirlərin görülməsi üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına məlumat verir.

Haqqında məhkəmə-psixiatriya ekspertizasının könüllü qaydada aparıldığı şəxs tərəfindən bu cür hərəkətlərə yol verilərsə, o, psixiatriya stasionardan çıxarıla bilər və bu barədə stasionarın müdiriyyəti məhkəmə ekspertizasını təyin etmiş orqana və ya şəxsə yazılı formada məlumat verir.

**Maddə 34.**

**Həbsdə olan şəxslər barəsində məhkəmə ekspertizasının psixiatriya stasionarında aparılması şəraiti**

Həbsdə olan şəxslər barəsində məhkəmə psixiatriya ekspertizası həmin şəxslərin saxlanması üçün müəyyən edilmiş məhkəmə-psixiatriya ekspertizası stasionarlarında aparılır. Bu stasionarların təhlükəsizliyinin təmin edilməsi və mühafizəsi həbsdə saxlanma yerlərinin təhlükəsizliyinin təmin edilməsi və mühafizəsi vəzifələrini yerinə yetirən orqanlar tərəfindən həyata keçirilir.

Məhkəmə-psixiatriya ekspertiza stasionarlarının təhlükəsizliyini və mühafizəsini həyata keçirən şəxslərlə həmin stasionarların tibb işçilərinin birgə fəaliyyət qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Məhkəmə-psixiatriya ekspertizası stasionarlarında yerləşdirilən həbsdə olan şəxslərə Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinin normaları şamil edilir.

Belə hallarda açıq-aşkar ağır psixi pozuntusu olan şəxslərə tənbeh və maddi məsuliyyət tədbirləri nəzərdə tutan normalar, həmçinin silah işlədilməsi tətbiq edilmir.

**Maddə 35.**

**Məhkəmə-psixiatriya ekspertizası stasionarlarında saxlanılan şəxslərin təminatı**

Məhkəmə-psixiatriya ekspertiza stasionarlarında saxlanılan şəxslərin maddi-məişət və tibbi-sanitar təminatı Azərbaycan Respublikasının qanunvericiliyi ilə psixiatriya stasionarları üçün müəyyən edilmiş normalar və qaydalar üzrə həyata keçirilir.

**Maddə 36.**

**Canlı şəxslər barəsində məhkəmə ekspertizası aparılarkən tədqiqat metodlarının tətbiq edilməsində məhdudiyyətlər**

Canlı şəxs barəsində məhkəmə ekspertizası aparılarkən güclü ağrıverici təsirlərə malik olan və yaxud şəxsin sağlamlığına mənfi təsir edə biləcək tədqiqat metodlarının, həmçinin Azərbaycan Respublikasının qanunvericiliyi ilə səhiyyə praktikasında istifadə edilməsi qadağan olunan metodların tətbiqinə yol verilmir.

Haqqında məhkəmə ekspertizası aparılan şəxs ona qarşı tətbiq olunan tədqiqat metodları və mümkün ola biləcək ağrıverici təsirlər barədə məlumatlandırılmalıdır. Eyni məlumatlar haqqında məhkəmə ekspertizası aparılan şəxsin müvafiq vəsatətlə müraciət etmiş qanuni nümayəndəsinə də verilir.

Canlı şəxslər barəsində məhkəmə ekspertizası aparılarkən tədqiqat aparılması məqsədilə tibb idarəsində onlardan zəruri olan nümunələr götürülür və bu barədə ekspertin rəyində göstərilir. Nümunələr həmin tibb idarəsinin iki nəfər tibb işçisinin iştirakı ilə həkim və ya digər mütəxəssis tərəfindən götürülür. Könüllülük qaydasında məhkəmə ekspertizasına göndərilmiş şəxslərdən məcburi qaydada nümunələrin götürülməsinə yol verilmir.

**Maddə 37.**

**Proses iştirakçılarının canlı şəxslər barəsində məhkəmə ekspertizasının aparılmasında iştirakı**

Canlı şəxslər barəsində aparılan məhkəmə ekspertizasında yalnız Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə belə hüququ olan proses iştirakçıları iştirak edə bilərlər.

Digər şəxslərin iştirakına məhkəmə ekspertizasını təyin etmiş orqanın və ya şəxsin, yaxud haqqında məhkəmə ekspertizası aparılan şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı ilə yol verilir.

Haqqında məhkəmə ekspertizası aparılan şəxsin soyunması ilə müşayiət olunan tədqiqatlar həyata keçirilərkən yalnız eyni cinsdən olan şəxslər iştirak edə bilərlər. Bu məhdudiyyət həmin tədqiqatların aparılmasında iştirak edən həkimlərə və tibb işçilərinə aid edilmir.

## V FƏSİL

## Yekun müddəalar

### Maddə 38.

**Məhkəmə ekspertizası idarəsinin fəaliyyətinin maliyyələşdirilməsi**

Məhkəmə ekspertizası idarəsinin fəaliyyəti dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir.

Məhkəmə ekspertizasının lazımi səviyyədə aparılmasını təmin etmək məqsədilə məhkəmə ekspertizası idarəsinin müasir texnika və avadanlıqlarla təchiz edilməsi üçün dövlət büdcəsindən vəsait ayrılması nəzərdə tutulur.

### Maddə 39.

**Məhkəmə ekspertizası idarəsinin əməkdaşlarının əməyinin ödənilməsi**

Məhkəmə ekspertizası idarəsinin əməkdaşlarının əməyinin ödənilməsi, tabeliyində olduqları müvafiq icra hakimiyyəti orqanlarının əməkdaşları üçün müəyyənləşdirilmiş əməyin ödənilməsi şərtlərinə və formasına uyğun olmalıdır.

İşin xarakteri və şəraiti nəzərə alınmaqla məhkəmə ekspertizası idarəsinin əməkdaşlarının əməyinin ödənilməsi zamanı ixtisas, xüsusi rütbələrinə və elmi dərəcələrinə görə əlavələr müəyyən edilməlidir.

**Maddə 40.**

**Məhkəmə ekspertizası idarəsinin fəaliyyətinin təşkilatı və elmi təminatı**

Məhkəmə ekspertizası fəaliyyətinin maddi-texniki, elmi-metodik və təşkilati təminatı məhkəmə ekspertiza idarəsinin tabe olduğu müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

**Maddə 41.**

**Məhkəmə ekspertizası idarəsinin fəaliyyətinin informasiya təminatı**

Məhkəmə ekspertizası idarəsinin rəhbərinin sorğusu əsasında mülkiyyət formasından asılı olmayaraq bütün idarə, təşkilat və müəssisələr məhkəmə ekspertizasının aparılması üçün zəruri olan etalon nümunələrini və texniki məlumatları məhkəmə ekspertizası idarəsinə təqdim etməyə borcludurlar, bu zaman mülkiyyətçinin qanunla müəyyən edilmiş mülkiyyət hüququnun pozulmasına yol verilmir.

**Maddə 42.**

**Məhkəmə ekspertizasının aparılması sahəsində beynəlxalq əməkdaşlıq**

Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası beynəlxalq müqavilələrə uyğun olaraq məhkəmə ekspertizası fəaliyyəti sahəsində Azərbaycan Respublikasının məhkəmə ekspertiza idarələri xarici dövlətlərin müvafiq orqanları ilə, habelə beynəlxalq təşkilatlarla əməkdaşlıq edir.

**Maddə 43.**
**Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun pozulmasına görə vəzifəli şəxslər və vətəndaşlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

*Bakı şəhəri, 18 noyabr 1999-cu il*
**№ 758-IQ**

*«Azərbaycan» qəzetində dərc edilmişdir*
*(26 yanvar 2000-ci il, № 18)*

30 dekabr 2003-cü il tarixli, 568-IIQD nömrəli; 5 mart 2004-cü il tarixli, 598-IIQD nömrəli; 10 oktyabr 2006-cı il tarixli, 161-IIIQD nömrəli; 29 dekabr 2006-cı il tarixli, 220-IIIQD nömrəli; 16 fevral 2007-ci il tarixli, 244-IIIQD nömrəli qanunlara əsasən dəyişikliklərlə

# TƏHQİQAT, İBTİDAİ İSTİNTAQ, PROKURORLUQ VƏ MƏHKƏMƏ ORQANLARININ QANUNSUZ HƏRƏKƏTLƏRİ NƏTİCƏSİNDƏ FİZİKİ ŞƏXSLƏRƏ VURULMUŞ ZİYANIN ÖDƏNİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASININ

## QANUNU

Bu Qanun təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının və ya onların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri (səhvi və ya sui-istifadəsi) nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın dövlət tərəfindən ödənilməsi hüququnun təmin edilməsinə yönəldilmişdir.

**Maddə 1.**
**Ümumi müddəalar**

Bu Qanunun və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarının müddəalarına əsasən Azərbaycan Respublikasının ərazisində Azərbaycan Respublikasının təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının səhvi və ya sui-istifadəsi nəticəsində:

1) barəsində məhkəmənin bəraət hökmü çıxarılan şəxsin cinayət təqibinə məruz qalması;

2) barəsindəki cinayət təqibinə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39.1.1, 39.1.2, 39.1.6-

39.1.8 və 39.2-ci maddələrində nəzərdə tutulmuş əsaslarla xitam verilən şəxsin cinayət təqibinə məruz qalması;

3) Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39.1.3, 39.1.4, 39.1.10 və 39.1.11-ci maddələrində nəzərdə tutulmuş əsaslarla barəsində cinayət təqibinə xitam verilməli olan şəxsin barəsində cinayət təqibinə vaxtında xitam verilməməsi və cinayət təqibinin davam etdirilməsi;

4) Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39.1.12-ci maddəsində nəzərdə tutulmuş əsaslarla barəsində cinayət təqibinə xitam verilməli olan şəxsdən buna razılıq alınmasına baxmayaraq, həmin şəxs barəsində cinayət təqibinin davam etdirilməsi;

5) şəxsin qanunsuz həbs olunması və ya tibbi, yaxud tərbiyə müəssisəsinə məcburi yerləşdirilməsi, habelə qanuni əsas olmadan müəyyən edilmiş müddətdən artıq həbsdə saxlanılması;

6) cinayət təqibi üzrə icraat zamanı şəxsin qanunsuz olaraq, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 176-cı və 177-ci maddələrində nəzərdə tutulmuş hallarda prosessual məcburiyyət tədbirlərinə məruz qalması;

7) şəxsin barəsində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi;

8) şəxsin barəsində islah işləri, inzibati həbs və ya cərimə növündə inzibati tənbeh tətbiq edilməsi nəticəsində həmin şəxsə vurulmuş ziyan ödənilməlidir.

Bu maddənin birinci hissəsində nəzərdə tutulmuş hallarda vurulmuş ziyan təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının vəzifəli şəxslərinin təqsirindən asılı

olmayaraq tam həcmdə ödənilir.

**Maddə 2.**

**Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxsə vurulmuş ziyanın ödənilməsi haqqında qanunvericilik**

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Bu Qanunda və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarında göstərilən qaydalarla Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş qaydalar arasında ziddiyyət yaranarsa, beynəlxalq müqavilələrin müddəaları tətbiq olunur.

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi sahəsində qəbul edilən qanun qüvvəli aktlarla dövlət orqanları, fiziki və hüquqi şəxslər üçün bu Qanundan irəli gəlməyən səlahiyyətlər və vəzifələr müəyyən edilə bilməz.

**Maddə 3.**

**Qanunun tətbiqi zamanı qanunçuluğun təminatı**

Fiziki şəxslərin hüquqlarının və qanuni mənafelərinin, ictimai və dövlət mənafelərinin pozulması hallarının vaxtında

aşkar edilməsi, qarşısının alınması və aradan qaldırılması məqsədilə təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında qanunvericiliyin eyni cür və dürüst icrası dövlət tərəfindən qanunla nəzərdə tutulmuş qaydada təmin edilir.

**Maddə 4.**

**Vurulmuş ziyanın ödənilməsi hüququ**

Vurulmuş ziyanın bu Qanunla müəyyən edilmiş hallarda, miqdarda və qaydada ödənilməsi hüququ:

1) bəraətverici hökm çıxarıldıqda;

2) cinayət təqibinə xitam verilməsi haqqında qərar çıxarıldıqda;

3) inzibati xəta haqqında işə xitam verildikdə yaranır.

Bu Qanunun 1-ci maddəsində göstərilmiş əməliyyat-axtarış tədbirlərinin cinayət işi başlamazdan əvvəl keçirilməsi nəticəsində vurulmuş ziyanın ödənilməsi hüququ belə tədbirlər keçirildikdən dərhal sonra yaranır.

Vurulmuş ziyanın ödənilməsi hüququna malik olan şəxs vəfat etdikdə, bu Qanunun 5-ci maddəsinin 1-ci, 2-ci, 3-cü və 4-cü bəndlərində nəzərdə tutulmuş hallarda vurulmuş ziyanın ödənilməsi hüququ Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada onun vərəsələrinə keçir.

**Maddə 5.**

**Ödənilən ziyan**

Bu Qanunun 1-ci maddəsində nəzərdə tutulmuş hallarda

hər bir şəxsə:

1) məhrum olduğu əmək haqqı, pensiya, müavinət və başqa gəlirlər;

2) müsadirə edilməsi, dövlət nəfinə keçirilməsi, istintaq orqanları tərəfindən götürülməsi, üzərinə həbs qoyulması ilə vurulmuş əmlak ziyanı;

3) ödənilmiş məhkəmə xərcləri, habelə hökmün icrası zamanı ödənilmiş və ya tutulmuş cərimə;

4) hüquqi yardımın göstərilməsi ilə əlaqədar ödənilmiş məbləğlər;

5) vurulmuş fiziki və mənəvi ziyan ödənilməlidir.

Həbsdə saxlanılmasına, məhkəmə məsrəflərinə, həbsdə saxlanılarkən gördüyü məcburi işlərə görə haqqın verilməsinə sərf olunmuş məbləğlər təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının səhvi və ya sui-istifadəsi nəticəsində şəxsə vurulmuş ziyanın ödənilməsi üçün nəzərdə tutulmuş məbləğdən çıxıla bilməz.

**Maddə 6.**

**Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində şəxsin əmlakına vurulmuş ziyanın ödənilməsi qaydası**

Bu Qanunun 5-ci maddəsində nəzərdə tutulmuş hallarda vurulmuş ziyanın ödənilməsi dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

Bu Qanunun 5-ci maddəsinin 1-ci bəndində nəzərdə tutulmuş ödənilməli olan məbləğlərin miqdarı şəxsin işdən (vəzifədən) kənarlaşdırıldığı, təyin olunmuş cəzanı çəkdiyi dövrdə əldə edilməmiş gəliri nəzərə almaqla müəyyən edi-

lir.

Bu Qanunun 5-ci maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş əmlak natura formasında, bu mümkün olmadıqda isə, onun dəyəri dövlət və ya onu əvəzsiz olaraq əldə etmiş müəssisə, idarə və təşkilatların hesabına ödənilir.

Evlərin və digər tikililərin dəyəri, yalnız bu əmlakın natura şəklində qalmadığı, şəxsin dəyərcə bərabər olan yaşayış sahəsinin və ya digər tikililərin əvəzsiz olaraq onun mülkiyyətinə verilməsindən imtina etdiyi hallarda və ya həmin şəxsin yaşayış evlərinin və digər tikililərin dəyərinin ödənilməsinə razılığı olduqda ödənilir. Yaşayış sahəsinin və digər tikililərin dəyəri mövcud bazar qiymətlərinə əsasən müəyyən edilir.

Əmlakın dəyəri onun ödənilməsi haqqında qərarın qəbul edildiyi vaxtda mövcud olan qiymət əsasında ödənilir. Əmlakın zədələnməsi və ya köhnəlməsi hallarında vurulmuş ziyan tam həcmdə ödənilməlidir.

Ödənilməli olan əmlakı əvəzsiz olaraq əldə etmiş müəssisənin, idarənin və təşkilatın ləğv edildiyi və ya vurulmuş ziyanın ödənilməsi üçün onların vəsaiti çatışmadığı hallarda, əmlakın dəyəri (əmlakın dəyərinin çatışmayan hissəsi) dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

Qanunsuz məhkum edilməsi nəticəsində yaşayış sahəsindən istifadə etmə hüququndan məhrum edilmiş şəxsə müvafiq icra hakimiyyəti orqanları tərəfindən həmin yaşayış sahəsi bir ay müddətində, bu yaşayış sahəsi natura şəklində qalmadığı hallarda isə, bununla əlaqədar edilmiş müraciətdən sonra altı ay müddətində həmin yaşayış məntəqəsində ailə tərkibi və yaşayış sahəsinə dair qüvvədə

olan normalar nəzərə alınmaqla növbədənkənar eyni dəyərli abadlaşdırılmış yaşayış sahəsi verilməlidir.

Ödənilməli olan əmlakı əldə edilmiş şəxs, bu əmlakın vurulmuş ziyanın ödənilməsi qaydası əvvəlki sahibinə qaytarılması ilə əlaqədar əvəzində dövlətdən abadlaşdırılmış, dəyərcə və bütün digər əlamətlərlə bərabər olan əmlakı və ya onun dəyərini tələb etmək hüququna malikdir. Belə tələb irəli sürüldükdən sonra bir ay müddətindən gec olmayaraq dövlət tərəfindən təmin edilir.

Bununla əlaqədar bütün mübahisələr məhkəmə qaydasında həll olunur.

**Maddə 7.**

**Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş fiziki və mənəvi ziyanın ödənilməsi**

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının səhvi və ya sui-istifadəsi nəticəsində şəxsə vurulmuş fiziki və mənəvi ziyan ödənilməlidir.

Şəxsin barəsində mənfi fikrin formalaşmasına, onu əhatə edən şəxslərlə münasibətlərin pisləşməsinə gətirib çıxaran və digər mənəvi xarakterli mənfi nəticələr mənəvi ziyan hesab edilir.

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində şəxsə vurulmuş fiziki və mənəvi ziyan mülki qanunvericiliklə nəzərdə tutulmuş qaydada ödənilir.

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının səhvi və ya sui-istifadəsi nəticəsində zərər

çəkmiş şəxsin (bu şəxs öldüyü, yaxud fəaliyyət qabiliyyətini itirdiyi hallarda isə-onun hər hansı qohumunun) tələbi ilə məhkəmə və ya istintaq orqanı iki həftə müddətində bu barədə həmin şəxsin əvvəlki və ya hazırkı iş yerinə, təhsil aldığı yerə, yaşayış yerinə məlumat verməli, habelə şübhəli və ya təqsirləndirilən şəxsi ləkələyən məlumatlar dərc edən kütləvi informasiya vasitəsi vətəndaşın təqsirsizliyini şübhə altına almadan bir ay müddətində iş üzrə yekun qərarı haqqında məlumat verməlidir. Göstərilən halda kütləvi informasiya vasitəsi tərəfindən icrası məcburi olan müvafiq tələbi, həmçinin ərazi və ya ixtisaslaşdırılmış prokuror verməyə haqlıdır.

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanları onların səhvi və ya sui-istifadəsi nəticəsində həbsdə saxlanılmış, yaxud təqsirləndirilən şəxs qismində cəlb edilmiş şəxsdən yazılı surətdə üzr istəməlidir.

**Maddə 8.**

**Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində şəxsin işdən (vəzifədən) azad edilməsi və ya kənarlaşdırılması ilə əlaqədar vurulmuş ziyanın ödənilməsi**

Qanunsuz məhkum edilməsi və ya cinayət məsuliyyətinə cəlb edilməsi ilə əlaqədar işdən (vəzifədən) çıxarılmış və ya işdən (vəzifədən) kənarlaşdırılmış şəxs, əvvəlki işə (vəzifəyə) bərpa edilməli, bu mümkün olmadıqda isə (müəssisənin, idarənin, təşkilatın ləğv edilməsi, vəzifənin ixtisar olunması), dövlət məşğulluq xidməti tərəfindən başqa müvafiq (əvvəlki işinə bərabər olan) işlə (vəzifə ilə) təmin

edilməlidir və ya ona əvvəlki vəzifəsini itirməsi ilə əlaqədar vurulmuş ziyana görə pul kompensasiyası ödənilməlidir.

Bu maddənin birinci hissəsində nəzərdə tutulmuş hallarda işdən (vəzifədən) çıxarılma haqqında əmək kitabçasında edilmiş qeyd etibarsız hesab olunur. Şəxsin tələbi ilə onun işdən (vəzifədən) çıxarılması haqqında əmək kitabçasında müvafiq qeyd aparmış orqan və ya onun vəzifəli şəxsi beş gün müddətində etibarsız hesab olunmuş qeydin olmadığı əmək kitabçasının dublikatını ona verməlidir.

Şəxsin cinayət və ya inzibati məsuliyyətə cəlb edilməsi, yaxud məhkum edilməsi haqqında məlumatlar dərc edildikdə onun tələbi ilə, həmin şəxs vəfat etdikdə isə onun qohumlarının, yaxud təhqiqat orqanının, müstəntiqin, prokurorun və məhkəmənin tələbi ilə bu məlumatları dərc etmiş orqan on gün müddətində qeyd olunan məlumatları təkzib etməlidir.

**Maddə 9.**

**Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində işdən (vəzifədən) azad edilmiş və ya kənarlaşdırılmış şəxsin əmək stajının hesablanması**

Şəxsin tutulma, həbsdə olma, cəza çəkmə müddətləri və işdən (vəzifədən) kənarlaşdırılması ilə əlaqədar işləmədiyi müddət həm ümumi əmək stajına, həm də ixtisas üzrə və fasiləsiz staja daxil edilir.

Fəhlələrin və dövlət qulluqçularının, eləcə də üzvlük əsasında (kooperativ və digər müəssisələrdə) işləmiş şəxslərin, bu maddənin birinci hissəsində göstərilmiş

müddətlərin əlavə edilməsi şərtilə hesablanmış əmək stajı, həmin şəxslərə imtiyazların və müavinətlərin, o cümlədən təqaüdlərin və dövlət sosial sığortası üzrə ödənişlərin təyin edilməsi zamanı nəzərə alınır. Bu staj fəhlələrə və qulluqçulara imtiyazlı təqaüdlərin və xidmət işlərinə görə təqaüdlərin təyin edilməsi, ixtisas üzrə iş müddətinin davamından asılı olaraq aylıq maaş dərəcəsinin (vəzifə maaşının) müəyyən edilməsi və birdəfəlik mükafatlandırma və ya xidmət illərinə görə faiz artırmalarının ödənilməsi zamanı nəzərə alınmalıdır.

Bu maddənin birinci hissəsində göstərilmiş müddəalar, yaşla əlaqədar imtiyazlı təqaüdlərin təyin edilməsi zamanı, təqaüdün təyin edilməsi üçün müraciət etmiş şəxsin istəyi ilə, onun qanunsuz məhkum edilməsindən və ya cinayət, yaxud inzibati məsuliyyətə cəlb edilməsindən əvvəlki, yaxud cinayət və ya inzibati məsuliyyətdən və ya cəza çəkməkdən azad edilməsindən sonrakı işinə bərabər tutulur.

**Maddə 10.**

**Qanunsuz məhkum etmə ilə əlaqədar rütbələrin və fəxri adların qaytarılması**

Qanunsuz məhkum edilməsi ilə əlaqədar hərbi və ya digər rütbələrdən, dərəcələrdən və adlardan, dövlət mükafatlarından və təltiflərdən məhrum edilmiş şəxsə həmin hərbi və ya digər rütbələr, dərəcələr və adlar, dövlət mükafatları və təltiflər geri qaytarılır.

**Maddə 11.**

**Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə or-**

**qanlarının vəzifəli şəxsləri tərəfindən vurulmuş ziyanın ödənilməsi hüququnu izah etmək vəzifəsi**

Şəxs barəsində bəraət hökmü və ya cinayət təqibinə xitam verilməsi haqqında qərar çıxarıldıqda, habelə inzibati xəta barədə iş üzrə icraata xitam verildikdə təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş ziyanın ödənilməsi cinayət təqibinin və ya inzibati xətalar haqqında işlər üzrə icraatın gedişində mümkün olmadıqda, həmin orqan buna hüququ olan şəxsə (bu şəxs olmadıqda isə-onun hər hansı qohumuna) pozulmuş hüquqlarının bərpa edilməsi və vurulmuş ziyanın ödənilməsi qaydalarını izah etməlidir.

**Maddə 12.**
**Vurulmuş ziyanın məbləğinin müəyyən edilməsi**

Bu Qanunun 5-ci maddəsinin 1-ci, 2-ci və 4-cü bəndlərində nəzərdə tutulmuş ziyanın məbləği qanunvericiliklə nəzərdə tutulmuş qaydada məhkəmə tərəfindən müəyyən edilir.

Şəxsin çıxarılmış qərarla razılaşmadığı hallarda, o, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həmin qərardan yuxarı məhkəməyə şikayət verə bilər.

Fiziki və mənəvi ziyan Azərbaycan Respublikasının qanunvericiliyi ilə digər hal nəzərdə tutulmayıbsa, məhkəmə tərəfindən ədalətli hesab olunmuş məbləğdə ödənilir.

İstintaq və ya inzibati icraat müddətində və ya cəza çəkdiyi dövrdə şəxsə vurulmuş mənəvi ziyanın ümumi məbləği Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məhkəmə tərəfindən müəyyən edilir.

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi barədə işlər üzrə ziyan çəkmiş tərəf məhkəmə məsrəflərinin ödənilməsindən azad olunur.

**Maddə 13.**

**Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində hərbi qulluqçulara vurulmuş ziyanın ödənilməsi**

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində hərbi qulluqçulara vurulmuş ziyan bu Qanuna müvafiq olaraq ödənilir.

**Maddə 14.**

**Qanunun qüvvəyə minməsi**

Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

*Bakı şəhəri, 29 dekabr 1998-ci il*
**№ 610-IQ**

*«Azərbaycan» qəzetində dərc edilmişdir*
*(18 fevral 1999-cu il, № 38)*

30 dekabr 2003-cü il tarixli, 568-IIQD nömrəli; 5 mart 2004-cü il tarixli, 598-IIQD nömrəli qanunlara əsasən dəyişikliklərlə.

# DÖVLƏT RÜSUMU HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ

# QANUNU
*(Çıxarış)*

## I FƏSİL

## Ümumi müddəalar

### Maddə 1.
### Dövlət rüsumu anlayışı

1.1. Dövlət rüsumu - dövlət orqanları tərəfindən hakimiyyət səlahiyyətlərinin icrası zamanı göstərilən və hüquqi nəticələrin yaranmasına səbəb olan xidmətlərə və hüquqi hərəkətlərə görə (sənədlərin tərtibi, qeydiyyatı, razılıqların verilməsi və s.) ödənilən haqdır (ödənişdir).

Heç bir hüquqi və ya fiziki şəxs dövlətin adından bu Qanunun 1.1-ci maddəsinin birinci abzasında göstərilən hakimiyyət səlahiyyətlərini həyata keçirə bilməz.

1.2. Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin II hissəsinə uyğun olaraq icra hakimiyyəti orqanları qanunla nəzərdə tutulmuş əsaslar olmadan və qanunda göstərilmiş həcmdən əlavə vergilər və başqa dövlət ödənişlərini müəyyən edə bilməzlər.

### Maddə 2.
### Dövlət rüsumunun tutulduğu hallar

2.0. Dövlət rüsumu aşağıdakı hallarda tutulur:

2.0.1. məhkəməyə verilən iddia ərizələrinin və şikayətlərin, hüquqi əhəmiyyət kəsb edən faktların müəyyən edilməsi barədə ərizələrin və məhkəmə qərarları barəsində şikayətlərin verilməsi, məhkəmə tərəfindən sənədlərin surətinin təkrar verilməsi;

2.0.2. notariat kontorları və dövlət orqanları tərəfindən notariat hərəkətlərinin aparılması;

2.0.3. vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı;

2.0.4. Azərbaycan Respublikası vətəndaşlarına və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə şəxsiyyət vəsiqəsi, habelə Azərbaycan Respublikasında 30 gündən artıq yaşayan əcnəbilərə qeydiyyat vəsiqəsi verilməsi, Azərbaycan Respublikası vətəndaşlığına qəbul və ya vətəndaşlığından çıxma;

2.0.5. Azərbaycan Respublikasında və ya Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində konsul əməliyyatlarının aparılması;

2.0.6. standartlaşdırma və metrologiya sahəsində hüquqi hərəkətlər, sənaye mülkiyyəti obyektlərinin, əsərin, əlaqəli hüquqlar obyektinin qeydə alınması, müvafiq mühafizə sənədlərinin verilməsi və onlarla bağlı digər hüquqi hərəkətlər, habelə icazələrin bəzi növlərinin verilməsi nəqliyyat vasitələrinə və onların idarə edilməsi ilə bağlı hüquqi və fiziki şəxslərə xidmətlərin göstərilməsi

2.0.7. xüsusi razılıq (lisenziya) alınması tələb olunan sahibkarlıq fəaliyyəti növlərinə xüsusi razılıq (lisenziya) verilməsi;

2.0.8. hüquqi şəxslərin dövlət qeydiyyatı və yenidən qeydiyyatı;

2.0.9. qiymətli kağızların qeydiyyata alınması (özəlləşdirmə qaydasında qeydə alınması halları istisna olmaqla) və dövlət reyestrinə daxil edilməsi;

2.0.10. Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi;

2.0.11. Daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatına alınması ilə bağlı sənədlərin verilməsi, habelə girovun dövlət qeydiyyatı;

2.0.12. qiymətli metallardan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının əyarlanması və damğalanması, ekspertizası, materialların tətbiqi, qiymətli daşların ekspertizası və diaqnostikası.

2.0.13. Baytarlıq şəhadətnaməsinin, sertifikatının və baytarlıq preparatlarının qeydiyyat şəhadətnaməsinin verilməsi;

2.0.14. Pestisidlərə, bioloji preparatlara və aqrokimyəvi maddələrə qeydiyyat şəhadətnaməsinin, idxal karantin icazəsinin və fitosanitar sertifikatlarının verilməsi;

2.0.15. Dənizçilik sahəsində şəhadətnamələrin, təsdiqnamələrin, gəmi reyestrindən çıxarışların, sertifikatların, dənizçinin qeyd kitabçasının və şəxsiyyət sənədinin verilməsi, kiçik həcmli gəmilərin qeydiyyata alınması, onlara gəmi biletinin verilməsi və texniki baxışın keçirilməsi, kiçik həcmli gəmilərin gəmi reyestrindən çıxarış verilməsi, kiçik həcmli gəmilərin sürücülərinə sürücülük vəsiqələrinin verilməsi;

2.0.16. Mülki aviasiya sahəsində sertifikatların verilməsi, tanınması və müddətinin uzadılması, şəhadətnamələrin, habelə uçuşlara icazələrin verilməsi;

2.0.17. Tikinti, memarlıq və şəhərsalma sahəsində xidmətlərin göstərilməsi, mövsümi (səyyari) ticarət və xidmət yerlərinin müəyyən edilməsi, habelə küçə reklamının yerləşdirilməsinə birdəfəlik icazənin verilməsi;

2.0.18. xarici ölkələrin ali təhsil müəssisələrinin diplomlarının tanınması;

2.0.19. dərman vasitələrinin və maddələrinin dövlət qeydiyyatı.

**Maddə 3.**
**Dövlət rüsumunun ödəyiciləri**

3.1. Bu Qanunla nəzərdə tutulmuş işlərin görülməsi, xidmətlərin göstərilməsi və hüquqların əldə edilməsi üçün Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və hüquqi şəxslər dövlət rüsumunun ödəyiciləridirlər.

3.2. Azərbaycan Respublikasının Milli Bankı dövlət rüsumunun bütün növlərinin ödənilməsindən azaddır.

**Maddə 4.**
**Dövlət rüsumunun hesablanması və ödənilməsi qaydaları**

4.1. Dövlət rüsumu tam məbləğdə dövlət büdcəsinə ödənilir.

4.3. Dövlət rüsumları milli valyutada nağd və ya köçürmə yolu ilə dövlət büdcəsinə ödənilir. Dövlət rüsumunun dövlət büdcəsinə nağd şəkildə ödənilməsi barədə ödəyiciyə müəyyən edilmiş formada bank qəbzinin əsli, ödəyicinin hesabından köçürüldükdə isə ödənişin icrasını təsdiqləyən

bank sənədi verilir.

4.4. Bu Qanunla dövlət rüsumunun məbləği xarici valyutada nəzərdə tutulduğu hallarda dövlət rüsumu Azərbaycan Respublikası ərazisində ödənildikdə ödəniş tarixinə Milli Bankın rəsmi məzənnəsinə uyğun yalnız manatla ödənilir.

Xarici ölkədə dövlət rüsumu həmin ölkənin valyutası ilə tutulur.

4.5. Bu Qanunda nəzərdə tutulan hallar istisna olmaqla, bütün hallarda dövlət rüsumu tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

4.6. Dövlət rüsumunun ödənilməsi tələb olunan hallarda dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd təqdim edilmədən əməliyyat icra olunmur.

4.7. Bu Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş formada hesabat təqdim etməlidirlər.

4.8. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə rüsumlar haqqında bu Qanunla və ona müvafiq olaraq qəbul edilmiş normativ hüquqi aktlarda nəzərdə tutulmuş müddəalardan fərqli müddəalar müəyyən edildikdə, həmin beynəlxalq müqavilələrin müddəaları tətbiq edilir.

### Maddə 5.
### Düzgün tutulmamış və artıq ödənilmiş dövlət rüsumunun büdcədən qaytarılması qaydaları

5.1. Ödənilmiş dövlət rüsumu aşağıdakı hallarda dövlət büdcəsindən qismən və ya tamamilə qaytarılır:

5.1.1. bu Qanunla müəyyən edilmiş miqdardan artıq dövlət rüsumu ödənildikdə;

5.1.2. ərizələr (şikayətlər) qaytarıldıqda və ya ərizə baxılmamış saxlanıldıqda, habelə notariat əməliyyatlarının icrasından imtina edildikdə;

5.1.3. məhkəmələr tərəfindən iş üzrə icraata xitam verildikdə.

5.2. Bu Qanunun 5.1.1-ci maddəsində nəzərdə tutulmuş hallarda dövlət rüsumunun artıq ödənilmiş hissəsi geri qaytarılır. Dövlət rüsumu Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş digər hallarda da geri qaytarılır.

5.3. Düzgün tutulmamış və ya artıq ödənilmiş dövlət rüsumu, dövlət rüsumunun ödəyicisinin ərizəsinə əsasən 45 gün müddətində ona qaytarılır.

5.4. Düzgün tutulmamış və ya artıq ödənilmiş dövlət rüsumunun qaytarılması üçün 5 il ərzində iddia verilə bilər.

5.5. Düzgün tutulmamış və ya artıq ödənilmiş dövlət rüsumunun qaytarılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 6.**
**Dövlət rüsumu tutan orqanların məsuliyyəti**

Dövlət rüsumu tutan idarə və təşkilatların vəzifəli şəxsləri rüsumun düzgün tutulması və dövlət büdcəsinə vaxtında və tam köçürülməsi üçün məsuliyyət daşıyırlar.

**Maddə 7.**
**Dövlət rüsumunun ödənilməsinə nəzarət**

Dövlət rüsumunun düzgün hesablanmasına və vaxtında

dövlət büdcəsinə köçürülməsinə nəzarət müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

## II FƏSİL

## Dövlət rüsumunun dərəcələri və ödənilməsinin xüsusiyyətləri

### Maddə 8.

### Məhkəməyə verilən iddia ərizələrinin və şikayətlərin, hüquqi əhəmiyyət kəsb edən faktların müəyyən edilməsi barədə ərizələrin və məhkəmə qərarları barəsində şikayətlərin verilməsi, məhkəmə tərəfindən sənədlərin surətinin təkrar verilməsinə görə dövlət rüsumunun dərəcələri

| Dövlət rüsumu tutulmalı olan hərəkətlər | Dövlət rüsumunun məbləği |
|---|---|
| 8.1. Məhkəməyə verilən iddia ərizələrindən: | |
| 8.1.1. iddia qiyməti 110 manatdan çox olduqda; | 20 manat |
| 8.1.2. iddia qiyməti 110 manatdan çox olmadıqda. | 3 manat |
| 8.2. İddianın predmetinə dair müstəqil tələb irəli sürən üçüncü şəxslərin işə qoşulması barədə ərizələrindən: | |

| | |
|---|---|
| 8.2.1. iddia qiyməti 110 manatdan çox olduqda; | 20 manat |
| 8.2.2. iddia qiyməti 110 manatdan çox olmadıqda; | 3 manat |
| 8.2.3. hüquqi əhəmiyyət kəsb edən faktların müəyyən edilməsi barədə ərizələrdən. | 3 manat |
| 8.3. Məhkəmə əmri haqqında ərizələrdən. | 10 manat |
| 8.4. Apellyasiya və kassasiya şikayətlərindən: | |
| 8.4.1. birinci instansiya məhkəməsinə müraciət edilərkən; | bu Qanunun 8-ci maddəsində müəyyən edilmiş dövlət rüsumunun müvafiq olaraq 120 və 150 faizi |
| 8.4.2. iş üzrə icraatın xitam verilməsindən, iddianın baxılmamış saxlanmasından, məhkəmə cərimələrinin qoyulması barədə şikayətlərdən; | 10 manat |
| 8.4.3. mübahisəsiz qaydada (akseptsiz) ödənilən cərimələr üzrə icra və digər sənədin icra olunmasının təsdiqi barədə mübahisələr üzrə iddia ərizələrindən; | 6 manat |

| | |
|---|---|
| 8.4.4. qanunla mübahisəsiz qaydada (akseptsiz) tutulması nəzərdə tutulmayıbsa, dövlət orqanları, yerli özünüidarə orqanları və nəzarət funksiyalarını həyata keçirən digər orqanlar tərəfindən cərimələrin ödənilməsi barədə mübahisələr üzrə iddia ərizələrindən; | 20 manat |
| 8.4.5. nəzarət funksiyasını həyata keçirən orqanlar tərəfindən qanunun və ya digər normativ hüquqi aktın tələblərini pozmaqla mübahisəsiz qaydada (akseptsiz) pul vəsaitinin büdcədən qaytarılması barədə mübahisələr üzrə iddia ərizələrindən; | 5 manat |
| 8.4.6. müəssisənin təsis sənədlərinin etibarsız hesab edilməsi, hüquqi və fiziki şəxslərin ödəmə qabiliyyəti olmayan hesab edilməsi barədə mübahisələr üzrə iddia ərizələrindən; | 6 manat |
| 8.4.7. vergi ödəmələri barədə mübahisələri üzrə iddia ərizələrindən; | 5 manat |
| 8.4.8. məhkəmə aktlarının və surətlərinin təkrarən verilməsinə görə; | 6 manat |
| 8.4.9. nikahın və təkrar nikahın ləğv olunması haqqında iddia ərizələrindən; | 5 manat |
| 8.4.10. nikah ləğv edilərkən əmlak bölüşdürüldükdə; | 20 manat |

| | |
|---|---|
| 8.4.11. yaşayış binalarının (mənzillərin) icarə müqavilələrinin dəyişdirilməsi və ya ləğv edilməsi, vərəsəliyin qəbul edilməsi müddətinin uzadılması, əmlak üzrə həbsin götürülməsi barədə iddia ərizələrindən qeyri əmlak xarakterli və ya qiymət qoyulmayan digər iddia ərizələrindən; | 3 manat |
| 8.4.12. müqavilələrin dəyişdirilməsi və ya ləğv edilməsi barədə mübahisələr üzrə iddia ərizələrindən; | 6 manat |
| 8.4.13. qanunda nəzərdə tutulan müqavilələr üzrə mübahisələrə dair və yaxud tərəflərin razılığı ilə mübahisənin iqtisad məhkəməsinin həllinə verilməsi barədə mübahisələr üzrə iddia ərizələrindən; | 10 manat |
| 8.4.14. sənaye mülkiyyəti obyektlərinin mühafizəsi ilə bağlı ərizə və şikayətlərdən. | 20 manat |

**Maddə 9.**

**Məhkəməyə verilən iddia ərizələrinin və şikayətlərin, hüquqi əhəmiyyət kəsb edən faktların müəyyən edilməsi barədə ərizələrin və məhkəmə qərarları barəsində şikayətlərin verilməsinə, məhkəmə tərəfindən sənədlərin surətinin təkrar verilməsinə görə dövlət rüsumundan azad edilməsi və dövlət rüsumunun ödənilməsinin xüsusiyyətləri**

9.1. Aşağıdakılar dövlət rüsumu ödəməkdən azad olunurlar:

9.1.1. əməyin ödənilməsi və əmək fəaliyyəti ilə bağlı digər tələblər üzrə - iddiaçılar;

9.1.2. aliment alınması barədə iddialar üzrə - iddiaçılar;

9.1.3. şikəstlik, səhhətə digər xəsarətlər yetirilməsinə və ya ailəni dolandıranın ölümü nəticəsində dəyən ziyanın ödənilməsi barəsində iddialar üzrə - iddiaçılar;

9.1.4. müəlliflik mübahisələri üzrə - müəlliflər, müəlliflik hüququ, ixtiralar, faydalı modellər, sənaye nümunələri, habelə əqli mülkiyyətin digər növlərinə dair hüquqlardan irəli gələn iddialar üzrə - iddiaçılar;

9.1.5. istehlakçıların hüquqlarının pozulması ilə əlaqədar verdikləri iddialar üzrə - iddiaçılar;

9.1.6. zərərçəkənə və ya onun ailə üzvlərinə ödənilmiş müavinət və ya pensiya məbləğinin zərər vurandan tutulması barədə reqres iddialar üzrə - sosial sığorta orqanları və əhalinin sosial müdafiə mərkəzləri;

9.1.7. sosial müdafiə vəsaitlərinin tələbi barədə iddialar üzrə - sosial təminat orqanları;

9.1.8. borcludan tutulmalı olan, lakin borc tutan şəxsin hesabına keçirilməyən məbləğə görə iddialar üzrə - iddiaçılar;

9.1.9. cinayət nəticəsində dövlətə vurulmuş maddi zərərin ödənilməsi barədə prokuror tərəfindən verilən iddialar üzrə - iddiaçılar;

9.1.10. aliment verməkdən, şikəst etmə və ya səhhəti sair şəkildə zədələnmə ilə, habelə ailəni dolandıranın ölümü ilə vurulan ziyanı ödəməkdən, vergilərin və digər məcburi ödəmələrin tutulmasından boyun qaçıran şəxslərin axtarışı ilə əlaqədar xərclərin tələb olunması üzrə - polis orqanları;

9.1.11. cinayət işləri və aliment işləri ilə əlaqədar olaraq

vətəndaşlara, müəssisələrə və təşkilatlara sənədlər (arayışlar) verilməsi üçün -vətəndaş, müəssisə, idarə və təşkilatlar;

9.1.12. inzibati hüquq münasibətlərindən əmələ gələn işlər üzrə - vətəndaş, inzibati orqanlar və vəzifəli şəxslər;

9.1.13. qanunsuz olaraq qəti imkan tədbiri kimi həbsə alınmaqla, yaxud həbs və ya islah işləri növündə qanunsuz olaraq inzibati tənbeh verilməsi ilə fiziki şəxsə vurulmuş zərərin ödənilməsi ilə əlaqədar mübahisələr üzrə - tərəflər;

9.1.14. məhkəmələrə verilən iddia ərizələri və bütün növ şikayətlər üzrə - büdcə təşkilatları, bələdiyyələr;

9.1.15. başqa şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin, dövlət mənafeyinin müdafiəsi üçün verilən ərizələr üzrə - dövlət orqanları;

9.1.16. öz hüquqlarının müdafiəsi barədə ərizələr üzrə - yetkinlik yaşına çatmayanlar;

9.1.17. məhkəmə qərardadlarından verilən şəkayətlər üzrə - işdə iştirak edən şəxslər;

9.1.18. qiyabi icraat qaydasında qəbul edilmiş qərarlara yenidən baxılması haqqında birinci instansiya məhkəmələrinə verilən ərizələr üzrə - tərəflər;

9.1.19. yeni açılmış hallara görə qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yenidən baxılması üçün verilmiş ərizələr üzrə - tərəflər;

9.1.20. məhkəmədə verilən iddialar üzrə - şəhid ailələri, müharibə veteranları, qaçqınlar və məcburi köçkünlər, habelə Çernobıl AES-də qəza nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslər.

9.1.21. Hüquqi şəxsin təqsiri üzündən icra sənədi üzrə borcludan tutulmalı olan məbləğin tutulmamasına görə ona

qarşı iddialar üzrə-tələbkar;

9.1.22. İcra üzrə icraat zamanı borclunun və ya onun əmlakının tapılması ilə əlaqədar elan olunmuş axtarış üzrə xərcləri ödəməkdən borclu imtina etdikdə və ya yayındıqda, tələbkar tərəfindən çəkilmiş xərclərin əvəzinin ödənilməsi barədə iddialar üzrə - tələbkar

9.2. Məhkəmə aktlarının surəti işdə iştirak edən şəxslərə dövlət rüsumu alınmadan verilir. Məhkəmə aktları təkrarən verildikdə dövlət rüsumu alınır.

9.3. Məhkəmədə təkrar verilmiş iddialar üzrə dövlət rüsumu yenidən ümumi qaydada alınır.

9.4. İddiaçı müəyyən olunmuş qaydada dövlət rüsumunu ödəməkdən azad edilmişsə, dövlət rüsumu iddianın təmin edilmiş hissəsinə münasib olaraq cavabdehdən tutularaq dövlət büdcəsinə köçürülür.

**Maddə 29.**
**Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2002-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Azrəbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

*Bakı şəhəri, 4 dekabr 2001-ci il*
***223-IIQ***

*«Azərbaycan» qəzetində dərc edilmişdir*
*(28 dekabr 2001-ci il, 297)*

*«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 dekabr 2001-ci il, 12, maddə 740)*

## AZƏRBAYCAN RESPUBLİKASINDA MƏHKƏMƏ SİSTEMİNİN MÜASİRLƏŞDİRİLMƏSİ VƏ «AZƏRBAYCAN RESPUBLİKASININ BƏZİ QANUNVERİCİLİK AKTLARINA DƏYİŞİKLİKLƏR VƏ ƏLAVƏLƏR EDİLMƏSİ HAQQINDA»

## AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildikdən sonra ardıcıl surətdə aparılan məhkəmə islahatının əsas məqsədi ölkəmizdə qanunun aliliyinin təmin edilməsi, məhkəmə hakimiyyətinin dövlət mexanizmində nüfuzlu və müstəqil bir təsisat kimi təşəkkül tapması, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin təmin edilməsi, cinayət və mülki mühakimədə demokratik prinsiplərin həyata keçirilməsi, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətinin şəffaflığının təmin edilməsi və sair məsələlərin konseptual həlli olmuşdur.

Məhkəmə islahatının ilkin mərhələsində atılmış mühüm addımlar nəticəsində müvafiq qanunvericilik bazası beynəlxalq standartlara uyğunlaşdırılmış, yeni üçpilləli məhkəmə sistemi təsis edilmiş və ölkənin tarixində ilk dəfə olaraq test üsulu ilə yeni hakimlər təyin edilmişdir.

Qanunvericilikdə məhkəmə hakimiyyəti müstəqilliyinin və hakimlərin statusunun əsasları, habelə hüquqi dövlətə xas olan ədalət mühakiməsinin prinsipləri müəyyən edilmiş, məhkəmələrin fəaliyyəti üçün zəruri şərait yaradılmış, hakimlərin maddi və sosial təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır.

Lakin cəmiyyətimizin iqtisadi və sosial həyatının sürətli inkişafı məhkəmə sisteminin təkmilləşdirilməsi işini daim gündəmdə saxlayır. Bununla əlaqədar məhkəmə islahatı davam etdirilərək yeni mərhələyə keçmiş, son iki ildə Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə ədalət mühakiməsinin inkişafında keyfiyyətcə yeni dəyişikliklər baş vermişdir.

Məhkəmələrin işinin təkmilləşdirilməsi və onun beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədi ilə 2004-cü ilin dekabr ayında «Məhkəmə-Hüquq Şurası haqqında» qanun qəbul olunmuş, «Məhkəmələr və hakimlər haqqında» qanuna hakimlərin seçim prosedurunun yeni dəyərlər əsasında müəyyən edilməsini, fəaliyyətlərində sui-istifadəyə yol vermiş hakimlər barədə intizam məsuliyyətinin gücləndirilməsini, məhkəmələrin işində şəffaflığın təmin edilməsini nəzərdə tutan əsaslı dəyişikliklər edilmişdir. Bu normativ hüquqi aktlardan irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədi ilə həyata keçirilmiş tədbirlər nəticəsində məhkəmə hakimiyyətinin özünüidarə funksiyalarını həyata keçirən mahiyyətcə yeni qurum Məhkəmə-Hüquq Şurası təşkil edilmiş, ilk dəfə yaradılmış Hakimlərin Seçki Komitəsi tərəfindən vakant hakim vəzifələrinə namizədlərin seçilməsi prosesinə başlanmışdır.

Məhkəmə sisteminin müasirləşdirilməsinin növbəti

mərhələsində regionların sosial-iqtisadi inkişafı şəraitində əhalinin hüquq institutlarına və hüquqi yardıma tələbatının ödənilməsi üçün yeni məhkəmələrin yaradılması, vətəndaşların narazılıqlarına səbəb olan sui-istifadə, süründürməçilik hallarının və digər nöqsanların aradan qaldırılması, ədalət mühakiməsinin səmərəliliyinin və vətəndaşların məhkəmələrə inamının artırılması, məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, məhkəmələrin fəaliyyətində yeni informasiya texnologiyalarının tətbiq edilməsi, məhkəmə aparatlarının strukturunun və işinin daha optimal şəkildə qurulması, habelə digər mühüm məsələlərin həlli nəzərdə tutulur.

Məhkəmə sistemini müasirləşdirmək və «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası qanununun tətbiq edilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

**1. Azərbaycan Respublikasında aşağıdakı yeni məhkəmələr təşkil edilsin:**

1.1. Bakı Apellyasiya Məhkəməsi-Bakı şəhərində;

1.2. Gəncə Apellyasiya Məhkəməsi-Gəncə şəhərində;

1.3. Sumqayıt Apellyasiya Məhkəməsi-Sumqayıt şəhərində;

1.4. Əli Bayramlı Apellyasiya Məhkəməsi-Əli Bayramlı şəhərində;

1.5. Şəki Apellyasiya Məhkəməsi-Şəki şəhərində;

1.6. Ağır cinayətlərə dair işlər üzrə Naxçıvan Muxtar

Respublikasının məhkəməsi-Naxçıvan şəhərində;

1.7. 2 saylı Bakı yerli iqtisad məhkəməsi-Bakı şəhərində;

1.8. Sumqayıt yerli iqtisad məhkəməsi-Sumqayıt şəhərində;

1.9. Şəki yerli iqtisad məhkəməsi-Şəki şəhərində.

**2. 1 saylı yerli iqtisad məhkəməsi 1 saylı Bakı yerli iqtisad məhkəməsi, 2 saylı yerli iqtisad məhkəməsi Gəncə yerli iqtisad məhkəməsi, 3 saylı yerli iqtisad məhkəməsi Əli Bayramlı yerli iqtisad məhkəməsi adlandırılsın.**

**3. Məhkəmə-Hüquq Şurasına tövsiyə edilsin ki:**

3.1. Azərbaycan Respublikasının apellyasiya məhkəmələri, yerli iqtisad məhkəmələri, müvafiq hərbi məhkəmələrin ərazi yurisdiksiyasının müəyyən edilməsinə dair təklifləri Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikasının yeni təşkil edilmiş məhkəmələrində hakimlərin sayının müəyyən edilməsi və digər məhkəmələrdə hakimlərin sayının artırılması barədə təklifləri Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. birinci instansiya məhkəmələrinin hakimlərinin fəaliyyətinin qiymətləndirilməsini 2006-cı ilin oktyabr ayına qədər yekunlaşdırsın;

3.4. səlahiyyət müddəti bitmiş müvafiq məhkəmə sədrləri, sədr müavinləri və kollegiya sədrləri vəzifələrinə namizədlər barədə təklifləri Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.5. hakimlərin peşə səviyyəsinin artırılması, hakim

vəzifələrinə namizədlərin müasir tələblərə cavab verən hazırlığının təmin edilməsi üçün tədbirlər görsün;

3.6. ədalət mühakiməsinin həyata keçirilməsinin yüksək mənəvi və mədəni meyarlarının müəyyən edilməsi məqsədi ilə Hakimlərin Etik Davranış Kodeksini hazırlasın və təsdiq etsin;

3.7. hakimlərin fəaliyyətində sui-istifadə, korrupsiya halları və digər qanun pozuntuları ilə bağlı müraciətlərin təxirəsalınmadan araşdırılması və müvafiq əsaslar olduğu halda, hakimlərin intizam məsuliyyətinə cəlb edilməsi üçün ciddi tədbirlər görsün.

**4. Məhkəmə-Hüquq Şurasına tövsiyə edilsin və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki:**

4.1. məhkəmələrin fəaliyyətinin təşkilati məsələlərini təhlil etsinlər, məhkəmələrdə statistika və kargüzarlığın aparılması işini təkmilləşdirsinlər, müvafiq məhkəmələrdə əmək və icra intizamına ciddi əməl olunmasını təmin etsinlər, süründürməçilik hallarının və vətəndaşların qəbulunda olan nöqsanların aradan qaldırılması üçün tədbirlər görsünlər;

4.2. ali hüquq təhsili almış şəxslərin ixtisasları üzrə müəyyən vəzifələrə təyin edilmələri üçün peşə səviyyəsinin yüksəldilməsi məqsədi ilə Ali Ədliyyə Məktəbinin yaradılması və fəaliyyətinə dair əsaslandırılmış təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

**5. Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikasının apellyasiya məhkəmələrinə**

**və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə tövsiyə edilsin, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki:**

5.1. Məhkəmə-Hüquq Şurası ilə birlikdə məhkəmə aparatlarının strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi məsələsini təhlil etsinlər və müvafiq tədbirlər görsünlər;

5.2. Məhkəmə-Hüquq Şurası ilə birlikdə məhkəmə fəaliyyətinin hüquqi və informasiya təminatının həyata keçirilməsini təkmilləşdirsinlər, məhkəmələrdə yeni informasiya texnologiyalarının tətbiqini təmin etsinlər.

6. Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikasının apellyasiya məhkəmələrinə və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə tövsiyə edilsin ki, İnsan Hüquqları üzrə Avropa Məh-kəməsinin presedent hüququnun öyrənilməsi işini təşkil etsinlər və onu məhkəmə təcrübəsində nəzərə alsınlar.

7. Azərbaycan Respublikasının Prokurorluğuna tövsiyə edilsin ki, yeni məhkəmələrin yaradılmasını nəzərə alaraq, məhkəmələrdə dövlət ittihamının müdafiəsi işi-nin təşkilində müvafiq dəyişikliklər etsin.

8. Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına tövsiyə edilsin ki, yeni məhkəmələrin yaradılmasını nəzərə alaraq, vəkillərin sayının artırılması məsələsinə baxsın və regionlarda əhaliyə göstərilən hüquqi yardımın səmərəliliyinin artırılması üçün tədbirlər görsün.

**9. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:**

9.1. Azərbaycan Respublikasının yeni təşkil edilmiş məhkəmələrini onların yüksək statusuna uyğun olan binalarla təmin etsin, məhkəmələrin fəaliyyətinə zəruri şəraitin yaradılması üçün onların avadanlıq, rabitə, nəqliyyat vasitələri və digər ləvazimatlarla təmin edilməsi məqsədi ilə tədbirlər görsün;

9.2. Azərbaycan Respublikasının yeni təşkil edilmiş məhkəmələrinin hakimləri təyin edilənədək Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin, Azərbaycan Respublikası İqtisad Məhkəməsinin və Beynəlxalq müqavilələrdən irəli gələn mübahisələrə dair Azərbaycan Respublikası iqtisad məhkəməsinin fəaliyyətinin maliyyələşdirilməsini davam etdirsin;

9.3. iki ay müddətində qüvvədə olan qanunvericilik aktlarının «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

9.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

9.5. öz səlahiyyətləri daxilində «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikasının

Qanunundan irəli gələn digər məsələləri həll etsin.

10. Müəyyən edilsin ki, «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikası Qanununun 55-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş «Naxçıvan Muxtar Respublikasının müvafiq icra ha-kimiyyəti orqanı»nın səlahiyyətlərini Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir.

**11. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.**

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**

*Bakı şəhəri, 19 yanvar 2006-cı il*
**№ 352**

*«Azərbaycan» qəzetində dərc edilmişdir*
*(20 yanvar 2006-cı il, № 12)*

## AZƏRBAYCAN RESPUBLİKASI MƏHKƏMƏLƏRİ HAKİMLƏRİNİN SAYININ ARTIRILMASI VƏ MƏHKƏMƏLƏRİN ƏRAZİ YURİSDİKSİYASININ MÜƏYYƏN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Məhkəmə sisteminin müasirləşdirilməsi mərhələsində ədalət mühakiməsinin səmərəliyinin artırılması, hakim korpusunun genişləndirilməsi, məhkəmələrin ərazi yurisdiksiyasının müəyyən edilməsi və yeni məhkəmələrin fəaliyyətinin təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

**1. Azərbaycan Respublikası məhkəmələri hakimlərinin sayı 153 vahid artırılsın və məhkəmələr üzrə hakimlərin aşağıdakı sayı müəyyən edilsin:**

1.1. Kassasiya instansiyası məhkəməsi üzrə:

Azərbaycan Respublikasının Ali Məhkəməsi-38 hakim

1.2. Apellyasiya instansiyası məhkəmələri üzrə:

1.2.1 Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi-14 hakim

1.2.2. Bakı Apellyasiya Məhkəməsi-50 hakim

1.2.3. Əli Bayramlı Apellyasiya Məhkəməsi-14 hakim
1.2.4. Gəncə Apellyasiya Məhkəməsi-14 hakim
1.2.5. Sumqayıt Apellyasiya Məhkəməsi-14 hakim
1.2.6. Şəki Apellyasiya Məhkəməsi-14 hakim
1.3. Birinci instansiya ümumi məhkəmələri üzrə:
1.3.1. Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi-35 hakim
1.3.2. Ağır Cinayətlərə Dair İşlər üzrə Naxçıvan Muxtar Respublikasının Məhkəməsi-4 hakim
Bakı şəhərinin rayon məhkəmələri üzrə:
1.3.3. Binəqədi Rayon Məhkəməsi -10 hakim
1.3.4.Əzizbəyov Rayon Məhkəməsi-4 hakim
1.3.5. Xətai Rayon Məhkəməsi-9 hakim
1.3.6.Qaradağ Rayon Məhkəməsi-3 hakim
1.3.7. Nərimanov Rayon Məhkəməsi-8 hakim
1.3.8.Nəsimi Rayon Məhkəməsi-11 hakim
1.3.9.Nizami Rayon Məhkəməsi-8 hakim
1.3.10. Sabunçu Rayon Məhkəməsi-9 hakim
1.3.11.Səbail Rayon Məhkəməsi-8 hakim
1.3.12. Suraxanı Rayon Məhkəməsi-6 hakim
1.3.13. Yasamal Rayon Məhkəməsi-12 hakim
Rayon (şəhər) məhkəmələri üzrə:
1.3.14. Abşeron Rayon Məhkəməsi-2 hakim
1.3.15. Ağcabədi Rayon Məhkəməsi-2 hakim
1.3.16. Ağdam Rayon Məhkəməsi-1 hakim

1.3.17. Ağdaş Rayon Məhkəməsi-2 hakim
1.3.18. Ağstafa Rayon Məhkəməsi-2 hakim
1.3.19. Ağsu Rayon Məhkəməsi -1 hakim
1.3.20. Astara Rayon Məhkəməsi-3 hakim
1.3.21. Balakən Rayon Məhkəməsi-1 hakim
1.3.22. Beyləqan Rayon Məhkəməsi-2 hakim
1.3.23. Bərdə Rayon Məhkəməsi-4 hakim
1.3.24. Biləsuvar Rayon Məhkəməsi-2 hakim
1.3.25. Cəbrayıl Rayon Məhkəməsi-1 hakim
1.3.26. Cəlilabad Rayon Məhkəməsi-3 hakim
1.3.27. Daşkəsən Rayon Məhkəməsi-1 hakim
1.3.28. Dəvəçi Rayon Məhkəməsi-1 hakim
1.3.29. Əli Bayramlı Şəhər Məhkəməsi-2 hakim
1.3.30. Füzuli Rayon Məhkəməsi -1 hakim
1.3.31. Gədəbəy Rayon Məhkəməsi-1 hakim
1.3.32. Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsi -4 hakim
1.3.33. Gəncə şəhəri Nizami Rayon Məhkəməsi -6 hakim
1.3.34. Goranboy Rayon Məhkəməsi-2 hakim
1.3.35. Göyçay Rayon Məhkəməsi-2 hakim
1.3.36. Hacıqabul Rayon Məhkəməsi-2 hakim
1.3.37. Xaçmaz Rayon Məhkəməsi-4 hakim
1.3.38. Xankəndi Şəhər Məhkəməsi-1 hakim
1.3.39. Xanlar Rayon Məhkəməsi-1 hakim

1.3.40. Xızı Rayon Məhkəməsi-1 hakim
1.3.41. Xocalı Rayon Məhkəməsi-1 hakim
1.3.42. Xocavənd Rayon Məhkəməsi-1 hakim
1.3.43. İmişli Rayon Məhkəməsi-2 hakim
1.3.44. İsmayıllı Rayon Məhkəməsi-1 hakim
1.3.45. Kəlbəcər Rayon Məhkəməsi-1 hakim
1.3.46. Kürdəmir Rayon Məhkəməsi-2 hakim
1.3.47. Qax Rayon Məhkəməsi-1 hakim
1.3.48. Qazax Rayon Məhkəməsi-2 hakim
1.3.49. Qəbələ Rayon Məhkəməsi-1 hakim
1.3.50. Qobustan Rayon Məhkəməsi-1 hakim
1.3.51. Quba Rayon Məhkəməsi-3 hakim
1.3.52. Qubadlı Rayon Məhkəməsi-1 hakim
1.3.53. Qusar Rayon Məhkəməsi-2 hakim
1.3.54. Laçın Rayon Məhkəməsi-1 hakim
1.3.55. Lerik Rayon Məhkəməsi-1 hakim
1.3.56. Lənkəran Rayon Məhkəməsi-3 hakim
1.3.57. Masallı Rayon Məhkəməsi-3 hakim
1.3.58. Mingəçevir Şəhər Məhkəməsi-3 hakim
1.3.59. Naftalan Şəhər Məhkəməsi-1 hakim
1.3.60. Neftçala Rayon Məhkəməsi-3 hakim
1.3.61. Oğuz Rayon Məhkəməsi-1 hakim
1.3.62. Saatlı Rayon Məhkəməsi-1 hakim
1.3.63. Sabirabad Rayon Məhkəməsi-2 hakim
1.3.64. Salyan Rayon Məhkəməsi-2 hakim
1.3.65. Samux Rayon Məhkəməsi-1 hakim
1.3.66. Siyəzən Rayon Məhkəməsi-1 hakim

1.3.67. Sumqayıt Şəhər Məhkəməsi-10 hakim
1.3.68. Şamaxı Rayon Məhkəməsi-1 hakim
1.3.69. Şəki Rayon Məhkəməsi-3 hakim
1.3.70. Şəmkir Rayon Məhkəməsi-2 hakim
1.3.71. Şuşa Rayon Məhkəməsi-1 hakim
1.3.72. Tərtər Rayon Məhkəməsi-2 hakim
1.3.73. Tovuz Rayon Məhkəməsi-2 hakim
1.3.74. Ucar Rayon Məhkəməsi-1 hakim
1.3.75. Yardımlı Rayon Məhkəməsi-1 hakim
1.3.76. Yevlax Rayon Məhkəməsi-2 hakim
1.3.77. Zaqatala Rayon Məhkəməsi-2 hakim
1.3.78. Zəngilan Rayon Məhkəməsi-1 hakim
1.3.79. Zərdab Rayon Məhkəməsi-1 hakim

**Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri üzrə:**

1.3.80. Naxçıvan Şəhər Məhkəməsi-2 hakim
1.3.81. Babək Rayon Məhkəməsi-1 hakim
1.3.82. Culfa Rayon Məhkəməsi-1 hakim
1.3.83. Kəngərli Rayon Məhkəməsi-1 hakim
1.3.84. Ordubad Rayon Məhkəməsi-1 hakim
1.3.85. Sədərək Rayon Məhkəməsi-1 hakim
1.3.86. Şahbuz Rayon Məhkəməsi-1 hakim
1.3.87. Şərur Rayon Məhkəməsi-2 hakim
1.4. Birinci instansiya ixtisaslaşdırılmış məhkəmələri üzrə:

**Yerli iqtisad məhkəmələri üzrə:**

1.4.1. Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsi -1 hakim

1.4.2. 1 saylı Bakı yerli İqtisad Məhkəməsi-5 hakim

1.4.3. 2 saylı Bakı yerli İqtisad Məhkəməsi-4 hakim

1.4.4. Əli Bayramlı yerli İqtisad Məhkəməsi-2 hakim

1.4.5. Gəncə yerli İqtisad Məhkəməsi-2 hakim

1.4.6. Sumqayıt yerli İqtisad Məhkəməsi-2 hakim

1.4.7. Şəki yerli İqtisad Məhkəməsi-1 hakim

**Hərbi məhkəmələr üzrə:**

1.4.8. Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Hərbi Məhkəməsi-12 hakim

1.4.9. Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi-4 hakim

1.4.10. Bakı Hərbi Məhkəməsi-8 hakim

1.4.11. Ağdam Hərbi Məhkəməsi-3 hakim

1.4.12. Füzuli-Qubadlı Hərbi Məhkəməsi-3 hakim

1.4.13. Gəncə Hərbi Məhkəməsi-3 hakim

1.4.14. Qazax Hərbi Məhkəməsi-2 hakim

1.4.15. Lənkəran Hərbi Məhkəməsi-3 hakim

1.4.16. Sumqayıt Hərbi Məhkəməsi-4 hakim

1.4.17. Tərtər Hərbi Məhkəməsi-2 hakim

**2. Azərbaycan Respublikası apellyasiya instansiyası məhkəmələrinin, yerli iqtisad məhkəmələrinin və hərbi məhkəmələrinin ərazi yurisdiksiyası müəyyən edilsin (əlavə olunur).**

**3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:**

3.1. məhkəmələrin fəaliyyətinə zəruri şəraitin yaradılması üçün onların bina, avadanlıq, rabitə, nəqliyyat, hakimlərin xüsusi geyimləri, başqa zəruri təşkilati-texniki vasitələrlə təmin edilməsi məqsədi ilə tədbirlər görsün;

3.2. hakimlərin sayının artması nəzərə alınmaqla, 2007-ci ildən başlayaraq, onlara əməkhaqqının ödənilməsi üçün vəsaitin ayrılmasını təmin etsin;

3.3. Azərbaycan Respublikasının 2007-ci il dövlət büdcəsinin layihəsi hazırlanarkən «Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 yanvar tarixli, 352 nömrəli Fərmanı ilə yaradılmış məhkəmələrin maliyyə və maddi-texniki təminatı üçün ayrıca maddələr ilə müvafiq maliyyə vəsaitinin ayrılması nəzərdə tutulsun;

3.4. bir ay müddətində qüvvədə olan qanunvericilik aktlarının bu fərmana uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və

müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.5. öz səlahiyyətləri daxilində bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**

*Bakı şəhəri, 17 avqust 2006-cı il*

**№ 447**

*«Azərbaycan» qəzetində dərc edilmişdir*
*(18 avqust 2006-cı il, № 184)*

**Azərbaycan Respublikası Prezidentinin
2006-cı il 17 avqust tarixli,
447 nömrəli Fərmanı ilə
təsdiq edilmişdir**

*əlavə*

## AZƏRBAYCAN RESPUBLİKASI APELLYASİYA İNSTANSİYASI MƏHKƏMƏLƏRİNİN, YERLİ İQTİSAD MƏHKƏMƏLƏRİNİN VƏ HƏRBİ MƏHKƏMƏLƏRİNİN ƏRAZİ YURİSDİKSİYASI

**1. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin yurisdiksiyasına aid olan birinci instansiya məhkəmələri**

1.1. Naxçıvan Şəhər Məhkəməsi;

1.2. Babək Rayon Məhkəməsi;

1.3. Culfa Rayon Məhkəməsi;

1.4. Kəngərli Rayon Məhkəməsi;

1.5. Ordubad Rayon Məhkəməsi;

1.6. Sədərək Rayon Məhkəməsi;

1.7. Şahbuz Rayon Məhkəməsi;

1.8. Şərur Rayon Məhkəməsi;

1.9. Ağır Cinayətlərə Dair İşlər üzrə Naxçıvan Muxtar Respublikasının Məhkəməsi;

1.10. Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi;

1.11. Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsi.

**2. Bakı Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan birinci instansiya məhkəmələri**

2.1. Binəqədi Rayon Məhkəməsi;

2.2. Əzizbəyov Rayon Məhkəməsi;

2.3. Xətai Rayon Məhkəməsi;

2.4. Qaradağ Rayon Məhkəməsi;

2.5. Nərimanov Rayon Məhkəməsi;

2.6. Nəsimi Rayon Məhkəməsi;

2.7. Nizami Rayon Məhkəməsi;

2.8. Sabunçu Rayon Məhkəməsi;

2.9. Səbail Rayon Məhkəməsi;

2.10. Suraxanı Rayon Məhkəməsi;

2.11. Yasamal Rayon Məhkəməsi;

2.12. Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi (Bakı Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);

2.13. Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Hərbi Məhkəməsi (Bakı Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);

2.14. Bakı Hərbi Məhkəməsi;

2.15. 1 saylı Bakı yerli İqtisad Məhkəməsi;

2.16. 2 saylı Bakı yerli İqtisad Məhkəməsi.

**3. Əli Bayramlı Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan birinci instansiya məhkəmələri**

3.1. Ağcabədi Rayon Məhkəməsi;

3.2. Ağsu Rayon Məhkəməsi;

3.3. Astara Rayon Məhkəməsi;

3.4. Beyləqan Rayon Məhkəməsi;

3.5. Biləsuvar Rayon Məhkəməsi;

3.6. Cəbrayıl Rayon Məhkəməsi;

3.7. Cəlilabad Rayon Məhkəməsi;

3.8. Əli Bayramlı Şəhər Məhkəməsi;

3.9. Füzuli Rayon Məhkəməsi;

3.10. Hacıqabul Rayon Məhkəməsi;

3.11. Xocavənd Rayon Məhkəməsi;

3.12. İmişli Rayon Məhkəməsi;

3.13. Kürdəmir Rayon Məhkəməsi;

3.14. Laçın Rayon Məhkəməsi;

3.15. Lerik Rayon Məhkəməsi;

3.16. Lənkəran Rayon Məhkəməsi;

3.17. Masallı Rayon Məhkəməsi;

3.18. Neftçala Rayon Məhkəməsi;

3.19. Saatlı Rayon Məhkəməsi;

3.20. Sabirabad Rayon Məhkəməsi;

3.21. Salyan Rayon Məhkəməsi;

3.22. Ucar Rayon Məhkəməsi;

3.23. Yardımlı Rayon Məhkəməsi;

3.24. Zərdab Rayon Məhkəməsi;

3.25. Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi (Əli Bayramlı Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);

3.26. Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Hərbi Məhkəməsi (Əli Bayramlı Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);

3.27. Ağdam Hərbi Məhkəməsi (Əli Bayramlı Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);

3.28. Füzuli-Qubadlı Hərbi Məhkəməsi (Əli Bayramlı Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);

3.29. Lənkəran Hərbi Məhkəməsi;

3.30. Tərtər Hərbi Məhkəməsi (Əli Bayramlı Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);

3.31. Əli Bayramlı İqtisad Məhkəməsi.

**4. Gəncə Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan birinci instansiya məhkəmələri**

4.1. Ağdam Rayon Məhkəməsi;

4.2. Ağstafa Rayon Məhkəməsi;

4.3. Bərdə Rayon Məhkəməsi;

4.4. Daşkəsən Rayon Məhkəməsi;

4.5. Gədəbəy Rayon Məhkəməsi;

4.6. Gəncə Şəhəri Kəpəz Rayon Məhkəməsi;

4.7. Gəncə Şəhəri Nizami Rayon Məhkəməsi;

4.8. Goranboy Rayon Məhkəməsi;

4.9. Xankəndi Şəhər Məhkəməsi;

4.10. Xanlar Rayon Məhkəməsi;

4.11. Xocalı Rayon Məhkəməsi;

4.12. Kəlbəcər Rayon Məhkəməsi;

4.13. Qazax Rayon Məhkəməsi;

4.14. Naftalan Şəhər Məhkəməsi;

4.15. Samux Rayon Məhkəməsi;

4.16. Şəmkir Rayon Məhkəməsi;

4.17. Tərtər Rayon Məhkəməsi;

4.18. Tovuz Rayon Məhkəməsi;

4.19. Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi (Gəncə Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);

4.20. Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Hərbi Məhkəməsi (Gəncə Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);

4.21. Ağdam Hərbi Məhkəməsi (Gəncə Apellyasiya Məh-

kəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);

4.22. Gəncə Hərbi Məhkəməsi (Gəncə Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);

4.23. Qazax Hərbi Məhkəməsi;

4.24. Tərtər Hərbi Məhkəməsi (Gəncə Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);

4.25. Gəncə İqtisad Məhkəməsi.

**5. Sumqayıt Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan birinci instansiya məhkəmələri**

5.1. Abşeron Rayon Məhkəməsi;

5.2. Dəvəçi Rayon Məhkəməsi;

5.3. Xaçmaz Rayon Məhkəməsi;

5.4. Xızı Rayon Məhkəməsi;

5.5. Qobustan Rayon Məhkəməsi;

5.6. Quba Rayon Məhkəməsi;

5.7. Qubadlı Rayon Məhkəməsi;

5.8. Qusar Rayon Məhkəməsi;

5.9. Siyəzən Rayon Məhkəməsi;

5.10. Sumqayıt Şəhər Məhkəməsi;

5.11. Şamaxı Rayon Məhkəməsi;

5.12. Şuşa Rayon Məhkəməsi;

5.13. Zəngilan Rayon Məhkəməsi;

5.14. Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi (Sumqayıt Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);

5.15. Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Hərbi Məhkəməsi (Sumqayıt Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);

5.16. Füzuli-Qubadlı Hərbi Məhkəməsi (Sumqayıt Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);

5.17. Sumqayıt Hərbi Məhkəməsi;

5.18. Sumqayıt yerli İqtisad Məhkəməsi.

**6. Şəki Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan birinci instansiya məhkəmələri**

6.1. Ağdaş Rayon Məhkəməsi;

6.2. Balakən Rayon Məhkəməsi;

6.3. Göyçay Rayon Məhkəməsi;

6.4. İsmayıllı Rayon Məhkəməsi;

6.5. Qax Rayon Məhkəməsi;

6.6. Qəbələ Rayon Məhkəməsi;

6.7. Mingəçevir Rayon Məhkəməsi;

6.8. Oğuz Rayon Məhkəməsi;

6.9. Şəki Rayon Məhkəməsi;

6.10. Yevlax Rayon Məhkəməsi;

6.11. Zaqatala Rayon Məhkəməsi;

6.12. Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi (Şəki Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);

6.13. Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Hərbi Məhkəməsi (Şəki Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);

6.14. Ağdam Hərbi Məhkəməsi (Şəki Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);

6.15. Gəncə Hərbi Məhkəməsi (Şəki Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);

6.16. Tərtər Hərbi Məhkəməsi (Şəki Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);

6.17. Şəki İqtisad Məhkəməsi.

**7. Naxçıvan Muxtar Respublikası İqtisad Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri**

7.1. Naxçıvan şəhəri;

7.2. Babək rayonu;

7.3. Culfa rayonu;

7.4. Kəngərli rayonu;
7.5. Ordubad rayonu;
7.6. Sədərək rayonu;
7.7. Şahbuz rayonu;
7.8. Şərur rayonu.

**8. 1 saylı Bakı yerli İqtisad Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri**

8.1. Bakı şəhəri Binəqədi rayonu;
8.2. Bakı şəhəri Qaradağ rayonu;
8.3. Bakı şəhəri Nərimanov rayonu;
8.4. Bakı şəhəri Nəsimi rayonu;
8.5. Bakı şəhəri Səbail rayonu;
8.6. Bakı şəhəri Yasamal rayonu.

**9. 2 saylı Bakı yerli İqtisad Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri**

9.1. Bakı şəhəri Əzizbəyov rayonu;
9.2. Bakı şəhəri Xətai rayonu;
9.3. Bakı şəhəri Nizami rayonu;
9.4. Bakı şəhəri Sabunçu rayonu;
9.5. Bakı şəhəri Suraxanı rayonu.

**10. Əli Bayramlı yerli İqtisad Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri**

10.1. Ağcabədi rayonu;
10.2. Ağsu rayonu;

10.3. Astara rayonu;

10.4. Beyləqan rayonu;

10.5. Biləsuvar rayonu;

10.6. Cəbrayıl rayonu;

10.7. Cəlilabad rayonu;

10.8. Əli Bayramlı şəhəri;

10.9. Füzuli rayonu;

10.10. Hacıqabul rayonu;

10.11. Xocavənd rayonu;

10.12. İmişli rayonu;

10.13. Kürdəmir rayonu;

10.14. Laçın rayonu;

10.15. Lerik rayonu;

10.16. Lənkəran rayonu;

10.17. Masallı rayonu;

10.18. Neftçala rayonu;

10.19. Saatlı rayonu;

10.20. Sabirabad rayonu;

10.21. Salyan rayonu;

10.22. Ucar rayonu;

10.23. Yardımlı rayonu;

10.24. Zərdab rayonu.

**11. Gəncə yerli İqtisad Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri**

11.1. Ağdam rayonu;

11.2. Ağstafa rayonu;
11.3. Bərdə rayonu;
11.4. Daşkəsən rayonu;
11.5. Gədəbəy rayonu;
11.6. Gəncə şəhəri
11.7. Goranboy rayonu;
11.8. Xankəndi şəhəri
11.9. Xanlar rayonu;
11.10. Xocalı rayonu;
11.11. Kəlbəcər rayonu;
11.12. Qazax rayonu;
11.13. Naftalan şəhəri
11.14. Samux rayonu;
11.15. Şəmkir rayonu;
11.16. Tərtər rayonu;
11.17. Tovuz rayonu.

**12. Sumqayıt yerli İqtisad Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri**

12.1. Abşeron rayonu;
12.2. Dəvəçi rayonu;
12.3. Xaçmaz rayonu;
12.4. Xızı rayonu;
12.5. Qobustan rayonu;
12.6. Quba rayonu;
12.7. Qubadlı rayonu;
12.8. Qusar rayonu;

12.9. Siyəzən rayonu;
12.10. Sumqayıt şəhəri
12.11. Şamaxı rayonu;
12.12. Şuşa rayonu;
12.13. Zəngilan rayonu.

**13. Şəki yerli İqtisad Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri**

13.1. Ağdaş rayonu;
13.2. Balakən rayonu;
13.3. Göyçay rayonu;
13.4. İsmayıllı rayonu;
13.5. Qax rayonu;
13.6. Qəbələ rayonu;
13.7. Mingəçevir şəhəri;
13.8. Oğuz rayonu;
13.9. Şəki rayonu;
13.10. Yevlax rayonu;
13.11. Zaqatala rayonu.

**14. Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri**

14.1. Naxçıvan şəhəri;
14.2. Babək rayonu;
14.3. Culfa rayonu;
14.4. Kəngərli rayonu.
14.5. Ordubad rayonu;

14.6. Sədərək rayonu;
14.7. Şahbuz rayonu;
14.8. Şərur rayonu.

**15. Ağdam Hərbi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri**

15.1. Ağcabədi rayonu;
15.2. Ağdam rayonu;
15.3. Ağsu rayonu;
15.4. Bərdə rayonu;
15.5. İsmayıllı rayonu;
15.6. Yevlax rayonu.

**16. Bakı Hərbi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri**

16.1. Bakı şəhəri Binəqədi rayonu;
16.2. Bakı şəhəri Əzizbəyov rayonu;
16.3. Bakı şəhəri Xətai rayonu;
16.4. Bakı şəhəri Qaradağ rayonu;
16.5. Bakı şəhəri Nərimanov rayonu;
16.6. Bakı şəhəri Nəsimi rayonu;
16.7. Bakı şəhəri Nizami rayonu;
16.8. Bakı şəhəri Sabunçu rayonu;
16.9. Bakı şəhəri Səbail rayonu;
16.10. Bakı şəhəri Suraxanı rayonu;
16.11. Bakı şəhəri Yasamal rayonu.

**17. Füzuli-Qubadlı Hərbi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri**

17.1. Beyləqan rayonu;

17.9. Cəbrayıl rayonu;

17.10. Füzuli rayonu;

17.11. Xocavənd rayonu;

17.12. İmişli rayonu;

17.13. Qubadlı rayonu;

17.14. Laçın rayonu;

17.15. Saatlı rayonu;

17.16. Sabirabad rayonu;

17.17. Zəngilan rayonu.

**18. Gəncə Hərbi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri**

18.1.Balakən rayonu;

18.2. Daşkəsən rayonu;

18.3. Gəncə şəhəri Kəpəz rayonu;

18.4. Gəncə şəhəri Nizami rayonu;

18.5. Xankəndi şəhəri;

18.6. Xanlar rayonu;

18.7. Xocalı rayonu;

18.8. Kəlbəcər rayonu;

18.9. Qax rayonu;

18.10. Qəbələ rayonu;

18.11. Mingəçevir şəhəri;

18.12. Oğuz rayonu;

18.13. Samux rayonu;
18.14. Şəki rayonu;
18.15. Zaqatala rayonu.

**19. Qazax Hərbi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri**

19.1. Ağstafa rayonu;
19.2. Gədəbəy rayonu;
19.3. Qazax rayonu;
19.4. Şəmkir rayonu;
19.5. Tovuz rayonu.

**20. Lənkəran Hərbi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri**

20.1. Astara rayonu;
20.2. Biləsuvar rayonu;
20.3. Cəlilabad rayonu;
20.4. Əli Bayramlı şəhəri
20.5. Hacıqabul rayonu;
20.6. Lerik rayonu;
20.7. Lənkəran rayonu;
20.8. Masallı rayonu;
20.9. Neftçala rayonu;
20.10. Salyan rayonu;
20.11. Yardımlı rayonu.

**21. Sumqayıt Hərbi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri**

21.1. Abşeron rayonu;
21.2. Dəvəçi rayonu;
21.3. Xaçmaz rayonu;
21.4. Xızı rayonu;
21.5. Qobustan rayonu;
21.6. Quba rayonu;
21.7. Qusar rayonu;
21.8. Siyəzən rayonu;
21.9. Sumqayıt şəhəri;
21.10. Şamaxı rayonu;
21.11. Şuşa rayonu.

**22. Tərtər Hərbi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri**

22.1. Ağdaş rayonu;
22.2. Goranboy rayonu;
22.3. Göyçay rayonu;
22.4. Kürdəmir rayonu;
22.5. Tərtər rayonu;
22.6. Ucar rayonu;
22.7. Zərdab rayonu.

## ƏDLİYYƏ ORQANLARININ İNKİŞAFI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Ölkəmizdə baş verən sürətli sosial-iqtisadi dəyişikliklər, dövlət idarəçilik mexanizmlərinin müasirləşdirilməsi, məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi, demokratik təsisatların möhkəmləndirilməsi ədliyyə sisteminin inkişafını və beynəlxalq standartlara uyğun qurulmasını zəruri edir.

Son illər ərzində hüquq sistemində aparılan islahatlar, qəbul edilmiş qanunvericilik aktları ədliyyə orqanlarının fəaliyyət istiqamətlərini genişləndirərək, onların qarşısında yeni vəzifələr qoyur və məsuliyyətini əhəmiyyətli dərəcədə artırır. Ədliyyə sahəsində dövlət idarəçilik mexanizmlərinin müasirləşdirilməsi keyfiyyətcə yeni dəyişikliklərin həyata keçirilməsini, ədliyyə orqanlarının fəaliyyətinin şəffaflıq və aşkarlıq prinsipi əsasında qurulmasını, Ədliyyə Nazirliyinin işinin və strukturunun daha optimal şəkildə təşkil edilməsini, əhalinin hüquq institutlarına və hüquqi yardıma tələbatının ödənilməsi üçün yeni regional və yerli qurumlarının yaradılmasını şərtləndirir. Bütün bunlar ədliyyə sisteminin gələcəyi üçün mühüm əhəmiyyət kəsb edir.

Vətəndaşların ədliyyə orqanlarına müraciət etmə imkanlarının asanlaşdırılması, hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatının, notariat və müvafiq sahələrdə göstərilən

hüquqi xidmətlərin müasir tələblər səviyyəsində qurulması, penitensiar müəssisələrin və məhkəmə icraçılarının işinin, qanunyaradıcı fəaliyyətin təkmilləşdirilməsi, məhkəmə ekspertizalarının keyfiyyətinin artırılması, hüquqi maarifləndirmənin və yeni texnologiyalar tətbiq edilməklə informasiya təminatının yaxşılaşdırılması, yüksək peşəkar mütəxəssislərin hazırlanması və digər istiqamətlər üzrə ədliyyə orqanlarının inkişafını təmin etmək məqsədi ilə qərara alıram:

**1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin strukturunda aşağıdakı yeni qurumlar yaradılsın:**

1.1. normativ hüquqi aktların hüquqi ekspertizalarının yaxşılaşdırılması və layihələrinin hazırlanması işinin təkmilləşdirilməsi məqsədi ilə Qanunvericilik və hüquqi təbliğat və Normativ hüquqi aktların hüquqi ekspertizası, uçotu və qeydiyyatı idarələrinin əsasında Qanunvericilik baş idarəsi;

1.2. dövlət qeydiyyatı işinin sadələşdirilməsi, fiziki və hüquqi şəxslərə göstərilən notariat xidmətinin səmərəliliyinin artırılması məqsədi ilə Hüquqi şəxslərin dövlət qeydiyyatı və Notariat və vətəndaşlıq vəziyyəti aktları idarələrinin əsasında Qeydiyyat və notariat baş idarəsi;

1.3. ali hüquq təhsili almış şəxslərin ixtisasları üzrə müəyyən vəzifələrə təyin edilmələri üçün peşə səviyyəsinin yüksəldilməsi, habelə ədliyyə orqanları işçilərinin, müvafiq hakimlərin və digər hüquqşünasların peşə hazırlığının artırılması məqsədi ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi yanında Hüquq Tədris Mərkəzi əsasında Ədliyyə

Akademiyası;

1.4. hüquqi maarifləndirmə və informasiya təminatı işinin yaxşılaşdırılması, ictimaiyyətlə əlaqələrin gücləndirilməsi, qeyri-hökumət təşkilatları ilə əlaqələrin genişləndirilməsi məqsədi ilə İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsi;

1.5. yerlərdə ədliyyə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi və onlara nəzarətin gücləndirilməsi, əhalinin ədliyyə orqanlarına müraciət etmə imkanlarının asanlaşdırılması, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin səmərəsinin artırılması məqsədi ilə regional ədliyyə şöbələri;

1.6. hüquqi şəxslərin dövlət qeydiyyatı üzrə bölgə şöbələri və vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı orqanları əsasında hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatı işinin sadələşdirilməsi məqsədi ilə yerlərdə rayon (şəhər) qeydiyyat şöbələri.

2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin strukturuna daxil olan Məhkəmə Qərarlarının İcrası Baş İdarəsi və Məhkəmə Ekspertizası Elmi Tədqiqat, Kriminalistika və Kriminologiya Problemləri İnstitutu müvafiq olaraq, Penitensiar xidmət və Məhkəmə Ekspertizası Mərkəzi adlandırılsınlar.

3. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin strukturu təsdiq edilsin (Əlavə № 1).

4. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin mərkəzi aparatının işçilərinin say həddi 344 ştat vahidi müəyyən edilsin.

5. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kol-

legiyasının tərkibi təsdiq edilsin (Əlavə № 2).

6. Azərbaycan Respublikasının ədliyyə orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı təsdiq edilsin (Əlavə № 3).

7. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki:

7.1. qanunvericilik layihələrinin hazırlanması işinin təkmilləşdirilməsini, normativ hüquqi aktların və normativ xarakterli aktların internet informasiya resursunun yaradılmasını, onun sistematik yeniləşdirilməsini təmin etsin;

7.2. notariat və müvafiq sahələrdə göstərilən hüquqi xidmət işinin müasir tələblər səviyyəsində qurulmasını təmin etsin;

7.3. Ədliyyə Akademiyasının Nizamnaməsinin layihəsini hazırlayıb təsdiq olunması üçün üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.4. ədliyyə sistemində yüksək peşəkar kadr korpusunun formalaşdırılmasını, ədliyyə orqanları işçilərinin peşə təhsili və hazırlanması sisteminin təkmilləşdirilməsini, işçilərin fəaliyyətinin qiymətləndirilməsini, ədliyyə orqanlarına qəbulun şəffaf prosedurlarla həyata keçirilməsini təmin etsin;

7.5. «Ədliyyə orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikası Qanununun 4.7-ci maddəsində nəzərdə tutulmuş ədliyyə orqanlarına qulluğa qəbul edilmə ilə bağlı müsabiqənin və müsahibənin keçirilməsi qaydaları barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.6. insan hüquqları müdafiəsi mexanizmlərinin təkmilləşdirilməsinə dair təkliflərini Azərbaycan Respublikası-

nın Prezidentinə təqdim etsin;

7.7. qəbul olunan normativ hüquqi aktların izahı və əhalinin hüquq maarifləndirilməsi işinin müasir tələblər səviyyəsində qurulması üçün tədbirlər görsün;

7.8. regional ədliyyə şöbələrinin fəaliyyət istiqamətlərini və səlahiyyətlərini müəyyən etsin;

7.9. Azərbaycan Respublikası əhalisinin dövlət reyestrinin formalaşdırılması və inkişafı üçün müvafiq tədbirlər görsün;

7.10. regionlarda yeni penitensiar müəssisələrinin yaradılması məsələsini həll etsin;

7.11. elm və texnikanın son nailiyyətlərindən istifadə etməklə məhkəmə ekspertiza növlərinin genişləndirilməsi və Məhkəmə Ekspertizası Mərkəzində elmi tədqiqat işinin səmərəliliyinin artırılması üçün tədbirlər görsün;

7.12. penitensiar xidmətin fəaliyyətinin təkmilləşdirilməsi, bu sahədə mövcud olan problemlərin aradan qaldırılması, məhkumların hüquqlarına riayət olunması, onların cəmiyyətə reinteqrasiya olunması prosesinə köməklik göstərilməsi üçün tədbirlər görsün;

7.13. məhkəmə qərarlarının icrası işinin səmərəliliyinin artırılması üçün təsirli tədbirlər görsün;

7.14. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrlə tənzimlənən və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin səlahiyyətlərinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etsin.

8. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına tapşırılsın, Azərbaycan Respublikasının Milli Bankına, Milli Televiziya və Radio Şurasına və yerli özünüidarə orqanlarına isə

tövsiyə edilsin ki, qəbul etdikləri bütün normativ hüquqi aktların və normativ xarakterli aktların dövlət qeydiyyatına alınmaq üçün qanunvericiliklə müəyyən edilmiş müddətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsinlər.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi dövlət qeydiyyatına alınan normativ hüquqi aktların və normativ xarakterli aktların qanunvericiliyə uyğunluğunun təmin edilməsi üçün tədbirlər görsün.

**9. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:**

9.1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin yeni strukturu nəzərə alınmaqla, ədliyyə orqanlarının fəaliyyətinə zəruri şəraitin yaradılması üçün onların bina, avadanlıq, rabitə, nəqliyyat və başqa zəruri təşkilati-texniki vasitələrlə təmin edilməsi məqsədi ilə tədbirlər görsün və bununla bağlı maliyyələşdirmə məsələlərini həll etsin;

9.2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin sistemində aparılan struktur dəyişikliklər, o cümlədən Ədliyyə Akademiyasının, yeni məhkəmələrin aparatlarının, penitensiar müəssisələrinin və regional ədliyyə şöbələrinin yaradılması ilə əlaqədar ədliyyə orqanları işçilərinin say həddini müəyyən etsin və ştat vahidlərinin artırılması üçün Azərbaycan Respublikasının 2007-ci il dövlət büdcəsinin layihəsində müvafiq maliyyə vəsaitlərinin ayrılmasını nəzərdə tutsun;

9.3. bir ay müddətində qüvvədə olan qanunvericilik aktlarının bu fərmana uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim

etsin;

9.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

9.5. öz səlahiyyətləri daxilində bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

10. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**

*Bakı şəhəri, 17 avqust 2006-cı il*
**№ 446**

*«Azərbaycan» qəzetində dərc edilmişdir*
*(18 avqust 2006-cı il, № 184)*

13 dekabr 2007-ci il tarixli, 673 nömrəli Fərmana əsasən dəyişikliklərlə.

**Azərbaycan Respublikası Prezidentinin**
**17 avqust 2006-cı il tarixli,**
**446 nömrəli Fərmanına**

***Əlavə № 1***

**Azərbaycan Respublikası**
**Ədliyyə Nazirliyinin Strukturu**

**1. Rəhbərlik**

- Nazir
- Nazir müavini
- Nazir müavini
- Nazir müavini
- Nazir müavini-Penitensiar xidmətin rəisi

**2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin aparatı**

- Təşkilat-nəzarət baş idarəsi
- Qanunvericilik baş idarəsi
- Qeydiyyat və notariat baş idarəsi
- Məhkəmə icraçıları baş idarəsi
- Bələdiyyələrlə iş mərkəzi (baş idarə səlahiyyətli)
- Beynəlxalq əməkdaşlıq idarəsi
- İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsi
- İstintaq idarəsi
- Kadrlar idarəsi
- Cəzaların icrasına nəzarət üzrə müfəttişlik (idarə səlahiyyətli)

- Katiblik (idarə səlahiyyətli)
- Maliyyə və təminat idarəsi

**3. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi strukturuna daxil olan ədliyyə orqanları və təşkilatlar**

- Penitensiar xidmət (baş idarə səlahiyyətli)
- Ədliyyə Akademiyası (baş idarə səlahiyyətli)
- Məhkəmə Ekspertizası Mərkəzi (baş idarə səlahiyyətli)
- Tibb baş idarəsi
- Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidməti (idarə səlahiyyətli)
- Regional ədliyyə şöbələri
- Yerli və digər qurumlar

**Azərbaycan Respublikası Prezidentinin
«17» avqust 2006-cı il tarixli
446 nömrəli Fərmanına**

***Əlavə № 2***

**Azərbaycan Respublikası
Ədliyyə Nazirliyinin Kollegiyasının tərkibi**

Kollegiyanın sədri:

Azərbaycan Respublikasının ədliyyə naziri

Kollegiyanın üzvləri:

Azərbaycan Respublikası ədliyyə nazirinin müavinləri

Azərbaycan Respublikası ədliyyə nazirinin müavini-Penitensiar xidmətin rəisi

Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Təşkilat-nəzarət baş idarəsinin rəisi

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinin rəisi

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsinin rəisi

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə icraçıları baş idarəsinin rəisi

Ədliyyə Akademiyasının rəhbəri

**Azərbaycan Respublikası Prezidentinin
17 avqust 2006-cı il tarixli,
446 nömrəli Fərmanına**

***Əlavə № 3***

## Azərbaycan Respublikasının ədliyyə orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı

| Vəzifənin adı | Vəzifəyə görə müəyyən olunmuş ali xüsusi rütbə |
|---|---|
| Azərbaycan Respublikasının ədliyyə naziri | Həqiqi dövlət ədliyyə müşaviri |
| Azərbaycan Respublikası ədliyyə nazirinin müavinləri | I dərəcəli dövlət ədliyyə müşaviri<br>II dərəcəli dövlət ədliyyə müşaviri |
| Azərbaycan Respublikası ədliyyə nazirinin müavini-Penitensiar xidmətin rəisi | ədliyyə general-polkovniki<br>ədliyyə general-leytenantı |
| Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri | II dərəcəli dövlət ədliyyə müşaviri |
| Azərbaycan Respublikası Ədliyyə Nazirliyi aparatının baş idarə, baş idarə səlahiyyətli qurumlarının, müstəqil idarə və idarə səlahiyyətləri qurumlarının rəisləri | III dərəcəli dövlət ədliyyə müşaviri |

| | |
|---|---|
| Penitensiar xidmətin rəis müavinləri | ədliyyə general-mayoru |
| Tibb baş idarəsinin rəisi | ədliyyə general-mayoru; tibb xidməti general-mayoru |
| Ədliyyə Akademiyasının rəhbəri | III dərəcəli dövlət ədliyyə müşaviri |
| Məhkəmə Ekspertizası Mərkəzinin rəhbəri | III dərəcəli dövlət ədliyyə müşaviri |

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA HÜQUQ İNSTİTUTLARININ İNKIŞAFI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi və demoqrafik inkişaf hüquq institutlarının təkmilləşdirilməsini, insan hüquqlarının müdafiəsi mexanizmlərinin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasını, əhalinin yüksək keyfiyyətli hüquqi yardımla təmin edilməsini zəruri edir. Bu istiqamətdə tədbirlərin həyata keçirilməsi məqsədilə qərara alıram:

1. Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə və Prokurorluğuna tövsiyə edilsin, Ədliyyə Nazirliyinə tapşırılsın ki, ölkədə hüquq sisteminin müasirləşdirilməsi prosesinə uyğun olaraq insan hüquqlarının daha etibarlı müdafiəsinin təmin edilməsini, vətəndaşların hüquq institutlarına inamının artırılmasını, onların müraciət etmək imkanlarının asanlaşdırılmasını, fəaliyyətlərində şəffaflığı, yeni informasiya texnologiyalarının tətbiq edilməsini təmin etsinlər.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki:

2.1. Naxçıvan Muxtar Respublikasındakı birinci instansiya məhkəmələri hakimlərinin, ədliyyə orqanları işçilərinin və digər hüquqşünasların peşə hazırlığının artırılması məqsədi

ilə müvafiq treninqlərin keçirilməsində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə kömək göstərsin;

2.2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin Naxçıvan Filialının müasir avadanlıqla təchiz edilməsi və elmi-tədqiqat işinin səmərəliliyinin artırılması üçün tədbirlər görsün;

2.3. Naxçıvan Muxtar Respublikasındakı birinci instansiya məhkəmələrinin normativ hüquqi aktlarla və hüquqi ədəbiyyatla təchiz edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə kömək göstərsin.

3. Azərbaycan Respublikasının Ali Məhkəməsinə tövsiyə edilsin ki, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi işinin təşkilində Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə metodik kömək göstərsin.

4. Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına tövsiyə edilsin ki, Naxçıvan Muxtar Respublikasında əhaliyə göstərilən hüquqi yardımın səmərəliliyinin və burada fəaliyyət göstərən vəkillərin sayının artırılması məqsədilə Vəkillər Kollegiyasına əlavə qəbul imtahanının Naxçıvan Muxtar Respublikasında keçirilməsini təşkil etsin.

5. Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsinin, Naxçıvan Şəhər Məhkəməsinin və Babək Rayon Məhkəməsinin hakimlərinin sayı 1 vahid artırılsın.

6. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

6.1. Ağır Cinayətlərə Dair İşlər üzrə Naxçıvan Muxtar Respublikası Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası İqtisad Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası

Hərbi Məhkəməsinin, Kəngərli Rayon Məhkəməsinin yeni binalarının tikilməsi üçün vəsait ayırsın;

6.2. Kəngərli, Sədərək, Ordubad rayon prokurorluqlarının yeni binalarının tikilməsi, Şərur Rayon Prokurorluğunun binasının təmir edilməsi üçün vəsait ayırsın;

6.3. Naxçıvan Muxtar Respublikasında yeni yaradılmış İnsan hüquqları üzrə müvəkkil təsisatının fəaliyyətinin təmin edilməsi üçün vəsait ayırsın;

6.4. Naxçıvan Muxtar Respublikasında məhkəmə, prokurorluq və ədliyyə orqanlarının fəaliyyətinə zəruri şəraitin yaradılması üçün onların avadanlıq, rabitə, nəqliyyat vasitələri və digər ləvazimatlarla təmin edilməsi məqsədilə tədbirlər görsün;

6.5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.6. öz səlahiyyətləri daxilində həmin fərmandan irəli gələn digər məsələləri həll etsin.

7. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**

*Bakı şəhəri, 2 noyabr 2006-cı il*
**№ 474**

*«Azərbaycan» qəzetində dərc edilmişdir*
*(3 noyabr 2006-cı il, № 247)*

# «AZƏRBAYCAN ƏDLİYYƏSİNİN İNKİŞAFINA DAİR 2009 - 2013-CÜ İLLƏR ÜÇÜN DÖVLƏT PROQRAMI»NIN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTININ SƏRƏNCAMI

Ölkəmizdə hüquq sisteminin müasirləşdirilməsi, məhkəmə-hüquq islahatlarının davam etdirilməsi ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyətinin son dövrün tələbləri səviyyəsində qurulmasını, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasını, vətəndaşların məhkəmələrə və ədliyyə orqanlarına müraciət imkanlarının asanlaşdırılmasını, regionlarda hüquq infrastrukturunun genişləndirilməsini, yeni nəsil hüquqşünaslarının formalaşdırılmasını, cəza-icra siyasətinin humanistləşdirilməsini zəruri edir.

Ədliyyə orqanlarının və məhkəmələrin dinamik inkişafının təmin edilməsi, yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsi, normativ-hüquqi və maddi-texniki təminatın yaxşılaşdırılması, kadr potensialının, ədliyyə orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə qərara alıram:

1. «Azərbaycan ədliyyəsinin inkişafına dair 2009 - 2013-cü illər üçün Dövlət Proqramı» təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. dövlət büdcələrinin layihələri hazırlanarkən bu

Sərəncamla təsdiq edilmiş Dövlət Proqramının həyata keçirilməsi üçün tələb olunan vəsaitin ayrılmasını təmin etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**

*Bakı şəhəri, 6 fevral 2009-cu il*
**№ 132**

*«Azərbaycan» qəzetində dərc edilmişdir*
*(10 fevral 2009-cu il, № 31)*

**Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli, 132 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir**

# AZƏRBAYCAN ƏDLİYYƏSİNİN İNKİŞAFINA DAİR 2009 - 2013-CÜ İLLƏR ÜÇÜN DÖVLƏT PROQRAMI

Dövlət idarəçilik mexanizmlərinin müasirləşdirilməsi, məhkəmə-hüquq islahatlarının daha da dərinləşdirilməsi, hüquqi təsisatların möhkəmləndirilməsi, beynəlxalq hüquq əməkdaşlığının genişləndirilməsi ədliyyə və məhkəmə orqanlarının işinin müasir dövrün tələblərinə və beynəlxalq standartlara uyğun təşkil edilməsini, onun maddi-texniki bazasının modernləşdirilməsini şərtləndirir.

«Azərbaycan ədliyyəsinin inkişafına dair 2009 - 2013-cü illər üçün Dövlət Proqramı» (bundan sonra - Dövlət Proqramı) ədliyyə sahəsində daha sürətli inkişafı təmin etmək üçün əsas vəzifələri, istiqamətləri və yerinə yetirilməli olan tədbirləri müəyyən edir.

## Dövlət Proqramının məqsədi və əsas vəzifələri

Dövlət Proqramının məqsədi Azərbaycan Respublikasında ədliyyə sahəsində dövlət siyasətinin daha uğurla həyata keçirilməsini, ölkədə aparılan məhkəmə-hüquq islahatlarının davam etdirilməsini, ədliyyə orqanlarının və məhkəmələrin dinamik inkişafını təmin etməkdən ibarətdir.

Dövlət Proqramının əsas vəzifələri aşağıdakılardır:

- ədliyyə sahəsində islahatların davam etdirilməsi və bu sahədə inkişafın təmin edilməsi;
- ədliyyə sistemində və məhkəmələrdə yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsi işinin sürətləndirilməsi;
- müasir tələblərə cavab verən yeni iş prosesinin təşkil edilməsi;
- cəzaçəkmə müəssisələrinin fəaliyyətinin müasirləşdirilməsi;
- ədliyyə sisteminin və məhkəmələrin infrastrukturunun yeniləşdirilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi;
- vətəndaşların ədliyyə orqanlarına və məhkəmələrə müraciət etmək imkanlarının genişləndirilməsi.

**Dövlət Proqramının əsas istiqamətləri**

Müəyyən edilmiş əsas vəzifələrə uyğun olaraq Dövlət Proqramında Azərbaycan ədliyyəsinin 2009 - 2013-cü illərdə aşağıdakı əsas istiqamətlərdə inkişaf etdirilməsi nəzərdə tutulur:

- ədliyyə sistemində qanunvericilik bazasının təkmilləşdirilməsi;
- ədliyyə orqanlarının və məhkəmələrin informasiya resurslarının işlənməsində müasir texnologiyaların tətbiqi;
- ədliyyə orqanlarının fəaliyyətinə zəruri şərait yaradılması və maddi-texniki təchizatının yaxşılaşdırılması;
- ədliyyə sistemində kadr hazırlığı və peşəkarlıq səviyyəsinin artırılması;
- Penitensiar Xidmətin fəaliyyətinin müasirləşdirilməsi

və infrastrukturunun yaxşılaşdırılması;

- məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi və infrastrukturunun müasir dövrün tələblərinə uyğunlaşdırılması;
- ədliyyə orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsi.

**Gözlənilən nəticələr**

Dövlət Proqramının yerinə yetirilməsi aşağıdakı nəticələri əldə etməyə imkan verəcəkdir:

- ədliyyə sisteminin inkişafı ilə bağlı dövlət tərəfindən, habelə beynəlxalq təşkilatlarla birgə həyata keçirilən layihələrin sürətlənməsinə;
- ölkənin hüquqi təsisatlarının möhkəmləndirilməsində ədliyyə orqanlarının rolunun artmasına;
- ədliyyə orqanlarında avtomatlaşdırılmış informasiya sisteminin və məhkəmələrin fəaliyyətində yeni texnologiyaların tətbiq edilməsinə;
- ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyətində aşkarlığın artmasına;
- vətəndaşların ədliyyə orqanlarına və məhkəmələrə müraciət etmək və onların fəaliyyəti barədə məlumat almaq imkanlarının genişlənməsinə;
- ədliyyə sisteminin maddi-texniki bazasının daha da möhkəmlənməsinə;
- həbs olunmuş və məhkum edilmiş şəxslərin saxlanma şəraitinin yaxşılaşmasına;
- məhkumların ictimai faydalı əməyə cəlb olunmasına;
- hakimlərin, ədliyyə orqanları və məhkəmə aparatı

işçilərinin peşəkarlıq səviyyəsinin artmasına;

- kadr potensialının güclənməsinə;
- ədliyyə orqanları işçilərinin sosial müdafiəsinin güclənməsinə, onların yaşayış şəraitinin yaxşılaşmasına.

**Dövlət Proqramının maliyyə təminatı**

Dövlət Proqramının maliyyə təminatı aşağıdakı maliyyə mənbələri hesabına həyata keçiriləcəkdir:

- dövlət büdcəsindən ayırmalar;
- beynəlxalq təşkilatların maliyyə dəstəyi;
- qanunvericiliklə müəyyən olunmuş digər mənbələr.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**

*Bakı şəhəri, 6 fevral 2009-cu il*
**№ 132**

*«Azərbaycan» qəzetində dərc edilmişdir*
*(10 fevral 2009-cu il, № 31)*

**Azərbaycan Respublikası Prezidentinin**
**2009-cu il 6 fevral tarixli,**
**132 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir**

# «AZƏRBAYCAN ƏDLİYYƏSİNİN İNKİŞAFINA DAİR 2009-2013-cü İLLƏR ÜÇÜN DÖVLƏT PROQRAMI»nın HƏYATA KEÇİRİLMƏSİ ÜZRƏ TƏDBİRLƏR PLANI

| Sıra № | Tədbirin adı | İcraçı orqan | İcra müddəti (illər üzrə) | Maliyyələş-mə mənbəyi |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 1. Ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyətini tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilməsi | | | | |
| 1.1 | Ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyətini tənzimləyən normativ hüquqi aktların beynəlxalq norma və prinsiplərə, habelə mütərəqqi xarici təcrübəyə uyğun təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması | Ədliyyə Nazirliyi, Məhkəmə-Hüquq Şurası və Ali Məhkəmənin təklifləri nəzərə alınmaqla | mütəmadi | |

| | | | | |
|---|---|---|---|---|
| 1.2 | Hüquqi yardımla bağlı beynəlxalq sənədlərə qoşulmanın məqsədəmüvafiqliyinin öyrənilməsi və təkliflərin hazırlanması | Ədliyyə Nazirliyi, Xarici İşlər Nazirliyi | mütəmadi | |
| 1.3 | Ədliyyə sisteminin fəaliyyəti ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi işində ictimaiyyətin, o cümlədən yerli qeyri-hökumət və beynəlxalq təşkilatların iştirakının təmin edilməsi | Ədliyyə Nazirliyi | 2009 - 2013 | |
| 1.4 | Ədliyyə sisteminin inkişafında və beynəlxalq hüquqi yardımın səmərəliliyinin artırılmasında xarici əlaqələrin rolu nəzərə alınaraq, digər dövlətlərin ədliyyə nazirlikləri ilə ikitərəfli müqavilələrin bağlanması | Ədliyyə Nazirliyi, Xarici İşlər Nazirliyi | 2009 - 2013 | |
| 1.5 | Ədliyyə orqanlarının maddi-texniki təminatı qaydalarının və normalarının hazırlanıb təsdiq edilməsi | Nazirlər Kabineti, Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi | 2009 | |

| | | | | |
|---|---|---|---|---|
| 1.6 | Məhkumların hüquqlarının daha geniş təmin olunması məqsədilə onların saxlanılması şəraitini və qaydasını tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması | Ədliyyə Nazirliyi | 2009-cu ildən başlayaraq | |
| 1.7 | Ədliyyə Nazirliyinin mərkəzi aparatının, Ədliyyə Akademiyasının, Məhkəmə Ekspertizası Mərkəzinin, regional ədliyyə şöbələrinin kitabxana fondunun normativ hüquqi aktlarla, hüquqi ədəbiyyatla təmin edilməsi, kitabxanaların elektron kataloqlarının yaradılması və onlardan daxili informasiya şəbəkəsi vasitəsilə istifadənin təşkil edilməsi | Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi | 2009 - 2013 | Dövlət büdcəsi |
| 1.8. | Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq sənədlərin Azərbaycan dilində külliyyatının hazırlanması | Ədliyyə Nazirliyi, Xarici İşlər Nazirliyi, Maliyyə Nazirliyi | 2009 - 2010 | Dövlət büdcəsi |

| | | | | |
|---|---|---|---|---|
| 1.9. | Əhalinin hüquqi biliklərinin artırılması, qanunların mətni ilə onların birbaşa sərbəst və təmənnasız tanış olmasına kömək məqsədilə Ədliyyə Nazirliyi tərəfindən aparılan və milli qanunvericiliyin elektron məlumat bazası əks olunmuş «e-qanun.az» internet saytının texniki imkanlarının genişləndirilməsi, o cümlədən mətndə axtarış imkanının yaradılması, saytın daimi olaraq yeniləşdirilməsi və dürüstlüyünün təmin edilməsi | Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi | 2009 - 2010 | Dövlət büdcəsi |
| 2. Ədliyyə orqanlarının və məhkəmələrin informasiya resurslarının işlənməsində müasir texnologiyaların tətbiqi məsələləri | | | | |

| | | | | |
|---|---|---|---|---|
| 2.1 | Ədliyyə orqanlarında informasiya resurslarının müasir texnologiyalar tətbiq edilməklə işlənməsi, Ədliyyə Nazirliyində, regional və yerli ədliyyə orqanlarında, məhkəmələrdə, Məhkəmə-Hüquq Şurasında müasir elektron informasiya sisteminin yaradılması, onların vahid mərkəzləşdirilmiş şəbəkədə birləşdirilməsi, bu işdə beynəlxalq təşkilatların və maliyyə qurumlarının imkanlarından səmərəli istifadə edilməsi və onlardan hüquqi maarifləndirmə və əhaliyə hüquqi xidmət vasitəsi kimi geniş istifadə edilməsi | Ədliyyə Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Maliyyə Nazirliyi | 2009 - 2011 | Dövlət büdcəsi və beynəlxalq təşkilatların ayırdığı vəsaitlər |

| | | | | |
|---|---|---|---|---|
| 2.2 | «Ədliyyə sisteminin müasirləşdirilməsi» və «Daşınmaz Əmlakın qeydiyyatı» layihələri çərçivəsində mülkiyyət hüququnun qorunmasının və rəsmiləşdirilməsinin daha operativ həll edilməsi məqsədilə notariat kontorlarını vahid elektron şəbəkədə birləşdirən «Notariat sənədlərinin elektron məlumat bankı» informasiya sisteminin təkmilləşdirilərək imkanlarının genişləndirilməsi | Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi | 2009 - 2013 | Dövlət büdcəsi və beynəlxalq təşkilatların ayırdığı vəsaitlər |
| 2.3 | «Ədliyyə sisteminin müasirləşdirilməsi» layihəsi çərçivəsində «Qeyri-kommersiya hüquqi şəxsləri» avtomatlaşdırılmış qeydiyyat informasiya sisteminin yaradılması və onun qeydiyyat orqanlarının vahid informasiya infrastrukturuna inteqrasiyası | Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi | 2009 - 2013 | Dövlət büdcəsi və beynəlxalq təşkilatla rın ayırdığı vəsaitlər |

| | | | | |
|---|---|---|---|---|
| 2.4 | Qüvvədən düşmüş sənədlərin dövlət reyestrinin avtomatlaşdırılmış qeydiyyat informasiya sisteminin yaradılması | Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi | 2009 - 2011 | Dövlət büdcəsi |
| 2.5 | Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlıqda həyata keçirilən «Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin formalaşdırılması və inkişafı» layihəsi üzrə:<br><br>nəzərdə tutulan tədbirləri həyata keçirərək layihənin II mərhələsinin yekunlaşdırılması;<br><br>Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin aparılması işinin inkişaf etdirilməsi | Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi | 2009 - 2010 mütəmadi | Dövlət büdcəsi və beynəlxalq təşkilatla rın ayırdığı vəsaitlər |

| | | | | |
|---|---|---|---|---|
| 2.6 | Məhkəmə və digər dövlət orqanlarının qərarlarının icrası ilə bağlı mərkəzləşdirilmiş məlumat-informasiya bankının yaradılması və aidiyyəti qurumların həmin sistemə qoşulması | Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi | 2009 - 2012 | Dövlət büdcəsi |
| 2.7 | Ədalət mühakiməsinin həyata keçirilməsində və istintaq zamanı müasir informasiya texnologiyalarının tətbiqi, bu məqsədlə məhkəmədə istifadə edilməsi üçün Ədliyyə Nazirliyi tərəfindən aparılan cinayət işlərinin eksperimental elektron versiyalarının hazırlanması | Ədliyyə Nazirliyi | 2009 | |
| 3. Ədliyyə orqanlarının maddi-texniki təchizatının yaxşılaşdırılması və ədliyyə orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsi | | | | |

| | | | | |
|---|---|---|---|---|
| 3.1 | Yeni yaradılmış Gəncə, Şəki, Şirvan regional ədliyyə şöbələri, Qax və Qəbələ rayon qeydiyyat şöbələrinin yeni inzibati binalarının inşasının başa çatdırılıb istifadəyə verilməsi | Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi | 2009 | Dövlət büdcəsi |
| 3.2 | Bir sıra regional ədliyyə şöbələri üçün yeni inzibati binaların inşası | Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi | 2010 - 2013 | Dövlət büdcəsi |
| 3.3 | Əhaliyə hüquqi xidmətin keyfiyyətinin yüksəldilməsi, notariat fəaliyyətinin təkmilləşdirilməsi və müraciət edən insanlara əlverişli şəraitin yaradılması məqsədilə rayon qeydiyyat şöbələrinin, nikah evlərinin və notariat kontorlarının iş şəraitinin yaxşılaşdırılması | Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi, şəhər və rayon icra hakimiyyətləri | 2009 - 2013 | Dövlət büdcəsi |

| | | | | |
|---|---|---|---|---|
| 3.4 | Məhkəmə Ekspertizası Mərkəzinin cinayətkarlıqla mübarizə işində töhfəsinin və elmi potensialının artırılması məqsədilə Mərkəzin maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunmaqla ekspertizaların növlərinin, keyfiyyət və dəqiqliyinin artırılması | Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi | 2009 - 2013 | Dövlət büdcəsi |
| 3.5 | Ədliyyə Akademiyasına ayrılacaq inzibati binanın onun fəaliyyətinə uyğunlaşdırılması məqsədilə müvafiq yenidənqurma işlərinin aparılması və maddi-texniki bazanın yaradılması | Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi | 2011 - 2013 | Dövlət büdcəsi |
| 3.6 | Ədliyyə işçilərinin mənzilə ehtiyaclarının ödənilməsi üçün mənzil-tikinti kooperativinin yaradılmasını təşviq etmək | Ədliyyə Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti | 2009 - 2013 | |

| | | | | |
|---|---|---|---|---|
| 3.7 | Penitensiar müəssisələrin işçiləri üçün bölgələrdə ailəvi yataqxana binalarının inşası | Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi | 2009 - 2013 | Dövlət büdcəsi |
| 4. Ədliyyə sistemində kadr hazırlığı və peşəkarlıq səviyyəsinin artırılması | | | | |
| 4.1 | Ədliyyə orqanlarına qulluğa şəffaf prosedurlarla, müsabiqə və müsahibə yolu ilə yüksək nəzəri hazırlığa malik hüquqşünasların qəbulu, onların peşə fəaliyyətinə yiyələnməsi üçün ilkin tədris kurslarının təşkil edilməsi | Ədliyyə Nazirliyi | mütəmadi | |
| 4.2 | Ədliyyə orqanları işçilərinin və digər hüquqşünas kadrların hazırlanması məqsədilə Ədliyyə Akademiyasında yüksək keyfiyyətli tədrisin təşkil olunması və müəllim heyətinin ixtisasının artırılması | Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi | mütəmadi | Dövlət büdcəsi |

| | | | | |
|---|---|---|---|---|
| 4.3 | Peşəkarlıq səviyyələrinin artırılması məqsədi ilə ədliyyə orqanları və məhkəmə aparatı işçilərinin, habelə (Məhkəmə-Hüquq Şurası ilə birgə) hakimlərin davamlı tədrisə cəlb edilməsi, xarici mütəxəssislərin tədris prosesində iştirakının təmin edilməsi | Ədliyyə Nazirliyi | mütəmadi | |
| 4.4 | Ədliyyə orqanları və məhkəmə aparatı işçilərinin, habelə (Məhkəmə-Hüquq Şurası ilə birgə) hakimlərin informasiya və kommunikasiya texnologiyalarından istifadə bacarıqlarının artırılması üçün təlimlərin təşkili | Ədliyyə Nazirliyi | mütəmadi | |
| 4.5 | Nüfuzlu beynəlxalq hüquq təsisatları ilə əməkdaşlığın və təcrübə mübadiləsinin daha da genişləndirilməsi | Ədliyyə Nazirliyi, Xarici İşlər Nazirliyi | mütəmadi | |

| | | | | |
|---|---|---|---|---|
| 5. Penitensiar Xidmətin fəaliyyətinin müasirləşdirilməsi və infrastrukturunun yaxşılaşdırılması | | | | |
| 5.1 | Azadlıqdan məhrum edilmiş şəxslərin ictimai faydalı əməyə cəlb olunması məqsədilə cəzaçəkmə müəssisələrində mövcud istehsal sahələrinin bərpası və yeni sahələrin yaradılması | Nazirlər Kabineti, Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2009 - 2013 | |
| 5.2 | Məhkumların və barəsində həbs qətimkan tədbiri seçilmiş şəxslərin hüquqlarının qorunmasına, saxlanma şəraitinə, sanitariya və gigiyena, maddi-məişət təminatına nəzarətin təmin edilməsi məqsədilə ictimaiyyətin imkanlarından geniş istifadə edilməsi | Ədliyyə Nazirliyi | 2009 - 2010 | |

| | | | | |
|---|---|---|---|---|
| 5.3 | Penitensiar müəssisələrdə saxlanılan məhkumların, habelə barəsində həbs qətimkan tədbiri seçilmiş şəxslərin qeydiyyatı və hərəkəti üzrə müasir elektron informasiya texnologiyaları tətbiq edilməklə məlumat-qeydiyyat bankını təkmilləşdirərək onun imkanlarının müasir tələblərə uyğun genişləndirilməsi | Ədliyyə Nazirliyi | 2009 - 2010 | |
| 5.4 | Məhkumların və barəsində həbs qətimkan tədbiri seçilmiş şəxslərin daşınmasının etibarlı mühafizəsi məqsədilə Penitensiar Xidmətin müasir xüsusi nəqliyyat və digər vasitələrlə təchiz edilməsi | Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi | 2009 - 2013 | Dövlət büdcəsi |

| | | | | |
|---|---|---|---|---|
| 5.5 | İnsan hüquqlarının müdafiəsi üzrə Azərbaycan Respublikasının Milli Fəaliyyət Planının, habelə Avropa Şurası və Avropa Komissiyasının, İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT) tövsiyələrinə, Avropa Penitensiar qaydalarının tələblərinə uyğun penitensiar müəssisələrdə saxlama şəraitinin yaxşılaşdırılması | Ədliyyə Nazirliyi | mütəmadi | |
| 5.6 | Penitensiar Xidmətin müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, etibarlı mühafizənin təmin edilməsində müasir texniki nəzarət və kommunikasiya sistemlərindən istifadə edilməsi | Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi | 2009 - 2013 | Dövlət büdcəsi |
| 5.7 | İstintaq təcridxanalarının və cəzaçəkmə müəssisələrinin beynəlxalq standartlara uyğunlaşdırılması | Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi | 2009 - 2010 | Dövlət büdcəsi |

| | | | | |
|---|---|---|---|---|
| 5.8 | Penitensiar Xidmət əməkdaşlarının praktiki vərdişlərinin və fiziki hazırlığının inkişaf etdirilməsi məqsədilə müvafiq infrastrukturun yaradılması | Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi | 2009 - 2011 | Dövlət büdcəsi |
| | 6. Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi və infrastrukturunun yaxşılaşdırılması | | | |
| 6.1 | Məhkəmələrin fəaliyyətini tənzimləyən normativ hüquqi aktlar külliyyatının və onların şərhinə dair vəsaitlərin hazırlanması | Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi | 2009 - 2013 | Dövlət büdcəsi və beynəlxalq təşkilatların ayırdığı vəsaitlər |
| 6.2 | «Ədliyyə sisteminin müasirləşdirilməsi» layihəsi çərçivəsində məhkəmə fəaliyyətində, o cümlədən işlərin qeydiyyatı və hərəkətində, məhkəmə proseslərinin aparılmasında yeni texnologiyaların tətbiq edilməsi | Ədliyyə Nazirliyi | mütəmadi | Dövlət büdcəsi və beynəlxalq təşkilatların ayırdığı vəsaitlər |

| | | | | |
|---|---|---|---|---|
| 6.3 | «Ədliyyə sisteminin müasirləşdirilməsi» layihəsi çərçivəsində məhkəmələrin maddi-texniki bazasının yaxşılaşdırılması və onlar üçün lazımi iş şəraitinin təmin edilməsi | Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi | 2009 - 2011 | Dövlət büdcəsi və beynəlxalq təşkilatların ayırdığı vəsaitlər |
| 6.4. | Yeni yaradılmış Bakı, Gəncə, Sumqayıt, Şirvan və Şəki apellyasiya məhkəmələrinin inzibati binalarla təmin edilməsi | Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi, şəhər və rayon icra hakimiyyətləri | 2009 - 2013 | Dövlət büdcəsi |

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**

*Bakı şəhəri, 6 fevral 2009-cu il*
**№ 132**

*«Azərbaycan» qəzetində dərc edilmişdir*
*(10 fevral 2009-cu il, № 31)*

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİ

## HAKİMLƏRƏ MÜALİCƏ OLUNMAQ ÜÇÜN PUL TƏMİNATININ VERİLMƏSİ QAYDASININ TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

### Qərar № 142

«Konstitusiya Məhkəməsi haqqında» və «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikası Qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» Azər--baycan Respublikası Prezidentinin 2001-ci il 8 may tarixli 483 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. «Hakimlərə müalicə olunmaq üçün pul təminatının verilməsi Qaydası» təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi 1 ay müddətində «Hakimlərə müalicə olunmaq üçün pul təminatının verilməsi Qaydası»nın 3-cü bəndində nəzərdə tutulan hakimlərə onların müalicə olunmaları üçün pul təminatının verilməsi barədə ərizənin nümunəvi formasını təsdiq etsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri**
**A.RASİ-ZADƏ**

*Bakı şəhəri, 27 avqust 2001-ci il*

«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 avqust 2001-ci il, № 8, maddə 565)

7 oktyabr 2002-ci il tarixli, 152 nömrəli; 13 may 2005-ci il tarixli, 88 nömrəli; 15 mart 2006-cı il tarixli, 82 nömrəli qərarlara əsasən dəyişikliklər və əlavələrlə.

**Azərbaycan Respublikası**
**Nazirlər Kabinetinin**
**2001-ci il 27 avqust tarixli**
**142 nömrəli qərarı ilə**
**təsdiq edilmişdir.**

# HAKİMLƏRƏ MÜALİCƏ OLUNMAQ ÜÇÜN PUL TƏMİNATININ VERİLMƏSİ QAYDASI

1. Bu Qayda Azərbaycan Respublikasında hakimlərə onların müalicə olunmaları üçün pul təminatının verilməsi qaydasını müəyyən edir.

2. Hakimlərə müalicə olunmaları üçün qanunvericiliklə müəyyən edilmiş məbləğdə pul təminatı verilir.

3. Bu Qayda ilə nəzərdə tutulan pul təminatı müalicə ediləcək və ya müalicə edilən hakimin (müstəsna hallarda isə onların qanuni nümayəndəsinin) ərizəsi əsasında verilir.

4. Pul təminatı almaq üçün hakimlərin ərizəsi aşağıdakı qaydada təqdim edilir:

▪ Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimləri - Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədrinə;

▪ Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri – Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrinə;

▪ apellyasiya məhkəmələrinin hakimləri - müvafiq apellyasiya məhkəməsinin sədrinə;

▪ Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimləri – Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədrinə;

▪ Digər məhkəmələrin hakimləri – Azərbaycan Respublikasının ədliyyə nazirinə və ya Naxçıvan Muxtar Respublikasının ədliyyə nazirinə.

▪ Azərbaycan Respublikası Ali Məhkəməsinin, apellyasiya məhkəmələrinin , Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədrlərinə pul təminatının verilməsi məsələsi bu Qaydaya uyğun olaraq onların müavinləri tərəfindən həyata keçirilir.

5. Pul təminatının verilməsi barədə ərizəyə aşağıdakı sənədlərdən biri əlavə edilir:

▪ müalicə müəssisələri (həkim) tərəfindən verilən müalicə olunmaq zərurəti barədə arayış və ya müvafiq müalicə, sanatoriya-kurort müəssisəsinə göndəriş:

▪ müalicə müəssisələri (həkim) tərəfindən verilən əmək qabiliyyətinin müvəqqəti itirilməsi barədə xəstəlik vərəqəsi;

▪ sanatoriya-kurort müəssisəsinə putyovka;

▪ qanunvericiliklə müəyyən edilmiş digər sənədlər.

Bu bənddə göstərilən sənəd təqdim edilmədikdə, pul təminatının verilməsindən imtina edilir.

6. Pul təminatının verilməsi barədə ərizəyə qanunvericiliklə müəyyən edilmiş müddətdə baxılır. Təxirəsalınmaz

hallarda həmin ərizəyə dərhal baxıla bilər. Pul təminatının verilməsi məsələsi müsbət həll edildikdə, bu Qaydanın 4-cü bəndində göstərilən məhkəmələrin və ya Ədliyyə Nazirliyinin müvafiq struktur bölməsi tərəfindən beş bank günü müddətində həmin vəsait hakimə (qanuni nümayəndəsinə) nağd və ya köçürmə yolu ilə ödənilir.

Hakim bu Qaydada nəzərdə tutulan pul təminatını müalicəyə başlayanadək, müalicənin gedişində və ya müalicəni bitirdikdən sonra ala bilər.

7. Bir təqvim ili ərzində hakimə onun müalicə olunması üçün pul təminatı bir dəfə verilə bilər.

8. Pul təminatı hakimə (qanuni nümayəndəsinə) müalicənin nəticəsindən asılı olmayaraq verilir.

9. Bu Qaydada nəzərdə tutulan məqsədlər üçün verilən pul təminatı Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə, Azərbaycan Respublikasının Ali Məhkəməsinə, apellyasiya məhkəmələrinə , Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə və Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə dövlət büdcəsindən ayrılmış vəsait hesabına ödənilir.

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ MÜDAFİƏÇİLƏRƏ, TƏRCÜMƏÇİLƏRƏ, MÜTƏXƏSSİSLƏRƏ VƏ EKSPERTLƏRƏ ÖDƏNİLMƏLİ OLAN MƏBLƏĞLƏRİN MİQDARİ HAQQINDA

## QƏRAR № 31

*Bakı şəhəri, 1 fevral 2001-ci il*

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə» 2000-ci il 25 avqust tarixli, 387 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 193.2 və 193.4-cü maddələrində nəzərdə tutulmuş hallarda hüquqi yardımın göstərilməsinə görə müdafiəçiyə ödənilən haqq hər iş saatı üçün şərti maliyyə vahidinin 0,9 misli miqdarında müəyyən edilsin.

2. Cinayət mühakimə icraatı zamanı tərcüməçi tərəfindən görülən işin haqqı bu iş cinayət prosesini həyata keçirən orqanın tələbi ilə yerinə yetirildikdə, hər iş saatı üçün şərti

maliyyə vahidinin 0,3 misli həddində müəyyən edilsin.

3. Cinayət mühakimə icraatı zamanı mütəxəssis və ya ekspert tərəfindən görülən işin haqqı bu iş cinayət prosesini həyata keçirən orqanın tələbi ilə yerinə yetirildikdə, hər iş saatı üçün şərti maliyyə vahidinin 0,3 misli həddində müəyyən edilsin.

4. Bu qərarla müəyyən edilən məbləğlər müdafiəçinin təqdim etdiyi hesabata müvafiq olaraq məhkəmənin əsaslandırılmış qərarı əsasında bu məhkəmənin yerləşdiyi ərazinin maliyyə orqanları tərəfindən dövlət büdcəsində həmin məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına vəkillərin müvafiq ərazi qurumu hesabına ödənilir.

5. Bu qərarın 1-ci və 4-cü bəndləri Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 376.3-cü maddəsində nəzərdə tutulmuş, həmçinin mülki mühakimə icraatı zamanı kassasiya instansiyası məhkəməsində, məhkəmə aktlarından əlavə kassasiya qaydasında, yeni açılmış hallar üzrə işə yenidən baxıldıqda işdə iştirak edən aztəminatlı şəxslərə vəkil tərəfindən göstərilən hüquqi yardım hallarına da şamil edilir.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Ədliyyə Nazirliyi ilə birlikdə icraatında inzibati xəta haqqında iş olan hakimin yanına, səlahiyyətli orqana (vəzifəli şəxsin yanına) gəlməklə əlaqədar olaraq zərər çəkənlərin, şahidlərin, ekspertlərin, mütəxəssislərin, tərcüməçilərin və hal şahidlərinin çəkdikləri xərclərin ödənilməsi qaydasını iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü

il 8 iyul tarixli, 264 nömrəli qərarının 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

8. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri**
**A.RASİ-ZADƏ**

*Bakı şəhəri, 1 fevral 2001-ci il*

*9 iyul 2001-ci il tarixli, 123 nömrəli; 27 sentyabr 2002-ci il tarixli, 150 nömrəli; 29 iyun 2005-ci il tarixli, 123 nömrəli; 9 avqust 2006-cı il tarixli, 191 nömrəli qərarlara əsasən əlavələr və dəyişikliklərlə.*

**Azərbaycan Respublikası**
**Məhkəmə-Hüquq Şurasının**
**11 mart 2005-ci il tarixli qərarı**
**ilə təsdiq edilmişdir**

# VAKANT HAKİM VƏZİFƏLƏRİNƏ HAKİM OLMAYAN NAMİZƏDLƏRİN SEÇİLMƏSİ

# Q A Y D A L A R I

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinə, Məhkəmələr və hakimlər haqqında və Məhkəmə-Hüquq Şurası haqqında Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Qaydalar Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinin birinci hissəsinin və Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikası Qanununun 93-cü maddəsinin ikinci hissəsinin tələblərinə cavab verən hakim olmayan namizədlərin (bundan sonra - namizədlər) vakant hakim vəzifələrinə seçilməsi prosedurlarını müəyyən edir.

## 2. Vakant hakim vəzifələrinə namizədlərin seçilməsi

2.1. Namizəd imtahan keçirilən auditoriyada "İmtahana buraxılış vərəqəsi"ndə göstərilən sırada və yerdə oturduqdan sonra nəzarətçinin izahatını diqqətlə dinləməlidir. Aydın olmadıqda nəzarətçiyə müraciət etmək olar.

2.2. Vakant hakim vəzifəsinə namizədlərin seçilməsi

namizədlərin bilik səviyyəsini, peşə hazırlığını, ümumi dünyagörüşünü, hakim vəzifəsinə yararlı və layiqli olmasını müəyyən etmək məqsədi ilə şəffaf surətdə yazılı və şifahi imtahanlar, ilkin uzunmüddətli tədris kursları (hakimlər üçün baza təhsili) və yekun müsahibə yolu ilə həyata keçirilir.

2.3. İmtahanların nəticələri Hakimlərin Seçki Komitəsi tərəfindən qiymətləndirilir. Hakimlərin Seçki Komitəsi bu işə öz tərkibindən formalaşdırdığı ad hoc komissiyanı cəlb edə bilər. İmtahan zamanı ad hoc komissiyanın üzvləri Hakimlərin Seçki Komitəsi üzvünün bütün hüquq və vəzifələrinə malik olurlar.

2.4. Namizədlə yaxın qohumluq və ya şəxsi münasibətdə olan, habelə onun qərəzliliyinə əsas verə bilən hallar olduqda Hakimlərin Seçki Komitəsinin üzvü həmin namizədlə aparılan imtahanda və ya müsahibədə iştirak etmir. Bu əsaslar olduqda namizəd imtahan başlanmazdan ən geci 1 gün əvvəl Komitə üzvlərinin hər hansı birinə etiraz edə bilər. Etiraza Hakimlərin Seçki Komitəsinin iclasında baxılır.

2.5. Yazılı və şifahi imtahanlardan müvəffəqiyyətlə keçən namizədlər avtomatik şəkildə uzunmüddətli təlim mərhələsinə keçirilirlər. Təlim mərhələsi tədris müəssisəsində təşkil olunur.

2.6. Təlim mərhələsi başa çatdıqdan sonra hər bir namizəd qiymətləndirilir. Namizədin qiymətləndirilməsi tədrisin yekunları və namizədin Hakimlərin Seçki Komitəsi üzvləri ilə yekun müsahibənin əsasında həyata keçirilir.

2.7. Namizədlərin qiymətləndirilməsi bal sistemi ilə aparılır. Namizədlər Hakimlərin Seçki Komitəsi tərəfindən topladıqları ballara uyğun sıralanırlar.

2.8. Namizədlərin qiymətləndirilməsinin nəticələri və ixtisaslaşdırılması haqqında rəylər (mülahizələr) Məhkəmə-Hüquq Şurasına təqdim olunur. Məhkəmə-Hüquq Şurası hakim vəzifəsinə seçilmiş namizədlər barəsində Hakimlərin Seçki Komitəsinin təkliflərinə baxır, onların seçilməsində qanunvericiliyin və bu Əsasnamənin tələblərinə əməl olunmasını aydınlaşdırır və namizədlərlə söhbət aparır.

2.9. Söhbətin nəticələrinə və Hakimlərin Seçki Komitəsinin müvafiq rəyinə (mülahizəsinə) əsaslanaraq Məhkəmə-Hüquq Şurası namizədlərin ixtisaslaşdırılmasını aparır və hakim vəzifəsini tutmaq üçün müəyyən etdiyi minimum və daha çox bal toplamış namizədlərin vakant hakim vəzifələrinin sayına uyğun olaraq hakim vəzifəsinə təyin edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir.

**3. Yazılı və şifahi imtahanlar**

3.1. Hakimlərin Seçki Komitəsi vakant hakim vəzifələrini tutmaq istəyən şəxslərdən ərizələrin qəbulunun başlanma tarixini və son müddətini, bu şəxslər tərəfindən təqdim edilməli olan sənədlərin siyahısını, imtahan suallarının annotasiyasını (imtahan suallarının əhatə etdiyi sahələr barədə məlumat), onların tərtibində istifadə edilmiş qanunların və digər normativ-hüquqi aktların siyahısını, habelə vakant hakim vəzifələrinə namizədlərin seçilməsi ilə bağlı başqa məlumatları mütəmadi olaraq kütləvi informasiya vasitələrində və internetdə dərc edir.

3.2. Yazılı və şifahi imtahanlarda iştirak etmək arzusunda olan, Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinin birinci hissəsinin və Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikası Qanununun

93-cü maddəsinin ikinci hissəsinin tələblərinə cavab verən hüquqşünaslar Hakimlərin Seçki Komitəsinə aşağıdakı sənədləri təqdim edirlər:

3.2.1. Hakimlərin Seçki Komitəsinə ərizə;

3.2.2. şəxsiyyət vəsiqəsi və onun surəti;

3.2.3. kadrların şəxsi uçot vərəqəsi;

3.2.4. tərcümeyi-hal;

3.2.5. ali təhsil haqqında sənəd (diplom) və onun surəti;

3.2.6. əmək kitabçasının təsdiq edilmiş (notarial və yaxud kadrlar şöbəsində) surəti;

3.2.7. fiziki və əqli cəhətdən sağlamlıq barədə tibbi arayış;

3.2.8. 4x6 ölçüdə 4 ədəd fotoşəkil.

3.3. Surətləri ilə müqayisə edildikdən sonra şəxsiyyət vəsiqəsi və ali təhsil haqqında sənəd (diplom) geri qaytarılır.

3.4. Ərizələrin qəbulu müddəti başa çatdıqdan sonra təqdim olunan sənədlər (göstərilən müddət üçün poçtla göndərilən sənədlər istisna olmaqla) qəbul edilmir.

3.5. Sənədlərin qəbulu Məhkəmə-Hüquq Şurasının Aparatı tərəfindən aparılır.

3.6. Məhkəmə-Hüquq Şurasının Aparatı sənədlərin tamlığını, düzgünlüyünü və qanunvericiliklə müəyyən edilmiş şərtlərə uyğunluğunu yoxlayır və sənədləri ərizələrin qəbulu jurnalında qeydiyyata alır.

3.7. Natamam və ya bu qaydalara uyğun olmayan sənədlər qəbul edilmir və ərizəçiyə aşkar olunmuş çatışmazlıqlar izah olunur. Qəbul edilmiş sənədlərdə sonradan uyğunsuzluq aşkarlanarsa, sənədlər əsaslandırılmış cavabla geri qaytarılır. Çatışmazlıqlar aradan qaldırıldıqdan sonra sənədlər ərizələrin

qəbulu üçün müəyyən edilmiş müddət çərçivəsində yenidən təqdim oluna bilər.

3.8. Təqdim edilmiş sənədlər bu Qaydaların tələblərinə uyğun olduqda namizəd ümumi siyahıya salınır, ona sənədlərin qəbulu barədə qəbz və Hakim vəzifəsinə namizədin yaddaş kitabçası verilir. Yaddaş kitabçasında yazılı və şifahi imtahanların, təlim mərhələsinin və yekun müsahibənin prosedur məsələləri, habelə vakant hakim vəzifəsinə namizədlərin seçilməsi ilə bağlı digər zəruri məlumatlar əks etdirilir.

3.9. Qeydiyyata alınmış hər bir namizədə şəxsi eyniləşdirmə kodu verilir. Şəxsi eyniləşdirmə kodu rəqəmlə ifadə olunur və namizədin sənədlərinin anonimliyinin qorunmasına xidmət edir.

3.10. Yazılı imtahana 2 gün qalmış hər bir namizədə İmtahana buraxılış vərəqəsi verilir. Bu sənədə namizədin fotoşəkli yapışdırılır. İmtahana buraxılış vərəqəsində habelə namizədin şəxsi eyniləşdirmə kodu, imtahan keçirilən ünvan, tarix, saat, auditoriyanın nömrəsi, auditoriyadakı sıra və yer nömrəsi göstərilir.

3.11. Yazılı imtahanda yalnız şəxsi eyniləşdirmə kodundan istifadə olunur. İmtahana buraxılış vərəqəsinə namizədin adının, soyadının və şəxsiyyətini müəyyən edən digər məlumatların yazılmasına yol verilmir. Bu qaydanı pozmuş namizəd imtahandan kənarlaşdırılır.

3.12. Namizədlər İmtahana buraxılış vərəqəsini və şəxsiyyət vəsiqəsini mütləq imtahana gətirməlidirlər. Göstərilən sənədlərin biri olmadıqda namizəd imtahana buraxılmır. İmtahana buraxılış vərəqəsini itirmiş yaxud

həmin sənədə düzəliş etmiş şəxs imtahana buraxılmır və ona yeni İmtahana buraxılış vərəqəsi verilmir.

3.13. İmtahanlar qabaqcadan təyin olunmuş tarixdə Hakimlərin Seçki Komitəsi tərəfindən keçirilir.

3.14. Yazılı imtahanın keçirilməsini təmin etmək məqsədi ilə Hakimlərin Seçki Komitəsi tərəfindən imtahan rəhbəri və imtahan nəzarətçiləri təyin olunurlar. İmtahan nəzarətçilərinin sayı hər auditoriya üzrə ən azı iki nəfər olmalıdır.

3.15. Namizəd yazılı imtahanın keçirilmə qaydalarını pozduqda, yəni saxta sənədlər təqdim etdikdə, köçürməyə yol verdikdə, imtahana rabitə vasitəsi gətirdikdə, imtahana öz yerinə başqasını göndərdikdə yaxud imtahanın keçirilmə qaydalarına zidd digər hərəkətlərə yol verdikdə imtahanın rəhbəri və nəzarətçi bu barədə akt tərtib edir və namizəd imtahandan kənarlaşdırılır. Müvafiq pozuntular imtahan başa çatdıqdan sonra aşkar edilərsə, namizədin nəticələri Hakimlərin Seçki Komitəsi tərəfindən ləğv edilir.

3.16. Yazılı imtahanda yol verilməyən hərəkətlər, habelə yazılı imtahana gətirilməsi qadağan edilən əşyaların siyahısı Hakimlərin Seçki Komitəsi tərəfindən təsdiq edilir və Hakim vəzifəsinə namizədin yaddaş kitabçasına daxil edilir.

3.17. İmtahanların şəffaflığının təmin edilməsi məqsədilə Hakimlərin Seçki Komitəsi beynəlxalq, habelə hökumət və qeyri-hökumət təşkilatlarını, kütləvi informasiya vasitələrini imtahanları müşahidə etməyə dəvət edir. Dəvət olunmuş və ya imtahanları müşahidə etmək təşəbbüsü ilə müraciət etmiş təşkilatlar və kütləvi informasiya vasitələri öz nümayəndələrinin siyahılarını yazılı imtahana ən geci 7 gün qalmış Hakimlərin Seçki Komitəsinə təqdim edirlər. Təqdim

edilmiş nümayəndələr Komitə tərəfindən akkreditə olunurlar.

3.18. Müşahidəçilər tərəfindən imtahanın gedişinə müdaxilə edilməsi, habelə namizədlərin fikrinin yayındırılması və onların imtahan prosesindən ayrılması yol verilməzdir. Müşahidəçilər belə hərəkətlərə yol verərlərsə, namizədlər bu faktı imtahan rəhbərinin nəzərinə çatdıra bilərlər.

3.19. Yazılı imtahan çox seçimli sual vərəqəsi üzrə idarə olunan elektron-hesablayıcı maşın (kompüter) vasitəsilə həyata keçirilən və bu Qaydaların 3.37-cı və 3.38-ci bəndlərində nəzərdə tutulmuş prosedurlarla seçilmiş inşa mövzuları üzrə aparılan yazılı sınaq fazalarından ibarət olmaqla təşkil edilir.

3.20. Yazılı imtahanın birinci fazasının sualları konfidensiallıq gözlənilməklə Hakimlərin Seçki Komitəsi tərəfindən tərtib edilir. Komitə suallar toplusunun tərtib edilməsinə hüquq sahəsi və digər sahələr üzrə mütəxəssislər cəlb edə bilər. Hazırlanmış suallar toplusunda sualların sayı imtahanda istifadə ediləcək sualların sayından azı 10 dəfə çox olmalıdır.

3.21. Elektron-hesablayıcı maşın (kompüter) vasitəsilə həyata keçirilən yazılı imtahanın sual vərəqəsi 100 sualdan ibarət olur və imtahan 4 saat müddətində keçirilir.

3.22. Yazılı imtahanın birinci fazasının suallarının hazırlanması imtahana ən azı 3 gün qalmış başa çatdırılmalıdır. Suallar toplusuna Hakimlərin Seçki Komitəsinin qapalı iclasında baxılıb təsdiq edildikdən sonra həmin suallar toplusu zərfə qoyulub möhürlənməklə xüsusi yerdə saxlanılır.

3.23. Hakimlərin Seçki Komitəsi həmçinin yazılı imtahanın

birinci fazasının suallar toplusuna dair düzgün cavabların konfidensial siyahısını tərtib edir. Siyahı Hakimlərin Seçki Komitəsinin üzvləri tərəfindən imzalanır, ayrıca zərfə qoyularaq möhürlənir və Komitədə xüsusi yerdə saxlanılır.

3.24. Namizəd imtahanın başlanmasına azı bir saat qalmış imtahan verəcəyi binanın qarşısına gəlməli (ünvan İmtahana buraxılış vərəqəsində göstərilir), binanın girişində İmtahana buraxılış vərəqəsini və şəxsiyyət vəsiqəsini mühafizə işçisinə təqdim edib binaya daxil olmalı və İmtahana buraxılış vərəqəsində göstərilən auditoriyada öz yerini tutmalıdır. Hər parta arxasında bir namizəd əyləşir.

3.25. Yazılı imtahan bir auditoriyada keçirilir. Bu mümkün olmadıqda şəffaflığın təmin edilməsi məqsədilə imtahan prosesi digər auditoriyalara random (təsadufi görüntü) rejimində birbaşa (canlı) video translyasiya olunur.

3.26. Yazılı imtahanın birinci fazasının sualları bilavasitə imtahan başlamazdan əvvəl, imtahan keçirilən auditoriyaların birində aşkar surətdə ümumi suallar toplusundan seçilir. Bunun üçün suallar toplusu olan zərf müşahidəçilərin iştirakı ilə açılır və elektron hesablayıcı maşına (kompüterə) daxil edilir. Elektron hesablayıcı maşın (kompüter) verilmiş proqrama uyğun olaraq ümumi sual bankından 100 sual seçir. Seçilmiş suallar yerindəcə, bu mümkün olmazsa, seçilmiş sualların nəzarət nüsxəsi namizədlərin gözü qarşısında konfidensial saxlanılmaqla qısa müddətdə müvafiq mətbəədə namizədlərin sayına uyğun olaraq çoxaldılır və imtahan verənlərə ötürülmək üçün imtahan rəhbərinə verilir. Sualların seçilməsi və çoxaldılması imtahan keçirilən auditoriyaların birində həyata keçirildikdə bu prosedur imtahan keçirilən digər auditoriyalara birbaşa (canlı) video translyasiya ol-

unur.

3.27. Suallar seçildikdən sonra imtahan rəhbəri nəzarətçi və müşahidəçi ilə birlikdə cavab kartı zərfinin möhürünü açır, cavab kartını namizədlərə paylayır və onun doldurulması qaydalarını izah edir. Daha sonra namizədlərə sual kitabçaları paylanır.

3.28. Hər auditoriyada imtahanın başlanma vaxtı sual kitabçası paylanıb qurtardığı andan hesablanır.

3.29. Cavab kartında düzgün cavabın yerləşdiyi hərfli dairə qara və ya tünd göy rəngdə yazan diyircəkli qələmlə doldurulmalıdır. Korlanmış cavab kartı dəyişdirilmir. Bir suala aid olan bir neçə dairə qaralanarsa, həmin cavab etibarsız sayılır və ümumi nəticəyə hesablanmır. Cavab kartı onu doldurmuş şəxs tərəfindən imzalanır.

3.30. İmtahan qurtardıqdan sonra namizəd doldurduğu cavab kartını imtahan nəzarətçilərinə təhvil verir və auditoriyanı tərk edir.

3.31. İmtahanın başa çatması barədə protokol tərtib edilir. Protokol nəzarətçilər və iki nəfər namizəd tərəfindən imzalanır. Protokol və cavab kartları zərfə qoyulur, möhürlənir, imtahan rəhbərinə verilir. İmtahan rəhbəri möhürlənmiş zərfi Hakimlərin Seçki Komitəsinin sədrinə təqdim edir.

3.32. Cavab kartlarının yoxlanılmasını Hakimlərin Seçki Komitəsi həyata keçirir.

3.33. Çox seçimli sual vərəqəsi üzrə yazılı imtahanın cavab kartlarının yoxlanılması və balların hesablanması müvafiq mütəxəssislər cəlb edilməklə avtomatlaşdırılmış rejimdə elektron hesablayıcı maşınlar (kompüterlər) vasitəsilə həyata keçirilir. Bunun üçün möhürlənmiş cavab kartları və

imtahan suallarına düzgün cavabların siyahısı cəlb edilmiş mütəxəssislərə təqdim edilir.

3.34. Hər bir imtahan sualına düzgün cavab 1 balla qiymətləndirilir (cəmi 100 mümkün bal). Səhv cavablar və ya sualın cavabsız qoyulması 0 bala bərabər tutulur.

3.35. Cavab kartlarının yoxlanılması başa çatdıqdan sonra imtahanın nəticələri cavab kartları ilə birlikdə Hakimlərin Seçki Komitəsinə təqdim edilir.

3.36. Yazılı imtahanın birinci fazasının yekununa görə 60 və ya daha çox bal toplamış namizədlər yazılı imtahanın ikinci fazasına buraxılırlar. Yazılı imtahanın ikinci fazasına buraxılmış namizədlərin siyahısı kütləvi informasiya vasitələrində və internetdə dərc edilir.

3.37. Yazılı imtahanın ikinci fazası Məhkəmə-Hüquq Şurasının toplaşaraq Hakimlərin Seçki Komitəsi tərəfindən yazılı imtahana təqdim edilməli olan inşa mövzularının sayının müəyyən edilməsi ilə başlayır. İnşa mövzularının sayı cinayət, cinayət prosessual, mülki, mülki prossesual qanunvericiliyi bərabər əhatə etmək şərti ilə cüt rəqəmlə ifadə olunmalıdır. Məhkəmə-Hüquq Şurasının iclasından sonra Şuranın üzvlərindən biri qəbul edilmiş qərarı dərhal imtahan verilən auditoriyaya yaxın otaqda keçirilən Hakimlərin Seçki Komitəsinin qapalı iclasında açıqlayır (imtahan bir neçə auditoriyada keçirildikdə Komitənin iclası inşa mövzularının seçiləcəyi auditoriyaya yaxın otaqda təşkil edilir). Bundan sonra Komitə üzvləri həmin iclasda 2 saat ərzində Şura tərəfindən müəyyən edilmiş sayda inşa mövzuları hazırlayırlar. Həmin inşa mövzuları Hakimlərin Seçki Komitəsinin yekdil qərarı ilə təsdiq edilir.

3.38. İnşa mövzuları təsdiq edildikdən sonra Hakimlərin Seçki Komitəsinin üzvləri həmin inşa mövzuları ilə birlikdə, kənar şəxslərlə ünsiyyətə yol verməmək şərti ilə imtahan keçirilən auditoriyaya daxil olurlar. Burada inşa mövzuları cinayət hüquqi və mülki hüquqi sahələr üzrə differensiasiya edilir və onların içindən namizədlərin biri püşk yolu ilə hər sahəyə aid bir inşa mövzusu seçir. Seçilmiş inşa mövzuları elan edilir və inşa mövzularının işlənilməsi üçün namizədlərə 4 saat vaxt verilir. İmtahan bir neçə auditoriyada təşkil edildikdə inşa mövzularının seçilməsi və elan edilməsi proseduru imtahan keçirilən digər auditoriyalara birbaşa (canlı) video translyasiya olunur. Namizədlər inşa mövzularını ifadə edərkən müvafiq qanunun məzmununu mümkün qədər dolğun çatdırmaq və onun izahını vermək bacarıqlarını nümayiş etdirməli, qanunun konsepsiyasını ifadə edə bilməlidirlər. İnşa mövzularının ifadə edilməsinə dair izahatlar və inşaların qiymətləndirilməsi zamanı diqqət yetiriləcək məqamlar Hakim vəzifəsinə namizədin yaddaş kitabçasında əks etdirilir. Yazılı imtahan işləri ikiqat yoxlama üsulu ilə Hakimlərin Seçki Komitəsinin üzvləri və dəvət olunmuş mütəxəssislər tərəfindən yoxlanılır. Ümumi nəticə hər iki yoxlama yekununda verilmiş balların toplanması və 2-yə bölünməsi yolu ilə müəyyən edilir.

3.39. Yazılı imtahanın ikinci fazasında hər bir inşa mövzusu ən çoxu 100 bal ilə qiymətləndirilir. Hər inşa mövzusuna görə 60 və ya daha çox bal toplamış namizəd yazılı imtahanın bu fazasından keçmiş hesab edilir.

3.40. Yazılı imtahanın nəticələri kütləvi informasiya vasitələrində və internetdə dərc edilir.

3.41. Hər namizədə onun tələbi ilə imtahanın nəticəsi üzrə

arayış verilir.

3.42. Hakimlərin Seçki Komitəsi seçki prosesi ilə bağlı aidiyyəti sənədlərin qanunvericiliklə müəyyən edilmiş müddətdə saxlanılmasını təmin edir.

3.43. İmtahan nəticələrindən narazı qalan namizəd bu barədə nəticənin ona elan olunduğu vaxtdan 5 gün müddətində mübahisəyə aydınlıq gətirilməsi üçün Hakimlərin Seçki Komitəsinə müraciət edə bilər. Məsələ ərizəçinin iştirakı ilə araşdırılır. Bu müddəa namizədi ümumi qaydada şikayət etmək hüququndan məhrum etmir.

3.44. Cavab kartı düzgün qiymətləndirildikdə ərizəçiyə əsaslandırılmış rəsmi cavab verilir. Balların düzgün hesablanmadığı aşkar edildikdə yenidən hesablanma aparılır.

3.45. Hakimlərin Seçki Komitəsinin qərarlarından Məhkəmə-Hüquq Şurasına şikayət verilə bilər. Məhkəmə-Hüquq Şurası həmin şikayətlərə Məhkəmə-Hüquq Şurası haqqında Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada baxır.

3.46. Şifahi imtahan barədə namizədlər Məhkəmə-Hüquq Şurasının Aparatı tərəfindən 5 gün əvvəl xəbərdar edilir və imtahanın keçirildiyi yer, tarix və vaxt barədə onlara məlumat verilir.

3.47. Şifahi imtahanda hüquq sahəsinə aid, habelə namizədlərin məntiqi nəticələr çıxarmaq qabiliyyətini, ümumi dünyagörüşünü və bilik səviyyəsini müəyyən edən suallar verilir.

3.48. Şifahi imtahan açıq, hər bir namizədlə fərdi qaydada söhbət formasında, bir qayda olaraq 30 dəqiqəyədək aparılır. Şifahi imtahan zamanı hər namizədə 5 sual verilir.

3.49. Hakimlərin Seçki Komitəsinin üzvləri namizədin

cavabları ilə bağlı fikir mübadiləsi apara bilərlər.

3.50. Namizədə verilən suallar və bu suallara namizədin cavabları Komitə üzvləri tərəfindən bal cədvəlinə yazılır və qiymətləndirilərək Hakimlərin Seçki Komitəsinin sədrinə təqdim edilir.

3.51. Namizədlərin cavabları hər bir sual üzrə 20 ballıq şkala ilə qiymətləndirilir və hər bir namizəd ən çoxu 100 bal toplaya bilər. 60 və ya daha çox bal toplamış namizəd şifahi imtahandan keçmiş hesab olunur.

3.52. Şifahi imtahanı müşahidə etməyə gələnlər özləri ilə şəxsiyyətlərini təsdiq edən sənəd gətirməlidirlər. İmtahan vermiş namizəd şifahi imtahanı dinləyici kimi izləyə bilər. Bu zaman imtahanın keçirilməsinə mane olmaq yolverilməzdir.

**4. Təlim mərhələsi və yekun müsahibə**

4.1 Yazılı və şifahi imtahandan müvəffəqiyyətlə keçmiş namizədlər tədris müəssisəsində təşkil olunan ilkin uzunmüddətli tədris kurslarına göndərilirlər. Tədris kurslarının müddəti Hakimlərin Seçki Komitəsi tərəfindən müəyyən edilir.

4.2. İmtahanlardan müvəffəqiyyətlə keçmiş və tədris kurslarına göndərilən namizədlərin siyahısı kütləvi informasiya vasitələrində və internetdə dərc edilir.

4.3. Namizədlər üçün tədris proqramı Hakimlərin Seçki Komitəsi və tədris müəssisəsi tərəfindən hazırlanır və Məhkəmə-Hüquq Şurası ilə razılaşdırılmaqla Komitə tərəfindən təsdiq edilir.

4.4. Tədris kursları başa çatdıqdan sonra tədris müəssisəsi tərəfindən təlim mərhələsinin nəticələri (namizədlərin

müvəffəqiyyət dərəcəsi, davamiyyəti, davranışı) Hakimlərin Seçki Komitəsinə təqdim edilir.

4.5. Tədrisin yekunları üzrə hər bir namizəd yazılı və şifahi imtahan verir. Bu imtahanlar namizədin qanunvericiliyin normalarını təhlil etmək, müəyyən qanunun müddəalarının yazılı şərhini vermək yaxud hüquqi kazus üzrə məhkəmə qərarının layihəsini tərtib etmək qabiliyyətinin müəyyən edilməsinə xidmət etməlidir.

4.6. Tədrisin yekunları üzrə imtahanlar Hakimlərin Seçki Komitəsi tərəfindən tədris müəssisəsi ilə birlikdə keçirilir. Komitə bu işə hüquq sahəsi üzrə mütəxəssislər cəlb edə bilər.

4.7. Tədrisin yekunu üzrə hər bir imtahan 100 ballıq şkala ilə qiymətləndirilir. Hər imtahandan 60 və ya daha çox bal toplamış namizəd təlim mərhələsini müvəffəqiyyətlə bitirmiş hesab edilir.

4.8. Tədrisin yekunları üzrə imtahanlardan müvəffəqiyyətlə keçmiş namizədlərlə yekun müsahibə Hakimlərin Seçki Komitəsi tərəfindən aparılır. Yekun müsahibə namizədlərin hakim işləmək üçün zəruri olan keyfiyyətlərə yiyələnməsini müəyyən etmək məqsədilə keçirilir.

4.9. Yekun müsahibə hər bir namizədlə fərdi qaydada və 1 saatadək aparılır. Hər namizədə 10 sual verilir. Hakimlərin Seçki Komitəsinin üzvü namizədə bir sualla müraciət edə bilər.

4.10. Hakimlərin Seçki Komitəsi üzvləri namizədin cavabları ilə bağlı fikir mübadiləsi apara bilərlər.

4.11. Namizədə verilən suallar və bu suallara namizədin cavabları Komitə üzvləri tərəfindən bal cədvəlinə yazılır və qiymətləndirilir. Yekun müsahibənin ümumi nəticəsi

Hakimlərin Seçki Komitəsinin sədrinə təqdim edilir.

4.12. Namizədlərin cavabları hər bir sual üzrə 10 ballıq şkala ilə qiymətləndirilir və hər bir namizəd ən çoxu 100 bal toplaya bilər. 60 və ya daha çox bal toplamış namizəd yekun müsahibədən keçmiş hesab olunur.

4.13. Yekun müsahibədən müvəffəqiyyətlə keçmiş namizəd Hakimlərin Seçki Komitəsi tərəfindən qiymətləndirilir.

4.14. Namizədin qiymətləndirilməsi tədrisin yekunları üzrə imtahanların və yekun müsahibə nəticəsində yığılmış balların toplanılması yolu ilə həyata keçirilir.

4.15. Namizədlər Hakimlərin Seçki Komitəsi tərəfindən qiymətləndirmə nəticəsində topladıqları ballara uyğun sıralanırlar.

**5. Namizədlərin təsnifatlaşdırılması və onların hakim vəzifəsinə təyin edilməsinə dair təklifin verilməsi**

5.1. Təlim mərhələsinin və yekun müsahibənin nəticələri əsasında Hakimlərin Seçki Komitəsi namizədlərin müvafiq məhkəmələrdə (ümumi və ya ixtisaslaşdırılmış) hakim vəzifəsinə uyğunluğuna dair rəy (mülahizə) tərtib edir.

5.2. Hakimlərin Seçki Komitəsi hakim vəzifəsinə seçilmiş namizədlərə dair Məhkəmə-Hüquq Şurasına təkliflər verir.

5.3. Hakim vəzifəsinə seçilmiş namizəd barəsində təklifdə aşağıdakı məlumatlar əks etdirilir:

5.3.1. adı, atasının adı, soyadı;

5.3.2. tərcümeyi-hal və xarakterizəedici məlumatlar;

5.3.3. ilkin tədrisin və yekun müsahibənin nəticələri;

5.3.4. hakim vəzifəsinə uyğunluğu barədə məlumat, o cümlədən ixtisaslaşdırma haqqında rəy (mülahizə).

5.4. Məhkəmə-Hüquq Şurası hakim vəzifəsinə seçilmiş

namizədlər barəsində Hakimlərin Seçki Komitəsinin təkliflərinə baxır, namizədlərin seçilməsində qanunvericiliyin və bu Əsasnamənin tələblərinə əməl olunmasını aydınlaşdırır və namizədlərlə söhbət aparır.

5.5. Söhbətin nəticələrinə və Hakimlərin Seçki Komitəsinin müvafiq rəyinə (mülahizəsinə) əsaslanaraq Məhkəmə-Hüquq Şurası namizədlərin ixtisaslaşdırılmasını aparır və mövcud vakant hakim vəzifələrinə təyin olunmaları məqsədilə onları Azərbaycan Respublikasının Prezidentinə təqdim edir.

5.6. Vakant hakim vəzifəsinə təyin edilmə haqqında təqdimatda namizəd barəsində aşağıdakı məlumatlar göstərilir:

5.6.1. adı, soyadı, atasının adı;

5.6.2. tərcümeyi-hal və xarakterizəedici məlumatlar;

5.6.3. ilkin tədrisin və yekun müsahibənin nəticələri;

5.6.4. hakim vəzifəsinə uyğunluğu barədə məlumat, o cümlədən ixtisaslaşdırma haqqında rəy;

5.6.5. təyin edilməsi təklif olunan vəzifə.

5.7. Məhkəmə-Hüquq Şurası tədris kurslarını bitirmiş və yekun müsahibədən uğurla keçmiş, lakin vakansiya olmadığına görə hakim vəzifəsinə təklif olunmamış namizədlərin ədliyyə orqanlarına inzibati vəzifəyə və ya prokurorluq orqanlarına prokurorluq işçisi kimi xidmətə qəbul edilməsini həmin orqanlara tövsiyə edə bilər. Qeyd edilən namizədlərin hakim vakansiyası yarandıqda həmin vəzifəyə təyin edilmələri bu Qaydaların 5.4-5.6-cı bəndlərinə müvafiq həyata keçirilir.

**Azərbaycan Respublikası**
**Məhkəmə-Hüquq Şurasının**
**22 iyun 2007-ci il tarixli qərarı ilə**
**təsdiq edilmişdir**

# HAKİMLƏRİN
# ETİK DAVRANIŞ KODEKSİ

Hakimlərin Etik Davranış Kodeksi (bundan sonra «Kodeks») hakimlik fəaliyyətinin etik prinsiplərinin və standartlarının toplusudur. Kodeks hakimlər üçün spesifik əxlaq və ədəb tələblərini, onların peşə etikası məsələlərini, iş fəaliyyətindən kənar davranışını nizamlayır, peşə fəaliyyətinə münasibətini müəyyən edir.

## I. Ümumi müddəalar

### Maddə 1.

Hakim bütün fəaliyyəti dövründə dövlətin, vətəndaşın və ədalət mühakiməsinin qarşısında onun məsuliyyətini təcəssüm etdirən hakim andına sadiq olmalı, səlahiyyətlərini həyata keçirərkən və xidmətdən kənar fəaliyyətində bu anda uyğun davranış nümayiş etdirməlidir.

### Maddə 2.

Hakim bütün hallarda Azərbaycan Respublikasının Konstitusiyasına riayət etməli, «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanununu və

digər normativ hüquqi aktları rəhbər tutmalı, cəmiyyətdə məhkəmə hakimiyyətinə, habelə hakimlərin müstəqilliyinə və qərəzsizliyinə hörmətin artmasına rəvac verməlidir.

**Maddə 3.**

Ədalət mühakiməsinin həyata keçirilməsi üzrə vəzifələrin icrası hakimin fəaliyyətində üstün əhəmiyyətə malikdir.

**Maddə 4.**

Hakim ona həvalə olunmuş işlərə baxarkən, öz vəzifəsini ləyaqətlə icra etməli, fəaliyyətində ədalətli, qərəzsiz və dəyanətli olmalıdır.

**Maddə 5.**

Hakim hər bir şəraitdə şərəf və ləyaqətini qorumalı, məhkəmə hakimiyyətinin nüfuzuna, hakimin yüksək adına xələl gətirə, ədalət mühakiməsini həyata keçirərkən onun obyektivliyini və müstəqilliyini şübhə altına ala bilən hər cür davranışdan çəkinməlidir.

## II. Peşə fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar hakimin davranış qaydaları

**Maddə 6.**

Hakim öz peşə vəzifələrini vicdanla icra etməli, işlərə və materiallara vaxtında baxılması üçün qanunla nəzərdə tutulmuş bütün zəruri tədbirləri görməlidir.

**Maddə 7.**

Hakim özünün peşə fəaliyyətinə heç bir şəxs, o cümlədən qohum, dost və tanış tərəfindən, hər hansı formada müdaxilə edilməsinə yol verməməlidir.

İş üzrə qəbul ediləcək qərar özünün, ailə üzvlərinin və digər qohumlarının maraqlarına toxuna bilərsə, habelə qərəzsizliyi şübhə doğurarsa, hakim həmin işə baxılmasında iştirak etməkdən özü-özünə etiraz etməlidir.

**Maddə 8.**

Hakim proseslərdə iştirak edən bütün şəxslərə (tərəflər, o cümlədən müdafiəçilər, dövlət ittihamçıları, həmçinin şahidlər və s.) eyni münasibət göstərməlidir. Hakim proses iştirakçılarından hər hansı birinə digərinə nisbətdə üstünlük verməməlidir.

Hakim irqi, cinsi, dini və ya milli xarakterli fikir nümayiş etdirməməli, hər hansı diskriminasiyaya yol verməməlidir.

**Maddə 9.**

Hakim yüksək məhkəmə mədəniyyətini nümayiş etdirməklə proses iştirakçılarının hər birinə qarşı münasibətdə ədəb və nəzakətlə davranmalı, prosesin bütün iştirakçılarından bir-birinə və məhkəməyə hörmətlə yanaşmağı tələb etməli, məhkəməyə qarşı aşkar hörmətsizlik göstərənləri cəzalandırmalıdır.

**Maddə 10.**

Hakim hər hansı hakimiyyət və idarəetmə orqanlarının, habelə ayrı-ayrı şəxslərin təsiri altına düşməməli, ictimai

rəy və ya tənqid onun tərəfindən qəbul edilən qərarların qanuniliyinə və əsaslılığına təsir etməməlidir.

İşə kollegial baxılarkən, hakim qərarını onunla bir tərkibə daxil olan digər hakimlərin ifadə etdikləri fikirləri nəzərdən keçirilə, öz daxili inamına əsaslanmaqla qəbul etməlidir.

**Maddə 11.**

İnzibati səlahiyyətlərə malik olan hakim (məhkəmənin sədri, məhkəmə sədrinin müavini, kollegiya sədri, habelə həmin vəzifələri müvəqqəti icra edənlər) həmin səlahiyyətləri vicdanla yerinə yetirməli, bundan digər hakimlərə qarşı təzyiq vasitəsi kimi istifadə etməməli, hakimlərin müstəqilliyini məhdudlaşdıran hər hansı hərəkətdən çəkinməlidir.

**Maddə 12.**

Hakim vəzifələrinin icrası ilə əlaqədar ona məlum olmuş sirri yaymamalıdır. Başa çatmamış məhkəmə işləri ilə əlaqədar faktlar barədə və yaxud məhkəmə baxışına təyin olunmuş işlər haqqında şərhlər, izahat verməməli, ictimaiyyət və kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşlərdə bu və ya digər məhkəmə işi barədə konkret fikrini bildirməməlidir. İşdən kənarda qanuni qüvvəyə minmiş məhkəmə qərarlarını və digər hakimlərin hərəkətlərini şübhə altında qoymamalıdır.

**Maddə 13.**

Hakim icraatında olan işin aid olduğu şəxslərlə qeyri-prosessual münasibətlər yaratmamalı, onlarla bu cür ünsiyyətdən çəkinməlidir.

**Maddə 14.**

Hakim məhkəmə baxışının aşkarlığı prinsipini gözləməlidir. Bu prinsip ancaq qanunvericilikdə müəyyən olunmuş hallarda məhdudlaşdırıla bilər.

Hakim kütləvi informasiya vasitələri nümayəndələrinin ictimaiyyəti məhkəmə orqanlarının fəaliyyəti barədə məlumatlandırmaqdan ibarət vəzifəsinə hörmətlə yanaşmalıdır. Əldə ediləcək informasiyadan məhkəməyə təsir göstərmək vasitəsi kimi istifadə olunacağına əsaslı şübhələr yoxdursa, hakim kütləvi informasiya vasitələri nümayəndələrinin işinə imkan yaratmalıdır.

Hakim hər hansı kütləvi informasiya vasitələri orqanı və ya nümayəndəsi ilə hakimin davranışına və məhkəmə prosesinin gedişinə nüfuz və ya təsir edə biləcək şəxsi əlaqələr qurmamalı, bu əlaqələrdən öz maraqları üçün istifadə etməkdən çəkinməlidir.

**Maddə 15.**

Hakim ədalət mühakiməsinin həyata keçirilməsi üçün zəruri olan nəzəri və təcrübi bilik səviyyəsini daim inkişaf etdirməlidir.

**Maddə 16.**

Hakim zahirən səliqəli olmalı, məhkəmə iclasını xüsusi geyimdə, məhkəmə hakimiyyətinin rəmzləri ilə təmin edilmiş iclas zalında aparmalı, prosessual sənədləri tərtib edərkən qanuna müvafiq olaraq hamıya aydın və dövlət dilinin tələblərinə cavab verən sözlərdən və məfhumlardan istifadə etməlidir.

**Maddə 17.**

Hakim qulluq səlahiyyətlərindən istifadə edərək öz şəxsi və yaxud ailə üzvlərinin maraqlarını güdməyə və müdafiə etməyə haqlı deyildir. O, özünü elə aparmalıdır ki, onun ailə, ictimai və s. münasibətləri tutduğu vəzifəyə xələl gətirməsin.

**Maddə 18.**

Hakim baxdığı işlə əlaqədar olaraq təşəkkür əlaməti kimi hədiyyə, sovqat və bəxşiş qəbul etməməli, işin həllinə təsir edə bilən xidmətlərdən çəkinməlidir.

## III. Hakimin peşə fəaliyyətindən kənar davranış qaydaları

**Maddə 19.**

Hakimin professional fəaliyyətindən kənar davranışı onun ədalətli, obyektiv, qərəzsiz olmasına kölgə salmamalıdır.

**Maddə 20.**

Hakim peşə fəaliyyətinin həyata keçirilməsinə və məhkəmə hakimiyyətinin nüfuzuna xələl gətirməyən ictimai fəaliyyətdə iştirak edə, maraqlarının müdafiəsi, peşə hazırlığının artırılması və müstəqilliyinin qorunması üçün hakim assosiasiyaları yarada, onlara daxil ola bilər.

Hakim, onun müstəqilliyini və ya qərəzsizliyini gözdən sala biləcək hər hansı fəaliyyətdən çəkinməlidir.

**Maddə 21.**

Hakim heç bir seçkili və ya təyinatlı vəzifələr tuta bilməz, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməz.

**Maddə 22.**

Hakim siyasi partiyalara və hərəkətlara mənsub ola, onlara bu və ya digər formada dəstək göstərə, siyasi xarakter daşıyan kütləvi tədbirlərdə iştirak edə, siyasi baxışlarını açıq ifadə edə bilməz.

**Maddə 23.**

Hakim məhkəmə sistemi, məhkəmə quruluşu, məhkəmə icraatı və digər hüquq məsələləri ilə bağlı qanunverici və icra hakimiyyəti orqanları, habelə yerli özünüidarə orqanları ilə qarşılıqlı fəaliyyət göstərə bilər, bu şərtlə ki, həmin fəaliyyət onun müstəqilliyinə və qərəzsizliyinə şübhə yaratmasın.

**IV. Kodeksin hakimlərin fəaliyyətinin qiymətləndirilməsi ilə əlaqəsi**

**Maddə 24.**

Bu Kodeksin 3-cü, 4-cü və 15-ci maddələrinin tələblərinin pozulması hakimin fəaliyyətinin qiymətləndirilməsi zamanı nəzərə alına bilər.

«Azərbaycan Respublikasının normativ aktlarının bülletenin»də dərc edilmişdir (2007-ci il, № 9-10, s. 3)

# İNSAN HÜQUQLARININ VƏ ƏSAS AZADLIQLARIN MÜDAFİƏSİ HAQQINDA AVROPA KONVENSİYASI

*3 sentyabr 1953-cü ildə qüvvəyə minmişdir.*

Avropa Şurasının üzvü olub, bu Konvensiyanı imzalayan hökumətlər

10 dekabr 1948-ci ildə BMT Baş Məclisi tərəfindən bəyan edilmiş İnsan hüquqları haqqında Ümumi Bəyannaməni nəzərə alaraq;

bu Bəyannamənin məqsədinin, bəyan etdiyi hüquqların hamılıqla və səmərəli tanınmasının və həyata keçirilməsinin təmin edilməsi olduğunu nəzərə alaraq;

Avropa Şurasının məqsədinin onun üzvləri arasında böyük birliyə nail olmaqdan ibarət olduğunu və bu məqsədlərə nail olmanın əsas vasitələrindən birinin insan hüquqları və əsas azadlıqlarının dəstəklənməsi və gələcək reallaşdırılması olduğunu hesab edərək;

Dünyada ədalətin və sülhün əsası olan və riayət olunması daha yaxşı qaydada, bir tərəfdən həqiqi demokratik siyasi rejim, digər tərəfdən ümumi anlaşma və onların sadiq qaldığı insan hüquqlarına riayət etməklə təmin olunan əsas azadlıqlara öz dərin sadiqliklərini təsdiq edərək;

Vahid səylərlə hərəkət edən və siyasi ənənələrin, idealların, azadlığın və hüququn aliliyinin ümumi irsinə malik

olan Avropa ölkələrinin hökumətləri kimi Ümumi Bəyannamədə təsbit olunmuş bəzi hüquqların kollektiv həyata keçirilməsinin təmin edilməsi yolunda ilk addımlar atmaq üçün qətiyyət göstərərək aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1.**
**İnsan hüquqlarına hörmət olunması öhdəliyi**

Razılığa gələn Yüksək Tərəflər onların yurisdiksiyası altında olan hər kəs üçün bu Konvensiyanın 2 bölməsində müəyyən olunmuş hüquq və azadlıqları təmin edirlər.

## I BÖLMƏ

## HÜQUQLAR VƏ AZADLIQLAR

**Maddə 2.**
**Yaşamaq hüququ**

1. Hər kəsin yaşamaq hüququ qanunla qorunur. Heç kəs qanunla ölüm cəzası nəzərdə tutulmuş cinayət törətməyə görə, məhkəmə tərəfindən çıxarılmış belə hökmün icrasından başqa həyatından məhrum edilə bilməz.

2. Həyatdan məhrum etmə, güc tətbiqində mütləq zərurətin nəticəsi olduqda bu maddənin pozulması kimi nəzərdən keçirilmir:

a) istənilən şəxsin hüquqa zidd zorakılıqdan qorunması üçün;

b) qanuni həbsi həyata keçirmək və ya qanuni əsaslarla həbsdə olan şəxsin qaçmasının qarşısını almaq üçün;

c) qanuna müvafiq olaraq çevriliş və ya qiyamın yatırılması üçün.

**Maddə 3.**
**İşgəncələrin qadağan olunması**

Heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır.

**Maddə 4.**
**Köləliyin və məcburi əməyin qadağan olunması**

1. Heç kəs kölelikdə və ya asılılıqda saxlanmamalıdır.

2. Heç kəs məcburi və ya icbari əməyə cəlb olunmamalıdır.

3. Bu maddənin məqsədləri üçün "məcburi və ya icbari əmək" termini aşağıdakıları özünə daxil etmir:

a) bu Konvensiyanın 5-ci maddəsinin müddəalarına müvafiq olaraq həbsdə olan və ya belə həbsdən şərti azad edilmiş şəxsin adətən yerinə yetirməli olduğu hər hansı iş;

b) hərbi xarakterli hər hansı xidmət və ya hərbi xidmətdən əqidəyə görə imtina etmənin qanuni hesab edildiyi ölkələrdə məcburi hərbi xidmətin əvəzinə müəyyən edilmiş xidmət;

c) fövqəladə vəziyyət və ya əhalinin həyatı və rifahı üçün təhlükə yaradan fəlakət hallarında hər hansı məcburi xidmət;

d) adi vətəndaşlıq vəzifələrinin bir hissəsi olan iş və ya xidmət.

**Maddə 5.**

**Azadlıq və toxunulmazlıq hüququ**

1. Hər kəsin azadlıq və şəxsi toxunulmazlıq hüququ var. Heç kəs qanunla müəyyən olunmuş aşağıdakı hallardan və qaydadan başqa azadlığından məhrum edilə bilməz:

a) səlahiyyətli məhkəmə tərəfindən məhkum olunduqdan sonra, şəxsi qanuni həbsə almaq;

b) məhkəmənin qanuni çıxardığı qərarı icra etməməyə görə və ya qanunla nəzərdə tutulmuş hər hansı öhdəliyin icra olunmasını təmin etmək məqsədilə şəxsin qanuni tutulması və ya həbsə alınması;

c) hüquq pozuntusunun törədilməsində əsaslı şübhə ilə bağlı şəxsin səlahiyyətli məhkəmə orqanı qarşısında durmasından irəli gələn və ya onun tərəfindən törədilən hüquq pozuntusunun, yaxud törətdikdən sonra onun gizlənməsinin qarşısını almaq üçün kifayət qədər zəruri əsasların olduğunun hesab edildiyi hallarda şəxsin qanuni tutulması və ya həbsə alınması;

d) yetkinlik yaşına çatmamış şəxsin tərbiyə nəzarəti üçün qanuni qərar əsasında həbsə alınması və ya onun səlahiyyətli məhkəmə orqanı qarşısında durmasından irəli gələn qanuni həbsə alınması;

e) yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq üçün şəxslərin, ruhi xəstələrin, alkoqolizmə və narkomaniyaya mübtəla olanların, səfillərin qanuni həbsə alınması;

f) şəxsin ölkəyə qanunsuz gəlməsinin qarşısını almaq məqsədilə və ya barəsində deportasiya, yaxud ekstradisiya tədbirləri tətbiq olunan şəxsin qanuni tutulması və ya həbsə

alınması.

2. Tutulmuş hər bir kəsə ona aydın olan dildə onun tutulmasının səbəbləri və ona qarşı irəli sürülən istənilən ittiham barədə dərhal məlumat verilir.

3. Bu maddənin I bəndinin “s” alt bəndinə müvafiq olaraq tutulmuş və ya həbsə alınmış hər kəs, dərhal hakimin və ya qanunla məhkəmə hakimiyyətini həyata keçirmək səlahiyyəti verilmiş vəzifəli şəxsin yanına gətirilir və ağlabatan müddət ərzində məhkəmə araşdırması və ya məhkəməyə qədər azad edilmək hüququna malikdir. Azad edilmək məhkəmədə iştirak etmə təminatlarının təqdim edilməsilə şərtləndirilə bilər.

4. Tutulma və ya həbsə alma nəticəsində azadlıqdan məhrum edilmiş hər kəs onun həbsə alınmasının qanuniliyinə məhkəmə tərəfindən təxirə salınmadan baxılmaq hüququna və əgər onun həbsi məhkəmə tərəfindən qanunsuz hesab edilibsə, azad edilmək hüququna malikdir.

5. Bu maddənin müddəalarının pozulması ilə tutulmadan və ya həbsə almadan zərər çəkmiş hər kəsin iddia ilə təmin olunan kompensasiya hüququ var.

**Maddə 6.**
**Ədalətli məhkəmə hüququ**

1. Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir. Məhkəmə qərarı

açıq elan edilir, lakin demokratik cəmiyyətdə əxlaq, ictimai qayda və ya milli təhlükəsizlik maraqları naminə, həmçinin yetkinlik yaşına çatmayanların maraqları və ya tərəflərin şəxsi həyatının müdafiəsi bunu tələb etdikdə, yaxud məhkəmənin fikrincə, aşkarlığın ədalət mühakiməsinin maraqlarını poza biləcəyi xüsusi hallar zamanı ciddi zərurət olduqda mətbuat və ictimaiyyət bütün proses boyu və ya onun bir hissəsində məhkəmə iclasına buraxılmaya bilər.

2. Cinayət törətməkdə ittiham olunan hər kəs onun təqsiri qanun əsasında sübut ediləndək təqsirsiz hesab edilir.

3. Cinayət törətməkdə ittiham olunan hər kəs, ən azı aşağıdakı hüquqlara malikdir:

a) ona qarşı irəli sürülmüş ittihamın xarakteri və əsasları haqqında onun başa düşdüyü dildə dərhal və ətraflı məlumatlandırılmaq;

b) öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq;

c) şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə belə müdafiədən pulsuz istifadə etmək;

d) onun əleyhinə ifadə vermiş şahidləri dindirmək və ya bu şahidlərin dindirilməsinə nail olmaq və onun əleyhinə ifadə vermiş şahidlər üçün eyni olan şərtlərlə onun lehinə olan şahidlər çağırmaq və dindirməyə nail olmaq;

e) məhkəmədə istifadə olunan dili başa düşmürsə və ya bu dildə danışa bilmirsə tərcüməçinin pulsuz köməyindən istifadə etmək.

**Maddə 7.**

**Qanunsuz cəzalandırılmamaq**

1. Heç kəs törədildiyi zaman milli və ya beynəlxalq hüquqa görə cinayət sayılmayan hər hansı hərəkət və ya hərəkətsizliyə görə cinayət törətməkdə təqsirli hesab edilə bilməz. Habelə, cinayət əməlinin törədildiyi zaman tətbiq olunandan daha ağır cəza verilə bilməz.

2. Bu maddə törədildiyi zaman sivil ölkələrin tanıdığı əsas hüquq prinsiplərinə müvafiq olaraq cinayət hesab edilən hər hansı hərəkət və ya hərəkətsizlik törətməyə görə istənilən şəxsin mühakimə edilməsinə və ya cəzalandırılmasına mane olmur.

**Maddə 8.**

**Şəxsi və ailə həyatına hörmət hüququ**

1. Hər kəs öz şəxsi və ailə həyatına, mənzilinə və yazışma sirrinə hörmət hüququna malikdir.

2. Milli təhlükəsizlik və ictimai asayiş, ölkənin iqtisadi rifah maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün sağlamlığı, yaxud mənəviyyatı mühafizə etmək üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan hallar istisna olmaqla, dövlət hakimiyyəti orqanları tərəfindən bu hüququn həyata keçirilməsinə mane olmağa yol verilmir.

**Maddə 9.**
**Fikir, vicdan və din azadlığı**

1. Hər kəsin fikir, vicdan və din azadlığı hüququ var; bu hüquqa öz dinini və ya əqidəsini dəyişmək azadlığı, öz dininə və ya əqidəsinə həm təkbaşına, həm də başqaları ilə birlikdə etiqad etmək və açıq, yaxud şəxsi qaydada ibadəti, təlimləri, dini və mərasim ayinlərini yerinə yetirmək azadlığı daxildir.

2. Öz dininə və baxışlarına etiqad etmək azadlığı yalnız ictimai asayiş maraqları naminə, ictimai qaydanı, sağlamlığı, yaxud mənəviyyatı qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan məhdudiyyətlərə məruz qala bilər.

**Maddə 10.**
**İfadə etmək (ekspression) azadlığı**

1. Hər kəs (öz fikrini - tərc.) ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyində qalmaq azadlığı, dövlət hakimiyyəti orqanları tərəfindən hər hansı maneçilik olmadan və dövlət sərhədlərindən asılı olmayaraq, məlumat və ideyaları almaq və yaymaq azadlığı daxildir. Bu maddə dövlətlərin radioyayım, televiziya və kinematoqrafiya müəssisələrinə lisenziya tələbi qoymasına mane olmur.

2. Bu azadlıqların həyata keçirilməsi milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün, sağlamlığın, yaxud mənəviyyatın mühafizəsi üçün, digər şəxslərin nüfuzu və hüquqlarının müdafiəsi üçün gizli əldə edilmiş

məlumatların açıqlanmasının qarşısını almaq üçün və ya ədalət mühakiməsinin nüfuz və qərəzsizliyini təmin etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan müəyyən formallıqlara, şərtlərə, məhdudiyyətlərə və ya sanksiyalara məruz qala bilər.

**Maddə 11.**
**Yığıncaqlar və birləşmək azadlığı**

1. Hər kəsin dinc toplaşmaq azadlığı və öz maraqlarını müdafiə etmək üçün həmkarlar ittifaqları yaratmaq və onlara qoşulmaq hüququ da daxil olmaqla başqaları ilə birləşmək azadlığı hüququ var.

2. Bu hüquqların həyata keçirilməsinə milli təhlükəsizlik və ictimai asayiş maraqları naminə, iğtişaşın və cinayətin qarşısını almaq üçün, sağlamlığın və mənəviyyatın mühafizəsi üçün və ya digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olanlardan başqa heç bir məhdudiyyətlər qoyula bilməz. Bu maddə silahlı qüvvələr, polis və ya inzibati dövlət orqanları üzvlərinin belə hüquqlarının həyata keçirilməsinə qanuni məhdudiyyətlər qoyulmasına mane olmur.

**Maddə 12.**
**Nikah hüququ**

Nikah yaşına çatmış kişilər və qadınlar bu hüququn həyata keçirilməsini tənzimləyən milli qanunvericiliyə müvafiq olaraq, nikaha daxil olmaq və ailə qurmaq hüququna malikdirlər.

**Maddə 13.**

**Səmərəli hüquqi müdafiə vasitələri hüququ**

Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqları pozulan hər kəs, hətta bu pozulma rəsmi fəaliyyət göstərən şəxslər tərəfindən törədildikdə belə, dövlət orqanları qarşısında səmərəli hüquqi müdafiə vasitələrinə malikdir.

**Maddə14.**

**Ayrı-seçkiliyin qadağan olunması**

Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadə cins, irq, rəng, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya digər status kimi hər hansı əlamətlərinə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır.

**Maddə15.**

**Fövqəladə hallar zamanı məhdudlaşdırma**

1. Müharibə və ya millətin həyatını təhdid edən digər fövqəladə hallar zamanı Razılığa gələn Yüksək Tərəflərdən hər hansı biri onun beynəlxalq hüquqa müvafiq digər öhdəliklərinə zidd olmamaq şərtilə, yalnız vəziyyətin fövqəladəliliyinin şərtləndirə biləcəyi səviyyədə bu Konvensiya üzrə öhdəliklərindən geri çəkilən tədbirlər görə bilər.

2. Bu müddəaya əsasən, qanuni müharibə aktları nəticəsində ölüm halları istisna olmaqla 2-ci maddədən və ya 3-cü maddədən, 4-cü maddənin I bəndindən və 7-ci maddədən geri çəkilməyə yol verilmir.

3. Bu geri çəkilmə hüququndan istifadə edən hər hansı Razılığa gələn Yüksək Tərəf gördüyü tədbirlər və onların səbəbləri haqqında Avropa Şurasının Baş Katibini tam məlumatlandırır. O, həmçinin belə tədbirlərin dayandırılması və Konvensiyanın müddəalarının yenidən tam həyata keçirilməyə başlanması haqqında Avropa Şurasının Baş Katibinə məlumat verir.

**Maddə 16.**
**Əcnəbilərin siyasi fəaliyyətinin məhdudlaşdırılması**

10, 11 və 14-cü Maddələrdə heç nə Razılığa gələn Yüksək Tərəf üçün əcnəbilərin siyasi fəaliyyətinə məhdudiyyətlər qoyulmasına maneə kimi nəzərdən keçirilə bilməz.

**Maddə 17.**
**Hüquqlardan sui-istifadənin qadağan olunması**

Bu Konvensiyada heç nə hər hansı dövlətin, qrupun və ya şəxsin burada təsbit olunmuş hüquq və azadlıqlarının ləğvinə yönəlmiş hər hansı fəaliyyətlə məşğul olmaq və ya hər hansı əməl törətmək və ya onları Konvensiyada nəzərdə tutulandan daha artıq məhdudlaşdırmaq hüququna malik olması kimi şərh oluna bilməz.

**Maddə 18.**
**Hüquqlarla bağlı məhdudlaşdırmalardan istifadənin hədləri**

Qeyd olunan hüquq və azadlıqlarla bağlı bu Konvensiyada yol verilən məhdudiyyətlər, nəzərdə tutulduğundan başqa hər hansı məqsəd üçün tətbiq olunmamalıdır.

## II BÖLMƏ

## AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİ

**Maddə 19.**

**Məhkəmənin təsis olunması**

Razılığa gələn Yüksək Tərəflər bu Konvensiya və onun Protokolları ilə öz üzərlərinə götürdükləri öhdəliklərə riayəti təmin etmək məqsədi ilə Avropa İnsan hüquqları Məhkəməsini, sonradan "Məhkəmə" adlanacaq, təsis edirlər. O, daimi əsaslarla fəaliyyət göstərir.

**Maddə 20.**

**Hakimlərin sayı**

Məhkəmə Razılığa gələn Yüksək Tərəflərə bərabər sayda hakimlərdən ibarətdir.

**Maddə 21.**

**Hakimliyə dair tələblər**

1. Hakimlər yüksək mənəvi keyfiyyətlərə malik olmalı və yüksək məhkəmə vəzifələrinə təyin olunarkən qoyulan tələblərə cavab verməli və ya tanınmış nüfuzlu hüquqşünaslar olmalıdırlar.

2. Hakimlər Məhkəmənin işində şəxsi simada iştirak edirlər.

3. Vəzifədə olduqları bütün müddət ərzində hakimlər onların müstəqilliyi, qərəzsizliyi və ya tam iş gününün xarakterindən irəli gələn tələblərlə bir araya sığmayan heç bir

fəaliyyətlə məşğul olmamalıdırlar; bu bəndin müddəalarının tətbiqi ilə bağlı yaranan bütün məsələləri Məhkəmə həll edir.

**Maddə 22.**

**Hakimlərin seçilməsi**

1) Hər bir Razılığa gələn Yüksək Tərəf üzrə hakimlər, Razılığa gələn Yüksək Tərəfin təqdim etdiyi üç namizəd siyahısından, Parlament Assambleyasının səs çoxluğu ilə seçilir.

2) Yeni Razılığa gələn Yüksək Tərəflərin qoşulması zamanı, həmçinin yaranan boş yerlər doldurularkən məhkəmənin tərkibinə seçkilər üçün analoji prosedura tətbiq olunur.

**Maddə 23.**

**Səlahiyyət müddəti**

1. Hakimlər 6 il müddətinə seçilirlər. Onlar yenidən seçilə bilərlər. Lakin birinci seçkidə seçilmiş hakimlərin yarısının səlahiyyət müddəti üç il sonra bitir.

2. Üç il sonra səlahiyyət müddəti bitən hakimlər seçkilərdən dərhal sonra Avropa Şurası Baş Katibi tərəfindən püşkatma yolu ilə müəyyənləşdirilir.

3. Məhkəmənin yarı tərkibinin hər üç ildən bir, mümkün olduqca, yeniləşməsini təmin etmək məqsədilə Parlament Assambleyası hər hansı növbəti seçkilərin keçirilməsinə qədər seçilmiş bir və ya bir neçə hakimin səlahiyyət müddətinin və ya müddətlərinin üç ildən az və doqquz ildən

çox olmamaqla, altı ildən başqa müddətə dəyişdirilməsi haqqında qərar qəbul edə bilər.

4. Bir dəfədən çox səlahiyyət müddətindən söhbət getdiyi və Parlament Assambleyasının əvvəlki bəndin müddəalarını tətbiq etdiyi hallarda səlahiyyət müddətləri Avropa Şurası Baş Katibi tərəfindən seçkilərdən dərhal sonra püşkatma yolu ilə müəyyənləşdirilir.

5. Səlahiyyət müddəti bitməmiş hakimi əvəz etmək üçün seçilmiş hakim bu vəzifəni öz sələfinin səlahiyyət müddətinin qalan hissəsi qədər tutur.

6. Hakimlər 70 yaşa çatdıqda onların səlahiyyət müddəti bitir.

7. Hakimlər öz vəzifələrini dəyişiklik həyata keçirilənə qədər tuturlar. Bununla yanaşı, onlar artıq icraatlarında olan işlərə baxmaqda davam edirlər.

**Maddə 24.**
**Vəzifədən azad etmə**

Digər hakimlərin üçdə iki səs çoxluğu ilə hər hansı hakimin qoyulan tələblərə cavab vermədiyi haqqında qərarı olmadan hakim öz vəzifəsindən azad edilə bilməz.

**Maddə 25.**
**Dəftərxana və məhkəmə katibləri**

Məhkəmə vəzifələri və təşkili Məhkəmə qaydaları ilə müəyyənləşdirilən katibliyə malikdir. Məhkəmə katibləri Məhkəmənin işinə köməklik göstərirlər.

**Maddə 26.**

**Məhkəmənin Plenumu**

a) öz Sədrini və Sədrin bir, yaxud iki müavinini üç il müddətinə seçir; onlar yenidən seçilə bilər;

b) müəyyən müddət üçün nəzərdə tutulan Palatalar təsis edir;

c) Məhkəmə Palatasının Sədrlərini seçir; onlar yenidən seçilə bilərlər;

d) Məhkəmə Qaydalarını təsdiq edir;

e) Qeydiyyatçını və Qeydiyyatçının bir, yaxud bir neçə müavinini seçir.

**Maddə 27.**

**Komitələr, Palatalar və Böyük Palata**

1. Məhkəmə, qarşısında qaldırılmış işlərə baxmaq üçün üç hakimdən ibarət komitələri, yeddi hakimdən ibarət Palataları və on yeddi hakimdən ibarət Böyük Palatanı təsis edir. Məhkəmə Palataları müəyyən müddət üçün nəzərdə tutulan komitələri yaradır.

2. İşdə tərəf olan dövlətdən seçilmiş hakim, yaxud belə hakim olmadığı hallarda və ya o, iclasda iştirak edə bilmədikdə, həmin dövlətin seçdiyi, hakim qismində iştirak edəcək belə şəxs Palatanın və Böyük Palatanın exofficio üzvü olur.

3. Böyük Palatanın tərkibinə, həmçinin Məhkəmənin sədri, Məhkəmə sədrinin müavinləri, Palata Sədrləri və Məhkəmə Qaydalarına müvafiq olaraq seçilmiş digər şəxslər də daxil olur. 43-cü maddənin müddəalarına müvafiq olaraq

işin Böyük palataya verildiyi hallarda onun iclaslarında bu Palatanın Sədri və işdə tərəf olan müvafiq dövlətin hakimi istisna olmaqla, qərarçıxaran Palatanın hakimlərindən heç biri iştirak etməməlidir.

**Maddə 28.**

**Komitələrin şikayəti qəbul olunmayan elan etməsi**

Komitə yekdil səslə 34-cü maddəyə müvafiq olaraq verilmiş şikayətləri, əgər belə qərar şikayət əlavə öyrənilmədən qəbul edilibsə, qəbul olunmayan elan edə və ya onu icraatda olan işlərin siyahısından çıxara bilər. Belə qərar qətidir.

**Maddə 29.**

**Şikayətin qəbul olunması və mahiyyəti barədə Palataların qərarları**

1. Əgər 28-ci maddədə nəzərdə tutulmuş heç bir qərar qəbul edilməyibsə, Palata 34-cü maddəyə müvafiq verilmiş fərdi şikayətin qəbul olunması və işin mahiyyəti haqqında qərar çıxarır.

2. Palata 33-cü maddəyə müvafiq olaraq verilmiş Dövlətlərarası şikayətin qəbul olunması və mahiyyəti haqqında qərar çıxarır.

3. Əgər Məhkəmə istisna qaydada digər qərar qəbul etməzsə, şikayətin qəbul olunması haqqında qərar ayrılıqda çıxarılır.

**Maddə 30.**
**Böyük Palatanın xeyrinə yurisdiksiyadan imtina**

Əgər Palatanın icraatında olan iş Konvensiyanın və ya onun Protokollarının şərhinə dair ciddi məsələlərə toxunursa, yaxud məsələnin həlli Məhkəmənin əvvəllər çıxardığı qərara zidd ola bilərsə, Tərəflərdən heç biri buna etiraz etmədikdə Palata öz qərarını çıxarana qədər istənilən vaxt Böyük Palatanın xeyrinə yurisdiksiyasından imtina edə bilər.

**Maddə 31.**
**Böyük Palatanın səlahiyyətləri**

Böyük Palata:

a) Palata 30-cu maddənin müddəalarına əsasən yurisdiksiyasından imtina etdikdə və ya 43-cü maddənin müddəalarına müvafiq olaraq iş ona göndərildikdə 33-cü və ya 34-cü maddəyə müvafiq olaraq verilmiş şikayətlər üzrə qərar çıxarır; və

b) 47-ci maddənin müddəalarına müvafiq olaraq məsləhətçi rəylər çıxarmaq üçün verilmiş sorğulara baxır.

**Maddə 32.**
**Məhkəmənin yurisdiksiyası**

1. Məhkəmənin yurisdiksiyası 33, 34 və 47-ci maddələrdə nəzərdə tutulmuş şərtlərlə Konvensiyanın və onun Protokollarının şərhi və tətbiqinə dair göndərilən bütün məsələlərə şamil edilir.

2. Konkret iş üzrə Məhkəmənin yurisdiksiyası ilə bağlı mübahisəni Məhkəmə həll edir.

**Maddə 33.**

**Dövlətlərarası işlər**

Hər hansı Razılığa gələn Yüksək Tərəf digər Razılığa gələn Yüksək Tərəfin Konvensiya və onun Protokollarının müddəalarını istənilən pozması ehtimalı ilə bağlı məhkəməyə müraciət edə bilər.

**Maddə 34.**

**Fərdi şikayətlər**

Məhkəmə istənilən fiziki şəxsdən, qeyri-hökumət təşkilatından və ya ayrı-ayrı şəxslər qrupundan, Razılığa gələn Yüksək Tərəflərdən birinin onun bu Konvensiya və ya onun Protokolları ilə tanınmış hüquqlarını pozmasının qurbanı olduğunu iddia edən şikayətlər qəbul edə bilər. Razılığa gələn Yüksək Tərəflər bu hüququn səmərəli həyata keçirilməsinə heç bir yolla mane olmamağı öhdələrinə götürürlər.

**Maddə 35.**

**Qəbul edilmə meyarı**

1. Məhkəmə yalnız beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarına müvafiq olaraq bütün daxili hüquq müdafiə vasitələri tükəndikdən sonra və son qərarın çıxarıldığı tarixdən altı ay müddət keçənədək məsələyə baxa bilər.

2. Məhkəmə 34-cü maddəyə müvafiq olaraq verilmiş aşağıdakı şikayətlərə baxmır:

a) anonim olan; və ya

b) mahiyyətcə məhkəmənin artıq baxdığı məsələ ilə eyni

olan, yaxud beynəlxalq araşdırmanın və ya tənzimlənmənin digər prosedurasının predmeti olan və işə aid yeni faktları əks etdirməyən.

3. Məhkəmə 34-cü maddəyə müvafiq olaraq verilmiş istənilən fərdi şikayəti, bu Konvensiya və ya onun Protokollarının müddəaları ilə bir araya sığmayan, açıq əsaslandırılmamış və ya şikayət vermə hüququndan sui-istifadə edilmiş hesab edirsə, qəbul olunmayan elan edə bilər.

4. Məhkəmə bu maddəyə müvafiq olaraq qəbul olunmayan hesab etdiyi istənilən şikayəti rədd edir. O, bunu icraatın istənilən mərhələsində edə bilər.

**Maddə 36.**
**Üçüncü tərəfin iştirakı**

1. Palatada və ya Böyük Palatada olan bütün işlərdə vətəndaşı şikayətçi olan hər bir Yüksək Razılığa gələn Tərəfin yazılı qeydlər təqdim etmək və dinləmələrdə iştirak etmək hüququ var.

2. Ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsi naminə Məhkəmənin Sədri prosesdə tərəf olmayan istənilən Razılığa gələn Tərəfi və ya şikayətçi olmayan istənilən maraqlı şəxsi yazılı qeydlər təqdim etmək və dinləmələrdə iştirak etmək üçün dəvət edə bilər.

**Maddə 37.**
**Şikayətlərin siyahıdan çıxarılması**

1. Əgər işin vəziyyəti aşağıdakı nəticələrə gəlməyə əsas

verirsə, icraatın istənilən mərhələsində məhkəmə şikayəti işlərin siyahısından çıxarmaq barədə qərar qəbul edə bilər:

a) Şikayətçi daha öz ərizəsinə baxılmasına nail olmaq üçün səy göstərmirsə; və ya

b) məsələ öz həllini tapıb; və ya

c) məhkəmənin müəyyənləşdirdiyi istənilən digər səbəbə görə, şikayətə baxışı davam etdirməyə lüzum yoxdursa. Bununla belə, əgər bu Konvensiya və onun Protokolları ilə təmin olunan insan hüquqlarına riayət olunması bunu tələb edirsə, Məhkəmə şikayətə baxmaqda davam edir.

2. Əgər Məhkəmə işin gedişinin buna bəraət qazandırdığını hesab edirsə, şikayətin baxılmalı işlər siyahısına bərpa edilməsi haqqında qərar qəbul edə bilər.

**Maddə 38.**
**İşə baxılma və dostcasına həll proseduraso**

1. Əgər Məhkəmə şikayəti qəbul edilən elan edirsə, o:

a) maraqlı tərəflərin nümayəndələrinin iştirakı ilə işin baxışını davam etdirir və ehtiyac olduqda, maraqlı Dövlətlərin bütün zəruri şəraiti yaradacağı səmərəli keçirilmə üçün tədqiqat aparır;

b) bu Konvensiyada və onun Protokollarında bəyan edilmiş insan hüquqlarına hörmət əsasında məsələnin dostcasına həllini təmin etmək niyyətilə özünü maraqlı tərəflərin sərəncamına təqdim edir.

2. 1 b bənddə nəzərdə tutulan proses məxfi həyata keçirilir.

**Maddə 39.**

**Dostcasına həllin tapılması**

Dostcasına həll səmərə verdikdə, Məhkəmə faktların qısa xülasəsini və nail olunan həlli əks etdirən qərar çıxarmaqla işi öz siyahısından çıxarır.

**Maddə 40.**

**Açıq dinləmələr və sənədlərə çıxış**

1. Məhkəmə istisna hal kimi digər qərar qəbul etməzsə, dinləmələr açıq keçirilir.

2. Məhkəmə Sədri digər qərar qəbul etməzsə, Qeydiyyatçıya saxlanmaq üçün verilmiş sənədlər ictimaiyyət üçün açıqdır.

**Maddə 41.**

**Əvəzin ədalətli ödənilməsi**

Əgər Məhkəmə Konvensiya və onun Protokollarının pozulduğunu, lakin Razılığa gələn Yüksək Tərəfin daxili hüququnun yalnız bu pozuntunun nəticələrinin qismən aradan qaldırılmasına imkan verdiyini müəyyən edirsə, Məhkəmə zəruri halda, zərərçəkən tərəfə əvəzin ədalətli ödənilməsini təyin edir.

**Maddə 42.**

**Palataların qərarları**

44-cü maddənin II bəndinin müddəalarına uyğun olaraq Palataların qərarları qətidir.

**Maddə 43.**
**İşin Böyük Palataya verilməsi**

1. Palatanın qərar çıxarmasından sonrakı üç ay müddət ərzində, iş üzrə istənilən tərəf, müstəsna hallarda, işin Böyük Palataya verilməsini tələb edə bilər.

2. Əgər iş bu Konvensiya və onun Protokollarının müddəalarının şərhi və ya tətbiqinə dair ciddi məsələlər və ya ümumi xarakterli digər ciddi məsələlər yaradırsa, Böyük Palatanın beş hakimdən ibarət Kollegiyası tələbi qəbul edir.

3. Kollegiya tələbi qəbul edirsə, onda Böyük Palata qərar çıxarmaqla işi həll edir.

**Maddə 44.**
**Qəti qərarlar**

1. Böyük Palatanın qərarı qətidir.

2. Palatanın qərarı aşağıdakı hallarda qəti olur:

a) tərəflər işin Böyük Palataya verilməsi barədə müraciət etməyəcəklərini bəyan etdikdə; və ya

b) Əgər işin Böyük Palataya verilməsi barədə müraciət edilməyibsə, qərar çıxarılan tarixdən üç ay sonra; və

c) Böyük Palatanın Kollegiyası 43-cü maddəyə müvafiq olaraq verilmə haqqında müraciəti rədd etdikdə.

3. Qəti qərar dərc olunur.

**Maddə 45.**
**Qərar və qərardadların əsaslandırılması**

1. Qərarlar, həmçinin şikayətləri qəbul edilən və ya qəbul olunmayan elan edən qərardadlar əsaslandırılmalıdır.

2. Əgər qərar bütövlükdə və ya qismən hakimlərin yekdil rəyini ifadə etmirsə, onda hər hansı hakim xüsusi rəy verə bilər.

**Maddə 46.**
**Qərarların məcburi qüvvəsi və icrası**

1. Razılığa gələn Yüksək Tərəflər, Məhkəmənin onların tərəf olduqları işlər üzrə yekun qərarına riayət etməyi öhdələrinə götürürlər.

2. Məhkəmənin yekun qərarı onun icrasına nəzarəti həyata keçirən Nazirlər Komitəsinə göndərilir.

**Maddə 47.**
**Məsləhətçi rəylər**

1. Məhkəmə Nazirlər Komitəsinin müraciəti ilə Konvensiya və onun Protokollarının müddəalarının şərhinə dair hüquqi məsələlər üzrə məsləhətçi rəylər verə bilər.

2. Belə rəylər Konvensiyanın II bölməsi və onun Protokollarında müəyyən edilən hüquq və azadlıqların məzmun və həcminə dair hər hansı məsələyə, yaxud Məhkəmənin və ya Nazirlər Komitəsinin Konvensiyaya müvafiq olaraq, hər hansı müraciətə baxarkən toxunmalı olduğu digər məsələlərə aid olmamalıdır.

3. Məhkəmənin məsləhətçi rəy verməsi üçün Nazirlər Komitəsinin müraciəti, Komitənin iştirak etmək hüququ olan nümayəndələrin səs çoxluğu ilə qəbul edilir.

**Maddə 48.**

**Məhkəmənin məsləhət yurisdiksiyası**

Məsləhətçi rəy vermək haqqında Nazirlər Komitəsi tərəfindən edilən müraciətin Məhkəmənin səlahiyyətinə aid olub-olmamasını, 47-ci maddədə müəyyən edildiyi kimi, Məhkəmə özü həll edir.

**Maddə 49.**

**Məsləhətçi rəylərin əsaslandırılması**

1. Məhkəmənin məsləhətçi rəyləri əsaslandırılmalıdır.

2. Əgər məsləhətçi rəy ümumilikdə və ya qismən hakimlərin yekdil rəyini əks etdirmirsə, onda hər hansı hakim xüsusi rəy vermək hüququna malikdir.

3. Məhkəmənin məsləhətçi rəyləri Nazirlər Komitəsinə təqdim edilir.

**Maddə 50.**

**Məhkəmənin saxlanılması xərcləri**

Məhkəmənin saxlanması xərclərini Avropa Şurası ödəyir.

**Maddə 51.**

**Hakimlərin imtiyaz və immunitetləri**

Hakimlər öz funksiyalarını yerinə yetirərkən Avropa Şurası Nizamnaməsinin 40-cı maddəsində və onun əsasında bağlanmış sazişlərdə nəzərdə tutulan imtiyaz və immunitetlərə malikdirlər.

## III BÖLMƏ

## Ümumi Müddəalar

**Maddə 52.**
**Baş Katibin sorğuları**

Avropa Şurası Baş Katibinin müraciəti əsasında hər bir Razılığa gələn Yüksək Tərəf öz daxili hüququnun, bu Konvensiyanın hər hansı müddəasının səmərəli tətbiqini necə təmin edəcəyi ilə bağlı izahat təqdim edir.

**Maddə 53.**
**Bu insan hüquqları ilə bağlı təminatlar**

Bu Konvensiyada heç nə hər hansı Razılığa gələn Yüksək Tərəfin qanunvericiliyi və ya onun Tərəf olduğu hər hansı digər sazişlə təmin edilə bilən insan hüquqları və əsas azadlıqlarından hər hansını məhdudlaşdırmaq və ya onlardan geri çəkilmə kimi şərh oluna bilməz.

**Maddə 54.**
**Nazirlər Komitəsinin səlahiyyətləri**

Bu Konvensiyada heç nə Avropa Şurası Nizamnaməsinin Nazirlər Komitəsinə verdiyi səlahiyyətlərə xələl gətirmir.

**Maddə 55.**
**Mübahisələrin digər vasitələrlə tənzimlənməsindən imtina**

Razılağa gələn Yüksək Tərəflər, xüsusi saziş istisna

olmaqla, bu Konvensiyanın müddəalarının şərhi və tətbiqi ilə bağlı mübahisələri petisiya yolu ilə baxışa verərkən, onlar arasında qüvvədə olan müqavilələrə və ya bəyannamələrə müraciət etməyəcəklərinə və bu Konvensiyada nəzərdə tutulanlardan başqa mübahisələrin tənzimlənməsi vasitələrindən istifadə etməməyə razılıq verirlər.

**Maddə 56.**
**Ərazi tətbiqi**

1. Hər hansı Dövlət imzalanma, yaxud ratifikasiya zamanı və ya sonradan istənilən vaxt Avropa Şurasının Baş Katibinə ünvanlanmış bildiriş vasitəsilə Konvensiyanın, bu maddənin 4-cü bəndi nəzərə alınmaqla, beynəlxalq əlaqələrinə görə onun cavabdehlik daşıdığı bütün ərazilərə, yaxud onlardan hər hansı birinə şamil ediləcəyini bəyan edə bilər.

2. Konvensiya bildirişdə adı çəkilən əraziyə və ya ərazilərə Avropa Şurasının Baş Katibi bildirişi aldıqdan 30 gün sonra şamil edilir.

3. Bu Konvensiyanın müddəaları belə ərazilərdə yerli şəraitin lazımi qaydada nəzərə alınması ilə tətbiq edilir.

4. Bu maddənin 1-ci bəndinə müvafiq olaraq bəyanat vermiş hər hansı dövlət sonradan istənilən vaxt həmin bəyanatda göstərilmiş bir və ya bir neçə ərazinin adından Konvensiyanın 34-cü maddəsinə müvafiq olaraq, Məhkəmənin fiziki şəxslərdən, qeyri-hökumət təşkilatlarından və ya fərdlər qrupundan şikayətlər qəbul etmək səlahiyyətini tanıdığını bəyan edə bilər.

**Maddə 57.**

**Qeyd-şərtlər**

1. İstənilən dövlət bu Konvensiyanı imzalayarkən və ya onun ratifikasiya sənədini depozitə verərkən Konvensiyanın hər hansı konkret müddəası ilə bağlı, o dövrdə, onun ərazisində qüvvədə olan bu və ya digər qanunun həmin müddəaya uyğun olmaması ilə əlaqədar qeyd-şərt verə bilər. Bu maddəyə müvafiq olaraq, ümumi xarakterli qeyd-şərtlərə yol verilmir.

2. Bu maddəyə uyğun olaraq edilmiş istənilən qeyd-şərt müvafiq qanunun qısa məzmununu əks etdirməlidir.

**Maddə 58.**

**Denonsasiya**

1. Razılığa gələn Yüksək Tərəf, yalnız bu Konvensiyanın tərəfi olduğu tarixdən 5 il keçdikdən sonra və bu barədə digər Razılığa gələn Yüksək Tərəfləri məlumatlandıracaq Avropa Şurasının Baş Katibinə ünvanlanmış, xəbərdarlığın əks olunduğu, bildirişi göndərdikdən 6 ay sonra bu Konvensiyanı denonsasiya edə bilər.

2. Denonsasiya müvafiq Razılığa gələn Yüksək Tərəfi denonsasiyanın qüvvəyə minəcəyi tarixədək törədə biləcəyi və bu Konvensiya üzrə öhdəliklərini poza biləcək hər hansı əməlinə münasibətdə belə öhdəliklərindən azad etmir.

3. Avropa Şurasının üzvlüyündən çıxan hər hansı Razılığa gələn Yüksək Tərəf eyni şətlərlə bu Konvensiyanın da Tərəfi olmur.

4. Konvensiya 56-cı maddəyə əsasən, onun şamil

olunmasının bəyan edildiyi istənilən əraziyə münasibətdə əvvəlki bəndlərin müddəalarına müvafiq olaraq denonsasiya edilə bilər.

**Maddə 59.**
**İmzalama və ratifikasiya**

1. Bu Konvensiya Avropa Şurası üzvləri tərəfindən imzalanmaq üçün açıqdır. O, ratifikasiya olunmalıdır. Ratifikasiya sənədi Avropa Şurasının Baş Katibinə saxlanmaya verilir.

2. Bu Konvensiya on ratifikasiya sənədi saxlanmaya verildikdən sonra qüvvəyə minir.

3. Sonradan ratifikasiya edən dövlətlər üçün, Konvensiya onların ratifikasiya sənədlərini saxlanmaya verdikləri tarixdən qüvvəyə minir.

4. Avropa Şurasının Baş Katibi Konvensiyanın qüvvəyə minməsi, onu ratifikasiya etmiş Razılığa gələn Yüksək Tərəflərin adları və sonradan qüvvəyə minmiş bütün ratifikasiya sənədlərinin saxlanmaya verilməsi haqqında Avropa Şurasının bütün üzv dövlətlərini xəbərdar edir.

4 noyabr 1950-ci ildə Roma şəhərində, hər iki mətni bərabər autentik olmaqla, ingilis və fransız dillərində, Avropa Şurasının arxivində saxlanacaq bir nüsxədə icra olunmuşdur. Avropa Şurasının Baş Katibi təsdiq olunmuş nüsxələri hər bir imzalayan dövlətə göndərəcəkdir.

## İNSAN HÜQUQLARININ VƏ ƏSAS AZADLIQLARIN MÜDAFİƏSİ HAQQINDA KONVENSİYAYA DAİR

## PROTOKOL

***Paris, 20.III.1952***

*(Protokol (qeyri rəsmi olaraq) 1 saylı Protokol da adlandırılır).*

**Protokolun mətni 1 noyabr 1998-ci ildə qüvvəyə minmiş 11 saylı Protokolun müddəalarına müvafiq olaraq dəyişdirilib.**

Avropa Şurasının üzvü olub, bu Protokolu imzalayan hökumətlər, 4 noyabr 1950-ci ildə Romada imzalanmış İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Konvensiyanın (bundan sonra Konvensiya adlanacaq) I Bölməsinə artıq daxil edilənlərdən başqa bəzi hüquq və azadlıqların kollektiv həyata keçirilməsinin təmin edilməsi yolunda tədbirlər görmək əzmində olaraq, **aşağıdakılar barədə razılığa gəldilər:**

### Maddə 1.
### Mülkiyyətin müdafiəsi

Hər bir fiziki və hüquqi şəxs öz mülkiyyətindən maneəsiz istifadə hüququna malikdir. Heç kəs, cəmiyyətin maraqları naminə, qanunla və beynəlxalq hüququn ümumi prinsipləri ilə nəzərdə tutulmuş şərtlər istisna olmaqla, öz mülkiyyətindən

məhrum edilə bilməz.

Yuxarıdakı müddəalar dövlətin ümumi maraqlara müvafiq olaraq, mülkiyyətdən istifadəyə nəzarəti həyata keçirmək üçün, yaxud vergilərin və ya digər rüsum və ya cərimələrin ödənilməsini təmin etmək üçün zəruri hesab etdiyi qanunları yerinə yetirmək hüququnu məhdudlaşdırmır.

**Maddə 2.**

**Təhsil hüququ**

Heç bir şəxsin təhsil hüququndan imtina edilə bilməz. Dövlət təhsil və tədris sahəsində öz üzərinə götürdüyü funksiyaları yerinə yetirərkən, valideyinlərin öz dini və fəlsəfi baxışlarına müvafiq olan təhsil və tədrisi təmin etmək hüququna hörmət edir.

**Maddə 3.**

**Azad seçki hüququ**

Razılığa gələn yüksək tərəflər, qanunverici hakimiyyət orqanlarını seçərkən xalqın öz iradəsini sərbəst ifadə edə biləcək şəraitdə ağılabatan dövriliklə, gizli səs vermə yolu ilə, azad seçkilər keçirməyi öhdələrinə götürürlər.

**Maddə 4.**

**Ərazilərə tətbiq**

Razılığa gələn hər hansı Yüksək Tərəf imzalanma, yaxud ratifikasiya zamanı və ya sonradan istənilən vaxt Avropa Şurasının Baş Katibinə beynəlxalq əlaqələrinə görə məsuliyyət daşıdığı, bəyanatdə adı çəkilən ərazilərə bu Protokolun müddəalarının şamil ediləcəyi ilə bağlı öhdəliklərinin

çərçivəsini təsdiq edən bəyanat göndərə bilər.

Əvvəlki bəndin müddəalarına müvafiq olaraq bəyanat göndərmş razılığa gələn hər hansı Yüksək Tərəf zaman keçdikcə istənilən əvvəlki bəyanatın şərtlərinin dəyişilməsi və ya hər hansı əraziyə münasibətdə bu Protokolun müddəalarının tətbiqinin dayandırılması haqqında yeni bəyanat göndərə bilər.

Bu maddənin müddəalarına müvafiq olaraq verilmiş bəyanat Konvensiyanın 56-cı maddəsinin 1-ci bəndinə müvafiq olaraq verilmiş bəyanat hesab edilir.

**Maddə 5.**

**Konvensiyaya bağlılıq**

Razılığa gələn Yüksək Tərəflər bu Protokolun 1,2,3, və 4-cü maddələrinin müddəalarını Konvensiyanın əlavə maddələri hesab edirlər və Konvensiyanın bütün müddəaları müvafiq tətbiq olunur.

**Maddə 6.**

**İmzalanma və ratifikasiya**

Bu Protokol Konvensiyanı imzalamış Avropa Şurasının üzvləri tərəfindən imzalanmaq üçün açıqdır; o, Konvensiyanın ratifikasiyası ilə eyni zamanda və ya bundan sonra ratifikasiya olunmalıdır. Protokol on təsdiqnamə saxlanılmağa verildikdən sonra qüvvəyə minir. Sonradan ratifikasiya edən hər bir dövlət üçün, Protokol onların öz təsdiqnamələrini saxlanılmağa verdikləri tarixdən qüvvəyə minir.

Təsdiqnamələr saxlanılmaq üçün Avropa Şurasının Baş Katibinə verilir, o, Protokolu ratifikasiya etmiş dövlətlər

haqqında Avropa Şurasının üzvü olan bütün dövlətləri xəbərdar edir.

*20 mart 1952-ci ildə Paris şəhərində, hər iki mətni eyni qüvvəyə malik olmaqla, ingilis və fransız dillərində, bir nüsxədə imzalanmışdır. Həmin nüsxə Avropa Şurasının arxivində saxlanılır. Baş Katibi təsdiq olunmuş surətləri bu Protokolu imzalamış hər bir hökumətə göndərəcəkdir.*

## İNSAN HÜQUQLARININ VƏ ƏSAS AZADLIQLARIN MÜDAFİƏSİ HAQQINDA KONVENSİYAYA DAİR

## 4 SAYLI PROTOKOL

*Konvesiyaya və ona dair birinci Protokola artıq daxil edilənlərdən başqa, bəzi hüquq və azadlıqların təmin olunması haqqında*

***Strasburq, 16.IX. 1963***

Avropa Şurasının üzvü olub, bu Protokolu imzalayan hökümətlər, 4 noyabr 1950-ci ildə Romada imzalanmış İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Konvensiyanın (sonradan Konvensiya adlanacaq) I bölməsinə və 20 mart 1952-ci ildə Parisdə imzalanmış Konvensiyaya dair Birinci Protokolunun 1,2,3-cü maddələrinə artıq daxil edilənlərdən başqa, bəzi hüquq və azadlıqların kollektiv həyata keçirilməsinin təmin edilməsi yolunda tədbirlər görmək əzmində olaraq, **aşağıdakılar barədə razılığa gəldilər:**

**Maddə 1.**

**Borca görə azadlıqdan məhrum etmənin qadağan olunması**

Heç kəs yalnız hər hansı bir müqavilə öhdəliyini ödəmək iqtidarında olmadığına görə azadlıqdan məhrum edilə bilməz.

**Maddə 2.**

**Hərəkət etmək azadlığı**

1. Qanuni əsaslarla hər hansı dövlətin ərazisində olan hər kəsin həmin ərazidə sərbəst hərəkət etmək və özünə yaşayış yeri seçmək hüququ var.

2. Hər kəs öz ölkəsi də daxil olmaqla hər hansı ölkəni tərk etməkdə azaddır.

3. Bu hüquqların həyata keçirilməsinə milli təhlükəsizlik və ictimai asayiş maraqları naminə, ictimai qaydanı qorumaq üçün, cinayətlərin qarşısını almaq üçün, sağlamlığın və mənəviyyatın qorunması üçün və ya digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olanlardan başqa heç bir məhdudiyyətlər qoyula bilməz.

4. Birinci bənddə təsbit edilmiş hüquqlar müəyyən ərazilərdə qanuna müvafiq olaraq tətbiq ediləndə və demokratik cəmiyyətdə içtimai maraqlarla əsaslandırılmış məhdudiyyətlərə məruz qala bilər.

**Maddə 3.**

**Vətəndaşların məcburi çıxarılmasının qadağan olunması**

1. Heç kəs vətəndaşı olduğu dövlətin ərazisindən fərdi və ya kollektiv tədbirlər yolu ilə çıxarıla bilməz.

2. Heç kəs vətəndaşı olduğu dövlətin ərazisinə daxil olmaq hüququndan məhrum edilə bilməz.

**Maddə 4.**

**Əcnəbilərin kollektiv çıxarılmasının qarşısının alınması**

Əcnəbilərin kollektiv çıxarılması qadağandır.

**Maddə 5.**

**Ərazilərə tətbiq**

1. Razılığa gələn hər hansı Yüksək Tərəf bu Protokolun imzalanması, yaxud ratifikasiyası zamanı və ya sonradan istənilən vaxt Avropa Şurasının Baş Katibinə bu Protokolun müddəalarının beynəlxalq əlaqələrinə görə məsuliyyət daşıdığı, orada adı çəkilən ərzilərə şamil ediləcəyi ilə bağlı öhdəliklərinin çərçivəsini təsdiq edən bəyanat göndərə bilər.

2. Əvvəlki bəndin müddəalarına müvafiq olaraq bəyanat göndərmiş razılığa gələn hərhansı Yüksək Tərəf zaman keçdikcə istənilən əvvəlki bəyanatın şərtlərinin dəyişilməsi və ya hər hansı əraziyə münasibətdə bu Protokolun müddəalarının tətbiqinin dayandırılması haqqında yeni bəyanat göndərə bilər.

3. Bu maddənin müddəalarına müvafiq olaraq verilmiş bəyanat Konvensiyanın 56-cı maddəsinin 1-ci bəndinə müvafiq olaraq verilmiş bəyanat hesab edilir.

4. Bu Protokolun ratifikasiyası və ya hər hansı dövlətin onu qəbul etməsi əsasında onun tətbiq olunduğu hərhansı dövlətin ərazisi və bu maddənin müddəalarına müvafiq olaraq, həmin dövlətin bəyanatı əsasında bu Protokolun tətbiq olunduğu hər bir ərazi, 2 və 3 maddələrdə dövlətin ərazisinə istinad məqsədi ilə ayrı-ayrı ərazilər hesab edilir.

5. Bu maddənin 1-ci və 2-ci bəndlərinə müvafiq olaraq bəyanat vermiş hər hansı dövlət sonradan istənilən vaxt həmin bayanatda göstərilmiş bir və ya bir neçə əraziyə münasibətdə Konvensiyanın 34-cü mddəsində nəzərdə tutulduğu kimi, bu Protokolun 1,2,3,4-cü maddələrinin hamısına və ya hərhansı birinə riayət olunması ilə bağlı Məhkəmənin fiziki şəxslərdən, qeyri-hökumət təşkilatlarından və ya fərdlər qrupundan şikayətlər qəbul etmək səlahiyyətini tanıdığını bəyan edə bilər.

**Maddə 6.**
**Konvensiyaya bağlılıq**

Razılığa gələn Yüksək Tərəflər bu Protokolun 1-5-ci maddələrinin müddalarını Konvensiyanın əlavə maddələri hesab edirlər və Konvensiyanın bütün müddəaları müvafiq olaraq tətbiq olunur.

**Maddə 7.**
**İmzalanma və ratifikasiya**

1. Bu Protokol Konvensiyanı imzalamış Avropa Şurası üzvləri tərəfindən imzalanmaq üçün açıqdır; o, Konvensiyanın ratifikasiyası ilə eyni zamanda və ya bundan sonra ratifikasiya olunmalıdır. Saxlanılmağa Protokol 5 təsdiqnamə verildikdən sonra qüvvəyə minir. Sonradan ratifikasiya edən hər bir dövlət üçün, Protokol onun öz təsdiqnaməsini saxlanılmağa verdikləri tarixdən qüvvəyə minir.

2. Təsdiqnamələr saxlanılmaq üçün Avropa Şurasının Baş Katibinə verilir, o, Protokolu ratifikasiya etmiş dövlətlər haqqında Avropa Şurasının üzvü olan bütün dövlətləri

xəbərdar edir.

Buna təsdiq olaraq, lazimi qaydada vəkil edilmiş aşağıda imza edənlər bu Protokolu imzaladılar.

*16 sentyabr 1963-cü ildə Strasburqda, hər iki mətni eyni qüvvəyə malik olmaqla, ingilis və fransız dillərində, bir nüsxədə imzalanmışdır. Avropa Şurasının Baş Katibi təsdiq olunmuş surətləri hər bir imzalayan dövlətə göndərəcəkdir.*

# İNSAN HÜQUQLARININ VƏ ƏSAS AZADLIQLARIN MÜDAFİƏSİ HAQQINDA KONVENSİYAYA DAİR

## 6 SAYLI PROTOKOL

**Ölüm cəzasının ləğvinə dair**

*Strasburq, 28.IV.1983*

Avropa Şurasının üzvü olub 4 noyabr 1950-ci ildə Romada imzalanmış, İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Konvensiyanın (bundan sonra "Konvensiya" adlanacaq) bu Protokolunu imzalayan dövlətlər, Avropa Şurasının ayrı-ayrı üzv dövlətlərində baş vermiş təkamülün, ölüm cəzasının ləğv olunması xeyrinə ümumi tendensiyanı ifadə etdiyini nəzərə alaraq; **aşağıdakılar barədə razılığa gəldilər.**

**Maddə 1.**
**Ölüm cəzasının ləğvi**

Ölüm cəzası ləğv olunur. Heç kəs ölüm cəzasına məhkum edilə və ya edam oluna bilməz.

**Maddə 2.**
**Müharibə zamanı ölüm cəzası**

Dövlət müharibə dövründə və ya qaçılmaz müharibə

təhdidi zamanı törədilmiş əməllərə görə öz qanunvericiliyində ölüm cəzasını nəzərdə tuta bilər; bu cür cəza yalnız qanunla müəyyən olunmuş hallarda və qanunun müddəalarına müvafiq olaraq tətbiq edilə bilər. Dövlət həmin qanunun müvafiq müddəaları haqqında Avropa Şurasının Baş Katibinə məlumat verir.

**Maddə 3.**

**Öhdəliklərin yerinə yetirilməsindən geri çəkilmənin qadağan olunması**

Konvensiyanın 15-ci maddəsinə əsasən, bu Protokolun müddəalarından geri çəkilmək olmaz.

**Maddə 4.**

**Qeyd-şərtlərin qadağan olunması**

Konvensiyanın 57-ci maddəsinə əsasən, bu Protokolun müddəaları ilə bağlı qeyd-şərt edilə bilməz.

**Maddə 5.**

**Ərazilərə tətbiq**

1.Hər bir dövlət imzalama zamanı və ya öz təsdiqnaməsini etmə və ya bəyənmə haqqında sənədini saxlanılmağa verərkən bu Protokolu tətbiq ediləcəyi ərazini, yaxud əraziləri göstərə bilər.

2. Hər bir dövlət sonradan istənilən vaxt Avropa Şurası Baş Katibinin adına ünvanlanmış bəyanatla, bu Protokolun bəyanatda göstərilən hər hansı digər əraziyə şamil edə bilər. Bu əraziyə münasibətdə Protokol Baş Katibin belə bəyanatı aldığı tarixdən sonrakı ayın birinci günü qüvvəyə minir.

3. Əvvəlki iki bənd əsasında verilmiş və belə bəyanatda göstərilmiş hər hansı əraziyə dair Baş Katibin adına ünvanlanmış istənilən bildiriş vasitəsi ilə geri götürülə bilər. Geri götürülmə Baş Katib tərəfindən belə bildirişin alındığı tarixdən sonrakı ayın birinci günü qüvvəyə minir.

**Maddə 6.**
**Konvensiyaya bağlılıq**

İştirakçı Dövlətlər bu Protokolun 1-5-ci maddələrinin müddəalarını Konvensiyanın əlavə maddələri hesab edirlər və Konvensiyanın bütün müddəaları müvafiq olaraq tətbiq edilir.

**Maddə 7.**
**İmzalanma və ratifikasiya**

Bu Protokol Avropa Şurasının üzvü olub Konvensiyanı imzalamış dövlətlərin imzalanması üçün açıqdır. O, ratifikasiya, qəbul və təsdiq edilməlidir. Avropa Şurasının üzvü olan dövlət Konvensiyanı eyni zamanda və ya əvvəlcədən ratifikasiya etmədən bu Protokolu ratifikasiya, qəbul və ya təsdiq edə bilməz. Ratifikasiya, qəbul və ya təsdiq etmə sənədləri Avropa Şurasının Baş Katibinə saxlanmaya verilir.

**Maddə 8.**
**Qüvvəyə minmə**

1. Bu Protokol Avropa Şurasının üzvü olan 5 dövlətin 7-ci maddənin müddəalarını müvafiq olaraq, Protokol üzrə öhdəlikləri öz üzərinə götürməyə razılıqlarını bildirdikləri

tarixdən sonrakı ayın birinci günü qüvvəyə minir.

2. Protokol üzrə öhdəlikləri sonradan öz üzərinə götürməyə razılığını bildirmiş hər hansı üzv dövlət üçün bu Protokol onun öz təsdiqnaməsini yaxud qəbul və ya bəyənmə haqqında sənədlərini saxlanmaya verildiyi tərixdən sonrakı ayın birinci günü qüvvəyə minir.

**Maddə 9.**

**Depozitarinin funksiyaları**

Avropa Şurasının Baş Katibi Avropa Şurasına üzv dövlətlərin aşağıdakılar barədə xəbrdar edir:

a) hər hansı imzalanma;

b) təsdiqnamənin yaxud qəbul və ya bəyənmə haqqında sənədin saxlanmaya verilməsi;

c) 5-ci və 8-ci maddələrə müvafiq olaraq, bu Protokolun qüvvəyə minmə tarixi;

d) bu Protokola dair digər hərəkət, bildiriş və ya xəbərdarlıq.

Bunun təsdiqi olaraq, lazımı qaydada vəkil edilmiş aşağıda imza edənlər bu Protokolu imzaladılar.

*28 aprel 1983-cü ildə Strasburqda hər iki mətni eyni qüvvəyə malik olmaqla, ingilis və fransız dillərində bir nüsxədə imzalanmışdır; həmin nüsxə Avropa Şurasının arxivində saxlanılır. Avropa Şurasının Baş Katibi təsdiq olunmuş surətləri Avropa Şurasının üzvü olan hər bir dövlətə göndərəcəkdir.*

# İNSAN HÜQUQLARININ VƏ ƏSAS AZADLIQLARIN MÜDAFİƏSİ HAQQINDA KONVENSİYAYA DAİR

## 7 SAYLI PROTOKOL

*Strasburq, 22. XI. 1984*

Avropa Şurasının üzvü olub bu protokolu imzalayan dövlətlər, 4 noyabr 1950-ci ildə Romada imzalanmiş İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi Haqqında Konvensiyanın (sonradan Konvensiya adlanacaq) tətbiqi vasitəsilə bəzi hüquq və azadlıqların kollektiv həyata keçirilməsinin təmin edilməsi yolunda gələcək addımlar atmaq əzmində olaraq, **aşağıdakılar barədə razılığa gəldilər:**

**Maddə 1.**
**Əcnəbilərin çıxarılmasına dair prosedur təminatlar**

1. Qanuni əsaslarla dövlətin ərazisində yaşayan əcnəbi, qanuna müvafiq qəbul edilmiş qərarların icrası istisna olmaqla, oradan çıxarıla bilməzlər və onun aşağıdakı imkanları olmalıdır:

a) özünün çıxarılmasına qarşı arqumentlər təqdim etmək;

b) öz işinə yenidən baxımasını tələb etmək və;

c) bu məqsədlərə görə səlahiyyətli orqan qarşısında və ya

belə orqanların təyin etdiyi şəxs, yaxud şəxslər qarşısında təmsil olunmaq.

2. Çıxarılma ictimai qaydanın maraqları üçün zəruri olduqda və ya milli təhlükəsizlik mülahizələri ilə şərtləndirildikdə, əcnəbi bu maddənin 1.a, b və c bəndindəki hüquqlarına əməl edilməmişdən əvvəl çıxarıla bilər.

**Maddə 2.**

**Cinayət işlərinə hökmlərdən 2-ci instansiyaya şikayət vermə hüququ**

1. Cinayət törətməyə görə məhkəmə tərəfindən məhkum edilmiş hər kəsin, barəsində çıxarılmış hökmə və ya təyin olunmuş cəzaya yuxarı məhkəmə instansiyasında yenidən baxılması hüququ vardır. Bu hüququn həyata keçirilməsi və onun həyata keçirilə biləcəyi əsaslar qanunla tənzimlənir.

2. Qanunla xırda xətalar hesab olunan hüquqi pozmalarla bağlı və ya müvafiq şəxs artıq birinci intsansiyada yuxarı məhkəmə tərəfindən məhkum edildikdə və ya onun bəraəti ilə bağlı məhkəmə baxışında məhkum edilibsə bu hüquqdan istisnaya yol verilir.

**Maddə 3.**

**Məhkəmə səhvinə görə kompensasiya**

Şəxs cinayət əməli törətməyə görə qəti hökmlə məhkum edildikdə və sonradan onun haqqında çıxarılmış hökm ləğv edildikdə, yaxud o, yeni və ya təzədən ortaya çıxmış halların inandırıcı surətdə məhkəmə səhvinə yol verildiyini sübuta yetirməsi əsasında əfv edilibsə, belə məhkum etmə

nəticəsində cəzaya məruz qalmış şəxs, əvvəllər məlum olmayan faktın vaxtında açılmaması onun tam və ya qismən günahı üzərindən baş verməyibsə, müvafiq dövlətin qanuna və ya mövcud təcrübəsinə uyğun olaraq kompensasiya alır.

**Maddə 4.**
**İki dəfə məhkum edilməmək və ya cəzalandırılmamaq hüququ**

1. Heç kəs hər hansı dövlətin qanunlarına və ya cinayət-prosessual normalarına müvafiq olaraq artıq bəraət aldığı və ya məhkum edildiyi cinayətlərə görə, həmin dövlətin yurisdiksiyası çərçivəsində cinayət qaydasında təkrar məhkum edilə və ya cəzalandırıla bilməz.

2. Bundan əvvəlki bəndin müddəaları, əgər yeni və ya təzədən ortaya çıxmış faktlar barəsində məlumatlar varsa və ya əgər əvvəlki araşdırma zamanı işin nəticəsinə təsir göstərən əsaslı pozuntulara yol verilibsə, müvafiq dövlətin qanunlarına və cinayət-prosessual normalarına uyğun olaraq, işə təkrar baxılmasına mane olmur.

3. Konvensiyanın 15-ci maddəsinin müddəalarına müvafiq olaraq, bu maddənin müddəalarından kənara çıxmağa yol verilmir.

**Maddə 5.**
**Ər- arvadın hüquq bərabərliyi**

Ər-arvad habelə nikaha daxil olmaq, nikahda olmaq və boşanma ilə bağlı məsələlərdə öz aralarında və uşaqları ilə münasibətlərdə bərabər hüquqlara malikdirlər və bərabər

mülki-hüquqi cavabdehlik daşıyırlar. Bu maddə uşaqların maraqlarına riayət ounması üçün zəruri tədbirlər görməkdə dövlətlərə mane olmur.

**Maddə 6.**
**Ərazilərə tətbiq**

1. Hər hansı Dövlət imzalanma zamanı və ya özünün təsdiqnaməsini yaxud qəbul və bəyənmə haqqında sənədini saxlanmaya verərkən bu Protokolun tətbiq ediləcəyi ərazini və yaxud əraziləri və bu Protokolun müddəalarının şamil ediləcəyi belə ərazi və ya ərazilərlə bağlı öhdəliklərinin çərçivəsini göstərə bilər.

2. Hər bir dövlət sonradan istənilən vaxt Avropa Şurası Baş Katibinin adına ünvanlanmış bəyanatla, bu Protokolu bəyanatda göstəilən hər hansı digər əraziyə şamil edə bilər. Bu əraziyə münasbətdə Protokol Baş Katibin belə bəyanatı aldığı tarixdən iki ay gecikdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir.

3. Əvvəlki iki bənd əsasında verilmiş və orada göstərilən hərhansı əraziyə aid olan istənilən bəyanat Avropa Şurası Baş Katibinə ünvanlanmış bildiriş vasitəsilə geri götürülə yaxud dəyişdirilə bilər. Geri götürülmə və ya dəyişiklik Baş Katib tərəfindən belə bildirişin alındığı tarixdən iki ay gecikdikdə gələn ayın birinci günü qüvvəyə minir.

4. Bu maddənin müddəalarına müvafiq olaraq verilmiş bəyanat Konvensiyanın 56-cı maddəsinin birinci bəndinə müvafiq olaraq verilmiş bəyanat hesab edilir.

5. Bu Protokolun hər hansı dövlətin onu ratifikasiya etməsi,

qəbul etməsi və ya bəyənməsi əsasında tətbiq olunduğu həmin dövlətin ərazisi və bu maddənin müddəalarına müvafiq olaraq, həmin dövlətin bəyanatı əsasında bu Protokolun tətbiq olunduğu hər bir ərazi birinci maddədə dövlətin ərazisnə istinad məqsədilə, ayrı-ayrı ərazilər hesab edilə bilər.

6. Bu maddənin birinci və ikinci bəndlərinə müvafiq olaraq bəyanat vermiş hər hansı dövlət sonradan istənilən vaxt həmin bəyanatda göstərilmiş bir və ya bir neçə əraziyə münasibətdə Konvensiyanın 34-cü maddəsində nəzərdə tutulduğu kimi, bu Protokolun 1-5-ci maddələri ilə bağlı Məhkəmənin fiziki şəxslərdən, qeyri-hökumət təşkilatlarından və ya fərdlər qrupundan şikayətlər qəbul etmək səlahiyyətini tanıdığını bəyan edə bilər.

**Maddə 7.**

**Konvensiya ilə müqayisə**

İştirakçı dövlətlər bu Protokolun 1-6-cı maddələrinin müddəalarını Konvensiyanın əlavə maddələri kimi nəzərdən keçirirlər və Konvensiyanın bütün müddəaları müvafiq olaraq tətbiq olunur.

**Maddə 8.**

**İmzalanma və ratifikasiya**

Bu Protokol Konvensiyanı imzalamış Avropa Şurasının üzv dövlətlərinin imzalaması üçün açıqdır. O, ratifikasiya, qəbul və təsdiq edilməlidir. Avropa Şurasının üzv dövlətləri Konvensiyanı əvvəlcədən və ya eyni zamanda ratifikasiya etmədən bu Protokolu ratifikasiya, qəbul və ya təsdiq edə

bilməz. Ratifikasiya, qəbul və ya təsdiq etmə sənədləri Avropa Şurasının Baş Katibinə saxlanmaya verilir.

**Maddə 9.**

**Qüvvəyə minmə**

1. Bu Protokol Avropa Şurasının beş üzv dövləti 8-ci maddənin müddəalarına müvafiq olaraq, Protokolun onlar üçün məcburiliyinə öz razılıqlarını bildirdikləri tarixdən sonrakı iki ay müddət bitəndən sonra gələn ayın birinci günü qüvvəyə minir.

2. Protokolun onun üçün məcburiliyinə sonradan öz razılığını bildirmiş hər hansı üzv dövlət üçün o, ratifikasiya, qəbul və ya təsdiq etmə sənədlərini saxlanmaya verildiyi tarixdən sonrakı iki ay müddət bitəndən sonra gələn ayın birinci günü qüvvəyə minir.

**Maddə 10.**

**Depozitarı funksiyası**

Avropa Şurası Baş Katibi Şuranın üzv Dövlətlərini aşağıdakılar barədə xəbərdar edir:

a) hər hansı imzalama;

b) hər hansı ratifikasiya, qəbul və ya təsdiq etmə sənədinin saxlanmaya verilməsi;

c) 6-cı və ya 9-cu maddələrə müvafiq olaraq, bu Protokolun hər hansı qüvvəyə minməsinin tarixi;

d) bu Protokola dair digər akt, bildiriş və ya bəyanat.

Buna şahidlik edərək, lazımi qaydada səllahiyyətləndiril-

miş aşağıda imza edənlər bu Protokolu imzaladılar.

*28 aprel 1983-cü ildə Strasburq şəhərində, hər iki mətni bərabər autentik olmaqla, ingilis və fransız dillərində, Avropa Şurasının arxivində saxlanacaq bir nüsxədə icra olunmuşdur. Avropa Şurasının Baş Katibi təsdiq olunmuş nüsxələri Avropa Şurasının hər bir üzv dövlətinə göndərəcəkdir*.

# MÜNDƏRİCAT

Ön söz ........................................................................................ 6

Azərbaycan Respublikasının
Konstitusiyasından çıxarış - VII fəsil ................................ 8

«Məhkəmələr və hakimlər haqqında»
Azərbaycan Respublikasının Qanunu .............................. 18

«Məhkəmə-Hüquq Şurası haqqında»
Azərbaycan Respublikasının Qanunu ............................. 107

«Konstitusiya Məhkəməsi haqqında»
Azərbaycan Respublikasının Qanunu ............................ 136

«Ədalət mühakiməsinin rəsmi emblemi
haqqında» Azərbaycan Respublikasının Qanunu ........... 196

Ədalət mühakiməsinin rəsmi embleminin təsviri ............. 197

«Korrupsiyaya qarşı mübarizə haqqında»
Azərbaycan Respublikasının Qanunu ............................ 198

«Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və
hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət
edilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu ... 213

«Məhkəmə və huquq mühafizə orqanları
işçilərinin dövlət müdafiəsi haqqında»
Azərbaycan Respublikasının Qanunu ............................ 220

«Məhkəmə qərarlarının icrası haqqında»
Azərbaycan Respublikasının Qanunu ............................ 235

«Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları
haqqında» Azərbaycan Respublikasının Qanunu ................. 302

«Prokurorluq haqqında»
Azərbaycan Respublikasının Qanunu ............................ 315

«Vəkillər və vəkillik fəaliyyəti haqqında»
Azərbaycan Respublikasının Qanunu ........................... 352

«Dövlət məhkəmə ekspertizası fəaliyyəti
haqqında» Azərbaycan Respublikasının Qanunu ........... 379

«Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə
orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki
şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında»
Azərbaycan Respublikasının Qanunu ............................ 411

«Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının
Qanunundan çıxarış – 1-9-cu maddələr ........................... 423

Azərbaycan Respublikasında məhkəmə
sisteminin müasirləşdirilməsi və «Azərbaycan
Respublikasının bəzi qanunvericilik aktlarına
dəyişikliklər və əlavələr edilməsi haqqında»
Azərbaycan Respublikası Qanununun tətbiq
edilməsi barədə Azərbaycan Respublikası
Prezidentinin Fərmanı .................................................. 436

«Azərbaycan Respublikası məhkəmələri
hakimlərinin sayının artırılması və məhkəmələrin
ərazi yurisdiksiyasının müəyyən edilməsi haqqında»
Azərbaycan Respublikası Prezidentinin Fərmanı ............ 444

Azərbaycan Respublikası apellyasiya instansiyası
məhkəmələrinin, yerli iqtisad məhkəmələrinin və hərbi
məhkəmələrinin ərazi yurisdiksiyası (Azərbaycan
Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli
Fərmanına əlavə) ........................................................... 452

«Ədliyyə orqanlarının inkişafı haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı (əlavələrlə) ............. 468

«Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı .......... 480

«Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 06.02.2009-cu il tarixli Sərəncamı və Dövlət Proqramı .................................................... 483

«Hakimlərə müalicə olunmaq üçün pul təminatının verilməsi Qaydasının təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27.08.2001-ci il tarixli 142 №-li Qərarı ........................... 506

Hakimlərə müalicə olunmaq üçün pul təminatının verilməsi Qaydası .................................. 507

«Müdafiəçilərə, tərcüməçilərə, mütəxəssislərə və ekspertlərə ödənilməli olan məbləğlərin miqdarı haqqında» Nazirlər Kabinetinin Qərarı: №31 ................ 510

Vakant hakim vəzifələrinə hakim olmayan namizədlərin seçilməsi qaydaları .................................... 513

Hakimlərin Etik Davranış Kodeksi ................................ 529

İnsan Hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası və Protokolları ............ 536

**Hakimin Stolüstü Kitabı**

İSBN 9952-8086-4-X

**Redaktor:**
**Əli Hüseynov**
Azərbaycan Hüquqşünasları Konfederasiyasının sədri,
Millət vəkili, Məhkəmə-Hüquq Şurasının üzvü

**Tərtibatçı:**
**Cavid Hüseynov**
Azərbaycan Hüquqşünasları
Konfederasiyasının İdarə heyətinin üzvü,
Məhkəmə-Hüquq Şurası Aparatının rəhbəri

**Nəşrə məsul şəxs:**
**Nadir Adilov**
Azərbaycan Hüquqşünasları Konfederasiyasının
baş katibi

**Dizayn:**
**Əli Fərzəliyev**

Yığılmağa verilmişdir: 30.06.2009
Çapa imzalanmışdır: 30.08.2009
Formatı: 60x84 1/16. Həcmi: 37,06 çap vərəqi.
Ofset üsulu ilə NAT-CO MMC
tərəfindən çap olunmuşdur.
Tiraj: 1000